

# AZƏRBAYCANDA XRİSTİANLIQ

## keçmişdən bu günə

ANAR ƏLİZADƏ

**ANAR ƏLİZADƏ**

# AZƏRBAYCANDA XRİSTİANLIQ

## KEÇMİŞDƏN BU GÜNƏ

**Azərbaycanda fəaliyyət göstərən qeyri-islami dinlər və təriqətlər**

**«Elm və təhsil»**

**BAKI - 2016**

**Dini icmalara maliyyə yardımının göstərilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən çap edilmişdir.**

**Redaktor:** Nahid Məmmədov

**Dizayner:** Raman Dadaşov

Kitabın üz qabığında Kiş məbədi, eləcə də Müqəddəs Yelisey ikonası təsvir olunub.

**Azərbaycanda Xristianlıq: keçmişdən bu günə.** Əlizadə A. – Bakı: «Elm və təhsil», 2016. — 378 s.

**ISBN 978-9952-8305-4-5**

Oxucuların diqqətinə təqdim olunan bu kitabda xristian konfessiya və cərəyanların tarixindən bəhs olunur, Azərbaycanda mövcud olan xristian təşkilatların idarəetmə strukturu, inanc əsasları, sayları, etnik və yaş tərkibi, məsihçilərin ölkəmizdə humanitar fəaliyyəti və mətbu orqanları barədə ətraflı məlumat verilir. Kitab ərsəyə gətirilərkən Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi, Azərbaycan SSR Nazirlər Soveti yanında Dini İşlər üzrə Şuranın müvəkkili və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dini İşlər İdarəsinin arxiv materiallarından istifadə olunmuş, Gədəbəy rayonunun Slavyanka kəndində yaşayan duxoborlardan müsahibə götürülmüşdür.

Xristianların Azərbaycandakı zəngin tarixi irsi və ənənələrini işıq üzünə çıxarmaq, məsihçilərin ölkəmizdəki rəngarəng həyatları ilə oxucuları tanış etmək kitabın əsas məqsədilərindən biridir. Xüsusən kitab dini istiqamətdə fəaliyyət göstərən hökümət və qeyri-hökümət təşkilatların mütəxəssisləri, eləcə də ölkəmizdəki Xristianlığı tədqiq edən dinşünaslar, tarixçilər, sosioloqlar, KİV-nin nümayəndələri üçün böyük maraq kəsb edə bilər.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

İrad və təkliflər üçün anarzade78@gmail.com ünvanına yazmağınız xahiş olunur.

ISBN 978-9952-8305-4-5

© DQİDK. 2016

© Əlizadə A.Y. 2016

# MÜNDƏRİCAT

MÜƏLLİFDƏN....................................................................................10
GİRİŞ..................................................................................................14
Azərbaycanda Xristianlığın sxematik təsviri...............................................17

## I FƏSİL
## QƏDİM ŞƏRQ KİLSƏSİ

ALBAN HƏVARİ AVTOKEFAL KİLSƏSİ................................................24
Qədim Apostol Kilsəsi: keçmişdən bu günə...............................................24
Alban Kilsəsinin dirçəlişi...........................................................................43

## II FƏSİL
## PRAVOSLAVLIQ

PRAVOSLAVLIQ: ÜMUMİ MƏLUMAT...................................................47
RUS PRAVOSLAV KİLSƏSİ: KEÇMİŞDƏ VƏ BU GÜN..........................53
İlk pravoslav ruslar......................................................................................53
İlk rus kilsəsi................................................................................................57
Hakim kilsənin qələbəsi: arxiv sənədlərin izi ilə.......................................57
“Qızıllı”kilsə................................................................................................63
İlk Baş kilsə.................................................................................................67
Müxtəlif təyinatlı kilsələr.............................................................................69
Təhkim olunmuş kilsələr.............................................................................70
*“Kazanlı Müqəddəs Məryəm Ana” ikonasının kilsəsi*................................70
*“Müqəddəs Jen-Mironosits” kilsəsi*...........................................................71
*“Müqəddəs Məryəm Ananın Mövludu” kilsəsi*..........................................72
*“Müqəddəs Arxangel Mixail” rus pravoslav məbədi*..................................72
Prixod kilsələri .............................................................................................73
*“Spas-Preobrajen”kilsəsi*...........................................................................73
*“Mübarək Misirli Makari” kilsəsi*..............................................................74
Hərbi kilsələr ...............................................................................................75
*“BayılLiman” kilsəsi*..................................................................................75
*“Donanma” kilsəsi*.....................................................................................76
*Bakı Sərhəd Qarovulu briqadasının*
*“AleksandrNevski” kilsəsi*.........................................................................76
*206-cı Salyan piyada polkunun*
*“Müqəddəs Mixail Arxistratiq” kilsəsi (indiki*
*“Müqəddəs Jen Mironosits” Baş kafedral kilsəsi)*.......................................77

Dəmiryolu və hərbi dəmiryolu kilsələri
*"Spas-Preobrajen" dəmiryolu kilsəsi*....................................................77
*Biləcəridəki "Müqəddəs Həvvari Varfolomey" kilsəsi*...............................79
Ev kilsələri ........................................................................... 80
*"Müqəddəs Nina" qız tədris müəssisəsində kilsə*.......................................80
*Bakı Texniki Məktəbin nəzdində*
*"Müqəddəs Aleksandr Nevski" ev kilsəsi*....................................................81
*Bakı həbsxana qalasında kilsə*....................................................................82
Başqa bölgələrdə kilsələr..............................................................83
Başqa təsisatlar..........................................................................87
*"Qafqazda pravoslav xristianlığının bərpası cəmiyyəti"*............................87
*Pravoslav xeyriyyə cəmiyyət və qardaşlıqları Kilsə-prixod məktəbləri*.....87
Cümhuriyyət dövrü və Sovet hakimiyyəti illəri..............................88
Yeni inkişaf mərhələsi..................................................................90

BAKI VƏ AZƏRBAYCAN YEPARXİYASI...........................................95
Qısa tarixçəsi..............................................................................95
Azərbaycanda rus kilsəsinə rəhbərlik etmiş arxiyereylər................98
Təşkilati strukturu.......................................................................99
Yeparxiyanın nəzdindəki kilsələr..................................................99
*"Müqəddəs Jen-Mironosets" rus pravoslav kafedral kilsəsi*.......................99
*"Müqəddəs Məryəm Ananın Mövludu" rus pravoslav kilsəsi*..................100
*"Mixail Arxangel" rus pravoslav kilsəsi*.................................................102
*Gəncə şəhərindəki "Aleksandr Nevski" Baş kilsəsi*...................................102
*Xaçmaz şəhərindəki "Müqəddəs möcüzə göstərən Nikolay" kilsəsi*...........103
*Sumqayıt şəhərində "Müqəddəs Serafim Sarovski" dua evi*....................103
*"Böyük knyaz Aleksandr Nevski" çasovnyası*...........................................103
Humanitar fəaliyyət....................................................................103
Dini təhsil..................................................................................104
Mətbu orqan...............................................................................104
Say və milli tərkibi.......................................................................104
Maliyyə mənbəyi..........................................................................105
Ziyarətgah...................................................................................105

RUS PRAVOSLAV STAROOBRYADETS KİLSƏSİ.............................106
GÜRCÜ PRAVOSLAV KİLSƏSİ.......................................................108
Qısa məlumat...............................................................................108

Təşkilati strukturu........................................................................108
Azərbaycanda gürcü pravoslavlığı................................................108
*"Müqəddəs Georgi" gürcü-pravoslav kilsəsi*............................................109
*"Müqəddəs Nino" gürcü-pravoslav kilsəsi*................................................110
*"Müqəddəs Sameba" gürcü-pravoslav kilsəsi*...........................................111
*"Müqəddəs Mixeyil" gürcü-pravoslav kilsəsi*............................................111
Statistika..........................................................................................106
Maliyyə mənbəyi...................................................................................112

## III FƏSİL
## KATOLİKLİK

ƏN BÖYÜK XRİSTİAN KONFESSİYASI.............................................114
İNANC ƏSASI...........................................................................................125
KATOLİSİZM AZƏRBAYCANDA...........................................................127
Elxanilər dövləti dövrü.................................................................127
Səfəvilər dövləti dövrü.................................................................131
Çar Rusiyası dövrü.......................................................................134
*Polyak əsirləri və əsgərləri*..........................................................................134
*Ən böyük katolik icması*................................................................................137
*Katolik icmasının məhvi*...............................................................................141
*Müasir Azərbaycan dövrü*.............................................................................143

ROMA KATOLİK KİLSƏSİNİN AZƏRBAYCANDAKI
APOSTOL PREFEKTURASI..................................................................150
Təşkilati strukturu........................................................................150
İbadət yerləri...................................................................................150
*"Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kilsəsi*.........................150
*"Şəfaətçi İsa Məsih" kiçik katolik kilsəsi*.................................................152
*Kimsəsizlər üçün Sığınacaq Evində kiçik katolik kilsə*..............................152
Diplomatik nümayəndəlik...........................................................152
Xeyriyyə təşkilatları......................................................................153
*"Caritas Azerbaijan" Beynəlxalq Xeyriyyə təşkilatı*..................................153
*"Məryəm" Xeyriyyə Tədris Mərkəzi*..........................................................153
*Kimsəsizlər üçün Şəfqət Evi*......................................................................153
*"Ailələrə sosial yardım" ("PAD")*.............................................................154
Rahiblik institutu ......................................................................... 154
*"Don Bosko salezianları" ordeni (SDB)*....................................................154

*“Xristianlara Yardım göstərən Müqəddəs Məryəmin Qızları”*...................155
*“Mərhəmət Missionerləri” ordeni*.............................................................155
Say və milli tərkibi...................................................................156
Maliyyə mənbəyi.....................................................................157
İbadət şəkilləri........................................................................157
Konfessiyalararası münasibət....................................................157
Mətbu orqanı...........................................................................158

MARJİNAL KATOLİSİZM.............................................................159
“Yeni Apostol Kilsəsi - Apostolların Beynəlxalq Birliyi”..........................159
Qısa tarixi...............................................................................159
“Yeni Apostol Kilsəsi” Azərbaycanda...........................................160
Təşkilati strukturu....................................................................161
İnanc əsasları..........................................................................162
Dini ayinlər..............................................................................163
Mətbu orqanı...........................................................................163
Humanitar fəaliyyət.................................................................163
Maliyyə mənbəyi.....................................................................164
İctimai mövqeyi.......................................................................164
Dini təhsil...............................................................................165
Say.........................................................................................165

## IV FƏSİL
## RUHANİ XRİSTİANLIQ

DUXOBORLAR.............................................................................167
Slavyanka...............................................................................167
Qısa tarixi və inanc əsasları.......................................................170

MOLOKANLIQ...........................................................................178
Yaranması və sözün etimologiyası...............................................178
İnanc əsasları..........................................................................179
Molokanlıq Azərbaycanda..........................................................181
Azərbaycanda yaranan və ya yayılan molokan təriqətləri.............185
*Nazareylər (Nəsranilər)*..............................................................185
*İsa Məsihin Lənkəranda zühur edəcəyinə inananlar*.......................186
*“Sionçular” və ya “Prıqunlar”*.....................................................187
*“Maksimistlər”*...........................................................................190

*"Vodniye molokane"*......................................................................194
Çar Rusiyası dövründə molokanların sosial-iqtisadi həyatı..........195
Sovet hakimiyyəti illərində molokan icmaları............................196
Müasir vəziyyət..........................................................................197

**V FƏSİL**
**PROTESTANTLIQ**

ÜMUMİ MƏLUMAT.......................................................................202
Quinque sola..............................................................................203
Azərbaycanda protestantlıq: sxematik təsvir.................................206

LÜTERANLIQ: İLK PROTESTANT CƏRƏYAN..................................210
Əsl alman məzhəbi......................................................................210
Alman məskənləri........................................................................211
Vürtemberq separatçıları kim olub?..............................................212
Müqəddəs torpaqlara doğru..........................................................216
Qürbətdə vətən............................................................................217
Ruhani idarə və Bazel missionerləri..............................................220
Lüteran kilsələri...........................................................................228
Bakıda Alman-İsveç prixodu..........................................................229
Lüteran icmasının məhvi..............................................................233

LÜTERANLAR BU GÜN
İcmanın dirçəlişi....... ..................................................................238
Təşkilati strukturu........................................................................240
Başqa konfessiyalarla münasibət..................................................241
Maliyyə mənbəyi.........................................................................241
Say.............................................................................................242

BAPTİZM: ÜMUMİ MƏLUMAT..........................................................243
ŞƏRQ BAPTİZMİ................................................................................246
Şamaxı və Lənkəran - rus baptizminin yaranma mərkəzi kimi.......246
İlk missionerlər.............................................................................247
Təqib illəri....................................................................................250
Ağır sürgün həyatı.........................................................................253
Qərbli missionerlər.........................................................................254
1905-ci il – təqiblərin sonu............................................................255

Bakıdakı baptist icmasının tarixindən....256
Fevral inqilabından sonra....260
Nifaq: loyallar və "təşəbbüskarlar"....262
Müasir dövr: icmalar, say, etnik və yaş tərkibi....264
*Loyal baptistlər*....265
*"Ayrılmış" baptistlər*....267
Şərq baptizmi: özünəməxsus cəhətlər....267

YEDDİNCİ GÜNÜN ADVENTİSTLƏRİ....270
Qısa tarixi....270
Azərbaycanda adventizm....274
İnanc əsasları....281
Say və etnik tərkibi....282
Kilsənin strukturu....282
Humanitar təşkilat....283
Maliyyə mənbəyi....283
İctimai mövqeyi və dini təhsil....283

ƏLLİNCİLİK VƏ XARİZMAT HƏRƏKAT....284
Qısa tarixi....285
Dini təlimləri....290
İbadət şəkilləri....291
Müasir vəziyyət....291
Əllincilik Azərbaycanda....292
*Vəhdətçi əllincilər*....292
*Yevangelik İmanlı Xristianlar*....293
Günümüzdə əllinci və xarizmatların dini icmaları....297

PRESVİTERİANLIQ....305
Yaranma tarixi....305
İnanc əsasları və kilsə idarə forması....305
Presviterianlıq Azərbaycanda....306

DENOMİNASİYASIZ XRİSTİANLIQ....309
"Həyatverici Lütf" dini icması....309
Baku İnternational Fellowship....312
(BİF - "Bakı Beynəlxalq Qardaşlığı")

**VI FƏSİL**
**ANTİTRİNİTAR XRİSTİANLIQ**

"YEHOVANIN ŞAHİDLƏRİ" ....................314
Qısa tarixi....................314
"Yehovanın Şahidləri" Azərbaycanda....................316
Təşkilati strukturu....................317
Missionerlik metodu və dini təhsil....................320
İnanc əsasları....................322
Dünyəvi hakimiyyətə münasibət....................324
Dini qadağalar....................325
Humanitar fəaliyyət və BET-EL....................326
Say....................326
Milli və yaş tərkibi....................327
Yayılma arealı....................327
Təhsil müəssisələri....................327
Maliyyə mənbəyi....................327
Mətbu orqanları
*"Müqəddəs Yazıların Yeni Dünya tərcüməsi"*....................328
Dini bayramlar....................329

**SON**....................330
**XRONOLOGİYA**....................337
**ƏLAVƏ**....................350
**ƏDƏBİYYAT SİYAHISI**....................367

# MÜƏLLİFDƏN

Azərbaycanda yaşayan xristianların zəngin dini həyatı, maraqlı və ziddiyyətli tarixləri, fərqli dini qrup və icmaların, xristian dini qurumların strukturları haqda ətraflı məlumat vermək bu kitabın əsas amalıdır. Kitabın başqa məqsədi xristian təşkilatlarının timsalında ölkəmizdə tarixən mövcud olan zəngin dini ənənələri tanıtmaq, eləcə də Azərbaycan əhalisinin mütləq əksəriyyətinin İslam dininin daşıyıcısı olmasına baxmayaraq, bütün dinlərin mənsublarının dövlət qayğısı ilə əhatə olunduğu bir daha nümayiş etdirməkdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə hər il dövlət büdcəsindən müsəlman və qeyri-müsəlman dini icmalarına, o cümlədən xristian dini qurumlarına əhəmiyyətli dərəcədə maliyyə yardımı ayrılır, onların ibadət evlərinin təmir və bərpa edilməsi istiqamətində işlər görülür.

Əminliklə demək olar ki, bu kitab respublikamızda öz sahəsində ərsəyə gətirilən ilk nəşrdir. Düzdür, bəzi nəşrlərdə Azərbaycandakı xristian təşkilatları barədə qısa da olsa, məlumatlar tapmaq mümkündür. Onlar arasında "Dünyada Azərbaycan və azərbaycanlılar" kultoroloji jurnalının 1-ci sayı xüsusən diqqəti cəlb edir. Lakin istər həmin jurnalda, istərsə başqa nəşrlərdə məlumatlar yetərli və sistematik deyil. Həmin mənbələrdən dolğun məlumat əldə etmək qeyri-mümkündür. Halbuki ərsəyə gələn bu kitabda demək olar ki, bütün xristian konfessiyaların, cərəyanların və dini icmaların keçmişi, müasir vəziyyəti barədə təfsilatlı məlumatlar verilmişdir. Bu anlamda "Azərbaycanda fəaliyyət göstərən qeyri-islami dinlər və təriqətlər" seriyasının ilk kitabı "Azərbaycanda Xristianlıq: keçmişdən bu günə" əsəri ölkəmiz üçün yeni bir təşəbbüsdür.

Əslində, kitab hazırlanarkən çətin hədəflər qarşıya qoyulmuşdu. Belə demək mümkünsə, əhatə olunmayanı əhatə etməyə çalışmışıq. Çünki Azərbaycandakı xristian qrupların az qala hamısı ilə bağlı hərtərəfli məlumat vermək böyük əmək tələb edir. Adətən belə əsərlər kollektiv əməyin məhsulu olur. Amma bu kitab fərdi əməyin nəticəsidir deyə, nöqsan və boşluqların daha çox olması təbiidir.

Sual yarana bilər ki, xristian təşkilatları ilə bağlı belə kitabın çapına zərurət varmı? Şübhəsiz ki, var. Təkcə onu qeyd etmək kifayətdir ki, başqa

ölkələrdə müxtəlif dövlət qurumları, elmi-analitik tədqiqat mərkəzləri tərəfindən bu qəbildən olan xeyli kitab buraxılıb. Bu isə toxunulan mövzunun əhəmiyyətini göstərir. Məsələn, Beylor Universitetinin Din, Siyasət və Cəmiyyətin öyrənilməsi üzrə Keston İnstitutu (ABŞ) tərəfindən bir qrup rus və ingilis aliminin iştirakı ilə Rusiya Federasiyasındakı dini təşkilatlar haqqında bəhs edən fundamental tədqiqat əsəri - "Rusiyanın müasir dini həyatı. Sistematik təsvirin təcrübəsi" adlı dördcildli kitab hazırlanmışdır.

Hesab edirik ki, bu məlumat kitabı dini sahə ilə məşğul olan aidiyyəti hökumət və qeyri-hökumət təşkilatları, xüsusən KİV nümayəndələri üçün faydalı və lazımlıdır. Bəzən jurnalistlər sensasiya və reytinq yaratmaq üçün xristian təşkilatları barədə qərəzli məlumatlar yayırlar. Bəzən isə elə yalnış informasiyalar əhaliyə çatdırılır ki, məsələdən azdan-çoxdan agah olan kəs bu xəbərlərlə tanış olarkən jurnalistin biliksizliyinə təəccüblənir: dini cərəyanların adları təhrif olunur, bütün xristian təşkilatları əqidə baxımından eyni kəsəyə qoyulur, yaxud bir xristian təriqəti ilə o birisi səhv salınır. Adi bir misal verək. Televiziya kanallarının birində "Yehovanın şahidləri" dini icması haqda süjet gedərkən "Həyat Sözü" dini icmasının ibadəti göstərilmişdir. Halbuki hər iki dini icma arasında etiqadi baxımından kifayət qədər fərq var. Bu kimi örnəkləri çox gətirmək olar. Xristian təşkilatları haqda səhv informasiyalar getməsin deyə, jurnalistlər bu məlumat kitabından faydalana bilərlər.

Habelə kitab Azərbaycanda Xristianlığın tarixi ilə maraqlanan, bu sahədə tədqiqat işi aparanlar üçün də maraq kəsb edə bilər. Bu analitik-məlumat əsərində ilk baptist missionerlərin xatirələri əsasında baptizmin Azərbaycanda təşəkkül tapma dövrünə işıq salınmış, arxiv materiallarına istinad edilərək köhnə Bakıda pravoslav və katoliklərin dini həyatından, Sovet hakimiyyəti dövründə adventist icmaların fəaliyyətindən bəhs olunmuş, əllinciliyin ölkəmizdə necə və kimlər tərəfindən yaradıldığına nəzər salınmış, ölkəmizdə meydana gələn molokan təriqətlərdən danışılmış, Gədəbəy rayonunun Slavyanka kəndində yaşayan duxoborların keçmişinə toxunulmuşdur.

Xristian təşkilatların Azərbaycandakı tarixi ilə bağlı materiallar toplanarkən bir məqam diqqəti cəlb etmişdir. Belə ki, Alban Həvari Kilsəsi, Rus Pravoslav Kilsəsi, alman lüteranları və molokanların ölkəmizdəki tarixləri

alimlərimiz tərəfindən az və ya çox araşdırıldığı halda, nədənsə katolisizmin Azərbaycandakı inkişaf tarixinə az diqqət yetirilib. Halbuki bu xristian qolu ölkəmizdə qədim tarixə malikdir, çünki ilk katoliklər Azərbaycana Elxanilər dövləti dövründə gəliblər. XIX əsrdən Azərbaycanda yayılan baptizm, adventizm kimi protestant cərəyanların tarixi isə ümumiyyətlə tədqiq olunmayıb. Həmin cərəyanların isə olduqca maraqlı keçmişləri var. Məsələn, çox az adam bilir ki, rus baptizminin əsas təşəkkül tapma areallarından biri Azərbaycan olub. Və yaxud Rusiya, Ukrayna baptistlərinin əsas mətbu orqanı - "Baptist" jurnalı bir vaxtlar Bakı şəhərində buraxılıb. Onu da deyək ki, ölkəmizdə baptizmin yaranma və yayılma tarixinə işıq salan kifayət qədər elmi mənbə və ilkin qaynaq var. Sadəcə onları tədqiq etmək lazımdır ki, bu kitabda ona ilk dəfə cəhd göstərilmişdir.

Əslində, respublikamızda mövcud olan xristian konfessiya və cərəyanların tarixini araşdırmaq özü-özlüyündə əhəmiyyətli və maraqlı işdir, çünki Xristian dini İslamdan əvvəlki dövrlərdə bu torpaqlarda hakim mövqedə dayanıb. Bu dinin ölkəmizdəki tarixi İsa Məsihin həvariləri dövrünədək gedib çıxır. Azərbaycan qədim Şərq kilsəsinin – Alban Avtokefal Həvvari Kilsəsinin vətənidir. Günümüzədək gəlib çıxmış qədim alban məbədləri də Azərbaycanda Xristianlığın necə qədim ənənələrə malik olduğunu bariz şəkildə göstərir.

Habelə Xristianlıq Azərbaycanda mənsublarının sayına görə İslamdan sonra ikinci yerdə gəlir. Bu dünya dininin ölkəmizdəki mənzərəsi olduqca rəngarəng və zəngindir. Respublikamızda Alban-Udi dini icmalarının mənsubları, eləcə də pravoslavlar, katoliklər, müxtəlif protestant istiqamətlərin nümayəndələri, yeni xristian dini cərəyanların ardıcılları yaşayırlar. Təbii ki, Azərbaycanın dini həyatında cərəyan edən prosesləri doğru, dürüst anlamaq üçün İslam təmayüllü dini cərəyan və təşkilatlarla yanaşı, xristian təşkilatları və qrupların da fəaliyyətini təhlil etmək lazımdır.

Əlbəttə, istənilən din və dini cərəyanın mənsublarından yazmaq böyük həssaslıq və anlayış tələb edir. Necə deyərlər, "din - incə materiyadır". Dinlərin, məzhəblərin tarix və inanclarından bəhs edərkən istər-istəməz kimlərinsə maraqlarına toxunursan. Axı dini sahədə ideya müxtəlifliyi və inanc fərqləri daha kəskin özünü büruzə verir. Və belə məsələlərdə obyektivliyi qorumaq çətindir. Ola bilər ki, kitabda əks olunan müəyyən fikir və faktlar

da hər hansı dini istiqamətin mənsublarının xoşuna gəlməsin. Ehtimal ki, bir sıra məqamlar subyektiv səciyyə daşısın. Nəticədə bu kitab insan əməyinin məhsuludur. İnanırıq ki, oxucu görülən işin miqyasını və qarşıya çıxan çətinlikləri nəzərə alacaq, kitabdakı nöqsanları üzrlü sayacaqdır. Lakin onu da vurğulayaq ki, kitab üzərində iş gedərkən neytrallıq prinsipinə riayət olunmağa çalışılmışdır. Yəni xristian təşkilatlarının fəaliyyətinə hər hansı dini-siyasi ideologiyanın prizmasından yanaşılmamışdır.

Hər bir tədqiqat əsərinin ərsəyə gəlməsi yalnız daha öncəki nəsillərin fədakar əməyi sayəsində mümkündür. Əlinizdə tutduğunuz kitabın yazılması da bir növü mayak rolunu oynayan sələflərin elmi irsinə borcludur. Bu kitabın yazılmasına da bəzi əsərlər xüsusən böyük təsir göstərib. Onların müəlliflərini qeyd etmək yerinə düşərdi. XIX-XX əsrlərdə Bakıda yaşamış, Azərbaycanda pravoslavlıq və rus sektantlığın yayılması ilə bağlı dəyərli tarixi məlumatlar verən rus pravoslav keşişi Aleksandr Yunitskinin, rus təriqətçiliyin səlnaməsini yazan Bonç-Bruyeviçin, ruhani xristianlıq və rus protestantlığı sahəsində dərin araşdırmalara imza atan məşhur dinşünas Aleksandr Klibanovun, Bakıdakı qədim məbədlərin tarixinə işıq salan Ənvər Paşazadənin fundamental tədqiqatları, habelə köhnə Bakını ustalıqla təsvir edən Qılman İlkinin publisistik əsəri, T.Hümbətovanın ölkəmizdə yaşayan almanların dini həyatına dair araşdırmaları “Azərbaycanda Xristianlıq: keçmişdən bu günə” kitabının yazılmasına ilham vermişdir.

Ümid edirəm ki, kitab respublikamızda yaşayan xristianların dini həyatlarının işıqlandırılması baxımından və yeni tədqiqatların aparılmasında öz töhfəsini verəcəkdir.

**Anar Əlizadə,**
*Dinşünas.*

# GİRİŞ

Xristianlıq yer üzündə ardıcıllarının sayına görə ilk yer tutur. "Pew Research Center" tərəfindən verilən məlumata görə, 2010-cu ildə dünya əhalisinin 32 faizini xristianlar (Azərbaycan dilində onlara məsihçilər, xaçpərəstlər də deyilir) təşkil etmişdir[1]. Hazırda onların sayı 2,2 milyarddan çoxdur[2].

Bu monoteist din dünya sivilizasiyasının inkişafına, tarixin gedişatına, xüsusən Qərb mədəniyyətinin formalaşmasına böyük təsir göstərmişdir. Onun yaranması b.e. I əsrinə təsadüf edir. Fələstində meydana gələn bu dinin banisi İsus Xristos (İsa Məsih) sayılır. Xristos yunanca "məsh edilmiş" deməkdir. "Xristianlıq" sözünün özü də "xristos" kəliməsindən törəmişdir.

Tanrının üç sifətdən ibarət olması (Ata, Oğul və Müqəddəs Ruh), İsa Məsihin Allahın oğlu olması, bəşəriyyətin xilası üçün göndərilməsi, xaça çəkildikdən sonra dirilməsi və qeybə çəkilməsi haqqında dini təlim Xristianlığın əsasını təşkil edir. Məsihçilər inanırlar ki, Həzrət İsa Allahın oğludur. O, axırzamanda ikinci dəfə ilahi xilaskar kimi zühur edəcək, şər qüvvələr üzərində qəti qələbə qazanacaq[3] və Minillik İlahi Padşahlıq quracaqdır. Bu padşahlıqda isə Tanrının sevimli bəndələri yaşayacaqlar.

Xristianlığın müqəddəs kitabı Əhdi-Ətiq və Əhdi-Cədiddən ibarət olan Bibliyadır. Lakin Əhdi-Cədid daha əhəmiyyətli yer tutur. Əhdi-Cədidin özü isə dörd İncil (yunan dilində "Evanqelion"– "xoş xəbər", "müjdə"), Həvarilərin məktubları və Yəhyaya nazil olan Vəhy kitabından ibarətdir. Bu dörd kanonik, yəni kilsə tərəfindən tanınmış İncillərin müəllifləri İsa Məsihin şagirdləri - Matta, Mark, Luka və Yəhya hesab olunur. Bundan

1 - "Pew Research Center" tədqiqat xidmətinin rəsmi saytı: http://www.pewforum.org/2011/12/19/global-christianity-exec/ (müraciət tarixi: 13.08.2016).

2 - http://internetsobor.org/tserkov-i-mir/tserkov-i-mir/statistika-v-mire-2-2-milliarda-khristian-polovina-iz-nikh-katoliki (müraciət tarixi: 13.08.2016)

3 - Пособие для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций (разработано сотрудниками ФАДН России, МВД России и Минюста России). - с. 4 [Elektron resurs]. – URL: http://fadn.gov.ru/system/attachments/attaches/000/028/385/original/Пособие_по_религии_ФАДН_России.pdf?1480427867 (müraciət tarixi: 13.08.2016); Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. Ali məktəblər üçün dərslik/ Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994.– s. 203.

başqa, onlarla apokrifik, yəni kilsə tərəfindən tanınmayan İncil mövcuddur[4]. Müqəddəs Kitab xristian dininin əsas qaynağı olsa da, Kilsə Atalarının dini təlimləri, Ümumdünya Kilsə Məclislərinin qərarları da məsihçilərin etiqadi prinsiplərinin formalaşmasına böyük təsir göstərib. Əsas yeddi Ümumdünya Kilsə Məclisi aşağıdakıdır:

325-ci il. I Ümumdünya (I Nikeya) Kilsə Məclisi. Roma imperatoru I Konstantin tərəfindən Nikeya şəhərində çağırılmışdır. Bu məclisdə Xristianlığın inanc əsasları (imanın simvolu) formalaşmışdır.

381-ci il. II Ümumdünya (I Konstantinopol) Kilsə Məclisi. Trinitar ("Üç Uqnum", "Müqəddəs Üçlük") inancın formalaşması başa çatdırılmışdır.

431-ci il. III Ümumdünya (I Efes) Kilsə Məclisi. Məclisə toplaşmış 200 yekiskop nestorianlığı rədd etmiş və belə qənaətə gəlmişlər ki, İsa Məsihin ilahi və bəşəri təbiəti vəhdət halındadır.

451-ci il. IV Ümumdünya (Xalkedon) Kilsə Məclisi. Məclisə yığışan 630 yepiskop monofizitliyi rədd etmişdir.

553-cü il. V Ümumdünya Kilsə (II Konstantinopol) Məclisi. İmperator I Yustian tərəfindən çağırılmışdır. Məclisdə bəzi Suriya yepiskoplarının, eləcə də Origenin dini təlimləri rədd edilmişdir.

680-681-cı illər; 692-ci il. VI Ümumdünya (III Konstantinopol) Kilsə Məclisi. 170 yekiskop İsa Məsihdə həm ilahi, həm də bəşəri iradənin olduğunu iddia etmişdir. Beləliklə, bu kilsə məclisində İsa Məsih haqqında ortodoksal dünyagörüş tam formalaşmışdır.

787-ci il. VII Ümumdünya (II Nikeya) Kilsə Məclisi. İmperatriça İrena (Eirene) tərəfindən ikonalara qarşı çıxanlara cavab vermək üçün çağırılmışdır. Belə ki, bu məclisdə ikonaların mahiyyəti açıqlanmış və onlara qarşı çıxış edənlər kafir elan edilmişdir[5].

Ümumdünya Kilsə Məclislərinin tarixindən gördüyümüz kimi, İsa Məsihin təbiəti ilə bağlı aparılan teoloji mübahisələr nəticəsində xristian dünyasında monofizit, diafizit, arianlıq, nestorianlıq kimi müxtəlif dini təlimlər meydana gəlmişdir.

---

4 - Пособие для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций. - с. 4//Там же.

5 - Ətraflı məlumat üçün bax: Əlizadə A. Xristianlıq: tarix və fəlsəfə (ilk çağlar). Bakı: "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı, 2007. – s. 94-96.

Xristianlığın inanc əsası haqqında ötəri məlumat verdikdən sonra bu dünya dininin ümumi tarixinə qısaca nəzər yetirmək doğru olardı. Belə ki, Fələstində meydana gəldikdən sonra xristian dini qədim Roma imperiyasının ərazisində yayılır. İlk vaxtlar bu təlim yoxsullar tərəfindən qəbul edilirdi və erkən xristianlar amansız təqiblərlə üzləşirdilər. Lakin III əsrdən imperiyanın əyanları, dövlət məmurları, hərbçiləri və varlıları da Xristianlığa meyl etməyə başladılar. Roma imperatoru Konstantinin dövründə xristianların təqibi dayandırıldı və 313-cü ildə Xristianlıq dövlət dininə çevrildi[6].

395-ci ildə Qərbi və Şərqi olmaqla Roma imperiyası iki yerə bölünür. Bu isə vahid xristian kilsəsinin qərb və şərq qollarına parçalanmasına gətirib çıxardı. Vaxt keçdikcə dini ayinləri latınca yerinə yetirən qərbi xristianlar Roma şəhərində oturan yepiskop (Roma Papası) ətrafında, yunan dilində ibadət edən şərqi məsihçilər isə iqamətgahı Konstantinopolda (indiki İstanbul şəhəri) yerləşən Patriarx ətrafında birləşdilər. Əsrlər ötdükcə qərb və şərq xristianları arasında fərq o qədər böyüdü ki, onların yolları birdəfəlik ayrıldı. Bu hadisə 1054-cü ildə baş verdi. Həmin il Roma Papası və Konstantinopol Patriarxı bir-birini lənətlədi, beləliklə Xristianlıq rəsmən iki qola – Roma mərkəzli Katolikliyə və Konstantinopol mərkəzli Pravoslavlığa bölündü[7].

XVI əsrdə Avropada katolisizm əleyhinə yönəlmiş Reformasiya hərəkatı nəticəsində yeni xristian qolu – protestantlıq meydana gəldi. Zaman keçdikcə protestantlığın özü də çoxlu istiqamətlərə və təriqətlərə ayrıldı.

Katoliklik, pravoslavlıq və protestantlıqdan başqa da xristian qolları mövcuddur. Məsələn, yalnız ilk üç Ümumdünya Kilsə Məclisinin qərarlarını tanıyan xristianlar qədim şərq kilsələri qolunu təşkil edirlər. “Yehovanın Şahidləri” kimi Müqəddəs Üçlüyü inkar edən təriqətlər isə antitrinitarizm (latınca “üçlük əleyhinə” deməkdir) cərəyanına daxildirlər.

Xristianlar həm də kilsələrinin idarə formasına görə bir-birindən fərqlənirlər. Belə ki, xristian dünyasında üç müxtəlif kilsə idarə sistemi mövcuddur. Həmin sistemlərin xüsusiyyətləri Şəkil 1-də göstərilmişdir.

6 - Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. – s. 203-205.

7 - Пособие для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций. - с. 4// Там же.

*Şəkil 1. Xristianlıqda kilsə idarə sistemi*

| YEPİSKOPAL | PRESVİTERİAN | KONQREQATSİONALİST |
|---|---|---|
| • Kilsə iyerarxiyası mövcuddur<br>• Ruhani institut yepiskopların iyerarxiyası əsasında qurulub<br>• Ruhanilər kilsə başçısına tabedirlər (Roma Papası, Patriarx və s.)<br>• Kilsə başçısı böyük nüfuza və hakimiyyətə malikdir | • Kilsə iyerarxiyası yoxdur<br>• Kollegial idarə sistemi<br>• Yerli dini icmalar (prixod) vahid təşkilatda (kilsə) birləşirlər<br>• Vahid təşkilat kollegial orqan, ağsaqallar şurası (Presviteriya) tərəfindən idarə olunur<br>• Hər yerli dini icma öz ruhanisini seçir<br>• İcma tərəfindən seçilən ruhanilər isə Presviteriya tərəfindən təsdiqlənir | • Hər yerli dini icma (konqreqatsiya) müstəqildir<br>• Ruhani institut inkar olunur<br>• Dini mərkəz yoxdur<br>• Hər yerli dini icma öz şurası tərəfindən idarə olunur<br>• İcma ruhanilərini (presviter və ya pastor, dyakon) özü seçir |

Qeyd etmək lazımdır ki, Roma Katolik Kilsəsi və Rus Pravoslav Kilsəsi, eləcə də Lüteran Kilsəsi yepiskopal kilsə idarə sistemi əsasında fəaliyyət göstərirlər. Yeddinci Günün Adventistləri Kilsəsi həm presviterian, həm də konqreqatsionalist idarə formasına görə təşkilatlanıb. Baptistlər, əllincilər, xarizmatlar isə əsasən konqreqatsionalistdirlər.

## Azərbaycanda Xristianlığın sxematik təsviri

Müasir Azərbaycanda xristian dini əsas konfessiyaları, müxtəlif cərəyanları və denominasiyaları ilə təmsil olunub. Onlar haqqında daha ətraflı təsəvvür yaratmaq üçün Sxem 1-ə müraciət etmək yerinə düşərdi.

Sxem 1-dən göründüyü kimi, Azərbaycanda Xristianlıq altı istiqamətə (Qədim Şərq Kilsəsi, Pravoslavlıq, Katoliklik, Protestantlıq, Antitrinitarizm, Ruhani Xristianlıq), istiqamətlər cərəyanlara (Məsələn, ölkəmizdə Xristianlığın protestantlıq qolu altı cərəyana ayrılır - lüteranlıq, şərq baptizmi, əllincilik, presviterianlıq, denominasiyasız xristianlıq və adventizm), cərəyanlar isə denominasiyalara, yəni xristian dini təşkilatlarına (məs.: Xristianlığın protestant qolu adventizm cərəyanına, adventizmin

***Sxem 1. Azərbaycan Respublikasında xristian konfessiyaları, cərəyanları və denominasiyaları.***



özü isə Yeddinci Günün Adventistləri Kilsəsi denominasiyasına ayrılır) bölünmüşdür. Həmin Sxem əyani şəkildə göstərir ki, respublikamızda Xristianlıq olduqca çoxşaxəli, mürəkkəb və rəngarəngdir.

Belə sual yarana bilər ki, bu qədər cərəyan və denominasiyalara bölünən Xristianlığın Azərbaycanda tarixi nə vaxtdan başlayır? Hazırda ölkəmizdə xristianların sayı nə qədərdir? Onlar Azərbaycan əhalisinin neçə faizini təşkil edirlər?

Xristianlıq ölkəmizdə çox qədim tarixi köklərə malikdir. Bu səmavi din Şimali Azərbaycan torpaqlarında hələ İsa Məsihin həvariləri dövründə təşəkkül tapmağa başlayıb. Xristian dininin ölkəmizdə yayılması İsa Məsihin apostolları - Müqəddəs Fadey, Müqəddəs Yelisey və Müqəddəs Varfolomeyin adları ilə bağlıdır. O da bir tarixi həqiqətdir ki, islamaqədərki dövrdə Xristianlıq torpaqlarımızda hakim din olub. Belə ki, 313-cü ildə Alban hökmdarı Urnayr Xristianlığı dövlət dini elan edib. Günümüzədək gəlib çıxmış qədim alban məbədləri də Xristianlığın ölkəmizdə necə zəngin ənənələrə malik olduğunu bariz şəkildə göstərir.

Respublikamızda xristianların sayına gəlincə, ilk növbədə onu qeyd edək ki, Azərbaycanda Xristianlıq ardıcıllarının sayına görə İslamdan sonra ikinci yer tutur. Xristianlar ölkə əhalisinin təqribən 2 faizini təşkil edirlər. Bu dinə əsasən ruslar, beloruslar, yunanlar, gürcülər, udinlər, ukraynalılar və digər bəzi azsaylı xalqların nümayəndələri etiqad bəsləyirlər.

Onu da deyək ki, dünyada xristian konfessiyaları arasında saylarına görə katoliklər birinci, protestantlar ikinci, pravoslavlar üçüncü yeri tuturlar. Azərbaycanda isə mənzərə fərqlidir: ölkəmizdə ən böyük xristian konfessiyası pravoslavlıqdır. Sonuncu yerdə isə katolisizm gəlir. Bunu Sxem 2-də əyani şəkildə görmək mümkündür.

Sxem 2-dən görünür ki, təkcə Rus Pravoslav Kilsəsinin ardıcıllarının sayı bütün xristian dini icmalarının ümumi sayından bir neçə dəfə çoxdur. Burada bir önəmli məqama toxunmaq lazımdır. Rus Pravoslav Kilsəsi üzvlərinin statistikasını aparmadığı üçün ölkəmizin müxtəlif bölgələrində fəaliyyət göstərən rus kilsələrinə nə qədər dindarın gəldiyini müəyyənləşdirmək çətindir. Adətən Rus Pravoslav Kilsəsi kimi nüfuzlu, milli-dini təşkilatın

**_Sxem 2. Azərbaycan Respublikasında xristian dini təşkilatları və icmalarının ardıcıllarının təqribi sayı._**




mənsublarının sayı hesablanarkən etnik-dini mənsubiyyət əsas götürülür və şərqi slavyan xalqları avtomatik bu kilsəyə aid edilir. Halbuki etnik-dini mənsubiyyət əsasında statistikanın aparılması real vəziyyəti əks etdirmir. Məsələn, ölkəmizdə yaşayan slavyanlar arasında rus təriqətçiləri, ateistlər, müxtəlif protestant kilsələrinin və yeni dini cərəyanların üzvləri, eləcə də özünü hər hansı kilsəyə aid etməyən, dinə biganə yanaşanlar az deyildir. Odur ki, Sxem 2-də Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının mətbuat katibi K.Pominovun səsləndirdiyi rəqəm əsas götürülmüşdür. Belə ki, o, “KAVPOLIT” saytına verdiyi müsahibəsində bildirmişdir ki, ölkəmizdə rusdilli əhalinin (ruslar, beloruslar, ukraynalılar, yunanlar və s.) təxminən yarısı, yəni 50 min nəfər Rus Pravoslav Kilsəsinin mənsubudur. Fikrimizcə, bu rəqəm reallığa daha yaxındır.

Qeyd etmək lazımdır ki, Sxem 2-də molokanların sayı göstərilərkən, respublika üzrə molokan dua evlərinə ibadətə gələnlərin ümumi göstəricisi əks olunmuşdur. Belə ki, molokan dua evlərinə müntəzəm gələnlərin ümumi sayı 200-250 nəfərdən çox deyildir. Alban-Udi və Gürcü Pravoslav dini icmalarının sayı müəyyənləşdirilərkən etnik dini mənsubiyyət əsas

götürülmüş və 2009-cu il Ümumazərbaycan əhali siyahıyaalınmasının məlumatlarına istinad edilmişdir.

Respublikamızdakı protestantların sayına gəlincə, ilk öncə onu qeyd edək ki, bəzi protestant kilsələr öz üzvlərinin dəqiq statistikasını apardıqları halda (Məsələn, yeddinci günün adventistləri, lüteranlar, presviterianlar), bəziləri statistik göstəricilərlə maraqlanmır və təxmini rəqəmlər səsləndirirlər. Adətən isə bu rəqəmlər şişirdilmiş olur. Məsələn, ölkəmizdə təqribən 2600 baptistin yaşadığı bildirilir[8]. Halbuki hesablamalarımıza əsasən, respublikamızda baptistlərin sayı 1100-1300 nəfərdən çox deyildir. Eyni zamanda, bir sıra protestant icmalar yalnız xaç suyuna salınmış, yetkinlik yaşına çatmış şəxsləri kilsə üzvü saydıqları halda, digərləri uşaqları da icma üzvləri sırasına qatırlar. Bütün bu sadalanan faktorlar ölkəmizdə yaşayan protestantların ümumi sayının müəyyənləşdirilməsi işində çətinlik yaradır. Lakin apardığımız araşdırmalara əsasən deyə bilərik ki, Azərbaycanda müxtəlif protestant dini icmalarının daimi üzvlərinin ümumi sayı təqribən 6100-6300 nəfərdir. Bunu əyani şəkildə Sxem 3-dən görmək mümkündür.

***Sxem 3. Azərbaycanda protestant cərəyanların təqribi sayı.***




8 - Bax: В июне мы молимся за церкви и народ Азербайджана [Электронный ресурс]. – URL: https://drochiapentruhristos.wordpress.com/2014/06/27/в-июне-мы-молимся-за-церкви-и-народ-азер/ (14.09.2016-cı il).

Gördüyümüz kimi, müasir Azərbaycanda Xristianlıq müxtəlif xristian cərəyanları, fərqli denominasiyalar və çoxsaylı təriqətlərlə təmsil olunub. Ölkəmizdə tarixən mövcud olan etnik-dini zənginlik haqqında daha geniş təsəvvürün yaranması üçün xristian məzhəblərinin, məsihçi təşkilatların keçmişi və müasir vəziyyəti ilə tanış olmaq yerinə düşərdi. Kitabımızın sonrakı bölümlərində məhz buna cəhd göstərilmişdir. Beləliklə, hazırda respublikamızda mövcud olan xristian cərəyanları və denominasiyaları ilə təfsilatlı şəkildə tanış olaq.

# I FƏSİL

## QƏDİM ŞƏRQ KİLSƏSİ

# ALBAN HƏVARİ AVTOKEFAL KİLSƏSİ

*"Qafqaz Albaniyasının tarixi və taleyi ilə hamıdan çox azərbaycanlılar məşğul olmalıdırlar. Bu sahədə onlar dünya elmi qarşısında məsuliyyət daşıyırlar, dünya elminə borcludurlar"*

***Yevgeni İqnatyeviç Krupnov, görkəmli qafqazşünas tarixçisi***

Respublikamızın Qəbələ və Oğuz rayonlarında udinlər yaşayır. Azərbaycan xalqının tərkib hissəsi olan bu etnik qrup təsnifat baxımından Xristianlığın qədim Şərq kilsələri (təkcə ilk üç Ümumdünya Kilsə Məclisinin qərarlarını tanıyan kilsələr qrupu) qoluna aid olan Alban Apostol Avtokefal Kilsəsinin hüquqi varisləridirlər. Keşməkeşli, mürəkkəb inkişaf yolu keçən bu Kilsənin günümüzədək gəlib çıxan maddi-mədəni abidələrinin, bir sözlə, Alban irsinin bilavasitə varisi isə Azərbaycan xalqıdır.

Qafqazın ən qədim kilsəsi olan, qədim Şərq kilsələrinin dini ehkamları əsasında fəaliyyət göstərən Alban Kilsəsinin tarixi kökü həvarilər dövrünə kimi gedib çıxır. Vaxtilə bu torpaqlarda böyük nüfuz sahibi olan Alban Kilsəsi erməni qriqorian kilsəsinin əsrlər boyu sürən təhriki və məkri nəticəsində çar Rusiyasının ədalətsiz qərarı ilə 1836-cı ildə ləğv olunmuşdur.

Ona görə də keçmişimizi bilmək və ermənilərin əsassız iddialarına cavab vermək üçün bu kilsənin tarixini bilmək, onun dini ənənələrini dirçəltmək vacibdir.

## Qədim Apostol Kilsəsi: keçmişdən bu günə

E.ə. IV - b.e.VIII əsrlərində Şimali Azərbaycanın ərazisində mövcud olan Qafqaz Albaniyasında Xristianlığın yayılması İsa Məsihin həvarilərinin dövrünə təsadüf edir. Odur ki, Qafqaz Albaniyasında qurulan kilsə təkcə Qafqazın deyil, dünyanın ən qədim kilsələrindən sayılır.

Tarixi mənbələrə görə, I əsrdə Qüds və Suriyadan Albaniyaya ilk

xristian missionerləri gələrək burada xristian icmalarının əsasını qoyurlar. Belə ki, ölkəmizdə Xristianlığın təşəkkül tapması İsa Məsihin həvvariləri Faddey və Varfolomeyin, eləcə də apostol Faddeyin şagirdləri Müqəddəs Yelisey və Marın adları ilə bağlıdır. Odur ki, Albaniyada Xristianlığın inkişafının birinci mərhələsi "həvari, eləcə də "serofil" – "süryanipərəst" adlanır. IV əsrədək davam edən bu dövrdə Xristianlıq İsa Məsihin həvariləri, onların şagirdləri, eləcə də suriyalı missionerlər tərəfindən süryani-arami dilində təbliğ olunurdu[9].

Sual yarana bilər ki, Alban Kilsəsinin mənşəyinin həvarilərə gedib çıxmasının üstünlüyü nədən ibarətdir? Birincisi, bu amil Alban Kilsəsinin bir çox başqa kilsələrlə müqayisədə daha qədim və əzəli olduğunu göstərir. İkincisi, Alban Kilsəsinin başqa kilsələr vasitəçiliyi ilə deyil, ilk mənbə, yəni İsa Məsihin özünün şagirdləri tərəfindən təsis olunduğunu sübuta yetirir[10].

Alban Kilsəsinin yaradıcısı və ilk ruhani başçısı Müqəddəs Yelisey sayılır. Tarixi mənbələrə əsasən, İsa Məsihin şagirdi Faddeyin şəhadətindən ilhamlanan Yelisey Xristianlığı yaymaq üçün Qafqaz Albaniyasına gəlir. Alban tarixçisi Moisey Kalankatuklu Müqəddəs Yeliseyin Qafqaz Albaniyasındakı dini fəaliyyətini belə təsvir edirdi: "...Yelisey Qüdsün birinci batriki Ağamızın qardaşı müqəddəs Yakovun (Yaqub) tövsiyəsiylə müqəddəs Ruh naminə Şərqə təyin edilir. Yelisey öz sərəncamına Şərqi (Albaniyanı) alır... Öz təbliğini o, Çolada başlayır və müxtəlif yerlərdə şagird toplayaraq, onlara xilaskarı (İsanı) təbliğ etməyə çalışırdı. Oradan o, üç nəfər şagirdi ilə Uti vilayətində olan Srxana gedir. Lakin şagirdlərin bəzi qohumları onları izləyib arxalarına düşürlər və şagirdlərin birini öldürürlər. Digər ikisi müqəddəs Yeliseyi atıb, qatillərlə çıxıb getdilər..."[11].

Gördüyümüz kimi, M.Kalankatuklu Müqəddəs Yeliseyin Qafqaz Albaniyasına Qüdsün ilk patriarxı tərəfindən göndərildiyini deyir. Bu isə o deməkdir ki, Alban Kilsəsi bilavasitə öz başlanğıcını Qüds Kilsəsindən

---

9 - Вах: Мамедова Ф. Христианство в Кавказской Албании//Азербайджан и азербайджанцы в мире: Культурологический журнал. Религии Азербайджана, №1, июнь 2007 г. – с. 50.

10 - Azərbaycan tarixi: III-XIII əsrin I rübü / Məsul redaktor: Nailə Vəlixanlı. - Bakı: Elm, 2007. - Yeddi cilddə. II cild. – s.62.

11 - Moisey Kalankatuklu. Albaniya tarixi/Mxitar Qoş. Alban Salnaməsi. – Bakı: "Avrasiya press", 2006. – s.27-28.

götürürdü. Və Qüds patriarxatlığı ilə bu bağlılıq sonrakı dövrlərdə də davam edirdi. Məhz bu amil Alban Kilsəsini erməni qriqorian kilsəsindən fərqləndirir: "Erməni kilsəsindən fərqli olaraq alban kilsəsi öz mənşəyinə görə ilkin çağından bilavasitə Yerusəlimlə, Yerusəlim kilsəsi ilə, sonralar isə Yerusəlimin patriarxatlığı ilə bağlı olub"[12].

Müqəddəs Yeliseyin Qafqaz Albaniyasındakı missioner fəaliyyətindən danışan alban tarixçisi başqa önəmli məqama da toxunur. O, Qafqaz Albaniyasında Müqəddəs Yelisey tərəfindən ilk kilsənin tikildiyini, beləliklə gələcək Alban Kilsəsinin özülünün qoyulduğunu deyir: "Müqəddəs batrik Gisa (indiki Şəki rayonunun Kiş kəndi – A.Ə.) gəlir, burada kilsə tikir və qansız qurban verir. Bu yer Şərqin (müəllif Şərq deyərkən, Qafqaz Albaniyasını nəzərdə tutur – A.Ə.) bütün kilsələri və şəhərlərin başlanğıcıdır və biz şərqlilərə Xristianlığın qəbul etdirilməsinin mənbəsidir"[13].

Qısası, Alban Kilsəsinin inkişafının həvari mərhələsində yepiskopluq və metropoliya yaradılır, Yelisey Kişdə yepiskopluq kafedrası təsis edərək Alban Kilsəsinin ilk yepiskopu və arxiyepiskopu olur[14].

Müqəddəs Yelisey "Şərq kilsələrinin anası" kimi məşhurlaşan Qis kəndində kilsəni təsis etdikdən sonra missioner səfərinə davam edir və atəşpərəstlərin ibadətgahı yerləşən Zerquni dərəsində qətlə yetirilir[15].

Xristian dini Albaniyada əsasən ərəb, yunan və ehtimal ki, yəhudi dilində təbliğ olunduğu üçün yerli əhali yeni dini anlamırdı. Ola bilər ki, təbliğat zamanı tərcüməçilərdən də istifadə olunurdu. Buna baxmayaraq, erkən Xristianlıq Albaniyada möhkəmlənmir, əhali atəşpərəstliyə və başqa əski inanclarına davam edirdi[16].

Alban Kilsəsinin inkişafının ikinci mərhələsi "yunanpərəst" dövr adlanır. Bu mərhələdə Xristianlığın yayılması Maarifçi Qriqorinin (302 — 325) fəaliyyəti ilə bağlıdır. Rəvayətə görə, Qriqori parf mənşəli ailədə, Artaz vilayətində (həvari Faddeyin dəfn olunduğu yerdə) dünyaya gəlib. Atası

12 - Azərbaycan tarixi: III-XIII əsrin I rübü. II cild. – s.60.
13 - Moisey Kalankatuklu. Sitat gətirilən əsəri. – s. 28.
14 - Bax: Христианство в Кавказской Албании. – s. 51.
15 - Bax: Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. I cild/Z.M.Bünyadovun və J.B.Yusifovun redaktəsilə. – Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1994. – s. 205.
16 - Yenə orada.

həlak olduqdan sonra o, yunanların ölkəsinə aparılır. Anadolunun Qeysəri şəhərində dini dərslər alan Maarifçi Qriqori Qafqaza gələrək dini təbliğata başlayır. Az sonra alban hökmdarı Urnayr onun təsiri altına düşür. Maarifçi Qriqori Urnayrı və onun adamlarını xaç suyuna salır. Bu alban hökmdarı 313-cü ildə Xristianlığı dövlət dini elan edir. O, Xristianlığın köməyi ilə çoxmillətli Alban dövlətini birləşdirmək istəyirdi. Lakin Urnayrın hakimiyyəti dövründə də Xristianlıq Albaniyada geniş yayılmır. Bir tərəfdən Sasani şahları, digər tərəfdən isə şimal, hun-türk etnosları Albaniyaya hücum edir, köhnə dini etiqadları qoruyurdular[17].

Məşhur alban tarixçisi M.Kalankatuklu qüdrətli alban hökmdarı Urnayrı belə mədh edir: "Alban çarı Urnayr İran şahı II Şapurun bacısının əri idi. O, cəsarətli insan idi və çoxlu döyüşlərdə parlaq şöhrətlər qazanıb, ermənilər arasında da bayrağını sancmışdı. Müqəddəs Qriqorinin vasitəsilə o, təzədən dünyaya gəlmiş, Müqəddəs Ruhla örtülmüş və albanları imana gətirmişdir. O, əbədi işığın oğlu kimi yaşamış və axırda insan həyatını tərk etmişdir"[18].

Maarifçi Qriqoriyə gəlincə, o, Haband vilayətinə (Yuxarı Qarabağa) gələrək Amaras kəndində (indiki Xocavənd rayonunun Sos kəndi) kilsə inşa edir[19].

Beləliklə, Alban Kilsəsinin inkişafının hər iki mərhələsini belə xarakterizə etmək mümkündür: həvarilər dövründə Müqəddəs Yelisey Kişdə kilsənin özül daşını qoymaqla sol sahil Albaniyasında[20], "yunanpərəst" dövrdə isə Maarifçi Qriqori Amarasda ilk xristian məbədini tikməklə sağ sahil Albaniyasında Xristianlığın təməlini atıblar[21].

IV əsrin başlanğıcında dövlət dini elan olunan Xristianlıq sadə camaat arasında çox çətinliklə yayılırdı. Əhali arasında təbiət qüvvələrinə sitayiş, Maniheizmə, Zərdüştülüyə inam hələ də yaşayırdı. Urnayrın ölümündən sonra Albaniyada Xristianlığın mövqeyi daha da zəifləyir. Çünki hakimiyyət Arani sülaləsinin nümayəndəsi Sanesanın (Sanatürkün) əlinə keçir. Sasani

17 - Bax: Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. – 205 - 206; Bax: Azərbaycan tarixi: III-XIII əsrin I rübü. II cild. – 63.
18 - Moisey Kalankatuklu. Yenə orada. – s. 42.
19 - Bax: Azərbaycan tarixi: III-XIII əsrin I rübü. II cild. – s. 63.
20 - * Yəni Kür çayının sol sahilindəki ərazilərdə.
21 - Bax: Христианство в Кавказской Албании. – с. 51.

şahı ilə ittifaq quran bu hökmdar köhnə etiqadları bərpa etmək istəyirdi. Elə həmin dövrdə Maarifçi Qriqorinin nəvəsi Qriqoris Albaniya və İberiyanın yepiskopu təyin edilir. Xristianlığa meyli güclü olan bir qisim alban əyanları Qriqorisi öz ölkələrinə çağırırlar. Beləliklə, Qriqoris Albaniyanın katolikosu olur[22]. M. Kalankatuklu bu haqda yazırdı: "Onun vəfatından sonra albanlar özlərinə katolikos gənc Qriqorisi seçdilər, çünki hələ çarımız Urnayr müqəddəs Qriqoridən xahiş etmişdi ki, onu öz ölkəsinə yepiskop təyin etsin... Albanlar bu qərarı şüurlu qəbul etdilər, çünki, müqəddəs Qriqorinin varisini Albaniyaya çağırmaqla onu bu vəzifəyə layiq görürdülər"[23].

Lakin Qriqoris də sələfləri kimi Xristianlığın təbliğatı yolunda Xəzər dənizi sahilindəki Vatnean çölündə qətlə yetirilir. Şagirdləri onun nəşini Amarasda torpağa tapşırırlar. Qriqorisin öldürülməsindən sonra Albaniyanın əhalisi yenidən bütpərəstliyə qayıdır[24]. Alban tarixçisi bu barədə yazırdı: "Albaniya katolikosu Qriqorisin öldürülməsindən sonra şərq ölkəsinin barbar xalqları yenə də bütpərəstliyə qərq oldular. Onlar bütxanalarında sitayiş etdikdən sonra xaçpərəstləri təqib etməyə başladılar"[25].

Xristian alban hökmdarları və onları dəstəkləyən əyanların, din xadimlərinin cəhdlərinə baxmayaraq, V əsrdə də Xristianlıq Albaniyada dərin kök sala bilmir. Orta və yoxsul təbəqə onların iqtisadi vəziyyətini yaxşılaşdırmayan Xristianlığın yayılmasına müqavimət göstərirdi[26].

Odur ki, Alban hökmdarları Urnayr, II Vaçe, III Vaçaqan xalq arasında Xristianlıqdan qabaq yayılmış inanclarla şiddətli mübarizə aparırdılar. Lakin Qafqaz Albaniyasında Xristianlığın yayılması və qərarlaşmasında təkmilləşdirilmiş alban əlifbasının və alban yazısının yaranması, məktəblərin təşkili, Müqəddəs Kitabın və başqa dini ədəbiyyatın süryani və yunan dillərindən alban dilinə tərcümə edilməsi, bir sözlə, maarifçilik fəaliyyəti böyük rol oynadı[27].

22 - Bax: Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. – s. 206; Bax: Azərbaycan tarixi: III-XIII əsrin I rübü. II cild. – 64.
23 - Moisey Kalankatuklu. Sitat gətirilən əsəri. – s. 42.
24 - Bax: Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. – s. 206.
25 - Moisey Kalankatuklu. Sitat gətirilən əsəri.– s. 51.
26 - Bax: Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. – s. 207.
27 - Bax: Azərbaycan tarixi: III-XIII əsrin I rübü. II cild. – s. 64.



*“Şərq kilsələrinin anası” - “Kiş” alban məbədi. Şəki rayonu, Kiş kəndi. I əsr.*

Arşakilər sülaləsindən olan alban hökmdarlarının fəaliyyəti nəticəsində Xristianlıq Albaniyanın ictimai-siyasi və sosial həyatında mühüm rol oynamağa başladı. Ölkənin feodal əyanları kilsənin təşəkkül tapması üçün maddi baza yaratdılar: bütpərəst məbədlərin torpaqları və sərvəti kilsənin ixtiyarına verildi. Kilsənin xeyrinə əhalinin kənd təsərrüfatı gəlirlərinin 1/10 hissəsini təşkil edən "kilsə onda biri" vergisi tutulurdu. Bundan başqa çoxsaylı natural vergilər və könüllü ianələr də verilirdi. Xristian ruhaniləri isə dünyəvi əyanlar kimi "xostak" adlanan torpaq sahələri ilə təmin olunurdular[28]. Z.Bünyadovun qeyd etdiyi kimi, böyük knyazdan, yəni alban hökmdarından sonra ən böyük torpaq sahibi Alban Kilsəsi idi. Kilsə və monastır torpaqları kilsə institutunun bölünməz və irsi mülkiyyəti idi. Onlar "müqəddəs kilsənin irsi" adlanırdı[29].

Azərbaycanlı tarixçi F.Məmmədova bu barədə deyir: "Arşakilər sülaləsindən olan alban çarlarının fəaliyyəti sayəsində Xristianlıq yeni feodal cəmiyyətinin ideoloji əsası olur və Albaniyanın ictimai-siyasi və sosial həyatında mühüm rol oynamağa başlayır"[30].

Buna baxmayaraq, IV-V əsrlərdə alban ruhani sinfi iqtisadi-siyasi cəhətdən zəif olub. Hətta dini məsələlər həll olunarkən ruhanilər aparıcı rol oynamırdı. Belə ki, kilsə qanunları hökmdarın hüzurunda ruhani və dünyəvi əyanların iştirakı ilə hazırlanır və yenə də çarın, dünyəvi əyanların möhürü ilə təsdiqlənirdi. Bir sözlə, Alban Katolikosunun hakimiyyəti nominal səciyyə daşıyırdı, çünki Qafqaz Albaniyasında mərkəzi hakimiyyət güclü idi. Təsadüfi deyildir ki, 488-ci ildə Qafqaz Albaniyasında keçirilən Aquen Kilsə Məclisinin (Aquen yer adıdır. Mets-Arrank vilayətində yerləşirdi) qəbul etdiyi "Aquen qanunları" ("Aquen kanonları") alban çarı III Vaçaqanın kanonları adlanır[31].

Burada Aquen Kilsə Məclisi haqda ayrıca bəhs etmək lazımdır. Belə ki, III Vaçaqan bu kilsə məclisini çağırmaqla öz ölkəsini yad dini-siyasi təsir və müdaxilələrdən qorumağa, bəzi üsyanlara görə sarsılmış Alban Kilsəsini sosial-siyasi cəhətdən gücləndirməyə, eyni zamanda, Qafqaz

28 - Azərbaycan tarixi: III-XIII əsrin I rübü. II cild. – s. 64.
29 - Bünyədov Z.M. Azərbaycan VII-IX əsrlərdə. – Bakı: "Elm", 2005. - s. 59.
30 - Христианство в Кавказской Албании. – с. 52.
31 - Yenə orada.

Albaniyasının müstəqilliyini möhkəmləndirməyə çalışırdı. Ona görə də Aquen qanunlarının məqsədi dini ayinləri nizamlamaq, ruhani təbəqə üçün maddi baza yaratmaq, dindarların kilsə qarşısındakı vəzifə və öhdəliklərini qanuni şəklə salmaq, Xristianlıqdan kənar inancların qalıqlarını məhv etmək idi. Bununla yanaşı, III Vaçaqan Aquen kanonlarını qəbul etməklə mərkəzi hakimiyyəti gücləndirmək, özbaşına hərəkət edən feodalları cilovlamaq, ruhanilərin hüquqlarını dünyəvi əyanlarla bərabərləşdirmək, əhali, dünyəvi əyanlar və ruhanilər arasında münasibətləri qaydaya salmaq, bir sözlə, xalqın dini birliyinə nail olmaq istəyirdi[32].

Aquen Kilsə Məclisinin hazırladığı kilsə məcəlləsi giriş və 21 maddədən ibarətdir. Girişdə Kilsə Məclisinin çağırılma səbəbləri haqda bəhs olunur. Bu qanunları şərti olaraq 4 hissəyə bölmək mümkündür:

1.Ruhanilər arasında münasibətləri tənzimləyən, onların haqq və vəzifələrini izah edən qanunlar;

2.Ruhanilər və dünyəvi əyanlar arasında münasibətləri tənzimləyən qanunlar;

3.Ruhanilər və ruhani olmayan dindarlar arasında münasibətləri tənzimləyən qanunlar;

4.Sırf hüquqi səciyyə daşıyan qanunlar[33].

Aquen qanunlarına əsasən, Qafqaz Albaniyasında iki cür məhkəmə fəaliyyət göstərirdi: kilsə məhkəməsi və saray məhkəməsi. Kilsə məhkəməsinin özü də iki növə bölünürdü: keşiş məhkəməsi və yepiskop məhkəməsi. Adi keşişlərin rəhbərliyi altında keçirilən məhkəmələrdə şəri məsələlərə, yəni öz dini vəzifələrini yerinə yetirməyən keşişlərin, ruhani olmayan dindarların qanun pozuntularına baxılırdı. Yepiskopun başçılığı ilə keçən məhkəmələrdə təkcə şəri deyil, həm də mülki və cinayət hüququnun bəzi sahələrinə (mübahisə, dava-dalaş və s.) aid olan məsələlər barədə hökm çıxarılırdı. Yepiskoplar şəri olmayan məsələlərə dair qərar verərkən kilsə kanonlarına deyil, dünyəvi qanunlara əsaslanırdılar. O ki qaldı saray məhkəməsinə, burada ölüm hökmü ilə cəzalandırılan ən ağır cinayət işlərinə baxılırdı[34].

32 - Yenə orada. – s. 53-54.
33 - Bax: Христианство в Кавказской Албании. – s. 54.
34 - Yenə orada.



*Mingəçevirdə xristian məbədinin ərazisində aşkar olunmuş şamdanlar. VI-VII ƏSRLƏR. Azərbaycan Tarix Muzeyi.*







*Azərbaycan poçt markaları*



*Alban-Udi dini icmasında ilk vəftiz mərasimi.*




*“On il dirçəlişdə” adlı bayram tədbiri. 4 Avqust 2013-cü il.*

Aquen qanunlarından gördüyümüz kimi, Alban hökmdarları təkcə öz hakimiyyətini gücləndirməyə deyil, həm də kilsənin nüfuzunu artırmağa çalışırdılar. V-VII əsrlərdə Mehranilər sülaləsinin hakimiyyəti dövründə Alban Kilsəsinin siyasi-iqtisadi mövqeyi daha da güclənir. Bunu 705-ci ildə keçirilən Partav (Bərdə) Kilsə Məclisi tərəfindən qəbul olunan kilsə qanunları əyani şəkildə sübuta yetirir. Belə ki, Partav Kilsə Məclisi dünyəvi əyanlarla açıq mübarizəyə keçərək onların özbaşınalığını məhdudlaşdırdı və zadəganlara kilsənin işlərinə müdaxilə etməyə qadağa qoydu. Artıq VII əsrdə kilsə məclisini çağırmaq səlahiyyəti dövlət başçısına deyil, alban katolikosuna məxsus idi. Bu fakt isə Alban Kilsəsinin nüfuzunun necə artdığını bariz şəkildə göstərir. Diqqətəlayiq məqam odur ki, alban katolikosu Viro (595-629) Sasanilər imperiyasının qüdrətli şahı II Xosrov Pərvizdən (591 — 628) Mehranilər sülaləsinin hökmdarları üçün “Albaniyanın böyük knyazları” titulunu ala bilmişdi[35].

Onu da qeyd edək ki, hökmdarların, zadəganların, sərkərdələrin və ya hər hansı digər ruhani olmayan şəxslərin kilsə üzərində təsirlərinin ortadan qaldırılması işində alban katolikosu I Simeon (706-707) böyük rol oynayıb[36].

Tezliklə Alban kilsəsi o qədər müstəqilləşir və güclənir ki, kilsə başçısı hökmdarlara – knyaz və feodallara sərəncamlar verməyə, torpaq sahiblərini müəyyənləşdirməyə başlayır. Onun hökmünə qarşı çıxaraq kilsə qaydaları ilə razılaşmayan hər kəsi isə “kilsə lənəti” gözləyirdi[37].

Alban Kilsəsinin tarixindən danışarkən mütləq onun təşkilati strukturuna toxunmaq lazımdır. Qeyd olunduğu kimi, Alban Kilsəsinin başçıları Qüds Patriarxatlığı tərəfindən təsdiqlənirdi. Bu hal Maarifçi Qriqoriyə kimi davam etdi. Ondan sonra isə Alban Kilsəsinin başçılarını alban yepiskoplarının özləri təsdiqləməyə başladılar. Bu isə o deməkdir ki, Maarifçi Qriqoridən sonra, yəni 340-cı ildə Alban Kilsəsi avtokefal, yəni müstəqil idi. Alban kilsəsinin avtokefallığı iki səbəbə görə baş verib: birincisi, kilsənin həvari mənşəli olması; ikincisi, Alban dövlətinin siyasi statusu, yəni Şərqi Roma imperiyasından tamamilə müstəqil olması[38].

35 - Bax: Христианство в Кавказской Албании. – s. 53.
36 - Bax: Bünyədov Z.M. Sitat göstərilən əsəri. – s. 60-61.
37 - Yenə orada. – s. 61.
38 - Христианство в Кавказской Албании. – s. 52.




*Müqəddəs Yelisey ikonası*
*"Çotari" Alban-Udi kilsəsi*

Artıq IV əsrdə Alban Kilsəsinin təşkilati strukturu formalaşır, faktiki olaraq, kilsənin hüquqi vəziyyəti 451-ci ildə keçirilən IV Ümumdünya Kilsə Məclisindən (Xalkidon Kilsə Məclisi) sonra müəyyənləşir. Həmin kilsə məclisindən sonra Alban Kilsəsinin başçıları "Katolikos-Arxiyepiskop, Patriarx", VI əsrin ikinci yarısında isə "Albaniya, Lpiniya və Çolanın katolikosu" və ya "Albaniya və Balasakananın böyük katolikosu" titulunu daşımağa başlayırlar[39].

Katolikos hədsiz hakimiyyətə malik idi. O, Alban hökmdarına tabe olmaqdan boyun qaçıra bilərdi. Onun adı çox vaxt knyazın adından əvvəl çəkilirdi. Katolikos ölkədə bütün knyazları itaət etməyə məcbur edə bilən yeganə qüvvə idi. Katolikosun qərarlarına tabe olmayan knyazlar kilsədən qovulur, bəzən də məhv edilirdi[40].

Eyni zamanda, katolikosun başçılığı altında böyük ruhani institut fəaliyyət göstərirdi. Bütün Albaniya yepiskopluqlara bölünmüşdü. V-VIII əsrlərdə Albaniyada 12 yepiskopluq – Kabala (Qəbələ), Qaşua, Yeuta, Tsri, Amaras, Balasakan, Şaki (Şəki), Qardman, Mets-Koqmank, Mets-İrank, Qaband və Partav (Bərdə) yepiskopluqları vardı. Onlara yepiskoplar başçılıq edirdi. Əllərində böyük hakimiyyət cəmləşən və ən ali ruhani sinif sayılan yepiskoplardan başqa Alban Kilsəsinin ruhani iyerarxiyasına ilahiyyatçı alimlər, keşişlər, dyakon və rahiblər də daxil idi[41].

Alban Kilsəsinin inanc əsaslarına gəlincə, qeyd etməliyik ki, həvari mənşəli bu kilsə digər qədim Şərq kilsələri kimi ilk üç Ümumdünya Kilsə Məclisinin, yəni I Nikeya Kilsə Məclisi (325-ci il), I Konstantinopolis Kilsə Məclisi (381-ci il), I Efes Kilsə Məclisinin (431-ci il) qərarlarını tanıyırdı. Lakin 506-cı ildə keçirilən Dəbil kilsə məclisində (Dvin yerli kilsə məclisi) Alban Kilsəsi gürcü və erməni kilsələri ilə birgə 451-ci ildə IV Ümumdünya (Xalkedon) Kilsə Məclisinin qərarını tanımayaraq monofizitliyə (İsa Məsihdə təkcə ilahi təbiətin olduğunu bildirən xristian təlimi) üstünlük verir[42]. Beləliklə, Alban Həvvari Avtokefal Kilsəsi etiqadca monofizit kilsəyə çevrilir.

39 - Yenə orada.
40 - Bax: Bünyədov Z.M. Sitat göstərilən əsəri. – s. 60.
41 - Bax: Христианство в Кавказской Албании. – s. 52; Bünyədov Z. Yenə orada. – s. 61.
42 - Bax: Христианство в Кавказской Албании. – s. 54.

VII əsrdə Ərəb xilafətinin tarix səhnəsinə çıxması ilə Alban Kilsəsinin mövqeyi sarsılır. O vaxtlar Qafqaz regionu Ərəb-Bizans dövlətlərinin mübarizə arealına çevrilir. Ərəb işğalının ilk vaxtlarında alban hökmdarı Cavanşir Xilafətin vassallığını qəbul edir və şəxsi nüfuzu sayəsində ölkəsinin daxili müstəqilliyini qoruya bilir. Lakin onun vəfatından sonra cərəyan edən hadisələr Alban dövlətinin birdəfəlik süqutuna və Alban kilsəsinin mövqeyinin zəifləməsinə gətirib çıxarır. Belə ki, 704-cü ildə Alban hökmdarı I Varaz-Trdatın arvadı Spramanın köməyi ilə Girdiman yepiskopu I Nerses Bakur Alban Kilsəsinin katolikosu olur. O, alban hökmdarının Xilafətlə yaxınlaşmaq siyasətinin əleyhinə çıxır və diofizitliyə etiqad bəsləyərək Bizans imperiyası ilə əlaqələr qurmaq istəyirdi. Lakin knyaz Şeroy başda olmaqla bir qrup nüfuzlu alban feodalları xalkedonçuluğun qatı düşməni olduqlarına görə buna mane oldular[43].

Alban Kilsəsini tarix səhnəsindən silmək, onu öz tabeçiliyinə keçirmək və maddi bazasına yiyələnmək arzusu ilə alışıb-yanan erməni katolikosu İlya da bunu fürsət bilərək xəlifə Əbd-ül-Malikə belə çuğulçu məktub yazır:

"Hökmdar Əbd-ül Malik Əmir Muminə erməni katolikosu İlyadan. Qadir Allahın iradəsi ilə bizim tabe ölkəmiz Sizə qulluq edir. Biz və Alban kilsəsi bir ilahi İsa dininə etiqad edirik. Partav taxtına oturan indiki Alban katolikosu yunan imperatoru ilə sazişə girib, öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, dini etiqadda hamı ona qoşulsun, onun himayəsini qəbul etsin.

İndi qoy bu Sizə məlum olsun, ta bu barədə qərar qəbul edəsiniz, belə ki, bu bədəfkarlıqda onun bir əyan qadın məsləkdaşı da vardır. Böyük ixtiyar sahibi, əmr buyurun, qoy onlar Allaha qarşı işlədikləri günah üçün müstəhəqq olduqları cəzaya çatsınlar"[44].

Xəlifə də erməni katolikosunun xahişini böyük həvəslə qəbul edərək belə cavab məktubu yazdı: "Mən sənin-erməni xalqının katolikosu, Allah adamı, İlya, səmimi məktubunu oxudum və sənə olan şəfqətdən öz sədaqətli bəndəmi çoxlu sayda qoşunla göndərdim. Əmr etdik ki,

43 - Bünyədov Z. Azərbaycan VII-IX əsrlərdə. – s. 95.
44 - Məktubun mətni Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" kitabından götürülüb. – s. 86.

bizim hökmranlığımıza qarşı qiyam edən albanlarda sizin dininizə uyğun dəyişikliklər edilsin. Bəndəmiz bizim hökmü Partavda, sənin hüzurunda icra edəcəkdir: o, Nerseslə bədəfkarlıqda onunla həmfikir olan qadını bir zəncirlə bağlayacaq və onları bütün qiyamçıların yanında rüsvay etmək üçün şah məhkəməsinə çəkəcəkdir”[45].

Beləliklə, xəlifə Əbd-ül-Malik eməni kilsəsinin başçısı İlyanın məktubunu aldıqdan sonra Bərdədə dini yığıncağın keçirilməsini əmr edir. Həmin kilsə məclisində xəlifə nümayəndəsinin hüzurunda Nerses Bakur mürtəd elan olundu, alban hökmdarının arvadı Sprama isə qalaya salındı. Alban Kilsəsi isə erməni kilsəsinin tabeçiliyinə verildi. Bununla yanaşı, xəlifə alban əyanlarından kimlərin diofizit olduğunu müəyyənləşdirmək və onları məhv etmək barədə əmr etdi. Bu isə onu göstərir ki, Alban Kilsəsi etiqadca monofizit olsa da, bəzi alban feodalları diofizit idilər və ona görə də Bizans imperiyasını dəstəkləyirdilər[46].

Qısası, erməni kilsəsinin tərəfini tutan ərəb xəlifəsi iki məqsədə nail olur: birincisi, Zaqafqaziyada diofizit Bizans imperiyasının mənafeyini sarsıdır; ikincisi, Qafqaz Albaniyasında öz maraqlarını həyata keçirmək üçün qriqoryan keşişlərindən istifadə edir və onların dəstəyini qazanır[47].

Gördüyümüz kimi, Alban Kilsəsinin başçısından çuğulçuluq edən erməni katolikosu ərəblərin hərbi-siyasi qüdrətinə arxalanaraq alban katolikosluğunu özünə tabe etdirir. Əslində, erməni qriqoryan kilsəsinin Alban Həvari Kilsəsi ilə ədavəti daha əvvəlki vaxtlara gedib çıxır. Bunun isə səbəbi odur ki, erməni kilsəsi özünün daha qədim və üstün olduğunu iddia edirdi. Odur ki, əvvəlcə Sasanilərin, sonra Ərəb xilafətinin silahlı qüvvələrinin köməyi və fitnə-fəsad yolu ilə alban ruhanilərinin müstəqilliyinə son qoymağa çalışırdı[48].

Halbuki tarixə nəzər yetirsək görərik ki, Alban Kilsəsinin daha qədim dini ənənələri vardı. Müqəddəs Yelisey tərəfindən Kiş kəndində Qafqazın ilk kilsəsinin təməlinin atılması deyilənləri sübut edir.

---

45 - Yenə orada.
46 - Bax: Bünyədov Z. Sitat gətirilən əsəri. – s. 95; Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. I cild. – s. 207.
47 - Bax: Bünyədov Z. Yenə orada. – s. 86; Христианство в Кавказской Албании. – s.54-55.
48 - Bax: Bünyədov Z. Yenə orada. – s. 83-84.

Alban katolikosu Nerses Bakuru zorla katolikosluqdan uzaqlaşdırıldıqdan sonra Alban dövləti süquta uğrayır, 706-cı ildən ermənilər alban ruhanilərini sıxışdırmağa və ərəblərin nüfuz dairəsindən kənarda qalan dağlıq vilayətlərdə alban əhalisini qriqoryanlaşdırmağa başlayırlar. Albaniyanın başqa vilayətlərində, daha doğrusu, düzən ərazilərində məskunlaşan və Xristianlıqdan qabaqkı inanclara etiqad bəsləyən əhali isə müsəlmanlaşır, beləliklə VIII əsrin ortalarına yaxın Albaniya ərazisində İslam hakim dinə çevrilir. Xristianlıq isə öz nüfuzunu yalnız indiki Dağlıq Qarabağ ərazisində qoruyur. Dediyimiz kimi, buranın alban əhalisi də zaman keçdikcə qriqoryanlaşmağa məruz qalır[49].

Qriqoryanlaşdırma prosesi zamanı erməni kilsəsi Alban Katolikosluğunun nüfuzunu tədricən heçə endirir, ərəb hakimlərinin əli ilə albanların bütün abidələrini – Alban mədəniyyətini azacıq da olsa xatırlada biləcək hər şeyi məhv edir. Erməni keşişləri Qafqaz Albaniyasının ədəbi abidələrini məhv edərkən, əvvəlcə bu abidələri qrabara (qədim erməni dili) çevirirdilər[50]. Sonra isə albanların zəngin maddi-mədəni irsinin mənimsənilməsi istiqamətində addımlar ataraq tarixi saxtalaşdırırdılar.

Lakin alban əhalisinin qriqoryanlaşdırılması və erməniləşdirilməsi prosesi uzun çəkir, albanların kəskin müqavimətinə rast gəlirdi. Alban və erməni ruhaniləri arasında mübarizə davam edirdi. XI, XIII, XV əsrlərdə erməni kilsəsi zəifləyən vaxtı alban yepiskopları erməni katolikosluğuna xəbər vermədən müstəqil şəkildə öz kilsə başçılarını seçirdilər. Hətta XVII-XIX əsrlərdə qədim türk yurdu olan Xaçınyalı vilayətində yerləşən monastırda rəsmi Alban Katolikosluğunu tanımayan alternativ alban katolikosluğu vardı[51].

IX-XII ərslərdə siyasi hərc-mərclik dövründə Alban katolikosluğu tənəzzül mərhələsinə qədəm qoydu. Buna baxmayaraq, Kilsə əsrlər boyu öz varlığını qorumağa çalışırdı. Fəaliyyət göstərdiyi müddət ərzində aşağıda göstərilən yerlər Alban Kilsəsinin mərkəzi olmuşdur:

---

49 - Bünyədov Z. Yenə orada. – s. 90; Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. I cild. – s. 207; Последующая судьба Албанской Церкви [Elektron resurs]//Alban-Udi Xristian dini icmasının rəsmi saytı. – URL: http://udi.az/hystory/0004-2 (müraciət tarixi: 11.08.2016).

50 - Bünyadov Z. Sitat gətirilən əsəri. – s. 88.

51 - Последующая судьба Албанской Церкви//Там же.

1. İlk mərkəz - Çola (Kiçik Qafqazla Dərbənd arasında ərazi)
2. VI –VIII əsrlər - Bərdə
3. VIII-IX əsrlər Çarek-Xamşı (Gədəbəy yaxınlığında)
4. Xudavəng monastır kompleksi (Dədəvəng monastırı)
5. 1511-1836-cı illər - Gəncəsər Baş kilsəsi[52].

Burada Gəncəsər alban yepiskopluğu haqda ayrıca danışmaq lazımdır. 1240-cı ildə alban knyazı Həsən Cəlal tərəfindən tikilən bu məbəddəki yepiskopun zaman keçdikcə nüfuzu artır. 1511-ci ildə Gəncəsər monastırı alban katolikoslarının iqamətgahına çevrilir və Alban Kilsəsinin mərkəzi olur. Ona görə də Alban Katolikosluğu Gəncəsər katolikosluğu kimi tanınır. Bu katolikosluğa alban knyazı Həsən Cəlalın nəslindən olan bir çox din xadimi rəhbərlik etmişdir. Gəncəsər katolikosunun iqamətgahı həm də Qarabağdakı Alban knyazlığının siyasi mərkəzi idi. 1634-cü ildə Gəncəsər katolikosluğu erməni kilsəsinin hakimiyyətini tanımaq məcburiyyətində qalsa da, alban yepiskopları erməni patriarxatlığının rəyini nəzərə almadan Gəncəsər katolikoslarını özləri seçirdilər[53].

Azərbaycanın çar Rusiyası tərəfindən işğal edilməsindən sonra Alban Kilsəsinin varlığına birdəfəlik son qoyulur. Belə ki, çar hakimiyyəti XIX əsrdə İran və Türkiyədən Azərbaycanın tarixi torpaqlarına öz sadiq nökərlərini - erməniləri köçürməklə bölgədə dayağını möhkəmləndirməyə çalışırdı. Və bunun məntiqi yekunu kimi erməni qriqoryan kilsəsi üçün hər cür şərait yaradılır, erməni katolikosunun tələbləri çar müstəbid rejimi tərəfindən dərhal yerinə yetirilirdi. Belə tələblərdən biri də Alban katolikosluğu ilə bağlı idi.

Erməni kilsəsinin təhriki ilə 11 mart 1836-cı ildə imperator I Nikolay erməni kilsəsinin fəaliyyətini tənzimləyən, 111 maddəlik xüsusi "Əsasnamə"ni təsdiqlədi. Həmin əsasnaməyə görə, Alban Katolikosluğu ləğv olundu, onun yerində isə erməni katolikosluğunun tabeçiliyinə verilən iki yeparxiya (Arsax-Şuşa və Şamaxı) və erməni kilsəsinin Tiflis konsistoriyasının tərkibində olan Gəncə vikariatlığı yaradıldı[54].

52 - Bax: Христианство в Кавказской Албании. – s.55; Есаи Хасан-Джалал. Краткая история страны Албанской (1702-1722 гг.). – Баку: Элм, 1989. – с. 5.
53 - Bax: Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э.- VIII в н.э.). – Баку: Элм, 1986. - с. 238; Есаи Хасан-Джалал. Указ. соч. – с. 5.
54 - Последующая судьба Албанской Церкви//Там же.

1909-1910-cu illərdə Rusiya imperiyasının Müqəddəs Sinodu erməni ruhanilərinə öz tabeliklərindəki yeparxiyalarının köhnə arxiv sənədlərini məhv etməyə icazə verdi. Həmin arxivdə Alban Kilsəsinə aid tarixi sənədlərin olması şübhə doğurmur[55]. Onların ermənilər tərəfindən məhv olunması isə Alban Kilsəsini tarixin yaddaşından silmək cəhdi deməkdir. Həmçinin bütün bunlar gələcəkdə Şimali Azərbaycan torpaqlarına yiyələnmək üçün çox uzaqgörənliklə düşünülmüş bir cinayət idi[56].

Gördüyümüz kimi, Rusiyanın imperialist maraqları, eləcə də erməni qriqoryan ruhanilərinin əsassız millətçi iddiaları, fitnə-fəsadları üzündən bir ədalətsiz qərarla Alban Kilsəsi kimi qədim xristian ənənələrinə malik olan xristian konfessiyasının varlığına son qoyulmuşdur. Lakin hadisələrin sonrakı inkişafı onu göstərmişdir ki, bir dini təşkilat forması kimi alban xristianlığı ortadan qaldırılsa da, ixtiyar sahiblərinin hökmlərinə baxmayaraq, Alban Kilsəsinin varisləri olan udinlər qəlbən hər zaman öz qədim kilsələrinə bağlı qalmışlar.

Bunun ən bariz nümunəsi ermənilərin ruhani hakimiyyətini qəbul etmək istəməyən udinlərin 1867-ci ildə rus çarına etiraz məktubu yazaraq erməni qriqoryan keşişlərinin ixtiyarına verilən öz qədim məbədlərində belə toplaşmaqdan imtina etmələridir. Alban katolikosluğu ləğv olunduqdan sonra erməni ruhani hakimiyyətini tanımayan, erməniləşdirmə və qriqoryanlaşdırma prosesinə uzun müddət müqavimət göstərən Alban Kilsəsinin ardıcılları evlərdə toplaşmağa üstünlük verdilər[57].

Beləliklə, Alban Kilsəsini xatırladacaq hər şeyi məhv etməyə çalışan erməni keşişləri öz istəklərinə çatmadılar. Özünəməxsus xaç forması və təqvimi olan Alban Kilsəsi udinlərin qəlbində yaşayaraq varlığını günümüzədək qorudu.

---

55 - Политическая история и историческая география Кавказской Албании (III в. до н.э.- VIII в н.э.). – с. 239.
56 - İsmayılov G. Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz. – Bakı: Nurlar, 2014. - s. 71.
57- Роберт Мобили. Албанская церковь и армянская фальсификация [Elektron resurs]// Alban-Udi Xristian dini icmasının rəsmi saytı: http://udi.az/articles/0009-2.html – (müraciət tarixi: 12.08.2016).



*Alban katolikoslarının iqamətgahı - Gəncəsər monastırı.*
*Kəlbəcər rayonu. XIII əsr.*



*Xudavəng monastır kompleksi. Kəlbəcər rayonu. VI-XIII əsr.*

## Alban Kilsəsinin dirçəlişi

Hazırda dünyada udinlərin ümumi sayı on mindir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2009-cu il üzrə məlumatına görə, ölkəmizdəki udinlərin sayı 3 800 nəfər təşkil edir[58]. Onlar Qəbələ rayonunun Nic qəsəbəsində kompakt halda, eləcə də Oğuz və Bakıda yaşayırlar.

1991-ci ildə Azərbaycan xalqının yenidən müstəqilliyini qazanması ilə udinlər qədim kilsə ənənələrini bərpa etmək fürsəti qazandılar. Bu istiqamətdə bir sıra mühüm addımlar atıldı. İlk növbədə, Şəkinin Kiş kəndi və Qəbələ rayonunun Nic qəsəbəsində, eləcə də Oğuzdakı qədim alban məbədlərində təmir-bərpa işləri aparılaraq udinlərin ixtiyarına verildi. Hazırda bu məbədlərdə ayinlər udi dilində yerinə yetirilir.

2003-cü ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının dövlət qeydiyyatına alınması Alban Kilsəsinin bərpası istiqamətində atılan ən böyük addımlardan biridir.

Alban Kilsəsinin dirçəldilməsi üçün hüquqi addımlarla yanaşı, xristian ənənələrinə uyğun tədbirlər də görülməyə başlanıldı. Belə ki, sonuncu alban mitropoliti II Sergi Gəncəsərli öldürüldükdən sonra Alban Kilsəsinin avftokefal ənənəsi pozulmuşdur. Bu ənənəni bərpa etmək üçün qədim Şərq kilsəsinin xeyir-duasını almaq lazım idi. Odur ki, 2008-ci ildə Alban-Udi dini icmasının bır sıra üzvü Qüds (Yerusəlim) Patriarxatlığının xeyir-duasını alaraq Fələstindəki İordan çayında xaç suyuna salınırlar. Beləliklə, Alban-Udi dini icmasının müstəqilliyi bərpa olunur.

2009-cu ildə Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icması (hüquqi ünvan: Qəbələ rayonu, Nic qəsəbəsi, Alban aftokefal “Çotari” kilsəsi) Dini Qurumlarla İş üzrə dövlət Komitəsində yenidən dövlət qeydiyyatından keçdi. 2011-ci ildə isə daha bir Alban-Udi dini icması hüquqi status qazandı: Oğuz şəhəri Alban-Udi Xristian dini icması (hüquqi ünvan: Oğuz şəhəri, “Kiski Qerqes” ziyarətgahı).

58 - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi saytı.– URL: http://www.stat.gov.az/source/demoqraphy/ (müraciət tarixi: 12.08.2016).

14 iyul 2013-cü ildə daha bir tarixi hadisə baş verdi. Belə ki, "Çotari" Alban-Udi kilsəsində vəftiz mərasimi keçirildi. Bu hadisə onunla əlamətdardır ki, Alban Katolikosluğu çar Rusiyası tərəfindən ləğv olunduqdan sonra udinlər uzun müddət özləri vəftiz ayini keçirə bilmir, rus pravoslav keşişləri tərəfindən xaç suyuna salınırdılar. 14 iyul 2013-cü il tarixində Alban-Udi dini icmasında 80 ildən artıq unudulan vəftiz ənənəsi yenidən dirçəldildi. Həmin gün vəftiz ayinini Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Rober Mobili və onun ruhani köməkçisi Rafiq Danakari yerinə yetirdi. İlk xaç suyuna salınan isə Yeva adlı kiçik qız uşağı oldu[59].

3 avqust 2013-cü ildə isə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Alban-Udi kilsəsinin dirçəlişinin 10 illiyinə və Qafqaz Albaniyasında Xristianlığın rəsmi din kimi qəbul edilməsinin 1700 illiyinə həsr olunmuş bayram mərasimi keçirilir. Bayram tədbirində Rus Pravolsav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Roma Katoik Kilsəsinin Azərbaycandakı Apostol Prefekturasının ordinarisi Vladimir Fekete, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə nümayəndəsi, o cümlədən diplomatik korpusun Azərbaycandakı təmsilçiləri və digər qonaqlar iştirak etmişlər.

Günümüzdə Alban Kilsəsinin qədim ənənələrinin bərpası istiqamətində başqa tədbirlər də görülüb. Məsələn, Lukadan nəql olunan İncil udin dilinə tərcümə olunub. Həmçinin Alban-Udi dini icmasının bır sıra üzvləri dini rütbə almaq üçün xaricdəki dini tədris ocaqlarında təhsil alırlar.

Bununla yanaşı, ölkəmizdə yaşayan udinlər Azərbaycan dövlətinin diqqət və qayğısı ilə tam əhatə olunmuşlar. Alban Kilsəsinin dirçəldilməsi üçün rəsmi səviyyədə hər cür dəstək verilir. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Alban-Udi dini icmasının dəstəklənməsi və maddi durumunun yaxşılaşdırılması üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Prezidentinin ehtiyat fondundan düz 100 min manat maliyyə yardımı ayrılmışdır.

---

59 - Крещение удин в Удинской Церкви Святого Елисея в поселке Нидж. Послесловие. [Elektron resurs]// Информационно-Координационный Центр Удинских Общин. – URL: http://www.udi-center.org/novosti/166-kreshchenie-udin-v-udinskoj-tserkvi-svyatogo-eliseya-v-poselke-nidzh (müraciət tarixi: 12.08.2016).

Bu isə təsadüfi deyildir. Alban Kilsəsinin bərpası ölkəmiz üçün olduqca böyük əhəmiyyət kəsb edir, çünki erməni qəsbkarları ölkəmizə qarşı torpaq iddiaları irəli sürəkən qədim xristian alban məbədlərini mənimsəməyə, Alban Kilsəsinin nüfuzunu kiçiltməyə, onun zəngin irsinə yiyələnməyə çalışırlar. Halbuki bu qədim abidələrin bilavasitə varisi Azərbaycan xalqı və onun tərkib hissəsi olan udinlərdir. Odur ki, Alban Kilsəsinin dirçəldilməsi həm tarixi ədalətsizliyin ortadan qaldırılması, həm də uydurma iddialarla çıxış edən işğalçılara qarşı dini-tarixi müstəvidə cavabın verilməsi anlamına gəlir.



*Amaras monastırı. Xocavənd rayonunun Sos kəndi. IV əsr.*



*«Çotari» Alban-Udi kilsəsi. Qəbələ rayonu, Nic qəsəbəsi. 1723-cü il.*

# II FƏSİL

## PRAVOSLAVLIQ

# PRAVOSLAVLIQ: ÜMUMİ MƏLUMAT

Pravoslavlığın tarixi eramızın 33-cü ilinə təsadüf edir və Qüds şəhərindən başlayır. İlk vaxtlar bütün xristianlar özlərinə "ortodoks" və ya "pravoslav" deyirdi. "Ortodoks" yunan sözüdür və "doğru inanc", "düzgün din" mənasına gəlir. 1054-cü ildə Xristianlıq iki qola parçalandıqdan sonra yalnız şərqi xristianlar pravoslav adlandırılmışdır[1].

Başqa xristian məzhəbləri ilə müqayisədə pravoslavlıq erkən Xristianlığın ənənə və cəhətlərini özündə daha çox qorumuşdur. Ortodokslar erkən xristian kilsəsi tərəfindən müəyyənləşdirilmiş bütün dini ehkamlara tam riayət edir, həmin doqmaları dəyişdirmir və ya onlara əlavə etmirlər. Odur ki, pravoslavlar mühafizəkarlıqları, yeniliyə qarşı çıxmaları və köhnə ənənələrə bağlılıqları ilə tanınıblar[2]. İngilis ruhanisi Con Yanq bu barədə yazır: "*Siz pravoslav kilsəsinə daxil olarkən sanki min il əvvələ, hətta daha qədim vaxtlara düşürsünüz. Adama elə gəlir ki, burada istər mühit, istər isə ayinlərin özü heç dəyişməyb. Bəzi məbədlərin tarixi əsrlərlə hesablanır. Dua edənləri büxur ətrinin tüstüsü əhatə edir. Hər yerdə Bibliya süjetləri əsasında çəkilmiş divar rəsmləri və qabaqlarında şam yanan çoxlu ikonalar görmək mümkündür. İnsanlar isə xaç çəkir və səcdə edirlər. Altarla əsas kilsə otağını (ikonostas) ayıran divarın qarşısında çox gözəl libaslara geyinmiş keşişlər və dyakonlar qədim dini mərasimdə iştirak edərək ağır-ağır yeriyirlər"*[3].

Nikey (325-ci il) və Konstantinopol (381-ci il) Kilsə Məclisləri tərəfindən təsdiq olunan İmanın Simvolu pravoslavlığın inanc əsaslarını təşkil edir. Həmin Ümumdünya Kilsə Məclislərinin qərarlarını əsas tutan pravoslavlar Müqəddəs Üçlüyə inanırlar. Ortodokslar diofizit dini təliminə etiqad bəsləyirlər. Həmin təlimə əsasən, İsa Məsihin həm insani, həm də ilahi təbiəti mövcuddur[4].

Pravoslavlar da əksər məsihçilər kimi İsa Məsihin Allahın oğlu olduğuna, onun xaça çəkildikdən sonra dirilməsinə və göyə qalxmasına, qiyamət vaxtı yer üzünə ikinci dəfə gələcəyinə, İlahi Padşahlığın qurulacağına,

1 - Bax: Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. — М.: Издательство Московского университета, 2010. — с. 20.
2 - Bax: Тихомирова Г. Христианство и культура. – Рига: 2011. - с. 341-342.
3 - Bax: Янг Дж. Христианство. - М.: ФАИР-ПРЕСС, 2001.- с. 92.
4 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с. 20-21.

günahkarların cəhənnəmə, möminlərin isə cənnətə düşəcəyinə iman edirlər. Ortodokslar Xristianlığın yeddi müqəddəs ayinini (vəftiz, miropomazaniye (konfirmasiya), Rəbbin Süfrəsi, tövbə, nikah, ruhanilik, "müqəddəs" yağ sürtmə) tanıyırlar[5].

Bibliya və Müqəddəs Rəvayət pravoslavlıqda imanın əsas mənbəyidir. Ortodokslar rəsmən tanınan, vəhy məhsulu sayılan Əhdi-Ətiqin kitabları ilə yanaşı, həm də rəsmi Tövrata daxil olmayan bəzi dini məntləri də qəbul edirlər. Düzdür, pravoslavlar həmin qeyri-rəsmi kitabları vəyh məhsulu saymırlar. Lakin onları faydalı, ibrətamiz və müqəddəs bilərək Əhdi-Ətiqə daxil edirlər[6].

Pravoslavlara görə, Müqəddəs Rəvayət – II-VIII sərlərdə yaşayan Kilsə Atalarının dini təlimləri və Ümumdünya Kilsə Məclislərinin qərarlarından ibarətdir. Lakin pravoslavlar yalnız bu ilk yeddi məclisin qərarlarını qəbul edirlər: I Ümumdünya (I Nikeya) Kilsə Məclisi (325-ci il), II Ümumdünya (I Konstantinopolis) Kilsə Məclisi (381-ci il), III Ümumdünya (I Efes) Kilsə Məclisi (431-ci il), IV Ümumdünya (Kalkedon) Kilsə Məclisi (451-ci il), V Ümumdünya Kilsə (II Konstantinopolis) Məclisi (553-cü il), VI Ümumdünya (III Konstantinopolis) Kilsə Məclisi (680-681; 692-ci illər) və VII Ümumdünya (II Nikeya) Kilsə Məclisi (787-ci il)[7].

Bununla yanaşı, pravoslavlığın aşağıdakı özünəməxsus cəhətləri mövcuddur[8]:

- Katolisizmdən fərqli olaraq, pravoslav aləmdə sərt mərkəzləşdirilmiş kilsə hakimiyyəti yoxdur, yəni dünya pravoslavları Vatikana bənzər vahid dini mərkəz tərəfindən idarə olunmurlar. İri yerli pravoslav kilsələri tamamilə müstəqildir (avtokefal) və milli səciyyə daşıyırlar. Hər avtokefal pravoslav kilsə öz yerli məclisini keçirərək qərarlar qəbul edir. Pravoslav kilsələrini sadəcə ortaq dini dəyərlər və ibadət şəkilləri birləşdirir.
- Pravoslav kilsələrin başında patriarx, mitropolit və ya arxiyepiskop dini rütbəsini daşıyan ruhanilər durur.
- Başqa xristianlarla müqayisədə ortodoksların dini ayinləri daha mürəkkəb və uzundur. Pravoslavlarda əsas dini ayin liturgiya adlanır.

---

5 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с. 21-22.
6 - Yenə orada. - s. 24.
7 - Yenə orada. – s. 24-25.
8 - Yenə orada. – s.22-27.

- Rəbbin Süfrəsi ayinində mayalı (kvaslı) çörəkdən istifadə olunur.
- Pravoslavlar sağdan sola üç barmaqla xaç çevirirlər.
- Vəftiz mərasimi zamanı dindarlar üç dəfə suya salınırlar.
- Pravoslavlar Müqəddəs Məryəm Anaya, mələklərə, müqəddəslərə, onların "cəsədlərinə" və ikona kimi müqəddəs sayılan dini əşyalara pərəstiş edirlər.
- Pravoslavlarda daha çox səkkizguşəli xaç yayılıb.
- Dini ayinlər milli dillərdə, daha çox onların arxaik formalarında yerinə yetirilir (məs.: Rus Pravoslav Kilsəsin ayinlər qədim slavyan dinində həyata keçirilir).
- İbadət zamanı məbədlərdə şam və büxur yandırılır, keşişlər xüsusi, gözəl və bəzəkli libaslar geyinirlər.
- Pravoslav dünyada rahiblik geniş yayılıb, kişi və qadın monastırlar fəaliyyət göstərir. Ortodoks ruhanilər qara (rahib həyatı yaşayanlar) və ağ olmaqla iki qrupa bölünürlər. Qara ruhaniliyin təmsilçilərinə evlənməyə icazə verilmir. Ağ ruhanilər isə yüksək dini rütbə alanadək evlənə bilər. Lakin ağ ruhanilərə boşanmaq və ya həyat yoldaşlarını itirsələr belə, təkrar evlənmək qadağandır.
- Pravoslavlarda ən böyük dini bayram İsa Məsihin dirilişi şərəfinə keçirilən Pasxadır. Bu dini bayram aprel və ya may aylarında yaz gecə-gündüz bərabərliyindən sonra ilk bazar günü keçirilir. Pasxadan sonra əhəmiyyətinə görə on iki əsas dini bayram (İsa Məsihin Miladı, İsa Məsihin vəftiz olunması günü, Sreteniye - Rəblə qarşılaşma günü, Preobrajeniye - İsa Məsihin şəklini dəyişməsi günü, Məryəm Ananın Mövludu, Müqəddəs Məryəmin Qüds Məbədinə daxil olması günü, İsa Məsihin Qüdsə daxil olması günü, Blaqoveşşeniye - Məryəm Anaya xoş xəbərin verilməsi günü, Uspeniye - Müqəddəs Məryəm Ananın vəfatı günü və İsa Məsihin çarmıxının qurulması günü) gəlir. Pasxa və sadalanan on iki əsas bayramlarla yanaşı, pravoslavlar "müqəddəs"lər, "möcüzəvi" ikonalar və əlamətdar dini hadisələrə həsr olunmuş çoxlu bayramlar qeyd edirlər.
- Hər yerli ortodoks kilsənin öz "müqəddəsi" var. Yerli kilsələr müqəddəslərinin şərəfinə bayramlar keçirirlər. Məsələn, ***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının müqəddəsi - apostol Varfolomeydir. Hər il iyun ayının 24-də ölkəmizdə yaşayan pravoslavlar***

***Qız qalasının yanında yığışaraq İsa Məsihin bu şagirdinin şərəfinə dini ayin keçirirlər. Eyni zamanda, respublikamızdakı pravoslavlar noyabr ayının 2-də Müqəddəs Əzabkeş Bakılı İohannın xatirəsini yad edirlər.***

- Pravoslavlarda vahid dini təqvim yoxdur. Əksər ortodoks kilsələr Qriqori, Rus, Yunan, Qüds və Serb kilsələri isə Yuli təqvimindən istifadə edirlər.

Hazırda dünyada on beş avtokefal pravoslav kilsəsi mövcuddur: Konstantinopol Ortodoks Kilsəsi, İskəndəriyyə Pravoslav Kilsəsi, Antioxiya Pravoslav Kilsəsi, Qüds Pravoslav Kilsəsi, Rus Pravoslav Kilsəsi, Gürcü Pravoslav Kilsəsi, Serb Pravoslav Kilsəsi, Rumın Pravoslav Kilsəsi, Bolqar Pravoslav Kilsəsi, Kipr Pravoslav Kilsəsi, Yunan Pravoslav Kilsəsi, Alban Pravoslav Kilsəsi, Polşa Pravoslav Kilsəsi, Çexiya torpaqları və Slovakiyanın Pravoslav Kilsəsi, Amerikan Pravoslav Kilsəsi. Pravoslav aləmdə vahid dini mərkəz olmasa da, nüfuzuna görə Konstantinopol Ortodoks Kilsəsi ilk yerdə gəlir. Bu kilsənin rəsmi adı belədir: Ümumdünya Konstantinopol Patriarxatlığı[9].

Bununla yanaşı, həmin avtokefal kilsələrdən hər hansı birisinə tabe olan muxtar pravoslav kilsələri də var. Bu kilsələr daxili məsələlərin həllində müstəqilliyə malikdirlər. Həmçinin elə pravoslav kilsələr var ki, özlərini avtokefal elan ediblər, lakin onların müstəqilliyi heç bir avtokefal pravoslav kilsəsi tərəfindən tanınmayıb. Onlardan biri Kiyev Patriarxatlığının Ukrayna Pravoslav Kilsəsidir[10].

Pravoslavlıq katolisizm və protestantlıqdan sonra Xristianlığın sayca üçüncü ən böyük qoludur. 2003-cü ilin məlumatına görə, dünyada pravoslavların sayı 180 milyon təşkil etmişdir. Ən çox pravoslav isə Rusiyada cəmləşib. Beləliklə, Rus Pravoslav Kilsəsinin avtokefal kilsələr arasında ən çox mənsubu var[11]. Odur ki, Rus Kilsəsinin tarixi haqqında qısaca məlumat vermək düzgün olardı.

988-ci ildə Kiyev Rus dövlətinin başçısı knyaz I Vladimir Svyatoslaviç

---

9 - ПОСОБИЕ для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций (разработано сотрудниками ФАДН России, МВД России и Минюста России). - с. 4-5 [Elektron resurs]. – URL:http://fadn.gov.ru/system/attachments/attaches/000/028/385/original/Пособие_по_религии_ФАДН_России.pdf?1480427867 (müraciət tarixi: 16.12.2016-cı il).

10 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с.26.

11 - Yenə orada. – s. 27-28.

vəftiz olunur və Xristianlığı dövlət dini elan edir. Həmin tarixdən Rus Kilsəsi təşəkkül tapmağa başlayır. Lakin indiki Rusiyanın ərazisində Xristianlığın yayılması daha əvvəlki dövrlərə təsadüf edir. 990-cı ildə Kiyev Rus dövlətində Bizans kilsəsinin (Konstantinopol Pravoslav Kilsəsi) müstəqil mitropoliyası yaradılır. XV əsrin ortalarından Rus Kilsəsinin başçıları "Moskva və bütün Rusiyanın mitropoliti" titulunu daşımağa başlayırlar. IV İvan (Qroznı) dövründə Rus Kilsəsi dirçəliş dövrünü yaşayır, 1589-cu ildə Rusiyada Patriarxatlıq təsis edilir, mitropolit İov isə ilk rus patriarxı olur. 1590-cı ildə Konstantinopolda keçirilən kilsə məclisində Rus Kilsəsinin avtokefallığı tanınır[12].

XVII əsrin ikinci yarısında patriarx Nikon tərəfindən aparılan kilsə islahatları nəticəsində Rus Pravoslav Kilsəsi iki yerə parçalanır. O, Rus Pravoslav Kilsəsini pravoslav dünyada hakim mövqeyə gətirmək istəyirdi. Çar Aleksey Mixayloviç də ona bu işdə dəstək verirdi. Bu səbəbdən Nikonun göstərişinə əsasən Rus Kilsəsində yerinə yetirilən ayinlər vahid şəklə salınaraq yunan dini ənənəsinə uyğunlaşdırılır, dini kitablara və ayinlərə düzəlişlər edilirdi[13].

Lakin ruhani sinfin bir qismi və cəmiyyətin müəyyən hissəsi yenilikləri qəbul etməkdən imtina edirdi. Bu narazılıqların fonunda rəsmi kilsənin qərarını tanımayan hərəkat meydana gəldi. Hərəkat ardıcılları "staroobryadets"lər ("köhnə ayinçilər") və ya "drevlepravoslav"lar ("köhnə pravoslavlar") adlandırıldılar[14]. Keçmişdə Rus Pravoslav Kilsəsi çar hakimiyyətinin əli ilə köhnə ayinçiləri təqib edərək onları "raskolnik", yəni təfriqəçi kimi səciyyələndirirdi.

Hazırda staroobryadets dini hərəkatı müxtəlif dini təşkilatlarla təmsil olunub. Patriarx Nikonun yeniliyini qəbul edənlərlə staroobryadetslər arasında əsas fərq bundan ibarətdir: rəsmi kilsənin mənsubları üç, köhnə ayinçilər

---

12 - Филатов С., Воронцова Л. Русская Православная Церковь. Московский Патриархат// Современная религиозная жизнь России: Опыт систематического описания. Том 1. – Москва: «Логос». – с. 2004. – с. 10-11,13-14; ПОСОБИЕ для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций. – с. 5//Там же.

13 - Филатов С., Воронцова Л. Там же. – с.14; ПОСОБИЕ для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций. – с. 23//Там же.

14 - ПОСОБИЕ для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций. - 23//Там же; С.Филатов, В. Нехотин, Л. Воронцова. Старообрядчество// Современная религиозная жизнь России: Опыт систематического описания. Том 1. – Москва: «Логос». – с. 2004. – с. 169.

iki barmaqla xaç çevirirlər. Staroobryadetslər İsa Məsihin adını "İsus", yeniliyin tərəfdarları "İisus" kimi yazırlar və s[15].

Rus Pravoslav Kilsəsinin sonrakı tarixinə gəlincə, XVIII əsrin başlanğıcında rus çarı I Pyotr kilsə islahatı keçirir, nəticədə Patriarxatlıq ləğv olunur, Rusiya imperiyasında kilsə kollegial orqanın, yəni Müqəddəs Sinodun nəzarəti altına keçir. Müqəddəs Sinodun başında ober-prokuror dayanırdı. O isə bilavasitə rus imperatoru qarşısında cavabdehlik daşıyırdı[16].

1917-ci ildə Fevral inqilabından sonra Rus Pravoslav Kilsəsinin Patriarxatlığı bərpa olunur. Sovet hakimiyyəti dövründə ağır təqiblərlə üzləşən Rus Kilsəsi SSRİ süquta uğradıqdan sonra yeni inkişaf mərhələsinə qədəm qoyur və müasir Rusiyada böyük nüfuz qazanır.

---

15 - ПОСОБИЕ для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций. – с. 23//Там же.

16 - ПОСОБИЕ для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций. - с. 5//Там же.

# RUS PRAVOSLAV KİLSƏSİ: KEÇMİŞDƏ VƏ BU GÜN

*XIX əsrdə çar qoşunlarının Azərbaycan torpaqlarına ayaq basması ilə Rus Pravoslav Kilsəsinin qədim diyarımızda təməli atılır. Çarizmin istilasından sonra rus, belorus, ukraynalı və başqa pravoslav xalqların nümayəndələrinin köçməsi nəticəsində bu Kilsə ölkəmizdə dərin kök salır və qısa müddətdə ən böyük xristian konfessiyasına çevirilir.*

*Doğrudur, ilk ruslar Şimali Azərbaycana işğaldan bir neçə əsr qabaq gəlmişlər. Hətta XVII əsrdə Şamaxıda rus tacirləri dini ehtiyaclarını ödəsinlər deyə, rus pravoslav dua evi fəaliyyət göstərirdi*[17]*. Lakin bir kilsə təşkilatı kimi Rus Pravoslav Kilsəsinin ölkəmizdəki tarixi 1815-ci ildə Qız qalasının yanında köhnə məscidin yerində "Möcüzə göstərən Nikolay çasovnyası"nın tikilməsi ilə başlayır.*

*Məmləkətimizdə mövcud olduğu iki yüz ildən yuxarı dövr ərzində bu Kilsə mürəkkəb və ziddiyyətli mərhələlərdən keçib. Çarizmin hakim dini ideologiyası kimi ölkəmizə qədəm qoyan Rus Kilsəsi imperiya dövründə böyük imtiyazlara malik olub. Buna baxmayaraq, ateist bolşevik hakimiyyətinin qurulması ilə əvvəlki üstünlüyünü itirərək etibardan düşüb, ağır sınaq və təqiblərlə üzləşib. Nəhayət, Azərbaycan xalqının yenidən müstəqillik qazanması rus pravoslavlığının dirçəlməsinə imkan verib.*

*Beləliklə, Rus Kilsəsinin ölkəmizdəki tarixinə nəzər yetirək.*

## İlk pravoslav ruslar

XIX əsrdə Rusiya imperiyasının işğalı nəticəsində Şimali Azərbaycanın etnik-dini mənzərəsi dəyişir, ölkənin müxtəlif yerlərinə rus, ukraynalı, belorus və digər pravoslav xalqların nümayəndələri köçürülür, beləcə Rus Pravoslav Kilsəsinin əsası qoyulur. Maraqlıdır ki, vaxtilə Azərbaycanda pravoslavlığın möhkəmlənməsi üçün böyük səy göstərmiş rus keşişi Aleksandr Yunitski işğal yolu ilə pravoslavlığın ölkəmizə qədəm qoyması faktını alqışlayırdı: *"Bakı şəhərinin qala divarlarında rus bayrağı dalğalanan kimi pravoslav məzhəbinin missiyası açıldı. Və İsa Məsih naminə Həvari Varfolomeyin ölümə doğru cəsarətlə getdiyi yerdə, knyaz Sisianovun başçılığı*

17 - Георгий Заплетин Г., Ширин-заде Г. Русские в истории Азербайджана. – Баку: Ганун, 2008. - s. 29.

*altında şanlı rus ordusunun hiyləgərlik və xəyanətlə mübarizə apararaq, ədalət və həqiqət uğrunda vuruşaraq həlak olduğu məkanda indi Tanrının məbədləri ucaldılır, pravoslavlığa azad şəkildə etiqad bəslənilir"*[18].

Təbii ki, yenicə tutulmuş torpaqlarda, müsəlmanların üstünlük təşkil etdiyi bölgələrdə rus, ümumən xristian əhalisinin artması və pravoslavlığın yayılması çarizmin maraqlarına cavab verirdi. Çünki rus imperiyası regionun xristianlaşdırılması və ruslaşdırılması yolu ilə dayaqlarını möhkəmləndirməyə çalışırdı. Pravoslavlıq isə imperiyanın əsas ideoloji sütunlarından sayılırdı. Rus Kilsəsi də yerlərdə çarizmin maraqlarının qoruyucusu kimi çıxış edirdi.

XIX əsrdə məskunlaşan rusların sosial mənşəyinə gəlincə, ölkəmizdə yerləşən erkən pravoslav rus kontingentinin əsas hissəsini hərbçilər, müstəmləkə üsuli-idarəsinin məmurları, onların ailə üzvləri təşkil edirdi[19]. Bu amil isə ilk pravoslav rus təsisatlarının xarakterinə təsir göstərirdi, çünki hərbçi və məmurların dini tələbatlarının ödənilməsi üçün mülki deyil, hərbi prixodlar təsis olunmalı idi. Şamaxıdakı rus pravoslav məbədlərindən bəhs edən A.Yunitski hərbi prixodların tarixi zərurət səbəbilə yarandığını qeyd edərək yazırdı: "*...təbii ki, Şamaxıda, ilk növbədə, hərbi keşişlə olan hərbi prixod yaranmalı idi. İlk vaxtlar onun yanında pravoslav mülki məmurlar və pravoslav rus əhli məskunlaşırdı"*[20].

Pravoslav rusların Azərbaycandakı tarixindən danışarkən Bakı şəhərini ayrıca qeyd etmək lazımdır, çünki ölkəmizdə ilk rus kilsəsi məhz Bakıda ucaldılmışdı. Həmçinin başqa yerlərlə müqayisədə şəhərdə daha çox rus kilsəsi tikilmişdi.

## İlk rus kilsəsi

Ölkəmizdə ilk rus kilsəsi 1815-ci ildə Bakıda tikilib. O dövrdə Bakının ərazisi əsasən, İçərişəhərin qala divarları və ətrafı ilə məhdudlaşırdı. Şəhər əhalisinin sayı da az idi. Habelə XIX əsrin 40-cı illərində inzibati əhəmiyyətinə görə Bakı şəhəri Şamaxı və Gəncədən sonra gəlirdi. Çünki həmin şəhərlər

---

18 - Юницкий А. История церквей и приходов Бакинской губернии: 1815-1905 гг. – Баку: Изд. Бакинского Братства законоучителей, 1906. – с. 28.
19 - Bax: Əhədov A. Azərbaycanda din və dini təsisatlar. – B.: Azərnəşr, 1991. – s. 21.
20 - Юницкий А. Указ. соч. – с. 88.

quberniya mərkəzləri olublar. Buna baxmayaraq, Azərbaycanda ilk rus pravoslav məbədi Şamaxı və Gəncədə deyil, məhz Bakıda ucaldılıb. Bu isə şəhərin coğrafi və strateji önəmindən xəbər verir.

Sual yarana bilər ki, niyə Bakı belə əhəmiyyət kəsb edirdi? Məsələ burasındadır ki, Xəzər dənizində ən yaxşı liman bu şəhərdə yerləşirdi. Habelə Bakıdan mühüm ticarət yolları keçirdi. Ona görə də digər Azərbaycan şəhərlərindən fərqli olaraq, Bakıda təkcə rus həbçi və məmurları deyil, həm də İranla alış-veriş edən rus tacirləri də məskunlaşırdı[21]. Məsələn, A.Yunitski öz əsərində XIX əsrin 70-ci illərinə kimi Bakıda yalnız azərbaycanlı və rusların mehriban şəraitdə yaşadığını, ermənilərin şəhərə sonradan ayaq açdığını bildirərək rus əhalisinin məşğuliyyəti barədə yazırdı: *"O vaxtlar rusların əllərində az qala bütün şəhər ticarəti, şəhər istehsalı cəmləşirdi; onlar çörəkbişirənlər, çəkməçilər, xarratlar, arabaçılar, poçt sahibləri, arşınmalçılar və buna bənzər sənət sahibi idilər"*[22].

İlk vaxtlar Bakıda yalnız səyyar hərbi kilsə vardı. Rusların məbədə ehtiyac duyduğunu görən Qafqazdakı rus qoşunlarının baş komandanı general-leytenant F.Rtişev 1815-ci ildə Bakı və Gəncədə pravoslav kilsələrinin tikilməsi təşəbbüsü ilə çıxış edir və təqribən üç ildən sonra şəhər əhalisinin ianələri hesabına "Müqəddəs Miro-Likiyalı Möcüzə göstərən Nikolay" rus pravoslav məbədi ucaldılır (bu ibadətgaha "köhnə" və ya "ən birinci kilsə" də deyirdilər)[23].

"Bakı və bakılılar" əsərində verilən məlumata görə "Möcüzə göstərən Nikolay kilsəsi"nin tikinti xərcini azaltmaq məqsədilə o, qala divarları içərisində, şəhərin mərkəzində, bazarın böyründəki köhnə bir məscidin yerində (Qız qalasının yaxınlığında – A.Ə.) inşa edilmişdi. Ruslar Bakını tutandan sonra bu əski məscidin binası həbsxanaya, daha sonra isə hərbi ərzaq mağazasına çevrilmişdi. Bu kilsənin avadanlığı Tiflisdən gətirilmiş və yenə həmin şəhərdən keşiş – milliyyətcə gürcü David İvanov dəvət olunmuşdu[24].

Bakıdakı ilk rus pravoslav kilsəsi böyük deyildi. Kilsə divarlarının

21 - Bax: Церковь Св. Николая Миро-Ликийского Чудотворца (Старая, или Первоначальная) [Elektron resurs]. – URL:https://www.ourbaku.com/index.php/Церковь_Св._Николая_Чудотворца_(Старая,_или_Первоначальная) (müraciət tarixi: 31.08.2016).

22 - Юницкий А. Указ. соч. – с. 52.

23 - Bax: Церковь Св. Николая Миро-Ликийского Чудотворца (Старая, или Первоначальная)//там же.

24 - Bax: Qılman İlkin (Musayev Q). Bakı və bakılılar (dördüncü nəşr). – Bakı: Kitab Klubu, 2015. – s. 115-116.

üzərində iki günbəz ucalırdı. Günbəzin birisində dörd pəncərə vardı. Onu qızıl suyuna salınmış dəmir xaç bəzəyirdi. O biri daş günbəzin üstündə isə dəmir xaç yüksəlirdi. Məbədin düz yanında daş sütunlar üzərində taxta zəng gülləsi dayanırdı[25].

Onu da deyək ki, sözügedən ibadət yeri "batalyon kilsəsi" kimi də tanınırdı. Belə ki, 1868-ci ildə 21-ci Qafqaz nizami batalyonunun adı 66-cı Bakı quberniyası batalyonuna (gələcəkdə Salyan polku) dəyişdirilir və bu qoşun hissəsi Lənkərandan Bakıya köçürülür. Batalyonda ştatlı keşişlər çalışırdı. Onlar "Möcüzə göstərən Nikolay" kilsəsində xidmət göstərdikləri üçün şəhərdəki ilk rus pravoslav ibadətxanası "batalyon kilsəsi" adını alır[26].

"Bakı quberniyasının kilsə və prixodlarının tarixi" əsərində sözügedən ibadət yerinin sonrakı aqibəti ilə bağlı verilən məlumatlardan belə aydın olur ki, 1869-cu ildə köhnə olduğu üçün kilsə dindarların üzünə bağlı idi. 1870-ci ildə o, tamamilə uçur. 1858-ci ildə əski kilsənin katolik kostyola və ya tatar məscidinə çevrilməsi barədə məsələ qaldırılır. Nəhayət, ibadətgahın sökülməsi və yerləşdiyi ərazidə pravoslav kilsəsinin xeyrinə dükanın inşa olunması barədə qərar verilir. Sonradan isə dağılan ibadətxananın yerində "Müqəddəs Varfolomey" kilsəsi ucaldılır[27].

"Möcüzə göstərən Nikolay" məbədinin inşası üçün müsəlmanların xeyli ianə verdiklərinə diqqət çəkən Ə.Paşazadə bu kiçik kilsənin sonu ilə bağlı yazır: *"1892-ci ildə köhnə pravoslav məbədinin binası lazım olmadığı üçün sökülür. "Köhnə" kilsənin fundament və döşəməsini sökən vaxtı məlum olur ki, bünövrənin dərinliyi təqribən iki yarım metrdir. Döşəmənin altında uşaq qəbri var idi. Onun nəşi ümumi pravoslav qəbiristanlığına köçürülür"*[28].

Beləliklə, ölkəmizdəki ilk pravoslav məbədinin varlığına son qoyulur, bu kilsə tarixə qovuşur və yuxarıda qeyd olunduğu kimi, onun yerində başqa rus kilsəsi – "Müqəddəs Varfolomey" məbədi ucaldılır.

---

25 - Bax: Церковь Св. Николая Миро-Ликийского Чудотворца (Старая, или Первоначальная)// там же.

26 - Bax: Церковь Св. Николая Миро-Ликийского Чудотворца (Старая, или Первоначальная)// там же.

27 - Юницкий А. Указ. соч. – с. 33.

28 - Bax: Мечети и церкви старого Баку / Э. М. Паша-Заде; рец.: М. Ф. Джалилов, Р. Р. Абдуллаев. - Баку: Элм, 1997. - с.110-111.

## Bakı çasovnyaları



*"Müqəddəs Varfolomey" sövməəsi*

1892-ci ildə dindarların şəxsi ianələri hesabına memar Edelin layihəsi əsasında daşdan inşa olunmuşdu. Onun tikintisinə təqribən iki min rubl xərclənmişdi. O, ənənəvi rus memarlıq üslubunda ucaldılmışdı. Bu kiçik kilsənin üzərinə aynalı xaç dikilmişdi. Hər gün səhərdən gecəyədək dindarların üzünə açıq olan məbədin xüsusi anbarında ikonalar və pravoslav ədəbiyyatı saxlanılırmışdı[29].

"Müqəddəs Varfolomey" kilsəsi Bakıda yeganə pravoslav çasovnyası deyildi. Ondan əvvəl daha bir kiçik kilsə tikilmişdi. Bu məbəd Bakıda ucaldılan ilk rus pravoslav çasovnyası olmuşdu. Həmin sövməənin tikilmə hekayəsi belədir: "Müqəddəs Aleksandr Nevski" kilsəsinin təməlqoyma mərasimi zamanı rus çarı III Aleksandr və ailəsini layiqincə qəbul etmək üçün xüsusi taxta pavilyon qurulmuşdu. Taxta tikili sonradan çasovnyaya çevrilmişdi. Aleksandr Nevskinin şərəfinə düzəldilən bu çasovnya 1889-cu ildə şəxsi ianələr və kilsə təşkilatının vəsaiti hesabına inşa edilmişdi. Pavilyon şəklində olan çasovnyanın üstü dəmirlə örtülmüşdü[30]. Çasovnya taxtadan olduğu üçün 1903-cü ildə sökülmüş və yerində yeni kiçik daş kilsə ucaldılmışdı[31].

## Hakim kilsənin qələbəsi: arxiv sənədlərin izi ilə

Çar Rusiyasında pravoslavlıq dövlət dini statusunda idi. Pravoslavlıq çar mütləqiyyətinin siyasi-ideoloji sütununu təşkil edirdi. Odur ki, Rusiya imperiyasında istər müsəlmanlar, istər katoliklər, istər rus təriqətçiləri pravoslavlarla müqayisədə daha az hüquqlara malik idilər. Hətta pravoslav əhali

29 - Юницкий А. Указ. соч. – с. 32-33.
30 - Yenə orada. - s. 32.
31 - Часовня Александро-Невская [Электрон ресурс]. – URL: https://www.ourbaku.com/index.php/Часовня_Александро-Невская (müraciət tarixi: 13.08.2016).

arasında yad inancları təbliğ edənlər cəzalandırılırdı. Pravoslav keşişlərin özləri də arzuolunmaz dini elementlərin təqibində canfəşanlıq edərək çar məmurlarına hər cür kömək göstərirdilər. Bir sözlə, çar rejimi başqa din və məzhəblərə mənsub olanların haqlarının tapdalanması bahasına olsa belə, pravoslavlığın marağını hər şeydən üstün tuturdu.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində "Pravoslav baş kilsəsinin tikintisi üçün yerin ayrılmasına dair Bakı qubernatoru ilə yazışma" adlı qovluqda (f.389, s. 70, iş 54, v.68) mühafizə olunan gizli məktublaşmalar yuxarıda deyilənlərin bariz sübutudur. Bu məxfi sənədlərlə tanış olarkən çar müstəbid rejimi tərəfindən pravoslavlığın necə müdafiə olunduğuna bir daha əmin oluruq. Köhnə müsəlman qəbiristanlığının yerində böyük rus kilsəsi tikilsin deyə, çarizm qanunları çeynəyir, yerli müsəlman əhalinin haqlarını tapdalayırdı. Qısası, tarixi sənədləri araşdırarkən o vaxtlar Bakıda bir köhnə müsəlman məzarlığı ətrafında böyük həngamə qopduğunu, intriqaların baş verdiyini görürük.

Belə ki, 26 aprel 1879-cu ildə Bakı qubernatoru Valerian Mixayloviç Pozen Bakı şəhər başçısı Stanislav İvanoviç Despot-Zenoviçə gizli məktub ünvanlayaraq şəhərdə böyük rus məbədinin tikintisinə ehtiyac yarandığını bildirir və qeyd edir ki, Müqəddəs Nikolay Baş kilsəsinin baş keşişi Lyapidevski köhnə müsəlman qəbiristanlığının yerində böyük rus kilsəsi tikməyi təklif edib[32]. Baş keşişin bu seçimi təsadüfi deyildi, çünki o vaxtlar sözügedən əski müsəlman qəbiristanlığı şəhərin ən gözəgəlimli yerində yerləşirdi. Və burada ucaldılacaq məbəd Bakının hər yerindən görünməliydi.

Lyapidevskinin təklifini nəzərə alan şəhər qubernatoru S.İ.Despot-Zenoviçdən xahiş edir ki, şəhərin nüfuzlu müsəlmanları ilə gizli görüş keçirsin və müsəlman qəbiristanlığının yerində böyük rus kilsəsinin tikintisinə dair onların rəyini öyrənsin. Öz növbəsində, şəhər başçısı V.M.Pozenə 1742 saylı, 27 iyul 1879-cu il tarixli məxfi məktub göndərərək şəhərin nüfuzlu müsəlmanları ilə görüşdüyünü və onların rəyini öyrəndiyini bildirir. Bu məktubdan belə məlum olur ki, qəbiristan ərazisində rus kilsəsinin tikilməsi məsələsinə şəri cəhətdən fikir bildirən nüfuzlu müsəlman ruhaniləri "qəbirlərdə sümüklər tamamilə çürüyənə kimi ölülərin dəfn olunduğu hər bir yer toxunulmaz sayılır" deyiblər. Eyni zamanda, müsəlman ruhaniləri qəbiristanlığın yerində

32 - ARDTA, f. 389, siy. 3, iş. 54, vər. 2.

rus kilsəsinin tikintisinə etiraz etmədiklərini, hətta bütün məscidlərdə vəz edərək şəhər camaatını bu həssas məsələyə hazırlayacaqlarını qeyd ediblər. Onlar vurğulayıblar ki, müsəlmanlar *"...Uca Yaradana ibadət yeri olan xristian baş kilsəsinə, öz məscidlərinə hörmət göstərdikləri kimi, mütləq şəkildə hörmət bəsləyirlər"*[33].

Şəhər qlavası ilə müsəlman nümayəndələri arasında aparılan müzakirələr zamanı o da aydın olur ki, sözügedən müsəlman qəbiristanlığında axırıncı dəfə dəfn 1859-cu ildə həyata keçirilib. Ona görə də şəhərdə xeyli ailə var ki, ölüləri həmin məzarlıqda torpağa tapşırılıb. Odur ki, qəbirlərin dağıdılması gizli narazılıq oyada bilər. Hacı Zeynalabdin Tağıyev başda olmaqla, müsəlman nümayəndə heyəti böyük rus kilsəsini başqa yerdə, dənizə yaxın ərazidə - Mariyinski bağının (indiki Xaqani bağı) arxasında ucaltmağı tövsiyyə edir, çünki bu həm söz-söhbətin qarşısını alacaq, həm də "şəhərə gözəl görkəm verəcəkdir". Eyni zamanda, müsəlman nümayəndə heyəti bir daha öz alicənablığını göstərərək böyük rus məbədinin inşası məqsədilə müsəlman əhalidən ianə toplamaq üçün əlindən gələni etməyə hazır olduğunu bildirir və müsəlman qəbiristanlığını çəpərləmək, ərazisində sərv və əncir ağacları əkmək, eləcə də qəbirlərin olmadığı yerdə mədrəsə tikmək istədiyini deyir[34].

Bu gizli yazışmadan gördüyümüz kimi, yerli nüfuzlu azərbaycanlılar bir müsəlman məzarlığının yerində böyük kilsənin ucaldılması kimi həssas mövzuya anlayışla yanaşıblar. Dözümsüzlüyə yol verməyərək öz xeyirxah niyyətlərini ortaya qoyublar, yüksək tolerantlıq örnəyi göstərərək şəhərdə böyük rus məbədinin inşası işində öz töhfələrini verməyə hazır olduqlarını ifadə ediblər. Sadəcə öz atalarının uyuduğu məkanı çəpərləmək və ağaclarla bəzəmək arzusunda olduğunu dilə gətiriblər. Şəhər bələdiyyəsinin başçısı Polyak Despot-Zenoviç də müsəlman heyətin arzu və təkliflərini haqlı bildikdən sonra Bakı Şəhər Duması kilsənin tikintisi üçün başqa yerləri (Kolyubakin meydanı (indiki Fəvvarələr meydanı), Teatr meydanı, Vağzal meydanı və s.) nəzərdən keçirməyə başladı və soborun ucaldılması məqsədilə pravoslav ruslara müxtəlif əraziləri təklif etdi.

Di gəl ki, əsl mərəkə bundan sonra qopdu, çünki şəhərdə israrla müsəlman qəbiristanlığının üzərində böyük kilsə ucaltmaq istəyənlər vardı. Onlar şəhər

33 - ARDTA, f. 389, siy. 3, iş. 54, vər. 2,6-7.
34 - ARDTA, f. 389, siy. 3, iş. 54, vər. 7-8.

bələdiyyəsinə və onun başçısı Despot-Zenoviçə qara yaxaraq bildirirdilər ki, guya etiqadca katolik olan şəhər qlavası şəhər bələdiyyəsindəki müsəlman qlasnıları ilə əlbir olaraq Bakıdakı pravoslavları sıxışdırırdı. O vaxtlar köhnə müsəlman qəbiristanlığı ətrafında qızışan hadisələrin baş aktyorlarından biri olan protoiyerey A.Yunitski belə iddia irəli sürənlərdən biri idi. Bu iddialara onun əsərində də rast gəlmək mümkündür: *"Vəziyyət o yerə çatır ki, şəhər Bakı pravoslav soborunun tikintisi üçün yaxşı yer (müsəlman qəbiristanlığı –* ***A.Ə.****) ayırmaq istəmirdi; Duma pravoslav ruhanilərini mənzil kirayəsi üçün nəzərdə tutulmuş pullardan məhrum edir. Bakı şəhərində rus pravoslav nüfuzunun azaldılması üçün başqa tədbirlər də həyata keçirilir. Şəhər Duması və idarəsinin başına polyak keçir; onun ən yaxın köməkçiləri yerli qüdrət sahibləridirlər... Diqqətəlayiq məqam odur ki, Bakı şəhərində Məktəb komissiyasının tərkibində yaradıldığı gündən bəri yerli pravoslav ruhani heyətindən bir nəfər də üzv yox idi"*[35].

Qısası, şəhərin baş pravoslav keşişi A.Yunitski şəhər bələdiyyəsinə qarşı açıq mübarizəyə keçir, Gürcüstan ekzarxını öz tərəfinə çəkməyə çalışırdı. Yerli çar məmurları da boş durmurdular. Məsələn, Bakı Nəzarət Palatasının sədri Kaçurin Daxili işlər nazirinə Bakı Şəhər Bələdiyyəsi ilə bağlı donos yazır. Azərbaycanlı tarixçi Ə. Paşazadə bu haqda deyir: *"Hələ tikintisi başlanılmayan baş kilsənin ətrafında qızışan ehtiraslar son həddə çatır, hər şey hərlənir-fırlanır. Bakı qubernatoruna "rus pravoslavlarının" təşkil olunmuş petisiyalı müraciətləri ünvanlanmağa başlayır, Bakı Nəzarət Palatasının sədri Kaçurin daxili işlər nazirinə növbəti donos göndərir. Protoiyerey A.Yunitski Gürcüstan ekzarxı mitropolit Pavellə aktiv məktublaşırdı və s. və i.a."*[36].

4 mart 1884-cü ildə Mixail Kaçurinin Daxili işlər naziri D.A.Tolstoya yolladığı donosla tanış olarkən çar məmurlarının yerli müsəlman camaatına necə aşağı gözlə baxdığını görürük. Belə ki, şəhər bələdiyyəsi və onun katolik başçısından gileylənən M.Kaçurin donosunda "dövlət kilsəsinin ilahi məbədinin yaradılması kimi" pravoslavlar üçün çox əhəmiyyətli olan məsələyə Bakı Şəhər Dumasının "başdansovma və saymazyana" yanaşdığını deyirdi. Daha sonra bu çar məmuru donosunda yerli müsəlmanlara qara yax-

35 - Yunitski A. Sitat gətirilən əsəri. - s.53.
36 - Paşa-zadə Ə. Sitat gətirilən əsəri. - s. 171.

araq onların xristianlara qarşı guya dözümsüz yanaşdığını bildirirdi. Həmçinin köhnə müsəlman qəbiristanlığının çəpərlənməsi məsələsinə toxunaraq iddia edirdi ki, əski məzarlığın hasarlanması "özlərini başqalarından təcrid etmək, fanatizmi süni şəkildə oyatmaq və hətta başqa şəhər sakinləri üzərində bir qədər, faktiki üstünlüklərini hiss etmək üçün" yerli müsəlman camaatına "yeni qida verə bilər"[37].

Bakı şəhər başçısına ünvanladığı 2 mart 1884-cü il tarixli məktubunda qəbiristanlığın hasarlanması məsələsinə toxunan M.Kaçurin yerli camaat haqda daha ağır ifadələr işlədir: *"Tatarlar üçün isə qeyd olunan hasar fanatizmə bərabər olan dar maqometan özünüdərkin inkişafı üçün yeni qida ola bilər"*[38]. Bu çuğulçu məktublar açıq-aydın onu göstərir ki, hətta müsəlman qəbiristanlığının hasarlanması kimi kiçik məsələlər çar məmurlarını təşvişə salır, onlar belə təşəbbüsləri milli şüurun oyanmasına gətirə biləcək cəhdlər kimi qiymətləndirirdilər.

M.Kaçurinin bu donosundan qəzəblənən Despot-Zenoviç 9 may 1884-cü ildə Qafqaz canişini knyaz A.M.Dondukov-Korsakova izahat məktubu yazır. O, məktubunda Kaçurinin iddialarının əsassız olduğunu faktlarla ortaya qoyaraq, çuğulçunun əsl niyyətini ifşa edirdi. Şəhər başçısı vurğulayırdı ki, şikayətçinin əsl məqsədi say baxımından üstünlük təşkil edən yerli müsəlmanları tamamilə şəhər idarəçiliyindən uzaqlaşdırmaq və bələdiyyəni yalnız rusların idarəsinə verməkdir: *"Daxili işlər nazirinin adına ünvanlanan Bakı Nəzarət Palatasının rəisi cənab Kaçurinin məktubu ilə bağlı Siz əlahəzrətə məlumat verməyi özümə şərəf bilirəm ki, onun məqsədi ictimai idarəçilikdə yerli elementin üstünlüyünü mümkün olduqca pis qələmə vermək və sonra bu elementin aşağı salınmasının zəruriliyini ortaya qoymaqla, onu tamamilə ruslara tabe etdirməkdir"*. Yerli camaatı fanatik olmaqda günahlandıran M. Koçurinin bu ittihamına cavab verən şəhər qlavası günümüzdə də aktuallığını qoruyan tarixi sözlər yazır: *"yerli möhtərəm müsəlman əhali qətiyyən fanatik deyildir; onun məscidləri kilsələrə, artileriya sursatlarının saxlandığı anbarlara çevrilirdi və bu heç vaxt onda hər hansı etiraz oyatmırdı; gənc nəsil buradakı gimnaziyada, şəhər xalq məktəblərində və dənizçilik sinifində ruslarla birgə oxuyur. Və buna baxmayaraq rus camaatı arasında ayrı-ayrı*

37 - ARDTA, f. 389, siy. 3, iş. 54, vər.37-40.
38 - ARDTA, f. 389, siy. 3, iş. 54, vər.29.

*şəxslər peyda olur ki, şiddətləndiyi zaman dini anlaşılmazlıq yarada biləcək belə incə məsələləri qaldırırlar..."*[39].

Həmçinin M. Koçurinə cavab yazan Despot-Zenoviç bildirirdi ki, pravoslavlara müsəlman qəbiristanlığının ərazisini ayırmaq istəməyən Şəhər Duması qərarında haqlıdır, çünki Rusiya qanunvericiliyinin tələblərinə görə, yalnız məzarlığın bağlanmasından 40 il sonra ərazisində tikinti işləri aparmaq olar. Bununla yanaşı, şəhər başçısı bildirirdi ki, Duma Bakınını başqa hər hansı yerində şəhərin bütün pravoslav əhlini özündə yerləşdirə biləcək kilsənin inşası üçün böyük ərazi ayırmağa hazırdır[40].




*Əski müsəlman məzarlığının yerində nəhəng rus pravoslav kilsəsinin inşasını tənqid edən karikatura. "Molla Nəsrəddin" jurnalı. 1908-ci il.*

Qeyd edək ki, 1884-cü ilin aprel ayında Bakıya baş çəkən Qafqazdakı pravoslavların başçısı, Gürcüstan ekzarxı Pavel müsəlman qəbiristanlığı ətrafında yaranmış mübahisə ilə tanış olduqdan sonra məzarlığın yerində kilsənin ucaldılması fikrinə isti yanaşmadı. O təklif etdi ki, böyük kilsə Aleksandr Nevskinin şərəfinə Parapetdə - Kolyubakin meydanında (indiki Fəvvarələr meydanı) ucaldılsın[41].

Ancaq hadisələrin sonrakı gedişatı onu göstərdi ki, məzarlığın yerində rus kilsəsini tikmək istəyənlər Gürcüstan ekzarxı Paveli öz tərəflərinə çəkməyi bacarmışdılar. Protoiyerey Yunitski bu işdə fəal rol oynamışdı. O, 20 fevral 1886-cı ildə Bakı şəhər Dumasına 160 saylı məktub göndərərək "keçmiş tatar qəbiristanlığını" təmizləməyi tələb etmişdi[42], çünki Gürcüstan ekzarxı mitropolit Pavel və Qafqaz canişini knyaz A.M.Dondukov-Korsakov müsəlman qəbiristanlığın yerində ehtişamlı kilsə tikməyə icazə vermişdilər. Hər nə qədər Bakı şəhər Duması bu qərara qarşı çıxsa da, iş işdən keçmişdi. Belə ki, imperator III Aleksandrın özü 10 iyul 1886-cı ildə bu

39 - ARDTA, f. 389, siy. 3, iş. 54, vər.10-28.
40 - ARDTA, f. 389, siy. 3, iş. 54, vər.35.
41 - Bax: Гумбатова Т. Баку и немцы. – Баку: Чашыоглу, 2008. – с. 153-154.
42 - ARDTA, f. 389, siy. 3, iş. 54, vər.47.

kilsənin inşası ilə bağlı Qafqaz canişinin qərarını təsdiqləmişdi[43].

Beləliklə, müsəlman məzarlığının yerində kilsə tikmək arzusu ilə alışıb-yananlar qələbə qazanırlar. Çar Rusiyasında başqa cür ola da bilməzdi. Azərbaycanlı tarixçi Ə. Paşazadə bu haqda yazır: *"Ta əvvəldən çox da gizli saxlanılmırdı ki, baş kilsə "xristianların müsəlmanlar üzərində qələbə qazandıqlarını" təcəssüm etdirən bir məbəd kimi düşünülmüşdü"*[44]. Onun dediyi kimi, "Aleksandr Nevski" məbədi Rusiya istibdadı – "hökmranlıq edən Romanovlar evi"nin və dövlət dini - Rus Pravoslav Kilsəsinin mədh olunması üçün düşünülmüş və tikilmişdi[45]. Bakı şəhərində Baş kilsənin tikintisi üzrə Komitənin 784 saylı, 5 oktyabr 1886-cı il tarixli məktubunda da açıq-aydın qeyd olunurdu ki, bu böyük pravoslav məbədi rus imperatorunun hakimiyyətini təcəssüm etdirən abidə kimi ucaldılır[46]. XIX əsrin sonlarında indiki Bülbül adına Orta İxtisas Musiqi, 189 və 190 saylı Orta Ümumtəhsil məktəblərinin yerində tikilən bu möhtəşəm məbəd "Aleksandr Nevski" Baş kilsəsi və ya "Qızıllı" kilsə adı ilə tarixə düşür.

## "Qızıllı" kilsə



Vaxtilə Bakının ən gözəgəlimli yerində "Müqəddəs Aleksandr Nevski" soboru ucalırdı. Qafqazın ən böyük rus məbədi sayılan bu baş kilsə o qədər əzəmətli idi ki, şəhərin hər yerindən görünürdü. Kilsə günümüzədək gəlib çıxmasa da, köhnə Bakının fotoşəkillərinə baxanda onun necə möhtəşəm olduğunu anlamaq mümkündür. Təbii ki, belə kilsənin şəhərin mərkəzində yüksəlməsi çarizmin pravoslav etiqadına böyük dəyər verdiyini açıq-aşkar göstərirdi. Q.İlkin bu barədə yazıb: *"Əlbəttə, belə əzəmətli bir tikilinin başa çatdırılması çar müstəmləkə siyasətinin qələbəsi idi.*

43 - Ətraflı məlumat üçün bax: Мечети и церкви старого Баку. – s. 171-172.
44 - Yenə orada. - s.166.
45 - Paşa-zadə Ə. Sitat gətirilən əsəri. - s.180.
46 - ARDTA, f. 389, siy. 3, iş. 54, vər.57.

*Kilsə hazır olandan sonra müsəlmanlar o zaman, Tağıyev qız məktəbinin yeri boş olduğu vaxtlarda orada Cümə məscidi tikməyi qərara aldılar. Lakin Bələdiyyə idarəsi və çar məmurları buna mane oldular. Onların dəlili bu idi ki, orada belə məscid tikilərsə, Aleksandr Nevski kilsəsinin əzəmətinə xələl yetirə bilər. Beləliklə, müsəlmanların arzusu ürəklərində qaldı"*[47].

"Müqəddəs Aleksandr Nevski" Baş kilsəsinin təməlqoyma mərasimi də əlamətdar hadisə ilə yadda qalmışdır. Belə ki, mərasimdə iştirak etmək üçün 1888-ci ilin oktyabr ayında rus imperatoru III Aleksandr, şahzadə Nikolay Aleksandroviç (gələcək rus çarı) və çar ailəsinin digər üzvləri Bakıya gəlmişlər. 8 oktyabr 1888-ci ildə təmtəraqlı surətdə sözügedən məbədin təməli atılmışdır. Ali qonaqların hər biri gələcək kilsənin bünövrəsinə bir kərpic və qızıl pul qoymuşdur. Həmçinin bünövrəyə kilsənin özül daşının kimin tərəfindən və nə vaxt qoyulduğunu göstərən qızıl suyuna salınmış lövhə, prestolun (taxt-tac) qarşısındakı altar divarına isə müqəddəs nəşdən bir hissə yerləşdirilmişdir. Gələcək ehtişamlı məbədin ilk kərpiclərini çarın özü hörmüşdür[48].



47 - "Bakı və bakılılar". – s. 352.
48 - Paşa-zadə Ə. Sitat gətirilən əsəri. - s. 173.

Maraqlısı odur ki, “Aleksandr Nevski” Baş kilsəsi üçün təməl qazılan zaman bu məzarlığın daha qədim tarixə malik olduğu ortaya çıxmış, ehtimala görə tunc dövrünə aid olan daş qutu qəbirlər aşkar olunmuşdur[49].

Kilsənin layihəsinin müəllifi akademik R.R.Marfeld idi. “Aleksandr Nevski” kilsəsi kimi möhtəşəm məbədin tikintisinə böyük maliyyə vəsaiti lazım olduğundan 1891-ci ildə büdcədən düz 300 min rubl ayrılır. Yenə həmin il Bakıya sözügedən kilsənin inşasına rəhbərlik etmək üçün memar D.A.Tesmin gəlir. Lakin layihə və iş şəraiti ilə tanış olduqdan sonra bu memar tikinti işlərinə başçılıq etməkdən boyun qaçırır. Bu çətin və məsuliyyətli işi qorxmadan-çəkinmədən öz üzərinə Peterburq İnsitutunun məzunu, ixtisasca mülki mühəndis və etiqadca katolik olan 25 yaşlı polyak İosif Vikentyeviç Qoslavski götürür. Heç kəs deyə bilməzdi ki, 1891-ci ildə ilk dəfə Bakıya ayaq basan bu təcrübəsiz gənc memarın istedadı və gərgin əməyi nəticəsində şəhər gözəl binalarla bəzənəcək. Onun ən məşhur əsərlərindən biri Azərbaycanın paytaxtına xüsusi gözəllik verən Bakı Şəhər İcra Hakimiyyətinin (keçmiş Baki Şəhər Dumasının) binasıdır[50].

“Aleksandr Nevski” məbədinin layihəsi hazırlanarkən Moskvanın Qızıl Meydanında yerləşən Vasili Blajennı kilsəsi örnək götürülmüşdür. İ.Qoslavski “Müqəddəs Aleksandr Nevski” kilsəsinin tikintisini incə detallaradək düşünsə də, inşaat işləri çox çətinliklə gedirdi. Təməlqoyma mərasimindən düz 10 il keçəndən sonra, yəni 1898-ci ildə bu ehtişamlı pravoslav məbədinin qapıları şəhər sakinlərinin üzünə açıldı. Həmin il oktyabrın 8-də kilsənin təqdisolunma mərasimi keçirildi. Səhər saat 9-da başlayan mərasimdə Gürcüstan ekzarxı arxiyepiskop Flavian, Bakı şəhərinin nüfuzlu şəxsləri, müxtəlif konfessiya rəhbərləri və xeyli şəhər sakini iştirak edirdi[51].

“Aleksandr Nevski” Baş kilsəsinin qədim müsəlman məzarlığının yerində tikilməsinə baxmayaraq, azərbaycanlı müsəlmanlar kin saxlamayaraq bu məbədin inşasına öz töhfələrini verdilər. Məsələn, kilsənin tikintisinə cavabdehlik daşıyan komitə 1891-ci il üzrə hesabatında göstərirdi ki, “Aleksandr Nevski” soborunun inşası üçün 12 min rubl toplanmışdı. ***Bu məbləğin xeyli hissəsini isə Bakının müsəlman əhalisi tərəfindən verilən ianələr***

49 - Bax: Мечети и церкви старого Баку. – s. 166-167.

50 - Bax: Paşa-zadə Ə. Yenə orada. – s. 173-174.

51 - Yenə orada. – s.173-175.

***təşkil etmişdi[52]. Kilsənin açılışı münasibəti ilə Hacı Zeynalabdin Tağıyev düz 10 min rubl bağışlamışdı. Azərbaycanlı xeyriyyəçi həmin məbləğdən 3 min rublu Bakıdakı pravoslav kilsə-prixod məktəblərinin ehtiyacı üçün ayırmışdı[53].***



*Hacı Zeynalabdin Tağıyev (1823-1924)*

Bu ehtişamlı pravoslav məbədinə baxarkən, ilk növbədə, onun qızıl rənginə çalan, par-par parıldayan qübbələri gözə çarpırmış. Odur ki, Bakı camaatı arasında bu ibadətgah "Qızıllı" kilsə adı ilə şöhrət tapmışdı. Dörd qülləli, xaç şəklində ucaldılan "Qızıllı" kilsəni günbəzlər, kiçik bürclər, yuxarı doğru uzanan millər bəzəyirdi. Məbəd üç çıxışı olan örtülü qalereya ilə əhatə olunmuşdu. Üzdən Moskvadakı "Vasili Blajennı" məbədini, daxildən isə "Xilaskar İsa Məsih" kilsəsini xatırladırdı. 1700 nəfərin ibadəti üçün nəzərdə tutulan ibadətxananın ətrafı bağça və çəpərlə əhatə olunmuşdu. Kilsədə böyük knyaz Aleksandr Nevski, Müqəddəs Nikolay Möcüzə göstərən və Müqəddəs Varfolomeyin şərəfinə qurulan üç prestol və dəyərli ikonalar vardı[54].

"Müqəddəs Aleksandr Nevski" Baş kilsəsinin hündürlüyü 85 metr, uzunluğu təxminən 55 metr, eni isə 44 metr olmuşdu. Məbədin içərisi müxtəlif növlü, bahalı mərmərlərlə üzlənmiş, rəsm və yapma naxışlarla, sonrakı illərdə isə rəssam Yarovun əsərləri ilə bəzədilmişdi. Kilsənin daxilində isə görünən yerdə rus çarı II Aleksandr tərəfindən 1853-1855-ci illərdə Şərq müharibəsi zamanı göstərilən şücaət və qəhrəmanlığa görə Şamaxı quberniyasının əhalisinə verilən təşəkkürnamə asılmışdı. Perqament üzərində yazılmış çarın bu fərmanı çox gözəl çərçivəyə salınmışdı. Ümumiyyətlə, kilsədəki bütün əşyalar olduqca bahalı idi. Məsələn, keşişlər üçün ibadət libasları Moskvadakı "Sıtova nasledniki" mağazasından, bütün kilsə ləvazimatları, qiymətli gümüş qablar və İncilin özü məşhur moskvalı fabrik sahibi

52 - Paşa-zadə Ə. Sitat gətirilən əsəri. – s. 173.
53 - Bax: "Bakı quberniyasının kilsə və prixodlarının tarixi". – s. 31.
54 - Bax: Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. – Bakı: Azərnəşr, 1987. – s.21; Гумбатова Т. Указ. соч. – с. 380.

Xlebnikovdan alınmışdı. Kilsə zəngləri Finləndskinin Moskva zəng tökmə zavodunda düzəldilmişdi[55].

"Aleksandr Nevski" Baş Kilsəsinə böyük dəyər verilirdi. Bu məbəd az qala şəhərdə ən əhəmiyyətli tikili sayılırdı. Ona görə də onun ətrafında yalnız gözəl binaların inşasına icazə verilərdi. Həm də o şərt irəli sürülərdi ki, bu binalar baş kilsədən hündür olmasın. Kilsənin necə böyük əhəmiyyətə malik olduğunu göstərən digər fakt odur ki, bir vaxtlar Bakıda cəmi iki yerdə asfalt döşəmə vardı – biri "Aleksandr Nevski" soboru, digəri isə Qalabəyi (Qradonaçalstvo) idarəsinin qabağında. Döşəmələrin hər birinin uzunluğu 500 metr idi[56].

## İlk Baş kilsə



Bakı şəhərində "Aleksandr Nevski" soboru ilə yanaşı, daha bir rus pravoslav baş kilsəsi fəaliyyət göstərirdi. Özü də bu sobor daha əvvəl tikilmişdi. Belə ki, Azərbaycanda 1815-ci ildə tikilən ilk rus pravoslav kilsəsi – "Müqəddəs Möcüzə göstərən Nikolay" məbədi kiçik və naqolay olduğu üçün daha böyük kilsənin inşasına qərar verilir. Bunun üçün 29 iyun 1821-ci ildə tikinti komitəsi yaradılır. Komitə yerli sakindən torpaq sahəsi alaraq onun yerində pravoslav məbədi inşa etmək istəyir. Lakin sonra fikrindən daşınaraq Şirvanşahlar sarayını nəzərdən keçirir, bu tarixi abidənin yer-

55 - Bax: Paşa-zadə Ə. Yenə orada. – s.177-181.
56 - Bax: Süleymanov M. Sitat gətirilən əsəri. – s.25.

ində böyük pravoslav məbədi ucaltmaq istəyir. Lakin xoşbəxtlikdən Qafqaz canişini A.P.Yermolov buna qarşı çıxır. Onda komitə bu sarayın yanında yerləşən iki məsciddən birini kilsəyə çevirmək arzusuna düşür. Ancaq məsələnin həssaslığını gözəl başa düşən mühəndis Truzson bunu etməməyi tövsiyə edir. Nəhayət, uzun müzakirələrdən sonra yeni kilsənin İçərişəhərdə Qoşa Qala qapısının düz yanında köhnə hamamın yerində tikilməsinə dair qərar verilir. 18 mart 1850-ci ildə ibadət yerinin təntənəli təməlqoyma mərasimi keçirilir, məbədin bünövrəsinə üzərində özülün qoyulma tarixi həkk olunan gümüşü və qızıllı lövhəcik, habelə gümüş pullar qoyulur. Bu pullar şəhər əhalisi tərəfindən ianə olaraq verilmişdi. Təməlqoyma mərasimində mülki və hərbi hakimiyyətin nümayəndələri iştirak edirlər[57].



28 oktyabr 1857-ci ildə inşası sona yetən bu pravoslav ibadət yerinə Bakıdakı ilk rus kilsəsinin adı qoyulur və məbəd "Müqəddəs Möcüzə göstərən Nikolay" Baş kilsəsi kimi tarixə düşür. 4 may 1858-ci ildə baş kilsə mitropolit İsidor tərəfindən təqdis olunur. İkonostas (ikonaların asıldığı divar) istisna olunmaqla, "Müqəddəs Nikolay" Baş kilsəsinin tikintisi 14 436 rubla başa gəlmişdi. Bu məbləğdən 1000 rublu rus imperatoru I Aleksandr vermişdi. 8000 min rubl isə büdcədən ayrılmışdı. Qalan məbləği isə şəhər əhalisindən yığılan ianələr təşkil etmişdi. Diqqətəlayiq fakt odur ki, təkcə pravoslav əhali deyil, həm də Bakının müsəlman camaatı məbədin inşasına ianə vermişdi. Digər maraqlı məqam: 1848-ci ildə Bakı əhalisindən yığılan ianələr (2000 rubl) Tiflisdə Qafqaz dairəsinin baş kilsəsinin tikintisi üçün ayrılmışdı[58].

Məbədin layihə müəllifi Tiflis quberniyasının memarı Belov idi. Gürcü-bi-

57 - Вах: Пашазаде Э. Там же. – с. 114, 119.
58 - Вах: Пашазаде Э. Указ. соч. – с. 119-120, 122.

zans üslübunda, xaç şəklində tikilən "Müqəddəs Nikolay" Baş kilsəsində təqribən 400 nəfər ibadət edə bilirdi. Dəmir damla örtülən kilsə binasının çölü və içərisi yağlı boya ilə rənglənmiş, ətrafı isə gözəl metal çəpərlə hasarlanmışdı. Təxminən 45 metr hündürlüyündə olan Baş kilsənin qülləsində 5 zəng asılmışdı. Ən böyük zəngin çəkisi 1970 kg, ən balacasının isə 32 kg olmuşdu[59].

Bu məbəd haqda bəhsimizi maraqlı bir faktla bitirmək istərdik: 1888-ci ildə "Müqəddəs Nikolay" Baş kilsəsində təmir işləri aparılarkən yeraltı yollar aşkar olunur. Bakı əhli belə deyirdi ki, bu gizli yollar Şirvanşahlar sarayından başlanğıcını götürərək Qala divarlarından kənara çıxırdı[60].

## Müxtəlif təyinatlı kilsələr

XIX əsrdə Bakıdakı pravoslav təsisatlarının sayı ilə bağlı statistikaya baxanda Pravoslav Kilsəsinin imtiyazlı mövqedə dayandığını açıq-aydın görürük. Belə ki, https://www.ourbaku.com saytında "Kaspi" (41-ci say, 1893-cü il) qazetinə istinadən Bakı şəhəri polis bölmələrinin statistikası verilib. Həmin statistikadan məlum olur ki, 1893-cü ildə şəhərdə 106 467 nəfər yaşayırdı. Onlardan 47 015 nəfəri müsəlman, 21 744 nəfəri isə pravoslav idi. Gördüyümüz kimi, Bakıdakı müsəlman əhalisinin sayı pravoslavlardan iki dəfədən çox olub. Buna baxmayaraq, həmin ildə şəhərdəki pravoslav kilsə təsisatları ilə məscidlərin say nisbəti az qala bərabər idi: 25 pravoslav müəssisəsi (6 pravoslav kilsə, 2 çasovnya və 17 kilsə binası) və 28 məscid[61]. Düzdür, statistikada göstərilən 17 kilsə binası ibadət yeri deyildi. Lakin hər halda, pravoslav ruhani və möminlərinin dini tələbatının ödənilməsi üçün nəzərdə tutulmuş kilsə mülkiyyət formaları idilər. Şəhərdəki əksər məcsidlərin orta əsrlərdən qaldığını, bu qədər pravoslav təsisatın isə cəmi 78 il ərzində qurulduğunu nəzərə alsaq, onda Rus Pravoslav Kilsəsinin necə böyük nüfuza malik olduğuna əmin olarıq.

Qeyd edək ki, rus kilsələri öz təyinatlarına görə müxtəlif kateqoriyalara bölünürdü: təhkim olunmuş kilsələr, hərbi kilsələr, dəmir yolu kilsələri, ev

59 - Yenə orada. – s. 119, 121.
60 - Yenə orada. – s. 121.
61 - Город Баку в 1892 г. (полицейская статистика)//сайт Наш Баку: История Баку и бакинцев [Elektron resurs]. – URL:https://www.ourbaku.com/index.php/Город_Баку_в_1892г._(полицейская_статистика) (müraciət tarixi: 06.09.2016).

kilsələri, hərbi-dəmir yolu kilsələri, prixod (məhəllə) kilsələri, müvəqqəti məbədlər, qəbiristanlıq kilsələri. Bakı və onun ətrafında yerləşən bu tip kilsələrə qısaca nəzər yetirək.

## Təhkim olunmuş kilsələr

Vaxtilə Bakının ən hündür yerində ucalan Aleksandr Nevski Baş kilsəsinin nəzdində dörd rus pravoslav məbədi fəaliyyət göstərirdi:

*"Kazanlı Müqəddəs Məryəm Ana" ikonasının kilsəsi*



Məbəd azərbaycanlı milyonçu Murtuza Muxtarovun evinin (indiki Səadət Sarayı) qarşısında, Bakı şəhəri 1-ci kilsə-prixod məktəbinin ərazisində yerləşirdi. 1889-cu ildə mülki mühəndis D.D.Buynovun layihəsi əsasında "Kazanlı Müqəddəs Məryəm Ana" ikonasının şərəfinə tikilmişdi. Məbədin inşası 2000 rubla başa gəlmişdi. İbadətgah Bakının ilk təhkim olunmuş kilsəsi idi. 27 avqust 1889-cu ildə kilsə A.Yunitski tərəfindən təqdis olunmuşdu. 15 noyabr 1889-cu ildə ober-prokuror Konstantin Petroviç Pebodonostsev kilsəyə çox gözəl ikona hədiyyə etmişdi[62].

62 - Вах: Пашазаде Э. Указ. соч. – с. 189.

*"Müqəddəs Jen-Mironosits" kilsəsi*



İndiki Milli Məclisinin binasının yerində rus qəbiristanlığı salınmışdı. Həmin məzarlığın ərazisində 1890-cı ildə "Jen-Mironosits" məbədi tikilmişdi. Dindarların könüllü ianələri hesabına ucaldılan kilsənin memarı Buynov olmuşdu. Kilsə ilə bağlı bir maraqlı faktı qeyd etmək lazımdır. ***M**əbədin tik**intisi üçün maliyyənin tükəndiyini eşidən azərbaycanlı mesenant Hacı Zeynalabdin Tağıyev düz 500 rubl ianə vermişdir ki, o dövr üçün bu əhəmiyyətli məbləğ idi*[63]*. Digər maraqlı fakt odur ki, müstəqillik illərində başqa müsəlman xeyriyyəçisi Aydın Qurbanov Salyan kazarmaları ərazisində yerləşən eyniadlı Baş kilsəni təmir və bərpa etmişdir. Etiraf edək ki, bu Azərbaycan xalqının nadir tolerantlıq nümunəsidir.***

63 - Церковь кладбищенская Св. Жен Мироносиц [Elektron resurs]//Наш Баку: История Баку и бакинцев. – URL: https://www.ourbaku.com/index.php/Церковь_Кладбищенская_Св._Жен_Мироносиц (müraciət tarixi: 27.08.2016-cı il).

*"Müqəddəs Məryəm Ananın Mövludu" kilsəsi*




İndiki Sabunçu vağzalının ərazisində yerləşmişdi. 1896-cı ildə könüllü ianələr hesabına (təqribən 20 min rubl xərclənib) memar İ.V.Edelin layihəsi əsasında inşa olunmuşdu. Rus Bizans memarlıq üslubunda tikilmiş bu rus məbədi vaxtilə Bakının ən gözəl binaları sırasında yer almışdır. Kilsənin nəzdində "Əməksevərlər evi" və kilsə-prixod məktəbi fəaliyyət göstərmişdir. İlk vaxtlar dərslər kilsənin özündə keçirilirmiş. Ona görə də kilsənin geniş həyətində məktəb (2-ci kilsə-prixod məktəbi) üçün ayrıca bina tikilmişdi. Yeni məktəb binası 22 sentyabr 1896-cı ildə təqdis olunmuşdu. 1898-ci ildə "Müqəddəs Məryəm Ananın Mövludu" kilsəsinin düz yanında əlavə olaraq bir kilsə inşa olunmuşdu. 1925-ci ildə Sabunçu vağzalının inşası ilə bağlı "Müqəddəs Məryəm Ananın Mövludu" kilsəsi uçurulmuşdur[64].

*"Müqəddəs Arxangel Mixail" rus pravoslav məbədi*

Kilsə 1901-1902-ci illərdə Bakıdakı iri sahibkarın həyat yoldaşı, xanım Rılskinin maliyyə vəsaiti hesabına II Nikolayın taxta çıxması münasibətilə Yarmarka meydanında (indiki Səməd Vurğun meydanı) tikilmişdi[65].

64 - Церковь Рождества Пресвятой Богородицы (Кани-Тапинская) [Elektron resurs]//Наш Баку: История Баку и бакинцев. – URL: https://www.ourbaku.com/index.php/Церковь_Рождества_Пресвятой_Богородицы_(Кани-Тапинская) (müraciət tarixi: 13.11.2016).

65 - Yunitski A. Sitat göstərilən əsəri. – s. 32.

## Prixod kilsələri

*"Spas-Preobrajen" kilsəsi*

Bu pravoslav məbədi Bakının Ağ şəhər adlanan yerində "S.M.Şibayev və K" Şirkətinin zavodunun ərazisində yerləşirdi. Həmin zavodda Rusiyadan gələn xeyli işçi çalışırdı. Onların dini tələbatlarının ödənilməsi üçün zavod rəhbərliyi məbədin qurulması üçün zavodun ərazisində bir bina ayırdı. Binanın şərq tərəfindən altar (özül daşı 15 yanvar 1892-ci ildə qoyulub), zəng qülləsi və kilsə kandarı tikildi[66].



Kilsənin çöldən görünüşü sadə idi. Damı kərpiclə örtülmüşdü. Rus-Bizans üslubunda inşa edilən məbədin zəng qülləsinin yaşıla boyanmış günbəzinin üstündə səkkizguşəli, qızıl suyuna salınmış xaç ucalırdı. Zəng qülləsinin hər iki tərəfində dairəvi daş bürclər formasında olan iki gözəl və zərif günbəz yüksəlirdi. Dəmirlə örtülmüş bu günbəzləri qızıllı mis xaçlar bəzəyirdi. "Spas-Preobrajen" kilsəsində İsa Məsihin dirilməsini təsvir edən qiymətli ikona və beş zəng vardı. Ən böyük zəngin çəkisi 985 kg idi[67].

Bu ibadət yerinin cəmi 1 keşişi vardı. Onun məvacibi zavod tərəfindən verilirdi (ildə 500 rubl). Bununla yanaşı, məbədin kitabxanasında 67 ədəd

66 - Вах: Пашазаде Э. Указ. соч. – с. 133,134.
67 - Yenə orada. – s. 134,135.

kitab, kilsənin nəzdindəki məktəbin kitabxanasında isə 633 adda kitab vardı. İldə iki dəfə - Pasxa və Preobrajeniye Gospodnya bayramlarında kilsənin prixojanları zavod ərazisində xaç yürüşü həyata keçirirdilər[68].

*"Mübarək Misirli Makari" kilsəsi*

Balaxanı-Sabunçu neft mədənləri müxtəlif ölkələrdən olan, yüksək maaş qazanmaq istəyən çox sayda işçi qüvvəsini cəlb edirdi. Bu müvəqqəti işçilərin sayı 40 mindən artıq olub. Onlar arasında xeyli pravoslav da vardı (təqribən 10-12 min). Təbii ki, çar Rusiyasının hakimi-mütləq olduğu yerdə, bu qədər pravoslav fəhlənin dini ehtiyacı yaddan çıxardıla bilməzdi. Ona görə də 1899-cu ildə Balaxanı-Sabunçu neft mədənlərində Mübarək Misirli Makarinin şərəfinə müvəqqəti taxta kilsə tikilir. Kilsənin nəzdində keşiş və "psalomşik"dən (Zəbur oxuyan) ibarət olan daimi ruhani ştat yaradılır. Onlar büdcədən 675 rubl maaş alırdılar. 1904-cü ildə isə yenə də Müqəddəs Misirli Makarinin şərəfinə Bizans memarlıq üslubunda daha böyük daş kilsə ucaldılır. Bu yeni məbədin inşası 100 min rubla başa gəlir. Onun tikintisinə əsasən Bakı Neft Sənayeçilərinin Qurultayı Şurası və neft mədənlərinin sahibkarları pul buraxırlar. Mədənlərin ən hündür yerində ucaldılan "Müqəddəs Misirli Makari" kilsəsi 22 yanvar 1904-cü ildə Gürcüstan ekzarxı Aleksi tərəfindən təqdis olunur. Yerli daş üzərində oyulan zərif naxışlar, mərmər ikona divarı, mozaikalı beton döşəmə məbədə xüsusi gözəllik verirdi[69].



68 - Вах: Юницкий А. Указ. соч. – с. 60-62.
69 - Юницкий А. Указ.соч. – с.68-68.

O ki, qaldı əvvəlki taxta məbədə, A.Yunitskinin məlumatına görə, bu müvəqqəti kilsə neft mədənlərinin o biri başına köçürülür. 1904-cü ildə mədənlərdə ikinci keşiş ştatı təsis olunduqdan sonra Mübarək Misirli Makarinin adını daşıyan müvəqqəti taxta kilsədə bazar və bayram günlərində dini ayinlər yerinə yetirilməyə başlanıldı[70].

## Hərbi kilsələr

*"Bayıl Liman" kilsəsi*



Bəzən həmin məbədə "Dəniz soboru" da deyiblər. Dəniz Nazirliyinin hesabına tikilən bu məbədin təməli 6 may 1868-ci ildə Bakının Bayıl burnundakı hərbi limanda atılmışdı. Təməlatma mərasimində böyük knyaz Aleksey Aleksandroviç Romanov iştirak etmişdi. 28 noyabr 1871-ci ildə

70 - Yenə orada. – s. 68.

təqdis olunmuşdu. Kilsədə heyrətamiz gözəlliyi ilə seçilən, qızıl suyuna salınan, axşam çağları par-par parıldayan olduqca böyük gümüş çılçıraq asılmışdı[71].

*“Donanma” kilsəsi*

Əvvəllər Xəzər donanmasına məxsus olub. Ona görə də ilk vaxtlar Donanma kilsəsi (rusça “Flotskaya”) adlanıb. Lakin donanma üçün Bayılda yeni böyük kilsə tikildikdən sonra sözügedən məbəd 1873-cü ildə Bakı yerli batalyonuna verilib. Sonrakı illərdə məbəd Salyan polkunun nəzdində fəaliyyət göstərməyə başlayıb. Odur ki, Salyan polkunun kilsəsi adlanıb. Donanma kilsəsi ilə bağlı kilsə arxivlərini araşdırmış A.Yunitski bildirib ki, məbədin kim tərəfindən və nə vaxt inşa olunduğu bilinmir[72]. Ehtimal ki, kilsə 1841-1849-cu illər arasında tikilib. 1891-1892-ci illərdə kilsədə təmir-bərpa işlər aparılıb. Naqqaşlıq işləri Emts tərəfindən həyata keçirilib. 1 noyabr 1892-ci ildə yenidən təmir olunan kilsənin təqdisetmə mərasimi keçirilib[73].

Şəhərin mərkəzində keçmiş Spasskaya küçəsində (indiki Zərgərpalan) yerləşən bu məbəd hazırda Mixail Arxangelin adını daşıyır.

*Bakı Sərhəd Qarovulu briqadasının “Aleksandr Nevski” kilsəsi*

Bu səyyar kilsə 1886-cı ildən fəaliyyət göstərməyə başlayıb. Bakı sərhəd dairəsinin xahişi ilə Maliyyə Nazirliyinin hesabına tikilib. Kilsə 23 fevral 1886-cı ildə keşiş İlya Dzampayev tərəfindən Aleksandr Nevskinin xatirinə təqdis olunub. 1898-ci ilədək “Tarqovı” və Quberniya küçələrinin tinində (indiki Nizami küçəsi) kirayəyə verilən evdə yerləşib. Bakı Sərhəd Qarovulu briqadasının nəzdində olub. 1898-ci ildə briqada ilə birgə səyyar kilsə Lənkəran qəzasının Göytəpə ərazisinə köçürülüb. 1906-cı ildə “Aleksandr Nevski” səyyar kilsəsi Bakıya qaytarılaraq Şamaxı küçəsindəki (indiki C.Cabbarlı) kirayə evdə yerləşdirilib. Kilsənin görünüşü sadə və əmlakı kasad olub. Yalnız üç qiymətli ikona, eləcə də kitabxana vardı[74].

71 - Юницкий А.Там же. – с. 71; Пашазаде Э. Указ. соч. – 138-139.
72 - Юницкий А. Там же. – с. 72; Пашазаде Э. Там же. – 138.
73 - Церковь Михайло-Архангельская (бывшая Сальянского полка, бывшая Морская, или Флотская). Баку. [Электронный ресурс]//Наш Баку: История Баку и бакинцев. – URL: https://www.ourbaku.com/index.php/ Церковь_Михайло-Архангельская_(Флотская)._Баку#cite_ref-3 (müraciət tarixi: 14.11.2016).
74 - Пашазаде Э. Указ. соч. – с. 139-140.

*206-cı Salyan piyada polkunun "Müqəddəs Mixail Arxistratiq" kilsəsi (indiki "Müqəddəs Jen Mironosits" Baş kafedral kilsəsi).*

1909-cu ildə Rusiya imperiyasının Hərbi Nazirliyinin maliyyəsi hesabına tikilib. Tikintisinə 42 000 rubl pul xərclənib. Təməli 6 may 1908-ci ildə atılıb və 6 dekabr 1909-cu ildə təqdis olunub. Hərbi kilsənin tabeçiliyinə hazırda Zərgərpalan küçəsində yerləşən "Donanma" kilsəsi də (indiki "Mixail Arxangel" kilsəsi) verilmişdi[75].

Kilsə 1901-ci ildə Tikinti komissiyasının təsdiqlədiyi memar Fyodr Mixayloviç Verjbinskinin hazırladığı hərbi kilsələr üçün standart layihəsi əsasında tikilmişdir. Bu layihə əsasında Rusiya imperiyasında 1917-ci ilə qədər 60-dan yuxarı hərbi kilsə inşa olunmuşdu. Lakin hər məbədə fərqli və özünəməxsus incə detallar əlavə olunmuşdur ki, bu da sözügedən hərbi kilsələri orijinal memarlıq abidələrinə çevirmişdir. Kilsə ilə bağlı digər maraqlı fakt: "Mixail Arxistratiq" kilsəsinin yanında tikilmiş sövməədə 10 aprel 1910-cu ildə təntənəli şəkildə Salyan polkunun komandiri, general-mayor Meçislav Konstantinoviçin nəşi torpağa tapşırılmışdı[76].

## Dəmiryolu və hərbi dəmiryolu kilsələri

*"Spas-Preobrajen" dəmiryolu kilsəsi*



75 - Церковь 206-го пехотного Сальянского полка в честь Св. Архистратига Михаила [Elektron resurs]//Наш Баку: История Баку и бакинцев. – URL: https://www.ourbaku.com/index.php/Церковь_206-го_пехотного_Сальянского_полка_в_честь_Св._Архистратига_Михаила (müraciət tarixi: 13.11.2016).

76 - Церковь 206-го пехотного Сальянского полка в честь Св. Архистратига Михаила//Там же.

Dindarların könüllü ianələri hesabına 1898-ci ildə tikilmişdi. Kilsə müvəqqəti istifadə üçün taxtadan inşa edilmişdi. Məbəd böyük deyildi: uzunluğu 30 metr, eni 9 metr, hündürlüyü isə təqribən 5 metr olmuşdu. Yeddi dəmir şəbəkəli pəncərəsi vardı. 11 oktyabr 1898-ci ildə keşiş İradion Nanabov tərəfindən təqdis olunmuşdu. Ertəsi gün, yəni 12 oktyabr 1898-ci ildə taxta kilsəyə yaxın ərazidə Stanislavsk küçəsində (indiki Azadlıq prospekti) dəmiryolu stansiyası üçün yeni daş kilsənin təməli atılmışdı. Təməlatma mərasimində təqdisetmə ayini Gürcüstan ekzarxı arxiyepiskop Flavian tərəfindən yerinə yetirilmişdi. Daş kilsənin tikintisi 8 ildən çox çəkmişdi. Nəhayət, 1906-cı ilin sonu və ya 1907-ci ilin əvvəllində Bakıda daşdan dəmiryolu kilsəsi inşa olunmuşdu[77].



77 - Вах: Юницкий А. Указ. соч. – с. 62-63; Пашазаде Э. Там же. – с. 140.

*Biləcəridəki "Müqəddəs Həvvari Varfolomey" kilsəsi*



XIX əsrin sonlarında Zaqafqaziya dəmir yolunun, xüsusən 1900-cu ildə Petrovsk-Bakı xəttinin istifadəyə verilməsi ilə Biləcəri əsas dəmiryolu qovşağına çevrilir. Burada xeyli işçisi olan dəmir yolu stansiyası fəaliyyət göstərməyə başlayır. Həmin işçilərin əsas hissəsi etiqadca pravoslav idi. 1900-cu ildə Biləcəridə 534 nəfər dəmiryolu işçisi çalışırdı ki, onlardan 460 nəfəri (245 – ailəli, 215 nəfəri subay) pravoslav olub. Onların dini ehtiyaclarını ödəmək üçün protoiyerey Yunitskinin təşəbbüsü və Gürcüstan ekzarxı Aleksinin razılığı ilə Biləcəridə pravoslav məbədi açılır. Kilsənin özül daşı 23 aprel 1903-cü ildə qoyulur. Həmin ilin avqust ayında bu bir günbəzli ibadətxananın inşası bitir[78].

"Müqəddəs Varfolomey" kilsəsi Bakı Quberniya İdarəsinin memarı Marçenkonun layihəsi əsasında inşa olunmuşdu. Məbəd taxtadan tikilərək daş bünövrənin üzərində ucaldılmışdı. Burada eyni anda 300 nəfər ibadət edə bilirdi. 2 noyabr 1903-cü ildə kilsə protoiyerey A. Yunitski tərəfindən Müqəddəs Varfolomeyin şərəfinə təqdis olunmuşdu. Təqdisetmə mərasimində Bakı quberniyasının rəisi D.A. Odintsov iştirak etmişdi. 1 dekabr 1903-cü ildə isə "Müqəddəs Varfolomey" məbədinin nəzdində 26 şagirdin təhsil alması üçün nəzərdə tutulan birsinifli qadın kilsə-prixod məktəbi açılmışdı. 25 yanvar 1904-cü ildə yanğın nəticəsində məbədin zəng qülləsinin yuxarı hissəsinə güclü zərər dəymişdi. Lakin Pasxa bayramına yaxın bu ibadətgah tamamilə

78 - Bax: Юницкий А. Указ соч. – с. 69.

bərpa edilmiş, yeni iki otaqlı gözətçi koması tikilmiş və bütün kilsə ərazisi taxta çəpərlə əhatəyə alınmışdı[79].

Biləcəri qəsəbəsindəki "Müqəddəs Varfolomey" kilsəsinin binası günümüzədək gəlib çatmışdır. Maraqlıdır ki, bu bina daşdandır. Halbuki A.Yunitski onun taxtadan tikildiyini deyirdi. Görünür, yerli pravoslav dindarlar 1905-ci ildən sonra taxta kilsəni sökərək yerində yeni daş məbəd ucaldıblar[80]. Onu da deyək ki, alovlu pravoslav missioner A.Yunitski üçün Biləcəridəki kilsə xüsusi rəmzi məna daşıyırdı. O, bu ibadət yerini parlayan xaça bənzədərək deyirdi: *"Beləliklə, 19 əsr sonra müqəddəs həvari Varfolomeyin dağlarında – Rusiya və Qafqazın iki yol ayırıcında İsa Məsihin xaçı yenidən parlamağa başladı"*[81].

## Ev kilsələri

*"Müqəddəs Nina" qız tədris müəssisəsində kilsə*

Bu ibadət yeri Bakıda açılan ilk ev kilsəsi olub. Baronessa Tornaunun təşəbbüsü və protoiyerey Dmitri Zotikovun səyi ilə təsis edilib. Kilsənin qısa tarixi belədir: Şamaxı zəlzələsindən sonra 1861-ci ildə "Müqəddəs Nina" məktəbi Bakıda Xəzər donanmasının flaqmanı Freyqanqın şəhərkənarı evinə (sonradan Mixaylov şəhər xəstəxanasının yerinə) köçürülüb. 15 oktyabr 1862-ci ildə Gürcüstan ekzarxı Yevsevi qızlar məktəbində ev kilsəsinin yaradılmasına xeyir-dua verir. Flaqman Freyqanqın evi təkcə zal, yemək, iş və qonaq otaqlarından ibarət olduğu üçün qonaq otağı ev kilsəsi üçün ayrılır. Otağın eyvan şəklindəki yarımdairəvi çıxıntısında isə mehrab (altar) qurulur. Ev kilsəsinin qurulmasına o qədər də çox pul xərclənmir: cəmi 630 rubl. Lakin bu məbləğ ilk vaxtlar kifayət edir. 1863-cü ilin yanvar ayında keşiş Zotikov tərəfindən təqdis olunan "Müqəddəs Nina" məktəbindəki ev kilsəsi Bakıdakı "Möcüzə göstərən Nikolay" kilsəsinə təhkim olunur. 1888-ci ildə qızlar məktəbi Nikolayevski küçəsinə (indiki İstiqlaliyyət) köçürüldükdən sonra ev kilsəsi daha yaxşı və rahat yerdə fəaliyyət göstərməyə başlayır[82].

79 - Юницкий А. Указ соч. – с. 69 - 71.
80 - Баладжарская св. Апостола Варфоломея церковь//Наш Баку: История Баку и бакинцев. – URL: https://www.ourbaku.com/index.php/Церковь_Баладжарская_Варфоломеевская (müraciət tarixi: 26.08.2016).
81 - Юницкий А. Там же. – с.71.
82 - Вах: Юницкий А. Указ. соч. – с. 78-79.

*Bakı Texniki Məktəbin nəzdində*
*"Müqəddəs Aleksandr Nevski" ev kilsəsi*

İbadət yerinin tarixi 8 noyabr 1888-ci ildə Bakıda yaradılan II Aleksandr adına Şəhər Peşə Məktəbindən başlayır. Belə ki, həmin təhsil ocağının inspektoru Mixail İosifoviç Mixalevski və ilahiyyat müəllimi, keşiş Mixail Zemski peşə məktəbində oxuyan şagirdlər üçün ev kilsəsi açmaq istəyirlər. Ona görə də Bakı Şəhər Duması 30 dekabr 1892-ci ildə məktəbdə Aleksandr Nevskinin şərəfinə ev kilsəsinin açılması və fəaliyyəti üçün 1500 rubl məbləğində birdəfəlik və 400 rubl məbləğində illik maddi yardımın ayrılması barədə qərar çıxarır, 1893-cü ildə Gürcüstan ekzarxı Vladimir bu ibadətxananın qurulması üçün öz xeyir-duasını verir, 19 fevral 1894-cü ildə protoiyerey A. Yunitski məbədi təqdis edir, təqdisetmə mərasiminə dumanın başçısı Despot-Zenoviç, şəhər bələdiyyəsinin pravoslav üzvləri və başqa ali qonaqlar qatılırlar[83].

On üç il ərzində peşə məktəbi olduqca pis şəraitdə, kirayəyə götürülən yerdə fəaliyyət göstərirdi. Odur ki, "Aleksandr Nevski" ev kilsəsi də birmərtəbəli daş korpusun qırla örtülmüş damının altında Balaxanı küçəsində (indiki Füzuli küçəsi) yerləşirdi. Damın üstünə taxta xaç sancılmışdı. Ev kilsəsinin zalı çox balaca və qaranlıq idi. 1 sentyabr 1896-cı ildə Şəhər Peşə Məktəbi aşağı texniki tədris müəssisəsinə çevrilir. Bu səbəbdən həmin təhsil müəssisəsi yaxşı şəraiti olan binasına köçürülür. Təbii ki, bu amil təhsil ocağının nəzdində fəaliyyət göstərən kilsəyə müsbət təsir göstərir. Belə ki, məktəb kilsəsinə yeni bina tikmək məqsədilə yer ayrılır. 14 may 1901-ci ildə imperator Nikolay Aleksandroviçin başına tac qoyulan günü şagirdlərin və bir çox başqa adamın iştirakı ilə həmin yerə doğru "xaç yürüşü" təşkil olunur. 10 fevral 1902-ci ildə isə keşiş Bidzina Qabarayev ev kilsəsinin yeni binasını təqdis edir. Qeyd edək ki, yeni məbədin ölçüləri əvvəlki kilsədən az qala iki dəfə böyük olub[84].

İmperator III Aleksandr adına Bakı Klassik Gimnaziyasında kilsə. Gimnaziyanın binasında ev məbədinin yaradılması 1897-ci ilin noyabr və dekabr aylarına təsadüf edir. Bu ev kilsəsi gimnaziya müdiri A.İ.Pobedonostsev və Aleksandr Nevski soborunun keşişi Pyotr Potaşevin təşəbbüsü ilə qurulub.

83 - Yenə orada. – s. 73-75.
84 - Yenə orada. – s. 75-76.

Bakının 1-ci dərəcəli taciri N.A.Terentyev, Bakının müvəqqəti 2-ci dərəcəli taciri A.N.Lixuşin və şəhərin başqa xristianları ev kilsəsinin təchiz olunması üçün xeyli ianə veriblər. Ev kilsəsi 14 dekabr 1897-ci ildə Gürcüstan ekzarxı Vladimir tərəfindən təqdis olunub. Təqdisetmə mərasimində şəhərin nüfuzlu şəxsləri və gimnaziyada oxuyan şagirdlərin valideynləri iştirak ediblər. Məbədin görünüşü çox sadə olub. Lakin nəfis ikonalar kilsəyə gələnlərdə xoş təəssürat oyadırdı. "İlahi xaçın ucaldılması" ikonası istisna olmaqla, başqaları rəssam Yarov tərəfindən çəkilmişdi[85].

*Bakı həbsxana qalasında kilsə*

İndiki Azərbaycan Respublikasının Baş Prokurorluğunun binasından azca yuxarıda vaxtilə həbsxana qalası yerləşirdi. 1893-cü ildə bu dustaqxanada cəza çəkənlər Bakı Dairə Məhkəməsinin sədrinə müraciət edərək həbsxanada pravoslav kilsəsinin açılmasını xahiş edirlər. Həbsxanalar üzrə Quberniya Himayə Komitəsi buna müsbət yanaşaraq Bakı həbsxanasında ibadət üçün münasib yerin ayrılması barədə göstəriş verir. Belə qərara gəlinir ki, dustaqxanadakı emalatxana üstündə kilsə qurulsun. Layihənin hazırlanması və smetası quberniya memarına tapşırılır. O da öz növbəsində 240 nəfərlik kilsənin layihəsini hazırlayır. Memarın hesablamalarına görə, bu kilsənin inşası 12 477 rubla başa gəlməli idi. Məbədin tikintisi ilə bağlı bütün işlər, o cümlədən lazımi sənədlərin hazırlanması xeyli vaxt apardığına görə həbsxanada müvəqqəti kilsə qurulur. Belə ki, Bakının 1-ci dərəcəli taciri Nikolay Alekseyeviç Terentyev təklif edir ki, daimi kilsə tikilənə kimi həbsxana qalasında müvəqqəti kilsə istifadəyə verilsin. Onun təklifi qəbul olunsa da, Bakı dustaqxanasında müvəqqəti kilsə üçün münasib yer tapılmır. Sonda həbsxananın mühəndislik idarəsinin sərəncamında olan 26 saylı kazarmadakı kiçik daş bina Terentyevin hesabına kilsəyə çevrilir. Bu məbəddə çalışan keşişə 750 rubl və dini mahnı oxuyana 250 rubl maaş bağlanılır; eyni zamanda, keşiş hər il mənzil kirayəsi üçün 240 rubl alırdı)[86].

19 may 1897-ci ildə Gürcüstan ekzarxı həbsxanada pravoslav kilsəsinin inşası üçün öz xeyir-duasını verir, Tiflis Klassik gimnaziyasının məzunu Vladimir Qurgenidze isə buraya keşiş təyin olunur. O, 1 oktyabr 1897-ci

85 - Юницкий А. Указ. соч. – с.72-73.
86 - Yenə orada. - s. 63-65, 67.

ildə Bakı həbsxana qalasının nəzdində müvəqqəti kilsənin özül daşını qoyur, daha doğrusu, dövlət binasını kilsəyə çevirmək üçün genişləndirmə işlərinə başlayır. Məbədin inşası 1898-ci ilin mart ayında sona yetir. Habelə Terentyevin maliyyə yardımı hesabına kilsə üçün bütün lazımi avadanlıq alınır. 8 mart 1898-ci ildə isə Gürcüstan ekzarxının xeyir-duası ilə protoiyerey A.Yunitski keşiş Vladimir Qurgenidze ilə birgə Bakı həbsxana qalasındakı kilsəni Müqəddəs Miro-Likiyalı Möcüzə göstərən Nikolayın şərəfinə təqdis edir[87].

Həbsxanadakı "Müqəddəs Miro-Likiyalı Möcüzə göstərən Nikolay" rus pravoslav məbədinin daş binası dördkünc, uzunsov şəkildə olmuşdu. Kilsənin divarları yonulmamış daşdan tikilmişdi. Məbədin həm çolü, həm içərisi malalanaraq rənglənmişdi. İbadətgahın zəng qülləsi yox idi. Lakin iki taxta dirək üstündə dayanan talvar vardı ki, onun da altında 5 zəng asılmışdı[88].

## Başqa bölgələrdə kilsələr

Çarizm dövründə ölkəmizin başqa bölgələrində də rus pravoslav məbədləri tikilmişdi. A.Yunitski kitabında Bakı quberniyasında fəaliyyət göstərən rus pravoslav ibadət yerlərindən danışarkən, 40-dan artıq məbədin adını çəkir. Onun əsərindən belə məlum olur ki, təkcə Bakı quberniyasının Cavad qəzasında doqquz rus pravoslav ibadətgahı açılmışdı: Bojıy Promısel kəndində müvəqqəti kilsə (1838-ci ildə təqdis olunub); Petropavlovka kəndində "Müqəddəs Möcüzə göstərən Nikolay" kilsəsi (1875); N.O.Qoltuq qəsəbəsində "Müqəddəs Qriqori" sövməəsi (1898); Z.O.Qoltuq qəsəbəsində kilsə (1890); Kür Dilində "Müqəddəs Nikolay" kilsəsi (1891); Salyanda "Apostollara bərabər olan Müqəddəs Nina" kiçik kilsəsi (1900); Aleksandrovskoye kəndində məbəd (1904-cü ildə təqdis olunub); Nikolayevskoye kəndində məbəd (1904-cü ildə təqdis olunub); Nikolayevsk kəndində "Müqəddəs Məryəm Ananın himayəsi" kilsəsi (1904)[89].

Bakı quberniyasının başqa şəhər və kəndlərində də rus məbədləri vardı. Onlar arasında Şamaxı qəzasındakı rus kilsələri daha əvvəl tikilmişdi. Həmin ibadətgahlara qısaca nəzər yetirək.

87 - Вах: Юницкий А. Указ. соч. – с. 65-66.
88 - Yenə orada. – s. 66.
89 - Ətraflı məlumat üçün bax: "История церквей и приходов Бакинской губернии". – s. 145 – 172.

1846-1859-cu illərdə eyniadlı quberniyanın mərkəzi olmuş Şamaxı şəhərində 1845-ci ildə 300 nəfərə yaxın pravoslav yaşayırdı. İlk vaxtlar onlar ibadət üçün adi binada toplaşırdılar. Pravoslavların dini ehtiyaclarının ödənilməsi üçün 29 noyabr 1858-ci ildə memar Kombiadjionun layihəsi əsasında xaç formasında "Müqəddəs Möcüzə yaradan Nikolay" Baş kilsəsi tikilir. Lakin 1859 və 1902-ci illərdə Şamaxıda baş verən güclü zəlzələlər kilsənin varlığına son qoyur. Ona görə də 1902-ci ildə şəhərdə memar Marçenkonun layihəsi əsasında 150 nəfərlik müvəqqəti kilsə inşa olunur. Bununla yanaşı, 1904-cü ildə Şamaxıda hərbi dəmiryolu rus pravoslav kilsəsi də tikilir. Bu kilsənin 207 hərbçi prixojanı vardı. Həmçinin Şamaxı qəzasının Altıağac kəndində 1855-ci ildə Müqəddəs Nikolayın şərəfinə uzunsov xaç formasında daş rus pravoslav məbədi ucaldılır. Həm qrunt sularının, həm də zəlzələnin məbədin binasına vurduğu zərərə görə bu kilsə 1893-cü ildə bağlanılır[90].



*Göytəpə şəhərində rus pravoslav kilsəsi. 1887-ci il.*

Bakı quberniyasının başqa şəhər və kəndlərində də rus pravoslav kilsələri fəaliyyət göstərirdi. Məsələn, Qubada ilk pravoslav məbədi 1834-cü ildə tikilmişdi. Ancaq zamanla kilsə binası yararsız hala düşdüyü üçün 1871-ci ilin noyabr ayında Bizans memarlıq üslubunda "Müqəddəs Məryəm Ananın Vəfatı" şərəfinə yeni kilsə açılmışdı. Yenə Quba qəzasının Mixaylovka kəndində 1872-ci ildə inşa olunmuş köhnə taxta rus pravoslav sövməəsinin yerində 1885-ci ildə rus kilsəsi tikilmişdi. Bu kilsə "Tanrının Meracı" adını

90 - Ətraflı məlumat üçün bax: "История церквей и приходов Бакинской губернии". – s. 80 –101.

daşıyırdı. Bununla yanaşı, Çar Rusiyası dövründə Azərbaycanın şimalında başqa rus kilsələri də fəaliyyət göstərirdi. Məsələn, Quba qəzasının Yelenovka kəndində 1897-ci ildə tikilən kilsə, Qusarda 1851-ci ildə inşa olunan hərbi rus pravoslav kilsəsi və 15 dekabr 1902-ci ildə A.Yunitski tərəfindən təqdis olunan, Qusar məktəbinin binasında yerləşən "Qusar Kazan" dua evi, eləcə də Quba qəzasının Nikolayevka kəndində 1903-cü ildə açılan, A.Yunitskinin sözləri ilə desək, "həm içəridən, həm də çöldən çox gözəl olan – geniş və işıqlı", "hər yerdən görünən" rus məbədi, Şirvan kəndində 1905-ci ildə bünövrəsi qoyulan "Müqəddəs Məryəm Ananın Himayədarlığı" kilsəsi, Yermolovka kəndində "Müqəddəs Serafim Sarovski" kilsəsi, Quba qəzasının Aleksandrovka kəndində 1906-cı ildə təməli atılan taxta kilsə vardı[91].

Rusiya imperiyası dövründə Bakı quberniyasının cənub hissəsində də rus kilsələri açılmışdı. Burada ilk növbədə Lənkəran şəhərini qeyd etmək lazımdır. Belə ki, bu şəhərdə 1839-cu ildə 21-ci nizami rus batalyonu tərəfindən taxta kilsə tikilmişdi. Lakin zamanla həmin məbəd yararsız hala düşdüyü üçün 1889-cu ildə mühəndis Bilfeldin layihəsi əsasında "Mixail Arxangel" kilsəsi tikilmiş, 1892-ci ildə isə bu ibadətxana təqdis olunmuşdu. Kilsə Müqəddəs Sinodun maliyyəsi hesabına xaç formasında Bizans memarlıq üslubunda tikilmişdi. Onun inşasına düz 33 000 rubl xərclənmişdi. Eyni zamanda, Lənkəranda qəbiristanlıqda "Müqəddəs Mariya Maqdalina" daş kilsəsi ucaldılmışdı. Lənkəranın şərqində yerləşən Sara yarımadasında da kiçik rus kilsəsi olmuşdu. Bu kilsə tacir Kekin tərəfindən qamışdan tikilmişdi və dəmir damla örtülmüşdü. Lənkəran qəzasında başqa kilsələr də olmuşdu: Mixaylovka kəndində memar Marçenkonun layihəsi əsasında rus üslubunda tikilmiş məbəd (1869); Novoqolitsino kəndində "Müqəddəs Möcüzə yaradan Nikolay" məktəb-kilsəsi (1903); Göytəpədə Sərhəd qoşunlarının 6-cı dairəsinin Əlahiddə Korpusunun Bakı briqadasının "Aleksandr Nevski" kilsəsi (bu ibadət yeri 1898-ci ildə Bakıdan Göytəpəyə köçürülmüş, 1906-cı ildə yenidən Bakıya qaytarılmışdır)[92] və s.

Çar Rusiyası dövründə Azərbaycanda açılan rus məbədlərindən danışarkən rus kəndlərinin say çoxluğu diqqəti çəkir. Belə sual yarana bilər ki, bu amil nə ilə bağlıdır? Məsələ burasındadır ki, çar hökuməti əhalinin mütləq

91 - Юницкий А. Указ. соч. – с.101-128.
92 - Yenə orada. – s. 128-143.

əksəriyyətinin müsəlmanlardan ibarət olduğu Azərbaycanda ruslaşdırma və xristianlaşdırma siyasəti həyata keçirirdi. Və bu siyasətin tərkib hissəsi kimi ölkəmizə xeyli rus köçürülmüşdür ki, nəticədə çoxlu rus kəndləri meydana gəlmişdi. Bu köç siyasəti zamanı yerli müsəlman əhalinin hüquqları tapdanır, onların məhsuldar torpaqları gəlmələr tərəfindən tutulurdu. Bunu A.Yunitski də etiraf edərək yazırdı: *"...çünki rusların gəlişi ilə müsəlmanlar çoxlu torpaq sahələrindən məhrum olmalıydılar"*[93]. Bununla yanaşı, müstəmləkə hakimiyyəti köçənlərə hər cür şərait yaradaraq az qala hər rus kəndində kilsə açmağa çalışırdı: *"müstəmləkələşdirmə daha uğurla getsin və daha da çiçəklənsin deyə, hakimiyyət köçənlərə onların ağır günlərində kömək edirdi... Ən əsası isə rus adamının dini tələbatının ödənilməsini arzulayaraq, hakimiyyət rus kəndlərində kilsələrin tikintisi üçün vəsait axtarıb tapırdı. Və Muğan düzündə pravoslav məbədlərinin xaçları parıldadı və çöl boyu çox-çox uzaqlarda kilsə zənglərinin səsi yayılmağa başladı"*[94].

Rus Pravoslav Kilsəsinin ölkəmizdəki tarixindən bəhs edərkən bir önəmli məqama toxunmaq lazımdır: bəzi tədqiqatçılar çarizm dövründə tikilən rus kilsələri haqda yazarkən yalnız A.Yuntiskinin "Bakı quberniyasında kilsə və prixodların tarixi" əsərində adıkeçən məbədləri oxucuların diqqətinə çatdırır, ölkəmizin digər guşələrində fəaliyyət göstərən rus kilsələrini unudurlar. Halbuki Rusiya imperiyası dövründə Gəncə ("Aleksandr Nevski" Baş kilsəsi), Zaqatala (hərbi kilsə, XIX əsr), Şəki (V-VI əsrlərə aid olan "Dairəvi" alban məbədinin bazası əsasında qurulan "Nuxa Üçmüqəddəs kilsəsi", 1863[95]), Ordubad (hərbi kilsə, 1829)[96] və s. yerlərdə də rus məbədləri fəaliyyət göstərirdi.

93 - "История церквей и приходов Бакинской губернии". – с.158.
94 - Yenə orada. – s. 153.
95 - Ətraflı məlumat üçün bax: Abdullayevə S. Azərbaycanın dövlətçilik və mədəniyyət tarixində Şəkinin yeri və rolu [Elektron resurs]//525-ci qəzet.- 2015.- 14 mart. - s.6. – URL: http://www.anl.az/down/meqale/525/2015/mart/427085.htm (müraciət tarixi: 01.09.2016)
96 - Ətraflı məlumat üçün bax: Əliyev R. Ordubad məbədi xalqımızın multikulturalizm və tolerantlıq dəyərlərini özündə yaşadır (30.07.2016) [Elektron resurs]. – URL: http://azertag.az/xeber/Ordubad_mebedi_xalqimizin_multikulturalizm_ve_tolerantliq_deyerlerini_ozunde_yasadir-978559 (01.09.2016).

## Başqa təsisatlar

Rusiya imperiyası dövründə Azərbaycanda rus kilsələri, çasovnyaları və dua evləri ilə yanaşı, aşağıdakı rus pravoslav təsisatları mövcud idi:

*"Qafqazda pravoslav xristianlığının bərpası cəmiyyəti"*

9 iyul 1860-cı ildə yaradılan bu missionerlik təşkilatının işinə bilavasitə Qafqaz canişini nəzarət edirdi. Cəmiyyət dövlət tərəfindən dəstəklənirdi. Qafqazda pravoslavlığın dayaqlarını möhkəmləndirmək üçün Cəmiyyət Müqəddəs Kitabı və digər dini əsərləri Qafqaz xalqlarının dillərinə tərcümə edir, pravoslav təhsil müəssisələrinin ehtiyaclarını ödəməyə çalışır, pravoslav keşişlərə maddi yardım göstərir, köhnə məbədləri bərpa edir və ya yenilərini açırdı. Təkcə onu qeyd etmək kifayətdir ki, Cəmiyyət tərəfindən Qax ("Müqəddəs Georgi", "Müqəddəs Sameba", "Müqəddəs Mixeyil", "Müqəddəs Nino") və Zaqatalada (1892-ci ildə Cəmiyyət qədim alban kilsəsinin bazası əsasında "Kürmük" məbədində təmir-bərpa işləri apararaq rus kilsəsinə çevirmişdir) bir neçə kilsə tikilmiş, yaxud yenidən qurulmuşdu[97].

*Pravoslav xeyriyyə cəmiyyət və qardaşlıqları*

Bakı şəhərində "Aleksandr Nevski" Baş kilsəsinin nəzdində 23 may 1902-ci ildə "Kilsə nəğmələrini sevənlər Bakı Kiril-Mefodi Qardaşlığı" açılmışdı. Qarqaşlığın himayəsi altında 28 kilsə məktəbi, on nəfərlik uşaq evi və iki kitabxana fəaliyyət göstərirdi. Bununla yanaşı, 1897-ci ildə yaradılan və şəhərdəki məzarlıqların abadlığına nəzarət edən Bakı Qəbiristanlıq Xeyriyyə Cəmiyyəti, 1 oktyabr 1898-ci ildə təsis olunan "Din müəllimləri qardaşlığı" vardı. Bu təşkilatın yığıncaqlarında elmi-dini söhbətlər aparılır, mühazirələr oxunur, kitablar müzakirə edilirdi[98].

*Kilsə-prixod məktəbləri*

Təkcə Bakı quberniyasının ərazisində 1905-ci ildə 28 belə məktəb fəaliyyət göstərirdi. Bakının özündə isə beş kilsə-prixod məktəbi vardı. Bu məktəblərdən dördü "Aleksandr Nevski" Baş kilsəsinin, birisi isə Şibayev zavodundakı kilsənin nəzdində idi. Bakıdakı dini məktəblərdə hər il üç yüzədək

97 - Акты, собранные Кавказской Археографической комиссией. - Тифлис: Тип. канц. главнонач. гражд. частью на Кавказе, 1904. Том XII. - с. 1357, 1363 – 1364.
98 - Yunitski A. Sitat gətirilən əsəri. - s.48 - 49.

oğlan və qız təhsil alırdı. Kilsə-prixod məktəblərində müxtəlif xalqlardan olan, fərqli dinlərin mənsubları oxuyurdu. 1905-ci ilin statistikasına görə, Bakı quberniyasında kilsə-prixod məktəblərində oxuyan 574 şagirddən 470 nəfəri pravoslav, 78 nəfəri rus təriqətçisi, 8 nəfəri müsəlman, 5 nəfəri katolik və digər etiqadların nümayəndələri olub[99].

## Cümhuriyyət dövrü və Sovet hakimiyyəti illəri

Yuxarıda gətirilən faktlar bariz şəkildə onu göstərir ki, Rusiya imperiyası dövründə Rus Kilsəsinə geniş imkan və böyük imtiyazlar tanınmışdı. Bu vəziyyət 1917-ci ildə Fevral inqilabınadək davam etdi. İnqilab nəticəsində çarizm süquta uğradı, imperiyanın keçmiş müstəmləkləri öz müstəqilliyini elan etdilər. Azərbaycan xalqı da cərəyan edən tarixi-siyasi proseslərdən kənar qalmadı, dövlətçilik ənənəsinin bərpası istiqamətində addımlar atdı, beləliklə 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Ölkəmizdə dövlət-din münasibətləri sahəsində yeni səhifə açıldı. Belə ki, Rusiya imperiyasında Rus Pravoslav Kilsəsi hakim mövqedə dayandığı, "yad" din və məzhəblər gözümçıxdıya salındığı halda, əhalisinin əksər hissəsini müsəlmanlar təşkil etdiyi ADR-də İslam dininə rəsmi status verilmədi, tam vicdan azadlığı elan olunaraq hər hansı din və ya məzhəbə üstünlük tanınmadı. Etiraf edək ki, bu zamanını qabaqlayan olduqca mütərəqqi addım olub. 1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbaycan Milli Şurası tərəfindən hazırlanan İstiqlal Bəyannaməsində açıq-aydın dini etiqad azadlığı təsbit olunub:

*4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin edər.*

*5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bil cümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır*[100].

ADR vaxtı pravoslav məbədlər tam azad şəraitdə fəaliyyət göstərmiş, rus pravoslavları heç bir ayrı-seçkilik halları ilə üzləşməmiş, hər kəs üçün tanınan haqlardan istifadə etmişlər. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibində "Slavyan-rus

99 - Yenə orada. – s. 49, 188 - 189.
100 İstiqlal bəyannaməsi [Elektron resurs]//sayt: Azərbaycan Xalq Cümhuriyyəti. – URL: http://axc.preslib.az/az_b1.html (müraciət tarixi: 04.09.2016).

cəmiyyəti” fraksiyası (farksiyaya bu deputatlar daxil idi: Viktor Klenevski, Vasili Kravçenko, Sergey Remizov, M.N.Vinoqradov, Fyodor Kotilevski) yer almışdır[101].

XI Qızıl Ordu hissələrinin Azərbaycanı işğal etməsi və 28 aprel 1920-ci ildə xalqın iradəsinə zidd olaraq ölkəmizdə sovet hakimiyyətinin qurulması ilə Cümhuriyyət dövründəki vicdan azadlığına son qoyuldu. İdeoloji cəhətdən qatı ateist olan bolşeviklər bütün dinlərə qarşı sərt mübarizə aparmağa başladılar. Ən böyük zərbələrdən biri də Rus Pravoslav Kilsəsinə dəydi.

Bakının tarixi bunun əyani şahididir. Belə ki, çarizm dövründə hakim dinin təcəssümü kimi şəhərin ən hündür yerində tikilən “Aleksandr Nevski” Baş kilsəsi (1936-cı il), Qoşa qala qapısının yanındakı “Müqəddəs Möcüzə göstərən Nikolay” Baş kilsəsi (ötən sərin 30-cu illəri), Qız qalası ilə yanaşı ucalan “Müqəddəs Varfolomey sövməəsi” (1936-cı il) və daha neçə belə rus ibadətxanası bolşeviklər tərəfindən barbarcasına dağıdıldı[102].


*Müqəddəs Əzabkeş İohann*

Bununla yanaşı, repressiya illərində dini əqidəsinə görə müsəlman, yəhudi, xristian din xadimləri zindanlara atıldı, sürgünə göndərildi və ya ölümə məhkum edildilər. Bu qurbanlardan biri də Bakıdakı “Müqəddəs Məryəm Ananın Mövludu” rus pravoslav kilsəsinin baş keşişi İohann İlyiç Qançevdir. Sovet hakimiyyəti dövründə ağır sınaqlarla üzləşən bu pravoslav ruhanisi 20 mart 1933-cü ildə saxta ittihamla həbs olunur və 2 noyabr 1937-ci ildə güllələnir. 2000-ci ildə o, Rus Pravoslav Kilsəsinin Yubiley Arxiyerey Məclisi tərəfindən Rusiyanın 20-ci əsrdəki Yeni Əzabkeşləri və Şəhidləri sırasına daxil edilərək Bakılı Müqəddəs Əzabkeş İohann adını alır. Qeyd edək ki, hər il noyabr ayının 2-də Azərbaycandakı rus kilsələrində onun xatirəsi yad olunur[103]. Bakılı Müqəddəs Əzabkeş İohandan başqa da Azərbaycanda təqiblə üzləşən rus pravoslav keşişləri vardı. Onlar arasında An-

101 - Bax: Parlament və onun tərkibi [Elektron resurs]//sayt: Azərbaycan Xalq Cümhuriyyəti. – URL: http://axc.preslib.az/az_a3.html (müraciət tarixi: 04.09.2016).

102 - Ətraflı məlumat üçün bax: Православные храмы Баку (список) [Elektron resurs]//Наш Баку: История Баку и бакинцев. – URL: https://www.ourbaku.com/index.php/Православные_храмы_Баку (müraciət tarixi: 04.09.2016).

103 - Bakılı Əzabkeş İohann haqda ətraflı məlumat üçün bax: Bakı və Azərbaycan Yeparxiyasının rəsmi saytı. – URL: http://baku.eparhia.ru/history/eparchy/ganchev/ (müraciət tarixi: 01.09.2016).

drey Yereminin (1929), Yevfimi Savelyevin (1932) və başqalarının adını çəkmək mümkündür[104].

Stalinin qanlı repressiyası dövründə 1937-ci ilin aprel ayında bu kilsə Bakıda işləyən yeganə rus pravoslav məbədi olmuşdur. Lakin sonda o da bağlanılaraq hərbi kazarmaya çevrilmişdir. İkinci dünya müharibəsi dövründə Sovet hakimiyyətinin dini siyasətində bir qədər yumşalma baş vermişdir. Belə ki, 1944-cü ildə Bakıdakı pravoslavlara "Arxistriq Mixail" sövməəsi qaytarılmışdır. O vaxtlar orada "Ehtiyyat əmək qüvvələri cəmiyyəti"nin mühasibatlığı yerləşmişdir. Bu bina pravoslavlara qaytarıldıqdan sonra dindarlar divardakı bəzi naxışları bərpa etmişlər. Lakin çasovnyanın binası balaca olduğundan 1944-cü ildə "Müqəddəs Məryəm Ananın Mövludu" kilsəsi dindarların istifadəsinə verilərək Baş kafedral kilsəsi statusu almışdır. 1946-cı ildə "Mixail-Arxangel" kilsəsinin qapıları yenidən pravoslavların üzünə açılmış, hətta 1946-cı ildə Xaçmazda yerli rus kəndlilərin könüllü ianələri hesabına "Müqəddəs Nikolski" məbədi tikilmişdir[105].

## Yeni inkişaf mərhələsi

SSRİ süquta uğradıqdan və Azərbaycan xalqı yenidən müstəqilliyini bərpa etdikdən sonra Rus Pravoslav Kilsəsi ölkəmizdə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Çünki respublikamızda dini etiqad azadlığı elan olunmuş, dini-etnik mənsubiyyətindən asılı olmayaraq bütün din və etiqadların nümayəndələrinə bərabər hüquqlar tanınmışdır. Xüsusən Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycandakı pravoslav icmasının taleyində olduqca müsbət dəyişikliklər baş vermişdir. Belə ki, Ulu Öndər etnik qrup və dini azlıqların ehtiyaclarına diqqətlə yanaşdığından dolayı ölkəmizin ən böyük xristian konfessiyası - rus pravoslav icması üçün geniş imkan və perspektivlər açılmışdır. Onun hakimiyyəti illərində yerli pravoslavlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar.

---

104 - Вах: Русская Православная Церковь в Азербайджане: история и современность//Азербайджан и азербайджанцы в мире: Культурологический журнал, № 1, июнь 2007 год. – с. 61.

105 - Гумбатова Т. Баку и немцы. – Баку: Чашыоглу, 2008. – 398-399; Собор Рождества Пресвятой Богородицы (Баку); Собор Рождества Пресвятой Богородицы (Баку) [Elektron resurs] //Наш Баку: История Баку и бакинцев. – URL: https://www.ourbaku.com/index.php/Собор_Рождества_Пресвятой_Богородицы_(Баку) (müraciət tarixi: 03.11.2016); Əfəndiyev M., Əlizadə A. Azərbaycanda Rus Pravoslav Kilsəsi: tarix və müasirlik//Azərbaycanda ənənəvi din. - Bakı: Elm və təhsil, 2014. - s. 311-312.

18 oktyabr 1991-ci ildə Azərbaycan xalqı dövlətçilik ənənələrini bərpa etdikdən sonra pravoslav icmasının həyatında bir sıra əlamətdar tarixi hadisələr baş vermişdir. Həmin hadisələrə nəzər yetirək.



*Ulu Öndər Heydər Əliyevin Moskva və Ümumrusiya Patriarxı II Aleksi ilə görüşü*

Moskva və bütün Rusiyanın Patriarxı II Aleksi və Rus Pravoslav Kilsəsinin Müqəddəs Sinodunun 28 dekabr 1998-ci il tarixli qərarı ilə Bakı və Xəzəryanı yeparxiya bərpa edilmişdir. 2001-ci ilin may ayında isə II Aleksi ölkəmizə səfər edərək Bakı və Xəzəryanı yeparxiyaya baş çəkmiş, öz xeyir-dualarını vermişdir. Səfər çərçivəsində Patriarxı Ulu Öndər də qəbul etmişdir[106].

2005-ci ilin sentyabrında isə Patriarx Prezident İlham Əliyevin dəvəti ilə respublikamıza ikinci səfərini etmişdir. Görüş zamanı dövlət başçısı Rus Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında əlaqələrin əhəmiyyətindən danışmış və rus-Azərbaycan xalqları arasında dostluq münasibətlərinin inkişafında göstərdiyi xidmətlərə görə Patriarx II Aleksini ali dövlət mükafatı – “Şöhrət” ördeni ilə təltif etmişdir. Patriarx, öz növbəsində, başda Prezident İlham Əliyev olmaqla, Azərbaycan Respublikasına və onun vətəndaşlarına sülh, əmin-amanlıq arzulamış, dövlət başçısını Rus Pravoslav Kilsəsinin ən ali mükafatlarından olan 1-ci dərəcəli “Müqəddəs Sergi Radonejski” ordeni ilə təltif etmişdir. Daha sonra Rus Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında müsbət əlaqələrin inkişafını nəzərdə tutan birgə Bəyannamə imzalanmışdır[107].

---

106 - Bax: Əfəndiyev M., Əlizadə A. Sitat gətirilən əsər. – s. 313 - 314.
107 - Bax: Əfəndiyev M., Əlizadə A. Sitat gətirilən əsər. – s. 314-315.

6 noyabr 2009-cu ildə Moskva və bütün Rusiyanın Patriarxı Kirill Bakıda bir günlük səfərlə olmuşdur. Səfər zamanı Patriarxı Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyev qəbul etmişdir. Daha sonra Patriarx Kirill "Jen Mironosits" kafedral kilsəsinə baş çəkmiş və "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmişdir[108].



*Moskva və bütün Rusiyanın Patriarxı Kirill "Müqəddəs Jen-Mironosits" kilsəsində*

24-26 aprel 2010-cu ildə Moskva və bütün Rusiyanın Patriarxı Kirill Azərbaycana ikinci dəfə səfər etmişdir. Səfər zamanı onu Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev qəbul etmişdir. Görüş zamanı dövlət başçısı İlham Əliyev Patriarx Kirili Azərbaycan Respublikasının "Şərəf" dövlət ordeni ilə mükafatlandırmışdır. Öz təşəkkürünün bildirən Patriarx Kirill demişdir: *"Azərbaycanın pravoslav icması adından Sizin xalqınızın həyatında olan sülh ruhuna görə Sizə minnətdarlığımı ifadə etmək istəyirəm"*. Daha sonra Patriarx Azərbaycan Respublikasının Prezidentini Rus Pravoslav Kilsəsinin 1-ci dərəcəli "Slava i Çest" ordeni ilə təltif etmişdir. Bununla yanaşı, 25 aprel 2010-cu ildə Patriarx Kirill Qafqaz Müsəlmanları İdarəsinin konfrans zalında keçirilən MDB Dinlərarası Şurasının iclasında və 26-27 aprel 2010-cu ildə Dini Liderlərin Ümumdünya sammitində iştirak etmişdir[109].

108 - Bakı və Azərbaycan Yeparxiyasının rəsmi saytı. – URL: http://www.baku-eparhia.ru/eparchy/istoricheskiy_vizit_svyateyshego_patriarcha_kirilla_v_azerbaydjan_6_noyabrya_2009/

109 - Ətraflı məlumat üçün bax: журнал Бакинско-Прикаспийской епархии: "Православный вестник", 2010. №4-5.



*Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini – Mədəniyyət Mərkəzi*

15 noyabr 2013-cü ildə isə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini – Mədəniyyət Mərkəzi açılmışdır. Bu rus pravoslav mərkəzi dövlət başçısı İlham Əliyevin göstərişi əsasında tikilmişdir. Belə ki, onun tapşırığına əsasən "Müqəddəs Jen-Mironosits" kilsəsinin yanında adıçəkilən mərkəzin inşası üçün torpaq sahəsi ayrılmış və bu dini-mədəniyyət ocağının binası Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin hesabına ucaldılmışdır[110].

Günümüzdə Bakı və Azərbaycan yeparxiyası ölkəmizdə tarixən mövcud olan dinlərarası münasibətlərin inkişafı və tolerant mühitin möhkəmlənməsi işinə öz töhfəsini verir. Respublikamızda yaşayan pravoslav rusların dini lideri arxiyepiskop Aleksandr İşeinin Azərbaycan Respublikasının "Şöhrət" və "Dostluq" ordenləri ilə təltif edilməsi bu sahədə çəkilən zəhmətə görə verilən ən yüksək qiymətdir[111].

Beləliklə, yuxarıdakı faktlar onu göstərir ki, müasir Azərbaycanda Rus Pravoslav Kilsəsinin fəaliyyəti üçün tam şərait yaradılmışdır. Azərbaycan hökuməti ilə Bakı və Azərbaycan Yeparxiyası arasında əməkdaşlıq yüksək səviyyədə inkişaf edir və pravoslav rusların dini ehtiyacları daim dövlətin diqqət mərkəzində saxlanılır.

110 - http://az.president.az/articles/10086
111 - Əfəndiyev M., Əlizadə A. Sitat gətirilən əsər. – s.316.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılış mərasimində.*
*15 noyabr 2013-cü il.*



*Bakı və Azərbaycan Yeparxiyası tərəfindən təşkil olunan ənənəvi Milad konserti.*
*Mixail Arxangel kilsesinin xoru. "Kapelxaus". 11 yanvar 2016-cı il.*

# RUS PRAVOSLAV KİLSƏSİNİN BAKI VƏ AZƏRBAYCAN YEPARXİYASI

## Qısa tarixçəsi

XIX əsrdə Gürcüstan Rusiya imperiyası tərəfindən işğal ediləndən sonra Gürcü Pravoslav Kilsəsi ləğv olunur və onun yerinə Gürcüstan Ekzarxatlığı (rəhbərinin titulu - Gürcüstan ekzarxı) yaranır. Qafqazdakı kilsələr bilavasitə bu dini təşkilatın tabeçiliyinə verilir. Ekzarxatlığın mərkəzi Tiflis şəhərində yerləşirdi.

Ekzarxatlıq Bakı quberniyasındakı rus kilsələrini blaqoçinnilər vasitəsi ilə idarə edirdi. 1904-cü ildən başlayaraq Bakı quberniyası iki blaqoçinniyə bölünür. Bu blaqoçinnilərdən birisinə Bakı, Göyçay, Quba və Şamaxı qəzalarındakı kilsələr, o birisinə isə Lənkəran və Cavad qəzalarındakı pravoslav məbədləri daxil edilir[112]. 19 may 1905-ci ildə Rus Pravoslav Kilsəsinin Gürcüstan ekzarxatlığının Kartalin və Kaxetiya Yeparxiyasının nəzdində Bakı vikariatlığı yaradılır. Bakı və Yelizavetpol quberniyasında fəaliyyət göstərən rus kilsələri bu vikariatlığın tabeçiliyinə verilir[113].

Çar Rusiyası dağılandan sonra 1917-ci ilin mart ayında Gürcü Pravoslav Kilsəsi yenidən müstəqilliyini qazanır. Odur ki, Gürcüstan ekzarxatlığı ləğv edilir və rus kilsələrinin idarə olunması üçün Qafqaz ekzarxatlığı yaradılır. Bu ekzarxatlığın başçısı Platon "Tiflis və Bakı, Qafqaz ekzarxı" titulunu daşıyırdı. 19 aprel 1918-ci ildə Qafqaza təyin olunan növbəti ekzarx Kirill müharibə getdiyi üçün təkcə Bakıda olmuşdur. Burada o, bir ay fəaliyyət göstərərək kilsələrin qorunması istiqamətində iş aparmışdır. Qafqaz Gürcüstan ekzarxatlığının ömrü uzun olmur və faktiki olaraq, 1920-ci ildə bu kilsə fəaliyyətini dayandırır[114].

10 iyul 1917-ci ildə Qafqaz ekzarxatlığı təsis olunduqdan sonra 13 sentyabr (və ya noyabr) 1917-ci ildə Bakı vikariatlığının yerinə Yelizavetpol vikari-

112 - Юницкий А. История церквей и приходов Бакинской губернии: издательство Бакинского братства законоучителей. 1815-1905 гг. – Баку: Типогр. Губ. Правления, 1906. – с. 190.

113 - Бакинская и Прикаспийская Епархия [Elektron resurs]//Православная энциклопедия: под редакцией Патриарха Московского и Всея Руси Кирилла. – URL: http://www.pravenc.ru/text/77394.html (müraciət tarixi:07.11.2016).

114 - Грузинский экзархат [Elektron resurs]//ДРЕВО: открытая православная энциклопедия. – URL: https://drevo-info.ru/articles/508.html (müraciət tarixi:07.09.2016).

atlığı (bəzi mənbələrdə Yelizavetpol və ya Kirovabad yeparxiyası adlanır) yaradılır. Bu vikariatlığın mərkəzi Gəncə, sonra isə Tiflis şəhəri olur. Yelizavetpol vikariatlığının tərkibinə Bakı və Yelizavetpol quberniyasındakı rus və başqa qeyri-gürcü pravoslav prixodlar daxil edilir. 1919-cu ildə Yelizavetpol vikariatlığının yerinə mərkəzi Bakı şəhərində yerləşən Xəzəryanı və Bakı yeparxiyası (bəzi mənbələrə əsasən, Bakı və Yelizavetpol yeparxiyası) yaradılır. 1934-cü ildə isə Azərbaycan ərazisindəki rus kilsələri Stavropol yeparxiyasının tabeçiliyinə keçirilir[115]. 1998-ci il dekabrın 28-də Müqəddəs Sinodun qərarı ilə dini fəaliyyətini bərpa edən Bakı və Xəzəryanı Yeparxiyanın adı 2011-ci il martın 22-də dəyişdirilmiş, Bakı və Azərbaycan Yeparxiyası adlandırılmışdır.

Qeyd edək ki, 1917-ci ildə Fevral inqilabının qopması ilə Rus Pravoslav Kilsəsini yeniləşdirmək, müasirləşdirmək və demokratik əsaslar üzərində qurmaq istəyən bir hərəkat ortaya çıxıb. Bu hərəkatda yer alan rus pravoslav din xadimləri Moskva Patriarxatlığının rəsmi başçısı Tixonu tanımayaraq, bolşevikləri sidqi-ürəklə dəstəkləyiblər. Beləliklə, Fevral inqilabından sonra Rus Kilsəsi parçalanıb. Moskva Patriarxatlığından ayrılan bir sıra rus keşişləri Pravoslav Rusiya Kilsəsini qururlar. Daha sonra bu təşkilat SSRİ-də Pravoslav Kilsəsi adlanıb (hərəkat “Yeniləşdirmə Kilsəsi” kimi də tanınır) və bir vaxtlar Sovet İttifaqında tanınan yeganə pravoslav kilsəsi olub. Rus Pravoslav Kilsəsində yaranan nifaq Azərbaycandakı rus kilsələrinə də təsir göstərib. Belə ki, 1923-cü ildə Yeniləşdirmə Kilsəsinin Zaqafqaziya Mitropolit dairəsi yaradılıb. Dairənin nəzdində Bakı yeparxiyası açılıb. Beləliklə, Azərbaycanda eyni anda iki rus pravoslav qurumu fəaliyyət göstərib: Rus Pravoslav Kilsəsinin Xəzəryanı və Bakı yeparxiyası, eləcə də Pravoslav Rusiya Kilsəsinin Zaqafqaziya Mitropolit dairəsinin Bakı Yeniləşdirmə yeparxiyası[116].

İlk vaxtlar “Yeniləşdirmə Kilsəsi”ni dəstəkləyən bolşeviklər sonradan siyasətlərini dəyişdirərək həmin dini qurumu ləğv edirlər. Ona görə də Bakı Yeniləşdirmə yeparxiyası da öz fəaliyyətini ötən əsrin 30-cu illərində dayandırır. Bu yeparxiyaya aşağıdakı arxiyereylər başçılıq etmişlər:

1. Pyotr Danilov (1922 - 1925);
2. Pyotr Sergeyev (1925 - 1927);

115 - Бакинская и Прикаспийская Епархия //Там же.

116 - Бакинская обновленческая епархия [Elektron resurs]//ДРЕВО: открытая православная энциклопедия. – URL: https://drevo-info.ru/articles/21127.html (müraciət tarixi: 13.11.2016).

3. Mixail Orlov (1930 - 1934)[117].

Qeyd edək ki, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yeparxiyası pravoslav dini icması 2009-cu ildə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yenidən dövlət qeydiyyatına alınmışdır.




*Üzərində Azərbaycanın xəritəsi təsvir olunan "Xəzər Müqəddəs Məryəm Ana" ikonası*

117 - Бакинская обновленческая епархия//Там же.

## Azərbaycanda rus kilsəsinə rəhbərlik etmiş arxiyereylər:

***Kartalin və Kaxetiya Yeparxiyasının Bakı vikariatlığı:***

Nikandr Fenomenov (1905-ci il)
Pyotr Konçuyev (1905-1907)
Qriqori Vaxnin (1907-1910)
Pimen Peqov (1911-1912)
Qriqori Yatskovski (1912-1917)

***Yelizavetpol Yeparxiyası:***

Qriqori Yatskovski (1917)
Feofilakt Klementyev (1918-1922)

***Xəzəryanı və Bakı Yeparxiyası:***

Pavel Vilkovski (1919-1923)
Dimitri Dobroserdov (1923-cü ilin iyun-sentyabr ayları)
Mitrofan Ogiyenko (1924-cü ilin yanvar-avqust ayları)
Arseni Sokolovski (1924-1928)
Serafim Protopopov (1928-1930)
Nikon Purlevski (1930-cu ilin aprel-oktyabr ayları)
Valeri Rudiç (1930-31-ci illər)
Mitrofan Polikarpov (1931-34-cü illər)
Aleksandr Rayevski (1933-cü ilin fevral-avqust ayları)

***Stavropol Yeparxiyasının Bakı vikariatlığı***

Valentin Mişuk (1994-1995)

***Bakı və Xəzəryanı Yeparxiyası; daha sonra***
***Bakı və Azərbaycan Yeparxiyası***

Arxiyepiskop Aleksandr İşein (14 yanvar 1999-cu ildən indiyədək)[118]

118 - Bakı və Azərbaycan Yeparxiyasının rəsmi saytı: http://baku.eparhia.ru/history/eparchy/arh/ (müraciət tarixi: 13.08.2016).

## Təşkilati strukturu

Təşkilata “yepiskop” və ya “arxiyepiskop” titulunu daşıyan şəxs rəhbərlik edir. Yeparxiyanın indiki başçısı arxiyepiskop Aleksandr İşeindir. Yeparxiya bilavasitə Rus Pravoslav Kilsəsinin Moskva Patriarxatlığına tabedir.


*Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein*

2016-cı ilin məlumatına görə, təşkilat daxilində struktur islahatı aparılıb. Aparılmış struktur dəyişikliyi nəticəsində Yeparxiya üç blaqoçiniyə bölünüb və aşağıdakı ştat cədvəli müəyyənləşib:

1. Bakı şəhər blaqoçinisi – 14 ştatlı keşiş, 3 ştatdanartıq keşiş, 1 ştatdankənar keşiş;
2. Qərb blaqoçinisi – 7 ştatlı keşiş və 2 ştatdanartıq keşiş;
3. Xəzəryanı blaqoçinisi – 3 ştatlı işçi.

## Yeparxiyanın nəzdindəki kilsələr

*“Müqəddəs Jen-Mironosets”rus pravoslav kafedral kilsəsi*

*(bu kitabın “Rus Pravoslav Kilsəsi: keçmişdə və bu gün” fəslində həmin kilsənin tikilmə tarixi barədə ətraflı məlumat verilmişdir).*

Keçmiş 206-cı Salyan piyada polkunun “Müqəddəs Mixail Arxistratiq” kilsəsidir. 1909-cu ildə tikilən kilsə Sovet hakimiyyəti qurulandan sonra 1920-ci ildə bağlanılmışdır. 1923-cü ildə kilsənin boş binasında Qırmızı ordunun əsgər evi açılmış, 1970-ci ildə topoqrafik kartların anbarı, daha sonra idman zalı, 1988-1989-cu illərdə isə desantçılar üçün kazarma kimi istifadə olunmuşdur.

1990-cı ildə qanlı Yanvar hadisələri zamanı kilsənin dam örtüyünə iki mərmi düşmüşdür. Bunun nəticəsində dam tamamilə dağılmış, döşəmə çökmüş, divarlar isə çatlamışdır. Məbədin yarıdağılmış binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinin sərəncamına verilmişdir. Bakıda Arxiyerey Kafedrasının təsis edilməsindən sonra kilsədə bərpa işlərinin aparılmasına imkan

yaranmışdır. Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı yeparxiyasının yepiskopu Aleksandr İşeinin qayğısı və köməyi ilə məbəddə təmir-bərpa işləri aparılmışdır.

Moskva və bütün Rusiyanın Patriarxı II Aleksi 27 may 2001-ci ildə bu məbədə baş çəkərək təqdisetmə mərasimi keçirmişdir. Moskvada yaşamış Ümumrusiya Azərbaycan Konqresinin sabiq vitse-prezidenti Aydın Qurbanovun maddi köməkliyi ilə kilsənin ikinci həyatına qovuşdurulması diqqətəlayiq haldır. O, Bakı və Azərbaycan Yeparxiyasının əsas kilsəsinin dirçəldilməsi üçün tələb olunan maliyyə və maddi vəsaitlərinin əsas hissəsini öz üzərinə götürmüşdür. Azərbaycanın paytaxtında Rus Pravoslav məbədinin bərpa edilməsində göstərdiyi xidmətlərə görə Moskva və Ümumrusiya Patriarxı II Aleksi müsəlman xeyriyyəçini "Pravoslav Ordeni" ilə təltif etmişdir.

Bu kilsədə Bakı şəhərinin himayəçisi sayılan Müqəddəs Varfolomeyin "qurumuş cəsədindən" hissələr saxlanılır.

*"Müqəddəs Məryəm Ananın Mövludu" rus pravoslav kilsəsi*



Sabunçu vağzalının tikilməsi ilə bağlı 1925-ci ildə "Müqəddəs Məryəm Ananın Mövludu" kilsə-məktəbi uçurulandan sonra onun əvəzinə 1926-cı ildə bazilika memarlıq üslubunda bu kilsə tikilmişdir. Yuxarı Priyutsk küçəsində (indiki Şamil Əzizbəyov küç., 205.) ucaldılan "Müqəddəs Məryəm Ananın Mövludu" kilsəsinin yeni binası 1937-ci ilin aprel ayında Bakıda işləyən

yeganə rus pravoslav məbədi olmuşdur. Lakin sonda o da bağlanılaraq hərbi kazarmaya çevrilmişdir. 1944-cü ildə bu ibadət ocağı yenidən Rus Pravoslav Kilsəsinə qaytarılmış və ona Stavropol-Bakı yeparxiyasının Kafedral Kilsəsi statusu verilmişdir.

1946-cı ildə Azərbaycandakı pravoslav kilsələrinin blaqoçinisi protoyerey Serqiy Kazanskinin təşəbbüsü ilə kilsədə əlavə mehrab quraşdırılmışdır. Kilsədə 1999-cu ildən 2001-ci ilə kimi yenidənqurma işləri aparılmışdır. 26 may 2001-ci ildə Moskva və Ümumrusiya Patriarxı II Aleksi "Müqəddəs Məryəm Ananın Mövludu" kilsəsinə baş çəkmiş və burada dua mərasimi həyata keçirmişdir. Kilsədə pravoslav ədəbiyyatı ilə zəngin kitabxana var, uşaqlar üçün bazar günü məktəbi fəaliyyət göstərir.

*"Mixail Arxangel" rus pravoslav kilsəsi*
*(bu kitabın "Rus Pravoslav Kilsəsi: keçmişdə və bu gün" fəslində həmin kilsənin tikilmə tarixi barədə ətraflı məlumat verilmişdir).*



"Mixail Arxangel" kilsəsi Bakıdakı ən qədim pravoslav məbədlərindən biridir. Kilsə XIX-cu əsrin 40-cı illərində inşa edilmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra 1936-cı ildə bağlanılaraq yataqxanaya çevrilmişdir. Faşizm üzərində qələbədən sonra, 1946-cı ildə məbədin binası yenidən Rus Pravoslav Kilsəsinə qaytarılmışdır.

25 may 2001-ci ildə Moskva və Ümumrusiya Patriarxı II Aleksi "Mixail-Arxangel" kilsəsinə baş çəkmiş və burada dua mərasimini həyata keçirmişdir. Hazırda Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşeinin təşəbbüsü ilə məbədin aşağı mərtəbəsində müqəddəs apostol Varfolomey adına əlavə tikili inşa olunmuşdur[119].

*Gəncə şəhərindəki "Aleksandr Nevski" Baş kilsəsi*



Məbəd 1887-ci ildə köhnə qəbiristanlığın yerində həm yerli pravoslavların, həm də müsəlmanların xeyriyyə vəsaiti hesabına ucaldılmışdır. Kilsənin binası kərpicdən Bizans memarlıq üslubunda tikilmişdir. Bolşevik inqilabına qədər bu pravoslav ibadət yeri Baş kilsə stasuna malik idi. XX əsrin 20-ci illərində məbəd Sovet hakimiyəti tərəfindən bağlanılmış və başqa məqsədlər üçün istifadə olunmuşdur. 1946-cı ildə ibadət yeri Rus Pravoslav kilsəsinə qaytarılmışdır. Kilsənin əski interyerindən müxtəlif ikonalar günümüzə qədər gəlib çıxmışdır. Bunlar arasında "Müqəddəs Aleksandr Nevski" və "Müqəddəs Mariya Maqdalena" ikonlarını xüsusən qeyd etmək lazımdır. Məbəddə dini ayinlər şənbə və bazar günləri, həmçinin pravoslav bayramlarında həyata keçirilir[120].

119 - Bakı və Azərbaycan Yeparxiyasının rəsmi saytı: http://baku.eparhia.ru/church/arh_mihail/ (müraciət tarixi: 14.11.2016).
120 - Bakı və Azərbaycan Yeparxiyasının rəsmi saytı: http://baku.eparhia.ru/church/al_nevskii/ (müraciət tarixi: 14.08.2016).

*Xaçmaz şəhərindəki*
*"Müqəddəs möcüzə göstərən Nikolay" kilsəsi*



1946-cı ildə şəxsi ev kilsə kimi istifadəyə verilmişdir. Kilsənin 64 kv.m sahəsi vardır. Həyəti abadlaşdırılmış, əlavə olaraq dini ayinlər həyata keçirmək üçün üç otaq tikilmişdir[121].

*Sumqayıt şəhərində "Müqəddəs Serafim Sarovski" dua evi*

2 aprel 2006-cı ildə kvartal 19, ev 24/5, mənzil 18 ünvanında açılmışdır. Açılış mərasimində Sumqayıt şəhərinin "Cümə" məscidinin axundu, yerli icra hakimiyyətinin nümayəndələri və digər qonaqlar iştirak etmişlər[122].

*"Böyük knyaz Aleksandr Nevski" çasovnyası*

Rusiyanın Azərbaycandakı səfirliyinin ərazisində yerləşir.

## Humanitar fəaliyyət

Yeparxiya geniş xeyriyyə fəaliyyəti ilə məşğuldur. Məsələn, "Mixail Arxangel" rus pravoslav kilsəsində kimsəsizlər üçün xeyriyyə yeməkxanası fəaliyyət göstərir. Eyni zamanda, Yeparxiya hər il xeyriyyə konsertləri də təşkil edir.

121 - Bakı və Azərbaycan Yeparxiyasının rəsmi saytı:http://baku.eparhia.ru/church/st_nicolas/ (müraciət tarixi: 14.08.2016).
122 - Bakı və Azərbaycan Yeparxiyasının rəsmi saytı:http://baku.eparhia.ru/church/serafim_sarovskii/ (müraciət tarixi: 14.08.2016).

## Dini təhsil



*“Azərbaycan dilini öyrənirik” kursunun ilk məzunları*

Yeparxiyanın nəzdində bazar günü məktəbləri və katexizasiya kursları fəaliyyət göstərir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini Məsələlər üzrə Dövlət Müşavirliyi Xidmətinin həyata keçirdiyi “Azərbaycan dilini öyrənirik” layihəsi çərçivəsində rus kilsələrində milliyətcə rus olan vətəndaşlarımız üçün Azərbaycan dili öyrədilir.

## Mətbu Orqan

Yeparxiya tərəfindən hər kvartaldan bir “Pravoslavnıy Kaspi” jurnalı və ayda iki dəfə “Pravoslavniy vestnik” qəzeti buraxılır.

## Say və milli tərkibi

Rus Pravoslav Kilsəsi ölkəmizdə sayca ən böyük qeyri-müsəlman təşkilatıdır. Lakin bu kilsənin təəssübkeşlərinin dəqiq statistikasını aparmaq çətindir, çünki kilsənin ardıcıllarının sayı müəyyənləşdirilərkən dini-etnik göstəricilər əsas götürülür. Belə hesab olunur ki, respublikamızda yaşayan rus, belorus, ukraynalı, yunan kimi azsaylı xalqların nümayəndələri bu kilsənin mənsubları sayılır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytında yer alan məlumata görə, 2009-cu il üzrə respublikamızdakı rusların sayı 119 300 nəfər, ukraynalılar sayı 21 500 nəfər təşkil etmişdir[123]. Bu statistik göstəriciləri nəzərə alsaq belə qənaətə gəlmək mümkündür ki, ölkəmizdə rus kilsəsinin mənsublarının sayı 140 mindən yuxarıdır. Lakin bu azsaylı xalqları bütövlüklə Rus Pravoslav Kilsəsinin təəssübkeşi saymaq doğru deyil, çünki onlar arasında rus təriqətçiləri, protestantlar, ateistlər və ya ümumiyyətlə, özlərini hər hansı kilsəyə aid etməyən dünyəvi adamlar var. Odur ki, Bakı və Azərbaycan

123 - http://www.stat.gov.az/source/demoqraphy/ap/ (müraciət tarixi: 13.09.2016).

Yeparxiyasının mətbuat katibi Konstantin Pominovun "Kavpolit" internet portalına müsahibəsində səsləndirdiyi rəqəmi əsas götürmək olar. K.Pominovun fikrincə, respublikamızda Rus Kilsəsinin təqribən 50 min mənsubu var[124].

Bakı və Azərbaycan Yeparxiyası bəlkə də respublikamızda yeganə xristian dini təşkilatıdır ki, azərbaycanlılar arasında missionerlik fəaliyyəti ilə məşğul deyil. Pravoslavlığa keçən azərbaycanlıların sayı azdır. K.Pominovun verdiyi məlumata görə, 1992-2014-cü illər ərzində rus kilsələrində vəftiz olunan azərbaycanlıların sayı min nəfərdən çox deyildir. Bu azərbaycanlıların da əksəriyyəti qarışıq ailələrin övladlarıdır[125].

## Maliyyə mənbəyi

Bakı və Azərbaycan yeparxiyası əsasən dindarların könüllü ianələri, dini əşyaların satışı, ən əsası Azərbaycan dövlətinin maliyyə yardımı hesabına fəaliyyət göstərir. Təkcə 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 250,0 (iki yüz əlli) min manat ayrılmışdır.

## Ziyarətgah



*Qız qalasının yaxınlığında Müqəddəs Varfolomeyin anım mərasimi*

Ölkəmizdəki pravoslav ruslar digər xristian və pravoslav bayramlarla yanaşı, özlərinə məxsus əlamətdar bir dini günü də qeyd edirlər. Belə ki, rəvayətə görə, İsa Məsihin şagirdi Varfolomey 71-ci ildə Qız qalasının yaxınlığında başı aşağı xaça çəkilərək öldürülmüşdür. Ona görə də yerli pravoslav ruslar hər il iyun ayının 24-də Qız qalasının yanında Sovet hakimiyyəti tərəfindən uçurulan "Müqəddəs Varfolomey" sövməəsinin qalıqları üzərində toplaşaraq Bakı və Azərbaycan yeparxiyasının arxiyepiskopu Aleksandr İşeinin başçılığı altında təntənəli dini mərasim keçirirlər.

124 - http://kavpolit.com/articles/protoierej_konstantin_azerbajdzhan_ne_primet_total-755/ (müraciət tarixi: 13.09.2016).
125 - http://kavpolit.com/articles/protoierej_konstantin_azerbajdzhan_ne_primet_total-755/.

## Rus Pravoslav Staroobryadets Kilsəsi

Pravoslavlıqdan bəhs edərkən Moskva Patriarxatlığını tanımayan pravoslav rusların, yəni "köhnə ayinçilər"in ("staroobryadetslər", "staroverlər", "raskolniklər") ölkəmizdəki tarixinə mütləq toxunmaq lazımdır, çünki onlar çar Rusiyası dövründə Azərbaycana ilk gələn "sektant"lardan biri olublar.

Ölkəmizə ilk "raskolniklər"in gəlməsi XIX əsrin 30-cu illərindən əvvəlki dövrə təsadüf edir. Ən birinci "staroverlər" Bakı quberniyasının Altıağac ərazisində məskunlaşaraq çar hökümətinin təqiblərindən mağaralarda gizlənirdilər. Burada yaşayan molokanlar isə onları azuqə ilə təmin edirdilər.

XIX əsrin 30-50-ci illərində çar hökuməti Voronej, Çerniqov, Perm, Kursk, Saratov, Samara, Ryazan, Moskva və başqa quberniyalardan Şamaxı quberniyasına inzibati qaydada "staroverlər"i sürgünə göndərdi. Onlar Lənkəran qəzasının Andreyevka, Astraxanka və Vəli kəndlərində, Şamaxı qəzasının Çuxur-Yurd kəndində, Bakı, Şamaxı və Lənkəran şəhərlərində məskunlaşdılar. Zaman keçdikcə Lənkəran qəzasının Vəli kəndi müxtəlif "starover" məzhəblərinə məhsub olan təriqətçilərin əsas yerləşmə mərkəzinə çevrildi. Belə ki, XIX əsrdə həmin kənddə Avstriya məzhəbinə mənsub olan 42 nəfər "köhnə ayinçi", 67 nəfər "çasovenniy starover" və 47 nəfər "bespopovets" yaşayırdı.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində "staroverlər"lə bağlı maraqlı tarixi sənəd mövcuddur. Həmin sənəddən məlum olur ki, 1910-cu ildə Bakıda, eləcə də Qara şəhər, Bibiheybət və Balaxanıda "staroverlər" yaşayırdı. Buralarda yaşayan 75 nəfər "raskolnik" hakimiyyətə müraciət edərək "Alekseyev staroobryadets icması"nın dövlət qeydiyyatına alınmasını xahiş edir. İcmanın dua evi Bakı şəhəri, Telefonnaya küçəsi (indiki 28 May küçəsi), № 54, Prikaşikovların evində yerləşirdi. "Alekseyev staroobryadets icması"nın üzvləri Rus Pravoslav Staroobryadets Kilsəsinin Belokrinitsk iyerarxiyasına tabe olublar[126].

Belokrinitsk iyerarxiyasına tabe olan dini icma Sovet hakimiyyəti dövründə də mövcud olub. Məsələn, ötən əsrin 80-ci illərində Bakı şəhəri, Oktyabr rayonu, Qasım İsmayılov küçəsi, 38 (indiki Yasamal rayonu, Zərgərpalan küçəsi) ünvanında Belokrinitsk iyerarxiyasına tabe olan "starover-

126 - ARDTA, f.389, iş. 259, v. 4-5.

lər" dini icmasının dövlət qeydiyyatına alındığı məlumdur[127]. Bu dini icma əsasən yaşlı şəxslərdən ibarət olub. Zamanla əksər "staroverlər" dünyasını dəyişdikləri üçün Bakıda "staroobryadetslər"in dini icması yox oldu.

Hazırda respublikamızda nə qədər "starover"in yaşadığı məlum deyil. Ehtimal ki, tək-tük ahıl yaşında olan "staroobryadets" qalıb. Bakı şəhəri "Molokan ruhani-xristian" dini icmasının presviteri Valeriyin dedikləri belə nəticəyə gəlməyə əsas verir. Onun sözlərinə görə, 2016-cı ildə vəfata getmiş "starover"in övladları molokan icmasına müraciət edərək mərhumun xristian ənənəsinə uyğun dəfn olunmasını xahiş etmişlər, çünki Rus Pravoslav Kilsəsi "staroobryadetslər"i vəftiz olunmamış sayaraq onları basdırmaqdan imtina edir. Maraqlıdır ki, Bakıdakı molokanlar da dəfn işində "staroverlər"in ailələrinə kömək göstəriblər.

127 - Azərbaycan SSR Nazirlər Soveti yanında Dini İşlər üzrə Şurası. 10 avqust 1987-ci il üzrə dövlət qeydiyyatına alınan xristian təşkilatların siyahısı (Hazırda bu siyahı Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində saxlanılır).

# Gürcü Pravoslav Kilsəsi

*Bu kilsə gürcü mədəniyyətinin formalaşmasına təsir göstərib, gürcü xalqının etnik-dini kimliyinin qorunmasında, onun milli şüurunun inkişafında böyük rol oynayıb. Odur ki, gürcü xalqı milli kilsəsinə (rəsmi adı – Gürcü Apostol Avtokefal Pravoslav Kilsəsi) və Gürcü Pravoslav Kilsəsinin başçısı katolikosa böyük ehtiram göstərir, cəmiyyətin taleyi ilə bağlı həlledici məsələlərdə dini liderlərinin xeyir-duasını almağa çalışır.*

## Qısa məlumat

Gürcüstan ərazisində Xristianlıq I əsrdən yayılmağa başlamışdır. Artıq IV əsrdə əksər gürcülər bu dini qəbul etmişlər. Həmin dövrdə Gürcü kilsəsi Antioxiya Pravoslav Kilsəsinin yurisdiksiyasına daxil olmuş, VIII əsrdə müstəqilliyini qazanmışdır. Onun aftokefallığı 1057-ci ildə Antioxiyada yerli Kilsə Məclisi tərəfindən təsdiqlənmişdir. 1811-ci ildə Gürcüstan Rusiya imperiyasının tərkibinə daxil olduqdan sonra Gürcü Kilsəsi müstəqilliyini itirərək Rus Pravoslav Kilsəsinə birləşdirilmiş, onun tərkibində ekzarxat statusu almışdır. 1917-ci ildə Fevral inqilabının qopması və Rusiya imperiyasının süquta uğraması ilə Gürcü Pravoslav Kilsəsi yenidən müstəqillik əldə etmiş, yerli Kilsə Məsclisini keçirərək katalikos-patriarxı seçmişdir. 1943-cü ildə Rus Pravoslav Kilsəsi Gürcü Kilsəsini tanımışdır[128]. 1989-cu ildə Gürcü Kilsəsinin avtokefallığını İstanbul şəhərində oturan Konstantinopol- Yeni Romanın Arxiyepiskopu və Ümumdünya Patriarxı I Dimitri təsdiqləmişdir[129].

## Təşkilati strukturu

Gürcü Pravoslav Kilsəsinin təqribən 3,5 milyon mənsubu var. Onların mütləq əksəriyyəti gürcülərdir. İbadət gürcü dilində həyata keçirilir.

Kilsə başçısı “bütün Gürcüstanın Katalikos-Patriarxı, Mtsxeta və Tiflisin arxiyepiskopu” titulunu daşıyır. II İliya 1977-ci ildən indiyədək bu ali

128 - Вах: Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. – М.: Издательство Московского университета, 2010. – с.43.

129 - Краткая история Грузинской Православной Церкви [Elektron resurs] //сайт: Грузинская Православная Церковь. – URL: http://georgiaorthodoxy.info/index.php?cat=_history (müraciət tarixi: 27.10.2016).

ruhani vəzifəni icra edir[130]. Katalikos-Patriarxın iqamətgahı Tiflis şəhərində yerləşir. Bununla yanaşı, Gürcü Pravoslav Kilsəsinin təşkilati strukturuna Müqəddəs Sinod və 47 yeparxiya daxildir. Azərbaycandakı gürcü pravoslavlarının dini mərasimləri Xornabuci və Hereti yeparxiyasının keşişləri tərəfindən həyata keçirilir. Yeparxiyanın kafedrası Dedoplistskaro şəhərində yerləşir. Başçısı Dimitri Kapanadzedir[131]. Ölkəmizdə isə dini ayinləri bu yeparxiya tərəfindən göndərilən, Azərbaycan Respublikasının vətəndaşlığını qəbul edən Pyotr Xumaraşvili yerinə yetirir.

## Azərbaycanda gürcü pravoslavlığı

Respublika ərazisində aşağıdakı dörd gürcü pravoslav məbədi[132] fəaliyyət göstərir:

1. *"Müqəddəs Georgi" gürcü-pravoslav kilsəsi*



130 - Патриарх-Католикос всей Грузии Илия II [Elektron resurs] // сайт: Грузинская Православная Церковь. – URL:http://georgiaorthodoxy.info/index.php?cat=_today&ii=1&jj=0 (müraciət tarixi: 27.08.2016).

131 - Gürcü Pravoslav Kilsəsinin rəsmi saytı: http://patriarchate.ge/geo/wminda-sinodi/wevrebi/ (müraciət tarixi: 27.10.2016).

132 - Azərbaycandakı gürcü pravoslav məbədlərinə dair məlumatlar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi saytından götürülmüşdür: http://scwra.gov.az/structures/61/2/0/? (müraciət tarixi: 27.08.2016).

Bu ibadət yeri Qax rayonunun Qaxingiloy kənd ərazisində yerləşir. 1888-ci ildə xristian əzabkeşi Georginin şərəfinə könüllü ianələr hesabına və "Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyəti"nin maliyyəsi ilə tikilmişdir. Kilsə binasının ərazisi 120 kv.m.-dir. Kilsə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi abidə kimi qorunur. Burada 2010-cu ildə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yenidən dövlət qeydiyyatına alınan Qax rayonu Qaxingiloy kəndi "Müqəddəs Giorgi" kilsəsi gürcü pravoslav xristian dini icması fəaliyyət göstərir.

2. *"Müqəddəs Nino" gürcü-pravoslav kilsəsi*



Qax rayonunun Əlibəyli kənd ərazisində yerləşir. Kilsənin ərazisi 0.32 ha-dır. Bu kilsə XIX əsrin sonlarında (1888-ci ildə) "Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyəti" tərəfindən maliyyələşdirilərək tikilmişdir. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dini-tarixi abidə kimi qorunur. Bu kilsə 2010-cu ildə DQİDK-da yenidən dövlət qeydiyyatına alınan Qax rayonu Əlibəyli kəndi "Müqəddəs Nino" kilsəsi gürcü pravoslav xristian dini icmasının fəaliyyət ünvanıdır.

3. *"Müqəddəs Sameba" gürcü-pravoslav kilsəsi*



Müqəddəs Sameba kilsəsi Qax rayonunun Kötüklü kəndində yerləşir. Sahəsi 0.06 ha-dır. Bu kilsə 1892-1894-cü illərdə "Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyəti" tərəfindən maliyyələşdirilərək tikilmişdir. Kilsə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dini-tarixi abidə kimi qorunur. Kilsə binasının vəziyyəti orta səviyyədədir.

4. *"Müqəddəs Mixeyil" gürcü-pravoslav kilsəsi*



Qax rayonunun Meşəbaş kəndi ərazisində yerləşir. Sahəsi 0.03 ha-dır. Bu kilsə 1892-1894-cü illərdə "Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyəti" tərəfindən maliyyələşdirilərək tikilmişdir. 1992-1993-cü illərdə yenidən təmir olunmuşdur. Kilsə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən dini-tarixi abidə kimi qorunur. Kilsə binasının vəziyyəti orta səviyyədədir.

**Statistika**

2011-ci il əhalinin siyahıyaalınmasının yekununa görə, respublika ərazisində 9 900 gürcü yaşayır. Yəni gürcülər ölkə əhalisinin 0,1 faizini təşkil edirlər[133]. Onlar əsasən Qax rayonunda məskunlaşıblar. Gürcülərin Azərbaycandakı sayları doqquz mindən yuxarı olsa da, respublikamızda gürcü məbədlərinə ibadətə gələnlərin sayı bundan qat-qat aşağıdır. Belə ki, əsas dini bayramlarda (məsələn, *Müqəddəs Giorginin Miladı, Müqəddəs Ninonun ölüm gününü anma mərasimi*) məbədlərə maksimum 100 nəfər gəlir.

Onu da qeyd edək ki, ən yüksək say may və noyabr aylarında keçirilən "Kürmükoba" bayramı vaxtı müşahidə olunur.

**Maliyyə mənbəyi**

Yerli gürcü pravoslav dini icmaları dindarların şəxsi ianələri və ən əsası Azərbaycan dövləti tərəfindən ayrılan maliyyə yardımı hesabına fəaliyyət göstərirlər. Belə ki, 2011-2015-ci illərdə Qax rayonu Əlibəyli kəndi "Müqəddəs Nino" kilsəsi gürcü pravoslav xristian dini icmasına, ümumən, otuz min manat, Qax rayonu Qaxingiloy kəndi "Müqəddəs Giorgi" kilsəsi gürcü pravoslav xristian dini icmasına isə iyirmi səkkiz min manat maliyyə vəsaiti ayrılmışdır. Bu fakt isə Azərbaycan dövlətinin dini-etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin dini ehtiyaclarına diqqət və qayğı ilə yanaşdığını bariz şəkildə sübut edir. Eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsi də əhəmiyyətli dərəcədə gürcü pravoslavlarına maliyyə yardımı göstərir ki, bu da ölkəmizdə mövcud olan tolerantlığın əyani göstəricisidir.

Habelə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hər il məscidlərə və dini icmalara məxsus dini məbədlərə, o cümlədən gürcü pravoslavlarının ibadət yerlərinə illik limit daxilində əvəzsiz təbii qaz verilir.

133 Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi saytı: http://www.stat.gov.az/source/demoqraphy/ (müraciət tarixi: 27.10.2016).

# III FƏSİL

## KATOLİKLİK

## ƏN BÖYÜK XRİSTİAN KONFESSİYASI

Katolisizmin (yaxud "kafolik"; yunan mənşəli sözdür, "ümumdünya" mənasına gəlir) olduqca maraqlı, ziddiyyətli, hətta belə demək mümkündürsə, gizli və sirli örtüyə bürünmüş tarixi var. Roma Katolik Kilsəsinin keçdiyi çoxəsrlik mürəkkəb yol haqda mühakimə yürütmək olduqca böyük məsuliyyət və məharət tələb edir. Çünki tərəzinin bir gözündə bu Kilsənin Avropa sivilizasiyasının inkişafına və dünya mədəni irsinə verdiyi əhəmiyyətli töhfə, digər gözündə isə tarixin bəzi dövrlərində Tanrı adından baş vermiş utancverici hadisələr dayanır. Bu ziddiyyətli məqamlara toxunmamışdan öncə katolisizmin yaranma tarixinə nəzər yetirək.



*Katolisizmin mərkəzi – Vatikan şəhər dövləti*

Roma Katolik Kilsəsi öz başlanğıcını İsa Məsihin on iki həvarisindən biri olan Müqəddəs Pyotrun adı ilə bağlayır və onu ilk Roma Papası sayır. Bu isə təsadüfi deyil. Kataliklərin fikrincə, İsa Məsih şagirdi Pyotra xitabən *"Mən sənə deyirəm ki, sən Petersən və Mən cəmiyyətimi bu Qayanın üzərində quracağam. Ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək. Səmavi*

*Padşahlığın açarlarını sənə verəcəyəm. Yer üzündə bağlayacağın hər şey göylərdə bağlanmış olacaq və yer üzündə açacağın hər şey göylərdə açılmış olacaq”* (Matta, 16: 18-19) – deməklə gələcəkdə bu apostol tərəfindən kilsə qurulacağına işarə edib[1].

Lakin alimlərin katolikliyin meydana gəlmə tarixi ilə bağlı fikirləri fərqlidir. Onlar bu xristian məzhəbinin başlanğıcını 1054-cü ildən götürürlər. Həmin ildə Qərb (Roma mərkəzli, latın ayinli) və Şərq (Konstantinopol mərkəzli, yunan ayinli) kilsələri bir-birinə lənət yağdırmaqla Xristianlığı iki böyük qola – katolisizm və pravoslavlığa bölürlər. Əslində, bu böyük nifaq toxumunun səpilməsi XI əsrdən çox-çox əvvələ, daha qədim vaxtlara təsadüf edir. Belə ki, 395-ci ildə qədim Roma imperiyası Qərb və Şərq hissələrinə ayrılır ki, bu da zamanla vahid xristian kilsəsinin parçalanmasına gətirib çıxarır[2].

Burada Papalıq institutunun tarixinə ayrıca toxunmaq lazımdır. Hələ qədim Roma imperiyasının son dövrlərində şəhər və vilayətlərin kilsələrinə yepiskoplar başçılıq edirdilər. Onların əllərində böyük hakimiyyət cəmləşmişdi. Xüsusən Roma şəhərində oturan yepiskop daha nüfuzlu idi. VI və ya VII əsrdən etibarən Roma yepiskoplarına “Papa” (“pappis” yunanca “ata” deməkdir) titulu verilir. Düzdür, bu şəhərin kilsə başçıları arasında özünü ilk dəfə Papa adlandıran yepiskop Marsellin (296-304) olub. Lakin onun vaxtında bu ad xüsusi məna kəsb etmirdi, çünki Şərqdə də yepiskoplara Papa deyirdilər[3].

Roma yepiskopunun nüfuzu daha çox olduğundan, qərbli xristianlar zamanla onun ətrafında birləşirlər. Bu işdə ən böyük rolu Papa I Lev (440-461) oynayır. O, Romadakı kilsə başçılarını Müqəddəs Pyotrun varisi elan edir. Onun təşəbbüsü ilə Roma imperatoru xüsusi fərman verir. Həmin fərmana əsasən, bütün xristianlar Roma yepiskopuna tabe olmalı idilər[4]. VII əsrdə “əbədi şəhər” – Roma ətrafında və Siciliya adasında Papalığın zəngin torpaqları var idi. VIII əsrdə frank kralı Qısa Pipin (714-768) Papaya torpaq

1 - Bax: Тихомирова Г. Христианство и культура. – Рига: изначальный компъютерный вариант, 2011. - с. 403

2 - Ətraflı məlumat üçün bax: Всеобщая история религий мира: иллюстрированная энциклопедия/ Яковлева Л., Дубровский И., Овсянникова А. и т.д./ Москва: Эксмо, 2008. - səh. 600-605.

3 - Bax: Тихомирова Г. Там же. – s. 403.

4 - Bax: Мэри Пат Фишер. Живые религии/ Фишер М.П., Трифонова Т.И., Медведева Р.К. и т.д./ Москва: «Республика», 1997. - с. 222.

bağışlamaqla Roma yepiskopluğunun ərazisini daha da genişləndirir. 756-cı ildə Papa dövləti və ya Papa vilayəti (1870-ci ilədək varlığını sürdürən bu kilsə dövləti "İtaliyanın birliyi uğrunda" inqilabi hərəkat tərəfindən ləğv edilib) meydana gəlir. Və Roma Papası titulunu daşıyanlar bundan sonra həm kilsə, həm də dövlət başçısı olurlar[5].

Papaların nüfuzu get-gedə artırdı. 800-cü ildə Papa III Lev (795-816) Böyük I Karlın (768-814) başına imperatorluq tacı qoyur. Bunun isə səbəbi o idi ki, görkəmli frank hökmdarı Tanrı tərəfindən seçilmiş olduğunu hər kəsə göstərmək istəyirdi. Beləcə, ilahi və dünyəvi hakimiyyətin ittifaqı yaranır. Bu mühüm tarixi hadisədən sonra feodal krallar hakimiyyətə gəlmək və "ilahi" haqlarını təsdiqləmək üçün Papalardan razılıq almalı olurlar[6].



*IV Henrix və VII Qriqori 1077-ci ildə Kanossada.*
*Rəssam Karlo Emmanuel*

XI əsrin sonunda Roma Papası VII Qriqori (1073-1085) ilahi hakimiyyətin dünyəvi hakimiyyət-dən üstün olduğunu elan edir. Tanrı

5 - Вах: Тихомирова Г. Указ соч. – с. 403.
6 - Yenə orada.

tərəfin-dən ona imperatorları, kralları taxtdan endir-mək imtiyazının verildiyini bildirir. Onun iddiasına görə, iqtidar sahibləri Tanrının yer üzündə canişini olan Papanın ayaqlarını öpməli idilər[7]. Bundan qəzəblənən Müqəddəs Roma imperiyasının başçısı IV Henrix (1050-1106) Pontifikə[8*] qarşı çıxır. İmperatorun üsyankarlığını görən VII Qriqori alman kralını Kilsədən uzaqlaşdırır və imperiya əhalisini hökmdarlarına itaət etməməyə səsləyir. Odur ki, bir çox knyaz imperatordan üz döndərir. Üsyan təhlükəsi ilə qarşılaşan IV Henrix əlacsız qalaraq bağışlanmaq üçün Papanın müvəqqəti oturduğu Kanossa qalasına ayaqyalın gedir, üç gün qala divarlarının altında tövbə məqsədilə oruc tutur və pontifikin qarşısında diz çökəndən sonra əfvə nail olur[9]. Dini hakimiyyət qələbə qazanır. 1077-ci ildə baş verən bu tarixi hadisədən sonra tövbə və itaət aktı mənasına gələn “Kanossaya getmək“ ifadəsi yaranır.

Beləliklə, erkən orta əsrlərdə katolik kilsə başçıları mütləq hakimiyyət əldə edirlər. III İnnokenti (1198-1216) dövründə isə Papalıq qüdrətinin ən pik həddinə çatır və Avropanın ən güclü dövlətinə çevrilir.

Katolisizmin orta əsrlərdəki tarixindən danışarkən bir önəmli məqama toxunmaq lazımdır. Adətən, uzun və mürəkkəb yol qət edən Roma Katolik Kilsəsinin keçmişindən söz düşdükdə, yalnız dəhşətli səhnələri, kədərli hadisələri xatırlayırlar. Halbuki bu cür yanaşma bitərəfli və qərəzlidir. Düzdür, “qaranlıq orta əsrlər”də Kilsənin təhriki ilə faciəli hadisələr baş verib. Bunu inkar etmək əbəsdir. Məsələn, 1209-1229-cu illərdə III İnnokentinin əmri ilə Fransada katolik ruhanilərin hakimiyyət hərisliyinə, nəfsi istəklərinə uymalarına, cah-cəlal içində yaşamalarına qarşı çıxan, sadə, doğru-dürüst həyata səsləyən, pasifist və dualist mahiyyətli dini təlimi təbliğ edən “bidətçi” albiqoylara (katarlara) amansız divan tutulub, onların şəhərləri viran qoyulub. Yaxud II Urbanın təşəbbüsü ilə 1095-ci ildə Şərq dünyasına qarşı təşkil edilən səlib yürüşləri vaxtı (XI-XIII əsrlər) Qüds (1099) və Konstantinopol (1204) şəhərlərində xaçlı cəngavərlər müsəlman, yəhudi, pravoslav demədən vəhşicəsinə qətliam törədiblər. Xaçlı yürüşləri vaxtı məzlumları, zəvvarları

---

7 - Мэри Пат Фишер. Yenə orada.

8 - * Pontifik - Katolik Kilsədə Roma Papasını rəsmi olaraq pontifik, hakimiyyət dövrünü isə “pontifikat” adlandırırlar. Müqəddəs Taxt-Tacda onun başqa tituludur. Pontifik istilahı “baş kahin”, “baş keşiş”, “körpüləri tikənlər” mənasına gələn “pontifices” latın sözündən yaranmışdır.

9 - Ətraflı məlumat üçün bax: Тальберг Н. История христианской церкви: из цикла «Религия в жизни общества». - Москва: «Интербук», 1991. - с. 315-317.

müdafiə etmək, xəstələrə şəfa vermək, İsa Məsihin məzarını qorumaq amalı ilə yaradılan katolik ruhani cəngavər ordenlərin (Hospitalyer, Tampliyer, Tevton və s.) müsəlman Şərqində İsa Məsihin kəlamını od və qılıncla necə “yaydıqları”, hərbi qənimət və sələmçilik sayəsində qütrətli Avropa krallarının belə həsəd aparacaqları səviyyədə varlandıqları da sirr deyil.



*Roma Papası II Urban birinci xaçlı səfərini elan edərkən.*
*Orta əsr miniatürü.*

Roma Katolik Kilsəsinin protestantlıqla mübarizə apardığı (Kontrreformasiya hərəkatı) dövrdə 1534-cü ildə ispaniyalı İqnati Loyola tərəfindən yaradılan Yezuit katolik kişi ruhani ordenin tarixdəki rolu da birmənalı deyil, çünki peşəkar casus olan yezuitlər katolikliyin müdafiəsi naminə Kilsəyə təhlükə törədən qüvvələrə qarşı tədbir görərkən, hər cür vasitəni, riyakarlığı belə mübah sayırdılar.

Habelə tarixi qaynaqlara görə, orta əsrlərdə Kilsədə nepotizm (Roma papaları tərəfindən gəlirli vəzifə, mal-mülkün qohum-əqrəbaya verilməsi) baş alıb gedirdi. Katolik keşişlər isə cənnət qəbzləri (indulgensiya), dini vəzifə

və rütbələri satmaqla, sadə və məzlum camaatın boynuna müxtəlif ağır kilsə vergiləri qoymaqla insanları soyur və öz var-dövlətlərini artırırdılar.

Katolisizmin qara səhifələrindən biri də XII-XVII əsrlərdə geniş tətbiq olunan inkvizisiya ("inquisitio" latın sözüdür; "istintaq" deməkdir) məhkəmələridir. İnkvizisiyanın amansız işgəncələri, "bidətçiləri" diri-diri tonqallarda yandırması və "cadugər ovu" nəticəsində yüz minlərlə məsum insan həyatını itirib. Bu da tarixi gerçəklikdir ki, uzaq keçmişdə Katolik Kilsəsi siyasi oyunlara qarışaraq, məqsədinə çatmaq üçün çirkin və məkrli vasitələrə əl atıb.



*Autodafe.Pedro Berruqete. 1475.*

Avinyon əsarəti (1309-1377)[10*], Böyük Qərb nifaqı (1378-1417)[11**] və İntibah dövrlərində eyş-işrət içində həyat sürən katolik ruhanilərin başdan-ayağa çirkaba batması inkarolunmazdır. Hətta VI Aleksandr Borcianın (hakimiyyət illəri: 1492-1503) əxlaqsızlığı dillər əzbəri idi.

24 avqust 1572-ci ildə "Varfolomey gecəsi"ndə Parisdə katoliklər tərəfindən minlərlə qugenotun qılıncdan keçirilməsi, Papa IV Pavelin (1555-1559) əmri ilə bəzi məşhur mütəfəkkir və alimlərin kitablarına qadağa qoyan indeksin (lat. İndex Librorum Prohibitorum) buraxılması da Kilsə tarixinin qara ləkələrindəndir. Sadalanan faktlar tarixi gerçəklikdir.

10 - * Kilsə başçısını nəzarət altında saxlamaq istəyən Fransa kralı IV Filip Gözəlin təşəbbüsü ilə 1309-cu ildə Roma Papası V Kliment iqamətgahını Avinyon şəhərinə köçürür. 1378-ci ilə kimi bu fransız şəhərində oturan pontifiklər Fransa hökmdarlarından asılı vəziyyətə düşürlər. Ona görə də bu dövr "Papaların Avinyon əsarəti" adlanır.

11 - ** 1378-1417-ci illərdə kilsədaxili ziddiyətlər, italiyalı və fransız ruhanilər arasında hakimiyyət uğrunda mübarizə nəticəsində eyni anda üç Papa ortaya çıxır. Müxtəlif şəhərlərdə (Roma, Avinyon və Pizza) oturan bu pontifiklər bir-birini lənətləyərək kilsə başçılığına iddia edirlər. Yaranan ixtilaf Avropa dövlətlərini də bölür. 1414-1418-ci illərdə Almaniya imperatoru I Siqizmundun təşəbbüsü ilə Konstans şəhərində keçirilən XVI Ümumdünya Kilsə Məclisində V Martin Roma Papası seçilir, digər pontifiklər taxtdan endirilir, beləcə nifaqa son qoyulur. Müasir Kilsə həmin dövrün papalarında yalnız Romada oturan pontifikləri tanıyır, qalanlarını isə "antipapa" kimi səciyyələndirir.

Lakin sadəcə bu faktlara əsaslanıb Katolik Kilsəsini şər yuvası adlandırmaq, yaxud məktublarında Müqəddəs Taxt-Taca işarə edərək "bu ilanın başını əzin" deyən fransız filosofu Volter kimi də düşünmək düzgün deyil. Katolisizmin keçmişini yalnız qara çalarda göstərmək yanlışdır. Tarixi həqiqət obyektivlik tələb edir. Reallıq isə odur ki, katoliklik Qərb sivilizasiyasının təşəkkülündə böyük rol oynayıb.

Elə həmin orta əsrlərdə katolik monastırlar elm mərkəzi və şəfa ocağı sayılırdılar. Burada tərki-dünya həyatı sürən katolik rahiblər əsrlər boyu nadir antik əlyazmaların üzlərini köçürərək, onları həssaslıqla qoruyurdular. Qədim yunan və Roma irsinin günümüzədək gəlib çıxmasında katolik rahiblərin əməyi böyükdür. Avropada ən böyük kitabxanalar məhz monastırlarda yerləşirdi. İstər orta əsrlərdə, istər sonrakı dövrlərdə zahid həyatı sürən Fransiskan, Karmelit, Dominikan, Avqustin və başqa ordenlərin rahibləri ac və səfillərə, ən aşağı təbəqənin insanlarına əl uzatmağı özünə mənəvi borc bilirdilər. Onlar xəstələrə tibbi yardım göstərir, əhalini maarifləndirməyə çalışırdılar. Paris, Sorbonna, Oksford kimi ən qocaman və nüfuzlu Avropa universitetləri kilsə məktəblərinin, monastırların elmi bazası əsasında, ruhani ordenlərin dəstəyi ilə yaradılıb.



*Müqəddəs Pyotr Baş Kilsəsinin interyeri. Vatikan. XVI-XVII əsrlər.*

Katolik Kilsəsi dünya mədəniyyətinə bir çox məşhur filosof və alim bəxş edib. Onların arasında italiyalı mütəfəkkir Kenterberiyalı Anselm (1033-1109), alman alimi Müqəddəs Albert (1200-1280), ingilis təbiətşünası Rocer Bekon (1214-1292), ilahiyyatçı Akvinalı Foma (1225-1274), şotlandiyalı sxolastik Duns Skot (1266-1308), ingilis filosofu Uilyam Okkam (1285-1347), ensiklopedik biliyə malik olan katolik kardinal Nikolay Kuzanski (1401-1464), almaniyalı filosof Rotterdamlı Erazm (1469-1536), ingilis utopist yazıçı Tomas Mor (1478-1535) və digər görkəmli şəxsiyyətlərin adlarını çəkmək mümkündür.



*Pyeta. Mikelancelo. 1498 – 1499.*

Katolisizmin Qərb incəsənəti və memarlığına təsiri danılmazdır. Məsələn, əsrarəngiz və mistik görünüşü ilə seçilən Paris Məryəm Ana kilsəsi (Notr-Dam), Vatikanda əzəmətli Müqəddəs Pyotr məbədi dünya memarlığının şah əsərlərindən sayılırlar. Almaniyalı rəssam Dürerin fırçasından çıxan “Dua edənin əlləri”, “Apokalipsis”, “Məryəmin həyatı”,

“Əzablar”, “Müqəddəs İeronim” və başqa simvolik, dərin dini-fəlsəfi qravüralar, tablolar katolisizmin izlərini daşıyırlar. Katolik Kilsəsinin dünya mədəni irsinə verdiyi əhəmiyyətli töhfələr arasında dahi Mikelancelo tərəfindən yonulan və övlad itkisindən doğan qəlb iniltisini, könül fəryadını təcəssüm etdirən “Pyeta” heykəlini, Bibliya hekayələrinin motivləri əsasında Sikstin kapellasının tavan və divarlarında məharətlə çəkilən, indiyədək seyrçiləri heyran qoyan “Adəmin yaradılması”, “Günahkarlıq və cənnətdən qovulma”, “Məhşər günü” adlı freskaları, məşhur italiyalı rəssam Rafaelin ilahi zəfər sevinci və ana şəfqətini özündə birləşdirən “Sikstin Madonna”sını göstərmək mümkündür.

Qərb musiqisi də katolisizmin təsirindən kənar qalmayıb. Qriqorian xoru, orqan musiqisi, rekviyem (matəm messası), dünya mədəni xəzinəsinin inciləri arasında yer alan Frans Şubertin həzin “Ave Mariya”sı bu musiqi nümunələrindən bəziləridir. Katolikliyin Avropa ədəbiyyatı üzərində buraxdığı təsir haqda danışarkən isə ilk növbədə italiyalı şair Dante Aligyeri yada düşür. Bu qüdrətli qələm sahibi “İlahi komediya”sında qəlblərə təşviş salan Məhşər və Cəhənnəm səhnələrini ustalıqla təsvir edərək dünya ədəbiyyatının korifeyləri arasında yer alıb. Bəşəriyyətə töhfə verən belə görkəmli katoliklər çoxdur.

O da məlumdur ki, Roma papaları bir çox məşhur heykəltaraş, rəssam, memar və alimləri himayə ediblər. Pontifiklərin özləri də yüksək savad və dünyagörüşləri ilə seçiliblər. Hətta bəzi papaların adları ictimai fikir tarixinin görkəmli nümayəndələri arasında çəkilir. Humanist filosof VI Adrian (hakimiyyət illəri:1522-1523) belə kilsə başçılarından biridir.

Tarixə nəzər yetirdikdə görürük ki, Roma Katolik Kilsəsinin böyük təhlükə və təlatümlərlə qarşılaşmasına, ciddi çağırışlarla üz-üzə qalmasına baxmayaraq, zamanın tələblərini nəzərə almaq, çevik siyasət aparmaq və özünü yeniləmək bacarığı sayəsində Papalıq öz varlığını qoruya bilib. Doğrudur, XVI-XVII əsrlərdə Avropanı bürüyən Reformasiya hərəkatı, XVII-XVIII əsrlərdə Maarifçilik dövründə Kilsə əleyhinə yönələn ictimai-fəlsəfi ideyalar, XVIII əsrdə Fransa burjua inqilabının baş qaldırması və Qərbdə sekulyarlığın qələbə qazanması Müqəddəs Taxt-Tacın dayaqlarını laxladıb və Kilsə əvvəlki siyasi qüdrətini itirib. Hətta ən böyük katolik ölkələrdən olan Fransada 1793-94-cü illərdə - Yakobin diktaturası dövründə

inqilabçılar katolisizmi terror yolu ilə tarix səhnəsindən birdəfəlik silmək istəyiblər. Onlar sadə xalqa xristian idealları əvəzinə, “Ağıl kultu” adlı süni ateist dinini sırımağa səy göstəriblər. Ancaq katolisizmi tarixə qovuşdurmaq xülyaları ilə yaşayan fanatik inqilabçıların niyyətləri puça çıxıb. Çünki ta qədimdən sadə katoliklərin qəlblərinin dərinliklərində kök salan dini duyğunu, Kilsəyə məhəbbəti bir anda qoparıb atmaq o qədər də asan deyil. Və zaman göstərdi ki, Xristianlığı insanların yaddaşlarından silmək məqsədi ilə ortaya atılan “Ağıl kultu” kimi cəfəng ideyalar uğursuzluğa düçar olaraq tarixə qovuşublar.

Roma Katolik Kilsəsinin keçdiyi yola, inkişaf tarixinə və müasir fəaliyyətinə baxanda görürük ki, indiki Müqəddəs Taxt-Tac orta əsrlərdəki Katolik Kilsəsindən xeyli fərqlənir. Vatikanı əvvəlki xətalarına görə üzr istəmək cəsarəti, dəyişən dünyanın nəbzini tutaraq geniş kütləyə xitab etmək və sadə camaatla iş qurmaq bacarığı, başqa inanc mənsubları ilə dialoqa girmək istəyi səciyyələndirir. Xüsusən 1962-1965-ci illərdə Roma Papası XXIII İoannın təşəbbüsü ilə keçirilən İkinci Vatikan Məclisindən sonra Kilsə özünü yeniləyərək dünyaya açılır.


*266-cı Roma Papası Fransisk (Xorxe Mario Berqolyo)*

Vatikanın dünya arena-sında müsbət imic qazanma-sında Papa I İoann Pavelin rolu böyükdür. O, Kilsənin keçmiş günahlarına görə nümayişkaranə şəkildə tövbə edib, başqa din və konfessiya nümayəndələri ilə qarşılıqlı ehtiram və hörmət əsasında əlaqələr qurmağa çalışıb. Müqəddəs Taxt-Tacın hazırki başçısı, sayca 266-cı Papa olan Fransisk də bəzi məsələlərə münasibətdə mütərəqqi ideyaları, liberallığı və islahatçılığı ilə seçilir.

Burada ac, səfil və təhlükəli regionlarda fədakarcasına çalışan katolik ruhani və missiyaların xeyriyyə fəaliyyətlərini də qeyd etmək yerinə düşərdi, çünki katolik rahiblərin Afrika və başqa yerlərdə acınacaqlı vəziyyətdə yaşayan insanların imdadına qoşmaları kilsəni yaxşı tərəfdən göstərir.

Müasir dünyada Roma Katolik Kilsəsinin apardığı siyasətə ötəri toxunduqdan sonra belə sual yarana bilər ki, hazırda yer üzündə nə qədər insan özünü bu kilsəyə aid edir? Bu suala cavab tapmaq üçün Vatikanın 2014-ci il üzrə «Annuarium Statisticum Ecclesiae» adlı illik statistik hesabatına nəzər yetirək. Həmin hesabata əsasən, 1,272 milyard dindar özünü katolisizmin mənsubu sayır. Dünyada ən çox katolik Latın Amerikasında yaşayır (az qala dünya katoliklərinin yarısı). Ən böyük katolik ölkələr isə bunlardır: Braziliya (78.95%), Meksika (86.67%), Filippin (81.03%), İtaliya (96.55%). Eyni zamanda, dünyadakı katoliklərin sayına görə ABŞ dördüncü yer tutur (64 621 000 nəfər). Burada katoliklər ölkə əhalisinin 22,63 %-ni təşkil edirlər[12].

Beləliklə, mütərəqqi islahatlara meyil göstərməsi və özünü qorumaq bacarığı sayəsində Roma Katolik Kilsəsi bir milyarddan yuxarı adam üçün cazibə qüvvəsini itirməyib və müqəddəs obrazını saxlayıb. Roma Papasının səfəri isə Afrikadan tutmuş Avropaya, Amerikadan Asiyaya qədər dünyanın hər bir yerində katoliklər tərəfindən böyük izdiham, sevinc, həyəcan və coşqu ilə qarşılanır. Və hələ də Müqəddəs Taxt-Tac yüz milyonlarla insan üçün ümid və pənah yeri olaraq qalır.

12 - Statistik məlumatlar http://www.catholic-hierarchy.org/country/sc1.html və http://sib-catholic.ru/v-vatikane-ozvuchili-svezhuyu-statistiku-tserkvi-na-planete-rastet-chislo-katolikov/ saytlarından götürülmüşdür (müraciət tarixi: 31.07.2016).

# İNANC ƏSASLARI [13]

• Katoliklər imanın mənbəyi kimi Müqəddəs Kitabı (Bibliya), Kilsə Atalarının əsərlərini, Müqəddəs Rəvayəti (İmanın Simvolu, Ümumdünya Kilsə Məclisləri və Roma Papasının doqmatik qərarları) qəbul edirlər.

• Katoliklər iyirmi bir Ümumdünya Kilsə Məclisinin qərarlarını tanıyırlar, yəni 1054-cü ildə xristian dünyası iki qola parçalandıqdan sonra Katolik Kilsəsinin keçirdiyi məclislər də katoliklər tərəfindən ümumdünya kimi xarakterizə olunur. Axırıncı belə məclis (II Vatikan Məclisi) 1962-1965-ci ildə keçirilib.

• Katolik Kilsəsi üçün sərt mərkəzləşdirilmiş idarə sistemi xasdır. Katolik dünyanın vahid mərkəzi Vatikandır. Burada bütün kaloliklərin dini başçısı Roma Papası oturur. Onun tam titulu belədir: Roma Yepiskopu, İsa Məsihin canişini, həvarilərin knyazının varisi, Qərb kilsəsinin ali ruhanisi, Qərbin patriarxı, İtaliya priması, Roma əyalətinin arxiyepiskopu və mitropoliti, Vatikan şəhər-dövlətinin hökmdarı. Roma Papaların hakimiyyəti Ümumdünya Kilsə Məclislərinin hakimiyyətindən belə üstündür.

• Katolisizmdə Müqəddəs Məryəm İsa Məsihə bərabər tutulur. Belə ki, başqa xristian məzhəbləri sadəcə İsa Məsihin məsum şəkildə dünyaya gəlməsinə inanırlar. Halbuki katoliklərə görə, Məryəm Ana da anadangəlmə məsumdur.

• Pravoslav və protestantlardan fərqli olaraq, katoliklər Ərafa inanırlar.

• “Filiokve” (latınca “oğuldan” mənasına gəlir) katolik təliminə görə, katolisizmin ardıcılları Müqəddəs Ruhun təkcə Ata Tanrıdan deyil, həm də Oğul Tanrıdan çıxdığına iman bəsləyirlər.

• Katolik Kilsəsinin təliminə əsasən, Roma Papası dini məsələlərlə bağlı qərar verərkən qətiyyən səvh buraxmır. 1870-ci ildə Birinci Vatikan Məclisində qəbul edilmiş həmin ehkama görə, pontifik etiqadi və əxlaqi məsələlərlə bağlı rəsmi şəkildə çıxış edən vaxtı Müqəddəs Ruhdan xüsusi ənam alır. Bu ənam kilsə başçısını əqidə mövzularında səhv fikir bildirməkdən qoruyur.

• Roma Katolik Kilsəsi yeddi əsas kilsə ayinini tanıyır, lakin bəzi

13 - İnanc əsasları bölümü bu kitaba istinadən hazırlanmışdır: Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. — М.: Издательство Московского университета, 2010. — с. 71 – 77, 79.

ayinlər pravoslavlardan fərqli şəkildə icra olunur.

- Katoliklər su çiləmək və ya xaç suyuna salınan adamın üstünə su tökmək yolu ilə vəftiz ayinini yerinə yetirirlər.
- Rəbbin Süfrəsi ayinində katoliklər mayasız çörəkdən istifadə edirlər.
- Tövbə ayini xüsusi tövbə hücrəsində yerinə yetirilir.
- Dyakonlar istisna olmaqla, katolik keşişlərə evlənməyə icazə verilmir. Bu dini hökm katoliklikdə "selibat" adlanır.
- Katolisizmdə boşanmaq demək olar ki, qeyri-mümkündür.
- Pravoslavlarda olduğu kimi, katoliklərdə də rahiblik institut mövcuddur. Kalolik rahiblik institutu müxtəlif ordenlərə bölünmüşdür.
- Katoliklər mələklərə, qurumuş cəsədlərə, müqəddəslərə və "müqəddəs" əşyalara, eləcə də ikonalara pərəstiş göstərirlər. Lakin pravoslavlar qədər ikonalara sitayiş etmirlər.
- Katolisizmdə əsas ibadət dili latıncadır, lakin II Vatikan Kilsə Məclisinin qərarı ilə ayinlərin milli dillərdə də keçirilməsinə icazə verilmişdir.
- Katoliklərdə xaç dördguşəlidir.
- Latın ayinli katoliklər beş düz barmaqla soldan sağa xaç çevirirlər.
- Ən əsas bayram hər il 25 dekabr tarixində keçirilən İsa Məsihin Miladıdır. Sırf katolik dini bayramları bunlardır: İsa Məsihin cismi günü, İsanın müqəddəs qəlbi bayramı, Padşah İsanın bayramı və s. Bununla yanaşı, katolisizmdə Müqəddəs Məryəmə 16 bayram həsr olunub. Xüsusən, 8 dekabrda keçirilən Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi bayramı böyük əhəmiyyətə malikdir.

# KATOLİSİZM AZƏRBAYCANDA

*Xristianlığın sayca ən böyük qolu olan katolisizmin ölkəmizdə 600 ildən yuxarı yaşı var. Azərbaycan ərazisinə qədəm qoyduğu dövrdən bəri sözügedən xristian məzhəbi keşməkeşli* və fərqli inkişaf mərhələsi keçmişdir. Və diqqətəlayiq məqam odur ki, bu xristian *konfessiyası ölkə ərazisində müxtəlif vaxtlarda, hər dəfə yenidən yayılmağa başlamışdır. Katolisizmin ölkəmizdəki inkişaf tarixini dörd mərhələyə - Elxanilər, Səfəvilər, çar Rusiyası və Müasir Azərbaycan dövrlərinə bölmək mümkündür. Həmin etaplara nəzər yetirək.*

## Elxanilər dövləti dövrü

Katolisizmin ilkin yayılma mərhələsi XIII-XVII əsrləri əhatə edir və Hülakular (Elxanilər) imperiyasının paytaxtı Təbriz şəhərindən başlayır. O vaxtlar Azərbaycan bu nəhəng türk-monqol imperiyasının əsas inzibati-siyasi mərkəzi idi. Elxani hökmdarlarla bəzi Qərb dövlətləri, habelə Müqəddəs Taxt-Tac arasında inkişaf edən yüksək iqtisadi-siyasi əlaqələr imperiya ərazisində katolisizmin əsasını qoyur.

Burada xüsusən Venesiya şəhər dövlətinin Hülakularla bağladığı ticarət müqaviləsinə toxunmaq lazımdır. Bu müqavilə sayəsində katoliklərə Elxanilər imperiyasının ərazisində sərbəst fəaliyyət göstərməyə icazə verilir. Beləcə, Venesiya və Hülakular arasında qurulan ticari münasibətlər fonunda 1289-1290-cı illərdə Təbriz şəhərinə dominikan və fransiskan ruhani ordenlərinin rahibləri gəlir[14]. Daha sonra fransiskanlar tərəfindən idarə olunan Şərqi Tatariya vikariatlığının (yeparxiyaya bərabər tutulan dini-inzibati ərazi vahidi) Təbriz kustodiyası yaradılır[15]. Kustodiyanın nüfuz arealına

14 - Mammadov E. L'annuncio cristiano nel contesto islamico. Esperienza con i giovani nella missione sui iuris di Baku in Azerbaigian [Elektron resurs]: Tesina di Magistero in Scienze Religiose (Catechesi Missionaria) / Mammadov E.; Moderatore: Prof. Scognamiglio Edoardo., Correlatore: Prof. Meddi Luciano; Istituto di Catechesi e Spiritualità Missionaria – Sezione di Catechesi. – Roma: 2009. – səh. 32 - URL: http://docplayer.it/14930532-L-annuncio-cristiano-nel-contesto-islamico-esperienza-con-i-giovani-nella-missione-sui-iuris-di-baku-in-azerbaigian.html (müraciət tarixi: 14.06.2016).

15 - После Марко Поло. Путешествия западных чужеземцев в страны трех Индий [Elektron resurs]/ Перевод с латинского и староитальянского языков, введение и примечания Я. М. Света. - cop. Москва: Наука, 1968.//Восточная литература: средневековые историческеи источники Востока и Запада [sayt]: - URL: http://www.vostlit.info/Texts/rus7/Montekorvino/framevved.htm (müraciət tarixi: 14.06.2016).

Azərbaycan, cənubi Gürcüstan, Mesopotamiya və müasir Türkiyənin şərqi daxil idi[16].




*Elxanilər dövləti (1256-1353)*

1 aprel 1318-ci ildə Papa XXII İohann "Redemptor noster" adlı bullanı imzalayaraq Elxanilərin növbəti paytaxtı Sultaniyyədə (Cənubi Azərbaycanda şəhər) arxiyepiskopluğun təsisi barədə göstəriş verir. Həmin fərmana əsasən Hulakülər imperiyasının ərazisi, eləcə də Cığatay xanlığı, Hindistan və Həbəşistan Sultaniyyə arxiyepiskopluğunun yurisdiksiyasına aid edilir. Maraqlısı isə odur ki, bu arxiyepiskopluğun idarəsi dominikan rahiblərinə tapşırılır. Deməli, Elxanilər dövləti, eləcə də onun tərkib hissəsi Azərbaycan fransiskanların təsir arealından çıxarılır və bu regionda missioner fəaliyyət dominikanlara tapşırılır[17].

Digər diqqətçəkən məqam Asiyada katolisizmin möhkəmlənməsi uğrunda uzaq hədəfli planlar quran Katolik Kilsəsinin Azərbaycana az

16 - Johannes Preiser-Kapeller. Civitas Thauris: The significance of Tabriz in the spatial frameworks of Christian merchants and ecclesiastics in the 13 th and 14th century// Politics, Patronage and the Transmission of Knowledge in 13th – 15th Century Tabriz/ Edited by Judith Pfeiffer. - Leiden-Boston: "Brill", 2014. – səh. 281.
17 - Bax: После Марко Поло//Там же.

qala Şərqin qapısı kimi baxması və regionumuzu strateji körpü qismində dəyərləndirməsidir. Orta əsrlərdə ən iri katolik mərkəzlərdən biri sayılan Sultaniyyə arxiyepiskopluğunun Cənubi Azərbaycanda qərar tutması bunu deməyə əsas verir.

Arxiyepiskopluğun dərhal tabeçiliyinə verilən altı yepiskopluqdan üçünün də Azərbaycanda - Təbriz, Marağa və Dəxikeranda yerləşməsi[18], sonrakı dövrdə Naxçıvanda dominikan yepiskopluğun təsis olunması dediklərimizi bir daha təsdiqləyir.

Həmin yepiskopluqlara təyinat alan yepiskop-suffraqanların etnik mənsubiyyəti onu göstərir ki, bölgəmizə əsasən italyan və fransız katoliklər gəliblər. Məsələn, Dəxikeran yepiskopluğunun ilk başçısı monpelyeli Jero Kalve fransız, yaxud Marağa yepiskopluğunun rəhbəri boloniyalı Bartolomeo da Podjio və Təbriz yeparxiyasının yepiskopu siyenalı Bartolomeo Abalyati milliyyətcə italyan olublar[19].

XIV əsrdə Şimali Azərbaycanda katolisizmin yayılması istiqamətində mühüm addımlar atılır. 1320-ci ildə Bakı və başqa şəhərlərə fransız katolik missioneri Jurden Katali de Severak baş çəkir, ondan az sonra ölkəmizə fransiskan rahibi Odorik Pordenonski gəlir, Bakı, Şamaxı, Gəncə və Naxçıvanda katolik missiyalar, monastırlar, məktəblər təsis olunur. Təkcə Naxçıvan şəhərində 12 katolik monastır açılır[20].

Cənubi Qafqaz dominikanların yurisdiksiyasına aid edilsə də, Şimali Azərbaycanın bəzi yerləri - Şamaxı və Salyan bölgələri fransiskanların fəaliyyət dairəsinə daxil olub. Buralarda fransiskan rahibləri monastırlar açaraq katolisizmi yaymağa çalışıblar. Akvilonari vikariatlığının nəzdindəki Saray kustodiyasının (dairəsinə) tabeçiliyində ruhani xidmət göstərən fransiskan keşişləri əsasən Xəzəryanı bölgələrdə iş aparıblar[21].

Naxçıvan yepiskopluğunun yaradılması katolisizmin ölkəmizdəki tarixində ən mühüm hadisələrdən biridir. 1350-ci ildə qurulan yepiskopluq

---

18 - Bax: Грегор Приходко. История христианства в Казахстане и Средней Азии в средние века [Elektron resurs]/ © Караганда, 2000. - URL: http://birmaga.ru/dost/История+христианства+в+казахстане+и+средней+азии+в+средние+векаb/part-15.html (müraciət tarixi: 25.06.2016).

19 - Грегор Приходко// Там же.

20 - Bax: Ф. Мамедова, А.Абасов. Азербайджан//Католическая энциклопедия. – Москва: Издательство Францисканцев, 2002. - т.1 (А-З). - стр. 105.

21 - Меленберг А., Козлов-Струтинский С. Кавказ//Католическая энциклопедия [Elektron resurs]. - URL: http://catholic.ru/modules.php?name=Encyclopedia&op=content&tid=244 (müraciət tarixi: 16.06.2016).

(fransız tarixçisi Jan-Pol 1356-cı ildə təsis olunduğunu yazır[22]) Sultaniyyə arxiyepiskopluğuna tabe idi. Elxanilərin paytaxtı Sultaniyyə şəhəri əvvəlki ehtişamını itirdikdən və tənəzzülə uğradıqdan sonra XV əsrdə arxiyepiskopların iqamətgahı Naxçıvana köçürülür[23].

Müqəddəs Taxt-Tac Şərq dünyasında katolisizmin yayılması naminə nə qədər səy göstərsə də, Katolik Kilsəsinin planları puça çıxır. 1346-53-cü illərdə baş verən taun epidemiyası, Əmir Teymurun işğalçı müharibələri regionda katolik missiyalarına son qoyur[24]. Belə ki, Dəxikeran yepiskopluğu - 1349, Marağadakı katolik idarə - 1374/1384, Sultaniyyə arxiyepiskopluğu - 1425 və Təbriz yeparxiyası 1476-cı illərədək fəaliyyət göstərə bilirlər[25]. Sultaniyyə arxiyepiskopluğunun ruhani idarələri arasında ən uzun ömürlüsü Naxçıvan yepiskopluğu olur. Bu yepiskopluq 1746-cı ilə kimi mövcudiyyətini qoruyur[26].

## Səfəvilər dövləti dövrü

Qüdrətli Azərbaycan Səfəvilər dövlətinin qurulması ilə katolisizm ölkəmizdə yeni inkişaf mərhələsinə qədəm qoyur. Səfəvi imperiyası ilə Müqəddəs Taxt-Tac arasında qurulan yüksək diplomatik münasibətlər sayəsində katolik missiyalar regionda yenidən dirçəlir. Xüsusən Osmanlı imperiyası ilə mübarizədə Papalığın simasında özünə müttəfiq axtaran I Şah Abbasın (1587-1629) hakimiyyət illərində katolisizmin təbliğatı üçün münbit şərait yaranır.

Bu görkəmli hökmdar ölkəsi ilə bağlı Müqəddəs Taxt-Tacın planlarından yaxşı xəbərdar idi. O, anlayırdı ki, Papa Səvəfi dövlətinin xristian rəiyyəti arasında katolisizmi yaymaq istəyir. Böyük Şah Abbas pontifikin bu arzusunu öz maraqları üçün istifadə etməyə çalışır, Papaya müraciətində Səfəvi dövlətinin paytaxtında xristian keşişlər üçün "layiqli

22 - Жан-Поль Ру. Тамерлан [Elektron resurs]. - URL: http://royallib.com/read/ru_ganpol/tamerlan.html#860160 (müraciət tarixi: 20.06.2016).

23 - Laurence Lockhart. European contacts with Persia, 1350-1736//The Cambridge history of Iran: The Timurid and Safavid periods/edited by Peter Jackson and Laurence Lockhart. - Cambridge University Press, 1986. - Volume 6. – p. 374.

24 - Калиниченко Е. Азия//Католическая энциклопедия. – Москва: Издательство Францисканцев, 2002. - т.1 (А-З). - стр. 109.

25 - Johannes Preiser-Kapeller. Op.cit. - p. 287.

26 - Laurence Lockhart. Op.cit. – p. 374.

evlərin” çoxaldığını bildirir və hər hansı yüksək rütbəli ruhaninin göndərilməsini məsləhət görürdü[27]. Onun katolisizmə dözümlü münasibəti nəticəsində katolik missionerlərin sayında artım baş verir. Səfəvi imperiyasına avqustinlər, karmelitlər və başqa ruhani ordenlərin mənsubları gəlir[28]. Həmçinin vaxtilə Elxanilər dövlətində xidmət göstərən dominikanlar yenidən fəaliyyətə başlayırlar.




*I Şah Abbas dövründə Səfəvilər dövləti*

Katolik ruhani ordenlərin Səfəvilər dövlətində fəaliyyət dövrləri:
avqustinlər (1573-1747);
karmelitlər (1604-1775);
kaputsinlər (1628-1765);
yezuitlər (1653-1760);
dominikanlar (1677-1764)[29].

1680-cı ildə isə fransız və alman missionerlərdən sonra regionda

27 - Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. /половина XV – начало XVII века. – Баку: Издательство Бакинского университета, 1991. - стр. 202.
28 - Laurence Lockhart. Op. cit. - p. 374.
29 - Mammadov E. Op.cit. – p.33.

polyak yezuitlərinin missiyaları yaranır. Ən birinci belə missiya Gəncə şəhərində təsis olunur[30].

Fransa kralı XIV Lüdovik (1643-1715) Cənubi və Şimali Azərbaycanda katolisizmin yayılmasında xüsusən böyük rol oynayır. O, Şah Sultan Hüseyn Səfəvidən (1694-1722) öz xristian rəiyyəti ilə mərhəmətlə davranmağı xahiş edir, Papa XI Kliment də oxşar məzmunlu məktub göndərir. Nəticədə, Səfəvi və Fransız dövlətləri arasında iki müqavilə imzalanır. Birinci razılaşmaya əsasən katolik kilsənin missionerləri və yerli katoliklər Səfəvi hakimiyyətinin himayəsi altına keçirlər[31].

Katolik Kilsəsinin Səfəvilər dövründəki tarixindən danışarkən "Persiyalı Don Juan" kimi məşhurlaşan Oruc bəy Bayat (1560-1604) adlı Azərbaycan türkünü qeyd etmək lazımdır. O, əsil-nəcabətli qızılbaş tayfasında dünyaya gəlib. I Şah Abbas tərəfindən Qərbə göndərilən diplomatik nümayəndə heyətinin tərkibində yer alıb. İspaniyaya gələndən sonra öz dinindən üz çevirərək katolisizmi qəbul edib və bir daha doğma yurduna dönməyib.


RELACIONES
DE DON
IVAN DE PERSIA.
DIRIGIDAS A LA MAGESTAD
Catholica de Don Philippe III. Rey
de las Españas, y señor
nuestro.
DIVIDIDAS EN TRES LIBROS. DONDE
Año. 1604.
CON PRIVILEGIO.

"Persiyalı Don Juanın əhvalatı" kitabının ilk nəşrinin titul vərəqi

Avropada məskunlaşan Oruc bəy Bayatın ispan dilində "Persiyalı Don Juanın əhvalatı" əsəri işıq üzü görür. Məşhur azərbaycanlı katolikin kitabı Səfəvi tarixinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Habelə müəllif kitabında səyahət etdiyi ölkələr, müxtəlif xalqların adət-ənənələri barədə maraqlı məlumatlar verir.

Səfəvilər dövründə katolik missiyaların tarixinə gəlincə, XVII əsrdə Azərbaycana və İrana baş çəkən məşhur fransız səyyahı Jan Şardenin (1643-1713) əsərində ölkəmizdə yaşayan katoliklər haqda diqqətəlayiq

30 - Bax: Ф. Мамедова, А.Абасов. Указ. соч. - с.105.
31 - Ф. Мамедова, А.Абасов. Указ. соч. - с.105.

faktlara rast gəlirik. Məsələn, fransız səyyah Naxçıvanı təsvir edərkən bu qədim diyarda dominikan kəndlərin olmasından danışır və yazır ki, burada katolisizmin təməli XIV əsrdə boloniyalı Don Bartelemi tərəfindən atılıb. O, yerli katoliklərin say məsələsinə də toxunur: *"Roma kilsəsinin ardıcıllarının sayı ... günü-gündən azalır".*[32] Onun xatirələrindən belə məlum olur ki, Səfəvi şahı tərəfindən katoliklərə tanınan vergi güzəştlərinə baxmayaraq, yerli feodallar mərkəzi hakimiyyətin göstərişlərinə məhəl qoymur, katolik kəndlərdən ağır töycülər götürürdülər ki, bu da katolik missiyaların inkişafına maneçilik törədirdi[33].

Səfəvilər imperiyasında katolik missionerlərin fəaliyyəti Erməni Qriqorian Kilsəsinin müqavimətinə də rast gəlirdi[34], çünki İran ərazisində yaşayan xeyli erməni katolisizmə keçirdi. Bununla barışmayan erməni kilsəsi katoliklərə qarşı sərt addımlar atırdı. Erməni ruhanilərin bu zülmü sonda katolik ocaqların sönməsinə gətirib çıxarır. Deməli, həm yerli feodalların özbaşınalığı, həm də erməni qriqorian kilsəsinin təqibi Səfəvilər imperiyasında katolisizmin inkişafına son qoyur.



*Jan Şarden (1643-1713)*

Katolik rahib və emissarlar regionda növbəti dəfə uğur qazana bilməsələr də, xeyriyyə, tərcümə və tibbi fəaliyyətləri ilə tarixə düşürlər[35]. Xüsusən karmelit və yezuitlərin Avropaya yazdıqları məktubları Səfəvi-Qərb münasibətlərinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir[36].

32 - Путешествие Шардена по Закавказью в 1672-1673 гг./Перевод Е. В. Бахутовой и Д. П. Косовича//Из журнала «Кавказский Вестник» за 1900 и 1901 гг. - Тифлис: Скоропечатная М. Мартиросянца, 1902. – səh. 298.
33 - Yenə orada.
34 - Bax: Ф. Мамедова, А.Абасов. Yenə orada.
35 - Ф. Мамедова, А.Абасов. Указ. соч. - с.105.
36 - Laurence Lockhart. Op. cit. - p. 374.

## Çar Rusiyası dövrü

### *Polyak əsirləri və əsgərləri*

Rusiya imperiyası dövründə ölkəmizdə katolik icmanın əsas hissəsini polyaklar təşkil edirdi. Bu səbəbdən onların Azərbaycanda məskunlaşma tarixinə ayrıca nəzər yetirmək lazımdır. Belə ki, Rusiya imperiyasının Qafqazda apardığı işğalçı müharibələr vaxtı ölkəmizə polyak əsgərlər ayaq basırlar. Onlar rus ordusunun tərkibində məcburi hərbi xidmət göstərirdi. Həmçinin 1795-ci ildə Qafqaza Polşadakı Kostyuşko üsyanının iştirakçıları, 1823-cü ildə ilk polyak siyasi dustaqlar göndərilir. Çar Rusiyası tərəfindən işğal edildikdən sonra 1813-cü ildə Azərbaycana 10-12 min polyak yerləşdirilir. Bunlar məğlub Napoleon ordusunda (Fransa marşalı, milliyyətcə polyak olan knyaz Yuzef Ponyatovskinin hərbi korpusunda) Rusiyaya qarşı vuruşaraq əsir düşən əsgərlər idi. Repressiyaya məruz qalan polyakların növbəti dəstəsi Polşada 1830-31/1863-cü illərdə baş verən üsyanlardan sonra gəlir[37]. Maxaçkala arxivində XIX əsrin 30-cu illərində ölkəmizə xeyli polyakın sürgünə göndərildiyini göstərən tarixi sənədlər mövcuddur. Az qala ömürlük hərbi xidmətə məhkum olunan bu əsirlər yeni yerlərdə ağır həyat şəraiti ilə üzləşirdilər. Adətən onlar yoluxucu xəstəlik və ya döyüşdə aldıqları yaralardan dolayı həyatlarını itirirdilər[38]. Sürgündəki bəzi polyakların vəziyyəti isə lap acınacaqlı idi. Həmin şəxslər tamamilə azadlıqdan məhrum olunaraq Zaqatala qalası və Nargin adası kimi yerlərdə həbs altında saxlanılırdılar. Polyakların bu köçürülmə siyasəti düz XIX əsrin sonunadək davam edir[39].

Polşalı hərbçilərin gəlməsi nəticəsində Qafqaz boyu, eləcə də Zaqatala və Qusarda polyak hərbi qarnizonlar yaradılır[40]. Qarnizonların dislokasiya yerlərində katolik çasovnyalar ucaldılır[41]. Məbədlər əsasən hərbçilər üçün nəzərdə tutulduğuna görə burada dini ayinləri kapellanlar

37 - Вах: История польской общины «Полония – Азербайджан» [Elektron resurs]. - URL: http://www.polonia-azeri.org/history1.html (müraciət tarixi: 28.06.2016).

38 - Вах: Чаплицкий Б. История Католической Церкви в России. 2002 [Elektron resurs]. - URL: http://www.krotov.info/libr_min/24_ch/ap/lizky_01.html (müraciət tarixi: 28.06.2016).

39 - История польской общины «Полония – Азербайджан»//Там же.

40 - Зейналова С.М. Формирование европейских этнических общин на Кавказе (XIX-первая половина XX вв.). – Баку: Мутарджим, 2010. - səh. 83.

41 - История польской общины «Полония – Азербайджан»//Там же.

(hərbi keşişlər) yerinə yetirirdi. Bakı, Şamaxı, Quba və Qusardakı məbəd və şəxsi evlərdə vəftiz mərasimi keçirən, dini ayinləri yerinə yetirən kapellanlar Dağıstan vilayətinin Temir-xan-Şuradakı (indiki Buynaksk şəhəri) Katolik Kilsəsinə tabe idilər. Bu katolik təşkilatın din xadimi "Dağıstan və Bakı vilayətinin hərbi kapellanı və prixodun administratoru" titulunu daşıyırdı[42].

Temir-xan-Şuradakı prixod, ümumən, Qafqazdakı katoliklər Tiraspol yeparxiyasının nəzdindəki "Qafqaz və Zaqafqaziya əyalətinin vizitatorluğu" tərəfindən idarə edilirdilər. Bütün Rusiya imperiyasında isə katolisizmin dini-inzibati mərkəzi Mogilyov mitropoliyası sayılırdı. Mitropoliyanın başçısı - arxiyepiskop imperiyanın paytaxtı Sankt-Peterburq şəhərində otururdu[43].

Qeyd edək ki, XIX əsrdə Bakı şəhərində polkun nəzdində açılan kiçik katolik kilsəsi Ağbulaq (indiki Tetritskaro şəhəri, Gürcüstan) yaşayış məskənində yerləşən böyük Roma katolik hərbi prixoduna tabe idi. 1882-ci ildən başlayaraq Zaqataladakı katolik kilsə də Ağbulaqdakı hərbi prixodunun tabeçiliyində olub[44].

XIX əsrin 50-ci illərində ölkəmizdə məskunlaşan katoliklərdən bəhs edərkən, onların say məsələsinə də nəzər yetirmək lazımdır. İlk növbədə Şamaxı şəhərindəki katoliklərin statistik göstəriciləri maraq doğurur. Çünki həmin dövrdə bu şəhər eyniadlı böyük quberniyanın mərkəzi idi. "Kavkazski kalendar" məcmuəsinin 1850-ci il üzrə verdiyi məlumata görə, Şamaxıda 200 nəfər katolik yaşayırdı[45]. Gördüyümüz kimi, Şamaxı quberniyasının mərkəzində katoliklərin sayı o qədər də çox deyildi. Buna baxmayaraq, şəhərdəki katoliklər kilsəyə ehtiyac duyaraq məbədin tikintisinə icazənin verilməsi məqsədilə quberniya idarəsinə müraciət edirlər. 1860-cı ildə katolik ibadət yerinin inşaat planı təsdiqlənir. Layihənin həyata keçirilməsi üçün cəmi 584 rubl toplana bilir. Quberniya rəhbərliyi isə katoliklərin say azlığını və yığılan məbləğin tikinti üçün kifayət etmədiyini əsas gətirərək məbədin inşasını təxirə salır[46].

---

42 - Bax: Чаплицкий Б. История Католической Церкви в России//Там же.

43 - Bax: Чаплицкий Б. История Католической Церкви в России//Там же; Гумбатова Т. Католики на Кавказе [Elektron resurs]. – URL: http://www.proza.ru/2016/07/08/2014 (müraciət tarixi: 28.07.2016).

44 - История католического прихода в Баку (1880-1931) [Elektron resurs]. – URL: http://www.rc.net/azerbaijan/baku.html (müraciət tarixi: 14.08.2016).

45 - Bax: Кавказский календарь на 1850 год/ Изданный от канцелярии наместника Кавказскаго. – Тифлис: в типографии канцелярии наместника Кавказскаго, 1849. - стр. 94.

46 - Bax: Ибрагимова Д. Здесь звучала «Ave Maria»/ Азербайджан №. 14-15, 2003/ стр.174-179 [Elektron resurs]. - URL: http://www.catholic.az/ru/archives/518 (müraciət tarixi: 02.07.2016).

Şamaxı quberniya mərkəzi olsa da, Qusarda daha çox katolik yaşayırdı. Tiraspol yeparxiyasının 1864-cü il üzrə kataloqunda yer alan məlumatlar bunu təsdiqləyir. Kataloqdakı statistikaya əsasən, Qusar kilsəsinin 1200 nəfər prixojanı vardı[47]. Qafqaza katolik əsgərlərin göndərilməsi dayandıqdan sonra bu katolik prixod əhəmiyyətini itirərək ləğv edilir[48].

Diqqətəlayiq faktdır ki, Qusar və Zaqataladaki katolik kilsələrin binaları günümüzədək gəlib çıxıb. Həmin binalar tarixi memarlıq abidələri kimi dövlət tərəfindən qorunur. Hazırda Qusardakı keçmiş katolik məbədində Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir.



*Qusar. Keçmiş katolik kilsəsinin binası. XIX əsr.*



*Zaqataladakı keçmiş katolik kilsəsi. XIX əsr.*

47 - Вах: Чаплицкий Б. История Католической Церкви в России//Там же.
48 - Вах: Чаплицкий Б. История Католической Церкви в России//Там же.

### *Ən böyük katolik icması*

Qeyd etdiyimiz kimi, XIX əsrin sonları və 60-cı illərin əvvəllərində Bakı şəhərində Ağbulaqdakı katolik hərbi prixodununun tabeçiliyində olan kiçik katolik kilsəsi açılır. Zaman keçdikcə şəhərdə katoliklərin sayı sürətlə artır. Onları Bakıda yaşanan neft bumu cəlb edirdi, çünki güclü neft fontanlarının vurması ilə sənaye inqilabının paytaxtı olan "küləklər şəhəri" əcnəbi mütəxəssislər üçün yeni həyat qurmaq və uğur qazanmaq ümidi verirdi.

Bakıya, ilk növbədə, polyak mütəxəssisləri gəlirdi. Bununla yanaşı, XIX əsrdə Azərbaycana Rusiyanın ali məktəblərindən məzun olan Polşa əsilli həkim, əczaçı, mühəndis, məmur və başqa sənət sahibləri göndərilir. Ən böyük polyak icması Bakıda cəmləşir. Yüksək savadları ilə seçilən polyaklar şəhərdə mühüm postlar tutur, iş həyatında uğur qazanırlar. Məsələn, XIX əsrdə Bakı Şəhər Dumasının sədri vəzifəsini bir müddət milliyyətcə polyak olan Stanislav Despot-Zenoviç yerinə yetirirdi. Yaxud Rılskilər polyak ailəsinə neft mədənləri məxsus idi[49].

Aydındır ki, Bakıda etiqadca katolik mütəxəssislərin sayca artması katolisizmin şəhərdə intişar tapmasına gətirib çıxarıb. Azərbaycan Respublikasının Dövlət Tarix Arxivində mühafizə olunan sənədlərdən məlum olur ki, artıq 1863-cü ildə Bakıdakı katoliklər dua evinin tikintisi ilə bağlı şəhər hakimiyyətinə müraciət ediblər. Qafqaz Canişinliyinin Baş İdarəsi isə 5152 saylı, 24 iyul 1863-cü il tarixli məktubla katoliklərin müraciətinə müsbət yanaşaraq Bakının o vaxtkı planında A5 sahəsi kimi göstərilən yerdə katolik dua evinin tikintisinə razılıq verib[50]. Qeyd edək ki, o vaxtkı planda göstərilən A5 sahəsi köhnə müsəlman qəbiristanlığının ərazisinə düşürdü. Həmin qəbiristanlıq indiki Səadət Sarayı tərəflərində olub[51].

Maliyyə azlığı səbəbilə Bakıdakı katoliklər A5 sahəsində dua evi tikə bilmirlər. 1884-cü ildə şəhərdəki katoliklər həmin ərazidə məbəd tikmək istədikdə bunu həyata keçirmək mümkün olmur, çünki A5 sahəsində artıq rus pravoslav kilsə-prixod məktəbi tikilmişdi.1891-ci ildə katolik icması

49 - Зейналова С.М. Указ. соч. - стр. 89.

50 - Копия с отношения Главного Управления Наместника Кавказского от 24 июля 1863 года за № 5152 Бакинскому Военному Губернатору. - ARDTA, f. 389, siy. №2, sax.vah.153.

51 - Доклад Бакинской Городской Управы (9 декабря 1908 года) по вопросу о земле, отведённой под постройку католической церкви. – ARDTA, f. 389, siy. №2, sax.vah.153, v. 83.

Bakının başqa yerində ibadət yeri tikmək üçün şəhər hakimiyyətinə müraciət edir. Bakı Şəhər Dumasının 29 dekabr 1891-ci il tarixli qərarı ilə katolik ibadətgahın inşası üçün Birja meydanında (indiki Üzeyir Hacıbəyov küçəsi) 640, 31 kv. sajen ölçüsündə torpaq sahəsi ayrılır[52]. Arxiv sənədlərindən məlum olur ki, Bakıdakı katoliklər Birja küçəsində bina ucaldırlar. Binada katolik ibadətgah və keşiş üçün məzil vardı. Doqquz ildən sonra, yəni 1900-cu ildə Roma katolik prixodunun baş keşişi yenidən Bakı Şəhər Dumasına müraciət edərək böyük katolik kilsəsinin tikintisi üçün Kaspiy (indiki Rəşid Behbudov prospekti) və Merkuryev küçələrinin (indiki Zərifə Əliyeva prospekti) tinində yer ayırmağı xahiş edir. Şəhər bələdiyyəsi elə həmin ilin noyabr ayında göstərilən ərazidə katolik kilsəsinin tikintisi üçün razılıq verir. Eyni zamanda, belə şərt irəli sürür ki, məbədin tikintisi dörd ilə başa çatmalıdır[53]. Beləliklə, 27 aprel 1903-cü ildə bu məbədin bünövrəsi Saratovdan gəlmiş yepiskop Eduard Ropp tərəfindən təqdis edilir. 18 avqust 1905-ci ildə kilsənin layihəsi təsdiqlənir. Hacı Qasımov tikintinin podratçısı seçilir. 1909-cu ilin may ayında isə təntənəli təməlqoyma mərasimi keçirilir[54].

Nəhayət, katoliklərin səbirsizliklə gözlədiyi an gəlib çatır. Bakının göz oxşayan yerində polyak kostyolu açılır. Şəhərin simasına xüsusi gözəllik verən və ətraf binalardan nadir memarlıq üslubu ilə seçilən bu məbədin inşası yerli katoliklərə sevinc hissi bəxş etməklə yanaşı, Şərq və Qərb koloritini özündə cəmləşdirən Bakı arxitekturası üçün yeni nəfəs olur.

Tədqiqatçılar arasında kilsənin nə vaxt tikilib qurtarması və layihə müəllifinin kim olması haqda fərqli fikirlər səsləndirilir. Geniş yayılmış rəyə əsasən, kostyolun inşası 1912-ci ildə başa çatıb. Lakin başqa tarix göstərənlər də var. Məsələn, C.İbrahimova tikinti işlərinin 1915-ci ilədək davam etdiyini bildirir və vurğulayır ki, məbədin memarı kimi mülki mühəndis Yuzef Ploşkonun adı göstərilsə də, digər mülahizəyə görə, kilsə layihəsinin müəllifi polyak mütəxəssisi Dzenkovski olub. Ploşko isə planı həyata keçirib[55]. “Qafqazda avropalı etnik icmaların formalaşması” kitabına görə, kostyolun tikintisi 1911-ci ildə bitib[56].

52 - Доклад Бакинской Городской Управы. 19 декабря 1891 г. – ARDTA, f. 389, siy. №2, sax.vah.153, v. 20-21.
53 - Доклад Бакинской Городской Управы. 9 декабря 1908 г. - ARDTA. f. 389, siy. №2, sax. vah. 153, v.83.
54 - Здесь звучала «Ave Maria»// Там же.
55 - Здесь звучала «Ave Maria»// Там же.
56 - Зейналова С.М. Указ. соч. - с.95.



*“Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi” kostyolu. Bakı. 1912-cu il.*

Polyak qotika üslubunda ucaldılan “Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi” kostyolunun hündürlüyü təqribən 50, eni 30 metr olub. Burada eyni anda 1200 nəfər ibadət edə bilib[57]. İbadətə gələn kontingentin əksər hissəsini polyaklar təşkil edib. Rılskilər ailəsi və məşhur neft mütəxəssisi, polşalı mesenant Vitold Zqlenitski bu kostyolun tikintisinə xeyli maliyyə yardımı göstəriblər[58].

Bakıdakı katoliklərin tarixindən danışarkən, 1903-cü ildə Bakıda polyaklar tərəfindən açılan “Roma Katolik Xeyriyyə Cəmiyyəti” və “Açıq ev - Polyak katolik cəmiyyəti”ni də qeyd etmək lazımdır. Məsələn, “Roma Katolik Xeyriyyə Cəmiyyəti” kasıb katoliklərə maddi-mənəvi yardım göstərməklə yanaşı, kitabxana, ibtidai məktəb açır. Cəmiyyət tərəfindən kitabsevərlərin istifadəsinə verilən oxu zalı isə şəhərdə yeganə pulsuz qiraətxana olur[59].

1903-cü ildə Bakıdakı katoliklərin taleyində daha bir əlamətdar hadisə baş verir. Bu vaxt qəbiristanlıqların birində “Müqəddəs Xaç” kiçik

57 - Здесь звучала «Ave Maria»// Там же.
58 - Зейналова С.М. Там же. - с.95.
59 - Здесь звучала «Ave Maria»// Там же.

katolik kilsəsi ucaldılır[60]. 1904-cü ildə Nikolay (İstiqlaliyyət) küçəsində isə katolik prixodun birsinifli dördillik məktəbi açılır. Pater Demurov bu məktəbin 23 nəfərlik otağında təqdisetmə mərasimi keçirir[61]. 17 avqust 1909-cu ildə polyakların mədəni inkişafı istiqamətində iş aparan "Bakı şəhərində Polyak Evi" təsis olunur. Təşkilatın nəzdində bir məktəb açılır. Birinci Dünya Müharibəsinin qopması və Bakıya polyak qaçqınların üz tutması ilə daha bir polyak cəmiyyəti - "Müharibəyə görə yoxsullaşan Polşa çarlığı əhalisinə yardımın təşkili üzrə Bakı şəhəri Polyak Komitəsi" yaradılır[62]. Təbii ki, müharibənin dəhşətli fəsadlarından qaçaraq şəhərimizdə məskunlaşan polyaklar hesabına yerli katolik icması daha da böyüyür.



*"Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kostyolu. Bakı. 1912-cu il.*

Çar Rusiyası dövründə Bakıdakı katolik kilsəyə aşağıdakı ruhanilər başçılıq etmişlər:

1. Bakı və Yelizavetpol quberniyasının hərbi kapellanı Qjeqoj Mayer (1870-ci illərin sonlarına kimi);
2. Vladislav Kubik (1899-1900);

60 - История Католической Церкви в Баку [Elektron resurs]. - URL: http://www.polonia-azeri.org/catol.html (müraciət tarixi: 08.07.2016).

61 - Здесь звучала «Ave Maria»// Там же.

62 - Вах: История польской общины «Полония – Азербайджан»//Там же.

3. Vasili Mutapov (1900-1904);
4. Stefan Demurov (1904-1920)[63].

Rusiya imperiyası zamanı Bakıdakı katolik kilsəyə gələn dindarların sayına gəlincə, bu statistik göstərici aşağıdakı kimi olmuşdur:

1885-ci il – 2840 nəfər;
1886-ci – 2126 nəfər;
1888-ci – 2298 nəfər;
1900-ci il – 1401 nəfər;
1902-ci il – 1151 nəfər;
1907-ci il – 1694 nəfər;
1916-cı il – 2550 nəfər.

Katolik yeparxiyasının 1917-ci il üzrə məlumatına görə, Bakıdakı katolik məbədə ibadətə gələnlər arasında az sayda Balaxanı, Bibiheybət, Dərbənd, Hacıqabul, Kürdəmir, Çələkən adası, Salyan, Şamaxı, Quba və Şuşadan olan katoliklər də vardı[64].

Nəzərə almaq lazımdır ki, yuxarıdakı statistik göstəricilər sadəcə kilsəyə gələnləri göstərir. Lakin ümuməm Bakıda yaşayan katoliklərin sayı bundan qat-qat çox olub. Məsələn, Bakı şəhəri Roma Katolik prixodunun baş keşişi V. Kubik Bakı Şəhər İdarəsinə yazdığı məktubunda bildirir ki, təkcə Bakı şəhərində 9-10 min katolik yaşayırdı. Onların arasında müxtəlif millətlərin nümayəndələri (polyak, erməni, fransız, alman, italyan, çex və s.) vardı[65].

Gördüyümüz kimi, Bakıda katoliklərin sayı kifayət qədər çox olub. Lakin bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə bu böyük dini icmanın varlığına son qoyulur.

## *Katolik icmasının məhvi*

Bakıda kostyolun açılışı ilə bağlı katoliklərin sevinci çox çəkmir, çünki kilsənin açılışından bir neçə il sonra, daha dəqiq desək, 28 aprel 1920-ci ildə mübariz allahsızlıq mövqeyindən çıxış edən bolşeviklər zorla hakimiyyəti ələ keçirərək ölkəmizi Sovet İttifaqının tərkibinə qatırlar. Bu isə katolisizmə, ümumiyyətlə, ölkəmizin dini həyatına ciddi zərbə vurur.

63 - История католического прихода в Баку (1880-1931)//Там же.
64 - История католического прихода в Баку (1880-1931)//Там же.
65 - ARDTA. f. 389, siy. №2, sax. vah. 153, v. 54-56.

Etiqadından asılı olmayaraq, bütün dindarlar təqibə məruz qalır, məscid, kilsə və sinaqoqlar qapadılır, din xadimləri güllələnir və ya zindana atılır. Müxtəsər, "din tirkyəkdir" şüarı altında Tanrının adının çəkilməsinə belə qadağa qoyulur və istənilən dini inancla total mübarizə aparılır. Repressiyaya məruz qalanlardan biri də katoliklər olur. Hadisələrin gedişatına nəzər salaq. 1934-cü ildə (bəzi mənbələrə əsasən, 1931-ci ildə) "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kilsəsi bolşeviklər tərəfindən partladılır. Kostyolun yerində "Dzerjinski klubu" (Şəhriyar adına Mədəniyyət Sarayı) tikilir. Katolik prixodun keşişi Stefan Demurov isə həbs olunaraq güllələnir[66]. 1911-ci ildə inşa edilən katolik məktəbin yerində musiqi muzeyi fəaliyyət göstərməyə başlayır[67].



*"Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kostyolu. Bakı. 1912-cu il.*

Ölkəmizdə katolisizmin süqutuna digər amillər də təsir göstərir. Xüsusi mülkiyyətin milliləşdirilməsi, "qolçomaqlıqdan salma" tədbirləri, Sovet-Polşa müharibəsi dövründə polyakların Polşaya qayıtması, 30-40-cı illərdə məcburi köçürülmə siyasəti katoliklərin əsas kontingenti olan polyakların sayını kəskin surətdə azaldır[68]. Sonda sərt ateist rejim katolik icmanın varlığına son qoyur.

66 - Церковь в Азербайджане [Elektron resurs]. – URL: http://www.catholic.az/ru/церковь/церковь-в-азербайджане (müraciət tarixi: 12.07.2016).

67 - Bax: Здесь звучала «Ave Maria»// Там же.

68 - Bax: Зейналова С.М. Указ. соч. - с.97.

## Müasir Azərbaycan dövrü

Azərbaycan xalqının Sovet imperiyasının buxovlarından, əsarət zəncirindən xilas olması və yenidən müstəqillik qazanması ilə katolisizmin dirçəlməsinə şərait yaranır. Xüsusən ümummilli lider Heydər Əliyevin yerli katolik icmanın inkişafında oynadığı mühüm rol danılmazdır. Onun yerli katolik dindarların ehtiyac və istəklərinə diqqətlə yanaşması və qayğı göstərməsi respublikamızda katolik icmanın çiçəklənməsinə rəvac verir desək, yanılmarıq.

Günümüzdə bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikası ilə Vatikan dövləti arasında qurulan yüksək diplomatik əlaqələr fonunda katolik icmanın hərtərəfli dövlət dəstəyi ilə əhatə olunması bunu deməyə əsas verir. Diqqətəlayiq faktdır ki, müəyyən xristian konfessiyaların az qala rəsmi kilsə statusuna qaldırıldığı bəzi qonşu dövlətlərdə katolisizmə ögey münasibət göstərilir, katoliklərin dini fəaliyyətlərinə bürokratik əngəl yaradılır. Halbuki bizdə - ənənəvi müsəlman ölkəsində katoliklər nəinki problemlərlə qarşılaşır, əksinə, hər il dövlət hesabına əhəmiyyətli maliyyə yardımı alırlar.

Müstəqil Azərbaycanda katolik icmanın demək olar ki, sıfırdan qurulduğunu və tez bir zamanda necə yüksək məqama çatdığını görmək üçün yenə sovet hakimiyyəti illərinə qayıtmaq, o vaxtlar katoliklərin düşdüyü vəziyyəti təkrar xatırlamaq və müasir vəziyyətlə müqayisə etmək vacibdir. Çünki SSRİ dövründə ölkəmizdə pravoslavlar, molokanlar, baptistlər, adventistlər, əllincilər, molokanlar min bir əziyyət bahasına olsa belə, varlıqlarını qoruya biliblər. Ancaq katolik icma ateist ideologiyanın hakim olduğu illərdə sözün həqiqi mənasında tamamilə məhv edilib. Ortada yalnız dini köklərini unutmayan tək-tük katolik qalmışdı.

SSRİ-nin süqutundan sonra 1992-ci ildə kiçik bir dindar qrupunun Vatikana məktub yazaraq ibadət üçün keşiş göndərilməsini xahiş etməsilə respublikamızda katoliklik yenidən dirçəlməyə başladı. Yerli katoliklərin müraciətindən sonra 1996-1997-ci illərdə Tiflisdə qərarlaşan Müqəddəs Taxt-Tacın səfirliyinin katibi Timon Titus Xmeletski Bakıya gələrək katolik icmanın bərpasını arzulayanlarla görüşür. İlk vaxtlar Vatikan Azərbaycana yezuit ordenin rahiblərini yollamaq istəyir. Lakin bu ordendən ölkəmizə

göndəriləcək rahib tapılmır. Odur ki, missiyanı öz üzərinə Zamoysko-Lübaçevski yeparxiyasının keşişi Yeji Pilius (SDB) götürür. O, 21 iyul 1997-ci ildə apostol nunsisi Jan Pol Qobel və Qafqazın apostol administratoru Cuzeppe Pazotto ilə birgə Bakıya səfər edir və respublikamızda ruhani xidmət göstərməyə başlayır[69].

Y.Pilius ilk növbədə Polşa əsilli, dağıdılan kostyolda vəftiz olunan adamları və onların nəvə-nəticələrini öz ətrafında birləşdirir. Daha sonra, katolik icmanın rəsmilləşdirilməsi istiqamətində iş aparılır, nizamnamə hazırlanır, ana tərəfdən polyak olan Tahir Qarayev katolik icmanın sədri seçilir. 2 aprel 1999-cu ildə Ədliyyə Nazirliyində Bakı şəhəri Roma Katolik dini icması dövlət qeydiyyatına alınır və yeni sədr seçilir. Bu dəfə icmaya rəhbərlik etmək Ofil İsmayılova tapşırılır. 26 sentyabr 1999-cu ildə isə üç icma üzvü katexumen (xaç suyuna salınmağa namizəd) olur. Həmin ilin noyabr ayının 9-da Bakıdakı katoliklər Tiflis şəhərində Roma Papası II İoann Pavelin keçirdiyi Müqəddəs Messaya qatılırlar[70].

Bununla yanaşı, Y. Pilius kasıblara əl uzadaraq xeyriyyə yeməkxanası açır. Zaman keçdikcə Bakıda katolik icmanın dirçəldilməsi uğrunda atılan addımlar öz bəhrəsini verir. Artıq 1999-cu ildə icma üzvlərinin sayı 36, 2000-ci ildə isə 47 nəfərə çatır. O vaxtlar yerli və əcnəbi katoliklər keşişin mənzilində ibadət edirdilər. Ona görə də prixod üçün yer axtarılır. İcma sədri Məmməd Araz (keçmiş Teymur Əliyev) küçəsi, 69/b/1 ünvanında olan ikimərtəbəli həyət evi tapır. Y.Pilius və Belçika vətəndaşı, slovak Daniel Pravda (SDB) həmin yeri bəyənirlər[71]. 2000-ci ilin aprel ayında bu ev salezian ordenin ayırdığı vəsait hesabına alınır, təmirdən sonra burada kiçik kilsənin əsası qoyulur, keşiş və rahiblər üçün otaqlar tikilir[72].

11 oktyabr 2000-ci ildə Xalqların İncilləşdirilməsi Konqreqasiyası "Don Bosko" salezianlar ordeninə Azərbaycandakı katolik missiyasına rəhbərlik etməyi tapşırır. D.Pravda isə "Missio Sui Iuris"-in (latınca "Bakuensis") ölkəmizdəki ordinarisi olur, Slovakiyadan respublikamıza bir neçə salezian rahibi göndərilir. Onlar imkansızlar üçün pulsuz yeməkxana açır, məcburi köçkünlərə yardım göstərir və başqa xeyriyyə işləri ilə məşğul olurlar[73].

69 - II İoann Pavel Azərbaycanda. Katolik Kilsəsinin Apostol Prefekturası. – Bakı: «Oskar», 2012. - s. 85.
70 - История католической церкви в Баку//Там же.
71 - История католической церкви в Баку//Там же.
72 - II İoann Pavel Azərbaycanda. - s.86.
73 - Yenə orada.

14 yanvar 2001-ci ildə slovakiyalı Ştefan Karmançik katolik icmanın baş keşişi təyin olunur, D.Pravdanın rəhbərliyi altında Dübəndi qəsəbəsində bağ evi alınır. Burada uşaq və gənclər üçün yay düşərgəsi təşkil olunur. 31 yanvar 2002-ci ildə isə katolik icma Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən dövlət qeydiyyatından keçir. Həmin ilin aprel ayında respublikamızda katoliklərin sayı təqribən 120 nəfərə çatır[74].

2002-ci ilin may ayında ölkəmizdəki katolisizmin tarixində ən yaddaqalan hadisə yaşanır. Bu tarixdə ulu öndər Heydər Əliyevin dəvəti ilə Roma Papası II İoann Pavel 22 may 2002-ci ildə ölkəmizə rəsmi səfərlə gəlir. Pontifikin səfəri Azərbaycandakı katoliklərin taleyində yeni səhifə açır. Hava limanında Heydər Əliyev tərəfindən qarşılanan Katolik Kilsəsinin başçısı çoxsaylı mərasim və görüşlərdən sonra Əl Oyunları Sarayında messa keçirir[75]. Tədbirə 5500 nəfər qatılır ki, onların da mütləq əksəriyyəti katolik deyildi[76].



*Ulu Öndər Heydər Əliyevin*
*Roma Papası II İoann Pavel ilə görüşü. 22 may 2002-ci il.*

Roma Papasının səfəri zamanı yerli katoliklər üçün başqa bir mühüm hadisə baş verir. Ümummilli lider Heydər Əliyevin göstərişi ilə katolik məbədin tikilməsi üçün "Qara şəhər" adlanan ərazidə torpaq sahəsi ayrılır. Nəticədə 2007-ci ilin fevral ayında Bakının mərkəzində kilsə ucaldılır.

74 - История католической церкви в Баку// Там же.
75 - II İoann Pavel Azərbaycanda. - s.86, 87.
76 - История католической церкви в Баку//Там же.

Vaxtilə bolşeviklərin uçurduğu kostyolun adını daşıyan bu yeni katolik kilsə[77] hazırda paytaxtımızın görünüşünə xüsusi gözəllik verir.

Yaradılan əlverişli şərait nəticəsində 2003-cü ilin mart ayında ölkəmizdəki katoliklərin ümumi sayı 200 nəfərə (onların yarısını əcnəbi vətəndaşlar təşkil edirdi), icma üzvlərinin sayı isə 58 nəfərə çatır. 2003-cü ilin iyun ayında slovakiyalı Yan Çapla (SDB) Azərbaycandakı katolik missiyasının yeni ordinarisi olur. Onun dövründə "Məryəm" xeyriyyə tədris mərkəzi yaradılır, azərbaycanlı katoliklərin bir qrupu 16-21 avqust 2005-ci ildə Almaniyanın Köln şəhərində keçirilən XX Katolik Gənclərin Ümumdünya Gününə qatılır, 2006-cı ildə Bakının Zığ qəsəbəsində "Kəlküttəli Tereza Ana" şəfqət evi açılır, 2006-cı ilin fevral ayında Lyudmila Rəhimova (Petrovskaya) katolik icmaya sədr seçilir və ən əsası "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" məbədinin inşası başa çatır[78].

5 noyabr 2009-cu ildə slovakiyalı Vladimir Fekete (SDB) XVI Benediktin sərəncamı ilə Y.Çaplanın yerinə "Missio Sui İuris"-in ordinarisi vəzifəsinə təyin olunur. Hazırda o, respublikamızdakı katoliklərə başçılıq edir. Onun rəhbərliyi dövründə ən böyük hadisə 2011-ci ildə baş verir. Bu ildə "Azərbaycan Respublikası və Müqəddəs Taxt-tac arasında Katolik kilsəsinin Azərbaycan Respublikasında hüquqi statusu haqqında" Beynəlxalq Saziş imzalanır[79]. 7 iyul 2011-ci ildə "Roma-Katolik Kilsəsinin Apostol Prefekturası" dini qurumuna dövlət qeydiyyatına alınması barədə Şəhadətnamə təqdim edilir. DQİDK-nın sədri Hidayət Orucov, Müqəddəs Taxt-tacın Azərbaycandakı apostol nunsisi Kladio Qucerotti və Katolik Kilsəsinin ölkəmizdəki ordinarisi V. Feketenin iştirakı ilə keçirilən təqdimat mərasimində Apostol Prefekturasına respublikamızda rəsmi status verilməsi əlamətdar hadisə kimi qiymətləndirilir[80].

Təqdimat mərasimində K.Qucerotti Sazişin ratifikasiyası ilə böyük əhəmiyyət daşıyan tarixi hadisənin gerçəkləşdiyini bildirir. O, katoliklər üçün yaradılan şəraitə görə Azərbaycan hökumətinə minnətdarlığını dilə gətirir, ölkəmizin tolerantlıq prinsiplərinə həmişə sadiq qaldığını

77 - II İoann Pavel Azərbaycanda. - s. 87.
78 - История католической церкви в Баку// Там же.
79 - II İoann Pavel Azərbaycanda. - s. 87, 88.
80 - http://azertag.az/xeber/Roma_Katolik_Kilsesinin_Apostol_Prefekturasi_dini_qurumu_dovlet_qeydiyyatina_alinmisdir-530164 (müraciət tarixi: 11.07.2016).

xüsusi vurğulayır və qeyd edir ki, Vatikan indiyədək heç bir dövlətlə belə müqavilə imzalamadığı üçün sözügedən saziş bu qəbildən olan ilk sənəddir. Müqəddəs Taxt-tacın Azərbaycandakı apostol nunsisi çıxışında bunları deyib: *"Azərbaycan necə tolerant ölkə olduğunu bir daha təsdiqlədi. Artıq bütün dünya bunun şahididir. Əminəm ki, beynəlxalq aləmdə müsbət əks-səda doğuran bu sənəd böyük tarixi hadisə kimi yaddaşlarda qalacaqdır. İlk gündən mətbuatın reaksiyası da bunu deməyə əsas verir. Mən bütün bunlara görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə Müqəddəs Taxt-tac adından dərin təşəkkürümü bildirirəm"*[81].

4 avqust 2011-ci il tarixli Papa Bullası ilə XVI Benedikt V.Feketeni apostol prefekti vəzifəsinə təyin edir. Və beləcə o, Azərbaycan tarixində həmin vəzifəyə gətirilən ilk katolik ruhani olur[82].

Müasir Azərbaycanda katolisizmin tarixindən danışarkən, mütləq Heydər Əliyev Fondunu qeyd etmək lazımdır, çünki Azərbaycanın birinci xanımı, UNESCO və ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərlik etdiyi bu xeyriyyə təşkilatı Azərbaycan və Vatikan arasında əlaqələrin daha yeni və yüksək pilləyə qalxmasında əhəmiyyətli iş görür.

Belə ki, 26 sentyabr 2008-ci ildə Heydər Əliyev Fondu ilə ölkəmizdəki katolik icma arasında əməkdaşlıq memorandumu imzalanır. Sənədə əsasən, tərəflər müəyyənləşdirilən sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsi, sosial və dini təyinatlı obyektlərə yardımın göstərilməsi, Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsini qarşılarına məqsəd qoyurlar[83].

Bu memorandum çərçivəsində Heydər Əliyev Fondu tərəfindən Müqəddəs Ruhun həvarilərə nazil olmasını təsvir edən klassik vitraj və Müqəddəs Rozariyanın dualarındakı sirlərdən bəhs edən keramik pano "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kilsəsinə hədiyyə olunub[84].

---

81 - http://azertag.az/xeber/Roma_Katolik_Kilsesinin_Apostol_Prefekturasi_dini_qurumu_dovlet_qeydiyyatina_alinmisdir-530164 (müraciət tarixi: 11.07.2016).

82 - II İoann Pavel Azərbaycanda. - s. 88.

83 - http://mehribanaliyeva.preslib.az/media-9377ecd5d4.html (müraciət tarixi: 12.07.2016).

84 - Церковь в Азербайджане [Elektron resurs]//Там же.



*Heydər Əliyev Fondu tərəfindən Bakıdakı katolik kilsəyə hədiyyə olunan klassik vitraj*

Fondla Müqəddəs Taxt-Tac arasında günü-gündən inkişaf edən əlaqələr fonunda mühüm mədəni layihələr həyata keçirilir. Məsələn, 3 iyun 2014-cü ildə Fond tərəfindən Vatikan Muzeyində Zevsin heykəlinin bərpasına, o cümlədən "Sistina" zalında yenidənqurma işlərinin aparılmasına dair iki saziş imzalanır. 2 iyun 2014-cü ildə Mehriban Əliyeva və Jan Lui Bruqes "2015-2016-cı illərdə yeni əlyazmaların bərpa edilməsi və onların rəqəmsallaşdırılması"na dair yeni müqavilə bağlayırlar. Habelə Vatikan dövləti ilə 2012-ci ildə imzalanan ikitərəfli sazişə əsasən, Fondun dəstəyi ilə bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarının 23 fevral 2016-cı ildə açılışı olur[85].

85 - Ətraflı məlumat üçün bax: Heydər Əliyev Fondunun rəsmi saytı. – URL: http://www.heydar-aliyev-foundation.org/az (müraciət tarixi: 12.07.2016).



*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Romadakı Müqəddəs Marçellinio və Pietro katakombalarının açılış mərasimində. 23 fevral 2016-cı il.*

Gətirilən faktlar belə deməyə əsas verir ki, respublikamızda katolik icma və onun mərkəzi olan Müqəddəs Taxt-Tacla əlaqələr bəsit dövlət-din münasibətləri formatında qurulmur. Və bunu adi hal saymaq olmaz. Düzdü, katoliklərin ölkəmizdəki sayı o qədər də çox deyil. Hətta onlar say etibarilə başqa xristianlardan geri qalırlar. Lakin tarixi faktlar onu göstərir ki, Azərbaycandakı xristian konfessiyaları arasında katolisizm qədimliyinə görə Alban Kilsəsindən sonra gəlir. Sadəcə tarixin axarı və gedişatı bu ənənənin hər dəfə qopmasına səbəb olub.

Təkrar olsa da yenə vurğulamaq lazımdır ki, regionumuzda keşməkeşli və maraqlı tarixi proseslərdən keçən katolikliyin vaxtilə qırılan ənənələri müstəqil Azərbaycanda hakimiyyətin siyasi iradəsi və tolerant mühit sayəsində yenidən dirçəlmə fürsəti qazanıb. Bu isə olkəmizi başqa müsəlman, hətta pravoslavlığın hakim olduğu bəzi dövlətlərdən fərqləndirir.

# ROMA KATOLİK KİLSƏSİNİN AZƏRBAYCANDAKI APOSTOL PREFEKTURASI

## Təşkilati strukturu

Ölkəmizdə katolik icma "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" (latınca "Azerbaigianiensis") dini qurumu ilə təmsil olunub. Apostol Prefekturası – Roma Katolik Kilsəsinin yeparxiyaya bərabər tutulan ərazi vahididir. Bu dini təşkilat növü müvəqqəti statusa malikdir və yeparxiyanın yaradıla bilmədiyi ərazilərdə təsis olunur.

Azərbaycandakı apostol prefekturası Roma kuriyasının (Müqəddəs Taxt-Tacın əsas inzibati orqanı) doqquz iri təşkilatından biri olan Xalqların İncilləşdirilməsi Konqreqasiyasına tabedir. Prefekturanın başçısı "ordinari" kilsə rütbəsini daşıyır. İnzibati işlərdə ordinariyə müavin və katib vəzifəsini yerinə yetirən rahiblər kömək edir. Dini qurumun təşkilati işini Pastorlar şurası, Presviterlər şurası, eləcə də İqtisadi məsələlər üzrə şura tənzimləyir. Qurumun nəzdində kilsə mənsubları üçün İstirahət Evi, Nəşriyyat şöbəsi, müxtəlif xeyriyyə cəmiyyətləri mövcuddur.

## İbadət yerləri



*"Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kilsəsi*

250-300 nəfərin ibadət edə biləcəyi bu kilsə Neapol Memarlıq Universitetinin professoru Pado Ruceyro və Bakı şəhərinin baş memarı Akif Abdullayevin layihəsi əsasında tikilib. 2007-ci ilin aprelində Roma Katolik Kilsəsinin Cənubi Qafqaz üzrə apostol nunsisi arxiyepiskop Klaudio Qudjerotti yeni kilsəni təqdis edərək burada ilk ibadəti həyata keçirib. Kilsənin rəsmi açılışı isə Vatikanın dövlət katibi kardinal Tarçizio Bertonenin 2008-ci ilin martında Azərbaycana səfəri çərçivəsində baş tutub. Açılış mərasimində dövlət başçısı İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı yeparxiyasının yepiskopu Aleksandr İşein, aparıcı dini icmaların rəhbərləri, diplomatik korpusun nümayəndələri, xarici qonaqlar iştirak ediblər[86].

Kilsədə dini ayinlər yerli vətəndaşlar üçün rus dilində, əcnəbilər üçün ingilis dilində keçirilir.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*
*Bakıdakı katolik kilsəsinin açılış mərasimində. 7 mart 2008-ci il.*

86 - Kilsə haqqında məlumat Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə dövlət Komitəsinin rəsmi saytından götürülüb.

*“Şəfaətçi İsa Məsih” kiçik katolik kilsəsi*[87]



Kilsə “Gənclik” metrosunun yaxınlığındakı katolik prixodunun ikimərtəbəli həyət evində yerləşir. Həmin 7 otaqlı binanın birinci mərtəbəsindəki iri zal “Şəfaətçi İsa Məsih” məbədi üçün ayrılıb. İbadətgahda eyni anda 42 nəfər dini ayin yerinə yetirə bilir. Dini ayinlər rus dilində keçirilir. Bundan başqa, kilsənin olduğu binada ordinarinin ofisi və salezian rahiblərinin monastırı qərarlaşıb.

*Kimsəsizlər üçün Sığınacaq Evində kiçik katolik kilsə*



Monastır həyatı sürən və kimsəsiz şəxslərə yardım əli uzadan, Afrika qitəsindən, Slovakiya, İtaliya, Hindistan və digər ölkələrdən gələn rahibələrin istifadəsi üçün nəzərdə tutulub. Ümumi sahəsi 28 kv.metrdir. Bu kiçik məbəddə təqribən 20 nəfər ibadət edə bilir.

## Diplomatik nümayəndəlik

Azərbaycan ilə Vatikan arasında diplomatik əlaqələrin inkişafı nəticəsində respublikamızda Müqəddəs Taxt-Tacın daimi diplomatik nümayəndəliyi – apostol nunsiaturası fəaliyyət göstərir. Nunsiaturanın başçıları apostol nunsiləri adlanırlar. Ölkəmizdə ilk apostol nunsisi arxiyepiskop Klaudio Qudjerotti olub. O, 13 dekabr 2001-ci ildən 15 iyul 2011-ci ilə kimi Vatikanın Azərbaycandakı səfiri vəzifəsini icra edib. Ondan sonra, yəni 14 aprel 2012-ci ildən indiyədək bu vəzifəni arxiyepiskop Marek Solçinski yerinə yetirir.

87 - Azərbaycandakı katolik təsisatlar haqqında məlumatlar Apostol Prefekturası tərəfindən təqdim olunan, eləcə də ölkəmizdəki katolik kilsənin rəsmi saytında yer alan informasiya əsasında verilib.

## Xeyriyyə təşkilatları

*“Caritas Azerbaijan” Beynəlxalq Xeyriyyə təşkilatı*

Salezian rahibləri tərəfindən idarə olunur. Müxtəlif sosial layihələr (pulsuz hüquqi yardım göstərir, mədəni-əyləncə proqramları, uşaqlar üçün yay düşərgələri və s.) həyata keçirən təşkilatın nəzdində xeyriyyə yeməkxanası fəaliyyət göstərir.

*“Məryəm” Xeyriyyə Tədris Mərkəzi*

“Catholic Relief Services”, “Jugend eine Welt”, “Austrian Development Cooperation” və “Renovabis” təşkilatları, eləcə də Don Bosko Salezianlar ordeni və Bakıdakı İrland Cəmiyyətinin dəstəyi ilə 2004-cü ildə yaradılan mərkəzin məqsədi imkansız ailələrin uşaqlarına keyfiyyətli təhsil verməkdir. Mərkəzdə “CISCO Networking” kursu keçirilir, habelə ingilis, rus, italyan, alman dilləri, Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, tarix, kimya, fizika fənləri, gitara, rəsm və rəqs dərsləri, kompyuter proqramları və xalça toxuma sənəti öyrədilir. 2015-ci ilin məlumatına görə, təqribən 400 nəfərin tədris aldığı mərkəzdə 25 müəllim və digər əməkdaşlar işləyir.

*Kimsəsizlər üçün Şəfqət Evi*

“Kəlküttəli Tereza Ana” şəfqət ordeninin rahibələri tərəfindən idarə olunur. Şəfqət bacıları Azərbaycanda 2005-ci ildən çalışırlar. Belə ki, Roma Katolik Kilsəsinin apostol administrasiyasının başçısı Cuzeppe Pazotto və şəfqət bacısı Albina Tereza Anaya məktub ünvanlayaraq Bakıda sığınacaq evinin açılmasını xahiş edirlər. Nəticədə 2006-cı ilin may ayında yardıma möhtac adamlar üçün katolik şəfqət evi təsis olunur.

Şəfqət evinin ikimərtəbəli binasında 40-a yaxın şəxs sığınacaq tapa bilir. Evsiz qalanlar burada 2-3 ay müddətinə yerləşdirilir. Onlara gündə 3 dəfə yemək verilir, lazımi tibbi yardım göstərilir, eləcə də şəxsi sənədlərin qaydaya salınmasında, yaşayış yerinin və yaşamaq üçün vəsaitlərin tapılmasında müvafiq kömək edilir. Şəfqət bacıları tənha və atılmış yaşlıların layiqli dəfnlərini belə öz üzərlərinə götürürlər.

Sığınacaq yerində kişi və qadın palataları mövcuddur. 2016-cı ilin məlumatına görə, sözügedən xeyriyyə təsisatında 5 rahibə çalışır. Maraqlıdır

ki, kimsəsiz insanlara fədakarcasına xidmət göstərən şəfqət bacıları daha çox savab qazansınlar deyə, paltaryuyan maşından məqsədli şəkildə imtina edərək yiyəsiz adamların geyimlərini əlləri ilə yuyurlar.

Şəfqət evinin rahibələri Azərbaycandakı Apostol Prefekturasının tərkibində çalışsalar da, ordinariyə deyil, bilavasitə öz mərkəzlərinə tabedirlər.

*"Ailələrə sosial yardım" ("PAD")*

"PAD"-ın əsas məqsədi tənha analara övladlarını böyütmək üçün yardım əli uzatmaqdır. Bunun üçün salezian rahibləri Slovakiya, İtaliya və digər Avropa dövlətlərindən olan könüllü himayədarlar axtarırlar. Ehtiyac içində yaşayan, atasız böyüyən uşaqların qayğısına qalmağa razılıq verənlər müvəqqəti olaraq hər ay müəyyən məbləğdə maliyyə yardımı göstərir, beləcə həyatın çətinlikləri ilə üzləşən analara dəstək olurlar.

## Rahiblik institutu

Azərbaycanda katolik rahibliyi aşağıdakı üç ruhani ordenlə təmsil olunub:

*"Don Bosko salezianları"ordeni (SDB)*[88]

XIX əsrdə italiyalı keşiş Con Bosko tərəfindən yaradılıb. O, sadə kəndli ailəsində dünyaya gəlib. Turində ilahiyyat təhsili aldıqdan sonra 1841-ci ilin iyun ayında keşiş olub. 25 yanvar 1854-cü ildə Müqəddəs Fransua de Sal adına rahib cəmiyyətinin əsasını qoyub. Hazırda "Don Bosko salezianları" ordeni kimi məşhur olan bu təşkilatın nizamnaməsini 1874-cü ilin aprel ayında Papa IX Piy təsdiqləyib.

Ordenin əsas məqsədi qayğı və sosial müdafiəyə ehtiyacı olan uşaq və yeniyetmələrə yardım əli uzatmaqdır. Katolik Kilsəsinin sayca ikinci ən böyük ordeni olan salezian qardaşlığının günümüzdə 28 mindən yuxarı üzvü var. Bu dini təşkilat dünyanın 130-dan artıq ölkəsində fəaliyyət göstərir.

2016-cı ilin məlumatına əsasən, ölkəmizdəki katolik missiyaya başçılıq edən salezianların sayı 10 nəfərdir.

88 - Geniş məlumat üçün bax: Azərbaycandakı katolik kilsənin rəsmi portalı. – URL: http://www.catholic.az/ru/церковь/салезианцы-дона-боско; Salezian missiyasının rəsmi saytı. – URL: http://www.salesianmissions.org (müraciət tarixi: 27.07.2016).

*"Xristianlara Yardım göstərən Müqəddəs Məryəmin Qızları" (italyanca "Figlie di Maria Ausiliatrice" – FMA)*

1872-ci ildə Şimali İtaliyada Don Bosko və Müqəddəs Mariya Madzarello (1837-1881) tərəfindən təsis edilib. Salezianlar ailəsinə daxil olan bu qadın rahibə təşkilatının əsas amalı sevinc gətirən ibadəti yaymaq, uşaq bağçaları, məktəb, yay düşərgələri, xəstəxanalar, reabilitasiya mərkəzləri və xarici dil kurslarında katexizasiya keçirmək, eləcə də ekumenik əməkdaşlığa töhfə verməkdir[89].

"FMA"-nın rahibələri Azərbaycanda 2015-ci ildən fəaliyyət göstərməyə başlayıb. Hazırda bu təşkilatın cəmi iki rahibəsi ölkəmizdə çalışır. Onlar prefekturanın nəzdindəki bazar günü məktəbi və "Ailələrə sosial yardım" (PAD) təşkilatında işləyirlər.

*"Mərhəmət Missionerləri" ordeni* (latınca "*Congregatio Sororum Missionarium Caritatis")*[90]

Bu rahibə təşkilatını albaniyalı rahibə Tereza Ana (əsl adı Aqnes Boyaciu) yaradıb. O, 17 avqust 1948-ci ildə 38 yaşında olarkən yoxsul, səfil və ağır xəstələrin imdadına yetişmək üçün İtaliyanın Loreto şəhərindəki monastırdan ayrılaraq Hindistana yola düşür və Kəlküttədə məskunlaşır. Mavi haşiyəli ağ sariyə bürünərək bu fədakar katolik rahibə zir-zibil arasında yerləşən atılmış evdə yiyəsiz, küçə-bacada böyüyən uşaqlar üçün məktəb açır, ölüm ayağında olan insanlara əl tutmağı özünə mənəvi borc bilir. 1949-cu ildə 12 rahibə (əsasən şagirdləri) bu ülvi missiyada ona kömək etməyə başlayır. 1950-ci ildə isə Tereza Ananın rahibə ordeni Roma Katolik Kilsəsi tərəfindən tanınır. Hazırda dünyanın 125 ölkəsində həmin cəmiyyətin dörd mindən artıq rahibəsi yardıma möhtac şəxslərin köməyinə çatır.

Keçmiş sovet respublikalarında "Rozariy" (latın dilindən tərcümədə "qızılgül çələngi" mənasına gəlir) evlərini açmaq Tereza Ananın ən böyük arzularından biri idi. Onun bu istəyi həyata keçir və postsovet ölkələrdə, o cümlədən Azərbaycanda kəlküttəli rahibənin adını daşıyan sığınacaq evləri təsis olunur.

---

89 - Женские монашеские ордены и конгрегации//Монашеские ордены и конгрегации УГКЦ. – URL: http://www.christusimperat.org/ru/node/22730 (müraciət tarixi: 27.07.2016).

90 - Orden barədə məlumat http://catholic.tomsk.ru/vocation/missionariesofcharity/about saytından götürülüb (müraciət tarixi: 28.07.2016-cı il).

## Say və milli tərkibi

Respublikamızda yaşayan katoliklərin dəqiq sayını müəyyənləşdirmək çətindir. Lakin əminliklə demək mümkündür ki, müstəqillik illərində az qala sıfırdan yaradılan katolik icma böyüməkdə davam edir. 2016-cı ilin məlumatına görə, ölkəmizdəki katoliklərin təqribən 300 nəfəri Azərbaycan vətəndaşıdır. Onların da mütləq əksəriyyəti bir tərəfi polyak, ukraynalı, belarus və başqa millətdən olan qarışıq ailələrdə doğulanlardır. Katolik prixodun mənsubları arasında müxtəlif xarici şirkətlərdə çalışan əcnəbilər (ABŞ, Meksika, İtaliya, Slovakiya, Filippin və s. dövlətlərin vətəndaşları) üstünlük təşkil edir – təxminən 500 nəfər.

Müasir Azərbaycanda Katolik Kilsəsində 300 nəfərə yaxın dindar (əsasən qarışıq ailələrin övladları və əcnəbilər) xaç suyuna salınıb. Ortalama olaraq hər il 10-12 nəfər vəftiz ayinindən keçir.

Ata və ana tərəfdən azərbaycanlı olan üzvlərin sayı aşağıdır. Onların əksəriyyəti az təminatlı sosial təbəqəyə aiddirlər. Azərbaycanlıların sayca az olması onunla bağlıdır ki, Apostol Prefekturasının keşişləri başqa inanc mənsubları arasında israrla dini təbliğat aparmır və üzvlərin sayı çox olsun deyə, hər kəsi katolisizmə qəbul etmirlər. Belə ki, "Müqəddəs liturgiya haqqında" ("Sacrosanctum Concilium") İkinci Vatikan Məclisinin konstitusiyasına görə, katolisizmə keçmək istəyənlər katexumenat adlanan hazırlıq mərhələsindən keçməlidirlər. Hazırlıq müddəti ölkədən-ölkəyə, yeparxiyadan-yeparxiyaya dəyişir. Azərbaycanda katexumenat birillikdir. Sınaq dövründə vəftizə namizədlər (katexumenlər) xristianlığın əsaslarını öyrənir, onların səmimiyyətləri və dini mərasimlərə davamiyyətləri yoxlanılır. Yalnız bir ili uğurla başa vura bilənlər xaç suyuna salınırlar. Aydındır ki, belə çətin hazırlığa hər kəs dözmür və sınaq bitənə kimi tək-tük adam qalır.

Azərbaycanlı katoliklər mövzusuna toxunarkən Behbud Mustafayevin adını çəkmək lazımdır. O, "Məryəm – həvarilərin Çariçası" ali katolik ruhani seminariyasında təhsil alır. 29 may 2016-cı ildə Rusiyanın Sankt-Peterburq şəhərində "Müqəddəs Bakirə Məryəmin vəfatı" məbədində arxiyepiskop Pavel Petsi tərəfindən dyakon kilsə rütbəsinə layiq görülüb, beləliklə katolisizmin tarixində ilk azərbaycanlı keşiş olub[91].

91 - Ətraflı məlumat üçün bax: Moskva şəhərindəki Müqəddəs Məryəm Ananın Roma-katolik arxiyeparxiyasının rəsmi saytı. - URL: http://www.cathmos.ru/content/ru/publication-2016-05-30-01-18-51.html#.V5hY0dLfrIW (müraciət tarixi: 27.07.2016).

Respublikamızda katoliklər əsasən, Bakıda yaşayırlar. Gəncə və Sumqayıt şəhərlərində də bu xristian məzhəbinin az sayda ardıcılı var.

## Maliyyə mənbəyi

Prefektura müxtəlif beynəlxalq katolik təşkilatlar tərəfindən maliyyələşir. Eyni zamanda, 2011-ci ildən başlayaraq ölkəmizdəki dini icmalar, o cümlədən katoliklər Azərbaycan dövlətindən maliyyə yardımı alırlar. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycan Respublikası Prezidentinin 5 iyul 2016-cı il tarixli Sərəncamına əsasən katolik dini qurumuna yüksək məbləğdə maliyyə vəsaiti (100 min manat) ayrılıb. Bu isə dövlətimizin inancından asılı olmayaraq bütün dinlərin nümayəndələrinə necə böyük diqqət və qayğı ilə yanaşdığını bariz şəkildə göstərir.

## İbadət şəkilləri

Apostol Prefekturasına tabe olan ruhani və dindarlar latın-Roma ayinli katoliklər qrupuna daxildirlər. Bu isə o deməkdir ki, onlarda əsas ibadət dili latıncadır. Lakin II Vatikan Məclisi dini ayinləri latın dili ilə yanaşı, milli dillərdə də yerinə yetirməyə, eləcə də Afrika, Asiya və Amerikada yaşayan katoliklərə dini mərasimlərinə yerli xalqların inanclarından elementlər əlavə etməyə icazə verib. Qeyd edək ki, ölkəmizdəki katolik məbədlərdə ibadət latın, ingilis və rus dillərində həyata keçirilir[92].

Latın-Roma ayini nisbətən sadə və qısadır. Katoliklərdə əsas ibadət messa adlanır. Messa hər zaman günorta vaxtı yerinə yetirilir. Yalnız Milad və Pasxa bayramlarından əvvəl bu ibadət gecə icra olunur. Katolik dini mərasimləri adətən xor, orqan və ya orkestr musiqisi ilə müşayiət olunur. Latın ayinli katoliklər beş düz barmaq, açıq ovuc və soldan sağa xaç çəkirlər[93].

## Konfessiyalararası münasibət

Apostol Prefekturası respublikamızda mövcud olan müxtəlif dini qurumlarla, o cümlədən Qafqaz Müsəlmanları İdarəsi, Alban-Udi Xristian dini icması, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası ilə əməkdaşlıq etməyə və dostluq münasibətləri saxlamağa çalışır. Dövlət

92 - Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. – М.: Издательство Московского университета, 2010. – с. 79.
93 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с. 79.

səviyyəli tədbirlərə və təntənəli dini bayram mərasimlərinə prefekturanın rəhbərinin dəvət olunması artıq bir ənənə halını alıb. Diqqətəlayiq faktdır ki, qondarma Dağlıq Qarabağ Respublikası, erməni separatizmi problemi ilə bağlı dövlətimizin haqlı mövqeyini müdafiə etmək və ölkəmizdə mövcud olan tolerant şəraitin dünya miqyasında tanıtmaq üçün Apostol Prefekturasının ordinarisi başqa dini qurumlarla birgə ortaq bəyanatlarla çıxış edir. Məsələn, Apostol Prefekturası respublikamızdakı digər qeyri-müsəlman dini icmalarla birgə 2015-ci ilin dekabr ayında ABŞ Konqresinin Helsinki komissiyasının həmsədri Kristofer Smit tərəfindən təqdim olunan "Azərbaycanda demokratiya aktı" qanun layihəsində dini etiqad azadlığı ilə bağlı yer alan qərəzli məqamlara, habelə 2016-cı ilin 4-8 iyul tarixlərində Yunanıstanın Saloniki şəhərində Parlamentlərarası Pravoslav Assambleyasının 23-cü illik toplantısının iştirakçıları tərəfindən qəbul olunan "Fundamental Qlobal Təhdidlər – Xristian Pravoslav Perspektivi" adlı qətnamənin sonuncu bəndinə - Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan və aprel döyüşlərinə dair tamamilə yanlış məlumatı özündə əks etdirən müddəaya rəsmi surətdə etiraz edib.

Azərbaycandakı katolik kilsəsi protestant, xüsusən lüteran, xarizmat və denominasiyasız dini icmalarla da yaxından əməkdaşlıq edir, onların problemlərinin həlli üçün dəstək olur.



*İlk azərbaycanlı katolik ruhani Behbud Mustafayev*

## Mətbu orqanı

Prefektura həftədə bir dəfə rus dilində "Voskresnoye slovo" ("Bazar günü kəlamı") adlı bülleten buraxır.

# MARJİNAL KATOLİSİZM

*Marjinal katolisizm – Roma Katolik Kilsəsindən ayrılaraq özündə başqa xristian məzhəblərin, xüsusən protestantlığın elementlərini birləşdirən dini cərəyanlar qrupuna verilən addır. Azərbaycanda da marjinal katolisizmin tərəfdarları yaşayır. Onlar Yeni Apostol Kilsəsinin mənsublarıdırlar.*

## "Yeni Apostol Kilsəsi - Apostolların Beynəlxalq Birliyi" Qısa tarixi

"Yeni Apostol Kilsəsi" dini təşkilatının tarixi kökləri XIX əsrin 30-cu illərində İngiltərədə katoliklər arasında təşəkkül tapan "Katolik Apostol icması" dini cərəyanına gedib çıxır. Bu cərəyanın yaradıcıları Tanrıdan vəhy aldıqlarını iddia etmiş, qiyamətin yaxınlaşdığını bildirmişlər. Onlar axır zamanda xilas olmaq və İsa Məsihin padşahlığında yer almaq üçün həvarilərin pak inanc əsaslarını və məsihçilərin həyat tərzlərini təhrifə uğradan, qədim həvari kilsəsinin ideallarına uyğun gəlməyən müasir kilsə qaydalarından üz döndərməyə çağırmışlar. Yeni dini cərəyanın tərəfdarları guya vəhyin təsiri altında on bir həvvari və bir baş apostol seçmiş, başqa xristian kilsələrində mövcud olan rütbələrdən imtina edərək yeni dini vəzifələr təsis etmişlər: apostollar, rəsullar, yevangelistlər, müəllimlər və s. Bu adları onlar İncildən götürmüşlər[94].

Beləliklə, esxatoloji (esxatologiya – dünyanın sonu və İsa Məsihin yer üzünə ikinci dəfə gəlişinə dair dini görüşlər sistemi) intizarlar fonunda İngiltərədə yeni dini hərəkat ortaya çıxmış, hətta Şotlandiya, Almaniya, İsveçrə və Avstriyadakı bəzi katolik, anqlikan, protestant din xadimləri bu hərəkata qoşulmuşlar. "Vəhy" yolu ilə seçilən apostollar dünyasını dəyişdikdə və İsa Məsihin zühuru baş vermədikdə "Katolik Apostol icması" özünü buraxmağa qərar vermişdir. Lakin bu dini hərəkatın bəzi iştirakçıları, xüsusən alman apostolları tərəfindən idarə olunan Hamburq dini icması bununla barışmaq istəməmişdir. 1863-cü ildə bu dini qrupla "Katolik Apostol icması"nın yolu ayrılmışdır. Belə ki, 27 yanvar 1863-cü ildə Hamburq dini icmasının başçısı Fridrix Vilhelm Şvarts "Katolik Apostol icması"ndan

94 - Вах: Протестантизм: история, направления и казахстанские реалии (информационный справочник). – Астана: «Научно-исследовательский и аналитический центр по вопросам религии» Агенства Республики Казахстан по делам религий, 2012. - с. 31-32.

uzaqlaşdırılmışdır. Həmin tarix "Beynəlxalq Yeni Apostol Kilsəsi" dini təşkilatının yaranma günü sayılır. Lakin bu dini təşkilat uzun mübahisələr və struktur islahatlarından sonra 1867-ci ildə tam formalaşmışdır[95].

"Yeni Apostol Kilsəsi"nin rəsmi saytının 2016-cı il üzrə verdiyi məlumata əsasən, dünyanın təqribən 180 ölkəsində yayılmış bu Kilsənin 8.923.420 üzvü, 59 816 dini icması və 256 812 din xadimi var[96].

## "Yeni Apostol Kilsəsi" Azərbaycanda

Azərbaycanda "Yeni Apostol Kilsəsi"nin fəaliyyətə başlaması ötən əsrin 90-cı illərinin əvvəllərinə təsadüf edir. 1992-ci ildə Ədliyyə Nazirliyindən dövlət qeydiyyatından keçən Bakı şəhəri Yeni Apostol Kilsəsi dini icması 1999-cu ildə dini mərkəzinin maliyyə yardımı hesabına üç yüz nəfərlik ibadət yeri açır. İbadət yerində gənc və yaşlı insanlarla görüşlərin keçirilməsi üçün xüsusi otaq ayrılır. Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Əli küçəsi, 10 ünvanında yerləşən bu ibadətxana elə həmin il "Yeni Apostol Kilsəsi" dini təşkilatının Şimali Reyn-Vestfaliya regional kilsəsinin apostolu Klaus Diter Kyoninq tərəfindən təqdis olunur. Təqdisetmə mərasimində apostol K.D.Kyoninq Aydın Fərəcullayevi rəsmən icmanın başçısı təyin edir. Mərasimdə 166 nəfər dindar və qonaq iştirak edir[97].





*Bakı şəhəri Yeni Apostol Kilsəsi dini icması*

95 - Вах: Протестантизм: история, направления и казахстанские реалии. – с. 32; Yeni Apostol Kilsəsinin rəsmi saytı: http://www.nak.org/ru/oznakomlenie/istorija/ (müraciət tarixi: 29.08.2016).
96 - http://www.nak.org/ru/nac-vo-vsem-mire/ (müraciət tarixi: 29.10.2016).
97 - Вах: В Баку освящено церковное помещение// Наша семья (журнал Новоапостольской Церкви). Франкфурт-на-Майне: Издательство «Фридрих Бишоф ГмбХ» июль, 1999 год. 9-ый год издания. № 7 – с. 13.

2002-ci ildə Bakı şəhəri Yeni Apostol Kilsəsi dini icması Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınır. 2006-cı ildə bu icma Bakının Suraxanı rayonunda Qaraçuxur qəsəbəsində 160 nəfərlik ibadət yeri açır. Burada keşişlər və bazar günü məktəbi üçün xüsusi otaqlar ayrılır. 2 avqust 2006-cı ildə isə dairə apostolu Armin Brinkman bu kilsəni təqdis edir. Təqdisetmə mərasiminə Xaçmaz, Gəncə və Göygöldən gələn yeni apostolçular da qatılırlar. Tədbirin sonunda dairə apostolu Gəncə icmasına iki nəfəri (Mahir İsayev və Yuri Kotlyarov) dyakon təyin edir[98].

Onu da qeyd edək ki, ən fəal dövrlərində "Yeni Apostol Kilsəsi" dini təşkilatı ölkəmizdə məhz humanitar yardımın hesabına öz sayını artıra bilmişdi. Təbliğat hədəfi kimi isə alman əsilli vətəndaşlar seçilmişdi. Həmçinin Bakı şəhəri Yeni Apostol Kilsəsi dini icması bəzi lüteranları da öz tərəfinə cəlb etməyi bacarmışdı.

Son illər respublikamızda "Yeni Apostol Kilsəsi"nin fəaliyyəti xeyli zəifləyib ki, bu da ardıcıllarının sayının kəskin azalmasına gətirib çıxarıb.

## Təşkilati strukturu

"Yeni Apostol Kilsəsi" beynəlxalq dini təşkilatının başçısı "Birinci apostol" (2013-cü ildən bəri kilsənin Birinci apostolu Jan Lyuk Şnayderdir) dini rütbəsini daşıyan şəxs sayılır. O, İsveçrənin Sürix şəhərində yerləşən təşkilatın inzibati-ruhani mərkəzində oturur. Birinci apostol təşkilat daxilində mütləq hakimiyyətə malikdir. Çünki kilsə üzvlərinin inancına görə, o, "ilahi vəhy" alır və Tanrının yer üzündəki canişinidir. Birinci apostol "Yeni Apostol Kilsəsi"nin ali idarə orqanı olan Koordinasiya qrupuna rəhbərlik edir[99].

Təşkilatın dini iyerarxiya quruluşunda Birinci apostoldan sonra dairə apostolları gəlir. "Yeni Apostol Kilsəsi"nin rəsmi saytının məlumatına əsasən, təşkilatda 19 dairə apostolu və dairə apostollarının 11 köməkçisi xidmət göstərir. Dairə apostolları təşkilatın ən böyük inzibati-ərazi vahidi olan apostol dairələrinə (alm. Apostolbezirke) başçılıq edirlər. Dairələrə

98 - Вах: Баку: Освящение новой церкви// Наша семья (журнал Новоапостольской Церкви). Франкфурт-на-Майне: Издательство «Фридрих Бишоф ГмбХ» июль, 2007 год. 17-ый год издания. № 7 – с. 14.
99 - Новоапостольская церковь (справка) [Elektron resurs]. – URL: http://pravbeseda.ru/library/index.php?page=book&id=534 (müraciət tarixi: 29.10.2016).

ayrı-ayrı ölkə və ya regionlarda fəaliyyət göstərən dini icmalar daxildir[100]. Məsələn, *Bakı şəhəri Yeni Apostol Kilsəsi dini icması Şimali Reyn-Vestfaliya dairəsinin (dairə apostolu Rayner* Ştork*) yurisdiksiyasına aiddir.*

Həmçinin "Yeni Apostol Kilsəsi" beynəlxalq dini təşkilatında heç bir dairəyə rəhbərlik etməyən, lakin kilsənin müəyyən fəaliyyət sahəsinə görə cavabdehlik daşıyan apostollar da fəaliyyə göstərirlər. "Yeni Apostol Kilsəsi"nin rəsmi saytının məlumatına görə, bu beynəlxalq dini təşkilatda apostolların ümumi sayı təqribən 320 nəfərdir. Bütün apostollar üç ildən bir çağrılan beynəlxalq yığıncaqda toplaşırlar[101].

Apostol dairələri kilsə dairələrinə (alm. Kirchenbezirke) bölünürlər. Bu dairələrin başında isə dairə ağsaqalları durur. "Yeni Apostol Kilsəsi"nin iyerarxiyasına görə, dairə ağsaqallarından sonra dairə yevangelistləri gəlir. Kilsə dairələrinə ayrı-ayrı dini icmalar (Kirchen) daxildir. Dini icmalar pastorlar, eləcə də pastorlardan daha aşağı mərtəbədə dayanan yevangelist və ya keşişlər tərəfindən idarə olunur. Onlara bu işdə dyakonlar kömək göstərirlər[102].

## İnanc əsasları

On maddəlik "Yeni Apostol Kilsəsinin inanc əsası" dini təşkilatın təliminin əsas məqamlarını ehtiva edir. Həmin bəyannaməyə görə, Yeni Apostol Kilsəsinin üzvləri Tarının üç sifətdən (Ata, Oğul və Müqəddəs Ruh) ibarət olmasına etiqad bəsləyir, ölülərin dirilməsinə və əbədi həyata inanırlar. Başqa xristianlardan fərqli olaraq, yeni apostolçular inanırlar ki, İsa Məsihin kilsəsi onun tərəfindən göndərilən və yaşayan apostollar vasitəsilə idarə olunur. Onların etiqadına görə, "Yeni Apostol Kilsəsi"nin ardıcılları qiyamətə hazır olduqları üçün İsa Məsih "gəlinin canlı ruhlarını", yəni yeni apostolçuları Tanrının dərgahına götürəcəkdir. Bu ilk dirilişdir. Göylərdə İsa Məsih ilə xilas olan "gəlinin canlı ruhları" arasında "toy" olacaq, daha sonra İsa Məsih şəkil dəyişdirmiş ruhlarla təkrar yer üzünə qayıdacaq, öz padşahlığını quracaq və yeni apostolçular onunla birgə hökmdarlıq edəcəklər. İsa Məsihin Minillik Padşahlıq dövrü bitdikdə ilahi məhkəmə qurulacaq, ilk

100 - Bax: Струкова А. Новоапостольская церковь (НАЦ)// Современная религиозная жизнь России. Опыт систематического описания. Том 2. – Москва: Логос, 2003. – с. 400-401; http://nak.org.ua/2014/01/170/#more-170 (müraciət tarixi: 29.10.2016).

101 - Bax: Струкова А. Указ. соч. - с. 400-401; http://nak.org.ua/2014/01/170/#more-170 (müraciət tarixi: 29.10.2016).

102 - Bax: Струкова А. Там же. – s. 401; http://nak.org.ua/2014/01/330/#more-330 (müraciət tarixi: 31.10.2016)

dəfə dirilməyən hər kəs, yəni yeni apostolçu olmayanlar məhşər ayağına çəkilərək cəzalandırılacaqlar. Bundan sonra Tanrı əvvəlki dünyanın əvəzinə yenisini xəlq edəcək, göylər və yer yox olacaqlar. Yeni dünyada əbədi Qüds Padşahlığı qurulacaqdır[103].

Yeni apostolçular Bibliyanı qəbul etsələr də, guya Müqəddəs Ruhun təsiri altında Müqəddəs Kitabı təfsir edən apostolların şərhlərini daha üstün tuturlar. Odur ki, kilsə üzvlərinə Bibliyanı özbaşına oxumaq tövsiyyə olunmur. Təkrar-təkrar nəşr olunan "Yeni Apostol inancı: suallar və cavablar" yeni apostolçuların əsas dini kitabıdır. Bununla yanaşı, "Yeni Apostol Kilsəsi"ndə ruhanilərin istifadəsi üçün "Kilsə Tarixi" kitabı buraxılır[104].

## Dini ayinlər

"Yeni Apostol Kilsəsi"ndə əsas ibadətlər bazar günləri keçirilir. Kilsə ayinlərinin şəkli protestant məzhəblərindəki kimi sadədir. Kilsənin özünəməxsus dini ayin formaları da mövcuddur. Məsələn, ildə üç dəfə yeni apostolçular "xilas olmamış mərhumlar" üçün ibadət keçirir, onların nicat tapması üçün dualar edir və simvolik şəkildə ölülərin üzərində Rəbbin süfrəsi ayinini icra edirlər. Ayin belə yerinə yetirilir: iki ruhani rütbəli şəxs apostola yaxınlaşır, o da onların üzərinə xaç işarəsi çəkir, Müqəddəs Ruhla "qüvvətləndirir" və Rəbbin Süfrəsi dini mərasimini həyata keçirir[105].

## Mətbu orqanı

"Yeni Apostol Kilsəsi" beynəlxalq dini təşkilatının rəsmi mətbu orqanı – "Bizim Ailə" jurnalıdır. Eyni zamanda, təşkilat uşaqlar üçün "Biz uşaqlar" adlı jurnal buraxır[106].

## Humanitar fəaliyyət

Bu beynəlxalq dini təşkilatın tərkibində hər hansı humanitar qurum fəaliyyət göstərmir. Lakin o da bir reallıqdır ki, Azərbaycanda ötən əsrin

103 - Bax: Протестантизм: история, направления и казахстанские реалии. – с. 32.
104 - Bax: Протестантизм: история, направления и казахстанские реалии. – с. 32 – 33.
105 - http://pravbeseda.ru/library/index.php?page=book&id=534 (müraciət tarixi: 31.10.2016).
106 - Yeni Apostol Kilsəsinin mətbu orqanı, humanitar fəaliyyəti, maliyyə mənbəyi, təhsil və siyasətə münasibətinə dair məlumar həmin dini təşkilatın rəsmi portalından, http://pravbeseda.ru/library/index.php?page=book&id=534 saytından, eləcə də A. Strukovanın "Yeni Apostol kilsəsi" adlı tədqiqat işindən götürülmüşdür.

90-cı illərində fəaliyyətə başlayan əcnəbi yeni apostolçular məhz humanitar yardımın hesabına tərəfdar qazanmışlar. Onlar xüsusən yaşlı insanlara yardım göstərməklə kilsə üzvlərinin saylarını artıra bilmişlər. Məsələn, ahıl yaşındakı insanlara dəva-dərmanın alınması, tibbi yardımın göstərilməsi, maliyyə vəsaitinin verilməsi, onların pulsuz geyimlə təmin olunması nəticəsində respublikamızda bir ara yeni apostolçuların sayı 160 nəfəri keçmişdi. Lakin xaricdən göndərilən humanitar yardımın azalması ilə Bakı şəhəri Yeni Apostol dini icmasının sayı kəskin aşağı düşmüşdür.

## Maliyyə mənbəyi

"Yeni Apostol Kilsəsi" dini təşkilatı dindarların könüllü ianələri hesabına fəaliyyət göstərir. Onlara hər ay gəlirlərindən onda bir hissəni (desyatina) təşkilatın ehtiyacları üçün verməyə tövsiyyə edir.

Bakı şəhəri Yeni Apostol Kilsəsi dini icmasına gəlincə, icma üzvlərinin maliyyə imkanları çox aşağıdır. Çünki icma üzvləri əsasən ahıl yaşında olan şəxslərdən ibarətdir. Odur ki, Bakıdakı dini icma öz mərkəzindən dua evinin saxlanılması, yaşlı icma üzvlərinə köməyin göstərilməsi üçün maliyyə və humanitar yardım alır. Son illər bu humanitar yardım xeyli azalıb. Hətta vəziyyət o yerə çatıb ki, icma maliyyə imkansızlığı səbəbilə Bakıxanov qəsəbəsindəki dua evini bağlamağa məcbur qalıb.

## İctimai mövqeyi

"Yeni Apostol Kilsəsi" siyasi məsələlərə münasibətdə neytrallığını qoruyur və siyasətə qarışmamağa üstünlük verir. Bu təşkilatın dini icmaları qanun çərçivəsində fəaliyyət göstərməyə çalışır, yerli adət-ənənələrə hörmətlə yanaşır və aktiv missionerliklə məşğul olmurlar.

Bakı şəhəri Yeni Apostol Kilsəsi dini icmasının başqa din və məzhəblərin ardıcıllarına münasibəti normaldır. Hər hansı dözümsüzlük halı müşahidə olunmur. Əksinə bəzi icma üzvlərinin başqa xristian kilsələrinin dini yığıncaqlarına qatıldıqları məlumdur. Eyni zamanda, sözügedən icma etiqadca protestantizmə mənsub olmasa da, başqa protestant icmaları, ümumiyyətlə digər yerli xristian konfessiyalarının nümayəndələri ilə dostluq münasibəti saxlayır.

## Dini təhsil

“Yeni Apostol Kilsəsi”nin nəzdində hər hansı dini tədris müəssisəsi fəaliyyət göstərmir, ümumiyyətlə, bu təşkilat dini təhsil anlayışını qəbul etmir. Təşkilatın prinsiplərinə görə, İsa Məsihin şagirdləri savadsız olduqları üçün bu məsələdə onlara bənzəmək lazımdır. İlahiyyat təhsilini prinsipial olaraq inkar edən “Yeni Apostol Kilsəsi”nin ruhaniləri heç bir dini təhsilə malik deyillər. Bununla yanaşı, bu beynəlxalq dini təşkilatın icmalarında bazar günü məktəbləri fəaliyyət göstərir.

## Say

2016-cı ilin məlumatına görə, Bakıda yeni apostolçuların sayı, uşaqlar istisna olmaqla, 84 nəfər təşkil etmişdir. Onlardan 55 nəfəri rus, 24 nəfər azərbaycanlı, 5 nəfər tatardır.

Habelə icmanın Gəncə, Göygöl və Xaçmazda kiçik özəkləri mövcuddur.

# IV FƏSİL

## RUHANİ XRİSTİANLIQ

*Ruhani Xristianlıq – XVII-XVIII əsrlərdə Rusiya imperiyasında kəndli mühitində yaranmış, Rus Pravoslav Kilsəsinin ruhani sinfi və dini ayinlərinə qarşı çıxmış, sosial bərabərliyə, xristian qardaşlığına və erkən xristianların yaşayış tərzinə qayıtmağa çağıran, Tanrıya "ruh və həqiqətdə" ibadət etməyə səsləyən rus təriqətlərinə (xristoverlik, duxoborluq və molokanlıq) verilən ümumi addır.*

## DUXOBORLAR

### Slavyanka

Məhsuldar qara torpağı, mineral suları, gözəl və səfalı təbiəti, tarixi abidələri ilə məşhur olan Gədəbəy rayonu həm də etnoqrafik rəngarənglik baxımından diqqəti cəlb edir. Rus sektantlığının tarixi ilə maraqlananlar çox gözəl bilir ki, Kiçik Qafqazın orta və yüksək dağlıq qurşaqlarında yerləşən Gədəbəy çar Rusiyası dövründə rus sektantları və protestantlarının əsas fəaliyyət areallarından biri olub. XIX əsrdə bu diyarda rus təriqətçiləri tərəfindən salınan Slavyanka, Novosaratovka və Novoivanovka kəndləri etnoqrafik tədqiqat aparmaq üçün zəngin yerlərdir. Məsələn, Novoivanovka kimi balaca kənddə "staroverlər", "postoyannıy molokanlar", "prıqunlar", "subbotniklər", adventistlər, loyal və "qeydiyyatsız" baptistlər kimi müxtəlif xristian cərəyan və təriqətlərinin nümayəndələri yaşayıb və yaşayırlar.

Lakin bizi maraqlandıran Slavyanka kəndidir. Bu kənd zahirən molokanların ölkəmizdəki yaşayış məskənlərinə oxşayır. Slavyankanı da ağ rəngə boyanmış, mavi şüşəbəndli, göy stavnyalı (pəncərə qapağı) rus təriqətçilərinin tipik evləri bəzəyir. Lakin kəndin bir xüsusiyyəti var. Bu yaşayış yeri ölkəmizdə yeganə duxobor kəndidir.

Slavyankanın girəcəyində yerləşən qədim duxobor məzarlığı xüsusən maraq doğurur. Çoxdan atılmış bu əski qəbiristanlıq alaq ot, kol-kos və ağac əlindən keçilməz vəziyyətə düşmüşdür. Adi daş parçalarını xatırladan buradakı köhnə qəbir daşları təbiət qüvvələrinin təsiri altında zamanla əyilmiş, bəziləri torpaqla örtülmüşdür. Əski qəbirlərin üstündəki yazıları illər boyu yağan yağışlar yuyub tanınmaz hala salmışdır. Onların üzərində təsvir olunan günəş simvolu diqqət çəkir. Çünki eyni rəmzlərə ölkəmizdəki əski molokan qəbiristanlıqlarında da rast gəlinir. Ehtimal ki, bu qədim slavyan rəmzləridir.



*Duxobor məzarlığının girəcəyində əski daş kitabə. Slavyanka kəndi.*

Qədim məzarlığın girəcəyində yerləşən daşı kitabə xüsusən maraq doğurur. Çünki kitabədə duxoborların 1805-ci ildə Tavriya quberniyasına, 1844-cü ildə isə Qafqaza köçürüldükləri və burada Slavyanka kəndini saldıqları qeyd olunur. Beləliklə, duxoborların ölkəmizə gəlməsi 1844-cü ilə təsadüf edir.

Hazırda (2016-cı il) Slavyankada 43 nəfər rus yaşayır. Kəndin bütün rus əhalisi özünü duxobor sayır. Bəzi tədqiqatçılar bildirirlər ki, əcdadlarından fərqli olaraq Qafqazda yaşayan indiki duxoborlar dini deyil, etnik qrupdurlar. Məsələn, V. Françukun kitabında belə fikir irəli sürülür (bax: «Пробуждение: от центра Одессы до окраин России. - с.215). Həmin müəllif bildirir ki, Qafqazda yaşayan duxoborlar, molokanlar etnik mənsubiyyət baxımından özlərini rus deyil, duxobor və ya molokan sayırlar. Fikrimizcə, bu fikir reallığı əks etdirmir. Slavyanka kəndinin bəzi rus sakinləri ilə apardığımız müsahibə bunun əksini göstərir. Məsələn, Çivildeyeva Qalina Pavlovna (təvəllüd: 01.07.1948-cı il) özünün rus, etiqadca isə duxobor olduğunu bildirir:

***Anar Əlizadə:*** *Siz özünüzü hansı dinə aid edirsiz?*

***Qalina*** Çivildeyeva***:*** *Biz özümüzü rus sayırıq. Duxobor isə, necə deyim,*

*dinsiz deməkdir. Tanrıya inanırıq, amma popları (keşişləri – A.Ə.) tanımırıq.*

***A.Ə.:*** *Rus Pravoslav Kilsəsinə münasibətiniz necədir?*

***Q.Ç.:*** *Normal yanaşıram. Bəzən Gəncədəki rus kilsəsinə gedirəm.*

***A.Ə.:*** *Onda siz özünüzü pravoslav sayırsınız?*

***Q.Ç.:*** *Yox. Sadəcə bəzən ürəyim istəyəndə gedirəm.*

***A.Ə.:*** *Slavyankada bütün ruslar özünü duxobor sayır?*

***Q.Ç.:*** Əlbətdə*, hamısı.*

***A.Ə.:*** Bəs *Bibliyanı* qəbul edirsiniz?

***Q.Ç.:*** *Xeyr, bizdə Bibliya yoxdur. Bizim* əcdadlarımızın *Bibliyası – "pasalma"dır.*

***A.Ə.:*** *Slavyankada bütün ruslar Bibliyanı inkar edir?*

***Q.Ç.:*** Bəli, bəli, heç kəs qəbul etmir. Və heç kimin də evində *Bibliya yoxdur... Molokanlar arasında dostlarımız var. Bax onlarda Bibliya var. Onlar üçün o, nəsə* müqəddəs bir şeydi...[1]

Müsahibədən göründüyü kimi, duxoborlar Bibliyanı inkar edirlər. Onların müqəddəs kitabı nəsildən-nəsilə şifahi şəkildə ötürülən "psalom"lardır (poetik üslubda deyilən mədh və dualar). Slavyanka camaatı "psalom"lara köhnə rus ləhcəsində "pasalmı" deyir.



*Slavyanka kəndi. Gədəbəy rayonu.*

Q.Çivildeyeva ilə söhbət əsnasında bir məqam diqqət çəkir. O, özünü pravoslav saymasa da, hərdənbir Gəncədəki rus kilsəsinə baş çəkdiyini deyir. Halbuki onun əcdadları – erkən duxoborlar qətiyyən Pravoslav Kilsəsinə

1 - Müəllifin şəxsi arxivi (audioyazı).

getmək istəmirdilər. Və buna görə də həm çar hökuməti, həm də pravoslav ruhanilər tərəfindən təqib olunurdular. Q. Çivildeyevanın rus kilsəsinə mötədil yanaşması onu göstərir ki, günümüzdə Slavyankada yaşayan duxoborlar köhnə dini ənənələrini unudublar. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, hazırda (2016-cı il) bütün kənddə cəmi bir nəfər – İvanova Mariya Fyodorovna (təvəllüd: 1937-ci il) duxoborluğun müqəddəs mətnlərini – "pasalmıları" əzbər bilir. Odur ki, yerli duxoborlar yas mərasimlərinin aparılması üçün ona müraciət edirlər.

Hazırda Slavyankada azərbaycanlı və ruslar dostluq və mehribanlıq şəraitində yaşayırlar. Yerli duxoborların Gədəbəy ləhcəsində danışmaları isə onların azərbaycanlılarla necə qaynayıb-qarışdıqlarını bariz şəkildə göstərir.

## Qısa tarixi və inanc əsasları

Bu rus təriqəti XVIII əsrin ortalarında Yekaterinoslav və Xarkov quberniyasında dövlət kəndliləri arasında yaranmışdır. Təriqətin banisi Nikolsk kəndində (Yekaterinoslavsk quberniyası) yaşayan oxumuş kazak Siluan Kolesnikov olmuşdur. Təriqəti isə bu şəxslər yaymışdır: var-dövlət sahibi, yun taciri İlarion Pobiroxin və istefaya çıxmış qvardiya kapralı Saveli Kapustin[2].

Təriqətçiləri ilk dəfə "duxoborlar" adlandıran Yekaterinoslav arxiyepiskopu Amvrosi olmuşdur. Arxiyepiskop təriqətçilərin Rus Pravoslav Kilsəsinə, pravoslav ayinlərə qarşı çıxdıqlarını görüb 1785-ci ildə onları "duxoborlar" (rus dilində Müqəddəs Ruhla mübarizə aparanlar mənasına gəlir) adlandırmışdır. Duxoborların özləri isə bu ada etiraz etməyərək onu öz xeyirlərinə yozdular. Onlar deyirdilər: "bəli, biz duxoboruq, çünki xilas olmağımızı istəməyən düşmənlərimizlə təkcə ruhani vasitələrlə mübarizə aparırıq". Beləliklə, duxoborluq kəliməsi Müqəddəs Ruh uğrunda mübarizə aparanlar mənasında işlədilmişdir[3].

Duxoborluğun təliminə əsasən, Rus Pravoslav Kilsəsi təmtəraqlı dini ayinləri və cah-cəlal içində yaşayan ruhani sinfi ilə həqiqi dini təhrif edib. Duxoborlar Rus Kilsəsini qəbul etmir, Tanrını müdriklik, səadət və məhəbbət təcəssümü kimi başa düşür və inanırlar ki, bu ilahi sifətlər hər

2 - О духоборческой секте//Смолин И. Краткие исторические сведения о русских сектах и их вероучении. – Санкт-Петербург: Типография Т-ва «Свет», 1911.
3 - Смолин И. Краткие исторические сведения о русских сектах и их вероучении.

mömində mövcuddur. Ona görə də erkən duxoborlar bir-birlərinə təzim edirdilər. Onların inancına görə, özündə ilahi sifətləri birləşdirən dindarlar təzimə layiq "canlı ikonalar"dır[4].

Erkən duxoborlar bildirirdilər ki, insanlar azad və bərabər yaradılıb. Daha əvvəl də dediyimiz kimi, bu rus təriqətçiləri yazılı müqəddəs kitabı – Bibliyanı qəbul etmirlər. Onların fikrincə, yazılı dini mətnlər insanların müdaxiləsi nəticəsində təhrifə uğrayıb. Duxoborlar təkcə şifahi sakral mətnləri vəhy məhsulu sayır və əzbərlənərək nəsildən-nəsilə ötürülən "psalom"ları müqəddəs bilirlər. Şifahi ənənə şəklində qorunan psalomların külliyatına "Jivotnaya kniqa" ("Canlı Kitab") deyilir. Rus inqilabçısı və dinlər tarixçisi Vladimir Dmitriyeviç Bonç-Bruyeviç həmin şifahi mətnləri bir yerə toplayaraq kitab halına salıb.

Duxoborlar ruhani institutu, ikonalara pərəstişi, kilsə ayinlərini, dini mərasimləri inkar edir, insan əli ilə tikilmiş məbədlərə getməyi əbəs iş sayır, xristian ənənəsini qəbul etmir, dini ayin və anlayışlara simvolik, məcazi məna verirdilər[5].

Rusiya imperiyasında təriqətçilər müstəbid hakimiyyət və Rus Kilsəsi tərəfindən təqib olunur, ağır cəzalara məruz qalırdılar. Rus imperatoru I Aleksandrın hakimiyyəti illərində duxoborlara münasibət yumşalır. Onlara etiqad azadlığı tanınır. Duxoborların lideri Saveli Kapustin bu rus hökmdarına bir neçə dəfə müraciət edərək duxobor məskəninin salınmasına icazənin verilməsini xahiş edir. Nəhayət, 1804-cü ildə çarın xüsusi manifesti buraxılır. Həmin manifest sektantlara dini etiqad azadlığı tanıyır, duxoborlara, o cümlədən həbsdə, orduda, sürgündə inanclarına görə cəza çəkən bu təriqətin təəssübkeşlərinə Tavriya quberniyasının Melitopolsk qəzasına köçməyə və burada məskən salmalarına icazə verir. Beləliklə, təriqətçilər həmin quberniyanın Moloçnaya çayı yanında Moloçniye Vodı adlanan ərazidə bütün malların ortaq şəkildə istifadə edildiyi, *xüsusi mülkiyyətin olmadığı bir* cəmiyyət qururlar. Onlar yaşayış yerlərini "Duxoboriya" adlandırırlar. Duxoboriyanın başçısı Saveli Kapustin, onun vəfatından sonra oğlu Vasili Kalmıkov, daha sonra isə nəvəsi Larion olur[6].

4 - Духоборы//Православие: Словарь атеиста/ Под общ. ред. Н.С.Гордиенко. – М.: Политиздат, 1988. - с.78.

5 - Животная книга духоборцев/Записал и собрал Владимир Бонч-Бруевич. – С-Петербург: 1909. – с. XXII-XXIII, XXVI.

6 - Вах: Франчук В. Пробуждение: от центра Одессы до окраин России. – Одесса: «СИМЭКС-ПРИНТ», 2011. – с.203,205.

Gördüyümüz kimi, təriqətçilərə Kalmıkovlar sülaləsi başçılıq edirdi. Bu sülalənin banisi S.Kapustin duxoborluğun əsas ideoloqu və görkəmli nümayəndəsi İlarion Pobiroxinin oğlu idi. Bəzi mənbələrə görə, mənəvi övladı olub. Duxoborlar inanırdılar ki, İsa Məsihin ruhu Kalmıkovlar sülaləsində nəsildən-nəsilə keçir. Ona görə də təriqətçilər bu nəslin nümayəndələrini müqəddəs sayır və onlara böyük ehtiram göstərirdilər. Beləliklə, duxoborlar qardaşlıq və bərabərlik ideyaları əsasında utopik cəmiyyət qurmaq istəsələr də, zamanla onlar arasında da sinfi fərqlər meydana gəlib[7].

I Nikolayın hakimiyyətə gəlməsi ilə təqiblər yenidən vüsət alır. Bu çarın göstərişi ilə təqribən dörd min duxobor 1841-1844-cü ildə Tavriya quberniyasından Qafqaza sürgünə göndərilir. Nəticədə, Gürcüstanda səkkiz və Azərbaycanda bir duxobor kəndi yaranır. Bu yaşayış məskənlərinin hamısı Duxoboriyanı təşkil edirdi. Duxoboriya əsl "teokratik dövləti" xatırladırdı. Onun "paytaxtı" Gürcüstandakı Qoreloye (Qorelovka) kəndi idi. 1864-1886-cı illərdə bu "teokratik dövlətə" Kalmıkovlar sülaləsindən olan Lukerya adlı qadın başçılıq edirdi. O, mütləq hakimiyyətə malik idi. Təriqətçilər ona "Allah Anası" kimi baxırdılar[8].

Qorelovka kəndindəki "Yetimlər evi" təriqət başçısının iqamətgahı və duxoborluğun maddi-mənəvi mərkəzi idi. Bu dua evində yetim və çox qoca adamlar sığınacaq tapırdı. "Yetimlər evi"nin böyük torpaq sahələri, mal-qara sürüsü və iri təsərrüfatı vardı. Təriqətçilər bu evin saxlanılmasına ianələr verir, onun torpaqlarında havayı olaraq işləyir, təsərrüfatında pulsuz çalışırdılar[9].

Duxoboriyanın inzibati həyatında bədən cəzaları geniş tətbiq olunurdu. Habelə bu "teokratik dövlətin" öz hərbi təşkilatı vardı. "Kazaçki" adlanan bu təşkilatın hərbi dəstələri daim təlim keçirdilər[10].

Lukerya Kalmıkova vəfat edəndən sonra Qafqazdakı duxoborlar arasında nifaq düşdü. Duxobor icmasında meydana gələn sinfi ziddiyyətlər,

7 - Вах: Смолин И. Краткие исторические сведения о русских сектах и их вероучении; Духоборы// Православие: Словарь атеиста. - с.78.

8 - Вах: Беженцева А. Страна Духобория. – Тбилиси: «Русский клуб», 2007. - с. 46, 48, 51; О духоборческой секте//Смолин И. Краткие исторические сведения о русских сектах и их вероучении; Духоборы//Православие: Словарь атеиста. - с.78.

9 - Беженцева А. Указ. соч. – с. 53-54.

10 - Вах: Клибанов А.И. Религиозное сектантство в прошлом и настоящем. – М.: Издательство «Наука», 1973. - с. 128.

sosial bərabərsizlik təfriqəyə səbəb oldu. 26 yanvar 1887-ci ildə duxobor icması "Böyük partiya" və "Kiçik partiya" adlı iki qrupa parçalandı. "Böyük partiya" əsasən kasıblardan, "Kiçik partiya" isə varlı təbəqədən ibarət idi. Bununla yanaşı, "böyük partiya" daxilində zəngin, "kiçik partiya"da isə kasıb şəxslər vardı[11].

Əslində, təfriqə "Yetimlər evi"nin yarım milyon rubl pulu və böyük mal-mülkü üstündə yaranmışdı. "Kiçik partiya"nın rəhbərləri (Zubkov adlı starşina, Lukeryanın qardaşı Mixail Qubanov və digər qohumları) bu mal-mülkü öz adına keçirmək istəyirdi. Halbuki "Yetimlər evi" duxobor icmasına məxsus idi[12].



*Pyotr Verigin (1859-1924)*

"Böyük partiya"nın başında Pyotr Verigin dururdu. O, Yelizavetpol quberniyasının Slavyanka kəndində (indi Gədəbəy rayonu) doğulub. Lukerya Kalmıkova ilə qeyri-rəsmi nikah münasibətlərində olub. Habelə onun katibi və "kazaçki" hərbi təşkilatının başçısı idi. Odur ki, Lukerya onu öz varisi təyin etmişdi.

"Kiçik partiya"nın rəhbərləri rüşvət vermək yolu ilə yerli çar hökümətini öz tərəflərinə çəkməyi bacardılar. Hakimiyyət "Kiçik partiya"nın "Yetimlər evi"nə mülkiyyət hüququnu tanıdı. Bu azmış kimi, Verigini və "Böyük partiya"nın digər başçılarını Sibirə sürgünə göndərdi. Yerli çar məmurlarının ədalətsizliyini görən "Böyük partiya" dünyəvi hakimiyyətə etibarını tamamilə itirdi[13]. Bu dəstənin duxoborları radikallaşaraq hakimiyyəti və onun institutlarını tanımadıqlarını bildirdilər. "Böyük partiya"nın duxoborları rus yazıçısı L.Tolstoyun dini

---

11 - Yenə orada. – s. 129.

12 - Вах: Материалы к истории и изучению русского сектантства. Вып.2. "Разъяснение жизни христиан" и «Был у нас, христиан, сиротский дом...» (две духоборческие рукописи) /Ред. Владимир Бонч-Бруевич. – Hants: "Свободное Слово», 1901. - с. 22.

13 - "Разъяснение жизни христиан" и «Был у нас, христиан, сиротский дом...» – с. 22-23.

ideyalarının təsiri altına düşdülər. Hələ sürgündə olarkən onların başçısı P.Verigin bu dahi yazıçının dini ideyaları ilə tanış olmuşdu. Nəticədə dünyəvi dövlətə, xüsusi mülkiyyətə, varlılara, sosial ədalətsizliyə, hərbi xidmətə qarşı çıxdı, pasifist ideyaları, vegeterianlığı təbliğ etdi, öz ardıcıllarını alkoqollu içkilərin istifadəsindən, tütün çəkməkdən uzaq durmağa səslədi[14].

Veriginin tərəfdarlarının heç də hamısı rəhbərlərinin tövsiyyələrinə əməl etmədi. Onların təqribən yarısı A.Vorobyovun başçılığı altında yeni dəstə - “orta partiya” yaratdılar. “Orta partiya” mötədil yol tutmağa çalışaraq “kiçik partiya”nın ənənəçi dini ideyaları ilə Veriginin yeni təlimini uyğunlaşdırmağa çalışdılar[15].

O ki, qaldı veriginçilərin sonrakı taleyinə, 29 iyun 1895-ci il tarixində apostol Pyotr və Pavelə həsr olunmuş bayram günündə “böyük partiya”nın təəssübkeşləri Lev Tolstoyun pasifist ideallarını əməli surətdə həyata keçirərək çar istibdadının qəzəbinə uğradılar. Həmin gün dini inanclarına görə əllərinə silah almaq və orduya getmək istəməyən duxoborlar ümumi səfərbərliyə və müharibəyə etiraz əlaməti olaraq Orlovka kəndinin yanındakı mağarada dini nəğmələr oxuya-oxuya bütün silahlarını böyük tonqalda yandırdılar. Bu etiraz aksiyasında yeddi duxobor kəndinin sakinləri və iki minədək adam iştirak etdi[16].

Çar hökuməti bunu üsyan kimi qiymətləndirdi və sülhpərvər duxoborların üzərinə kazakların hərbi dəstələrini göndərdi. Kazaklar duxoborların evlərinə basqın edərək olmazın işgəncələrə, zorakılıqlara və təhqirlərə əl atdılar. Bəziləri qətlə yetirildi. Hakimiyyətin icazəsi ilə “Duxoboriya”nın kəndlərində altı gün boyu dəhşətli hadisələr yaşandı. Duxoborların evləri talandı, 330 təriqətçi cəza batalyonuna göndərildi, onların həyat yoldaşları, qızları isə biabırçı təhqirlərə məruz qaldılar. Sonra isə çar hökuməti duxobor kəndlərinin dağıdılması, təriqətçilərin dağlara göndərilməsi barədə əmr verdi. Təqiblər nəticəsində təqribən min nəfər duxobor öz həyatını itirdi[17].

1896-cı ilin avqust ayında rus imperatoru II Nikolay hərbi xidmətdən

14 - Духоборцы [Elektron resurs]//Православная энциклопедия: под редакцией Патриарха Московского и всея Руси Кирилла. – URL: http://www.pravenc.ru/text/180628.html (müraciət tarixi: 27.01.2016-cı il).
15 - Духоборцы//Там же.
16 - Беженцева А. Указ. соч. - с. 67.
17 - Беженцева А. Указ. соч. - с. 67-68.

imtina edən duxoborların imperiyanın ən ucqar bölgələrinə 18 il müddətinə sürgünə göndərilmələri barədə daxili işlər nazirinin qərarını təsdiqlədi. Bu qərara əsasən 180 duxobor Sibirə sürgün edildi. 4300 duxobor Gürcüstanın yaşamaq üçün yararsız olan yerlərinə köçürüldü. Yeni məskənlərində duxoborlar çar hökuməti tərəfindən qazma evlərdə böyük dəstələrlə yerləşdirildilər. Burada təriqətçilər cərimələnir, zindanlara atılırdılar. Sürgünə göndərilənlərin təqribən yarısı ağır həyat şəraitinə görə həlak oldu[18].

Bir daha təkrar edək ki, təqibə məruz qalanlar "Böyük partiya"nın mənsubları, yəni P. Veriginin tərəfdarları idilər. Duxoborların necə dəhşətli təqiblərlə üzləşdiklərini görən Lev Tolstoy və tolstoyçular təriqətçilərin müdafiəsinə qalxdılar. Çarizmin zorakılığı dünya ictimaiyyətində qəzəb doğurdu. Sonda çar müstəbid rejimi orduda xidmət göstərmək istəməyən duxoborlara Rusiya imperiyasından çıxaraq öz hesablarına başqa ölkələrə köçmələrinə icazə verdi. 1898-ci ilin sonunda və 1899-cu ilin əvvəllində P. Verigin başda olmaqla "Böyük partiya"nın əksəriyyəti, yəni duxoborların hakimiyyət qarşısında boyun əyməyən hissəsi Kanadaya köçərək öz vətənini həmişəlik tərk etdi. Lev Tostoy və bu rus yazıçısının ardıcılları duxoborların Kanadaya köçmələrinə hər cür maddi-mənəvi kömək göstərdilər[19]. Beləliklə, çar Rusiyasında hakimiyyətlə əməkdaşlıq edən "kiçik" və "orta" partiyaların təəssübkeşləri qaldı[20].

Çar Rusiyası dövründə duxoborlar arasında yaranan təfriqə Azərbaycandakı Slavyanka kəndindən də yan ötmədi. Qeyd edək ki, XIX əsrin 80-ci illərinin ortalarında Slavyanka kəndində 1426 duxobor yaşayırdı[21]. Lukeryanın vəfatından sonra buranın təriqətçiləri də "böyük" və "kiçik" dəstələrə parçalandılar. Pravoslav əhali arasında ştundizmi təbliğ etdiyi üçün Qafqaza sürgünə göndərilən baptist Y.N.İvanov yazırdı ki, Slavyankada "kiçik partiya"nın nüfuzlu şəxslərindən biri Yevsey Vasilyeviç Konkin olub. Onun oğlu İvan Yevseyeviç Konkin isə "böyük partiya"nın rəhbərlərindən biri idi. Odur ki, ata və oğul arasında böyük düşmənçilik vardı. 1894-cü ildə Y.V. Konkinin oğlunu "böyük partiya"nın

18 - Yenə orada. - s. 68-70.
19 - Беженцева А. Там же. - с. 76-82; Духоборцы //Там же.
20 - Духоборцы //Там же.
21 - Клибанов А.И. История религиозного сектантства в России (60-е годы XIX в. – 1917 г.). – Москва: «Наука», 1965. - с. 90.

mənsubu olduğu üçün sürgünə göndərdilər[22].

Baptist Y.N.İvanovun xatirələrində Slavyanka haqda başqa maraqlı məlumatlara rast gəlirik. O, bildirir ki, baptist missionerlər bu kənddə təbliğat aparmaq istəmirdilər, çünki duxoborları tamamilə itirilmiş və əxlaqsız sayırdılar[23]. Bununla yanaşı, baptist missionerlər başqa ruhani xristianların, yəni molokanların yaşayış yerlərində aktiv surətdə öz inanclarını yayırdılar.

Çar Rusiyası dövründə Slavyankadakı "böyük" və "kiçik" dəstələrdən danışarkən hazırda həmin kənddə duxoborluğun müqəddəs mətnlərini – "pasalmı"ları əzbər bilən yeganə şəxsdən - M.Fyodorovnadan götürdüyümüz müsahibənin bir hissəsini vermək yerinə düşərdi. Müsahibədə "böyük partiya"nın lideri Veriginin Slavyankada fəaliyyəti ilə bağlı maraqlı məqamlara toxunulur. M.Fyodorovnanın sözlərindən belə qənaətə gəlmək mümkündür ki, vaxtilə Slavyankada "böyük" və "kiçik" partiyaların ayr-ayrı ibadət yerləri olub, Veriginin tərəfdarları özləri üçün daha böyük dua evi tikiblər. Həmin müsahibəyə diqqət yetirək.

***Anar Əlizadə:*** *Duxoborlarda Slavyankada hər hansı dua evi olub?*

***Mariya Fyodorovna:*** Hə, əvvəllər olub. Orda yığışır, dua edirdilər... Anam danışırdı ki, *Alekseyevnanın yaşadığı yerə yaxın olub... Sonra isə hansısa Verigin, bilmirəm eşitmisən, ya yox, ondan bir az aralıda daha hündür ev düzəldir. Orda yaxşı ev vardı.*

***A.Ə.:*** *Deməli sizdə iki dua evi olub Slavyankada?*

***M.F.:*** Bəli. Sonra bu *Verigin, anam danışırdı, Tiflisə gedirdi, orda və hər yerdə əmr edirdi*[24].

Çar Rusiyası dövründə "böyük partiya"nın ardıcılları Kanadaya köçdükdən sonra duxoborluğa ağır zərbə dəyir. Sovet hakimiyyəti qurulandan sonra isə duxoborlar başqa dini qruplar kimi, repressiya və təqiblərə məruz qalır, öz etiqadlarını gizlətməyə başlayırlar. Odur ki, SSRİ vaxtı duxoborların hər hansı dini təşkilatı və ya icması dövlət qeydiyyatına alınmır. Belə hesab olunurdu ki, Sovet İttifaqında duxoborlar yoxdur, onların hamısı çar Rusiyası dövründə Kanadaya köçüb.

22 - Материалы к истории и изучению русского сектантства и раскола /Materiaux pour servir a l`histoire des sectes russes/ (в 5 вып.) Вып. 1. Баптисты. Бегуны. Духоборцы. Л. Толстой о скопчестве. Павловцы. Поморцы. Старообрядцы. Скопцы. Штундисты / под ред. Бонч-Бруевича В. – С.-Петербург: Тип. Б. М. Вольфа, 1908. - с. 49.

23 - Yenə orada.

24 - Məllifin şəxsi arxivi (audioyazı).

Halbuki Slavyanka kəndində götürdüyümüz müsahibədən aydın olur ki, buranın rus əhalisi özünü hər zaman etiqadca duxobor sayıb və dini mənsubiyyətini heç vaxt unutmayıb.

Respublikamızda indiyədək duxoborluğa aid olan hər hansı dini qurum dövlət qeydiyyatına alınmayıb, çünki bununla bağlı heç vaxt müraciət daxil olmayıb. Səbəb odur ki, Slavyankada duxoborlar dini icma kimi təşkilatlanmayıblar: dini ənənələr unudulub, dua evi yoxdur, yalnız yasdan-yasa "pasalmı"lar oxunur.

Sonda onu da qeyd edək ki, Slavyankanın rus əhalisinin ehtiyacları daim dövlətin diqqət mərkəzindədir. 2006-cı ilin noyabr ayının 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyeva ilə birgə Slavyanka kəndinə baş çəkməsi, burada yaşayan ruslarla görüş keçirməsi, onların yaşayış şəraiti və ehtiyacları ilə maraqlanması bunun ən bariz sübutudur[25].

25 - Ətraflı məlumat üçün bax: Slavyanka Kəndində Görüşlər [Elektron resurs] // Azərbaycan Dövlət İnformasiya Agentliyi. – URL: http://azertag.az/xeber/SLAVYANKA_KANDINDA_GORUSLAR-360220 (müraciət tarixi: 01.01.2016-cı il).

# MOLOKANLIQ

## Yaranması və sözün etimologiyası

Bu təriqət XVIII əsrin 60-cı illərinin sonunda dövlət kəndliləri arasında meydana gəlmiş, sonradan isə meşşan və tacir təbəqəsi arasında yayılmışdır. Molokanlığın banisi Tambov quberniyasının Borisoqlebsk qəzasının kəndlisi, peşəcə dərzi olan Semyon Matveyev Ukleindir. O, ilk vaxtlar Rus Pravoslav Kilsəsindən ayrılaraq duxoborlara qoşulmuşdur. Duxoborluğun ideoloqu İlarion Pobiroxinin kürəkəni olmuşdur. Sonradan öz təriqətini yaratmış və bir çox duxobor onun ardınca getmişdir. Uklein özünü məsih elan edərək 70 "seçilmiş həvarisi" ilə birgə dini təlimini açıq-aşkar yaymaq və bütpərəstliyi, yəni ikonaları məhv etmək üçün təntənəli surətdə dini nəğmələrin sədaları (psalomlar) altında Tambov şəhərinə daxil olmuşdur. Lakin polis onu həbs edərək zindana atmışdır. Həbsdən canını qurtarmaq üçün o, yalandan pravoslavlığa qayıtmış, beləliklə azadlığa buraxılmışdır. Bundan sonra Uklein öz təlimini daha ehtiyatla təbliğ etmiş, bu məqsədlə Tambov, Saratov, Yekaterinoslav, Həştərxan quberniyalarına baş çəkmiş, ardıcılları isə Kursk, Xarkov, Ryazan, Penza, Nijeqorod, Simbir, Orenburq və Sibirdə molokanlığı yaymışlar[26].

Ukleinin dini təlimini əsasən bu şəxslər təbliğ etmişlər: əsgərlikdən qaçmış İsidor Andreyev, qaçaq düşmüş mülkədar kəndli - İsaiyə Krılov, Nikolay Boqdanov, Nikita İvanov, Terenti Belozerov, Lukyan Petrov, Yevstiqni Yakovlev, Nikofor Filippov[27].

Qeyd edək ki, tarixdə ilk dəfə Ukleinin dini təliminə molokanlıq (rus dilində "süd" mənasına gələn "moloko" sözündən törəmişdir) adını verən Rus Pravoslav Kilsəsinin Tambov ruhani konsistoriyası olmuşdur. Konsistoriya 1765-ci ildə Müqəddəs Sinoda yazdığı donosunda bu istilahdan istifadə etmişdir. Ukleinin ardıcılları pravoslav orucun hökmlərini pozaraq süd içdiklərinə görə konsistoriya təriqətçiləri belə adlandırmışdır. Molokanların özləri isə bu kəliməyə başqa məna vermişlər. Onlar Əhdi-Cədinin *"anadan*

26 - Булгаков С.В. Справочник по ересям, сектам и расколам. – М.: «Современник», 1994. – с. 46 [Elektron resurs]. – URL: http://www.eparhia-saratov.ru/Content/Books/20/125.html (müraciət tarixi: 05.01.2016-cı il).

27 - Смолин И. Краткие исторические сведения о русских сектах и их вероучении. – ***Санкт-Петербург: «Свет», 1911.***

*təzə olmuş çağalar kimi pak ruhani südə susayın ki, bununla bəslənib böyüyərək xilasa nail olasınız" (Peterin birinci məktubu, 2:2)* ayəsinə istinad edərək "moloko" sözünü məcazi mənada işlətmiş və belə izah etmişlər ki, "sözlü südlə" qidalandıqları, yəni İlahi Kəlama məhəbbət duyduqları, inancları süd kimi pak olduqları üçün molokan adını almışlar. Onu da deyək ki, ilk vaxtlar molokanlar özlərini ruhani xristianlar adlandırmışlar[28].

"Molokan" kəliməsinin etimologiyası ilə bağlı başqa variantlar da irəli sürülür. Bəzilərinin fikrincə, "molokan" sözü Tavriya quberniyasında Melitopolsk qəzasının Moloçnaya çayının adından yaranmışdır. Çünki çar Rusiyası dövründə təqiblərə məruz qalan molokanlar buraya sürgünə göndərilmiş və həmin çayın ətrafında molokan yaşayış məskənləri meydana gəlmişdi[29].

Başqa fərziyyələr də səsləndirilir. Məsələn, belə iddia irəli sürülür ki, Qafqaza sürgünə göndərilən molokanların yolda həlak olmaları ("kanut") haqqında çara məlumat veriləndə "kanut" sözündən istifadə olunmuş, rus hökmdarı isə guya cavabında demişdir: *"malo, pust bolşe kanut!"* ("azdır, qoy daha çox yox olsunlar"). Beləliklə, "malo" və "kanut" sözlərinin birləşməsindən "molokanlıq" ifadəsi yaranmışdır[30].

Lakin bu iddialar zəif görünür. Daha əvvəl dediyimiz kimi, molokanlıq sözünü ilk dəfə 1765-ci ildə Tambov ruhani konsistoriyası istifadə etmişdir. Yəni pravoslavlar Ukleinin tərəfdarlarını tənqid mənada belə adlandırmışlar. Görünən odur ki, sonradan molokanların özləri bu kəliməni mənimsəyərək ona müsbət məcazi məna yükləmişlər.

## İnanc əsasları

Rus Pravoslav Kilsəsindəki sui-istifadələrə etiraz hərəkatı olaraq meydana gələn molokanlıqda imanın yeganə mənbəyi Bibliya sayılır. Molokanlığın banisi Uklein bildirirdi ki, Müqəddəs Kitabdan kənarda xilas yolu axtarmaq doğru deyildir. Beləliklə o, Müqəddəs Rəvayəti, yəni Ümumdünya Kilsə Məclislərinin qərarlarını, Müqəddəs Ataların

28 - Смолин И. Указ. соч.; Как возникло молоканство [Elektron resurs]//сайт «О селе Ивановка». – URL: https://ivanovka.net/?p=1713 (müraciət tarixi: 05.01.2016-cı il); **Духовные христиане** (**молокане**) [Elektron resurs]. – URL: http://molokan.narod.ru/index_long.html (müraciət tarixi: 05.01.2016-cı il).

29 - Духовные христиане (молокане)//Там же.

30 - Как возникло молоканство// Там же.

dini təlimlərini inkar edirdi[31].

Molokanlar ruhani instituta, kilsə iyerarxiyasına, rahibliyə qarşı çıxır, ikonalara, müqəddəslərə və onların cəsədlərinə sitayiş etməyi günah sayırlar. Onlar Tanrı ilə insan arasında vasitəçi qəbul etmir, Rəbbin Süfrəsi, Vəftiz, Tövbə kimi əsas kilsə ayinlərini tanımırlar. Bu təriqətin ardıcılları xristian ayinlərin zahiri formalarını qəbul etməyərək onları məcazi mənada yozurlar. Molokanlara görə, vəftiz mərasimi su ilə deyil, İsa Məsihin kəlamlarını öyrənməklə həyata keçirilməlidir. Onların inancına əsasən, Rəbbin Süfrəsi ayinində (Yevxaristiya) təqdis edilmiş çörək və şərabın qəbul edilməsinin heç bir mənası yoxdur. Molokanlar bu ayinə məcazi məna yükləyərək bildirirlər ki, əsl yevxaristiya İsa Məsihin təliminə səmimi-qəlbdən bağlı olmaq və onun əmrlərini yerinə yetirməkdir[32].

Molokanlarda kilsə anlayışı yoxdur. Başqa xristian konfessiyalardan fərqli olaraq, molokanlarda dini icma anlayışı hər hansı sakral məna daşımır və sadəcə imanlıların yığıncağı deməkdir. İbadətləri çox sadədir. Onlar öz ibadətlərini yığıncaq adlandırırlar. Molokanlar əsasən bazar günləri bir yerə yığışır, Müqəddəs Kitabdan, xüsusən Zəburdan ayələri əski rus tərzində aram səslə oxuyurlar. Bu təriqətin inanc əsasına görə, mömin yalnız Bibliyanın kəlamları ilə dua etməlidir. Müqəddəs Kitabın öyrənilməsinə böyük əhəmiyyət verən molokanlar ümumi duadan sonra Bibliyanı şərh edirlər. Onlar Müqəddəs Kitabı məcazi mənada təfsir etməyə üstünlük verirlər. Adətən bu iş molokan icmasına rəhbərlik edən “starets” (ağsaqqal) və ya “presvitera” həvalə olunur, çünki onlar Bibliyanın mükəmməl biliciləri sayılırlar. Lakin molokan icmasında hər kəsin Bibliyanı şərh etmək hüququ var. Göründüyü kimi, molokanlar kilsə iyerarxiyasını tanımasalar da, onların dini icmalarında din xadimi funksiyasını yerinə yetirən və nüfuz sahibi olan şəxslər – presviter və ya staretslər var[33].

Molokanlar Tanrının üç sifətdən – Ata, Oğul və Müqəddəs Ruhdan ibarət olduğuna inanırlar. Ancaq onların inancına əsasən, Tanrının Ata sifəti Oğul və Müqəddəs Ruh sifətlərindən üstündür. Molokanlığa görə, İsa Məsih

31 - Смолин И. Там же.

32 - Смолин И. Указ. соч.; Православие: Словарь атеиста/Под общ. ред. Н.С.Гордиенко. – М.: Политиздат, 1988. – с. 133.

33 - Прокофьев А. Союз духовных христиан – молокан России//Современная религиозная жизнь России: Опыт систематического описания. Том I. – Москва: «Логос», 2004. – с. 283.

insan bədəninə deyil, İsrafil mələyin cisminə bənzər bədənə malik olub. Ona görə də o, adi insanlar kimi dünyasını dəyişməyib, özünəməxsus tərzdə vəfat edib[34].



*Molokan ağsaqqalları. İsmayıllı rayonu, İvanovka kəndi.*

Bu rus təriqətinin ardıcılları inanırlar ki, xeyir əməl işləməklə axirətdə xilas olmaq mümkündür. Onlar Əhdi-Ətiqin hökmlərinə ciddi şəkildə riayət edərək donuz əti, pulcuqsuz balıq yemir, siqaret çəkmir, alkoqollu içkilərdən istifadə etmir, teatr, kino, televiziyaya mənfi münasibət bəsləyirlər[35].

## Molokanlıq Azərbaycanda

Rus imperatoru I Aleksandr taxta çıxdıqdan sonra Pravoslav Kilsəsinin dini ehkamlarını tanımadıqları üçün təqiblərə məruz qalan ruhani xristianlara – molokan və duxoborlara dövlətin münasibəti yumşalır. 1805-ci ildə I Aleksandr tərəfindən imzalanan fərman molokanlara dini etiqad azadlığı tanıyır[36].

Bununla yanaşı, rus sektantlarını pravoslav əhalidən təcrid etmək,

34 - Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. – М.: Издательство Московского университета, 2010. - с. 63.
35 - Yenə orada.
36 - Франчук В. Пробуждение: от центра Одессы до окраин России. – Одесса: «СИМЭКС-ПРИНТ», 2011. – с. 213.

pravoslavlarla təriqətçilər arasında yaranan ixtilafları ortadan qaldırmaq məqsədilə çar hakimiyyəti ruhani xristianlara Tavriya quberniyasının Melitopolsk qəzasında məskunlaşmalarına və burada yaşayış məskənlərini yaratmalarına icazə verir. Beləliklə, 1802-ci ildən başlayaraq həmin quberniyaya molokanlar, duxoborlar və mennonitlər köçür, Moloçnıye Vodı ərazisində ilk molokan məskəni təşəkkül tapır. Duxoborlarla molokanlar özlərini ruhani xristian saysa da, köçürüldükləri yerdə yanaşı yaşamaq istəmirdilər. Çünki molokanlar Bibliyaya hərfən riayət etdikləri halda, duxoborlar insan əli ilə yazılmış Müqəddəs Kitabı tanımırdılar[37].

Çar hakimiyyəti təriqətçiləri köçməyə həvəsləndirmək üçün müəyyən addımlar atırdı. Hər təriqətçiyə 15 desyatin sahəsində torpaq payı verilirdi. Tavriya quberniyasında məskunlaşan molokan və duxoborlar ilk beş il ərzində dövlət vergilərindən azad olunur, hər sektant ailəyə sərfəli şərtlərlə 100 rubl məbləğində pul borc verilirdi[38].

I Aleksandrın hakimiyyəti illərində nisbətən azadlıq əldə edən rus təriqətçilərinin vəziyyəti I Nikolayın taxta çıxması ilə yenidən pisləşir. Bu rus imperatoru müxtəlif sekta ardıcıllarını imperiyanın ən ucqar yerinə - Qafqaza sürgün edir. 20 oktyabr 1820-ci ildə molokanların Qafqaza köçürülmələri barədə I Nikolayın fərmanı çıxır. Qeyd edək ki, molokanlar duxoborlar qədər əziyyət çəkmirdilər. Çar hakimiyyəti başqa sektantlarla müqayisədə molokanlara daha dözümlü yanaşır, Qafqazda daha yaxşı şərait yaradırdı. Çünki duxoborlardan fərqli olaraq, molokanlığın ardıcılları hakimiyyət və pravoslav əhali ilə münaqişəyə girmirdilər[39].

Beləliklə, Qafqaza, o cümlədən Azərbaycana XIX əsrdə staroverlər, skopçular, duxoborlar, molokanlar, subbotniklər kimi müxtəlif təriqətlərin ardıcılları köçürülür. molokanlığın tarixində yeni mərhələ başlayır.

37 - САМАРИНА О. Общины молокан на Кавказе: история, культура, быт, хозяйственная деятельность [Elektron resurs]: диссертация на соискание ученой степени кандидата исторических наук: Северо-Кавказский Государственный Технический Университет: Специальность 07.00.02 – Отечественная история/ Самарина Ольга Ивановна; науч. рук. Невская Т.А. – Ставрополь, 2004. - с. 39-40. – URL: http://dshinin.ru/Upload_Books3/Books/2009-04-05/200904051925291.pdf (müraciət tarixi: 08.01.2016-cı il); Жукова Л. Хлысты, скопцы и молокане: чем они отличаются [Elektron resurs]//сайт Arzamas. – URL: http://arzamas.academy/mag/377-sekti (müraciət tarixi: 08.01.2016-cı il); Клибанов А.И. История религиозного сектантства в России (60-е годы XIX в. – 1917 г.). – Москва: Издательство «Наука», 1965. - с. 124.

38 - САМАРИНА О. Указ. соч. - с. 40.

39 - Франчук В. Указ. соч. – с. 213; Современная религиозная жизнь России: опыт систематического описания. – Москва: «Логос», 2004. - Том I. - с. 279.

Ölkəmizdə məskunlaşan molokanları iki qrupa bölmək mümkündür: Rusiya imperiyasının daxili quberniyalarından məhkəmə yolu ilə sürgünə göndərilənlər və öz arzusu ilə Qafqaz diyarına gələnlər. Maraqlıdır ki, öz istəkləri köçənlərin sayı daha çox idi[40].

Sual yarana bilər ki, könüllü şəkildə Qafqazda məskunlaşan molokanları bu regiona nə cəlb edirdi? Məsələ burasındadır ki, XIX əsrin 30-cu illərində molokanların əllərinə İohann Henrix Yunq-Ştillinqin "Xristian dininin zəfər povesti" ilə tanış olurlar. Həmin əsərdə müəllif iddia edirdi ki, guya 1836-cı ildə Ağrı dağı yaxınlığında İsa Məsih zühur edəcəkdir. Bu ideyanın təsiri altında XIX əsrin 30-cu illərində Samara, Saratov, Həştərxan və Tavriya quberniyalarında molokanların içərisindən "peyğəmbərlər" ortaya çıxdı. Onlar qiyamətin yaxınlaşdığını deyir, İsa Məsihin zühur yerinə daha yaxın olmaq və İlahi Padşahlığı – Yeni Qüdsü qurmaq məqsədilə mübarək torpaqlara, yəni Qafqaza köçməyə səsləyirdilər. Onların çağırışına uyan molokanlar kütləvi şəkildə Qafqaza doğru yol aldılar. İsa Məsihin ikinci gəlişini görmək üçün arabalarla uzun yol qət edən molokanlar böyük coşqu ilə dini mahnılar oxuyurdular[41].



*Rus mühacirləri Muğan düzündə. XX əsrin əvvəli.*
*Rus fotoqrafı Sergey Mixayloviç Prokudin-Qorski.*

40 - Акты, собранные Кавказской Археографической комиссией/ Арх. гл. упр. наместника Кавк.; Под общ. ред. А. Д. Берже. Том XII. – Тифлис, 1904. – с. 552; Юницкий А. Гнёзда сектантства на Кавказе. –Санкт-Петербург: Санкт-Петербургская православная духовная академия, 2009. – с. 146// Опубликовано: Христианское чтение. 1895. №1-2. - с. 142-164.

41 - Клибанов А.И. Указ. соч. – с. 130-131.

Molokanların həm məhkəmə yolu ilə sürgün edilməsi, həm də könüllü şəkildə köçməsi nəticəsində Azərbaycanın müxtəlif yerlərində bu rus təriqətçilərinin yaşayış məskənləri yaranır. Ölkəmizdə ilk molokanlar 1832-ci ildə Qarabağ qəzasının Vərəndə mahalında məskunlaşıblar. Bakı quberniyasında isə ilk molokan yaşayış məskəni 1834-cü ildə Altıağac adlı yerdə meydana gəlib. Burada məskunlaşan təriqətçilər məhkəmə yolu ilə deyil, könüllü surətdə Azərbaycana gəlmişdilər. 1834-1839-cu illər ərzində Altıağacda 1681 nəfər və ya 310 ailə məskunlaşmışdı. Onlar Saratov, Tambov, Orenburq, Vladimir, Tavriya və Bessarabiya quberniyalarından köçmüşdülər. 1840-cı ildə Altıağaca köçənlərin bir qismi Xilmilli molokan kəndini yaradır. Bununla yanaşı, molokanlar tərəfindən Lənkəran qəzasında Nikolayevka (1838) və Prişib (1840), Şamaxı qəzasında Çuxur-Yurd (1843), Mərəzə (1843), Cabanı (1844), Göyçay qəzasında Külüli (1843), Karamaryan (1843) və başqa kəndlərin əsası qoyulur[42].



*Tipik molokan evi. Qobustan rayonu, Hilmilli kəndi.*

42 - Выписка из архивных материалов//Азербайджан и азербайджанцы в мире: культурологический журнал. Религии Азербайджана. № 1. Июнь, 2007 года. – с. 117.

## Azərbaycanda yaranan və ya yayılan molokan təriqətləri

Qafqaza köçdükdən sonra molokanlar müxtəlif təriqətlərə parçalandılar. Maraqlıdır ki, həmin təriqətlərdən bəziləri Azərbaycanda meydana gəldi. Keçmişdə ölkəmizdə yayılan bu molokan təriqətləri ilə tanış olaq.

### *Nazareylər (Nəsranilər)*

Bu təriqət Xilmilli kəndində yaşayan molokanlar arasında 1840-cı illərdə yaranmış, 1850-ci illərdə isə sektanın təəssübkeşləri birdəfəlik ənənəvi molokanlardan ayrılmışlar. Təriqətin banisi Kozma Kabinetov sayılır. Onun təlimini Semyon Qulin, Yakov Vologin və Mixail Severov yaymışlar. Nazareylərin təlimi daha çox Cabanı, Astraxanka, Çuxur-Yurd və Bakı şəhərində yaşayan molokanlar arasında rəğbət görmüşdür. Ən çox nazarey Kazlıçay kəndində yaşamışdır (814 nəfər).

Görəsən nazareylər nəyə inanırdılar? Onlar digər molokanlardan hansı cəhətlərinə görə fərqlənirdilər?

Bu sektanın təəssübkeşləri inanırdılar ki, İsa Məsih hər nazareylidə yaşayır. Onlara görə, İsa Məsihin miladı, əzabları, ölümü və dirilməsi dedikdə, tövbə etmiş günahkarın qəlbində İsa Məsihin doğulması, iztirabı və dirilişini başa düşmək lazımdır. Nazareylərin etiqadlarına əsasən, İsa Məsih yemirdi və içmirdi. Odur ki, İsa Məsihin ruhunu əldə etmək istəyən nazareylər qırx gün oruc tuturdular. Oruc vaxtı çox az miqdarda çörək yeyir və su içirdilər. Duzun istifadəsindən tamamilə qaçınırdılar. Onlar inanırdılar ki, şeytan duz vasitəsi ilə insan bədəninə daxil ola bilər. Nazareylər ət (balıq əti istisna olmaqla), soğan yemir və saçlarını kəsdirmirdilər.

Bu təriqətin ardıcılları intim münasibətlərə, nikah institutuna mənfi münasibət bəsləyir, ruhani institutu tanımır, xaç vurmur, molokan dini mahnılarını oxuyur, ikonalara, müqəddəslərə inanmır, Kabinetov və Qulinləri peyğəmbər sayırdılar. Onlar sağlam həyata və təvazökarlığa çağırır, dini anlayışları məcazi mənada izah edirdilər. Məsələn, onlar ölülərin dirilməsini Rəbbə güclü imanla bağlı olan möminlərin yığıncağı kimi izah edirdilər.

*"İsa Məsihin Lənkəranda zühur edəcəyinə inananlar*

Şəxsi mülkiyyəti tanımadıqları və hər şeyi ortaq istifadə etdikləri üçün bu molokan təriqətinin təəssübkeşlərinə "obşiye" (rus dilində "ümumilər" deməkdir) adı verilmişdir. Təriqətçilər isə özlərini "sionçular" adlandırırdılar. 1830-cu illərdə Samara quberniyasının Nikolayevsk qəzasında yaranmışdır. Bu molokan sektasının banisi Mixail Akinfiyeviç Popov sayılır[43].

1833-cü ildə məhkəmənin qərarı ilə Saratov quberniyasından Qafqaza "ümumilər" təriqətinə mənsub olan 23 molokan ailə köçürülür. Onlar Şamaxı quberniyasının Lənkəran qəzasında Qızılağac poçt stansiyasının yaxınlığında yerləşdirilir. Burada təriqətçilər kommuna şəklində yaşamağa başlayırlar[44].

Beləliklə, "ümumilər" təriqətinin Mixaylovka (Mixail Popovun adı ilə) kəndi yaranır. Sonradan bu kəndin adı çar höküməti tərəfindən dəyişdirilərək Nikolayevka (indi Kalinovka kəndi, Masallı rayonu) qoyulur.

Tezliklə Nikolayevka "ümumilər" təriqətinin mərkəzinə çevrilir. Burada təriqətçilər məktəb açırlar. Məktəbdə təhsil alan 7-12 yaşlı şagirdlər oxumağı və yazmağı, həm də "ümumilər" təriqətinin inanc əsaslarını öyrənirdilər[45].

"Ümumilər" özərini Tanrının yeganə seçilmiş xalqı sayır və tezliklə qiyamət qopacağını gözləyirdilər. Onlar inanırdılar ki, İsa Məsih Lənkəran yaxınlığında Minillik Padşahlığını quracaq və "ümumilər" ilahi səltənətin yeganə varisləri olacaqlar[46].

Təriqətçilər 1843-cü ildə Sibirə sürgünə göndərilən M.Popovu əzabkeş və müqəddəs sayırdılar. Onlara görə, Popov Sibirdən qayıtdıqdan sonra ardıcıllarını əsarətdən qurtarmalı, onları bir yerə toplamalı idi. Bundan sonra minillik İlahi Padşahlıq dövrü başlamalı və burada Popov padşahlıq etməli idi[47].

Qeyd edək ki, 1854-cü ildə Qafqazda ümumilər təriqətinin 645 nəfər (305 kişi və 340 qadın) mənsubu yaşayırdı. Habelə həmin dövrdə Saratov,

43 - Общие молокане [Elektron resurs]// Правда о Католической Церкви. – URL: http://www.apologia.ru/mddb/314 (müraciət tarixi: 30.01.2016-cı il).

44 - Акты, собранные Кавказской Археографической комиссией. - том XII. – с. 545.

45 - Дингельштедт Н. Закавказские сектанты в их семейном и религиозном быту. – Санкт- Петербург: Типография М.М.Стасюлевича, 1885. – с.55.

46 - Акты, собранные Кавказской Археографической комиссией. - том XII. – с. 545.

47 - Yenə orada.

Yenisey və Tomsk quberniyalarında bu sektanın 185 nəfər ardıcılı vardı[48].

Çar hakimiyyəti ümumiləri ən təhlükəli molokan sektası sayırdı, çünki təriqətçilər kommunist ideyalarla çıxış edirdilər. Onlar şəxsi mülkiyyəti tanımır, "ümumi qardaşlıq ittifaqı"nda birləşirdilər. "Ümumilər"də bütün daşınan və daşınmaz əmlak həmin cəmiyyətə məxsus idi. Təriqətçilərin ümumi yaşayış evləri də bu birlik tərəfindən tikilirdi. Sektantlar subaylar, ailəlilər, dul kişi və qadınlar kimi müxtəlif qruplara bölünərək bu ümumi evlərdə otuz, qırx və ya əlli nəfərlik dəstələrlə yerləşdirilirdilər. Bununla yanaşı, "qardaşlıq ittifaqı" mülki və ruhani starşinaları seçirdi. Starşinalar icmaya məxsus təsərrüfat və əmlakı idarə edir, təriqətçilər arasında iş bölgüsü aparırdı[49].

"Ümumilər" təriqətlərini "Məsihin kilsəsi" adlandırır, yaşadıqları zamanı həvarilərin dövrü ilə müqayisə edirdilər. Onlar kilsənin idarə olunması üçün 12 nəfər seçirdilər. Həmin 12 nəfər bu dini rütbələri daşıyırdı: 1) sudya (hakim); 2) jertvennik (qurbangah); 3) rasporyaditel (göstəriş verən); 4) viditel (görən); 5) slovesnik (söz ustadı); 6) çlen (üzv); 7) mıslennik (düşünən); 8) taynik (xəlvətxana) və heç bir xüsusi adı olmayan, qadınların icra etdiyi dörd vəzifə. Bununla yanaşı, təriqətçilər arasında bədən üzvlərinin adına uyğun ləqəblər yayılmışdı[50].

Təriqətçilər "Musanın qanunları"nda haram sayılan qidaları qəbul etmirdilər. Eyni zamanda, tütün, balıq yapışqanı və şəkərin istifadəsindən də qaçınırdılar[51].

### *"Sionçular" və ya "Prıqunlar"*

Rus etnoqrafı N.Dinqelşted "prıqunlar" ("prıqun" rus dilində "hoppanan" deməkdir) təriqətinin banisi kimi Lənkəran qəzasının Andreyevka kəndinin sakini, "ümumilər" təriqətinin üzvü Ukol Lyubavini göstərir. Onun əsl adı Osip Petrov Yudin olub. O, 1840-cı ildə Şamaxı palatasının mülki və cinayət məhkəməsində mirzə işləyib. 1842-ci ildə

48 - Yenə orada. – s. 546.
49 - Акты, собранные Кавказской Археографической комиссией. - том XII. – с. 545; Дингельштедт Н. Указ. соч. – с. 46.
50 - Акты, собранные Кавказской Археографической комиссией. - том XII. – с. 545; Дингельштедт Н. Указ. соч. – с. 46.
51 - Акты, собранные Кавказской Археографической комиссией. - том XII. – с. 545.

pravoslavları molokanlığa cəlb etdiyi üçün həbs olunub, 1845-ci ildə isə cəza çəkmək üçün 62 saylı Sibir nizami batalyonuna göndərilib. Burada o, 1848-ci ilədək hərbi xidmət çəkib. Həmin ilin sentyabr ayında Yudin əsgərlikdən qaçıb və 1849-cu ilin oktyabr ayında Şamaxıya gəlib. 1850-ci ildən Lənkəran qəzasının Andreyevka kəndində Ukol Lyubavin adı altında gizlənib. Ağır xəstələnən Yudin sağaldıqdan sonra 1852-ci ildə İrəvan quberniyasına pul qazanmaq üçün gedib. Həmin quberniyanın Aleksandropol qəzasının Nikitin və Voskresensk kəndlərində olarkən ibadət vaxtı onun bədəni qəribə şəkildə titrəməyə başlayıb. Ekstaz vəziyyətində o, ətrafdakıları tövbəyə çağırıb, qiyamətin yaxınlaşdığını deyib. Belə vəcd halları onda dəfələrlə təkrarlanıb. İlk vaxtlar, yerli molokanlar Yudinin bu halına gülürdülər. Lakin zamanla onun peyğəmbər olduğuna inandılar. Bəziləri isə onu İsa Məsih hesab etdi. Beləliklə, o, yeni molokan təriqətinin yaranmasına səbəb oldu. Artıq 1853-cü ilin yanvar ayında adıçəkilən molokan kəndlərində "prıqunluğun" yayılması barədə xəbərlər yayıldı. Hətta vəziyyət o yerə çatdı ki, bütün Nikitin kəndi və Voskresensk kəndinin bir hissəsi yeni sektaya keçdi. Bu kəndlərdə cərəyan edən hadisələr hakimiyyətin diqqətindən yayınmadı, nəticədə 1853-cü ildə Yudin yeni təriqət yaydığı üçün həbs olundu. O, əsgərlikdən qaçdığı, saxta sənədlər düzəltdiyi, uydurma ad altında gizləndiyi üçün məhkəmə tərəfindən günahkar bilindi. Səkkiz il müddətinə azadlıqdan məhrum olundu. Həmçinin Yudin 500 nəfər əsgərin iki sırası arasından iki dəfə keçirilərək ağacla döyüldü. Daha sonra isə 51 saylı məhbus rotasında cəza çəkmək üçün Stavropola göndərildi[52].

Əslində, ilk "prıqun" Osip Petrov Yudin heç kəsi dini ayin vaxtı tullanmağa dəvət etmirdi. Onun sözlərinə görə, bu ekstaz halı özündən asılı olmadan baş verir, həmin anda bədəni qeyri-ixtiyari titrəyirdi. Bu zaman o, nə dediyinin və nə etdiyinin fərqinə varmırdı. Ümumiyyətlə, Lyubavin yeni dini inanc gətirmədiyini və "obşiye" molokan təriqətinə mənsub olduğunu deyirdi[53].

Buna baxmayaraq, onun fəaliyyəti yeni molokan təriqətinin əsasını qoydu. Bu təriqətin təəssübkeşləri bildirirdilər ki, dini etiqadları Yezekel peyğəmbərin kitabının XIII fəslindən qaynaqlanır. İbadət vaxtı atılıb-

52 - Дингельштедт Н. Указ. соч. – с. 42, 57-58.
53 - Yenə orada. – s. 45; 47.

düşdükləri üçün yeni molokan təriqətinin ardıcılları "prıqunlar", yəni "hoppananlar" kimi məşhurlaşdılar. Lakin onlar özlərinə "ruhani xristianlar" deyiblər[54].

"Prıqunlar" ibadət vaxtı özündən gedənə qədər rəqs edir, əlləri ilə yelləyir, yerə yıxılaraq uzun müddət belə vəziyyətdə qalır, anlaşılmaz səslər çıxarır, ayaqları ilə yerə vururdular. İbadət vaxtı onların bədənləri əsirdi. Sektantların sözlərinə görə, bu qəribə hərəkətləri onlar Müqəddəs Ruhun təsiri altında edirdilər[55].

Qafqazda "prıqunlar" təriqətinin yayılmasında əsas rolu Yelizavetpol qəzasının Novıy Dilijan kəndinin sakini Lukyan Petroviç Sokolov oynayıb. Hətta bəzi mənbələrdə "prıqunluğun" banisi kimi onun adı qeyd olunub[56]. Bu şəxsin təbliğatı sayəsində "prıqunluq" İrəvan quberniyasının Aleksandropol qəzasının sərhədlərini aşıb. 1854-cü ildə o, İrəvan quberniyasının Yeni Bəyazid qəzasının Yelenovka kəndinə gələrək təbliğat aparıb və iki molokan ailəsini "priqunluğa" cəlb edib. Maraqlıdır ki, Yelenovka kəndindəki "prıqunlar" özlərini "Sionun üzvləri" adlandırıblar. Bundan sonra Lukyan Sokolovun ardıcılları "sionçular" kimi məşhurlaşıblar. 1855-ci ildə isə "sionçuluq" Şamaxı quberniyasının Şuşa qəzasında yaşayan molokanlara sirayət edib[57].

Rus tədqiqatçısı Dinqelştedt Yeni Bəyazid qəzasının Konstantinovka kəndində yaşayan "sionçuların" zikr vaxtı necə cuşa gəldiklərini belə təsvir edirdi: onlar hər gecə evlərdə toplaşır, Ruhu çağırır, özlərinə amansızcasına əzab verərək hoppanır, bərk qışqırır, əcaib səslər çıxarırdılar. Təriqətçilər vəcdə gələrək yerə yıxılır, qan gələnədək yerdə çırpınır, əyinlərindəki paltarları cırır, saçlarını yolurdular. "Sionçuların" səbirsizliklə gözlədikləri Ruh uzun müddət nazil olmadıqda, təriqətçilər zahid həyat sürərək onun gəlişini tezləşdirmək istəyirdilər. Onlar 4-5 gün yemir-içmir, özlərini tamamilə ac saxlayır, əldən düşənədək oruc tuturdular[58].

"Sionçular" dini etiqadlarında Bibliya, xüsusən Zəbur kitabına

54 - Yenə orada. – s. 44.
55 - Акты, собранные Кавказской Археографической комиссией. - том XII. – с.546; Дингельштедт Н. Там же. – с. 44.
56 - Акты, собранные Кавказской Археографической комиссией. - том XII. – с.558.
57 - Дингельштедт Н. Указ. соч. – с. 48, 51; Акты, собранные Кавказской Археографической комиссией. - том XII. – с.546.
58 Дингельштедт Н. Там же. – с.49.

əsaslanırdılar. Bununla yanaşı, sektantların dini dünyagörüşləri gizli surətdə yayılan "İtirilmiş və qaytarılmış cənnət", "Ruhun güzgüsü", "Məktub və nəsihətlər" adlı əlyazma kitablarda əks olunmuşdu. Bu təriqətin ardıcılları qiyamətə hazırlaşır, dini vəzifə və rütbələri inkar edirdilər. Təriqətçilər hesab edirdilər ki, kilsənin taleyində Tanrının seçdiyi adamlar, ilahi ruhun təsiri ilə həqiqətləri görən şəxslər böyük rol oynamalıdırlar[59].

"Prıqunlar" tezliklə Tanrı tərəfindən amansız döyüşçünün göndəriləcəyinə inanırdılar. Onların inancına görə, bu ilahi döyüşçü ən çox "obşiye" molokan təriqətinin ardıcıllarını cəzalandırmalı idi, çünki onlar öz içlərindən hakimləri, dini rəhbərləri seçərək qəlblərində Müqəddəs Ruhu öldürmüşdülər. Habelə "sionçuların" etiqadına əsasən, Rəbbin göndərdiyi döyüşçü "prıqunları" üstün mövqeyə gətirməli, bundan sonra Ruh gələrək Sionu, yəni ilahi padşahlığı qurmalıydı. "Sionçular" isə minillik ilahi səltənətdə qanunverici hakimiyyətə və böyük imtiyazlara sahib olmalı idilər[60].

1856-cı ildə "sionçular" ilk dəfə rəsmi şəkildə "prıqunlar" adlandırılıblar. Yenə həmin ildə "prıqunlar" arasında güclü hərəkat meydana gəldi və onlar özlərini "ruhların təriqəti" adlandırmağa başladılar[61]. Bu səbəbdən onların etiqadı "ruh haqda təlim" kimi qeyd olunub[62].

Zaman keçdikcə "prıqunluq" təriqəti İrəvan quberniyasının Yenı Bəyazid və Aleksandropol qəzasında, daha sonra isə Qafqazın başqa yerlərində yaşayan molokanlar arasında yayıldı. Xüsusən Aleksandropol qəzasının Nikitin və Voskresensk kəndlərində yeni təriqət daha çox rəğbət gördü.

## *"Maksimistlər"*

Qeyd etdiyimiz kimi, "prıqunlar" təriqəti İrəvan quberniyasının Yeni Bəyazid və Aleksandropol qəzasında, daha sonra isə Qafqazın başqa bölgələrində yaşayan molokanlar arasında, xüsusən Aleksandropol qəzasının Nikitin kəndində vüsət almışdı. Belə ki, həmin kənddə Maksim Rudomyotkinin rəhbərliyi altında "prıqunlar" təriqətinin özəyi təşəkkül tapmışdı. Komar ləqəbli bu şəxs Lukyan Sokolovun şagirdi olmuşdu. Lakin sonradan ondan ayrılaraq "prıqunların" etiqadlarına əlavələr etmiş, bir çox

59 - Yenə orada. – s. 49-53.
60 - Yenə orada. – s. 51, 53-54.
61 - Дингельштедт Н. Указ. соч. – с. 59.
62 - Акты, собранные Кавказской Археографической комиссией. Том XII. – с. 546.

molokan kəndlərində özünə tərəfdar qazanmış, özünü "ruhların padşahı" elan etmiş və 19 dekabr 1857-ci ildə yaşadığı kənddə, yəni Nikitinoda izdiham qarşısında onun tacqoyma mərasimi keçirilmişdi[63].

M.Rudomyotkin İsa Məsihin minillik padşahlığının 1857-ci ildə qurulacağını xəbər verirdi. Həmin tarixdə gözlənilən hadisə baş vermədikdə, "prıqunlar"ın "padşahı" yeni tarix müəyyənləşdirərək İlahi Padşahlığın 1860-cı ildə qurulacağını deyirdi.



*Maksim Rudomyotkinin evi.*

Bu ilahi səltənəti Sion adlandıran M.Rudomyotkin şagirdləri ilə Sion dağında İsa Məsihi qarşılayacağını və onun birlikdə ilahi səltənətdə min il hökmdarlıq edəcəyini bildirirdi. O, ardıcıllarına Minillik Padşahlıqda xəstəliyin, kədər və əzab-əziyyətin olmayacağını, axirətdə hər tərəfdarına bir və ya iki gənc arvad veriləcəyini vəd verirdi. Ona görə də M.Rudomyotkin evli ola-ola "ruhani arvadlarım" adlandırdığı iki gənc qadın saxlayırdı. "Prıqunlar" bu iki qadını çariçə sayırdılar. Habelə M. Rudomyotkin evli olan tərəfdarlarına "ruhani arvad" almağı məsləhət görürdü. Guya şagirdləri İlahi Padşahlığa "cismani",

63 - Дингельштедт Н. Там же. – с.59, 61; Акты, собранные Кавказской Археографической комиссией. - Тифлис: Типография канцелярии Главноначальствующего гражданскою частью на Кавказ, 1904. Том XII. – с. 558.

yəni əsl arvadları ilə deyil, bu "ruhani" qadınlarla birgə daxil olmalı idilər. Beləliklə, o çoxarvadlılığı təbliğ edirdi. Bununla yanaşı, "prıqunların padşahı" ona itaət etməyənləri ilahi cəza ilə qorxudur və deyirdi ki, onu inkar edənlər Dəccalın təsiri altına düşdükləri üçün çiyinlərində "prıqunları" İlahi Padşahlığa aparmağa məcbur olacaqlar[64].

M.Rudomyotkin insanların cahiliyyindən məharətlə istifadə edirdi. O, Qafqazın bir çox yerlərində yaşayan tərəfdarlarına baş çəkirdi. "Ruhani çar"ın bu səfərləri "prıqunlara" baha otururdu. Çünki M.Rudomyotkini qonaq qəbul edənlər müxtəlif səbəblərə görə "hökmdarlarına" pullar, əşyalar bağışlayır, liderlərinə və onun məiyyətinə qonaqlıq verməyə məcbur olurdular[65].

M.Rudomyotkini səfərlərində 12 nəfərlik heyət müşayiət edirdi. Heyət əsasən gənc oğlan və qızlardan ibarət idi. Oğlanların başında M.Rudomyotkinin sağ və sol əli sayılan Fetiska və Alyoşka, qızların başında isə "ruhani arvadları" – Stepanida və Varvara dururdu[66].

M.Rudomyotkin öz hakimiyyətini göstərmək üçün paltarının sağ çiyninə "Ц", sol çiynində isə "Д" rus hərflərini vurmuşdu. Bu iki hərf rus dilində "ruhların padşahı" mənasına gələn "tsar duxov" ifadəsinə işarə idi. Eyni nişanələri çiyinlərində M.Rudomyotkinin "ruhani arvadları" da daşıyırdı[67].

Habelə "prıqunların" başçısı özünəməxsus mükafatlandırma sistemi fikirləşmişdi. O, səylə dua edən və yaxşı bəxşiş verənləri üçbucaq və dəyirmi möhürlərlə təltif edirdi. Həmin möhürlərin ortasında mükafat alanların adlarının baş hərfi həkk olunurdu. Dəyirmi möhürlər isə ən yaxın silahdaşlara verilirdi. Bundan başqa, hər dua evinin öz möhürü vardı. Lakin M.Rudomyotkin əksər hallarda ardıcıllarını nanə damcılarla ətirlənmiş adi çit dəsmallarla təltif edirdi. Həmçinin əlvan, parıltılı kəmərlərlə mükafatlandırmaq adəti də geniş yayılmışdı. Nəhayət, həyatlarında heç olmasa bir dəfə Ruhun şəfqətli təsirinə düşən təriqətçilər üzərində "D" ("duxovnıy" sözünə işarədir; rus dilində "ruhani" deməkdir) hərfi toxunmuş rəngli parçadan ibarət olan nişanı daşımaq ixtiyarına malik idilər. "Prıqunların" öz "dövlət" bayrağı da vardı. Bayrağın üzərində "günəşin əzəməti" yazısı ilə

64 - Акты, собранные Кавказской Археографической комиссией. Том XII. – с. 558-559.
65 - Yenə orada. – s. 559.
66 - Yenə orada.
67 - Yenə orada.

olan iki qanad rəsmi çəkilmişdi. Bütün səfərlərdə M.Rudomyotkinin yanında daşınan həmin bayraq Nikitino kəndində saxlanılırdı[68].

Bu təriqətdə sərt nizam-intizam hökm sürürdü. M.Rudomyotkin öz ardıcıllarına qarşı zorakılıq tətbiq edirdi. Məsələn, onun yaxın köməkçiləri və ya xidmətçiləri "səhvlərini" etiraf etmək istəməyən kəsin boynuna dəsmal keçirərək "günahkarı" ibadətxananın döşəməsində süründürür, M.Rudomyotkinin özü isə "tövbə et", deyərək əmr edirdi. Döyülən "günahkar" canını qurtarmaq üçün tövbə əlaməti olaraq pul və ya əşya bağışlayır, habelə M. Rudomyotkinə və məiyyətinə qonaqlıq verirdi[69].

Təriqətin əcaib inanc və dini ayinləri bununla bitmirdi. Misal üçün, ibadət zamanı "prıqunlardan" biri kürəklə zir-zibili bir yerə yığır, daha sonra təriqətçilər "prıqun" olmayan hər kəsə lənət yağdıraraq rəqs oynayır və həmin zibil yığınını yandırırdılar. Yaxud başqa qəribə dini ayindən misal çəkək. İbadət zamanı təriqətçi qadın kişinin belinə minir və onun üstündə gəzirdi. Guya bu dini ayin Məryəm Ananın Misirə qaçışını təcəssüm etdirirdi[70].

Zaman keçdikcə M. Rudomyotkinin iddiası daha da böyüyür. O, əmr edir ki, Qafqazdakı bütün "prıqunlar" hər il gəlirlərinin onda birini ona versinlər. Hakimiyyətinin qüdrətini göstərmək üçün isə M.Rudomyotkin 1858-ci ildə evinin həyətində böyük dirək ucaltmaq fikrinə düşür. Onun tapşırığına əsasən "prıqunlar" böyük dirək düzəldir və iki üçbucaq bayraq hazırlayırlar. Onlar bayraqları dirəkdən asmaq istəyirdilər. Bayraqların üzərində qəribə işarələr, dirəyin "möcüzəli" və "ilahi" gücündən, minillik padşahlıqdan xəbər verən yazılar vardı. Lakin təriqətçilərin niyyətləri baş tutmur. Yerli çar məmurları böyük dirəyi təriqətçilərdən müsadirə etdiklərinə görə "prıqunlar" əvvəlkindən çox kiçik olan dirək ucaltmağa məcbur qalırlar[71].

Dirək hadisəsindən sonra M.Rudomyotkin həbs olunaraq Solovetsk monastırının zindanına atılır. Burada doqquz il ağır şəraitdə saxlanılaraq 1869-cu ildə Spaso-Yefimyev monastırının nəzdindəki Suzdal qalasına köçürülür. Həmin qalada M.Rudomyotkin vəfat edənədək (1877-ci il) həbsdə saxlanılır. Ehtimal olunur ki, o, öz əcəli ilə dünyasını dəyişməyib. Ümumiyyətlə, çar

68 - Дингельштедт Н. Указ. соч. – с.75.
69 - Акты, собранные Кавказской Археографической комиссией. Том XII. - s.559.
70 - Yenə orada.
71 - Акты, собранные Кавказской Археографической комиссией. Том XII. - s.559; Дингельштедт Н. Указ. соч. – с. 68-71.

Rusiyası dövründə “prıqunluğun” əsas simaları məhv edilib[72].

M.Rudomyotkinin təlimi, dini şerləri və duaları “Günəş Kitabı”nda əks olunub. Həmin kitab əsas molokan əsərləri ilə birgə “Ruh və həyat. Günəş Kitabı” məcmuəsini təşkil edir[73].

XX əsrin 20-ci illərində M.Rudomyotkinin ardıcılları başqa “prıqunlardan” ayrılaraq “maksimistlər” kimi tanınıblar. “Maksimistlər” sözü Maksim Rudomyotkinin adından yaranmışdır. Sovet hakimiyyəti dövründə “maksimistlər” kolxoz və sovxozlara daxil olmur, övladlarına pioner qalstuku bağlamağa qoymurdular[74].

Nazirlər Kabineti yanında Dini İşlər İdarəsinin arxivində[75*] ötən əsrin 90-cı illərində “maksimist”, ümumən, “prıqunların” statistikası ilə bağlı maraqlı məlumatlar mövcuddur. Belə ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən qeydiyyatsız dini təşkilatların (xristian) 01.07.1995-ci il tarixli siyahısına əsasən, Bakı şəhərinin Nəsimi rayonunda – təqribən 25 nəfər, Oğuz rayonunun Vladimirovka kəndində - 15 nəfər, Oğuz rayonunun Böyük-Söyüdlü kəndində - 27 nəfər, Gədəbəy rayonunun Novoivanovka kəndində - 22 nəfər, Gədəbəy rayonunun Novosaratovka kəndində - 59 nəfər, Tər-Tər rayonunun Rus Borisi kəndində - 40 nəfər “prıqun” yaşayırdı. Bununla yanaşı, Gədəbəy rayonunun Novoivanovka kəndində - 23 nəfər “maksimist” vardı.

Hazırda respublikamızda nə qədər “prıqun” və “maksimistin” yaşadığı məlum deyil. Ola bilər ki, bu təriqətin ardıcılları qalmayıb, çünki əvvəllər onların hamısı ahıl yaşında olublar. Ehtimal ki, təriqətçilər dünyasını dəyişərək özündən sonra davamçı qoymayıblar.

*“Vodniye molokane”*

XIX əsrin 40-50-ci illərində Bakı quberniyasının Lənkəran və Şamaxı qəzasında yeni bir molokan təriqəti ortaya çıxır. Əsas xristian ayinlərinə məcazi məna verərək onlara riayət etməyən digər molokanlardan fərqli olaraq, bu təriqət üzvləri vəftiz olunurdular. Ona görə də onları “vodniye molokane” (hərfən tərcümə edəndə “su molokanları” deməkdir; yəni xaç

---

72 - Авраам Шмулевич. МОНИТОРИНГ СМИ: Русская религия: царь духов и вождь сионского народа// «РУССКИЙ ЖУРНАЛ», 12 февраля 2007 г. [Elektron resurs]. – URL: http://www.portal-credo.ru/site/?act=news&id=51856 (müraciət tarixi: 26.01.2016-cı il).

73 - Авраам Шмулевич//Там же.

74 - Авраам Шмулевич//Там же.

75 - * Arxiv Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qorunur.

suyundan keçmək ayinini tanıyırdılar) adlandırırdılar. Həmin təriqətin təliminə əsasən, yalnız yetkinlik yaşına çatmış şəxslər xaç suyuna salmaq olardı. Qeyd edək ki, "Vodniye molokane" təriqətinin təlimi XIX əsrin 60-cı illərində Bakı quberniyasından Həştərxana, daha sonra isə Rusiyanın mərkəzi quberniyalarına yayılıb[76].

## Çar Rusiyası dövründə molokanların sosial-iqtisadi həyatı

Gördüyümüz kimi, XIX əsrdə Qafqaza, eləcə də Azərbaycana köçdükdən sonra molokanlar müxtəlif təriqətlərə parçalandılar. Bu təriqətin ardıcılları qürbətdə öz aralarında birliyi qoruya bilməsələr də, yeni vətən qazanaraq cəmiyyətimizə uğurla adaptasiya oldular. Ölkəmizdə kənd təsərrüfatının inkişafına töhfə verərək ticarət sahəsində uğur qazandılar. Onların arasından zəngin tacirlər, iri fabrik və torpaq sahibkarları çıxdı (məs.: Bakıda un və yarma istehsalçıları olan Skobolev qardaşları, iri gəmi sahibkarları olan Kolesnikovlar, varlı Koşeyevlər ailəsi və s.).

Bakı şəhərində molokanlar ticarət aparmağa üstünlük verirdilər. Onlar burada kənd təsərrüfatı məhsullarını satır, şəhər daxilində, eləcə də şəhərdən kənara (Tiflis, Batumi və s.) iri at arabalarla yük daşıyırdılar[77].



*"Molokan bağı"nın əski fotoşəkli (indiki Xaqani bağı).*

---

76 - «История евангельских христиан-баптистов в СССР». - Москва: Издание всесоюзного совета евангельских христиан-баптистов, 1989. - с.42.

77 - История молокан Азербайджана [Elektron resurs]//сайт «О селе Ивановка». – URL: https://ivanovka.net/?p=687 (müraciət tarixi: 25.01.2016-cı il).

XIX əsrin 50-60-cı illərində əsasən Şamaxı qəzasından gələn molokanlar İçərişəhərin yaxınlığında, Bakının kənarında qəsəbə salırlar. O zamanlar neft məhsullarının nəqliyyatı üçün iri taxta çəlləklərə ehtiyac var idi. Bu işi üzərinə götürən molokan qəsəbəsinin sakinləri həmin çəlləkləri düzəltməyə başlayırlar. Çəlləklər düzəldilərkən taxta detalları islatmaq lazım gəlirdi. Ona görə də qəsəbədəki çoxsaylı emalatxanaların qarşısında qazılan quyular daim su ilə dolu olurdu. Quyulardakı sular uzun müddət dəyişilmir, üfunət qoxusu verir və malyariya xəstəliyinin mənbəyinə çevrilirdi[78].

İlk vaxtlar Bakının kənarı sayılan molokan qəsəbəsi zamanla şəhər mərkəzinə çevrilir. 1872-ci ildə şəhər qubernatoru V.Pozen üfunət qoxusu verən qəsəbəni mərkəzdən "Zavaqzalnı" tərəflərə (dəmiryolu vağzalının arxasındakı ərazilər) köçürməyə, qəsəbənin yerində isə gözəl bağ salmağa qərar verir. Bakılılar arasında bu yer indiyədək "Molokan bağı" adı (indiki Xaqani bağı) ilə tanınır[79].

## Sovet hakimiyyəti illərində molokan icmaları

20 aprel 1920-ci ildə Azərbaycanda zorla sovet hakimiyyət hakimiyyəti qurulduqdan sonra dinlə mübarizə, allahsızlığın təbliği dövlət siyasəti səviyyəsinə qaldırıldı, materialist nöqteyi-nəzərdən çıxış edən marksizm-leninizm fəlsəfəsi dövlət ideologiyası oldu. Təbii ki, bu hal ölkənin dini həyatına, dindarların fəaliyyətinə mənfi təsir göstərdi. Dini kimliyindən asılı olmadan bir çox din xadimi güllələndi və həbsə atıldı, ibadət yerləri bağlandı və ya dağıdıldı.

Təbii ki, molokan dini icmaları da dini həyatlarında sıxıntı və çətinliklərlə üzləşdilər. Qanlı repressiya illərində molokan icmalarının ən fəal üzvləri həbs olundu, bəziləri güllələndi[80].

İkinci dünya müharibəsinin qopması ilə qanlı Stalin rejiminin dinə münasibəti bir qədər yumşaldı, molokan icmaları müəyyən qədər fəallaşdı. Müharibə illərində və ondan sonrakı dövrdə molokan dua evlərinə gələnlərin sayı artdı. Hətta 1955-ci ildə Bakıdakı molokanlar rus çarı I Aleksandr tərəfindən molokanlara dini azadlığın verilməsinin 150

78 - История молокан Азербайджана//Там же.
79 - История молокан Азербайджана//Там же.
80 - История молокан Азербайджана//Там же.

illiyinə həsr olunmuş qurultay da keçirdi[81].

Lakin zaman öz sözünü deyirdi. Cəmiyyətin müasirləşməsi, elmi-texnoloji tərəqqi, molokan kəndlərində dünyəvi məktəblərin açılması və təhsil səviyyəsinin yüksəlməsi ənənəvi molokan həyatını pozurdu. Molokan ailələrdən çıxmış gənclər dini ənənələrindən uzaqlaşır, molokanlığın rüknlərinə riayət etmir, müasir cəmiyyətə uyğunlaşır, ali təhsil alır, karyera qurur, dünyəvi həyat sürməyə üstünlük verir, beləliklə dini kimliklərini unudurdular. Burada ateist təbliğatın da öz təsiri vardı. Artıq onları molokan saymaq olmazdı, çünki molokanlıq bir dini dünyagörüşü və yaşayış tərzidir. Molokanlıqdan başqa xristian cərəyanlarına, xüsusən baptizmə keçmək halları da artmışdı. Bəzi molokanlar isə pravoslavlığı qəbul edirdi. Bir sözlə, molokanlığın dayaqları sarsılmışdı. Qısası, Sovet hakimiyyəti illərində molokan dua evlərinə əsasən ahıl yaşda insanlar gəlirdi[82].

## Müasir vəziyyət

18 oktyabr 1991-ci ildə Sovet hakimiyyətinin ateist buxovlarından qurtulan və dünyəvi, demokratik, hüquqi dövlət quruculuğuna qədəm qoyan ölkəmizdə bütün din və konfessiya nümayəndələri, o cümlədən yerli molokanlar üçün geniş imkan və şərait yaradıldı. Məsələn, Ulu Öndər Heydər Əliyevin göstərişi ilə molokanların kompakt halda yaşadıqları İsmayıllı rayonunun İvanovka kəndində kolxoz kənd təsərrüfatı sistemi saxlanıldı[83]. Bu isə kənd sakinləri üçün həyati əhəmiyyət kəsb edən qərar idi. Çünki Nikolay Vasilyeviç Nikitinin adını daşıyan həmin kolxozun sayəsində molokan icması varlığını qoruya bildi. Təsadüfi deyildir ki, bu gün İvanovka kəndi ekoloji cəhətdən təmiz olan kənd təsərrüfatı məhsulları ilə məşhurdur.

2005-ci il respublikamızda yaşayan molokanlar üçün xüsusən yadda qalan olmuşdur. Həmin ilin yayında ölkəmizdəki molokan icmaları molokanların Azərbaycana köçürülməsinin iki yüz illiyini təntənəli surətdə qeyd etmişlər[84].

81 - История молокан Азербайджана//Там же.

82 - История молокан Азербайджана//Там же.

83 - Azərbaycan Respublikası İsmayıllı Rayon İcra Hakimiyyətinin rəsmi saytı. – URL: http://ismayilli-ih.gov.az/page/46.html#2 (müraciət tarixi: 25.01.2016-cı il).

84 - В Чухурюрде торжественно отмечено 200-летие переселения молокан в Азербайджан. – URL: http://news.day.az/society/28889.html (müraciət tarixi:25.01.2016-cı il).

Müasir Azərbaycanda molokanların dini həyatına gəlincə, ilk öncə onu qeyd edək ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində aşağıdakı molokan dini icmaları yenidən dövlət qeydiyyatına alınmışdır:

1. Bakı şəhəri “Molokan ruhani-xristian” dini icması (2009-cu il).
2. Sumqayıt şəhəri “Molokan ruhani-xristian” dini icması (2009-cu il).
3. Qobustan rayonu Hilmilli kəndi “Molokan ruhani-xristian” dini icması (2010-cu il).

Bununla yanaşı, 2015-ci ildə İsmayıllı rayonu İvanovka kəndi “Molokan-ruhani-xristian” dini icması dövlət qeydiyyatından keçmişdir[85].



*Molokan dua evi. İsmayıllı rayonu, İvanovka kəndi.*

Qeyd edək ki, 2011-ci ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Nazirlər Kabinetinin qərarı ilə hər il dövlət büdcəsindən müsəlman və qeyri-müsəlman dini qurumlarına, o cümlədən molokan dini icmalarına maliyyə yardımı ayrılır.

Bu azsaylı dini qrupun fəaliyyəti üçün bütün imkanlar yaradılsa da, molokan dini icmalarının sayında azalma baş verir. Təqribi hesablamalarımıza görə, ölkə üzrə molokan dua evilərinə bazar günləri müntəzəm gələnlərin ümumi sayı 200 nəfəri keçmir. Belə ki, İsmayıllı rayonunun İvanovka

85 - Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı. – URL: http://scwra.gov.az/pages/96/? (müraciət tarixi: 26.01.2016-cı il).

kəndində hər bazar günü dua evinə təqribən 90-120 nəfər, Bakıda təqribən 30-50 nəfər, Qobustan rayonunun Hilmilli kəndində 14 nəfər, Şamaxı rayonunun Çuxuryurd kəndində 15 nəfər gəlir. Onların da mütləq əksəriyyətini yaşlı insanlar təşkil edir.



*Molokan dua evi. Bakı şəhəri.*

Hazırda respublikamızda yaşayan molokanlar "postoyannıye" adlı molokan qoluna mənsubdurlar. "Postoyanniye" rus dilindən tərcümədə "sabitlər", "dəyişməzlər" deməkdir. Bu təriqətin təəssübkeşləri molokanlığın banisi Semyon Ukleinin dini təliminə sadiq qaldıqları, dində əlavələri qəbul etmədikləri üçün belə adlandırılmışlar.

Sonda onu da vurğulayaq ki, molokanların sayında azalma tendensiyası təkcə respublikamızda deyil, başqa ölkələrdə də müşahidə olunur. Əslində bu təmayül hələ çar Rusiyası dövründə başlamışdı. Belə ki, o vaxtlar molokanların baptizmə, adventizmə, pravoslavlığa və başqa xristian məzhəblərinə keçmə halları geniş yayılmışdı. Molokanlığın zəifləmə səbəblərindən biri odur ki, bu dini təriqətin təəssübkeşləri missionerliklə məşğul olmur, qapalı icma halında yaşayır və müasir dünyaya uyğunlaşmırlar. Məsələn, onlar hələ də əski rus kəndli libasları geyinirlər. Dindarları birləşdirə biləcək, onlar arasında nizam-intizamı qoruya biləcək, təriqətin inkişafına istiqamət verə biləcək bir dini təşkilatın olmaması da molokanlığın zəifləmə səbəblərindən biridir.

Görünən odur ki, molokanların sayı zaman keçdikcə daha da azalacaq və bu rus təriqəti bir dini fenomen kimi tarixə qovuşacaqdır.



*Dövlət başçısı İlham Əliyev və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Məhsul bayramında. İsmayıllı rayonu, İvanovka kəndi. 29 oktyabr 2009-cu il.*



*Bakıda keçmiş molokan dua evi. Çar Rusiyası dövründə molokanların lideri Serebryannikov tərəfindən tikilmişdir.*

# V FƏSİL

## PROTESTANTLIQ

## Ümumi məlumat

*«Siz məndən sadə cavab istəyirsinizsə, mən onu sizə verərəm. Mən Müqəddəs Kitab və qəti dəlillərlə mühakimə olunmamışam. Mənim vicdanım Allahın əlindədir və heç nədən imtina edə bilmərəm. Çünki vicdana qarşı getmək mümkün deyil. Başqa cür edə bilmərəm, Allah mənə kömək olsun»*

*M.Lüter*

31 oktyabr 1517-ci ildə alman ilahiyyatçısı Martin Lüter Saksoniya knyazlığının inzibati mərkəzi -Vitenberqdə "95 tezislər"ini hazırlayır. Latın dilində yazılan tezislərində o, Roma Katolik Kilsəsində geniş yayılan sui-istifadə hallarına, cənnət qəbzinin (indulgensiya) satışına qarşı çıxır, keşişlərin Tanrı ilə insan arasında vasitəçi ola bilməyəcəklərini, Allah tərəfindən Roma Papasına insanların günahlarını bağışlamaq imtiyazı verilmədiyini bildirir, beləliklə Katolik Kilsəsində islahatların aparılmasını tələb edirdi[1].

Əslində, onun yeni bir məzhəb yaratmaq fikri yox idi. Lakin 1520-ci ildə Roma Papası M.Lüteri bidətçi elan etdi, Müqəddəs Roma imperiyasının imperatoru V Karl isə 1521-ci ildə "Vorms edikti" ilə onu cinayətkar adlandırdı. Buna baxmayaraq, bəzi alman knyazları M.Lüterin tərəfini tutdular. Saksoniyanın kurfüstü III Fridrix ona himayəçılik etdi. 1529-cu ildə 2-ci Şpeyer reyxstaqı M. Lüteri cinayətkar sayan "Vorms edikti"ni təsdiqlədi. Onda Lüterin tərəfdarları - altı alman knyazı və on dörd azad şəhər etiraz olaraq "Şpeyer protesti" adlı sənəd hazırladı və reyxstaqa təqdim etdi. Və bundan sonra həmin sənədin adına uyğun olaraq Roma Katolik Kilsəsində islahatların aparılmasına tərəfdar çıxanlar "etiraz edənlər" mənasına gələn protestantlar adlandırıldılar[2].

---

1 - Игнатенко Е. Протестанты – кто они? История протестантских церквей г. Комсомольска-на-Амуре. - Комсомольск-на-Амуре, 2012. – с. 5.
2 - Игнатенко Е. Указ. соч. – с. 5-6.



*Lüter Vorms seymində. A. fon Vernerin rəsm əsəri. 1877-ci il.*

Beləliklə, alman rahibi və ilahiyyat üzrə doktor M.Lüter XVI əsrdə Qərbi Avropada Katolik Kilsəsi əleyhinə dini, ictimai-siyasi hərəkatın meydana gəlməsinə, eləcə də Xristianlığın yeni qolu – protestantlığın yaranmasına səbəb oldu. Reformasiya hərəkatının yaranması ilə Qərb aləmini qanlı məzhəblərarası müharibə bürüdü. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, 24 avqust 1572-ci ildə Parisdə təqribən 30 min protestant (qugenot) katoliklər tərəfindən qətlə yetirildi.

Zaman keçdikcə protestantlığın özü də müxtəlif istiqamət və təriqətlərə bölündü, bır sıra Qərb dövlətlərində hakim mövqeyə yüksəldi. Qeyd edək ki, günümüzdə protestantlıq sayca Xristianlığın ikinci ən böyük qoludur. Dünyada təqribən 2,2 milyard xristian yaşayır ki, onlardan 800 milyondan çoxu protestantdır[3].

## Quinque sola

Protestantlıq olduqca mürəkkəb, rəngarəng və çoxcəhətli xristian qoludur. Müasir dünyada bu dini istiqamət lüteranlıq, reformatorluq kimi tarixi protestant məzhəblərdən tutmuş çoxsaylı yeni dini cərəyan və təriqətlərə bölünüb. Lakin onların hamısını beş protestant inanc əsası birləşdirir. Həmin əsas etiqadi prinsiplər latın dilində "Ancaq Beş" mənasına gələn "Quinque

3 - http://internetsobor.org/tserkov-i-mir/tserkov-i-mir/statistika-v-mire-2-2-milliarda-khristian-polovina-iz-nikh-katoliki (müraciət tarixi: 20.08.2016-cı il).

sola" (lat. "quinque" – "ancaq", "sola" – "beş") adlanır. Bu beş protestant ehkamı bunlardır[4]:



M. Lüter. Rəssam Luka Kranax. 1525-ci il.

1. *Sola Scriptura - "Ancaq Müqəddəs Kitab"*. Bu prinsipi irəli sürən M.Lüter Roma Katolik Kilsəsinin nüfuzunu inkar edərək bildirirdi ki, dini ehkam və təcrübələr Müqəddəs Kitabdan qaynaqlanmalıdır. Yəni protestantlar imanın yeganə qaynağı kimi Bibliyanı qəbul edir və ilahi kəlama uyğun gəlməyən kilsə ənənəsini, müqəddəs rəvayətləri, kilsə atalarının dini təlimlərini tanımırlar.

2. *Sola fide – "Ancaq imanla"*. Bu prinsiplə protestantlar bildirirlər ki, fərd ilahi lütfə və fəzilətli həyata dini qanunlara riayət etməklə deyil, yalnız İsa Məsihə iman etməklə nail ola bilər.

3. *Sola gratia – "Ancaq ilahi lütflə"*. Bu prinsip onu göstərir ki, insan yalnız ilahi lütf sayəsində xilas olur, yəni günahkar bəndə layiq olduğu üçün xilas olmur, Rəbbin mərhəməti səbəbilə nicat tapır.

4. *Solus Christus – "Ancaq Məsih"*. Yəni Tanrı ilə insan arasında vasitəçi yalnız İsa Məsih ola bilər.

5. *Soli Deo gloria – "Ancaq Tanrı tərifə layiqdir"*. Bu protestant prinsipi onu göstərir ki, yalnız Tanrıya sitayış etmək və pərəstiş göstərmək lazımdır.

Yuxarıda sadalanan prinsiplərdən göründüyü kimi, protestantlar Müqəddəs Kitabı imanın yeganə mənbəyi sayırlar. Onlara görə, Kilsə Atalarının dini təlimləri, Ümumdünya Kilsə Məclislərinin qərarları, Papaların hökmləri mütləq həqiqət deyildir. Protestantlar üçün yeganə həqiqət qaynağı, vəhy məhsulu - Müqəddəs Kitab, xüsusən İncildir. Odur ki, protestantlar Müqəddəs Kitabın öyrənilməsinə böyük əhəmiyyət verir, ilahi kəlam insanlar üçün əlçatan olsun deyə, Bibliyanı milli dillərə tərcümə edirlər[5].

Katolik və pravoslavlardan fərqli olaraq, protestantlar ruhanilərin Allah ilə insan arasında vasitə ola bilməyəcəklərini bildirir, Tanrı tərəfindən din xadimlərinə hər hansı xüsusi imtiyazın verilmədiyini və keşişlərin adi

4 - Игнатенко Е. Там же. – с. 7; Marcus Braybrooke. Beacons of the light: one hundred people who have shaped the spiritual history of humankind. – Hants: John Hunt Publishing Ltd., 2009. – p. 341.

5 - Игнатенко Е. Указ. соч. – с. 7-8.

dindarlardan fərqlənmədiklərini deyirlər. Protestantlarda "ümumi ruhanilik", deyilən prinsip var. Həmin prinsipə görə, istənilən məsihçi dini ayinləri keçirə bilər. Ona görə də kilsəni ruhani sinfə və dünyəvilərə bölmək düzgün deyildir[6].

Protestantizmin ardıcılları Müqəddəs Üçlüyə inanır və yeddi müqəddəs xristian ayinindən yalnız ikisini (vəftiz və Rəbbin Süfrəsi) qəbul edirlər. Eyni zamanda, protestantlar xaç, ikona kimi dini rəmzlərə və ya təsvirlərə, müqəddəs cəsədlərə, ümumiyyətlə, müqəddəslərə pərəstiş etməyi günah sayırlar. Əsas dini ibadətləri bazar günləri yerinə yetirilir. Dini mərasimləri olduqca sadədir. İbadətləri moizədən, instrumental musiqinin müşayiəti altında keçirilən dini nəğmələrdən, öz sözləri ilə deyilən, improvizasiya olunmuş dualardan, dini şerlərin oxunmasından ibarətdir. Protestant kilsələrdə din xadimi funksiyasını dini icmanın seçdiyi presviter (pastor və ya vaiz) yerinə yetirir. Lakin dediyimiz kimi, onlar hər hansı üstünlüyə malik deyilllər. Sadəcə dini icmanın ağsaqallıdırlar. Yəni icmada istənilən kəs presviter seçilə bilər[7].

Onu da deyək ki, protestantlar əqidə cəhətdən iki qrupa bölünürlər: kalvinistlər və arminianlar. Kalvinistlər fransız ilahiyyatçısı J.Kalvinin, arminianlar isə hollandiyalı ilahiyyatçı Yakob Arminiyin qəza və qədər, insanların xilası barədə dini təlimlərinə etiqad bəsləyirlər. Bu dini təlimlərin əsas məqamları Sxem 1-də göstərilib.

***Sxem 1. Kalvinist və arminianlar arasında etiqadi fərqlər***

| Kalvinistlər | Arminianlar |
|---|---|
| • İsa Məsih seçilmiş insanların xilası naminə göndərilib<br>• İnsanda iradə azadlığı yoxdur | • İsa Məsihə iman edən hər kəs xilas olacaqdır<br>• İnsana Tanrı tərəfindən iradə azadlığı verilib |

6 - Yenə orada. – s. 8.
7 - Игнатенко Е. Указ. соч. – с. 8.

## Azərbaycanda protestantlıq: sxematik təsvir

Ölkəmizdə protestantlığın zəngin və maraqlı tarixi var. Təkcə onu qeyd etmək kifayətdir ki, rus baptizminin əsas formalaşma mərkəzlərindən biri Azərbaycan olub. Protestantlıq burada 1819-cu ildən, yəni alman məskənlərinin salınması vaxtından təşəkkül tapmağa başlayıb. Hazırda respublikamızda protestantlığın lüteranlıq, presviterianlıq kimi tarixi məzhəblərinin nümayəndələri, eləcə də əllincilik, xarizmatlıq kimi yeni protestant istiqamətlərinin ardıcılları yaşayırlar (bax: Sxem 2). Hesablamalarımıza görə, Azərbaycanda mövcud olan protestant dini icmaların üzvlərinin ümumi sayı təqribən 6100-6300 nəfərdir.

*Sxem 2. Azərbaycanda protestant istiqamət və denominasiyalar*




Qeyd edək ki, Azərbaycanda protestant məzhəblər özünəməxsus inkişaf mərhələsindən keçmişdir. Belə ki, ölkəmizdə protestantlığın təşəkkül tapması prosesində molokanlıq münbit zəmin rolunu oynamışdır. Deyilənləri daha aydın başa düşmək üçün Sxem 3-ə müraciət edək.

*Sxem 3. Azərbaycanda əsas protestant cərəyanların təşəkkülü*



Sxem 3-dən göründüyü kimi, Azərbaycanda XIX əsrin 30-40-cı illərində salınan molokan məskənlərinin bazası əsasında 1871-ci ildən etibarən rus baptizmi formalaşmışdır. Sovet hakimiyyəti dövründə 1932-ci ildən başlayaraq yerli baptistlər arasında əllincilik dini hərəkatı vüsət almışdır.

Azərbaycanda protestantlığın tarixindən danışarkən əcnəbi missionerlərin təbliğatlarına toxunmaq lazımdır, çünki məhz onların fəaliyyəti nəticəsində ölkəmizdə protestantlıq intişar tapmışdır. Ölkəmizə ilk gələn protestant missionerləri "Bazel Cəmiyyəti" tərəfindən göndərilmişlər. XIX əsrin əvvəllində çar Rusiyası dövründə Azərbaycana ayaq basan Bazel missionerləri milliyyətcə alman olmuşlar. Onlar protestantlığın lüteran məzhəbini yaymışlar. Bazel təbliğçilərindən sonra da Azərbaycanda missionerlər fəaliyyət göstərmişlər. Onları üç qrupa bölmək mümkündür:

1. Rus-Ukrayna missionerləri.
2. Qərbli missionerlər.
3. Cənubi Koreyalı missionerlər.

Həmin missionerlərin dini təbliğatları nəticəsində nə vaxt, hansı dini cərəyanların meydana gəldiyi barədə ümumi fikir formalaşdırmaq üçün Sxem 4-ə müraciət edək.

***Sxem 4. Müxtəlif tarixi dövrlərdə Azərbaycanda fəaliyyət göstərmiş protestant missionerləri***

| Rus - Ukrayna missionerləri | Qərbli missionerlər | Cənubi Koreyalı missionerlər |
|---|---|---|
| • Şərq Baptizmi (XIX əsr)<br>• Ənənəvi əllincilik (XIX əsr) | • Lüteranlıq (XIX əsr)<br>• Xarizmatizm (XX əsrin 90-cı illəri)<br>• Denominasiyasız Xristianlıq (XX əsrin 90-cı illəri) | • Presviterianlıq (XX əsrin 90-cı illəri).<br>• İlk presviterian missionerlər hələ çar Rusiyası dövründə fəaliyyət göstərsə də, onların təbliğatı bir nəticə verməmişdir. Odur ki, bu məzhəbin təməli müasir Azərbaycanda Cənubi Koreyalı missionerlər tərəfindən atılmışdır. |

Azərbaycanda protestantlığın keçmişinə, inkişaf mərhələsinə qısaca nəzər yetirdikdən sonra hazırda respublikamızda mövcud olan protestant cərəyan və denominasiyalara dair aşağıdakı cədvəl şəklində ümumi məlumat vermək məqsədəuyğun olardı.

***Cədvəl 1. 2016-cı ildə Azərbaycan Respublikasındakı protestant cərəyanları və denominasyıları***

| Dini cərəyan/ denominasiya | Azərbaycanda yayılma tarixi | Yayılma arealı | Əqidə | Kilsə idarə sistemi | Say |
|---|---|---|---|---|---|
| Lüteranlıq | *XIX əsrin əvvəli* | *Bakı* | - | *Yepiskopal* | *80 nəfər* |
| Baptizm | *1871-ci il* | *Bakı, Sumqayıt, Gəncə, Şamaxı,Şirvan Zaqatala, İsmayıllı, Gədəbəy* | *Arminian* | *Konqreqatsionalist* | *Təqribən 1100 nəfər* |
| Yeddinci Günün Adventistləri | *1894-cü il* | *Bakı, Gəncə, Tovuz, Naxçıvan, Gədəbəy* | *Arminian* | *Presviterian/ konqreqatsionalist* | *528 nəfər* |
| Ənənəvi əllincilər | *1932-ci il* | *Bakı, Sumqayıt, Şabran, Yevlax, Bərdə, Gəncə, Xaçmaz, Qusar, İsmayıllı, Siyəzən, Qazax, Şəmkir* | *Kalvinist* | *Konqreqatsionalist* | *1000-dən yuxarı* |
| Xarizmatlar | *1994-cü il* | *Bakı, Sumqayıt Ağdaş, Xudat Quba, Gəncə İsmayıllı, Göyçay Yevlax, Goranboy, Qəbələ, Mingəçevir, Naftalan, Ucar, Xaçmaz* | *Arminian* | *Konqreqatsionalist* | *2000-dən yuxarı* |

| | | | | | |
|---|---|---|---|---|---|
| Bakı şəhəri Presviterian dini icması | *2001* | *Bakı* | *Kalvinist* | *Presviterian* | *Təqribən 30 nəfər* |
| Denominasiyasız | *XX əsrin 90-cı illəri* | *Bakı* | - | - | *Təqribən 650 - 900 nəfər* |

Cədvəl 1-dən göründüyü kimi, Azərbaycandakı protestantlıq olduqca rəngarəng və müxtəlifdir. Kitabın sonrakı bölümlərində bu fərqli protestant istiqamətlərinin ölkəmizdəki keçmişi və müasir vəziyyəti barədə ətraflı məlumat verməyə cəhd göstərmişik. Odur ki, həmin protestant məzhəblərinə ölkəmizdə yayılma tarixlərinə görə xronoloji ardıcıllıqla nəzər yetirək.

# LÜTERANLIQ: İLK PROTESTANT CƏRƏYAN

*XVI əsrdə Şimali Almaniyada meydana gələn lüteranlıq sanki alman xalqının xarakterinə məxsus cəhətləri özündə birləşdirib. Kirxalarda dini ayinləri izləyərkən, istər-istəməz düşünürsən ki, almanların içindən çıxan xristian məzhəbi məhz belə olmalıdır. Çünki lüteran dini ayinlərinə sadəlik, ciddilik, aramlılıq və hardasa emosiyasızlıq xasdır.*

## Əsl alman məzhəbi



*Lüterin qızılgülü - lüteranlığın məşhur rəmzi.*

Lüteranlıq ən birinci protestant məzhəbidir. Onun yaranması protestantlığın banisi Martin Lüterin adı ilə bağlıdır. O, 31 oktyabr 1517-ci ildə Almaniyanın Vittenberq şəhərində “95 tezis”ini elan etməklə lüteran kilsəsinin əsasını qoydu. Lüteranlıq qısa müddətdə Almaniyanın hüdudlarını aşaraq, başqa Avropa ölkələrində də özünə tərəfdar topladı. Zaman keçdikcə isə bəzi Qərb, xüsusən Skandinaviya ölkələrində hakim mövqe tutdu[8]. Məsələn, günümüzdə lüteranlıq İsveç və Danimarkada dövlət dini statusuna malikdir.

Lüteranlığın inanc əsasları 1580-ci ildə hazırlanan “Razılıq Kitabı”nda əks olunub. Həmin kitabda üç tarixi xristian inam rəmzi (Apostol, Nikey-Konstantin və Afanasyev inam simvolları), “Auqsburq etiqadı” və “Auqsburq etiqadının apologiyası”, Martin Lüterin “Kiçik Katexizisi” və “Böyük Katexizisi (1529-cu il), “Şmalkalden müddəaları” və “Həmrəylik Düstüru” (1577-ci il) yer almışdır. Bu tarixi sənədlər arasında M. Lüterin yaxın silahdaşı Filipp Melanxton tərəfindən yazılan, 1530-cu ildə çap olunan “Auqsburq etiqadı”, həmçinin Lüterin “Kiçik Katexizisi” lüteranlar üçün böyük əhəmiyyət daşıyır[9].

Roma Katolik Kilsəsinə etiraz hərəkatı kimi meydana gəlsə də, lüteranlıq katolisizmin bəzi elementlərini özündə saxlamışdır. Məsələn, lüteran kilsələrində ibadət zamanı şamlar, bəzilərində buxur yandırılır. Dini

8 - Стёпина А., Филатов С. Лютеранство//Современная религиозная жизнь России: опыт систематического описания. – Москва: «Логос», 2003. Том II. - с. 11, 13-14.

9 - Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. — М.: Издательство Московского университета, 2010.с. 105-106.

ayinlər orqan musiqisi və kilsə xorunun müşayiəti altında həyata keçirilir. Lüteranlar ikonalara qarşı çıxsalar da, məbədlərdə Bibliyanın süjetləri əsasında divar rəsmi çəkməyə icazə verirlər. Bu protestant məzhəbində katolikliyin başqa izlərinə də rast gəlmək mümkündür. Məsələn, kirxalarda altarın mövcudluğu, keşişlərin xüsusi geyim tərzi, kilsə idarə forması katoliklikdən lüteranlığa keçmişdir[10].

## Alman məskənləri



*Göygöl şəhərində almanlardan qalma evlər.*

Göygöl və Şəmkir şəhərlərinin düzgün planlaşdırılmış geniş küçələrində gəzərkən, qırmızı kirəmitlə örtülmüş və cərgə ilə düzülmüş göz oxşayan səliqəli evləri arasında gəzərkən sanki bir balaca alman şəhərinə düşdüyünü zənn edirsən. Bu evlər 200 il öncə dini motivlərlə ölkəmizə gələn, axır zamanda Antixristin (Dəccal) fitnə-fəsadlarından uzaq durmaq və müqəddəs torpaqlara daha yaxın olmaq üçün Şərqə üz tutan Azərbaycanın qərb torpaqlarında məskunlaşan alman kolonistlərinin yadigarıdır. Torpaqlarımızda özlərinə ikinci vətən tapan alman mühacirləri əməksevərlikləri və təşəbbüskarlıqları ilə ölkəmizin kənd təsərrüfatının, şəhərsalma mədəniyyətinin inkişafına töhfə verməklə

10 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с. 107; Янг Дж. Христианство. - М.: Агенство «ФАИР», 1998. – с.223.

yanaşı, Azərbaycanda protestantlığın təməlini atdılar.

Təəssüflər olsun ki, İkinci Dünya müharibəsinin qopması və Stalin rejiminin deportasiya siyasəti alman məskənlərinin varlığına son qoydu və ölkəmizdə almanların kəskin şəkildə azalmasına səbəb oldu. Lakin alman köçkünlərinin zəngin mədəni-tarixi irsi günümüzədək gəlib çıxdı. Hazırda bu irs Azərbaycan dövləti tərəfindən böyük həssaslıqla qorunur.

Görəsən alman mühacirləri hansı xristian məzhəbinə mənsub olublar? Onlar öz doğma torpaqlarını niyə tərk ediblər? Bu suallara cavab tapmaq üçün uzaq Almaniyada XVII əsrin sonları - XVIII əsrin əvvəllərində baş verən sosial-siyasi hadisələrə və dini proseslərə nəzər yetirək.



*Göygöl şəhəri. Şvabiya almanlarından qalma bina.*

## Vürtemberq separatçıları kim olub?

Qafqazda, eləcə də Şimali Azərbaycanda alman koloniyalarının yaranması vürtemberqli “separatçılar”ın adı ilə bağlıdır. Elmi ədəbiyyatda bu təriqətin təəssübkeşləri müxtəlif cür adlandırılır: vürtemberqli “separatçılar”, şvabiyalı sektantlar, “Çıxış Cəmiyyəti”nin tərəfdarları və s. Vürtemberqli “separatçılar” lüteranlıqdan ayrılaraq kilsə qaydalarına qarşı çıxıblar. Onları hardasa Rus Pravoslav Kilsəsindən qopan molokan

və duxoborlara bənzətmək mümkündür.

Vürtemberqdəki "separatçı" sekta protestant cərəyanı olan piyetizmin radikal qanadı olub. Piyetizm XVII əsrin sonları - XVIII əsrin əvvəllərində Almaniyada lüteranlıqdan törəyib. Bu dini cərəyanın ardıcılları dini hissləri kilsə ehkamları və ayinlərindən üstün tutur, ənənəvi lüteran kilsələrində hakim olan quru ehkamçılığa qarşı çıxırdılar. Onlar Müqəddəs Kitabın mətnləri üzərində dərin düşünmək və dua zamanı özündən keçmək yolu ilə yüksək dini hisslər yaşamağa, Tanrı ilə canlı ünsiyyət qurmağa çalışır və hesab edirdilər ki, yalnız bu yolla mənəvi kamilliyə çatmaq, ilahi lütfü qazanmaq mümkündür. Piyetistlər İsa Məsihin tezliklə qayıdacağını düşünür, onun ikinci gəlişinə hazırlaşır və yer üzündə müqəddəslərdən ibarət cəmiyyət qurmaq istəyirdilər. Piyetizmin ardıcılları deyirdilər ki, məsihçilər dünyanın aldadıcı şirinliklərinə əsla uymamalıdırlar. Odur ki, piyetist cəmiyyətlərdə teatr, rəqs, mahnı, əyləncəli oyunlar, hətta zarafatlaşmaq günah sayılırdı[11].

Piyetistlərin özləri də müxtəlif cərəyanlara bölünmüşdü. Dediyimiz kimi, Azərbaycana köçən piyetistlər isə Vürtemberq əyalətində ortaya çıxan qatı piyetist qanadın – "separatçı" təriqətin təəssübkeşləri olublar. Almaniyanın tarixi vilayəti, Şvabiya regionunun bir hissəsi olan Vürtemberqdə yaşadıqları üçün qatı piyetistlərə vürtemberqli və ya şvabiyalı "separatçılar" deyiblər. Şvabiyalı "separatçılar" Bibliyanın öyrənilməsi üçün əlavə vaxt ayırırdılar. Müqəddəs Kitaba həsr edilən əlavə vaxt alman dilində "İbadət saatları" mənasına gələn "Andachtsstunden" adlandırılırdı[12]. Deməli, onlarda Müqəddəs Kitabın öyrənilməsi üçün ayrılan saatlar bir ibadət şəkli olub.

Piyetizmin Şvabiya istiqamətinin banisi İohann Albrext Benqel (1687-1752) sayılır. O, insanları özünü kamilləşdirmək və tərki-dünya olmaq yolu ilə İsa Məsihin ikinci gəlişinə hazırlaşmağa səsləyib. Habelə İsa Məsihin 1790-cı ildə Şərqdə zühur edəcəyini bildirib. Daha sonra alman yazıçısı İohann Henrix Yunq-Ştillinq (1740—1817) onun hesablamalarına düzəliş edərək İsa Məsihin 1836-cı ildə zühur edəcəyini deyib. İ.H. Yunq-Ştillinqin yaxın silahdaşı və rus imperatoru I Aleksandrın sevgilisi baronessa Varvara

11 - ПИЕТИЗМ , течение в протестантизме [Elektron resurs]// Новая иллюстрированная электронная энциклопедия немцев России (НИЭЭНР). – URL: http://www.enc.rusdeutsch.ru/articles/1262 (дата обращения: 16.11.2016).

12 - ПИЕТИЗМ, течение в протестантизме//Там же.

Yuliya Krüdner (Yuliana fon Krüdner; 1764-1825) isə İsa Məsihin Qafqazda Ağrı dağında zühur edəcəyini iddia edib. Beləliklə, axır zamanla bağlı bu xəbərlərin təsiri altında Vürtemberqdəki radikal piyetistlərin daxil olduğu "Çıxış Cəmiyyəti" adlı protestant hərəkat meydana gəlib. Bu hərəkatın ardıcılları İsa Məsihin zühur yerinə və İlahi Padşahlığın qurulacağı şəhərə (Yerusəlim və ya Qüds) daha yaxın olsunlar deyə, Qafqaza, o cümlədən Azərbaycana köçərək burada alman məskənləri salıblar[13].



***İ.H.Yunq-Ştillinq***

Qeyd edək ki, İ. H. Yunq-Ştillinqin 1836-cı ildə İsa Məsihin Qafqazda zühur edəcəyinə dair gələcəklə bağlı xəbəri 1799-cu ildə çıxan "Zəfər povesti, yaxud məsihçi inancın Təntənəsi" adlı əsərində əks olunmuşdur. Müəllif bu hesablamaları İncilin "Yəhyaya nazil olan vəhy" kitabına əsasən aparmışdır. Onun əsərinin təsiri altında ölkəmizə təkcə alman piyetistləri deyil, həm də duxoborlar, molokanlar köçmüş və Azərbaycanda çoxsaylı yaşayış məskənləri salmışlar. Məsələn, Bakı quberniyasındakı molokanlar haqda məlumat verən pravoslav keşişi A. Yuntiski yazırdı: *"1830-cu illərdə onların dədə-babalarının əllərinə Yunq-Ştillinqin "Zəfər povesti" kitabı düşdü. Bu kitabda İsa Məsihin 1836-cı ildə "Ağrı dağının yanında, bəşəriyyətin beşiyində" zühur edəcəyi sübut olunur. Məhz bu amil bir çox molokanı könüllü şəkildə Rusiyadan Qafqaza köçməyə vadar etdi"*[14].

Gördüyümüz kimi, Almaniyada işıq üzü görmüş bir dini-mistik kitab alman piyetistləri arasında dini təlatüm yaratmaqla yanaşı, həm də XIX əsrdə Şimali Azərbaycanın dini-etnik mənzərəsinin dəyişməsinə və zənginləşməsinə səbəb olmuşdur.

Əslində "separatçı" təriqətin ortaya çıxması heç də təsadüfi deyildi. Bu dini cərəyan bir sıra sosial-siyasi amillərə görə meydana gəlib. İlk növbədə, Fransa imperatoru Napoleonun Avropada apardığı qanlı müharibələr "separatçı" sektanın meydana gəlməsinə gətirib çıxarıb.

13 - ПИЕТИЗМ, течение в протестантизме//Там же.
14 - Юницкий А. Гнёзда сектанства на Кавказе (опубликовано: Христианское чтение. 1895. №1-2. с. 142-164.). - СПбПДА: Санкт-Петербург, 2009. - с. 147.

Təsadüfi deyildir ki, separatçı piyetistlər İncilin "Yəhyaya nazil olan vəhy" kitabına istinadən Napoleonu "yerdən çıxan vəhşi heyvan" adlandırıblar. Onlar fransız hökmdarının apardığı müharibələri qiyamətin əlaməti sayıblar. Bu səbəbdən "separatçı" təriqətin "peyğəmbərləri" tezliklə Antixristin (Dəccal) gələcəyini xəbər verərək Dəccalın fitnə-fəsadlarından qaçmaq üçün Şərqdə nicat tapmağa səsləyiblər[15].

Napoleonun müharibələrindən başqa, "separatçı" sektanın yaranmasına daha bir mühüm tarixi hadisə təsir göstərib. Belə ki, 1804-cü ildə I Fridrixin hakimiyyəti dövründə Lüteran konsistoriyası (inzibati və məhkəmə hüququna malik ruhani idarə) kilsələrdə yeni ibadət qaydalarını tətbiq etdi, eləcə də köhnə dini nəğmələrin, əski katexizasiya və dua kitablarının istifadədən çıxardılmasına dair qərar çıxardı. Bu isə dindarların müəyyən hissəsində narazılıq oyatdı. Həmin qərarı tanımaq istəməyən "separatçılar" kral I Fridrixin qəzəbinə düçar oldular. Lüteran konsistoriyasının qərarını qiyamətin nişanəsi kimi qəbul edən "separatçılar" mühacirət etmək istədilər[16], çünki yeni dini qanunlara qarşı çıxdıqları üçün doğma yurd-yuvalarında təqiblə üzləşir, ən fəalları zindanlara atılır, onların mal-mülkləri isə müsadirə olunurdu[17].

"Separatçı" təriqətin meydana gəlməsinə başqa amillər də təsir göstərmişdi. Belə ki, o vaxtlar Almaniyada vahid dövlət yox idi. Ölkə 30-dan yuxarı krallıqlara parçalanmışdı. Sadə alman camaatı, xüsusən kəndlilər hakim qüvvələrin zülmü altında inildəyərək ağır həyat yaşamışlar. Azərbaycanlı tarixçi N. İbrahimov bu barədə yazmışdır: *"Torpaqsızlıqdan əzab çəkən, ehtiyacın əldən saldığı alman kəndlisi, üstəlik, XIX əsrin əvvəllərində bir-birinin ardınca baş verən qıtlıqla üzləşmişdi. Artıq qıtlıq və onun ayrılmaz yoldaşı olan aclıq 1816-cı ildə alman kəndlisini xüsusilə sarsıtdı. Aclıq və səfalət torpaqsız kəndliləri şəhərə qovurdu, lakin zəif inkişaf etmiş sənayenin əməksevər, işgüzar alman kəndlilərinin qabarlı əllərinə ehtiyacı yox idi. Və onda yeganə, lakin əzablı bir yol – iş və çörək dalınca qürbətə, uzaq ölkələrə köçmək qalırdı"*[18].

15 - Bax: Вердиева Х. Немцы в Северном Азербайджане. – Баку: Элм, 2009. – с. 14.
16 - Bax: Гумбатова Т. Жизнь немцев-колонистов за Кавказом. Баку, 2005 год [Elektron resurs]. – URL: https://www.proza.ru/2012/07/19/817 (müraciət tarixi: 16.11.2016); İbrahimov N. Azərbaycan tarixinin alman səhifələri. – Bakı: "Azərbaycan nəşriyyatı", 1997. – s. 61; Вердиева Х. Указ. соч. – с.14.
17 - Лиценбергер О. А. Исхода Общество [Elektron resurs]//Православная энциклопедия/ под. редакцией Патриарха Московского и Всея Руси Кирилла. – URL: http://www.pravenc.ru/text/1237707.html (müraciət tarixi: 19.11.2016).
18 - İbrahimov N. Sitat gətirilən əsəri. – s. 57-58.

Beləliklə, Şvabiyalı "separatçılar"ın Şimali Azərbaycana köçməsi təkcə dini amillərlə bağlı deyildi. 1816-1817-ci illərdə Almaniyanı bürüyən qıtlıq və aclıq[19], I Fridrixin dövründə vürtemberqli təriqətçilərin təqibi mühacirət meyilləri gücləndirdi.

## Müqəddəs torpaqlara doğru...

XIX əsrin başlanğıcında dərin siyasi, sosial-iqtisadi böhrana yuvarlanan Almaniyada ağır həyat yaşayan, təqiblərlə, aclıqla üzləşən şvabiyalı "separatçılar" Dəccalın şərindən uzaqlaşmaq və İsa Məsihin zühurunu görmək üçün Qafqaza köçmək istədilər. Və tale onlara rus çarı I Aleksandrın simasında bir xilaskar göndərdi.

Belə ki, I Aleksandr 20 fevral 1804-cü ildə Rusiyada əkinçilik mədəniyyətini yüksəltmək, üzümçülüyü, heyvandarlığı inkişaf etdirmək üçün almanların Rusiyaya köçürülməsi və onlara hər cür şəraitin yaradılması barədə manifest imzalayır. Rus çarı alman mühacirlərinin yerləşdirilməsinə yardım göstəriləcəyi, onların torpaqla təmin olunacağı, hərbi mükəlləfiyyətdən, dövlət vergilərindən azad olunacağı, dini toxunulmazlıqları barədə vəd verdi. Odur ki, şvabiyalı "separatçılar"ı rus hökmdarının dəvətinə həvəslə razılaşdılar. Hətta bəzi Şvab almanları I Aleksandrı "Şərqin ulduzu" və "xalqını ardınca aparan çar David" adlandırdılar[20].

Rus imperatorunun manifestindən sonra 1804-cü ildə, eləcə də 1816-1817-ci illərdən başlayaraq 1842-ci ilə kimi Vürtemberq əyalətindən Rusiya imperiyasına çox böyük axın vardı. Vürtemberqlilər imperiyanın müxtəlif əyalətlərində məskunlaşırdılar. Qafqaz ordusunun baş komandanı general A.P.Yermolovun təşəbbüsündən sonra isə Şvab almanlarının bir hissəsi Cənubi Qafqazda, o cümlədən Azərbaycan torpaqlarında məskən saldılar[21].

Belə ki, 1816-cı ildə Rusiya imperatorunun təklifindən istifadə etmək istəyən qırx Şvab ailəsi Qotlib Lefler və Adam Şullerin başçılığı ilə Ulmda toplaşdı və "vəhşi Qafqaza" çatıb orada məskunlaşmaq üçün şərqə doğru hərəkət etdi. Şvabiyalı "separatçılar" üçün Qafqaz bəşəriyyətin yenidən doğulacağı, Tanrının zühur edəcəyi əhd yeri idi[22]. Beləliklə, "separatçılar"

19 - Лиценбергер О. А. Исхода Общество//Там же.
20 - İbrahimov N. Sitat gətirilən əsəri. – s. 71, 77.
21 - Yenə orada. – s.77-78.
22 - Yenə orada. – s.71.

doğma yurd-yuvalarını tərk edərək, ev-eşiklərini geridə buraxaraq Qafqaza yola düşdülər. Lakin onları uzun yolda çətin sınaqlar gözələyirdi: "Çala-çuxur yollarla keçən səfər uzaq və çətin idi. Köçkünləri şirnikdirib öz ölkəsinə çağıran Rusiya hökuməti hər ailəyə bir at, araba və 148 rubl 85 qəpik gümüş pul məbləğində yol xərci ayırmışdı. Bu, əlbəttə, səfərin əzab-əziyyətini yüngülləşdirsə də, onları Odessadan Qafqaza qədər iki ay yarımlıq yolda üzləşdikləri soyuqdan və xəstəliklərdən qorumurdu. Yol insanları taqətdən salır, tələf edirdi. Lakin araba təkərlərinin cırıltısı davam edərək insanları Şvabiyanın dağlarından, meşələrindən, çaylarından və göllərindən, kimsəsiz qalmış evlərindən daha da uzaqlaşdırırdı... Buna baxmayaraq almanlar Veite Reix macht veise ("uzaq yol ağlı artırar") – deyərək yollarına davam edirdilər"[23].

Nəhayət, 21 sentyabr 1817-ci ildə Tiflis şəhərinə şvabiyalı almanların ilk dəstəsi (181 nəfər) gəlib çatdı. Onlar həmin ilin oktyabr ayında Sarti-çala kəndinin yaxınlığında (Gürcüstan) alman koloniyasını yaratdılar. Bu koloniya Marienfeld adlandırıldı. Çar hökuməti hər mühacir ailəyə 60 desyatin ölçüsündə torpaq sahəsi ayırdı[24].

## Qürbətdə vətən

1818-ci ilin payızında Gürcüstana Şvabiya almanlarının daha bir dəstəsi (486 ailə) gəldi. Lakin onların hamısı üçün Tiflisin ətrafında münasib yer tapılmadı. Odur ki, çar hakimiyyəti şvabiyalı köçkünlərə Yelizavetpol quberniyasında münbit torpaqlar ayırmaq istədi. Lakin bu təklif alman mühacirlərinin etirazına səbəb oldu. Onda şvabiyalı "separatçılar"ın bir hissəsi kazak hərbi dəstəsinin müşayiəti altında 1818-ci ilin payızında Yelizavetpol (Gəncə) şəhərinə zorla gətirildi. 1819-cu ilin yazında isə onlar Gəncə çayının sağ sahilinə Yelizavetpol şəhərindən 7 verst (7.4676 km.) uzaqlıqda məskunlaşaraq ölkəmizdə ilk alman koloniyasının əsasını qoydular. Bu alman məskəni böyük knyaginya, Meklenburq-Şverinin böyük hersoginyası Yelena Pavlovnanın şərəfinə Yelenendorf (indiki Göygöl şəhəri) adlandırıldı. İlk vaxtlar Yelenendorfda 118 mühacir ailəsi yaşayırdı. 1819-cu ildə Azərbaycanda ikinci alman koloniyası yaradıldı. Həmin alman

23 - İbrahimov N. Sitat gətirilən əsəri. – s.78.
24 - Вердиева Х. Указ.соч. – с. 15.

koloniyası Niderlandiyanın kraliçası, böyük knyaginya Anna Pavlovnanın şərəfinə Annenfeld (indiki Şəmkir) adlandırıldı. Yarandığı il Annenfelddə 67 alman ailəsi məskunlaşdı[25].

Azərbaycanda Yelenendorf və Annenfeld koloniyaları ilə yanaşı, başqa alman məskənləri də vardı. Belə ki, bəzi alman mühacirləri Yelenendorfdan ayrılaraq 1888-ci ildə Georqsfeld koloniyası (indiki Şəmkir rayonu, Çinarlı qəs.), 1902-ci ildə Qazax qəzasında Alekseyevka kəndi (indiki Həsənsu kəndi), 1912-ci ildə Traubenfeld (indiki Tovuz şəhəri) və 1914-cü ildə Yelizavetinka (indiki Ağstafa ş.) əsasını qoydular. Bununla yanaşı, Gürcüstanda yaşayan alman kolonistləri də 1906-cı ildə ölkəmizdə yaşayış məskənləri saldılar: Qrinfeld (Qrünnenfeld) koloniyası (indiki Ağstafa rayonunun Vurğun qəsəbəsi), Eyqenfeld və ya Ayqenfeld (indiki Şəmkir rayonunun İrmaşlı kəndi)[26].

Rusiya imperiyasının müxtəlif bölgələrində belə alman məskənlərinin yaradılması çar mütləqiyyətinin maraqlarına cavab verirdi, çünki çarizm imperiyanın müxtəlif regionlarında zəhmətkeş və işgüzar almanları yerləşdirməklə kənd təsərrüfatını inkişaf etdirmək istəyirdi.



*Yelenendorfda Şvab alman ailəsi. 1910-cu il.*

25 - Yenə orada. – s.16.
26 - Deutsche in Azerbaidschan: ornamente aus aserbaidschan. – Baku, 2016. - p. 2,4.

Ona görə də çar hakimiyyəti alman məskənlərinin yaradılması məsələsinə böyük əhəmiyyət vermiş, bu planın həyata keçməsi üçün küllі miqdarda pul xərcləmişdi. Belə ki, rus imperatoru I Aleksandrın göstərişi əsasında alman mühacirlərinin yerləşdirilməsi üçün dövlət büdcəsindən düz yüz min gümüş rubl məbləğində maliyyə vəsaiti ayrılmış, dövlət ekspedisiyası almanların Zaqafqaziyada məskunlaşdırılmasına 697 428 gümüş rubl xərcləmiş, bundan əlavə, hər bir alman ailəsinə 3000 rubl məbləğində uzunmüddətli borc verilmişdi. Alman mühacirlərinə böyük ümid bəsləyən Rusiya imperiyası vürtemberqlilərə Qafqazda məskunlaşdıqdan sonra da hər cür maddi yardım göstərmişdi. Məsələn, Yelenendorfda kilsənin tikintisi üçün maliyyə yardımı ayrılmış, burada yaşayan almanlar 10 il müddətinə dövlət mükəlləfiyyətindən azad olunmuş, 10 il ərzində onlara 211604 rubl 98 qəpik xərclənmişdi[27].

Bununla yanaşı, çar istibdadı yerli camaata məxsus olan torpaqlar hesabına alman mühacirlərinin torpaq tələbatını ödəmişdi. Məsələn, 15 may 1866-cı ildə çar hökuməti azərbaycanlıların əllərindən 1700 desyatin ölçüsündə torpaq sahəsi alaraq Yelenendorf koloniyasının sakinlərinə vermişdi. Bir sözlə, Rusiya imperiyasında alman mühacirləri xüsusi imtiyazlara sahib olmuşlar[28].

Əməksevərliyi və işgüzarlığı ilə seçilən şvabiyalı almanların əsas məşğuliyyəti kənd təsərrüfatı olmuşdur. Onlar ölkəmizdə üzümçülük sahəsinin inkişafına böyük töhfə vermişlər. Artıq XIX əsrin başlanğıcında Yelenendorfda yaşayan alman mühacirləri tərəfindən ilk üzüm bağları salınmışdı. Üzümçülüyün inkişafı isə şərabçılıq sənayesinin tərəqqisinə təkan vermişdir. Şərabçılıq sənayesinin təşəkkül tapması Yelenendorfdan olan alman sahibkarları Xritstian Forer və Xristian Hummelin adları ilə bağlıdır. Forer ailəsinin tarixi 1847-ci ilə gedib çıxır. Həmin il Xr. Forer ilk üzüm bağı salmışdır. 1870-ci ildə isə o, Xristif, Qotlib, Fridrix, Henrix adlı oğulları ilə birgə “Xristofer Forer və oğulları” adlı firma təsis etmişdir. 1892-ci ildə bu firma “Forer Qardaşları” adını almışdır. Elə həmin il Forer ailəsi Şimali Azərbaycanda (Yelenendorf) ilk konyak zavodu açmışdır. 1895-ci ildə isə yenə bu alman koloniyasında “Hummel qardaşları” firması tərəfindən

27 - Герман А.А., Иларионова Т.С. «История немцев России» [Elektron resurs]. – URL: http://www.geschichte.rusdeutsch.ru/16/57 ; İbrahimov N. Sitat gətirilən əsəri. – s. 95.
28 - Герман А.А., Иларионова Т.С.// Там же.

ikinci konyak zavodu istismara verilmişdir. Yelenendorfda fəaliyyət göstərən zavodlarda təkcə konyak deyil, həm də xarici ölkələrdə təşkil olunan sərgilərdə qızl və gümüş medal, fəxri diplom və fərman alan müxtəlif növ şərablar istehsal olunmuşdur[29].

***"Helenendorf koloniyası insanın axtarıb-tapa bildiyi ən gözəl yerdir. Gəncədən bir neçə kilometr aralıda, cır qapalılığı ilə Azərbaycanda da tanınan əyalətin tam ortasında gerçək Almaniyanın bır parçasına rast gəlirsən. Azərbaycan baxışından, az qala, böyük şəhər sayılan kəndin özlərinə çəpəkli damlı, iki-üç mərtəbəli villalar tikmiş və kəndin ortasında qırmızı bişmiş kərpicdən böyük bir kilsə ucaltmış bir neçə min sakini var"***

***Məhəmməd Əsəd Bəy. "Şərqdə neft və qan".***

Alman mühacirlərinin fəaliyyəti üzümçülük və şərabçılıqla məhdudlaşmırdı. Yelenendorfda baramaçılıq, unüyütmə sənayesi inkişaf etmişdi. Təkcə 1845-ci ildə Yelenendorfda qırx barama ev təsərrüfatı qeydə alınmışdı. XIX əsrin 80-ci illərində bu alman məskənində yeddi dəyirman, on meyvə-araq, bir pivə və bir süni mineral suları zavodları vardı[30]. Bu faktlar isə onu göstərir ki, Yelenendorfda kənd təsərrüfatı və sənaye yüksək səviyyədə olub.

## Ruhani idarə və Bazel missionerləri

Qeyd olunduğu kimi, Qafqazda alman koloniyaları "separatçılar" sektasının təəssübkeşləri tərəfindən yaradılmışdı. Alman mühacirləri eyni təriqətə mənsub olsalar da, onlar arasında dini birlik yox idi. Kolonistlər etiqadi məsələlərlə bağlı bir-biri ilə mübahisə edən dini qruplara parçalanmışdılar. Hər kəs istədiyi kimi Bibliyanı yozurdu. T.N. Çernova-Dyoke alman koloniyalarındakı dini mənzərəni belə təsvir edir: *"Alman mühacirləri eyni konfessiyaya aid olsalar da, yevangelist kolonistlər eyni dini dünyagörüşə malik olmayıblar. Onlar arasında Vürtemberqin böyük ilahiyatçılarının görüşləri və moizələri ardınca gedən müxtəlif qruplar vardı: Lüteran Kilsəsinin tərəfdarları, kilsədən ayrılan "separatçılar", fanatik dindar olan xiliastlar və onlardan uzaqlaşaraq Agendanı, kolonist Sinodu və 1829-cu ilin Nizamnaməsini tanımayan sektantlar. Hər kəs iman*

29 - Вердиева Х. Указ.соч. – с. 31.
30 - Yenə orada.

*və arzularının dolanbacında Bibliyanı öz istədiyi kimi şərh edirdi"*[31].

Hətta alman məskənlərində elə "separatçı" qruplar olub ki, onlar tamamilə əsas xristian ayinlərini – vəftizi, konfirmasiyanı, Rəbbin Süfrəsini inkar edir, uşaqlarını məktəblərə buraxmır, kilsələrin saxlanılması üçün pul vermək istəmirdilər[32].

Vürtemberq "separatçılar"ında vahid kilsə təşkilatı və ruhani institut olmayıb. Hər "separatçı" dini icmaya ruhani müəllim və ya ağsaqqal (icma üzvləri tərəfindən seçilirdi) başçılıq edirdi. Onların isə dini təhsili və sektantlar arasında yetərincə nüfuzu yox idi[33].

Çar hakimiyyəti alman koloniyalarını rahat idarə edə bilsin deyə, nifaqı ortadan qaldırmağa, alman məskənlərində dini həyatı nizama salmağa çalışır və bu məqsədlə alman mühacirlərini yenidən Lüteran Kilsəsinin ağuşuna qaytarmaq istəyirdi. Ona görə də Qafqazdakı rus qoşunlarının baş komandanı general Yermolov kolonistlər üçün Lüteran Kilsəsindən pastor göndərməyi xahiş edirdi. Yermolovun sorğusuna cavab olaraq Saratov Yevangelik Lüteran Konsistoriyası "separatçılar"ı doğru yola gətirmək məqsədilə əlli yaşlı pastor Kr.Fr.Qanı göndərir. 10 iyul 1825-ci ildə Tiflisə çatan pastor tezliklə geri dönmək məcburiyyətində qalır, çünki "separatçılar" yalnız öz aralarından seçilən ruhani müəllimləri tanıyırdılar[34].

Buna baxmayaraq, "separatçılar"ı "haqq yoluna" qaytarmaq cəhdləri davam edirdi. "Yevangelist Missiyaların Bazel Cəmiyyəti"nin missionerləri bu işdə çar hökumətinə dəstək oldular. Belə ki, 1821-ci ilin yayında Qafqaza ilk Bazel missionerləri - Avqust Ditrix və qraf Felitsian Zaremba (keçmiş rus diplomatı) gəldilər. Onlar Rusiya hökumətinə müraciət edərək Qafqazda missioner koloniyalar yaratmaq, dini məktəblər açmaq, xristian ədəbiyyatının çap olunması məqsədilə mətbəə təsis etmək, qafqazlı müsəlmanları, bütpərəstləri, yəhudiləri xristianlaşdırmaq istədiklərini çar hökümətinə bildirdilər. 7 yanvar 1822-ci ildə çar hakimiyyəti Qafqazda xristianlığın dayaqlarının möhkəmləndirilməsi və müsəlmanların xristianlaşdırılması ümidi ilə onların fəaliyyətinə razılıq verdi. Bundan sonra Bazel missionerləri

31 - Bax: Т.Н.Чернова-Дёке. Немецкие поселения на периферии Российской империи. Кавказ: взгляд сквозь столетие (1818-1917) (К 190-летию основания немецких колоний). – М.: «МСНК-пресс», 2008. - с. 94.

32 - Bax: Акты, собранные Кавказской археографической комиссией, т. IX. – с.689-690.

33 - Yenə orada. – с. 704.

34 - Т.Н.Чернова-Дёке. Указ. соч.– с. 88.

fəaliyyətə başlamaq üçün yer axtardılar. Qafqazın böyük hissəsini nəzərdən keçirdikdən sonra Şuşa şəhərini seçdilər. Şuşada onlar missioner məktəbi və mətbəə açdılar. Beləliklə, Qafqazda Bazel missionerlərinin ocağı yarandı[35].



*Bazel missionerləri tərəfindən Şuşa şəhərində mətbəə üçün tikilmiş bina. Şəkildən göründüyü kimi erməni vandalları 8 may 1992-ci ildə Şuşa şəhərini işğal edən vaxtı bu tarixi abidəyə ciddi ziyan vurublar.*

Bazel missionerlərinin alman koloniyalarındakı fəaliyyətlərinə toxunmamışdan əvvəl "Bazel Yevangelik Missioner Cəmiyyəti" ("Evangelcsche Missionsgesellschaft in Basel") haqda ümumi məlumat vermək düzgün olardı. Həmin cəmiyyət 25 sentyabr 1815-ci ildə İsveçrənin Bazel şəhərində "Müqəddəs Martin" kilsəsinin pastorunun evində yaradılıb. Bu missioner təşkilatın amalı "Böyük Britaniya Əcnəbi Cəmiyyəti"nin qaydalarını rəhbər tutaraq Qafqazda və dünyanın başqa regionlarında protestantlığı yaymaq olub. 1816-cı ildə Cəmiyyət tərəfindən ilk missioner seminariya – Yenvangelik missioner institutu açılıb. 1819-cu ilin yayında isə seminariyanın ilk məzunları buraxılıb. Və həmin məzunlar Qafqaza göndərilib[36].

35 - Yenə orada. – s. 88-89.

36 - Bax: Кузнецов О. Кальвинисты на Кавказе: история религиозной экспансии европейских протестантских миссионеров в отношении народов северного и южного Кавказа//Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2016, №1. - s. 76.

200 illik tarixi boyu Bazel missionerləri təkcə Qafqazda deyil, eləcə də İran, Çin, Hindistan, Kamerun, Borneo, Nigeriya, Sudan, Latın Amerika ölkələri və indiki Hananın ərazisində fəaliyyət göstəriblər. 1865-ci ildə "Bazel Yevangelik Missioner Cəmiyyəti" öz əlli illiyini qeyd edərkən, yüz min bütpərəsti Xristianlığa gətirdiyini bildirib. 1893-cü ildə bu Cəmiyyətin 249200 dollar gəliri olub və Xristianlığa yenicə keçənlərdən 34600 dollar dəyərində mal-mülk hədiyyə alıb. Həmin ilin statistikasına əsasən, "Bazel Yevangelik Missioner Cəmiyyəti"nə 11 000 şagirdin təhsil aldığı 290 məktəb, 179 missionerin (174 kişi və 5 qadın) çalışdığı 352 missioner stansiyası daxil olub. Stansiyalarda təkcə əcnəbi missionerlər deyil, həm də 651 nəfər yerli işləyirdi. Missioner stansiyalarının nəzdindəki dini icmaların isə 12300 üzvü olub. Qeyd edək ki, "Bazel Yevangelik Missioner Cəmiyyəti" 2007-ci ilədək fəaliyyət göstərib. Həmin il "Yevangelik Kilsələr və Missiyalar Cəmiyyəti" ilə birləşib, nəticədə "Missiya XXI" transmilli protestant dini korporasiyası yaranıb[37].

"Bazel Yevangelik Missioner Cəmiyyəti"nin tarixi haqqında qısaca məlumat verdikdən sonra bu təşkilat tərəfindən göndərilən missionerlərin alman məskənlərindəki fəaliyyətinə nəzər yetirək. Qeyd edək ki, Qafqazdakı alman koloniyaları ilk vaxtdan Bazel missionerlərinin diqqətini cəlb etmişdi. Onlar alman mühacirlərini "separatçılıq"dan uzaqlaşdırmaq və lüteranlığa qaytarmaq istəyirdilər. Ona görə də missionerlər alman məskənlərinə baş çəkirdilər. Koloniyalarda Bazel missionerlərini "qonaq" və "qardaş" kimi qarşılayırlar. Bir müddətdən sonra onların dini təbliğatı öz bəhrəsini verdi. 1827-ci ilə yaxın alman koloniyalarında lüteranların sayı "separatçılar"dan qat-qat çox oldu[38].

Çar hakimiyyəti ilə yaxından əməkdaşlıq edən Bazel missionerləri alman koloniyalarında lüteranların dini həyatını nizam-intizama salmaq üçün müəyyən addımlar atdılar. Belə ki, A.Ditrix alman koloniyalarında üçün nizamnamə hazırladı. 12-22 avqust 1823-cü ildə Tiflis şəhərində keçirilən məclisdə müxtəlif koloniyalardan olan 19 nəfərlik nüməyəndə heyəti bu nizamnaməni qəbul etdi, dini həyatın idarə olunması üçün ali nümayəndələr məclisi – Sinod yaradıldı. Hər il çağırılan bu ali məclisin fəaliyyətində

37 - Кузнецов О. Указ.соч. – с. 76-77.
38 - Bax: Акты, собранные Кавказской археографической комиссией, т. IX. – с.704.

hər alman koloniyasından üç nümayəndə iştirak etməli idi. Nizamnaməyə əsasən, alman koloniyaların dini ayinlərinə heç kəs müdaxilə edə bilməzdi. Alman məskənlərində Nizamnamənin icrasına nəzarət etmək üçün isə altı nəfərlik kilsə konventi (şurası) seçildi[39].

Çar hakimiyyəti alman koloniyalarında dini həyatı idarə etmək üçün 1827-ci ildə ober-pastor vəzifəsi təsis edir. Alman ağsaqqalarının xahişi ilə bu vəzifəyə Yohan Vernxard Zaltet gətirildi. O, 1824-cü ildə "Bazel Missioner Cəmiyyəti" tərəfindən göndərilmişdi. Ober-pastor çar hakimiyyəti ilə alman koloniyaları arasında əlaqələndirici şəxs rolunu oynayırdı, müvafiq dövlət qurumlarına pastorlar haqqında xasiyyətnamə verirdi[40].

3-4 yanvar 1828-ci ildə ober-prokuror Y.V.Zaltetin sədrliyi altında keçirilən Sinodda alman koloniyalarında dini fəaliyyəti tənzimləmək üçün yeni doqquz maddəlik kilsə nizamnaməsi qəbul edildi. Bu nizamnamə 6 fevral 1829-cu ildə rus imperatoru tərəfindən təsdiqləndi. Nizamnaməyə əsasən, ober-pastorun səlahiyyətləri genişləndirildi. Onun üzərinə bütün dini məsələlər barədə yuxarı instansiyalara məlumat vermək öhdəçiliyi qoyuldu. Həmin nizamnaməyə görə, yalnız Bazel missionerləri alman məskənlərində pastorluq edə bilərdilər, çünki onlar alman kolonistlərinin həmyerliləri olub. 1823-cü ilin nizamnaməsi kimi, yeni nizamnamə də alman kolonistlərinə kilsə idarəçiliyində muxtariyyət tanıyırdı. Yəni alman koloniyaları bundan sonra da ağsaqqal və nümayəndələrini seçmək hüququna malik idilər. Bununla yanaşı, 1829-cu ilin nizamnaməsinin müddəalarına əsasən, alman koloniyalarında fəaliyyət göstərən Bazel missionerləri İsveçrədəki mərkəzlərindən asılı olmadan hərəkət etməli, eyni zamanda, rus imperatoruna sədaqət andı içməli idilər[41].

1833-cü ildə Bazel missioneri A.Ditrix alman koloniyalarının ober-pastoru vəzifəsinə seçildi. Onun dövründə də mühüm hadisələr baş verdi. Belə ki, 12 fevral 1835-ci ildə "Gürcüstanda məskunlaşan "separatçılar"a münasibətdə Rusiyadakı Yevangelik Lüteran Kilsəsinin Nizamnaməsinin tətbiqinə dair" Nazirlər Komitəsinin qanunu təsdiq olundu[42], yəni çarizm

39 - Т.Н.Чернова-Дёке. Указ. соч. – с. 90.
40 - Yenə orada. – s. 91-92.
41 - Yenə orada. – s.93.
42 - Yenə orada. - s. 94-95.

alman koloniyalarındakı lüteran icmaları vahid dini mərkəzin - Rusiya imperiyası tərəfindən rəsmən tanınan Yevangelik Lüteran Kilsəsinin tabeçiliyinə verməyə çalışdı. Bu kilsəyə daxil olan dini icmalar Sankt-Peterburq şəhərində yerləşən Baş Konsistoriya tərəfindən idarə olunurdu. Lakin alman kolonistlərini tabe etdirmək o qədər də asan iş deyildi. Vürtemberqli almanlar heç kəsdən asılı olmadan sərbəst dini həyat yaşamaq istəyirdilər.

Bu səbəbdən ober-pastor A.Ditrixin rəhbərliyi altında alman kolonistləri üçün yeni kilsə nizamnaməsi hazırlandı. Yeni nizamnaməyə 1829-cu ilin Nizamnaməsindən bəzi müddəalar daxil olundu. 25 noyabr 1841-ci ildə rus çarı I Nikolay Alman koloniyalarında yevangelik lüteran prixodlarının yeni nizamnaməsini təsdiq etdi. Yeni nizamnaməni qəbul etməklə çar hökuməti alman koloniyalarındakı lüteran icmaların müstəqilliyi tanıdı. Belə ki, Qafqazdakı alman kolonistləri Yevangelik Lüteran Kilsəsinin Sankt-Peterburq şəhərindəki Baş Konsistoriyasına deyil, birbaşa Daxili İşlər Nazirliyinin Əcnəbi Etiqadlarla İş üzrə Ruhani Departamenti və çar hökumətinin Qafqazdakı idarəsi qarşısında cavabdehlik daşımalı, təkcə ober-pastorun, Sinodun nəzarəti altında fəaliyyət göstərməli idilər[43].

Beləliklə, yeni nizamnaməyə görə Qafqazdakı alman kolonistləri hər hansı dini mərkəzə tabe olmur, bilavasitə dövlət qurumları qarşısında məsuliyyət daşıyır, dini məsələlərdə müstəqil qərar verir, istədikləri din xadimini seçirdilər. Ober-pastor və Sinod isə alman kolonistləri ilə hakimiyyət arasında əlaqələndirici halqa rolunu oynayırdı.

***"...Helenendorfun pastoru icmanın həddən ziyadə hörmət bəslədiyi Baltikyanıdan olan əsl baron idi. Onun bazar günü moizələrinə bütün kənd axışıb kirxeyə gəlir və psalmları coşqu ilə oxuyurdular"***
***Məhəmməd Əsəd Bəy. "Şərqdə neft və qan".***

Qeyd edək ki, alman məskənlərində lüteran icmaları Zaqafqaziya alman koloniyalarının Yevangelik-lüteran Sinod dairəsinə (Zaqafqaziya Koloniya Sinodunun dairəsi) daxil idilər. Bu dairə heç vaxt Rusiyada

43 - Т.Н.Чернова-Дёке. Указ. соч. – с. 96-97.

Yevangelik Lüteran Kilsəsinin Baş konsistoriyasına tabe olmayıb. Halbuki eyni dövrdə Bakı şəhəri lüteran dini icması Baş konsistoriya tərəfindən idarə olunan Yevangelik lüteran icmasının Zaqafqaziya dairəsinin (Moskva Yevangelik Lüteran Konsistoriya dairəsi) tabeçiliyində fəaliyyət göstərib. Beləliklə, Qafqazda iki ayrı lüteran dini-inzibati idarə olub: alman koloniyalarının daxil olduğu, heç bir dini mərkəzə tabe olmayan, müstəqil qərarlar verən, ober-prokuror və Sinod tərəfindən idarə olunan dairə, eləcə də Bakı şəhəri lüteran dini icmasının daxil olduğu Rusiya Yevangelik Lüteran Kilsəsinin Baş konsistoriyasının (Moskva idarəsi) Zaqafqaziya dairəsi[44].

Sual yarana bilər ki, çar Rusiyası niyə alman kolonistlərinə belə imtiyaz tanıyırdı? Halbuki Bakı şəhəri lüteran dini icması bilavasitə Baş konsistoriyaya tabe idi. Bu onunla bağlıdır ki, alman mühacirlərinin əksər hissəsi lüteranlığa qayıtsa da, onların qəlbində təriqətçi ruh hələ də yaşayırdı. Hətta alman koloniyalarında Bazel missionerlərinin təbliğatına və Sinod tərəfindən qəbul olunan Nizamnamələrə kəskin müqavimət göstərən sektantlar vardı.

"Qafqaz arxeologiya komissiyası aktları"ndan belə məlum olur ki, 1842-ci ilin payızında alman məskənlərində "separatçılar" təriqəti yenidən özünə tərəfdar toplaya bilmişdi. 1843-cü ildə Borçalı qəzasındakı Yekaterinenfeld alman məskənində yaşayan Şpon adlı yaşlı qadının axırzamana dair xəbərlərinin təsiri altında 366 nəfər təriqətçi mal-mülkünü ataraq Qüdsə köçməyə hazırlaşmışdı. Onların nəzərində bu qadın ilahi vəhy alan "məsum peyğəmbər"idi. Həmin dövrdə alman koloniyalarında yaranmış kritik vəziyyət belə təsvir olunurdu: *"Sektanın ardıcılları öz işlərini tərk edir, mal-mülklərini satır, yaxud hədiyyə edir və əl-qolunu bağlayaraq yola düşmək üçün göstərişi gözləyirlər. Tarlalar əkilməyib, üzüm bağları becərilməyib; dəmirçixana və çəlləkçi emalatxanasının qapıları bağlıdır; bu ustaların şagirdləri buraxılıb"*[45]. Düzdür, sonradan çar hökuməti müxtəlif yollarla Vürtemberq "separatçıları"nı Fələstinə köçmək niyyətindən daşındıra bilmişdir[46]. Lakin bu fakt onu göstərir ki, alman koloniyalarında hələ uzun müddət "separatçılar" təriqətinin təəssübkeşləri olub.

Beləliklə, Bazel missionerlərinin təbliğatı, çar hakimiyyəti

44 - Т.Н.Чернова-Дёке. Указ. соч. – с. 106.
45 - Bax: Акты, собранные Кавказской археографической комиссией: Том IX. – с. 689-690, 698.
46 - Yenə orada. – s. 698-709.

tərəfindən atılan addımlar, eləcə də 1836-cı ildə İsa Məsihin ikinci gəlişinə dair xəbərlərin puç olması alman koloniyalarında “separatçılar” təriqətinin mövqeyini sarsıtdı. Zaman keçdikcə sektantlar lüteran kilsəsinin ağuşuna qayıtdılar. Sonda Vürtemberq “separatçılığı” alman koloniyalarında tamamilə yoxa çıxdı.

O ki qaldı, uzun müddət alman kolonistləri arasında ruhani xidmət göstərən Bazel missionerlərinin sonrakı aqibətinə, 1835-ci ildə çar Rusiyası tərəfindən onların Qafqazdakı fəaliyyətinə qadağa qoyuldu, çünki çar hökuməti yerli müsəlman əhalini xristianlaşdırmaq şərti ilə onlara təbliğat aparmağa icazə vermişdi. Lakin Bazel missionerləri Şimali Azərbaycanda bir nəfər müsəlmanı belə xristian edə bilməmişlər. Bunu görən müstəbid çar rejimi həmin missioner təşkilatın fəaliyyətini faydasız saymışdır. Qeyd edək ki, 1835-ci ildə Qafqazda təkcə Bazel missionerlərinə deyil, həm də “Şotlandiya Missioner Cəmiyyəti”nin fəaliyyətinə qadağa qoyulmuşdu[47].



*Yelenendorfda (indiki Göygöl şəhəri) “Müqəddəs İohann” lüteran kilsəsi.*

Şimali Azərbaycanda fəaliyyət göstərdikləri qısa müddət ərzində Bazel missionerləri təbliğat sahəsində xeyli iş görə bildilər. İlk növbədə,

47 - Вердиева Х. Указ.соч. – с.22.

onlar xristian ədəbiyyatı yerli Qafqaz xalqlarının dillərinə çevirmişlər. Məsələn, 1841-ci ildə "Bazel Yevangelist Missioner Cəmiyyəti" Londonda Azərbaycan dilində Matfeydən nəql olunan İncili (tərcüməçi F.Zaremba) nəşr etmişdi. Xatırladaq ki, F.Zaremba ölkəmizə Bazel cəmiyyəti tərəfindən göndərilən ilk missioner olmuşdu. O, azərbaycanlı müsəlmanlar arasında təbliğat aparmaq üçün Azərbaycan dilini öyrənmişdi[48].

Onu da deyək ki, Azərbaycan dilində Əhdi-Cədidin tam tərcüməsi 1878-ci ildə Londonda işıq üzü görmüşdür. Əhdi-Ətiqin azərbaycanca ilk tərcüməsi isə 1891-ci ildə çıxmışdır.

## Lüteran kilsələri



*Şəmkirdə keçmiş alman lüteran kilsəsinin binası.*

Alman koloniyalarında din mühüm yer tutmuşdur. Ona görə də alman məskənlərində ilk növbədə ibadət yerlərinin açılması təbiidir. Məsələn, Yelenendorfda artıq XIX əsrin 20-ci illərində dua evi, 1834-cü ildə pastorlar üçün ayrıca bina tikilmişdi. 24 aprel 1854-cü ildə həmin alman koloniyasında kirxanın (lüteran kilsəsi; alman dilində "kilsə" deməkdir) təməli atılmış və 1857-ci ildə açılmışdır. 10 mart 1857-ci ildə bu məbədin – "Müqəddəs İohann" kilsəsinin təntənəli təqdisetmə mərasimi keçirilmişdir. 1909-cu ildə isə Annenfelddə memar F.A.Lemkulun layihəsi əsasında

48 - Ətraflı məlumat üçün bax: История евангельских христиан-баптистов в СССР. Москва: издание Всесоюзного совета Евангельских христиан-баптистов, 1989. - с. 38-39.

kilsə ucaldılmışdır. Hər iki kilsə Roma-qotika memarlıq üslubunda inşa olunmuşdur. Günümüzədək gəlib çıxan, Azərbaycan dövləti tərəfindən qorunan bu alman məbədləri cah-cəlaldan uzaq, sadə quruluşa malikdir[49].

Yelenendorfda kirxadan başqa, kilsə-prixod məktəbi də fəaliyyət göstərirdi. İlk vaxtlar yelenendorflu şagirdlər pastor İohann Yakob Krausun evində oxuma-yazmağı və dini bilikləri öyrənirdilər. 1842-ci ildə isə məktəb üçün ayrıca bina tikildi. Həm oğlan, həm də qızların oxuduğu bu məktəbə Xristofor Qotlib Kraus, daha sonra isə 20 il ərzində Georq Henrix Hummel başçılıq edib. Məktəbdə dərslər alman dilində keçirilirdi. Lakin 22 noyabr 1890-cı il tarixli qərarı ilə çar hökuməti bütün protestant lüteran məktəblərini Xalq Maarifi Nazirliyinin tabeçiliyinə verdi. Beləliklə, Yelenendorfdakı təhsil ocağının idarəsi pastorların əllərindən alındı, kilsə-prixod məktəbi ikisinifli məktəbə çevrildi, ana dili və dini qanunlar fənləri istisna olmaqla, dərslər rus dilində keçirilməyə başlanıldı[50].

## Bakıda Alman-İsveç prixodu

XIX əsrdə Azərbaycanda vürtemberqli almanlarla yanaşı, Alman xalqının başqa nümayəndələri də məskunlaşmışdı. Lakin onların ölkəmizə gəlmə səbəbi başqa olmuşdu. Belə ki, vürtemberqlilər müqəddəs torpaqlara daha yaxın olmaq, Dəccalın fitnə-fəsadlarından qurtulmaq, dini təqiblərdən xilas olmaq üçün Azərbaycana gəlmişdilər. Başqa almanlar isə sırf iqtisadi səbəblərə görə ölkəmizə üz tutmuşdular. Çünki XIX əsrdə Bakıda neft bumu yaşanmış, ölkədə sənayenin uğurlu inkişafı üçün geniş perspektivlər açılmışdı. Bu isə xeyli əcnəbini, o cümlədən almanları ölkəmizə cəlb etmişdi. Onlar arasında iş adamları, sənayeçilər, mühəndislər, memarlar, həkimlər, alimlər, müəllimlər və digər peşələrin sahibləri olmuşdu.

Qeyd edək ki, iqtisadi səbəblərə görə Azərbaycana üz tutan almanlar təkcə Almaniyadan deyil, həm də Rusiyanın daxili quberniyalarından gəlmişdilər[51]. Bakıya gələn əcnəbilər arasında məşhur Nobel qardaşları başda olmaqla, isveçli mütəxəssislər də olmuşdu. Həm isveçli mütəxəssislər, həm

49 - Bax: Зейналова С. М. Немецкие колонии в Азербайджане (1814-1941). – Баку: «Араз», 2002. - с. 58-60.

50 - Bax: Зейналова С. М. Немцы на Кавказе. – Баку: Мутарджим, 2008. - с. 70-71.

51 - Bax: Судаба Зейналова. Евангелическо-лютеранская община в Азербайджане: ретроспективный анализ// журнал «Кавказ и Глобализация». – SWEDEN: Central Asia & Central Caucasus Press AB, 2007. Том 1 (5). - с. 124.

də almanların bir çoxu lüteranlığa etiqad bəsləmişlər. Bu amil isə Bakıda alman-isveç yevangelist lüteran prixodunun yaranmasına gətirib çıxarmışdı.

Bu prixodun inkişaf tarixinə toxunmamışdan əvvəl onu qeyd edək ki, o vaxtlar ölkəmizə gələn isveçlilər, almanlar sənayenin, memarlığın, elmin inkişafına öz böyük töhfələrini verdilər. Burada neft sənayesi sahəsində uğur qazanan Nobel qardaşları, Gədəbəy və Daşkəsəndə dağ-mədən sənayesinin inkişafında mühüm xidmət göstərən Simens qardaşları, öz gözəl binaları ilə Bakını bəzəyən alman memarları haqda çox danışmaq olar.

Lakin bizi maraqlandıran Bakıdakı lüteran almanlar və isveçlilərin dini həyatıdır. Belə ki, 1868-ci ildə şəhərdəki almanlar ibadət etmək üçün kirayəyə götürülən evdə toplaşırdılar. O vaxtlar Bakıda lüteran pastoru yox idi. Buna baxmayaraq, 1870-1871-ci illərdə lüteran dini icmasında vəftiz, konfirmasiya və ölülərin dəfn mərasimi kimi ayinlər yerinə yetirilirdi. Lüteranlar üçün kilsə kəbini isə rus pravoslav məbədində - "Müqəddəs Möcüzə göstərən Nikolay" Baş kilsəsində kəsilirdi[52].

1873-cü ildə Bakıya məşhur Nobel qardaşlarından biri – Robertlə birgə isveçli lüteranlar gəlirdilər. Beləliklə, şəhərdə alman-isveç yevangelist lüteran prixodu yarandı.

Bakıdakı lüteran dini icması Rusiyanın Yevangelik Lüteran Kilsəsinin Moskva Yevangelik Lüteran Konsistoriyasının Dairəsinə daxil olmuşdu. 17 aprel 1877-ci ildə 58 nəfərin iştirakı ilə dini yığıncaq keçirilərək N.Q.Tol həmin icmanın kilsə şurasının sədri seçilmişdi. İndiki Bakı Şəhər İcra Hakimiyyətinin yerləşdiyi ərazidə dua evi və kilsə məktəbi üçün bina tikmək istəyən lüteranlar 2 may 1878-ci ildə Bakı Şəhər İdarəsinə müraciət ünvanlayaraq torpaq sahəsinin ayrılmasını xahiş etmişlər. Onların müraciəti təmin olunmamışdı. Onda 1879-cu ilin fevral ayında lüteran icması yenidən şəhər idarəsinə müraciət edərək köhnə müsəlman qəbiristanlığının şərq tərəfində (indiki "Monolit" binası və ondan yuxarı ərazi) bina tikmək arzusunda olduğunu bildirmişdi. Lakin icma yenə imtina cavabı almışdı. 28 iyun 1879-cu ildə lüteran icması bir daha torpaq sahəsinin ayrılması ilə bağlı ərizə vermişdi. Bu dəfə lüteran icması Bakının istənilən yerində, mərkəzdən çox da uzaq olmamaq şərti ilə torpaq sahəsi istəmişdir[53].

52 - Вах: Гумбатова Т. Баку и немцы. - Баку: Чашыоглу, 2008. - с. 93.
53 - Гумбатова Т. Указ.соч. – с. 92, 102, 112.

Nəhayət, 30 noyabr 1885-ci ildə Bakı şəhər Duması lüteran icmasına dua evi və məktəb tikmək məqsədilə Telefon küçəsində (indiki 28 may küçəsi) Masumov zavodu və Vermişev dəyirmanına yaxın yerdə 1400 kv. sajen ölçüsündə torpaq sahəsinin ayrılması barədə qərar verdi. 16 avqust 1886-cı ildə isə həmin ərazidə tikilməsi planlaşdırılan pastoratlıq və lüteran məktəbinin binasının layihəsi təsdiqləndi. Layihənin müəllifi İvan Vasilyeviç Edel oldu. Lakin maliyyə vəsaitinin çatışmaması ilə bağlı bu layihə həyata keçmədi. Ona görə də Suraxanı küçəsində (indiki Dilarə Əliyevə küçəsi) dua evi və məktəb üçün birmərtəbəli binanın tikintisinə dair qərar verildi. Binanın layihə müəllifi isə 24 yaşlı Adolf Vasilyeviç Eyxler (1869-1911) oldu[54].

1880-ci ildə lüteran icması Bakı şəhəri Yevangelik Lüteran prixoduna çevrildi. Prixodun prezidenti L.M. de Bur oldu. Elə həmin ilin mart ayının 16-da Herman Hanzen lüteran icmasında pastor-adyunkt vəzifəsinə gətirildi. 25 iyun 1888-ci ildə isə Rixard Verner Teodor Simmerman Bakı şəhəri Yevangelik Lüteran dini icmasına pastor vəzifəsinə təyin edildi[55].

"Xilaskar" kilsəsi və ya Lüteran kirxasının (indiki Azərbaycan Dövlət Filarmoniyası Kamera və Orqan Musiqi Zalının binası) tikilməsi ölkəmizdəki lüteranlığın tarixində ən böyük hadisə olur. Belə ki, 14 mart 1896-cı ildə Rusiya imperiyasının Daxili İşlər Nazirliyi Bakıda kirxanın inşasına icazə verir.


*Adolf Eyxler (1869-1911)*

21 mart 1896-cı ildə kilsənin təməli atılır. Təməlatma mərasimində məşhur Emmanuel Nobel də iştirak edir. 24 iyun 1898-ci ildə kirxanın şpilinə 213 kq ağırlığında və on beş min rubl dəyərində qızıl suyuna salınmış, gözəl xaç sancılır. 14 mart 1899-cu ildə kilsənin təqdisetmə mərasimi keçirilir[56].

Bu kilsənin memarı A. Eyxler olub. Lakin sonradan kilsənin tikintisinə mühəndis A. Loter rəhbərlik edib. Kilsə dindarların könüllü ianələri hesabına tikilib. Məşhur Nobel qardaşları da

54 - Лютеранская кирха: готика в Баку [Elektron resurs]. – URL: http://olaylar.az/news/blog-oksana/169782 (müraciət tarixi: 23.11.2016).
55 - Тамара Г. Там же. - с. 116, 207.
56 - Лютеранская кирха: готика в Баку//Там же.

bu kilsənin ucaldılmasına kifayət qədər maddi yardım göstəriblər. Lüteran məbədinin tikintisi 70 min rubla başa gəlib[57].



*"Xilaskar" Yevangelik-lüteran kilsəsi. Bakı. Tikinti tarixi: 1899-cu il.*

Kilsənin tikintisi ilə bağlı maraqlı faktlar var. Məsələn, o vaxtlar Bakıdakı lüteranlar Eyxlerdən xahiş ediblər ki, memar kilsəni Yelenendorfdakı lüteran məbədinə bənzər şəkildə tiksin. Amma A.Eyxler başqasının əsərini təkrarlamaq istəmir və alman qotikasının ən yaxşı ənənələrinə uyğun olaraq şah əsərini yaradır[58]. Günümüzədək gəlib çıxan bu kilsənin binası Bakının mərkəzində yerləşərək şəhərə xüsusi gözəllik verir.

Diqqətəlayiq faktdır ki, xeyriyyə fəaliyyəti ilə məşhurlaşan

57 - Лютеранская кирха: готика в Баку//Там же.
58 - Лютеранская кирха: готика в Баку//Там же.

azərbaycanlı milyonçu H.Z.Tağıyev "Xilaskar" lüteran kilsəsinin tikintisinə 100 rubl, lüteran dini icmasının özünə də eyni məbləğdə pul bağışlamışdır[59].

Çar Rusiyası dövründə yevangelik lüteranların tarixindən danışarkən, onların say məsələsinə də toxunmaq lazımdır. Belə ki, "Kaspi" qəzetinin (№ 41, 1893-cü il) verdiyi məlumata əsasən, 1893-cü ildə təkcə Bakıda 1455 lüteran yaşayırdı[60]. Bununla yanaşı, 1890-cı ildə Şamaxıda əsasən almanlardan ibarət olan 272 nəfərlik, Lənkəran şəhərində 41 nəfərlik lüteran dini icmaları vardı[61].

O vaxtlar Şamaxı və Bakıda erməni lüteran icmaları da mövcud olmuşdu. Bu icmalar Rusiya imperiyası tərəfindən ermənilərin Azərbaycana köçürülməsi siyasəti nəticəsində təşəkkül tapmışdı. Belə ki, XIX əsrdə çar Rusiyası öz dayaqlarını Cənubi Qafqazda möhkəmləndirmək üçün sadiq nökərlərini - erməniləri ölkəmizin müxtəlif bölgələrinə köçürmüş və regionda emənilərin xeyrinə demoqrafik vəziyyətin dəyişməsinə nail olmuşdu. İran və Türkiyədən gələn ermənilər Qarabağ, Naxçıvan və Qərbi Azərbaycanda məskunlaşmışlar. Buradan isə ölkəmizin müxtəlif yerlərinə səpələnmişlər. Ölkəmizə köçürülən ermənilər əvvəlcə Şamaxı, daha sonra isə Bakıda yerləşmişlər. Onlar arasında qərbli missionerlər təbliğat aparmış, bu təbliğatın təsiri altında bəzi ermənilər lüteranlığa və digər protestant məzhəblərə keçmişlər.

Nəticədə Şamaxıda erməni lüteran icması yaranmışdır. Bakıda isə lüteran ermənilər ilk vaxtlar alman və isveçlilərlə birgə ibadət edirmişlər. Amma həmməzhəbləri ilə yola getməyərək alman-isveç prixodundan ayrılmış, beləliklə 1881-ci ildə erməni yevangelik lüteran dini icması meydana gəlmişdir[62].

## Lüteran icmasının məhvi

1920-ci ildə Azərbaycanın Qırmızı Ordu tərəfindən işğal edilməsi nəticəsində ölkəmizdə sovet hakimiyyəti quruldu. İdeoloji cəhətdən qatı ateist olan bolşeviklər hakimiyyəti ələ keçirəndən sonra din əleyhinə

59 - Гумбатова Т. Указ. соч. – с. 409.
60 - Statistik rəqəmlər «Наш Баку: история Баку и бакинцев» saytından götürülmüşdür. – URL: https://www.ourbaku.com/index.php/Город_Баку_в_1892г._(полицейская_статистика) (müraciət tarixi: 23.11.2016).
61 - Гумбатова Т. Там же. – с. 228-229.
62 - Гумбатова Т. Указ. соч. – с. 93.

mübarizə aparmağa başladılar[63]. 1924-cü ilin yanvarında AK(b)P Mərkəzi Komitəsi Siyasi Bürosu tərəfindən Din Əleyhinə Komissiya yaradıldı, şəhər və kəndlərdə "Allahsızlar Cəmiyəti", 1929-cu ildə isə "Mübariz Allahsızlar İttifaqı" təsis olundu.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda hələ də lüteran icmaları mövcud olmuşdu. Məsələn, Yelenendorfda (indi Şəmkir) 25 noyabr 1924-cü ildə Zaqafqaziya Yevangelik Lüteran Kilsələri (kilsə icmaları) İttifaqının nizamnaməsi qəbul edilmişdi. Həmin nizamnaməyə görə, İttifaqa ober-pastor və onun iki nümayəndəsindən ibarət olan icra komitəsi başçılıq etmişdi. Bununla yanaşı, 1927-ci ildə 1173 nəfər üzvü olan Bakı Alman-İsveç Yevangelik Lüteran dini icması fəaliyyət göstərmişdi[64].

1920-ci ilin ikinci yarısından başlayaraq, xüsusən 1930-cu illərdə Sovet hakimiyyətinin dinə münasibəti daha da sərtləşdi. Digər dinlərin nümayəndələri kimi, lüteranlar da təqibə uğradılar. Belə ki, 1931-ci ildə Yelenendorfun pastoru Vensel və Annenfeldin pastoru Royş həbs olundular. 1937-ci ildə Bakı kirxasının pastoru Paul Hamberq repressiyaya məruz qaldı. 1936-cı ildə isə Yelenendorfun sonuncu pastoru Otto Vensel zindana atıldı. Annenfeldin sonuncu pastoru Emil Royş isə 1937-ci ildə tutularaq güllələndi. Repressiya ilə üzləşən lüteran keşişləri adətən Almaniya ilə əlaqədə və bu ölkədən yardım almaqda günahlandırılırdılar[65].

Eyni zamanda, 1930-cu illərdə bütün lüteran məbədləri bağlanılmış, 1937-ci ildə fəaliyyətdə olan lüteran kilsəsi qalmamışdı. Kilsə binalarının təyinatı dəyişdirilmişdi. Məsələn, Yelenendorfdakı "Müqəddəs İohann" kilsəsi idman zalına çevrilmişdi[66]. Bakıdakı kirxa isə 1930-cu illərdə Kirovun nəhəng heykəlinin düzəldilməsi üçün heykəltaraşlıq emalatxanası kimi işlədilmişdi.

Təzyiq və təqiblərə baxmayaraq, lüteranlar dini ənənələrini qoruyurdular. Ancaq İkinci dünya müharibəsinin başlaması Azərbaycandakı lüteran icmasına sağalmaz zərbə vurdu. Belə ki, qanlı Stalin rejimi almanlara "beşinci kolon" kimi yanaşaraq onları SSRİ-nin ən ucqar yerlərinə köçürdü. Azərbaycanda yaşayan almanlar da deportasiyaya məruz qaldılar.

---

63 - Судаба Зейналова. Евангелическо-лютеранская община в Азербайджане: ретроспективный анализ. – с. 129.
64 - Yenə orada. – s. 129-130.
65 - Судаба Зейналова.Указ.соч. – с. 130-131.
66 - Yenə orada. – s.132.

Deportasiyanın nəticələrinə nəzər yetirək: 1939-cu ildə ölkəmizdə 23 133 alman yaşayırdı. 8 oktyabr 1941-ci ildə Müdafiə Komitəsi "Gürcüstan, Azərbaycan və Ermənistan SSR-dən almanların köçürülməsinə dair" qərar çıxardı. Həmin qərara əsasən, ölkəmizdən 22 741 alman Qazaxıstan çöllərinə köçürüldü. Nəticədə Azərbaycanda çox az sayda alman qalır[67].



*1937-ci ildə repressiyaya məruz qalmış Bakı şəhəri lüteran dini icmasının pastoru Paul Hamberq.*

Almanların köçürülməsi ilə Yelenendorf, Annenfeld və digər alman koloniyalarında lüteran ənənəyə son qoyuldu. Deportasiyanın lüteranlığa necə böyük zərbə vurduğunu anlamaq üçün təkcə bir məsələni qeyd etmək kifayətdir: çar Rusiyası dövründə lüteranlıq Azərbaycanda sayca ən böyük protestant məzhəbi olub. Həmin protestant cərəyanın əksər hissəsi almanlardan ibarət olduğu üçün bu millətin nümayəndələri köçürüldükdən sonra lüteranların sayı kəskin şəkildə azalıb. Odur ki, hazırda Azərbaycanda lüteranlar çox kiçik dini icma ilə təmsil olunublar.

Almanlar deportasiyaya məruz qalsalar da, özlərindən sonra zəngin maddi-mədəni irs buraxmışlar. Azərbaycan dövləti isə bu irsin qorunması məsələsinə çox böyük həssaslıqla yanaşır. Məsələn, alman kolonistlərindən qalma binalar, eləcə də Bakı, Şəmkir, Göygöl və Gəncədəki keçmiş lüteran kilsələri təmir və bərpa olunub.

67 - Yenə orada.

Belə tarixi abidələrdən biri də Gəncədəki keçmiş lüteran kilsəsidir (indiki Gəncə Dövlət Kukla Teatrı). 1885-ci ildə eklektika memarlıq üslubunda ucaldılan bu binanın tikintisində əsasən tuf daşından istifadə olunmuşdur. 1915-ci ildə kirxanın binası pravoslavların ixtiyarına verilmişdir. 1 zal, 1 foye və 15 otaqdan ibarət olan binanın ümumi sahəsi 650 kv.m-dir.

Lüteran irsinə göstərilən ən böyük diqqətlərdən biri də Bakıda keçmiş alman kilsəsinin (indiki Müslim Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalının binası) bərpa edilməsi olmuşdur. Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2010-cu ildə binada əsaslı təmir və bərpa işlərinin aparılmasına başlanılmışdır. Mədəni dəyərlərə xüsusi diqqət və qayğı ilə yanaşan dövlətimizin başçısı tərəfindən imzalanan Sərəncama əsasən həmin tarixi abidənin təmiri üçün Prezidentin Ehtiyat Fondundan 1 milyon manat vəsait ayrılmışdır. Əsaslı təmir və bərpa işlərindən sonra 30 dekabr 2010-cu ildə kamera və orqan musiqisi zalının binasının açılışı olmuşdur. Açılışda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 avqust 2016-cı il tarixli Sərəncamı alman irsinə verilən ən böyük qiymətlərdən biridir. Belə ki, 2017-ci ildə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 ili tamam olur. Odur ki, dövlət başçısı İlham Əliyev alman koloniyalarının salınmasının 200-cü ildönümünün layiqincə qarşılanmasını təmin etmək məqsədi ilə Sərəncam vermişdir[68].

Təbii ki, bu Sərəncama əsasən həyata keçiriləcək geniş tədbirlər planı Azərbaycanda tarixən mövcud olan multikultural ənənələrin təbliği və ölkəmizin çoxəsrlik tolerantlıq məkanı kimi tanıdılması işində böyük rol oynayacaqdır.

68 - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi saytı. – URL: http://www.president.az/articles/20900 (müraciət tarixi: 01.09.2016).



*Gəncədəki keçmiş lüteran kilsəsi. Tikilmə tarixi: 1885-ci il.*

# İCMANIN DİRÇƏLİŞİ

1991-ci ildə Azərbaycan xalqı ateizm və kommunizmin buxovlarından qurtularaq yenidən müstəqilliyini qazandıqdan sonra ölkəmizdə vicdan azadlığı elan olunmuş, müxtəlif konfessiyaların nümayəndələri öz inanclarını qorxmadan, çəkinmədən sərbəst şəkildə yaşamaq imkanı qazanmışlar. Müstəqil Azərbaycanda dini etiqad azadlığının elan olunması lüteranlığın dirçəlişi üçün də şərait yaratmışdır.

Belə ki, alman pastoru Axim Rays Bakıda lüteran dini icmasının bərpası təşəbbüsü ilə çıxış etdi və bu istiqamətdə addımlar atdı[69]. Rusiya Almanlarının Tarixi və Mədəniyyətini Araşdıranlar Beynəlxalq Assosiasiyasının üzvü Tamara Hümbətova da lüteran dini icmasının dirçəldilməsi işində az rol oynamadı. Almaniya Federativ Respublikasının Azərbaycandakı səfirliyi bu işə öz dəstəyini verdi.

Nəticədə 1993-cü ildə Ədliyyə Nazirliyində Bakı şəhəri Yevangelik Lüteran dini icması qeydiyyata alındı. İcmanın sədri T. Hümbətova oldu. Bu icma əsasən alman əsilli Azərbaycan vətəndaşlarından, eləcə də alman mədəniyyətinə maraq göstərən şəxslərdən ibarət idi.

14 may 1999-cu ildə Bakı şəhəri Yevangelik Lüteran dini icması Lüteran Kilsəsinin ölkəmizdəki yüz illlik yubileyini qeyd etdi. Tədbirdə Bakı və Xəzəryanı Yeparxiyanın yepiskopu A.İşein, Almaniyanın ölkəmizdəki səfiri Zibek və digər möhtərəm qonaqlar iştirak etdilər. Bayram mərasimində dini ayin Rusiya Yevangelik Lüteran Kilsəsinin arxiyepiskopu Kreçmer, kilsənin superintendenti Ştefan Reder, pastor Hünter Oborski və pastor Rays tərəfindən həyata keçirildi[70].

2002-ci ilin fevral ayında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində "Xilaskar" Yevangelik Lüteranların Bakı dini icması dövlət qeydiyyatına alındı. İcmanın sədri Natalya Qaydarova seçildi. 14.05.2010-cu ildə isə həmin icma yenidən dövlət qeydiyyatından keçdi. Bu dəfə icmanın sədri Vera Nesterova oldu.

1 yanvar 2003-cü ildən başlayaraq Bakıdakı lüteranlar əsas dini ayinlərini Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalında (keçmiş "Xilaskar" lüteran kilsəsi) bazar günləri saat 10-dan 12-dək

69 - Гумбатова Т. Указ. соч. – с. 415.
70 - Yenə orada. – s. 415-416.

keçirirlər. Dini ayinlər Azərbaycan, alman və rus dillərində yerinə yetirilir. Həmçinin "Xilaskar" Yevangelik Lüteranların Bakı dini icmasının Azadlıq prospekti, 39 ünvanında  ofisi fəaliyyət göstərir.



*Bakı şəhərində lüteran dini icmasının ofisi.*



*Bakıdakı lüteran icması ənənəvi bazar günü ibadətində.*
*Soldan birinci: pastor M.İsmayılova.*

Sankt-Peterburq şəhərində Teologiya Seminariyasında dini təhsil almış Mənzər İsmayılovanın "Xilaskar" Yevangelik Lüteranların Bakı dini icmasına pastor təyin edilməsi lüteranlar üçün əlamətdar hadisə oldu, çünki icma üzvlərindən heç kəs dini ayinləri yerinə yetirə bilmirdi. Ayinlər Almaniyadan müvəqqəti gələn pastorlar tərəfindən həyata keçirilirdi. Lakin dini təhsil almış M.İsmayılovanın təyinatı vəziyyəti tamamilə dəyişdirdi. Qeyd edək ki, M. İsmayılova pastorluğa layiq görülən ilk azərbaycanlı qadındır.

Respublikamızda yaşayan lüteranlar üçün digər əlamətdar hadisə 2015-ci ildə baş vermişdir. Həmin ildə M.Lüterin Azərbaycan dilində "Kiçik Katexizis"i işıq üzü görmüşdür.

## Təşkilati strukturu

Lüteranlıq iki əsas istiqamətə - liberal və mühafizəkar qola bölünür. Liberal lüteranlığı əsasən, Almaniyanın pastorları və kilsələri təmsil edirlər. Mühafizəkar və liberal lüteranlar arasında ən böyük fərqlərdən biri ondan ibarətdir ki, liberallar qadınların pastor vəzifəsinə təyin olmasına normal baxırlar. Halbuki mühafizəkarlar qətiyyən qadınların pastorluğunu tanımaq istəmirlər.

Bakıdakı lüteran dini icması liberal istiqamətə aiddir, çünki Almaniyadakı lüteran kilsələrinin dəstəyi ilə yaradılıb və fəaliyyət göstərir. Həm də icmaya qadın pastor rəhbərlik edir.

Təşkilati stuktur baxımından lüteran kilsələrinə yepiskopal idarə forması xasdır. "Xilaskar" Yevangelik Lüteranların Bakı dini icması Gürcüstandakı Yevangelik Lüteran Kilsəsinə tabedir. Bu kilsəyə yepiskop rütbəsini daşıyan şəxs rəhbərlik edir. Hazırda Gürcüstandakı kilsənin rəhbəri yepiskop Hans-İoahim Kiderlendir. Gürcüstandakı Yevangelik Lüteran Kilsəsi, öz növbəsində, Yevangelik Lüteran Kilsələrinin Birliyinə (rəsmi adı: Rusiya və başqa ölkələrdə Yevangelik Lüteran Kilsələrinin Birliyi) daxildir. Birliyin başında arxiyepiskop (hazırda Ditrix Brauer) durur. Onun iqamətgahı Rusiyanın Sankt-Peterburq şəhərində Müqəddəs Pyotr və Pavel kilsəsində yerləşir. Həmin şəhərdə Birliyin dini təhsil ocağı – dini seminariyası da fəaliyyət göstərir. Qeyd edək ki, Yevangelik Lüteran Kilsələrinin Birliyi Ümumdünya Lüteran Federasiyasının üzvüdür.

## Başqa konfessiyalarla münasibət

Lüteranlıq ölkəmiz üçün ənənəvi protestant cərəyanıdır. Azərbaycanda lüteranlar hər zaman yerli adət-ənənlərə hörmət göstərmiş, eyni zamanda, başqa ölkələrdə keçirilən dini tədbirlərdə Azərbaycanın haqlı mövqeyini müdafiə etmişlər.

Habelə lüteranlar başqa konfessiyaların nümayəndələri ilə xoş münasibət saxlamağa çalışırlar. Təbii ki, onlar etiqadca protestant olduqları üçün daha çox yerli protestant icmaları, xüsusən özlərinə daha yaxın bildikləri presviterianlarla əməkdaşlıq edirlər.

## Maliyyə mənbəyi

Bakı şəhərindəki lüteran dini icmasının maliyyə vəziyyəti çox aşağıdır. Bu onunla bağlıdır ki, icma üzvlərinin əksəriyyəti imkansız, yaşlı insanlardan ibarətdir. Odur ki, "Xilaskar" Yevangelik Lüteranların Bakı dini icması Almaniyadakı lüteran kilsələri tərəfindən göstərilən maliyyə yardımı hesabına fəaliyyət göstərir.



*Bakıda lüteran dini icması Milad bayramını qeyd edərkən.*

Bununla yanaşı, 2011-ci ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi əsasında dövlət büdcəsindən müsəlman və qeyri-müsəlman dini icmalar üçün maliyyə vəsaiti ayrılır. Həmin dini icmalar arasında "Xilaskar" Yevangelik Lüteranların Bakı dini icması da var. Dövlət tərəfindən verilən bu maliyyə yardımı lüteran icmasının ayaqda qalmasında əhəmiyyətli rol oynayır. Bu fakt isə Azərbaycan dövlətinin müxtəlif din və konfessiya nümayəndələrinin ehtiyaclarına necə həssaslıqla yanaşdığını bariz şəkildə göstərir.

## Say

Xristianlığın protestant qoluna aktiv missionerlik səciyyəvidir. Lakin respublikamızda yaşayan lüteranlar dini təbliğatla məşğul olmayan yeganə protestantlardır desək, yəgin ki, yanılmarıq. Bu amil isə onların say və yaş tərkibinə təsir göstərir. Belə ki, lüteran icmasının sayı olduqca aşağıdır – cəmi 80 nəfər (34 nəfər - azərbaycanlı; 31 nəfər - alman əsilli Azərbaycan vətəndaşı; 15 nəfər rus).

Onu da deyək ki, dünyada lüteranların sayı təqribən 85 milyondur.

## BAPTİZM: ÜMUMİ MƏLUMAT

Baptizm sözü "suya batırıram", "xaç suyuna salıram" mənasına gələn "baptizo" yunan sözündən yaranmışdır. Bu protestant cərəyanın yaranması XVII əsrə təsadüf edir və ingiltərəli Con Smitin adı ilə bağlıdır. O, rəsmi Anqlikan Kilsəsinin keşişi olub. 1605-ci ildə dövlət kilsəsindən ayrılan "puritan-separatçı" ("independentlər") təriqətinə qoşulub. İfrat dünyagörüşləri ilə fərqlənən bu təriqətin tərəfdarları dövlət kilsəsində qəti islahatların aparılmasına çağırıblar. C.Smit "separatçı" təriqətçilərə qoşulduqdan sonra Qeysboro şəhərində "independentlər"in dini icmasına pastor seçilib[71].

İngiltərədə "independentlər" təqibə məruz qaldıqları üçün 1609-cu ildə C.Smit öz qrupu ilə Hollandiyaya köçüb. Burada Müqəddəs Kitabı dərin araşdırdıqdan və mennonitlərin dini təlimləri ilə tanış olduqdan sonra belə qənaətə gəlib ki, uşaqların vəftiz olunması doğru deyildir, çünki mömin yalnız həddi-büluğ yaşına çatdıqdan, yaxşı ilə pisi seçə bildikdən sonra xaç suyuna salınmalıdır. O, hesab edirdi ki, İsa Məsihin təlimini şüurlu şəkildə qəbul edənlər vəftiz mərasiminə buraxıla bilərdilər. Ona görə də C.Smit, köməkçisi Tomas Helvis və icmasının başqa üzvləri özlərini yenidən xaç suyuna saldılar. Beləliklə, 1609-cu ildə Amsterdamda Beykerştrasse küçəsində 40 nəfərlik Baptist icması təşəkkül tapdı[72].

Təqribən 1612-ci ildə C.Smitin köməkçisi T.Helvis bir qrup baptistlə birgə öz vətəninə - İngiltərəyə qayıtdı və burada ilk baptist kilsəsi yaratdı. Onu da deyək ki, C.Smit və T.Helvis baptizmin "ümumi" (ing. "general") qolunun əsasını qoymuşlar. "Ümumi" baptistlər hollandiyalı ilahiyyatçı Yakov Arminiyin "ümumi xilas" dini təliminə etiqad bəsləyirdilər. Həmin təlimə əsasən, insan azad iradəyə malikdir və İsa Məsihə iman gətirən hər kəs xilas olmalıdır. Hər kəsin xilasına inandıqları üçün C.Smit və T.Helvisin ardıcılları "ümumi" baptistlər adlandırılmışlar[73].

Bundan başqa, İngiltərədə 1638-ci ildə "xüsusi" (ing. "particular")

71 - Популярно о баптизме (100 иллюстраций) [Elektron resurs]. – URL: http://rusbaptist.stunda.org/popularno-o-baptizme.pdf (19.08.2016-cı il).

72 - Yenə orada.

73 - ПРОТЕСТАНТИЗМ: история, направления и казахстанские реалии (информационный справочник). – Астана: РГУ «Научно-исследовательский и аналитический центр по вопросам религии» Агентства Республики Казахстан по делам религий. – с. 22 [Elektron resurs]. – URL: http://din-almaty.gov.kz/uploads/protestantizm.pdf (müraciət tarixi: 19.08.2016-cı il).

baptistlərin ilk kilsəsi yaranmışdı. Onlar fransız ilahiyyatçısı Jan Kalvinin dini təliminə etiqad bəslədikləri üçün "xüsusi" adını almışlar. Çünki həmin təlimə görə, İsa Məsih yalnız xüsusi, seçilmiş insanların xilası üçün göndərilmiş və Tanrı tərəfindən insana iradə azadlığı verilməmişdir. Qeyd edək ki, dünyada "xüsusi" baptistlərin sayı "ümumi"lərdən çoxdur[74].

1630-cu ildə İngiltərədən Şimali Amerikaya Rocer Uilyams köçür və burada baptizmin təməlini atır. Zaman keçdikcə, baptizm ABŞ-da ən çoxsaylı və nüfuzlu xristian məzhəblərindən birinə çevrilir. Hazırda dünya baptistlərinin az qala yarısı (təqribən 49 milyon) ABŞ-da yaşayır[75].

Başqa protestantlar kimi, baptistlər də Bibliyanı imanın yeganə qaynağı olaraq qəbul edir, ruhani sinfi inkar edir, müqəddəslərə və dini əşyalara pərəstişi günah sayır, Allah ilə insan arasında vasitəçi tanımır, saf erkən xristian inancına qayıtmağa səsləyirlər. Bununla yanaşı, baptizmin özünəməxsus cəhətləri var.

İlk növbədə, baptistlər uşaqların xaç suyuna salınması məsələsinə mənfi yanaşırlar. Onlar bildirirlər ki, insan yalnız yetkinlik yaşına çatdıqdan, yaxşı ilə pisi seçə bildikdən sonra şüurlu şəkildə vəftiz olunmalıdır. Vəftizə belə böyük əhəmiyyət verdikləri üçün onlar baptist adlandırılmışlar[76].



*Vəftiz mərasimi*

74 - Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. – М.: Издательство Московского университета, 2010. – с. 123; ПРОТЕСТАНТИЗМ: история, направления и казахстанские реалии (информационный справочник) //Там же.
75 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с. 123,126.
76 - Yenə orada. – s. 124.

Baptizmin inanc əsaslarında "ümumi ruhanilik" prinsipi də böyük yer tutur. Həmin prinsipə görə, bütün kilsə üzvləri bərabər hüquqlara malikdirlər. Onlar ruhani və dünyəvi təbəqəyə bölünmürlər. Və hər kəs keşiş vəzifəsini yerinə yetirə bilər. Qısaca desək, baptistlər ruhani institutun Tanrı tərəfindən seçilmiş olduğuna inanmırlar[77].

Konqreqatsionalist prinsiplər əsasında yerli kilsənin idarə olunması baptizmin özünəməxsus cəhətlərindən biridir. Belə ki, həmin prinsipə görə, hər baptist dini icması müstəqildir, hər hansı mərkəzə tabe deyildir. İcmanın idarəsində bütün üzvlər iştirak edirlər[78]. Maraqlıdır ki, qəti dünyəvilik - baptizmin inanc əsaslarından biridir. Belə ki, baptistlər dövlətlə dinin ayrılmasına tərəfdar çıxırlar[79].

Baptistlər öz uşaqlarını kilsə mənsubu saymırlar. Uşaqlar istisna olmaqla, baptistlərin dünya üzrə sayı təqribən 50 milyondur. Onların da az qala yarısı ABŞ-da yaşayır. Dünyada xeyli baptist təşkilat mövcuddur. Onlar arasında sayca ən böyük olanı "Ümumdünya Baptist Alyansı"dır ("Baptist World Alliance")[80]. Birliyə dünyanın 121 ölkəsində fəaliyyət göstərən 231 baptist təşkilatı daxildir[81].

---

77 - Yenə orada. – s. 125.
78 - Yenə orada.
79 - Популярно о баптизме (100 иллюстраций) //Там же.
80 - Популярно о баптизме (100 иллюстраций)//Там же; Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с. 125-126.
81 - Ümumdünya Baptist Alyansının rəsmi saytı: http://bwanet.org/about-us2/intra-baptist-relations (müraciət tarixi: 19.08.2016-cı il).

# ŞƏRQ BAPTİZMİ

*Kiçik Qafqazın yüksək dağlıq qurşağında, dəniz səviyyəsindən 3000 metrdən də çox yüksəklikdə sıx meşələrin əhatəsində Novoivanovka kəndi (Gədəbəy rayonu) yerləşir. Novoivanovka XIX əsrdə molokanlar tərəfindən salınıb. Çox az adam bilir ki, Azərbaycanda baptizm bu kiçik kənddən yayılmağa başlayıb. Belə ki, 1870-ci illərin əvvəllərində həmin kəndin sakini Vasili Vasilyeviç İvanov öz doğma kəndində – Novoivanovkada baptist icması yaradıb, buradan isə baptizm ölkəmizin digər bölgələrinə sirayət edib.*

*V.V.İvanov təkcə Azərbaycanda deyil, ümumiyyətlə, Rusiyada baptizmin inkişafına böyük təsir göstərib. Ölkəmizdə onun tərəfindən baptizmin necə yayıldığı haqda bəhs etməmişdən öncə Şamaxı və Lənkərana nəzər yetirək. Çünki rus baptizmi öz başlanğıcını həmin yerlərdən götürür.*

## Şamaxı və Lənkəran - rus baptizminin yaranma mərkəzi kimi...

XIX əsrin 40-50-ci illərində Bakı quberniyasının Lənkəran və Şamaxı qəzasında yeni bir molokan təriqəti ortaya çıxır. Əsas xristian ayinlərinə riayət etməyən digər molokanlardan fərqli olaraq, bu təriqət üzvləri vəftiz olunurdular. Ona görə də onları “vodniye molokane” (“su molokanları”) adlandırırdılar[82].

“Vodniye molokane” təriqətinin təlimi XIX əsrin 60-cı illərində Bakı quberniyasından Həştərxana, daha sonra isə Rusiyanın mərkəzi quberniyalarına yayılır. Onu da qeyd edək ki, həmin təriqətin təliminə əsasən, yalnız yetkinlik yaşına çatmış şəxslər xaç suyuna salına bilərdilər[83].

Bu təriqətin təliminə maraq göstərənlərdən biri də Tiflis şəhərində yaşayan molokan taciri Nikita İsayeviç Voronin olur. Lakin “vodniye molokane” sektasının təlimi bu taciri tam qane etmirdi. O, uzun müddət dua edərək nicat yolu axtarırdı. Sonda öz günahlarına görə peşmanlıq duyaraq tövbə etdi və vəftiz olunmaq istədi. Ona görə də onu xaç suyuna salacaq adam axtarırdı. Tezliklə o, presviterian missioneri Yakov Delyakovla tanış oldu. Lakin Delyakovun vəftizlə bağlı görüşləri Voronini qane etmədi, çünki presviterian missioneri uşaqların xaç suyuna salınmasını doğru sayırdı.

82 - История евангельских христиан-баптистов в СССР. - Москва: Издание всесоюзного совета евангельских христиан-баптистов, 1989. - с.42.
83 - Yenə orada.

Voronin isə bu fikirlə qətiyyən razı deyildi. Onda Delyakov Voronini Tiflis şəhərində 15 nəfərlik alman baptist icmasına rəhbərlik edən Martin Karloviç Kalveytlə tanış etdi[84].

Bu tanışlıq Voroninin həyatını dəyişdi. 20 avqust 1867-ci ildə o, Tiflis şəhərində Kür çayında Kalveyt tərəfindən xaç suyuna salındı. Onun vəftiz olunması tarixi Rusiya və Ukrayna baptizminin başlanğıcı sayılır. Vəftizdən sonra Voronin molokanlar arasında təbliğat aparmağa başladı və bir ildən sonra Tiflis şəhərində bu tacirin başçılığı altında altı nəfərlik dini icma təşəkkül tapdı. Voroninin kiçik dini qrupu tarixdə ilk rus baptist icması oldu[85].

İlk vaxtlar Tiflisdəki rus icmasının üzvləri özlərini "imanla vəftiz olunan məsihçilər" adlandırıblar. Lakin sonradan etiqadi baxımdan alman baptistlərinə yaxın olduqlarını görüb, özlərinə baptist dedilər. Onu da deyək ki, alman baptistləri missionerlik fəaliyyəti ilə məşğul olmur və rus baptistlərindən ayrı ibadət edirdilər. Ancaq Tiflisdə alman baptist icması dağılandan sonra Kalveyt ailəsi ilə rus baptist icmasına qoşuldu[86].

Zaman keçdikcə Qafqazdakı baptizmin özəyi - Tiflisdəki rus baptist icması böyüdü. Onun üzvləri Qafqazın müxtəlif bölgələrində molokanlar arasında dini təbliğat apararaq baptizmi yaydılar.

## İlk missionerlər



*V asili Vasilyeviç İvanov (1846 — 1919)*

Tiflis dini icmasının üzvlərindən biri, daha əvvəl adını çəkdiyimiz Yelizavetpol quberniyasının Novoivanovka kəndinin sakini V.V.İvanov (1846 — 1919) olub. O, 31 oktyabr 1871-ci ildə Tiflisdə Kür çayında iyirmi beş yaşında xaç suyuna salınaraq baptizmi qəbul edib. Bu hadisəni Azərbaycanda baptizminin yaranma tarixi saymaq olar. Çünki vəftiz olunduqdan sonra İvanov doğma Novoivanovka kəndinə qayıdaraq dini icma yaratdı və sonra baptizmi

84 - История евангельских христиан-баптистов в СССР. – с. 74-75.
85 - Yenə orada. - səh. 75, 522.
86 - Баптизм в Баку [Elektron resurs]//сайт Наш Баку: История Баку и бакинцев. – URL: https://www.ourbaku.com/index.php/Баптизм_в_Баку (müraciət tarixi: 16.08.2016-cı il).

ölkəmizin başqa bölgələrində yaydı[87]. Belə ki, o, 1873-cü ildə missioner səfərə çıxaraq Şamaxı qəzasının Çuxur-Yurd və Cabanı kəndinə, eləcə də Lənkəran qəzasının Lənkəran şəhərinə, Andreyevka və Prişib kəndlərinə baş çəkib. Onun təbliğatı nəticəsində bəzi molokanlar baptizmə keçib[88]. Aleksandr Yunitski İvanovun missioner fəaliyyəti barədə yazırdı: *"Məhz bu İvanov Bakı quberniyasının əhalisi, molokanlar, ermənilər (Rusiya imperiyası tərəfindən İran və Türkiyədən Şimali Azərbaycana köçürülən ermənilər nəzərdə tutulur – A.Ə.) və başqaları arasında baptizmi yayan ilk şəxs olub. Məsələn, İvanov Bakı quberniyasının İvanovka kəndində Mamonovları, Qalyavıxları, Andreyevka kəndində Serebryakovları, Bakı şəhərində Vorobyovları (1879-cu il), Yurinləri və başqa molokan ailələri baptizmə cəlb edib. İvanov müxtəlif yerlərə "Bibliya Cəmiyyətinin" kitab satanı adı ilə səyahət edib. Halbuki o, heç vaxt həmin cəmiyyətin kitab satanı olmayıb"*[89].



*Vasili Quryeviç Pavlov (1854-1924)*

1870-cı illərin sonlarında Novoivanovka kəndindəki baptist icmasından sonra Şamaxı qəzasının Çuxur-Yurd kəndində, Lənkəran qəzasının Andreyevka kəndində, Yelizavetpol qəzasının Novosaratovka və Novomixaylovka kəndlərində, eləcə də Yelizavetpol quberniyasının Qazax qəzasının Mixaylovka kəndində "stansiya" adlanan törəmə icmalar meydana gəlib[90].

XIX əsrdə Azərbaycan ərazisində İvanovdan başqa daha bir baptist missioneri aktiv fəaliyyət göstərib. Onun adı Vasili Quryeviç Pavlov olub. O, Bakı quberniyasının Vorontsovka kəndində dünyaya gəlib. İlk rus baptisti Voroninin yanında prikazçik işləyib. Elə o vaxtlar baptizmlə tanış olub və 9 aprel 1871-ci ildə Tiflis şəhərində xaç suyuna salınıb. Tiflis baptist rus icmasında fitri istedadı, zəkası və natiqliq bacarığı ilə seçilib. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Xristianlığı yaymaq üçün bu alovlu rus missioneri

87 - История евангельских христиан-баптистов в СССР. - с. 70, 527.

88 - История евангельских христиан-баптистов в СССР. - с.70.

89 - Юницкий А. Гнезда сектанства на Кавказе. Санкт-Петербург: Санкт-Петербургская православная духовная академия, 2009 г. - с.157.

90 - Клибанов А.И. История религиозного сектанства в России (60-е годы XIX в.-1917 г.). - Москва: Наука, 1965. - с. 190.

iyirmidən artıq dil, eləcə də Azərbaycan dilini öyrənib[91].

1875-ci ildə Tiflis rus baptist icması Pavlovu ilahiyyat təhsili almaq üçün Hamburq şəhərinə göndərir. Burada o, Avropada baptizmin əsasını qoyan pastor İohann Herxard Onkenin yanında dini təhsil alıb[92]. Pavlov Hamburqdakı təhsilini belə xatırlayırdı: *“Alman baptist icmalarının banisi, mərhum İ.Q.Onkenlə tanış olmaq şərəfi mənə nəsib oldu. O, taleyimdə yaxından iştirak etdi və P.Vilrat adında bir təbliğçiyə mənə alman dili və ilahiyyatı öyrətməyi tapşırdı. 1876-cı ildə İ.Q.Onken tərəfindən missionerliyə təyin olundum və Tiflisə evimə qayıtdım”*[93].

Pavlov Tiflisə qayıtdıqdan sonra missionerlik məqsədilə Qafqazın müxtəlif yerlərinə baş çəkdi. Təbliğatına doğma Vorontsovka kəndindən başladı. O, xatirələrində yazırdı: *“...1876-cı ilin payızında bir qardaşla Qafqaz diyarı üzrə ilk missioner səyahətimi həyata keçirdim, çünki bəzi dostlar onlara baş çəkməyi xahiş edirdilər. İlk getdiyimiz yer, doğulduğum Vorontsovka molokan kəndi oldu. Orada biz bir neçə gün qaldıq, molokan yığıncağına qatıldıq, lakin ağsaqqallar bizə düşmən münasibət bəsləyirdilər və biz şəxsi evdə bir neçə toplantı keçirdik”*[94].

Vorontsovka kəndindən sonra Pavlov başqa bəzi molokan kəndlərinə, o cümlədən ondan üç il öncə İvanovun təbliğat apardığı yerlərə getdi[95]. O, yazırdı: *“...biz Novoivanovka kəndinə baş çəkdik və sonra Dzeqam stansiyasına gəlib çıxaraq poçt atlarında Bakı quberniyasına getdik. Şamaxı şəhərinə, Çuxur-Yurd kəndinə gəldik, sonra Prişib kəndinə və nəhayət, İran sərhədinin yaxınlığında Xəzər dənizinin sahilində yerləşən Lənkəran şəhərinə çatdıq. Burada bir neçə mübarək toplantımız oldu, bir neçə nəfər imana gəldi və kilsə kök saldı”*[96].

Gördüyümüz kimi, İvanov və Pavlov baptizmi molokanlar arasında yayan ilk missionerlər olublar. Molokanlığın özü isə Qafqazda baptizmin

91 - История евангельских христиан-баптистов в СССР. - с.70.
92 - Yenə orada.
93 - Баптист. - Одесса: 27 июля 1911 г. - №31. - с. 244
94 - В.Г.Павлов. Воспоминания ссыльного//Материалы к истории и изучению русского сектантства и раскола. Баптисты, прыгуны, духоборцы, Л.Толстой о скопчестве, павловцы, поморцы, старообрядцы, скопцы, штундисты/ Под редакцией Владимира Бонч-Бруевича. - Санкт-Петербург: 1908 г. Выпуск первый. - с. 2 (bundan sonra: Материалы к истории и изучению русского сектантства и раскола).
95 - История евангельских христиан-баптистов в СССР. - с.77.
96 - Материалы к истории и изучению русского сектантства и раскола. - с. 3.

təşəkkül tapması üçün münbit zəmin yaradıb. V.A.Valkeviç bu barədə yazırdı: *“...Qafqazda elə molokan kəndi yoxdur ki, orada baptist təriqəti özünə möhkəm yuva qurmasın...”*[97].

Baptizm ən sürətlə Bakı quberniyasında yayılırdı. Məsələn, “Rusiya və xüsusən Qafqazda protestant sektaların təbliğatı haqqında qeyd” kitabında belə məlumata rast gəlirik: *“...molokanların çoxluğu səbəbilə baptist təbliğatı Qafqazın ayrı-ayrı bölgələrindən daha çox Bakı quberniyasında uğur qazanırdı...”*[98].

Qeyd edək ki, 1907-ci ildə çıxan “Baptist” jurnalında çar Rusiyası dövründə Azərbaycanda mövcud olan baptist icmalar və onların rəhbərləri haqda məlumatlar mövcuddur. Həmin məlumatlara görə, Vasili Quryeviç Pavlov tərəfindən presviterliyə təyin olunan İvanov, öz növbəsində, aşağıdakı şəxsləri presviter vəzifəsinə təyin edib:

İvan Stepanoviç Filatov - Lənkəran qəzasının Andreyevka kəndi;

*Platon Afanasyeviç Filatov* - Cavad qəzasının Novoivanovka kəndi;

*Leonti Afanasyeviç Krızunov* - Lənkəran şəhəri;

*Kuzma Daniloviç Zakurdayev* - Yelizavetpol quberniyasının Novomixaylovka kəndi.

V.V.İvanov tərəfindən presviterliyə seçilən Dey İvanoviç Mazayev isə 21 yanvar 1906-cı ildə Mixail İvanoviç Jiruyevi Bakı quberniyasının Çuxur-Yurd kəndinə presviter təyin edib[99].

## Təqib illəri

Çar Rusiyası dövründə baptistlər müxtəlif təzyiqlərlə üzləşirdilər, çünki müstəbid rejim hakim mövqedə dayanan Rus Pravoslav Kilsəsinin keşiyində durur, pravoslavlığın maraqlarını müdafiə edirdi.

Rusiya İmperiyası Senatının 12 sentyabr 1879-cu il tarixli Fərmanı ilə baptistlərə dini etiqad azadlığının tanınmasına baxmayaraq[100], pravoslav əhali

97 - Sitat A.İ.Klibanovun “Rusiyada dini sektantlığın tarixi (XIX əsrin 60-cı illəri-1917-ci il)” adlı monoqrafiyasından gətirilmişdir, səh. 190.

98 - Sitat A.İ.Klibanovun “Rusiyada dini sektantlığın tarixi (XIX əsrin 60-cı illəri-1917-ci il)” adlı monoqrafiyasından gətirilmişdir, səh. 190.

99 - Баптист. № 4. Октябрь, 1907 г. - с.17-18; Баптист. № 5. Ноябрь, 1907 г. - с. 12.

100 - Материалы к истории и изучению русского сектантства. Преследование баптистов евангелической секты/ Под редакцией Владимира Бонч-Бруевича. Выпуск 6-ой. - Крайстчёрчь (Англия, Хантс): Издание «Свободного Слова», 1902 г. № 69. - с.68 (bundan sonra: Преследование

arasında baptizmi təbliğ etmək qadağan idi. Buna yol verənlər ağır cəzalara məruz qalırdılar. Hətta molokanları və başqa qeyri-pravoslavları öz dinlərinə cəlb edən rus baptistlər belə, təzyiqlərlə üzləşirdilər. Pavlov missioner fəaliyyəti zamanı üzləşdiyi təzyiqlərlə bağlı xatırələrində qeyd edirdi: *"... qədim düşmən təqibə başladı. Lüteran dinini yaymağımız haqda qəza rəisinə xəbər verdilər. Bizləri polisə çağırdılar, pasportlarımızı əlimizdən aldılar və evə qayıtmağımızı əmr etdilər. Bizləri etapla yollamasalar da, getdiyimiz yolda qəza rəislərinə təqdim etmək üçün sənədlər paketi verdilər. Hər şey yaxşı gedirdi, ta ki, Yelizavetpol quberniyasının Ağdaş adlı yerinə çatanadək. Oradan bizi qəza rəisi konvoyun nəzarəti altında Yelizavetpol şəhərinə göndərdi. Yolda məzəli hadisə baş verdi. Bizi bir poçt stansiyasından digər poçt stansiyasına kimi müşayiət edən atlılar geridə qaldılar və biz təkbaşına poçt atlarında getdik. Yelizavetpol şəhərinə gəldik və mehmanxanada gecələmək üçün yerləşdik. Gecə vaxtı qapıları döyməyə başladılar və məhbuslar qaçıblar deyərək, bizi axtarmağa başladılar. Səhərədək üstümüzə gözətçi qoydular, sübh tezdən isə Yelizavetpol şəhərinin qəza rəisi yenə bizi azadlığa buraxdı və biz yenə Tiflisə kimi konvoysuz getdik. Tiflisə çatanda biz polisə getməli və lüteran dinini yaymayacağımız barədə iltizama imza atmalı idik. Lüteran kilsəsinə mənsub olmadığımız üçün vicdan əzabı çəkmədən bu kağıza imza atdıq"*[101].

1880-cı ildə qatı pravoslav olan Konstantin Petroviç Pobedonostsevin (1827-1907) Müqəddəs Sinodun ober-prokuroru vəzifəsinə gəlməsi, xüsusən onun mürtəce siyasətini həyata keçirən Pavelin Gürcüstanın ekzarxı vəzifəsinə təyin edilməsi ilə Qafqazdakı baptistlərin durumu ağırlaşdı. Belə ki, Pobedonostsevin təşəbbüsü ilə protestantlara qarşı irtica mahiyyətli müxtəlif qərarlar qəbul olundu, qanunlar sərtləşdirildi, protestant təbliğat susdurulmağa çalışıldı. Rus baptistlərinin lideri Pavlov bu barədə yazırdı: *"1887-ci ildə Pobedonostsev bir sıra tədbirlər gördü və sektantlara qarşı amansız təqib erası açdı. Qafqazda biz bu qəddar rejimin ilk qurbanları olduq"*[102]. Gürcüstan ekzarxı isə, öz növbəsində, Tiflis rus baptist icmasının fəaliyyətini qadağan etdi. 1887-ci ilin aprel ayında Pavlov missioner

баптистов евангелической секты).

101 - Материалы к истории и изучению русского сектантства и раскола. - с.3.

102 - Баптист. - Одесса: 27 июля 1911 г. №31. - с. 244.

fəaliyyətinə görə həbs olunaraq ailəsi ilə birgə dörd il müddətinə Orenburqa göndərildi, 1895-cı ildə isə İvanov tutularaq Slutska sürgün edildi[103].

Rusiyası imperiyasında təkcə baptist missionerlər deyil, həm də pravoslavlıqdan baptizmə keçənlər də ağır sıxıntılarla üzləşirdilər. İlk rus baptistlərin xatirələrindən belə məlum olur ki, əcdadların dinindən üz döndərmək onlara çox baha başa gəlirdi. Onlar söyülür, təhqir olunur, azadlıqdan məhrum edilirdilər. Ailələri isə dəhşətli işgəncə və zorakılığa məruz qalırdı. Pravoslav ruhaniləri bu işdə fəal rol oynayır, camaatı baptistlərin üzərinə qışqırdırdılar. Rus tarixçisi V.D.Bonç-Bruyeviç bu barədə yazırdı: *"...qara kəndli camaat sektantlara qəzəblənir və çox vaxt "əqidə məsələləri ilə bağlı sorğu-sualdan" sonra ştundist və baptistlərə qarşı əsl talan başlayırdı: sektantların özləri ailələri ilə birgə döyülür, əmlakları isə qarət olunurdu. Əlbəttə, belə əməllər adətən administrasiya tərəfindən ört-basdıq edilirdi; məzlum mətbuat susur və nadir istisnalar olmaqla, nə xalq, nə cəmiyyət bu kədərli hadisələr haqqında heç nə bilmirdi. Yalnız indi, çox illər sonra, müxtəlif sektantların xatirə və gündəliklərindən XX əsrin astanasında rus kəndləri və xutorlarında zemstvonun rəisləri, missionerlər, keşişlər və digər ixtiyar sahiblərinin himayəsi altında baş verən bütün dəhşətlər barədə xəbər tuturuq"*[104].

4 iyun 1894-cü ildə Rusiya imperiyasında Nazirlər Kabineti tərəfindən "kilsə və dövlətə münasibətdə xüsusən zərərli" olan ştundizm təriqətinin qadağan olunması barədə qərar qəbul edilir[105]. Bundan sonra baptistləri "ştundist" adı ilə təqib etməyə başladılar. Baptist və digər təriqətçilərin təqibində pravoslav keşişləri xüsusən canfəşanlıq göstərir, pravoslavlığı tanımayan hər kəsi ştundist adlandıraraq hakimiyyət orqanlarına təslim edirdilər. Rus dinşünası L.N.Mitroxin qeyd edir: *"Rəsmi kilsə pravoslavlıq üçün təhlükə gördüyü müxtəlif sektaları süni şəkildə ştundizm anlayışına daxil edərək ştundistlərə qarşı əsl xaçlı səfəri təşkil etdi. Kilsə xadimləri hökumət nümayəndələrini sektantlara divan tutmağa təhrik edərək hər vəchlə onların "kommunist" və hökumətə qarşı olan mahiyyətlərini sübuta yetirirdilər. Bu motivlər əsasında onlar tez-tez ştundistlərin sıralarına ilk baptistləri*

103 - История евангельских христиан-баптистов в СССР. - с. 107, 527.
104 - Преследование баптистов евангелической секты. - с. XXII-XXIII.
105 - Yenə orada. – s. 69-70.

*də salırdılar”*[106]. Baptizm və ştundizmin fərqli cəhətlərinə toxunan Bonç-Bruyeviç isə yazırdı: *“...ruhani hakimiyyət pravoslavlıqla bu və ya digər şəkildə razılaşmayan, ümumiyyətlə, hər kəsi ştundizm rubrikasına daxil etmək üçün can atmağa başlayır”*[107].

Burada ştundizm haqqında qısaca məlumat vermək yerinə düşərdi. Ştundizm sözü “Bibliya saatı” mənasına gələn “Bibel Stunde” alman ifadəsindən yaranmışdır. XIX əsrin 2-ci yarısında rus və ukraynalı kəndliləri arasında alman protestantlarının təsiri altında meydana gəlmiş təriqətdir. Bu təriqətin ardıcılları alman kolonistləri kimi hər gün Müqəddəs Kitabın qiraəti üçün müəyyən saat ayırırdılar. Ştundistlər Rus Kilsəsini, onun ruhani sinfini və pravoslav ayinləri inkar edirdilər. Sonradan ştundizm baptizmin içərisində əriyib getmişdir[108].

## Ağır sürgün həyatı

Rusiya imperiyasının “Cəzalar Məcəllə”sinin 189 və 196-cı maddələrinə əsasən, pravoslavlar arasında dini təbliğat aparan və Rus Pravoslav Kilsəsini “açıq-aşkar təhqir etməyə cürətləri çatan” təriqətçilərin silki imtiyazları, vətəndaşlıq və siyasi hüquqları əllərindən alınır eyni zamanda, onlar 8 aydan 4 ilədək dustaqxana həyatına məhkum olunur və ya sürgünə göndərilirdilər. Həmin məcəlləyə görə, Avropa Rusiyasında yaşayanlar Qafqaza, Stavropol quberniyası və Qafqazda olanlar Sibirə, Sibirdəkilər isə daha ucqar yerlərə sürgün edilirdilər[109].

Qafqaza göndərilən təriqətçilər iki qrupa bölünürdü: 1.Vətəndaşlıq hüquqlarından məhrum olmadan məhkəməsiz, istintaqsız inzibati qaydada zorla köçürülən sektantlar. Bu qrupda olanlar Zəngəzur qəzasının Gorus şəhərinə göndərilirdi. 2. Bütün hüquqlarını itirərək məhkəmə yolu ilə yaşadığı yerdən didərgin salınan təriqətçilər. Onlar isə Yelizavetpol şəhərinə (Gəncə) köçürülürdü[110]. Sürgündəkilər çox ağır həyat şəraiti ilə üzləşirdilər. O vaxtlar baş verən hadisələrin canlı şahidi olmuş baptist Yeqor Nikanoroviç İvanov Yelizavetpolda sürgündə olan baptistlərin vəziyyətini belə təsvir

106 - Митрохин Л.Н. Баптизм. - Москва: Издательство политической литературы, 1974 г. - с. 56.
107 - Преследование баптистов евангелической секты. - с. XXIII.
108 - Штундизм (от Нем. Stunde - Час) [Elektron resurs]// Философский словарь. – URL: http://slovariki.org/filosofskij-slovar/14516 (müraciət tarixi: 16.08.2016-cı il).
109 - Материалы к истории и изучению русского сектантства и раскола. - с. 24-26.
110 - Преследование баптистов евангелической секты. - с.34.

edirdi: *“Bu altı il ərzində Rusiyanın müxtəlif quberniyalarından sürgünə göndərilən sektantların sayı çox idi. Və onlardan bir çoxu ən kritik vəziyyətdə yaşayırdılar; Dolanışıq üçün vəsaitsiz, övladları və onların özləri qızdırma və tif xəstəliyindən əziyyət çəkir və çoxları dünyasını dəyişirdi. Bəzilərinin vəziyyəti dəhşətliydi!”*[111].

İvanovun xatirələrindən belə məlum olur ki, ac-yalavac, lüt-üryan Yelizavetpolun küçələrində dolaşan təriqətçilərə xaricdəki baptistlər maddi yardım göstərmiş, Bedeker adlı əcnəbi baptistin köməyi ilə Yelizavetpol şəhərində onlar üçün gizli sığınacaq evi açılmış, xəstələrə tibbi yardım göstərilmiş, eləcə də sürgün həyatı yaşayanlar çörək pulu qazansınlar deyə, tikiş emalatxanası təsis olunmuşdu[112].

Yelizavetpol şəhərində yaşayan imkanlı baptistlər də ağır vəziyyətdə olan “qardaşlarına” hər cür kömək göstərmişlər. Məsələn, Vasili Pavloviç Levaşovun evində xeyli sürgünə göndərilən təriqətçi sığınacaq tapmışdı. Həmçinin onun mənzilində baptistlər tərəfindən gizli dini yığıncaqlar keçirilmişdi. Baptizmə etiqad bəslədiyi üçün Levaşov çar hakimiyyətinin təzyiqləri ilə üzləşmiş və sonda müflis olmuşdu[113].

Qeyd edək ki, 1890-cı illərdə inzibati qaydada köçürülən sektantların sayı ən yüksək həddə çatmışdı. Ölkəmizə sürgünə göndərilən baptistlər təkcə Yelizavetpol şəhərində deyil, həm də Yelenendorf (indiki Şəmkir), Naxçıvan qəzası, Göyçay, Tərtər, Cəbrayıl, Şuşa, Quba və Azərbaycanın digər yerlərində də sürgün həyatı yaşayırdılar[114].

## Qərbli missionerlər

Rus baptistləri qərbli “qardaşlarının” himayəsi altında fəaliyyət göstərirdilər. Onlar xaricdəki baptist təşkilatlardan hər cür dəstək alırdılar. Qərbli missionerlərin özləri də yerli camaat arasında dini təbliğat aparırdı. Yunistki XIX əsrin 70 və 80-ci illərində Bakıda vüsət alan baptist təbliğat barədə yazırdı: *“Bu kədərli dövrdə baptizmi yaymaq məqsədilə əcnəbi universitetlərin bəzi professorları Bakıya gizli gəldilər. Bu məqsədlə Bakıda*

111 - Материалы к истории и изучению русского сектантства и раскола. - с. 35.
112 - Yenə orada.
113 - Материалы к истории и изучению русского сектантства и раскола. - с.36.
114 - Материалы к истории и изучению русского сектантства и раскола. - с. 31-51; Преследование баптистов евангелической секты. - с. 17-46.

*daimi xarici agentlər peyda oldu; onlar ermənilәri kitabpaylayan kimi işə götürdülər, onların evlərində xaricdə nəşr olunan sektant kitabların saxlanılması üçün anbarlar qurdular. Xaricdən dini mahnıları oxuyan kəsləri göndərdilər. Onlar yenicə yaranmış baptist icmalara fisqarmoniyanın sədaları altında dini nəğmə oxumağı öyrədirdilər. Baptizmi təzə qəbul etmişlərin ciblərinə pullar axdı"*[115].

Qərbli missionerlər azərbaycanlılar arasında da baptizmi yaymağa çalışırdılar. Lakin onların cəhdləri bir nəticə vermədi: *"1873-cü ildə Bakı quberniyasının Şamaxı şəhərinə baptizmi təbliğ etmək üçün baptistlər arasında "Mister-İsten" kimi tanınan ingilis gəlir. O, yerli tatar şivəsində (Azərbaycan dili nəzərdə tutulur – A.Ə.) danışırdı; yanında da Çernikov (sonradan baptist oldu) adlı molokan tərcüməçi vardı. Yenə həmin ingilis pula görə baptizmi qəbul edən tatar mollası Kapia-Muşa ilə birgə Şamaxıya ikinci dəfə 1879-cu ildə baş çəkir. Sonuncusu Şamaxı tatarları (azərbaycanlılar mənasında işlədilir-A.Ə.) ilə söhbət aparsa da istəyinə nail ola bilmir"*[116].

1870-80-ci illərdə Bakı quberniyasında dini təbliğat aparan qərbli missionerlər arasında İsveçdən olan Qolberq və Geyeri, ingilis Bekkeri qeyd etmək mümkündür[117].

## 1905-ci il – təqiblərin sonu...

XIX əsrdə baptistlər təqiblərlə üzləşdikləri üçün onların sayında ciddi artım baş vermirdi. Bu vəziyyət 1905-ci ilədək davam etdi. Həmin ilin aprel ayının 17-də rus imperatoru II Nikolay "Dini dözümlülüyün əsaslarının möhkəmləndirilməsinə dair" fərmana imza ataraq ölkədə vicdan azadlığını elan etdi, çar rejimi sürgündəki baptistləri azadlığa buraxdı[118].

Bu fərmanla baptistlərə əqidələrinə uyğun sərbəst yaşamaq və inanclarını təbliğ etmək hüququ verildi. 17 oktyabr 1906-cı ildə "Staroobryadets və digər icmaların yaradılması və fəaliyyət qaydalarına..." dair fərman çıxdı. Həmin fərman əvvəllər qeyri-rəsmi vəziyyətdə fəaliyyət göstərən müxtəlif təriqətçi, o cümlədən baptist dini icmalarına dövlət

115 - Юницкий А. История церквей и приходов Бакинской губернии (1815-1905 гг). – Баку: Изд. Бакинского братства законоучителей, 1906. - с. 54.
116 - Юницкий А. Там же. - с.158.
117 - Yenə orada.
118 - История евангельских христиан-баптистов в СССР. - с.133-134.

qeydiyyatından keçmək hüququ tanındı[119].

Rusiya imperiyasında həyata keçirilən bu islahatlardan sonra baptizm sürətlə yayılmağa başladı, çünki baptistlər təkcə qeyri-pravoslavları deyil, həm də pravoslav camaatı da dinlərinə dəvət etmək imkanı qazandılar. İvanov 1905-ci ildən sonra baptizmin yeni inkişaf mərhələsinə qədəm qoyması barədə yazırdı: "*Rusiyada isə bu böyük baptizm hərəkatı 1905-ci ildən - Tanrının bizə dini etiqad azadlığı bəxş etdiyi vaxtdan başladı. Bu vaxta kimi isə, biz, baptistlər əzilirdik. 1905-ci ildən baptizmin tarixində açıq hücum epoxası adlandırıla biləcək dövr başladı. Baptist hücumun təsiri altında bir çox yerdə əhəmiyyətli dəyişiklik baş verdi"*[120].

1905-ci ildən sonra baptistlər leqal fəaliyyətə keçdilər, bir çox baptist icması dövlət qeydiyyatına alındı. Dini məktəblər açıldı, xeyli ədəbiyyat çap olunaraq əhali arasında paylandı. Nəticədə çar Rusiyasında baptistlərin sayı kəskin artdı[121]. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, 1905-1911-ci illərdə Rusiyada baptistlərin sayı iki dəfədən çox artaraq əlli minə çatmışdı[122].

Həmçinin baptistlər qorxmadan, çəkinmədən öz tədbirlərini həyata keçirmək imkanı qazandılar. Məsələn, 1884-cü ildə yaradılan rus baptistlərinin mərkəzi təşkilatı - "Cənubi Rusiya və Qafqaz Baptistlərinin Birliyi" səkkiz il ərzində yığıncaqlarını keçirə bilmirdi. Lakin 1905-ci idən sonra qurultaylar yenidən çağırıldı[123].

Buna baxmayaraq, 1911-ci ildən etibarən çar Rusiyasında baptistlərə qarşı növbəti hücum dalğası vüsət aldı, qəzetlər baptizm əleyhinə təbliğat aparmağa başladılar, bu protestant təriqətin ardıcıllarını xəyanətdə və Almaniya ilə əlbir olmaqda günahlandırdılar[124].

## Bakıdakı baptist icmasının tarixindən

Bakıda baptist dini icmasının tarixi 1891-ci ildən başlayır. Həmin il şəhərə Novoivanovka kəndindən olan V.V.İvanov gələrək molokanlar, arasında baptizmin toxumlarını səpir. O, fəaliyyətinə hazırda Azərbaycan

119 - Yenə orada. - s.134.
120 - Баптист. - Одесса: 23 февраля 1911 г. - №9. - с. 69.
121 - Популярно о баптизме (100 иллюстраций) [Elektron resurs]. – URL: http://rusbaptist.stunda.org/popularno-o-baptizme.pdf (17.08.2016-cı il).
122 - История евангельских христиан-баптистов в СССР. - с.140.
123 - Yenə orada. – s. 127-131.
124 - Популярно о баптизме (100 иллюстраций)//Там же.

Dövlət Pantomima Teatrının yerləşdiyi ərazidən (Azadlıq prospekti, 49; 28 May metrosundan yuxarıda) başlayır. İvanov həmin yeri və Bakıya ilk missioner səfərini belə xatırlayırdı: *"Bakı quberniyasının bəzi şəhər və kəndlərinə baş çəkəndən sonra Bakıya gəldim. İndiki gözəl baptist Bakı dua evinin yerləşdiyi ərazi boş idi. Bir dənə də olsun bina yox idi; təkcə taxıl əkin sahələri vardı və orada-burada kiçik evlər dayanırdı. Burada mən, Rəbbin lütfü ilə dəvətimə başladım. İlk növbədə, varlı molokan N.F.Minnikovun evində keçirilən "ümumi" molokanların dini yığıncaqlarına baş çəkdim. O, molokanların presviteri və peyğəmbəri idi. Burada məni mehriban qarşıladılar və ilahi kəlamı təbliğ etdim, günahkarların Xilaskarı – İsa Məsih haqqında xəbər verdim"*[125].

1892-ci ildə İvanov Bakıya ikinci dəfə gələndən sonra molokan M.Q.Serebrennikov və həyat yoldaşı baptizmi qəbul edirlər. Daha sonra Q.O.Vorobyev, V.A.Mironov, M.P.Yurin və başqa molokanlar baptizmə keçirlər. Beləliklə, Bakıda baptist icması təşəkkül tapır. İlk vaxtlar baptistlər Stanislavski küçəsində (indiki Azadlıq prospekti) yerləşən Serebrennikovun evində toplaşırdılar. Bir müddətdən sonra Vorobyovun evində dini yığıncaq keçirməyə başladılar, çünki Serebrennikovun evi çox balaca idi. Vorobyovun evi "Qanlıtəpə" ərazisində yerləşirdi[126].

Serebrennikovun evinin həyətində ibadət üçün zal tikilir. Tezliklə bu zal da baptistlər üçün kifayət etmir. 1907-ci ildən baptistlər "ümumilər" molokan təriqətinin lideri Minnikovun evində toplaşmağa başlayırlar. Belə ki, Minnikovun vəfatından sonra onun oğlu baptizmə keçir və molokan ibadət yerini baptistlərə verir[127].

1895-1899-cu illər ərzində Bakıda baptist icmanın presviteri İvanov sürgündə olur. O, olmadığı müddətdə presviter vəzifəsini M.P.Yurin, P.Z.Çernyayev və başqaları yerinə yetirirlər. İvanov qayıdandan sonra yenidən icmanın presviteri olur. İcma üzvlərinin sayı artdığına görə Minnikovun evi darlıq edir. Bu səbəbdən baptistlər 1908-ci ildən Balaxanı küçəsindəki (indiki Füzuli küçəsi) geniş və gözəl zalda yığışmağa başlayırlar. Həmin zalın kirayəsi üçün onlar ildə 1300 rubl ödəyirlər[128].

---

125 - Молитвенный дом Русских Баптистов в Баку//Баптист: Духовно-нравственный журнал/Орган русских баптистов. - Ростов-на-Дону: Тип.Т-ва Павлова и Славгородского. Март, 1912. №6. - с. 8.
126 - Баптист: Духовно-нравственный журнал/Орган русских баптистов. Март, 1912. №6. - с. 8.
127 - Yenə orada.
128 - Баптист: Духовно-нравственный журнал/Орган русских баптистов. Март, 1912. №6. - с. 8-9;



*Bakıda baptist məktəbin şagirdləri. 1911-ci il.*

Baptistlər M.Q.Serebrennikovun evinə yaxın ərazidə dua evi tikmək istəyirlər, çünki Bakıda baptizm məhz burada təşəkkül tapmışdı. Nəhayət, baptistlər arzularına çatırlar. 1910-cu ildə Stanislavski küçəsində 416 saylı kvartalda baptist dua evinin tikintisi üçün 216 kv. sajen ölçüsündə torpaq sahəsi ayrılır. 1 yanvar 1911-ci ildə Bakı şəhərində baptist dua evinin təməli atılır. Elə həmin ilin dekabr ayının 25-də dua evinin qapıları dindarların üzünə açılır. Burada təqribən 500-600 nəfər ibadət edə bilirdi[129].

1914-cu ildə Bakıdakı baptist icması çar hakimiyyəti tərəfindən rəsmən tanınmışdı. Maraqlıdır ki, rusiyalı baptistlərin rəsmi mətbu orqanı olan "Baptist" jurnalı 1914-ci ildə Bakı şəhərində çıxmışdı. Jurnalın redaksiyası 1-cı Qanlıtəpə (indiki Salatın Əsgərova) küçəsi, ev №213 ünvanında yerləşirmiş. O vaxtlar jurnalın redaktoru Azərbaycanda baptizmin əsasını qoyan V.V.İvanov olmuşdu[130].

---

Bakı şəhəri Baptist dini icmasının keçmiş presviteri T.N.Zençenko. Bakı şəhəri Yevangelik Xristian-Baptist Kilsəsinin tarixi (şəxsi arxiv).

129 - Баптист: Духовно-нравственный журнал/Орган русских баптистов. Март, 1912. №6. - с.9; Bakı şəhəri Baptist dini icmasının keçmiş presviteri T.N.Zençenko. Bakı şəhəri Yevangelik Xristian-Baptist Kilsəsinin tarixi (şəxsi arxiv).

130 - Баптизм в Баку [Elektron resurs]//сайт Наш Баку: История Баку и бакинцев. – URL: https://www.ourbaku.com/index.php/Баптизм_в_Баку.




*Bakıda keçmiş baptist dua evi (indiki Azərbaycan Dövlət Pantomima Teatrının binası).*



№№ 1, 2, 3 и 4-й **БАПТИСТЪ** Янв.-Февр. 1914 г.

Духовно-нравственный журналъ. Органъ русскихъ баптистовъ.

*...„Пойдите, научите всѣ народы, крестя ихъ во имя Отца и Сына и Святаго Духа, уча ихъ соблюдать все, что Я повелѣлъ вамъ".*

(Матѳ. 28, 18—20)

Крещеніе Іисуса Христа отъ Іоанна въ рѣкѣ Іорданѣ.

**Отъ редакціи.**

*1914-cü ildə Bakıda çıxan "Baptist" jurnalı.*

## Fevral inqilabından sonra...

1917-ci ildə Rusiyada Fevral burjua-demokratik inqilabı baş verdi, baptizmi gözümçıxdıya salan çar müstəbid rejimi devrildi. Rusiyalı baptistlər inqilabı böyük sevinc və coşqu ilə qarşıladılar. Onlar ümid edirdilər ki, çar hökumətindən qurtulmaqla azadlığa çıxacaqlar. Yenə həmin il Oktyabr inqilabı qopdu və Rusiyada hakimiyyət bolşeviklərə keçdi. 28 aprel 1920-ci ildə isə Azərbaycan bolşeviklər tərəfindən işğal olunur və ölkəmizdə zorla Sovet hakimiyyəti quruldu.

Sadalanan tarixi hadisələr cərəyan edərkən ölkəmizdə yaşayan baptist icmasının taleyində də dəyişikliklər baş verdi. Uzun illər Azərbaycanda baptizmin yayılması istiqamətində gərgin fəaliyyət göstərən V.V.İvanov 1917-ci ildə Bakı baptist icmasından ayrılaraq oğlunun yanına Evpatoriyaya (Krım) köçdü. Bakı icmasında onu L.D.Primorenko əvəz etdi. Bir müddətdən sonra o da şəhərini tərk etdi. Ondan sonra icmanın presviteri M.P.Yurin, 1918-ci ildə isə D.X.Qavrilov oldu. O vaxtlar Bakıdakı baptistlər dua evlərində həftədə 4 dəfə toplaşırdılar[131].

Ölkəmizdə zorla Sovet hakimiyyəti qurulandan sonra 1920-ci ildə Həştərxandan Bakıya milliyyətcə erməni olan P.Y.Ter-Avanesov gəldi. O, Qavrilovla birgə Bakıdakı baptist dini icmasına rəhbərlik etməyə başladı. Aktiv missionerlik fəaliyyəti ilə seçilən Ter-Avanesov icmada gənclər dərnəyini təşkil etdi, “Zaqafqaziya Baptist Birliyi”nin katibi seçildi. Birliyin qurultayları Bakı və Tiflis şəhərində keçirilirdi. 1926-cı ildə Ter-Avanesova Azərbaycan, Gürcüstan və Ermənistandakı baptistlərə rəhbərlik etmək tapşırıldı[132].

Gördüyümüz kimi, Sovet hakimiyyətinin ilk illərində baptistlər azad fəaliyyət göstərir, qurultaylar keçirirdilər. Sual yarana bilər ki, bu nə ilə bağlı idi? Məsələ burasındadır ki, bolşeviklər baptistlərə və Rusiya imperiyası dövründə təqiblərə məruz qalan digər təriqətçilərə çarizmin qurbanları kimi baxaraq, onlara dini etiqad azadlığı tanımışdılar. İlk vaxtlar Sovet hakimiyyəti əsasən Rus Pravoslav Kilsəsi ilə mübarizə aparırdı. Çünki kommunist rejim Rus Kilsəsinə çarizmin qalığı və sadiq dayağı kimi baxırdı. Lakin 1918-

131 - Bakı şəhəri Baptist dini icmasının keçmiş presviteri T.N.Zençenko. Bakı şəhəri Yevangelik Xristian-Baptist Kilsəsinin tarixi (şəxsi arxiv).
132 - Həmin şəxsi arxiv.

1928-ci illərdə baptistlər qızıl dövr yaşayırdılar. Sovet dövlətində baptistlər sərbəst dini təbliğat aparırdı. Nəticədə onların sayı kəskin şəkildə artdı. Ona görə də bu dövr rus baptizminin tarixində “qızıl onillik” adlanır. Buna əmin olmaq üçün faktlara nəzər yetirək. Belə ki, 1928-ci ildə SSRİ-də baptistlərin sayı 600 minə, baptist icmalarının sayı isə səkkiz minə çatdı. Müqayisə üçün deyək ki, 1917-ci ildə baptistlərin 4521 dua evi vardı. Yəni “qızıl onillikdə” baptist icmaların sayı az qala iki dəfə artmışdı[133].

Buna baxmayaraq, 1928-ci ildən Sovet hakimiyyətinin din siyasəti sərtləşdi. SSRİ-də baptistlərin bibliya kursları, dua evləri, mətbu orqanları, dini icmaları bağlandı. 1941-ci ildə Sovet İttifaqında qalan baptist dua evlərinin sayı 10-dan az idi[134].

Azərbaycanda yaşayan baptistlər də bu ağır dövrdən nəsiblərini aldılar. Onların dua evi əllərindən alınaraq dəmiryolu vağzalının kassasına çevrildi. Bundan sonra şəhərdəki baptistlər müxtəlif yerlərdə yığışmağa məcbur qaldılar. Maraqlıdır ki, 1930-1933-cü illərdə Bakıdakı baptistlər hər bazar günü səhər və axşam Kubinskaya küçəsində (indiki Zivərbəy Əhmədbəyov küç.) yerləşən molokan dua evində toplaşırdılar[135].

1933-1936-cı illərdə baptistlər yenə Kubinskaya küçəsində, lakin başqa evdə dini yığıncaq keçirirdilər. 1936-1937-ci illərdə isə onlar Krayne-Krivaya küçəsindəki (indiki Akademik Qarayev küç.) evdə yığışırdılar[136].

Sovet hakimiyyəti günü-gündən daha çox təzyiq göstərdiyi üçün baptistlər konkret bir ünvanda toplaşmağı dayandırdılar. 1940-cı ildə baptistlərə 12-ci Naqornaya küçəsində (indiki Yusif Vəzir Çəmənzəminli) Lukoşkinin evində əsas dini bayramlarda yığıncaq keçirməyə icazə verildi. 1930-1937-ci illərdə Bakıda baptist icmasında bu şəxslər presviter olub: L.D.Primoçenko, Matyunenko və Ter-Avanesov[137].

---

133 - Церковь должна оставаться Церковью. Необратимые десятилетия (1917-1937 годы в истории евангельского и баптисткого движений)// Документальный материал об истории церкви ЕХБ в России. Составлен Историко-аналитическим отделом МСЦ ЕХБ. 2008 г. - с. 13.

134 - Yenə orada.

135 - Bakı şəhəri Baptist dini icmasının keçmiş presviteri T.N.Zençenko. Bakı şəhəri Yevangelik Xristian-Baptist Kilsəsinin tarixi (şəxsi arxiv).

136 - Həmin şəxsi arxiv.

137 - Həmin şəxsi arxiv.

## Nifaq: loyallar və "təşəbbüskarlar"

İkinci dünya müharibəsinin başlamasından sonra Stalin rejimi dini siyasətini nisbətən yumşaltdı. Baptistlərə leqal fəaliyyət göstərməyə icazə verildi. Belə ki, 1944-cü ildə SSRİ-dəki baptist və yevangelistlər Yevangelik Xristian–Baptistlərin Ümumittifaq Şurası (bundan sonra Ümumittifaq Şurası) adlı ortaq təşkilatda birləşdilər. Beləliklə, müharibədən sonra bir çox baptist dini icmalar həmin təşkilata daxil olaraq fəaliyyətlərini rəsmiləşdirdilər.

Azərbaycandakı baptistlərə gəlincə, 1943-cü ildə Bakıda Lukoşkinin evinin arxasında toplaşmağa başladılar. Burada onlar talvar qurdular. 1944-cü ildə isə Bakıdakı baptist dini icmasının presviteri Ter-Avanesov Ümumittifaq Şurası tərəfindən Zaqafqaziya üzrə baş presviter təyin olundu. 1947-ci ildə isə Bakıya Ümumittifaq Şurasının üzvləri – M.A.Orlov, İ.Y.Jidkov, A.V.Karev və M.İ.Qolyayev baş çəkdilər[138].

1954-cü ildə baptist icması növbəti dəfə fəaliyyət ünvanını dəyişərək 12-ci Naqornaya küçəsi, ev 7-də (Bakı şəhəri, Nərimanov rayonu, 1-ci Cıdır döngəsi, ev 13) dua evi açdılar. Həmin dua evi indiyədək fəaliyyət göstərir[139].

1950-1960-cı illərdə Sovet İttifaqında dinə qarşı hücum dalğası yenidən başlayır. O vaxtlar Sov.İKP MK Baş katibi olan Nikita Xruşşov dini birdəfəlik ortadan qaldırmağa çalışır. Bu məqsədlə müxtəlif tədbirlər həyata keçirilir. Məsələn, hakimiyyətin göstərişi və təşəbbüsü ilə 1959-cu ildə Yevangelik Xristian–Baptistlərin Ümumittifaq Şurasının rəhbərliyi "SSRİ-də Yevangelik Xristian-Baptistlərin İttifaqına dair Əsasnamə" və "Yevangelik Xristian–Baptistlərin Ümumittifaq Şurasının baş presviterlərinə təlimat məktubları" adlı sənədlər qəbul edir. Həmin sənədlər baptistlərin fəaliyyətini ciddi şəkildə məhdudlaşdırır və əl-qollarını bağlayırdı: dini təbliğata icazə verilmir, uşaqlar dini mərasimə buraxılmır, 18-30 yaşlı şəxslərin vəftiz olunmasına qadağa qoyulurdu. Sovet hakimiyyətinin baptistlərin daxili işlərinə kobud şəkildə müdaxilə etməsi, eləcə də Yevangelik Xristian-Baptistlərin Ümumittifaq Şurasının başında uzun illər ateist dövlətə çalışan şəxslərin durması faktoru SSRİ-də baptistlərin iki qrupa parçalanmasına gətirib çıxardı. Belə ki, 1961-ci ilin avqust ayında Yevangelik Xristian – Baptistlərin Ümumittifaq Şurasının daxilində hakimiyyyətin müdaxiləsindən

138 - Həmin şəxsi arxiv.
139 - Həmin şəxsi arxiv.

və Ümumittifaq Şurasının rəhbərliyindən narazı olanlar “təşəbbüskar qrup” yaratdılar. Özlərini həqiqi kilsənin təmsilçisi sayan bu qrup təşkilatda islahat keçirmək, “SSRİ-də Yevangelik Xristian-Baptistlərin İttifaqına dair Əsasnamə” və “Yevangelik Xristian–Baptistlərin Ümumittifaq Şurasının baş presviterlərinə təlimat məktubları” adlı sənədləri ləğv etmək məqsədilə yeni qurultay çağırmaq istəyirdi. 1962-ci ilin fevral ayında isə bu qrup Təşkilat Komitəsinə çevrildi. Lakin “təşəbbüskar qrupun” tələbləri yerinə yetirilmədiyi üçün baptistlərin bir hissəsi Ümumittifaq Şurasından ayrılaraq gizli fəaliyyətə keçdi. “Təşəbbüskarlar” (başqa adları: “qeydiyyatsızlar”, “baptist-raskolniklər”, “ayrılmışlar”, “ayrılanlar”) kimi məşhurlaşan həmin baptistlər öz gizli təşkilatlarını – Yevangelik Xristian–Baptistlərin Kilsələr Şurasını yaratdılar. “Təşəbbüskarların” əsas lideri Q.K.Kryuçkov oldu. Məqsədli şəkildə dövlət qeydiyyatından keçmək istəməyən “ayrılanlar” öz gizli mətbəələrini təsis edərək “Xilasın müjdəçisi” (“Həqiqət carçısı”) jurnalı, “Qardaşlıq vərəqəsi” və digər başqa dini materiallar çap edirdilər. Sovet İttifaqında “ayrılanlar” əsl dini-siyasi qüvvəyə çevrildilər. Rəsmi baptistlərdən fərqli olaraq, “təşəbbüskarlar” allahsız dövlətin qanunlarını tanımadıqları üçün təqiblərlə üzləşərək ağır işgəncələrə məruz qaldılar. Bəziləri isə davaları uğrunda həyatlarını itirdi. “Ayrılanlar” dövlətlə əməkdaşlıq edən həmməzhəblərinə “xain” kimi baxırdılar[140].

Sovet Birliyində yaşayan baptistlərin iki qrupa parçalanması Azərbaycanda yaşayan baptizmin təəssübkeşlərinə də təsir göstərdi. O vaxtlar Azərbaycanın müxtəlif bölgələrində mövcud olan baptist icmalarında nifaq düşdü. Məsələn, 1965-ci ildə Bakı şəhərində S.İ.Savelyev, P.F.Bulaka və P.İ.Samotayevin rəhbərliyi altında bir qrup baptist icmadan ayrılaraq “ayrılanların” təşkilatına qoşuldular[141].

Postsovet məkanda, eləcə də müasir Azərbaycanda yaşayan baptistlər arasında bu təfriqə indiyədək davam edir. Günümüzdə “ayrılanların” dini icmaları mərkəzi - Moskva şəhərində yerləşən “Yevangelik Xristian-Baptist Kilsələrin Beynəlxalq Şurası”dır. Sovet İttifaqının dağılmasına baxmayaraq, “ayrılanlar” hələ də dövlətlə əməkdaşlıq etmək və prinsipial olaraq dövlət

140 - Ətraflı məlumat üçün bax: Митрохин Л.Н. Баптизм: история и современность (философско-социологические очерки). - Санкт-Петербург: Издательство Русского Христианского гуманитарного института, 1997. - с. 412-430.

141 - Bakı şəhəri Baptist dini icmasının keçmiş presviteri T.N.Zençenko. Bakı şəhəri Yevangelik Xristian-Baptist Kilsəsinin tarixi (şəxsi arxiv).

qeydiyyatından keçmək istəmirlər.

Sovet İttifaqı dövründə hakimiyyətlə əməkdaşlıq edən baptistlərin Azərbaycandakı icmalarına gəlincə, qeyd edək ki, 1961-ci ildə Bakı şəhəri Yevangelik Xristian - Baptist dini icması dövlət qeydiyyatına alındı. 1958-1966-cı illərdə Bakıdakı leqal baptistlərin presviteri A.K.Kuşnarenko oldu. 1967-ci ildə onu T.N.Zençenko əvəz etdi[142]. 1980-ci illərdə isə icmada presviter vəzifəsini Bibliya kursunun məzunu N.P.Qrubiç yerinə yetirdi[143].

Sovet hakimiyyəti illərində baptistlərin say məsələsinə gəlincə, qeyd edək ki, 1983-cü ildə Bakıdakı baptist icmasının üzvlərinin sayı 384 nəfər, 1986-cı ildə 388 nəfər təşkil etmişdir[144].

## Müasir dövr: icmalar, say, etnik və yaş tərkibi

1991-ci ildə Azərbaycan yenidən müstəqilliyini qazandıqdan sonra ölkəmizdə vicdan azadlığı elan olundu. Müxtəlif konfessiyaların nümayəndələri öz inanclarını sərbəst şəkildə yaşamaq və yaymaq fürsəti qazandılar. Azad mühit baptizmin inkişafına da müsbət təsir göstərdi. Məsələn, müstəqillik illərində azərbaycanlılardan ibarət baptist dini icması təşəkkül tapdı. Bu isə baptizmin tarixində yeni hadisə oldu.

***Sxem 1. Azərbaycandakı baptist dini icmaları.***




142 - Həmin şəxsi arxiv.

143 - История евангельских христиан-баптистов в СССР. - с. 498.

144 - Azərbaycan SSR Nazirlər Soveti yanında Dini İşlər Şurasının arxivi. 1983-cü il üzrə Yevangelist Xristian-Baptistlərin Bakı şəhəri dini icmasının üzvlərinin siyahısı; qeydiyyata alınmış Yevangelik Xristian-Baptist kilsəsi və ya uçota alınmış qrup və onun fəaliyyəti haqqında 1986-cı il üzrə məlumat.

Sxem 1-də göründüyü kimi, respublikamızda mövcud olan baptistləri iki qrupa bölmək mümkündür: loyallara və “ayrılanlara”.

## *Loyal baptistlər*

Loyal baptistlər dövlət qeydiyyatından keçməyə, qanunvericiliyin tələbləri əsasında fəaliyyət göstərməyə və dövlətlə əməkdaşlıq etməyə çalışırlar. Respublikamızdakı loyal baptist icmaları, öz növbəsində, aşağıdakı qruplara bölmək mümkündür:

*1. Azərbaycandilli baptist icmaları.* Ötən əsrin 90-cı illərində Bakıdakı rus baptist icmasından azərbaycanlılardan ibarət qrup ayrılır, beləliklə “Aqape” baptist dini icması yaranır. “Aqape” yunan dilində “məhəbbət” deməkdir. Bu azərbaycanlı icmanın maraqlı cəhəti odur ki, onun üzvləri Azərbaycan xalq musiqisinin sədaları altında xristian mahnıları oxuyurlar. 13.11.2015-ci il tarixində Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınan Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin “Aqape” dini icmasının (hüquqi ünvan: Bakı şəhəri, Nərimanov rayonu, 1-ci Cıdır döngəsi, ev 13) 350-400 üzvü var. Qeyd edək ki, bu azərbaycandilli baptist dini icması əsasən gənclərdən ibarətdir. “Aqape” dini icmasının Sumqayıt, Gəncə və Şirvanda kiçik özəkləri mövcuddur.




*Bakıda baptist dua evi.*

*2. Rusdilli baptist dini icmaları.* Azərbaycanda başqa loyal baptist dini icmaları da mövcuddur. Onlar arasında sayca ən böyük olanı İlya Zençenkonun sədrlik etdiyi Bakı şəhəri Yevangelik-Xristian Baptist dini icmasıdır. Bu rus baptist icması XIX əsrdə Bakı şəhərində təşəkkül tapmış baptist icmasının hüquqi varisidir. Sovet hakimiyyəti dövründə ilk dəfə 1 yanvar 1946-cı ildə dövlət qeydiyyatına alınıb. 2002-ci ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçib.

Hazırda icmanın təqribən 200-250 üzvü var. Onların əksər hissəsini yaşlı insanlar təşkil edir. Bakıdakı rus baptistləri və "Aqape" dini icması eyni dua evində ibadət edirlər.

Bakı şəhəri Yevangelik-Xristian Baptist dini icmasnın sədri İ.Zençenko Azərbaycan Yevangelik Xristian-Baptistlərin Birliyinin rəhbəridir. Həmin birlik Yevangelik Xristian–Baptist Birliklərin Avro-Asiya Federasiyasına, Ümumdünya Baptist Birliyinə, eləcə də Avropa Baptist Federasiyasına daxildir.

Bakı şəhəri Xristian-Baptist dini icmasının İsmayıllı rayonunun İvanovka kəndi (20 nəfər), Zaqatala rayonunun Əliabad kəndi (30 nəfər), Neftçala, Şamaxı və digər yerlərdə filialları mövcuddur.

Qeyd edək ki, loyal baptistlər "Avrasiya Missiyası"nın qurumu olan "Mənəvi İntibah" Assosiasiyası ilə sıx əməkdaşlıq edir, bu təşkilat tərəfindən həyata keçirilən "Divarsız Məktəb" təhsil layihəsində yaxından iştirak edirlər[145].




*Sumqayıt şəhərində baptist dua evi*




*İsmayıllı rayonunun İvanovka kəndində baptist dua evi*

145 - Bax: həmin dini təşkilatın rəsmi saytı: http://asr-rm.org/ (19.08.2016-cı il).

*“Ayrılmış” baptistlər*

“Ayrılmışlar”, “qeydiyyatsızlar”, “raskolnik-baptistlər” və ya Sovet hakimiyyəti dövründə “təşəbbüskarlar” kimi tanınan baptistlər prinsipial olaraq dövlət qeydiyyatından keçmək istəmir, ümumiyyətlə, dövlətlə hər hansı əlaqələrin yaradılmasına qarşıdırlar. İstər dünyagörüşlərində, istər geyim tərzlərində olduqca mühafizəkardırlar. Məsələn, onların nəzərində Qərb dünyası əxlaqsızlığı təcəssüm etdirir. Ona görə də bu qrup baptistlər Qərbin dəyərlərinə ikrahla yanaşırlar. Maraqlıdır ki, respublikamızdakı “ayrılmış” baptistlər milli-mənəvi dəyərlərinə sadiq qalan Azərbaycan cəmiyyətində yaşamağa, burada uşaqlarını böyütməyə üstünlük verdiklərini deyirlər.

Ölkəmizdəki “qeydiyyatsız” baptist dini icmaları “Yevangelik Xristian-Baptistlərin Beynəlxalq Kilsələr Şurası”na daxildir. Bu təşkilat postsovet məkanında yaşayan “təşəbbüskarları” özündə birləşdirir.

“Təşəbbüskarlar” başqa xristianlarla əməkdaşlıq etmirlər. Ümumiyyətlə, onların icmaları qapalı xarakter daşıyır. “Yevangelik Xristian-Baptistlərin Beynəlxalq Kilsələr Şurası” cəmi bir qərbli məsihçi təşkilatı - “Fridensştimme” alman xristian missiyası ilə əməkdaşlıq edir, çünki bu alman xristian təşkilatı da özünü dövlətdən təcrid edir.

Respublikamızda Yevangelik Xristian-Baptistlərin Beynəlxalq Kilsələr Şurasına daxil olan dini icmalar Bakı (100-120 nəfər), Sumqayıt (80-100 nəfər), İsmayıllı rayonunun İvanovka kəndində (təqribən 50 nəfər) mövcuddur. Etnik mənsubiyyət baxımından bu dini icmalar əsasən ruslardan ibarətdir.

**Şərq baptizmi: özünəməxsus cəhətlər**

Sonda rus baptizmin özünəməxsus cəhətlərinə toxunmaq istərdik, çünki rus baptistləri qərbdəki həmməzhəblərindən bəzi cəhətlərinə görə fərqlənirlər. Qafqazda molokan zəminində formalaşan rus baptizmi isə fərqli inkişaf yolu keçdiyi üçün onu “şərq baptizmi” adlandırırlar.

Şərq baptizminin formalaşmasına həm molokanlıq, həm də pravoslavlıq təsir göstərib. Rus baptistləri Həzrət İsanın hər kəsin xilası naminə xaça çəkildiyinə, Tanrı tərəfindən insana iradə azadlığının verildiyinə inanırlar. Düzdür, bu inanc “ümumi” baptistlərdə də mövcuddur. Lakin rus

baptistlərinin bu etiqadı qərbli həmməzhəblərindən deyil, pravoslavlıqdan qaynaqlanıb[146].

Qeyd etmək lazımdır ki, Tiflis şəhərindəki ilk rus baptist dini icması qərbli missionerlərin təsiri altında kalvinizmi (Tanrı tərəfindən insana iradə azadlığının verilmədiyi, İsa Məsihin yalnız seçilmiş insanların xilası üçün göndərildiyi haqqında dini təlimdi) qəbul etmişdi. Belə ki, ilk rus baptist missioneri Pavlov Avropada baptizmi yayan Onkenin yanında təhsil almışdı. Onken etiqadca kalvinist və ya "xüsusi" baptist olmuşdu. Müəlliminin dünyagörüşü Pavlova da təsir göstərmişdi. O, Onken tərəfindən Tiflis baptist icmasına presviter təyin edildikdən sonra "xüsusi" baptistlərin əqidə əsaslarını - 15 maddəlik "Baptist Hamburq İman Bəyannaməsi"ni ("Hamburq İman İqrarı") alman dilindən rus dilinə tərcümə etmişdi. Tiflisdəki rus baptistləri də bu sənədi tanımışdılar. Beləliklə, ilk rus baptist icması kalvinist olmuşdu. Lakin rus baptistləri "Hamburq İman İqrarı"nda əks olunan kalvinist məqamlarla razılaşa bilmirdilər. Buna onların molokan və pravoslav keçmişi təsir göstərirdi. Odur ki, sonrakı dövrdə "Hamburq İman Bəyannaməsi"nin müddəalarına düzəlişlər edildi, baptizm rus xalqının dini dünyagörüşünə uyğunlaşdırıldı[147].

Pravoslavlığın Şərq baptizminə təsiri açıq-aşkardır. Məsələn, rus baptistləri pravoslavlar kimi çox oruc tutur, səhərə kimi yatmayaraq ibadət edir, özünə əzab verir, daim Müqəddəs Kitab oxuyur, nəzir paylayır və s. Yəni rus baptizminə tərki-dünyalıq və əzabkeşlik xasdır. Halbuki qərbli baptistlər daha praqmatikdirlər . Qərbli və rus baptistləri arasında ayinlərin yerinə yetirilməsi şəkli də fərqlidir. Məsələn, qərbli baptistlər süfrə arxasında dua edərkən otururlar. Rus baptistləri isə dua vaxtı oturmağı düzgün saymırlar. Onlar pravoslavlar kimi, ya ayaq üstə, ya da ki, diz çökərək dua edirlər[148].

Aralarındakı fərqlərə baxmayaraq, qərbli baptistlər erkən rus baptistlərinin təşkilatlanması işində böyük rol oynayıblar. Məsələn, "Baptist" jurnalında (1907-ci il, №4) ilk rus missionerlərinin qərbli baptist liderlər tərəfindən presviter vəzifəsinə təyin olunduqları qeyd olunub. Həmin

146 - Прохоров К. Кальвинизм, арминианство и восточное богословие [Электронный ресурс]// Апологетический сайт: Ереси – Нет! – URL: http://www.eresi.net/kalvinizm/kalvinizm-arminianstvo-i-vostochnoe-bogoslovie (müraciət tarixi: 19.08.2016-cı il).

147 - Баптизм в Баку [Elektron resurs]//Там же (müraciət tarixi: 19.08.2016-cı il).

148 - Прохоров К. Кальвинизм, арминианство и восточное богословие//Там же.

silsiləyə nəzər yetirək: amerikan baptist kilsəsinin ilahiyyatçısı, professor Barnas Sirs Avropanın müxtəlif ölkələrində baptizmi yayan İohann Onkeni Almaniyaya missioner kimi göndərib. İ.Onken, öz növbəsində, V.Q.Pavlovu Tiflis şəhərində olan ilk rus baptist dini icmasına presviter təyin edib. Pavlov isə Azərbaycanda baptizmi yayan V.V.İvanovu presviterliyə layiq görüb. İvanov da başqalarını ölkəmizin müxtəlif yerlərinə presviter təyin edib.

# YEDDİNCİ GÜNÜN ADVENTİSTLƏRİ

## Qısa tarixi

Adventizmin meydana gəlməsi kasıb fermer, baptist icmasında moizəçi vəzifəsini yerinə yetirən Uilyam Millerin adı ilə bağlıdır. Onun İsa Məsihin ikinci gəlişinə dair xəbərləri yeni protestant hərəkatın əsasını qoymuşdur[149].



*Uilyam Miller (1782-1849)*

O, 1782-ci ildə Pitsfild şəhərində (ABŞ/ Massaçuses) dünyaya gəlib. Otuz yaşı tamam olduqdan sonra U.Miller dinə qayıtmış, Bibliyanı iki il araşdırdıqdan sonra 1818-ci ildə Əhdi-Ətiqin Daniel Peyğəmbərinin Kitabına istinad edərək belə qənaətə gəlmişdir ki, təqribən 1843-cü ildə İsa Məsihin ikinci gəlişi baş verməlidir[150].

Bu "kəşfindən" sonra U.Miller insanlara qiyamətin yaxınlaşdığını xəbər verdi, lakin onu ciddiyə alan olmadı. Buna baxmayaraq, o, israrla təqribən 1843-cü ildə qiyamətin qopacağını deyirdi. 1833-cü ildə U.Miller baptist kilsəsinin presviteri oldu və vaiz kürsüsündən dünyanın sonu ilə bağlı iddialarını təbliğ etmək fürsəti qazandı. Zaman keçdikcə İsa Məsihin zühuru ilə bağlı xəbərləri diqqət çəkməyə başladı. Ona inanan adamların sayı günü-gündən artdı. U.Miller bəşəriyyətin sonu haqda dini təsəvvürlərini təbliğ etmək üçün çoxlu görüşlər, həftəlik konfranslar keçirirdi. Onu dinləmək üçün xeyli insan gəlirdi, bir çoxları qiyamətin yaxınlaşdığını eşidəndə hönkür-hönkür ağlayırdı[151].

Beləliklə, U.Millerin başçılığı altında yeni dini hərəkat meydana gəldi. Görəsən, bu hərəkatın ardıcılları kim idi? Milleritlər (U.Millerin tərəfdarları) niyə qiyamətin gəlişini belə səbirsizliklə gözləyiblər? Bu suala cavab tapmaq üçün o vaxtlar ABŞ-da cərəyan edən sosial-iqtisadi proseslərə nəzər yetirək.

XIX əsrin əvvəlində ABŞ-da kiçik istehsalçıların iflası, istismarın

149 - Руфь А. Такер. Адвентизм седьмого дня: Эсхатологическая путаница (С-004) //Россия, 194044 Санкт-Петербург, а/я 954, Центр апологетических исследований. – с. 2.
150 - Yenə orada.
151 - Yenə orada.

güclənməsi, təkrar istehsal böhranı ilə müşayiət olunan kapitalist istehsal üsulu sürətlə inkişaf edirdi. Bu sənaye inqilabından milyonlarla adam əziyyət çəkirdi. Xüsusən xırda ticarətçilər, kiçik fermer və sənətkarlar yeni iqtisadi münasibətlərə görə zərərə və iflasa uğrayırdılar. Odur ki, onlar U.Millerin axır zamanla bağlı xəbərini böyük sevinclə qarşıladılar. Kasıblaşmış, məzlum camaat ümid edirdi ki, İsa Məsih tezliklə zühur edəcək, öz İlahi Padşahlığını quracaq, beləliklə, məzlumlar dünyanın əzab-əziyyətlərindən xilas olacaqlar[152].

1839-cu ildə U.Millerin hərəkatına "Çardonstrit Çepl" Boston Kilsəsinin pastoru Coşua Xayms qoşulur. Geniş kütlələrə xitab etmək, insanların qəlbini qazanmaq bacarığı, fitri yazıçılıq istedadı ilə seçilən bu şəxs Millerin yaxın silahdaşı olur. O, milleritləri təşkilatlandırır, Millerin ünvanına yazılan tənqidi məqalələrə, həcvlərə cavab vermək üçün Bostonda "The Sign of the Times" ("Zamanın əlaməti") və Nyu-Yorkda "The Midnight Cry" ("Gecənin yarısında fəryad") adlı qəzetlər buraxır. Xaymsın rəhbərliyi altında dünyanın müxtəlif yerlərinə göndərilən çoxlu kitablar, broşürlər nəşr olunur[153].

U.Millerin hərəkatı get-gedə böyüyürdü. 1843-cü ildə bu hərəkatın təqribən 150 min ardıcılı vardı. O vaxtlar Millerin tərəfdarlarını "ikinci adventistlər" ("adventist" sözü "zühur etmə, gəlmə" mənasına gələn "adventus" latın sözündən yaranmışdır), deyə çağırırdılar. Onların dini yığıncaqlarını "İkinci advent" (yəni "İkinci gəliş"), Millerin hərəkatını "İkinci advent" hərəkatı adlandırırdılar. Çünki hərəkatın lideri İsa Məsihin ikinci gəlişinə dair təbliğat aparır, milleritlər isə bu zühuru səbirsizliklə gözləyirdilər. Lakin "İkinci adventistlər" ifadəsi qəliz və əcaib səsləndiyi, eləcə də xristianlar arasında "birinci adventistlər" adlı qrupun olmadığı üçün sonradan sadəcə "adventistlər" sözü işlədildi[154].

Dediyimiz kimi, Millerin hərəkatı sürətlə böyüyürdü. Millerin tərəfdarları ondan tələb edirdilər ki, İsa Məsihin dəqiq zühur tarixini göstərsin. Çünki U.Miller Həzrət İsanın təqribən 1843-cü ildə gələcəyini deyirdi. Bu

152 - Белов А.В. Секты, сектантство, сектанты. – М.: Наука, 1978. - с. 35.
153 - Руфь А. Такер. Указ. соч. – с. 2-3.
154 - Григоренко А. Эсхатология, милленаризм, адвентизм: история и современность [Elektron resurs]. – URL:http://www.e-reading.club/chapter.php/95123/17/Grigorenko_Eshatologiya%2C_millenarizm%2C_adventizm__istoriya_i_sovremennost%27.html (müraciət tarixi: 04.08.2016).

isə milleritləri qane etmirdi. Ona görə də U.Miller "Məruzə icmallarında izah edilmiş İsa Məsihin 1843-cü ildə ikinci dəfə zühur edəcəyinə dair Müqəddəs Kitabdan və tarixdən dəlillər" adlı kitabında İsa Məsihin 21 mart 1843 - 21 mart 1844-cü ildə gələcəyini bildirdi[155].



*U.Millerin moizəsi*

U.Millerin axır zamanla bağlı xəbərlərinin təsiri altında on minlərlə ABŞ sakini 21 mart 1843-cü ildə ağ libaslara bürünərək İsa Məsihi qarşılamaq üçün dağlara qalxdılar. Di gəl ki, gözlənilən zühur baş vermədi. Onda adventistlər 21 mart 1844-cü ili gözləməyə başladılar. Həmin tarixdə də verilən müjdə puça çıxdı. Bundan sonra U. Miller 1844-cü ilin may ayının sonunda Bostonda adventistlərin illik konfransında açıq-aşkar səhv etdiyini və zühur tarixini müəyyənləşdirmək cəhdindən əl çəkdiyini bildirdi. Lakin Millerin tərəfdarlarından biri – Semuel Snou müəlliminin "səhvini" düzəltdiyini deyərək İsa Məsihin 22 oktyabr 1844-cü ildə gələcəyini iddia etdi. İlk vaxtlar Miller bu tarixlə razılaşmadı. Ancaq tərəfdarlarının bu xəbəri necə sevinclə qarşıladıqlarını görüb ümumi axına qoşuldu. Milleritlər həqiqətən də həmin tarixi böyük həyəcanla gözləyirdilər. Onlar öz təsərrüfatlarını, iş-güclərini atıb gedir, evlərini, mal-mülklərini satır, səhərdən axşamadək tövbə və dualar edirdilər. Bir sözlə, özlərini İsa Məsihin gəlişinə hazırlayırdılar. Amma bu dəfə də gözlənilən hadisə baş vermədi. Və adventistlər böyük məyusluq yaşadılar.

155 - Эсхатология, милленаризм, адвентизм: история и современность//Там же.

Həmin gün adventizmin tarixinə "Böyük Məyusluq Günü" kimi düşdü[156].

"Böyük Məyusluq"dan sonra U.Millerin hərəkatına böyük zərbə dəydi. Hərəkat ardıcılları gülüş və məsxərə hədəfi oldular. Ümidləri boşa çıxan, xəyal qırıqlığına uğrayan milleritlərin bir çoxu müəllimlərindən üz döndərdi. Əksər milleritlər müflis oldu, çünki boş xəyallar dalınca qaçaraq hər şeylərini atıb getmişdilər. Onlar böyük psixoloji sarsıntı keçirdilər. Qeyd edək ki, milleritlər müxtəlif protestant kilsələrə mənsub olublar. "Böyük Məyusluq"dan sonra hərəkata sadiq qalan milleritlər kilsələrindən qovuldu, bir çox şəhərlərdə onların ibadət yerləri daşa basıldı[157].

"Böyük Məyusluq" adventistlər arasında nifaq saldı. Onlar dini mövzularla bağlı bir-birləri ilə mübahisə edərək müxtəlif qruplara parçalandılar. U.Miller bu nifaqı ortadan qaldırmağa çalışdı. 29 aprel 1845-ci ildə Olbani şəhərində (Nyu-York ştatı) müxtəlif adventist təşkilatları və nümayəndələrinin iştirakı ilə konfrans keçirildi. Konfransda U.Miller tərəfdarlarını ayrıca, vahid kilsə ətrafında birləşdirməyə cəhd etdi. Lakin milleritlər bu planı dəstəkləmədilər. Çünki "Böyük Məyusluq"dan sonra o, əvvəlki nüfuzunu itirmişdi[158].

Qısası, adventistlər fərqli qruplara bölündülər. Məsələn, onlardan bir qrupu iddia edirdi ki, U.Miller öz hesablamalarında səhvə yol verməyib. Sadəcə onun göstərdiyi tarixin mahiyyəti düzgün başa düşülməyib. Belə ki, U.Millerin göstərdiyi tarixdə Həzrət İsa yer üzünə gəlməli deyildi, çünki həmin gün İsa Məsih ilahi məhkəməyə hazırlıq işlərinin aparılması üçün "Göylərdəki Məbəd"ə daxil olub. Hazırlıq işləri bitirdikdən sonra o, ikinci dəfə yer üzünə gələcək və İlahi Padşahlıq quracaqdır. Belə iddia ilə çıxış adventistlər deyirdilər ki, İsa Məsihin zühurunu tezləşdirmək üçün Əhdi-Ətiqin şənbə günü barədə hökmünə riayət etmək lazımdır. Beləliklə, bu adventist qrup başqa xristianlar kimi bazar günləri deyil, şənbə günləri əsas dini ayinlərini yerinə yetirməyə başladı[159].

Şənbəyə riayət edənlər digər adventistlərdən 1844-cü ildə ayrıldılar.

---

156 - Белов А.В. Указ. соч. – с. 34; Эсхатология, милленаризм, адвентизм: история и современность// Там же.

157 - Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. — М.: Издательство Московского университета, 2010. — с. 127; Эсхатология, милленаризм, адвентизм: история и современность//Там же.

158 - Эсхатология, милленаризм, адвентизм: история и современность//Там же.

159 - Казьмина О.Е., Пучков П.И. Там же. – с. 127-128.

Onlar 1860-cı ildə Batl-Krik şəhərində (ABŞ/Miçiqan ştatı) qurultay keçirərək özlərini "yeddinci günün adventistləri" adlandırdılar. 20 may 1863-cü ildə yenə Batl-Krik şəhərində yeddinci günün adventistlərinin ilk Baş konfransı keçirildi. Baş konfransda "Yeddinci Günün Adventistləri Kilsəsi"nin (YGA) təşkilati strukturu müəyyənləşdirildi və nizamnaməsi hazırlandı[160].

YGA-nın yaranması və inkişafında qızlıq soyadı Harmon olan Ellen Quld Uayt (1827–1915) adlı qadın mühüm rol oynamışdır. Əri Ceyms Uayt (1821—1881) da həyat yoldaşına bu işdə böyük dəstək vermişdir. Maraqlıdır ki, E.Uaytın YGA-da heç bir rəsmi vəzifəsi olmamışdır. O, Tanrıdan vəhy aldığını iddia etmişdir. Ona görə də yeddinci günün adventistləri onu peyğəmbər sayırlar. E.Uayt YGA-ın inanc əsasını formalaşdırmış, geniş missioner fəaliyyətinin təməlini atmışdır. Onun təşəbbüsü ilə adventistlər dünyaya açılmış, YGA tərəfindən iri təhsil və tibb müəssisələri təsis olunmuş, nəşriyyat işi genişləndirilmişdir[161].



*Ellen Uayt (1827-1915)*

### Azərbaycanda adventizm

Yakov Kleyn Azərbaycana gələn ilk adventist missioner olmuşdur. 1894-cü ilin noyabr ayında o, şənbə gününə riayət edən almanların dəvəti ilə Bakıya gəlmişdir. Şəhərdə bir neçə gün qalan Y.Kleyn 7 almanı xaç suyuna salmış və onlarla birgə Rəbbin Süfrəsi ayinini keçirmişdir. Lakin adventizmə keçən almanlardan birisinin atası lüteran pastoruna şikayət etmişdir. Pastor, öz növbəsində, polis idarəsinə xəbər vermişdir. Bundan sonra Y.Kleyn tutulmuşdur. Pasportu yoxlanıldıqdan sonra o, azadlığa buraxılmışdır. Sonra isə başlayan təqiblərə görə adventistlər Bakıdan çıxıb getmişlər. Beləliklə, uzun müddət şəhərdə adventist olmamışdı[162].

Azərbaycanda ilk adventist icması Şuşada yaranmışdı. 1902-ci ildə

160 - Белов А.В. Указ. соч. – с.38.
161 - Белов А.В. Указ. соч. – с.36, 38; Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с. 128.
162 - Юнак Д.О.История Церкви Адвентистов Седьмого Дня в Азербайджане [Mətn]. Word format. - с. 50-51, 69.

təsis olunan bu rusdilli dini icma YGA-nın Orta Rusiya Missiyasına daxil olmuşdu. 1906-cı ildə isə Xəzər dənizinin yanında yerləşən Novovasilyevka kəndində 34 nəfər adventizmi qəbul etmiş, nəticədə rusdilli adventist icması meydana gəlmişdi. İvanenko adlı şəxs həmin icmanın presviteri seçilmişdi[163].



*Albert Ozol (1878-1916)*

Ölkəmizdə adventizmin yayılmasında Albert Ozol adlı missioner böyük rol oynamışdır. O, 1909-cu ildə bir neçə dini toplantı keçirmiş, bundan sonra 9 nəfər vəftiz olunaraq adventizmi qəbul etmiş və şəhərdə adventist icması yaranmışdır. 17 iyul 1910-cu ildə Ozol Bakıda sonuncu dəfə dini yığıncaq keçirəndən sonra missioner səfərə çıxmış, Yevlaxdan Ağdama getmiş, Qarabulaqda (indiki Füzuli) üç nəfəri xaç suyuna salmışdır[164].

Çar Rusiyası dövründə Azərbaycanda adventizm əsasən molokanlar arasnda yayılırdı. A.Ozol, T.İ.Lebsak, B.Qnedin və P.İ.Pilxin tərəfindən molokan kəndlərində aparılan dini təbliğat nəticəsində bir qrup yerli molokan adventizmə keçdi. Lakin çar müstəbid rejimi adventistləri təqib etməyə başladı. Bəzi adventist rəhbərlər həbsxanaya atıldı və ya sürgünə göndərildi, digərləri isə ölkədən çıxarıldı[165]. Buna baxmayaraq, Rusiya imperiyası dövründə Azərbaycanın ayrı-ayrı yerlərində kiçik adventist dini icmalar mövcud idi. Məsələn, YGA-nın 1911-ci il üzrə məlumatına görə, ölkəmizdə aşağıdakı adventist dini icmalar olub: Şuşa şəhəri – 1902-ci ildə yaranıb; Qarabulaq – 6 üzv; 1909-cu ildə yaranıb; Novovasilyevka kəndi – 9 üzv; 1906-cı ildə yaranıb; 1908-ci ildə 38 üzvü olub, lakin sonradan üzvlərinin sayı azalıb; Bakı – (9 üzv). İcma 1910-cu ildə yaranıb; Tülkü dağları – 6 üzv. 1910-cu ildə yaranıb[166].

Sovet hakimiyyəti illərində adventistlərin fəaliyyətinə gəlincə, ilk öncə onu qeyd edək ki, ötən əsrin 20-30-cu illərində YGA-nın ölkəmizdəki

163 - Yenə orada. – s. 51.
164 - Юнак Д.О.Указ. соч. – с. 52, 70.
165 - Завричко И. История образования Церкви Адвентистов Седьмого Дня//Азербайджан и азербайджанцы в мире: Культурологический журнал. № 1, июнь 2007 года. – с. 68.
166 - Юнак Д.О. Там же. - с. 56.

əsas missionerlərindən biri Vasili Lukiç Jukov olub. O, Bakı, Gəncə, Qaryagin (indiki Füzuli) və başqa yerlərdə dini xidmət göstərib. Bununla yanaşı, Sovet hakimiyyətinin ilk illərində 12-16 oktyabr 1927-ci ildə YGA-nın II Zaqafqaziya qurultayı tərəfindən Azərbaycanın Rus Borisi kəndindəki adventist qrup dini icmalar sırasına daxil edilib. Həmin dövrdə Azərbaycanda adventizmi yayanlar arasında YGA-nın Zaqafqaziya (Transqafqaz) üzrə missioner təşkilatının rəhbəri A.Q.Qallacevin adını çəkmək mümkündür. 1929-cu ilin sonlarında isə ölkəmizdə fəaliyyət göstərən adventist missionerlərdən biri Avstriya ordusunun keçmiş əsgəri Pavel İvanoviç Pilx olub[167].

Kommunist rejimi dövründə adventistlər ibadət etmək üçün gizli yerlərdə toplaşırdılar. 1957-ci ildə Kulakov Pyotr Stepanoviç adlı şəxs Bakıya gələrək Azərbaycandakı adventist hərəkata rəhbərlik etməyə başlayır. XX əsrin 60-cı illərində dini sahədə vəziyyət nisbətən yumşalır. Həmin dövrdə keçmiş dini icmalar bərpa olunur, eləcə də Xaçmaz və Tərtərdə yeni adventist qruplar meydana gəlir. Kulakovun gəlişindən sonra pərakəndə adventist qruplar vahid təşkilat ərafında birləşir, Bakıda Naqornı küçəsində dua evi açılır və burada 60-70 nəfərlik dini icma təsis olunur. Lakin 1960-cı illərdə dua evi yenidən bağlanır və adventistlər gizli şəkildə toplaşmağa məcbur qalırlar[168]. Yalnız 1965-ci ildə adventistlərə dini yığıncaq keçirməyə icazə verilir, 1966-cı ildə yerli adventistlər tərəfindən dua evi açılır. 1968-ci ildən etibarən onlar Bakı şəhəri, Nərimanov rayonu, Yaşar Əliyev küçəsi, 27 (indiki 3-cü İppodrom küçəsi, ev 27) ünvanında toplaşmağa başlayırlar. 1969-cu ildə Yeddinci Günün Adventistləri Kilsəsi dini icması dövlət qeydiyyatına alınır. Həmin dövrdə Mövsüm Rəhimov adventizmə keçərək ilk azərbaycanlı adventist olur. Bu şəxs Stalinin qanlı repressiya illərində dini fəaliyyətinə görə həbs edilmişdi. 1976-cı ildə Bakıda adventist icmanın rəhbəri Jitnikov Pavel İlyiç olur. Jitnikov bu vəzifəni 1993-cü ilədək icra edir[169].



*Kulakov Pyotr Stepanoviç*

167 - Юнак Д.О. Указ. соч. - с.56-57.
168 - Завричко И. Указ. соч. – с. 68.
169 - Завричко И. Там же; Юнак Д.О. Указ. соч. - с.71.

Ötən əsrin 70-ci illərində Bakıya əcnəbi adventistlər (Macarıstanda Yeddinci Günün Adventistləri Kilsəsinin prezidenti İosif Sakaç və həyat yoldaşı Mariya, həmin kilsənin katibi Zorka Denış, pribaltikalı İ.V.Oltınış, YGA-nın Baş Konfransının vitse-prezidenti və s.) baş çəkirlər[170].

Keçən əsrin 80-cı illərində Bakıda adventistlərin sayı 100 nəfəri keçmişdi. O vaxtlar adventist icmanın artım tempinə, üzvlərinin təhsil səviyyəsi, sosial mənşəyi və etnik tərkibinə gəlincə, ilk öncə onu qeyd edək ki, 1982-ci ildə Bakı şəhəri Yeddinci Günün Adventistləri dini icmasının 103 üzvü olmuşdu. Həmin il ərzində cəmi 5 nəfər icmaya üzv qəbul edilmişdi. İcma üzvlərinin milli mənsubiyyəti belə olmuşdur: 76 rus, 12 erməni, 8 ukraynalı, 4 azərbaycanlı, 2 yəhudi. Adventistlərin təhsil səviyyəsi aşağı idi. 103 nəfərdən cəmi dördü ali təhsil almışdı. Qalanların təhsilləri belə olub: orta təhsil – 32 nəfər; natamam orta - 35 nəfər; ibtidai təhsil - 26 nəfər; təhsilsiz - 6 nəfər. 1982-ci ildə Bakı şəhəri adventist dini icmasının üzvlərinin sosial mənşəyi: fəhlə - 58 nəfər; təqaüdçü - 35 nəfər, qulluqçu - 4 nəfər. 6 nəfər isə başqasının öhdəsində yaşayıb. Həmin ilin hesabatında icmanın yaş tərkibi ilə bağlı maraqlı məlumatlar göstərilib:

18-25 yaş: 13 nəfər (7 kişi, 6 qadın);
26-30 yaş: 3 nəfər (1 kişi, 2 qadın);
31-35 yaş: 8 nəfər (2 kişi, 6 qadın);
36-40 yaş: 1 qadın;
40-45 yaş: 5 nəfər (1 kişi, 4 qadın);
46-50 yaş: 10 nəfər (2 kişi, 8 qadın);
50 və ondan yuxarı: 63 nəfər (6 kişi, 57 qadın)[171].

Gördüyümüz kimi, ötən əsrin 80-ci illərində Bakı şəhəri Yeddinci günün adventistləri dini icması əsasən milli mənsubiyyətinə görə rus olan orta yaşlı qadınlardan ibarət idi.

Qeyd edək ki, Sovet hakimiyyəti illərində ən böyük adventist dini icmalarından biri Gəncədə mövcud olub. Hələ 1906-1908-ci illərdə burada adventist missioneri P.İ. Pilx fəaliyyət göstərmişdi. Artıq ötən əsrin 20-ci illərində Gəncədə (o vaxtlar Kirovabad adlanırdı) adventist icması yaranmışdı.

170 - Юнак Д.О. Там же. - с. 72.

171 - Nazirlər Kabineti yanında Dini İşlər İdarəsinin arxivi: Qovluq №31. 1983-cü ildən başlanılıb. Bakı şəhəri YGA (23 sentyabr 1969-cu ildə qeydiyyata alınıb)/ Arxiv sənədləri Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qorunur.

İkinci dünya müharibəsindən sonra həmin dini icmanın cəmi 15 nəfər üzvü olmuşdu. 1957-ciilədək icmaya P.M.Tkaçuk başçılıq etmişdi. 1957-ci ildə isə Gəncəyə Ukraynadan adventist pastor Anatoli Sergeyeviç Noqa gəlmiş və tezliklə icma üzvlərinin sayı 40 nəfərə kimi artmışdır. Noqanın vəfatından sonra Gəncədəki adventistlərə onun kürəkəni Anatoli Stepanoviç Jelovaqa rəhbərlik etmişdir. 1988-ci ildə Jelovaqa Gəncədən köçdükdən sonra icmada dini ayinləri bir neçə ay Pavel Yakovleviç Dmitriyenko yerinə yetirmişdir[172].

Bakıdakı adventistlərə gəlincə, Sovet hakimiyyətinin son illərində şəhərə Katsel Pavel Aleksandroviç gəlir və tezliklə buradakı adventist kilsəsinin presviteri seçilir. 1988-ci ildən İvan İvanoviç Uklein Azərbaycandakı adventist icmalara başçılıq etməyə başlayır. Habelə Bakıdakı dini icmada İqor Veniaminoviç Qospodarets və Pavel Mixayloviç Nikulşin presviter vəzifəsini yerinə yetirirlər[173].

Sovet hakimiyyəti dövründə Azərbaycandakı adventizmin tarixindən danışarkən, o vaxtlar ölkəmizin müxtəlif yerlərində mövcud olan adventist icmaların sayına toxunmaq lazımdır. Belə ki, D.O.Yunakın "Azərbaycanda Yeddinci Günün Adventistləri Kilsəsinin tarixi" kitabından belə məlum olur ki, Sovet hakimiyyətinin müxtəlif illərində ölkəmizdəki adventist icmalarının üzvlərinin təqribi sayı Sxem 1-də göstərilən kimi olmuşdur.

***Sxem 1. Sovet hakimiyyəti dövründə adventistlərin sayı.***




172 - Юнак Д.О. Указ. соч. - с.73-74.
173 - Yenə orada. – s. 71-72.

Qeyd edək ki, yuxarıdakı cədvəldə Tərtər rayonundakı adventistlərinin sayı göstərilərkən iki adventist dini icmanın üzvlərinin ümumi sayı verilmişdir: Tərtər şəhəri adventist dini icması və Tərtər rayonu, Köyarx kəndi adventist dini icması. Onu da deyək ki, Köyarx kəndi Qarabağ müharibəsi zamanı 1993-ci ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir.

1991-ci ildə Azərbaycan xalqı dövlətçilik ənənəsini yenidən bərpa etdikdən sonra respublikamızda yaşayan adventistlər öz inanclarını qorxmadan, çəkinmədən yaşamaq və yaymaq imkanı əldə etdilər. Belə ki, Rusiya imperiyası və Sovet İttifaqı dövründə adventistlər təqiblərlə üzləşirdilər. O vaxtlar adventist icmaların fəaliyyəti məhdudlaşdırılaraq dar çərçivəyə salınmışdı. Halbuki müstəqillik illərində adventislər azad fəaliyyət göstərərək saylarını artıra bildilər. Belə ki, 1980-cı illərin sonunda ölkəmizdə adventistlərin sayı 125 nəfər olduğu halda, günümüzdə onların sayı 528 nəfərdir.

Müstəqillik illərində adventistlərin həyatında bir çox əlamətdar hadisə baş verdi. 1990-cı ildən adventist ədəbiyyatının nəşrinə başlanıldı. Elə həmin il Şəhriyar adına mədəniyyət evində "Üç mələk Bakı üzərində" adlı tədbir, 1991-ci ildə Zabitlər evində Bibliya kursları, 1992-ci ildə yenə də Şəhriyar adına mədəniyyət evində Artur Şmidt tərəfindən yevangelist proqram keçirildi. 1993-cü ildə bu adventist təbliğçi sağlam həyat tərzi və Bibliyanın öyrənilməsinə dair 3 aylıq proqram çərçivəsində məruzələrlə çıxış etdi. Nəticədə Bakıda yeni bir adventist icması yarandı ki, onun da başçısı İ.V.Qospodarets oldu. İ.İ.Uklein isə ilk icmanın rəhbəri olaraq qaldı. Hər iki icmanın ümumi sayı 222 nəfər təşkil etdi. 1995-ci ildə Bakı şəhərinin Bakıxanov qəsəbəsində D.B. Babayevin rəhbərliyi altında yeni bir icma təsis olundu. 1996-cı ildən şənbə məktəbinin dərsləri və E.Uaytın kitabları Azərbaycan dilində buraxılmağa başlanıldı. 2001-ci ildə İ.P.Zavriçkonun başçılığı altında Azərbaycan Missiyası (indiki rəhbəri – Elşən Səmədov) yaradıldı. Artıq 2003-cü ildə Bakıdakı adventist icmaların ümumi sayı 360 nəfərə çatdı[174].

13 dekabr 2014-cü ildə respublikamızda yaşayan adventistlər

174 - Путь, длиною в 120 лет! Юбилей Церкви адвентистов седьмого дня в Азербайджане [Elektron resurs]. – URL: http://adventisty.ru/adventist_news/detail.php?ELEMENT_ID=248543 (müraciət tarixi: 04.08.2016).

Azərbaycandakı adventizmin 120 illik yubileyini qeyd etdilər. 09.09.2016-cı il tarixində isə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Bakı şəhəri Nərimanov rayonu "Yeddinci Günün Adventistləri" dini icması yenidən dövlət qeydiyyatına alındı.



*Bakı şəhərində yeddinci günün adventistlərinin dua evində Azərbaycanda adventizmin 120 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdən fotoşəkil. 13 dekabr 2014-cü il.*



*Gəncə şəhərində yeddinci günün adventistlərinin dua evi.*

## İnanc əsasları

YGA etiqadca Xristianlığın protestant qoluna aiddir. Lakin bu kilsənin etiqadi əsaslarında aşağıdakı fərqli cəhətlər mövcuddur:

1. Yeddinci günün adventistlərinin əsas ibadət günü şənbədir. Halbuki başqa xristianlar bazar günü ibadət edirlər. Adventistlər Tövratın əmrinə riayət edərək şənbə günü heç bir dünyəvi işlə məşğul olmur, həmin günü Tanrıya həsr edirlər[175].

2. YGA-nın əsas fərqli özəlliklərindən biri odur ki, bu kilsənin təəssübkeşləri Ellen Uaytı peyğəmbər sayırlar. Onların inancına görə, həmin qadının kitabları ilahi vəhyin təsiri altında yazılmışdır. Odur ki, yeddinci günün adventistləri E.Uaytın əsərlərini az qala Bibliyaya bərabər tuturlar[176].

3. "Üç mələyin xəbəri" dini təlimi YGA-nın əsas fərqli cəhətlərindən biridir. Həmin təlimə görə, bəşəriyyəti qiyamətə hazırlamaq məqsədilə üç mələk göndəriləcəkdir. Onlar dünyanın sonu haqqında xəbər verəcək, insanları tövbəyə çağıracaq, Babilistanın, yəni günah girdabına yuvarlanmış dini-siyasi sistemin, yəni ABŞ, Vatikan, dindən uzaqlaşmış protestant cərəyanlar və bütpərəstlərin çöküşünü elan edəcək, bu "şeytani" sistemə tabe olanları ilahi cəza ilə qorxudacaqlar[177].

4. "Sanitar islahatı" haqqında dini təlim YGA-nın özünəməxsus cəhətlərindəndir. Bu təlimin yaradıcısı E.Uaytdır. Belə ki, yeddinci günün adventistləri tərəfindən peyğəmbər kimi qəbul olunan bu qadın Əhdi-Ətiqə əsaslanaraq "murdar" heyvanların ətlərini (donuz, pulcuqsuz balıq və s.) haram bilmişdir. Lakin bununla yetinməyərək tərəfdarlarını sağlam qidalanmaya səsləmiş, öz qida rasionlarından ət məhsullarını, çayı, qəhvəni, ədviyyatları çıxarmağı tövsiyə etmiş, eləcə də tütün və alkoqollu içkilərə qarşı çıxmışdır. E.Uaytın bu görüşləri "Şəfa Xidməti" adlı kitabında əks olunmuşdur. Məsələn, həmin kitabda adventistlərin "peyğəmbəri" çay və qəhvə barədə bunları deyirdi: *"Qəhvə, çay, tütün və alkoqollu içkilərə gəlincə, yeganə təhlükəsiz yol onlara əl vurmamaq, onların dadına baxmamaq və hətta onları götürməməkdir. Çay, qəhvə və onlara bənzər stimulyatorlar*

175 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с.129.
176 - Официальные заявления, рекомендации и другие документы Церкви Адвентистов Седьмого Дня. - Заокский: «Источник жизни», 2010. - с. 309.
177 - Трёхангельская весть [Elektron resurs]// сайт «Откровения для последнего времени». – URL: http://www.otkrovenie.de/sda/f19.htm (müraciət tarixi: 05.08.2016).

*alkoqollu içkilər və tütün kimi təsirə malikdirlər...”*[178].

5. YGA-nın üzvləri inanırlar ki, 1844-cü ildə İsa Məsihin Allahın xalqını günahlardan təmizləmək məqsədilə Baş Kahin qismində “Səma Məbədi”nin ən müqəddəs yerinə daxil olub və hazırda bu vəzifəsini yerinə yetirir.

6. YGA-nın mənsubları ruhların ölümsüzlüyünü və əbədi əzabı inkar edirlər[179].

## Say və etnik tərkibi

Dünyada adventizmin müxtəlif denominasiyaları mövcuddur - “Yeddinci Günün Adventistləri Kilsəsi”, islahatçı adventistlər, “Zühur etmə Xristian Kilsəsi”, “Tanrının Kilsəsi”, “Həyat və Gəlişin İttifaqı”, “İlk Adventin Xristian Kilsəsi” və s. Onların içərisində sayca ən böyüyü Yeddinci Günün Adventistləri Kilsəsidir. 31 dekabr 2015-ci ilin məlumatına görə, YGA-nın dünyada 19 126 447 nəfər üzvü olub[180]. Azərbaycanda isə adventistlərin ümumi sayı 527 nəfərdir. Bakıda adventistlərin sayı 339 və Gəncədə 170 nəfərdir. Habelə Tovuzda 7, Naxçıvanda 5, İsmayıllı rayonunun İvanovka kəndində 3, Gədəbəy rayonunun Saratovka kəndində 2, Goranboy rayonunun Rus Borisi kəndində 1 nəfər adventist yaşayır. Respublikamızda yaşayan adventistlərin etnik tərkibi belədir: Azərbaycanlı – 334 nəfər; rus -153 nəfər; ukraynalı – 7 nəfər; tatar - 7 nəfər; ləzgi – 8 nəfər; yəhudi – 5 nəfər; tabasaran – 2 nəfər; koreyalı – 2 nəfər; moldovan – 1 nəfər; qazax – 1 nəfər; kumık – 1 nəfər; qaqauz – 1 nəfər; gürcü – 1 nəfər; Şri-Lankalı – 1 nəfər; Litvalı – 1 nəfər; Abxaz - 1 nəfər; dargin – 1 nəfər.

## Kilsənin strukturu

Hər yerli adventist icması ümumi yığıncaq tərəfindən idarə olunur. Respublikamızdakı adventist icmalar Azərbaycan Missiyasında birləşirlər. Azərbaycan Missiyası Transqafqaz Union Missiyasına (iqamətgahı Tiflis şəhərində yerləşir), sonuncusu isə baş ofisi Moskva şəhərində yerləşən Avro-Asiya Divizionuna tabedir. Dünyada 13 belə divizion (regional təşkilat) mövcuddur. Bütün divizionlar YGA-nın Baş Konfransı (ofisi ABŞ-ın

178 - Елена Уайт. Служение исцеления. – Заокский: «Источник жизни», 2013. - с. 274.
179 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с.128.
180 - http://adventist.ru/2016/04/07/kolichestvo-adventistov-v-mire-prevyisilo-19-millionov-chelovek/ (müraciət tarixi: 06.08.2016).

Merilend ştatında yerləşir. Konfransın başqa adı: Dünya Missiyası). Konfransa 5 ildən bir çağırılan iclas tərəfindən seçilmiş prezident rəhbərlik edir.

## Humanitar təşkilat

1994-cü ildən Azərbaycan Respublikasında YGA tərəfindən təsis olunan, lakin formal olaraq kilsənin strukturuna daxil olmayan “ADRA” təşkilatı fəaliyyət göstərir. “ADRA” (“Adventist Development and Relief Agency” – “Yardım və İnkişaf üzrə Adventist Agentliyi”) – 1956-cı ilin noyabr ayında yaradılan beynəlxalq qeyri-hökumət xeyriyyə təşkilatıdır. Dünyanın 125 ölkəsində nümayəndəliyi mövcuddur. “ADRA” BMT-nin İqtisadi-Sosial Şurası yanında məşvərətçi statusa malikdir. Əsas fəaliyyət sahələri Bakı və Gəncə şəhərləridir.

## Maliyyə mənbəyi

Yerli adventist icmalar üzvlərin könüllü ianələri hesabına fəaliyyət göstərirlər. Belə ki, ibadət günləri və hər kvartalda üzvlərdən pul yığılır. İcma üzvləri gəlirlərinin onda bir hissəsini kilsəyə bağışlayırlar. “Desyatina” adlanan bu kilsə vergisinin 10 faizi icmanın ehtiyaclarına, 45 faizi union və diviziona, qalan məbləğ isə Baş Konfransa ayrılır. Yerli adventist icmalar xaricdəki mərkəzlərindən də maliyyə yardımı alırlar[181].

## İctimai mövqeyi və dini təhsil

Yeddinci günün adventistləri dövlətin qanunlarına hörmətlə yanaşırlar. YGA başqa konfessiyalara dözümlü münasibət göstərir, lakin ekumenizmə, yəni xristianları birləşdirməyə çalışan hərəkata tənqidi yanaşır. Bu səbəbdən YGA “Ümumdünya Kilsələr Şurası” kimi beynəlxalq xristian təşkilatına üzv olmur[182]. Adventistlər daha çox baptistlərlə əməkdaşlıq edir, ortaq problemləri həll etməyə çalışırlar[183]. Maraqlıdır ki, Bakı şəhərində adventist və baptistlərin dua evləri qonşuluqda yerləşir. Hər adventist icmada şənbə məktəbləri fəaliyyət göstərir. Bununla yanaşı, Azərbaycandakı adventistlər Rusiya Federasiyasının Tula vilayətində yerləşən Zaoksk Adventist Universitetində ali dini təhsil alırlar.

181 - Стёпина С., Войтоловский Ф., Лункин Р. Церковь адвентистов седьмого дня//Современная религиозная жизнь России: опыт систематического описания. т.2 - с. 399
182 - Ətraflı məlumat üçün bax: Официальные заявления, рекомендации и другие документы Церкви Адвентистов Седьмого Дня. - Заокский: «Источник жизни», 2010. - с.270-284.
183 - Стёпина С., Войтоловский Ф., Лункин Р. Указ. соч. – 396.

## ƏLLİNCİLİK VƏ XARİZMAT HƏRƏKAT

*Bu protestant məzhəbə vəcd halları, ibadət zamanı özündən keçmə, yüksək emosionallıq, irrasionallıq xasdır. Həm dünyada, həm də Azərbaycanda ən çoxsaylı, eyni zamanda, ən sürətlə yayılan protestant cərəyanıdır.*

*Əllinciliyin yaranma tarixi yeni olsa da, qısa müddətdə dünyanın müxtəlif yerlərində böyük uğur əldə edib. Dünyanın elə regionları var ki, orada əllincilik qədim tarixə malik olan katoliklikl ə rəqabətə duraraq, bu iri və köklü xristian konfessiyasının mənsublarını öz tərəfinə çəkir. Tədqiqatçılar əllincilərin bu uğurunu qloballaşan dünyaya uyğunlaşa bilmələri ilə əlaqələndirirlər. Sürətlə dəyişən dünyamızda əllincilik ən perspektivli xristian məzhəbi kimi görünür. Beləliklə, bu maraqlı protestant məzhəbinin yaranma tarixinə, inanc əsaslarına, eləcə də Azərbaycandakı keçmişinə, müasir vəziyyətinə ötəri nəzər yetirək.*



## Qısa tarixi



Çarlz Foks Parham (1873-1929)

Əllincliyin yaranması Çarlz Foks Parhamın adı ilə bağlıdır. O, metodist kilsəsinin keşişi olub. Parham inanırdı ki, dünyanın sonuna yaxın Xristianlıq yer üzündə sürətlə yayılacaqdır. Bu işi həyata keçirən missionerlər isə Müqəddəs Ruhun nazil olması sayəsində fövqəl gücə sahib olacaqlar. O, belə hesab edirdi ki, naməlum dillərdə danışmaq Müqəddəs Ruhun möminə nazil olmasının, xristian terminologiyası ilə desək, Müqəddəs Ruhla vəftiz olunmağın bariz əlamətidir[184].

1900-cu ildə Parham Topika şəhərində (ABŞ/Kanzas) "Vefil" Bibliya məktəbini açır. Təqribən qırx nəfər bu məktəbə yazılır. Parham məktəbində həm müəllim, həm də şagird rolunu oynayırdı. O, şagirdlərinə tapşırır ki, Bibliyada Müqəddəs Ruhla vəftiz olunmaq mövzusunu araşdırsınlar. Müqəddəs Kitabı tədqiq etdikdən sonra şagirdləri belə qənaətə gəlirlər ki, qəfildən naməlum dillərdə danışmaq Müqəddəs Ruhla vəftiz olunmağın ən böyük sübutudur. Çünki Həvarilərin İşləri kitabının 2-ci fəslində İsa Məsihin dirilişindən 50 gün sonra Əllinci Gün bayramında həvarilərə Müqəddəs Ruhun nazil olmasından, apostolların birdən-birə bilmədikləri dillərdə danışmalarından bəhs olunur[185].

Odur ki, 1900-cu ildə Yeni il ərəfəsində Parham və şagirdləri Müqəddəs Ruhdan belə ənam almaq üçün gecələri dua etməyə başlamışlar. İbadət zamanı onun qız şagirdlərindən biri – Aqnes Ozman müəllimindən xahiş etmişdir ki, erkən həvari kilsəsində olduğu kimi Parham əlini onun başının üstünə qoysun və dua etsin. Parham dua etməyə başlayandan sonra Aqnes birdən-birə əvvəllər bilmədiyi çin dilində "danışmışdır". Növbəti günlər Bibliya məktəbinin digər şagirdləri, o cümlədən Parhamın

184 - Вах: Франчук В.И. Пробуждение: от центра Одессы до окраин России. – Одесса: «СИМЭКС-ПРИНТ», 2011. – с. 141.
185 - Франчук В.И. Указ. соч. – s. 141-142; Чарльз Пархам. Проповедник, который поспешил [Elektron resurs] http://7gromov.com.ua/?q=node/1789 (müraciət tarixi: 07.12.2016).

özü Müqəddəs Ruhla vəftiz olunduqlarını, qəflətən bilmədikləri dillərdə danışdıqlarını iddia etmişlər[186].

Beləliklə, əllinciliyin əsası qoyulmuşdur. Aqnes Ozman yeni il ərəfəsində qəfil çin dilində "danışdığı" üçün 1 yanvar 1901-ci il əllincilik dini cərəyanının yaranma tarixi sayılır[187]. Yeni protestant məzhəbin təəssübkeşləri "əllincilər" və ya "pentekosçular" adlandırılmışlar. Çünki apostollara da İsa Məsihin dirilişindən əlli gün sonra Pentekos ("pentekos" yunan dilində "əlli" deməkdir) bayramında Müqəddəs Ruh nazil olmuş və onlar qəflətən bilmədikləri dillərdə danışmışlar.



*İsa Məsihin dirilişindən əlli gün sonra apostollara Müqəddəs Ruhun nazil olmasını təsvir edən ikona.*

Bibliya məktəbində yaşanan dini təcrübədən sonra Parham başqa xristianları Müqəddəs Ruhla vəftiz olunmağa səslədi. O, iddia edirdi ki, Müqəddəs Ruhun nazil olması sayəsində ona qeyri-adi şəfaverici güc verilib. Parhamın dini yığıncaqlarında iştirak edənlər inanırdılar ki, onlar Müqəddəs Ruhla vəftiz olunaraq şəfa tapıblar. Öz dini ideyalarını təbliğ etmək üçün Parham 1905-ci ildə Hyustonda (ABŞ/ Texas) yeni Bibliya məktəbi açdı[188].

Parhamın şagirdlərindən biri zənci Uilyam Cozef Seymur olub. O, Parhamın məktəbində cəmi altı həftə oxuyub. O vaxtlar ABŞ-da qüvvədə

186 - Франчук В.И. Там же. – с. 142; Чарльз Пархам. Проповедник, который поспешил//Там же.
187 - Вах: Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. – М.: Издательство Московского университета, 2010. – с. 142.
188 - Франчук В.И. Там же. – с. 142.



Uilyam Cozef Seymur
(1870-1922)

olan seqreqasiya qanunlarına görə, zəncilərlə ağlar ayrı təhsil almalıydılar. Odur ki, U.Seymur Parhamın məktəbində oxuyan zaman dəhlizdə oturaraq dərsləri dinləyirdi. Sonradan o, Bibliya məktəbindən ayrılaraq Los-Ancelesə gedib və burada moizələr deyərək Müqəddəs Ruhla vəftiz olunmağa çağırıb. Bir müddət sonra onun başçılığı altında dini icma meydana gəlib[189].

9 aprel 1906-cı ildə bu icmanın üzvləri ibadət zamanı Müqəddəs Ruhun təsiri altına düşərək birdən-birə naməlum dillərdə danışmağa, nəğmə oxumağa başlayırlar. Bu hadisədən sonra icma sürətlə böyüyür. Odur ki, U.Seymurun tərəfdarları ibadət etmək, dini yığıncaqlar keçirmək üçün daha böyük yer axtarır və Azuza küçəsi, 312 ünvanında yerləşən bir binada toplaşırlar. Az sonra isə Seymurun kilsəsinə rəsmi ad qoyulur - "Apostol Etiqadı Missiyası". Lakin camaat arasında əllincilərin bu kilsəsi "Azuza strit Missiyası" kimi məşhurlaşır[190].




*Azuza strit missiyası.*

189 - Вах: Сесил М.Робек. Азуза-стрит: миссия и пробуждение. – Александрия: ЕЗДРА, 2011. - с. 16-17.
190 - Yenə orada. – s. 18.
191 - Yenə orada. – s. 20.

Azuza küçəsi, 312 ünvanında yerləşən əllincilərin kilsəsində ağlar, qaralar, kasıblar, varlılar, fərqli millətlərin nümayəndələri birgə ibadət edərək ekstaz vəziyyətinə düşür, ibadət zamanı qəribə hərəkətlər edirdilər. Sesil M. Robek bu haqda yazır: *"Azuza strit missiyasında insanlar naməlum dillərdə danışır, gələcəkdən xəbər verir, ilahi şəfadan bəhs edir, qarabasma görür və Müqəddəs Ruhun təsiri altında hoppanmaq, yerdə yuvarlanmaq, gülmək, qışqırmaq, hürmək və yerə düşmək kimi o qədər də adi olmayan hərəkətlərin başqa formalarına məruz qalırdılar"*[192].

Bu küçədə baş verən kütləvi ekstaz halları "Azuza küçəsində oyanış" adı ilə tarixə düşür. "Azuza strit missiyası"nda yaranan oyanış ABŞ-ın başqa yerlərinə, eləcə də müxtəlif Avropa dövlətlərinə sirayət etdi, beləliklə əllincilik dünyada yayıldı[193].

Tədqiqatçılar əllinciliyin tarixini üç inkişaf mərhələsinə bölürlər. Onlar bu mərhələləri üç dalğa (və ya üç axın) adlandırırlar. Əllinciliyin birinci dalğası 1 yanvar 1901-ci ildə Ç.F.Parhamın Bibliya məktəbində A.Ozmanın guya Müqəddəs Ruhun təsiri altına naməlum dildə danışmasından başlamışdır. Birinci dalğa başqa protestant kilsələrinə sirayət etmiş, nəticədə əllinciliyə müxtəlif protestant kilsələrinin mənsubları keçmişlər. Onlar Müqəddəs Ruhla vəftiz olunduqdan sonra əvvəllər mənsub olduqları kilsələrdən uzaqlaşaraq ayrıca, müstəqil kilsələr qurmuşlar. Lakin zamanla birinci dalğa səngimişdir.

Əllinciliyin ikinci dalğası 1960-cı ildə başlayır. Həmin il Kaliforniyadan olan anglikan pastoru Dennis Bennettin kilsəsində dindarlar iddia etməyə başladılar ki, Müqəddəs Ruhdan ənam alaraq birdən-birə naməlum dillərdə danışmağa başladılar. Əllinci kilsələrdə müşahidə olunan ekstaz hallarına bənzər hadisələr bu dəfə Anglikan Kilsəsində yaşanırdı. Odur ki, D.Bennetin kilsəsi televiziya kanallarında göstərildi və kaliforniyalı pastor qısa müddətdə məşhurlaşdı. Onun kilsəsindən əllincilik hərəkatı başqa protestant kilsələrinə sirayət etdi. XX əsrin 60-cı illərində Roma Katolik Kilsəsinin mənsubları da əllinciliyin təsiri altına düşdülər. Hətta 1970-ci illərin əvvəllində mühafizəkarlığı ilə seçilən Yunan Pravoslav Kilsəsində də əllinciliyin təsiri hiss olunurdu[194].

Sual yarana bilər ki, ikinci dalğa birinci dalğadan nə ilə fərqlənir?

192 - Yenə orada. - s. 27.
193 - Франчук В.И. Указ. соч. – с.145.
194 - Янг Дж. Христианство. – М.: Агенство «ФАИР», 1998. – с. 249.

Daha öncə də dediyimiz kimi, Azuza küçəsindəki oyanışla geniş vüsət alan birinci dalğa təkcə müxtəlif protestant kilsələrini əhatə edirdi. Bu zaman əllinciliyin təsiri altına düşmüş protestantlar mənsub olduqları kilsələrdən çıxaraq özləri üçün ayrıca əllinci kilsələr qurdular. Əllinciliyin ikinci dalğası isə yalnız protestantları deyil, həm də bir çox katoliki, hətta az da olsa belə, pravoslavları təsiri altına sala bilmişdi. Lakin bu zaman Müqəddəs Ruhla "vəftiz olunaraq" naməlum dillərdə "danışan" və başqa ekstaz hallara düçar olanlar öz kilsələrindən ayrılmırdılar. İkinci dalğanın təsiri altına düşən məsihçiləri xarizmatlar, onların dini hərəkatını isə xarizmat hərəkat (bəzən Yeniləşdirmə Hərəkatı da deyirlər) adlandırdılar[195].

XX əsrin 70-80-ci illərində əllinciliyin üçüncü dalğası geniş yayılır və xristian dünyasında xarizmatik dini hərəkat yenidən vüsət aldı. Bu dəfə xarizmatizmin təsiri altına düşənlər mənsub olduqları kilsələrdən çıxaraq ayrıca, müstəqil dini təşkilatlar qurdular. Bu yeni kilsələrin təəssübkeşlərini "neoxarizmat" adlandırdılar. Lakin neoxarizmatlar kilsələrinə ad verərkən "əllinci" və ya "xarizmat" kimi sözləri istifadə etməkdən qaçınırlar[196].

Neoxarizmatizmin özünəməxsus cəhətləri aşağıdakılardır[197]:

- Başqa kilsələrin rəhbərlərini vəzifədən uzaqlaşdırmaq və ya nifaq salmaq bahasına olsa belə, ənənəvi xristian konfessiyalarına nüfuz etmək cəhdi;
- "Möcüzələr" və "ilahi işarələr" yolu ilə dinə dəvət etmək. Bu dəvət metodu "paueryevangelizm" adlandırılır;
- Kütləvi "cin çıxarma" və "şəfa vermə" hadisələri;
- İbadət vaxtı əcaib hərəkətlər: kütləvi isteriya, yerə yıxılmalar və s;
- "Ərazi ruhları" adlanan şər qüvvələrə qarşı "ərazi müharibələrin" aparılması.

1994-cü ildə "Toronto həmdü-sənası" ilə xarizmat hərəkatında yeni mərhələ başladı. Bu dini hadisə Kanadanın Toronto şəhərində kilsələrin

195 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. - с. 146; Янг Дж. Указ. соч. – с. 249.
196 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с. 147.
197 - Bax: Samara şəhəri "Preobrajeniye"Yevangelik Xristian Baptistlərinin kilsəsinin bazar günü məktəbi üçün material. – s.97 [Elektron resurs]/Hazırladılar: Ryaquzov Viktor Semyonoviç, Yermoşkin İlya İlyiç, Puzankov Oleq Qersonoviçvə başqaları. – URL: file:///C:/Users/User/Desktop/transfiguration-sunday-school-material-year-2.pdf (müraciət tarixi: 13.12.2016).

birində meydana gəldi[198]. "Müqəddəs gülüş" deyilən dini fenomen "Toronto həmdü-sənası"nın əsas xüsusiyyətlərindən biridir. Belə ki, Torontodakı xarizmat kilsədə ekstaz yaşayan dindarlar guya Müqəddəs Ruhun təsiri altında səbəbsiz, boş yerə, durmadan gülürlər.

"Toronto həmdü-sənası"nın təsiri altına düşən adamlar kütləvi vəcd halı yaşayaraq əcaib və mənasız hərəkətlər edirlər. Con Yanq bu təzahürləri belə təsvir edir: *"Müqəddəs Ruhla "öldürülən" adamlar yerdə bir neçə dəqiqə tərpənmədən uzana bilirlər. Onlar bəzən ağlayır və ya gülürlər; başqaları it kimi hürür və ya şir kimi nərildəyirlər"*[199].

## Dini təlimləri

Əllinciliyin ehkamının təməlində Müqəddəs Ruhla vəftiz olunmaq inancı dayanır. Əllincilər inanırlar ki, hər möminə Müqəddəs Ruh nazil ola bilər. Onların fikrincə, Müqəddəs Ruh nazil olandan sonra məsihçilərə müxtəlif ənamlar verilir, nəticədə onlar qəflətən bilmədikləri dillərdə danışır, şəfaverici qüvvəyə malik olaraq xəstələri sağaldır, şər ruhları qovur və başqa möcüzələr göstərirlər. Qeyd edək ki, Müqəddəs Ruhun təsiri altında naməlum dillərdə danışmaq fenomeni qlossolaliya (yunanca "dildə danışmaq" mənasına gəlir) adlanır.

Bununla yanaşı, xarizmatların etiqadında "İnkişaf ilahiyyatı" dini təlimi mövcuddur. Həmçinin bu təlim "çiçəklənmə İncili", "sağlamlıq və zənginlik İncili" və ya "uğur İncili" kimi də məşhurdur. Ənənəvi əllincilərin etiqadi prinsiplərində isə "İnkişaf ilahiyyatı" təlimi yoxdur. Həmin təlimə görə, Rəbb möminlərin fiziki cəhətdən sağlam olmalarını, bütün sahələrdə uğur qazanaraq inkişaf etmələrini istəyir. Odur ki, xarizmat liderlər tərəfdarlarına həyatda uğur qazanacaqlarını, var-dövlət sahibi olacaqlarını, karyera yüksəlişinə nail olacaqlarını, ən ağır xəstəlikdən belə qurtulacaqlarını vəd edirlər[200].

Habelə bir çox xarizmatik kilsələrə yəhudipərəstlik və sionizmə rəğbət göstərmək xasdır. Çünki onlar yəhudilərin Tanrı tərəfindən seçilən

198 - Янг Дж. Указ.соч. – с. 250.
199 - Yenə orada.
200 - Bax: Лункин Р. Пятидесятничество и харизматическое движение: Общие сведения. История и филиация// Современная религиозная жизнь России: опыт систематического описания. Том II. – Москва: «Логос», 2003. – с. 262.

xalq olduğuna inanırlar. Xarizmatlar yəhudilərin müqəddəs torpağa, yəni İsrailə qayıtması üçün əllərindən gələni edir və bunu özlərinə müqəddəs borc bilirlər. Məsələn, əksər xarizmatik kilsələrdə yəhudilərin İsrailə qayıtması üçün ianələrin yığıldığı məlumdur[201].

## İbadət şəkilləri

Əllincilik protestantlığın bir istiqamətidir. Ona görə də əllincilərin dini ayinləri başqa protestant məzhəblərin ibadətlərinə bənzəyir. Lakin fərqlər də mövcuddur. Belə ki, qlossolaliya, yəni naməlum dillərdə danışmaq əllinciliyin fərqli ibadət formasıdır.

Ənənəvi əllincilərdə dini ayinlər sakit formada həyata keçirilir. Xarizmatik kilsələrdə isə ibadətlər səs-küylü və həddən artıq emosionaldır. Məsələn, ibadət zamanı onlar vəcd halında ucadan, bərk səslə naməlum dillərdə "danışırlar". Bəzi xarizmat kilsələrdə isə ibadət vaxtı daha ifrat və əcaib hərəkətlərə (kütləvi isteriya, yerə yıxılmaq, dəlicəsinə gülmək, heyvan səsləri çıxarmaq və s.) yol verilir. Eyni zamanda, xarizmatlarda dini ayinlər pop kimi müasir musiqi janrların sədaları altında yerinə yetirilir. Xarizmatik dini hərəkata kütləvi dini göstərişlər (minlərlə insana "şəfa vermək", çoxlu insanın bədənindən "cin çıxarmaq") xasdır. Bütün bu təzahürlər isə mühafizəkarlığı ilə seçilən, aram və sakit ibadətə üstünlük verən ənənəvi əllincilər tərəfindən ikrah hissi ilə qarşılanır[202].

## Müasir vəziyyət

Əllincilik vahid və yekdil dini cərəyan deyil. Bu protestant məzhəb müxtəlif istiqamətlərə bölünüb və günümüzdə çoxsaylı kilsələrlə təmsil olunub. Ümumiyyətlə, əllincilər parçalanmağa, bir-birinə zidd təriqətlərə, fərqli cərəyanlara bölünməyə meyillidirlər. Belə ki, günümüzdə əllincilik bu cərəyanlara bölünüb: iki xeyir-dualı əllincilər, üç xeyir-dualı əllincilər, radikal pentekosçular, unitarianlar və s[203]. Həmçinin postsovet məkanındakı

201 - Yenə orada.
202 - Ətraflı məlumat üçün bax: Лункин Р. Пятидесятники и харизматы: единство в многообразии [Elektron resurs]. – URL: http://www.keston.org.uk/_russianreview/edition11/02Charismatics.html (müraciət tarixi:12.12.2016-cı il); Лункин Р. Пятидесятничество и харизматическое движение: Общие сведения. История и филиация. – с. 259-266.
203 - Bax: Казьмина О.Е., Пучков П.И. Указ. соч. - с. 144.

əllincilər də müxtəlif qruplara ayrılıblar: voronayevçilər, şmidtçilər, yevangelik xristian əllincilər-sionistlər, yevangelik xristian müqəddəs sionistlər və s.

Çoxsaylı təriqətlərə bölünən əllincilik müasir dünyada ən böyük və sürətlə artan protestant cərəyanıdır. “Pew Research Center” araşdırma mərkəzinin 2011-ci il üzrə məlumatına görə, dünyada əllincilərin sayı 584 milyondan artıq olmuşdur (xarizmatlar - təqribən 304 milyon; pentekosçular/ ənənəvi əllincilər – təxminən 279 milyon)[204].

Əllincilərin kilsələri əksər ölkələrdə mövcuddur. Ən çox əllinci Braziliya və ABŞ-da yaşayır[205]. “The Assemblies of God” (“Rəbbin Assambleyası”) isə dünyanın ən iri əllinci təşkilatıdır. Onun 67 milyondan yuxarı üzvü var[206]. Qeyd edək ki, ölkəmizdəki bəzi əllinci dini icmalar da (məs.: “Nehemiya” dini icması) həmin təşkilata daxildir.

Günümüzdə əllincilər sosial cəhətdən aktivlik nümayiş etdirir. Onlar nikah və ailə problemlərinin həlli, alkoqolizm və narkomaniya kimi mənfi halların azaldılması məqsədilə tədbirlər həyata keçirir, sağlam ailə qurmağa çağırır, sağlam həyat tərzi sürməyə səsləyir və yüksək əxlaqi dəyərləri təbliğ edirlər. Eyni zamanda, əllincilər geniş xeyriyyə fəaliyyəti ilə məşğul olurlar[207]. Təbii ki, sosial cəhətdən aktivlik dünyada əllincilərin sayını sürətlə artırır.

## Əllincilik Azərbaycanda

### *Vəhdətçi əllincilər*

Elmi qaynaqlarda Azərbaycandakı ilk əllincilər haqqında çox az məlumata rast gəlinir. Bəzi məxəzlərdən belə məlum olur ki, hələ Fevral inqilabından (1917) əvvəl çar Rusiyası dövründə Bakıda əllincilərin dini qrupu vardı. Bu qrup Vıborqdakı (Finlandiya ilə sərhəddə yerləşən rus şəhəri) əllincilər kilsəsi tərəfindən Qafqaza göndərilən missionerlərin təbliğatı nəticəsində təşəkkül tapmışdı. Qeyd edək ki, Vıborq kilsəsi əllinciliyin

204 - http://www.pewforum.org/2011/12/19/global-christianity-movements-and-denominations/ (müraciət tarixi: 12.12.2016-cı il).
205 - Казьмина О.Е., Пучков П.И. Там же. – с. 148.
206 - “The Assemblies of God” dini təşkilatının rəsmi saytı. – URL: http://worldagfellowship.org/ (müraciət tarixi: 12.12.2016-cı il).
207 - Bax: Лункин Р. Союз христиан веры евангельской пятидесятников (СХВЕП)// Современная религиозная жизнь России: опыт систематического описания. Том II. – Москва: «Логос», 2003. - с. 271.

vəhdətçi istiqamətinə aid olub. 1913-cü ildə yaradılan bu kilsənin lideri və banisi Aleksandr İvanoviç İvanov idi. O, 1913-cü ildə çar Rusiyasına gələn ABŞ missioneri Andrey David Urşanın təbliğatına uyaraq əllinciliyin tövhidçilər istiqamətinə keçib. Tövhidçi əllincilər təkcə İsa Məsihin adı ilə xaç çəkdikləri üçün belə adlanıblar. ABŞ-da yaranan əllinciliyin bu istiqaməti "Jesus Only" ("Təkcə İsa") adı ilə məşhurdur[208].

Vəhdətçi əllincilər özlərinə "apostolların ruhunda yevangelik xristianlar" deyiblər. Lakin yevangelist xristianlar, baptistlər onları ikrahla "trəsunı" (bu söz rus dilində "əsənlər", "titrəyənlər" deməkdir) adlandırıblar. Buna baxmayaraq, Rusiya imperiyasında əsasən baptist və yevangelist məsihçilər əllinciliyə keçiblər[209].

Vəhdətçi əllincilik ənənəvi əllincilik tərəfindən bidətçi məzhəb kimi səciyyələndirilir, çünki həm pentekosçuluğun banisləri, həm dünyanın əksər əllinciləri Müqəddəs Üçlüyə etiqad bəsləyirlər.

İstər çar Rusiyası, istər Sovet hakimiyyəti dövründə əllinciliyin vəhdətçi istiqaməti geniş yayıla bilmədi. Azərbaycanda da vəhdətçi əllincilər qrupu uğur əldə etməyərək tarixə qovuşdu. Özünə daha çox tərəfdar qazanan isə İvan Yefimoviç Voronayevin əllinci kilsəsi oldu. Məhz onun ardıcılları ölkəmizdə əllinciliyin əsasını qoydular.

## *Yevangelik İmanlı Xristianlar*

Ukrayna və rus əllinciliyinin banisi İvan Yefimoviç Voronayev əvvəllər baptist olmuşdur. O, ABŞ-da yaşayan vaxtı əllinciliklə tanış olmuş, 1919-cu ildə Nyu-Yorkdakı baptist icmasından ayrılaraq əllincilərin ilk rus kilsəsini təsis etmişdir. Daha sonra o, Odessa şəhərində məskunlaşmışdır. Burada onun fəaliyyəti nəticəsində 12 noyabr 1921-ci ildə dini icma, 1924-cü ildə "Odessa vilayəti Yevangelik İmanlı Xristianların Birliyi" yaranmışdır. Gördüyümüz kimi, Voronayevin tərəfdarları özlərinə yevangelik imanlı xristianlar demişlər. Lakin başqaları onları "voronayevçilər" adlandırırdı. Zaman keçdikcə Voronayevin kilsəsi böyümüş, Ukrayna və Rusiyanın müxtəlif yerlərində, hətta Orta Asiyada voronayevçilərin dini icmaları

208 - Вах: Клибанов А.И. История религиозного сектантства в России (60-е годы XIX в. – 1917 г.). – М.: «Наука», 1965. – с. 250; Ефимов И. Современное харизматическое движение сектантства [Elektron resurs]. – URL: http://www.klikovo.ru/books/45157/45163.html (müraciət tarixi: 09.12.2016).
209 - Клибанов А.И. Там же. – с. 250.

meydana gəlmişdi. Odessa şəhəri isə bu kilsənin mərkəzinə çevrilmişdi. 1929-cu ilin sonuna yaxın Voronayevin başçılıq etdiyi "Yevangelik İmanlı Xristianların Ümumittifaq Birliyi"nə 25 min üzvü olan min kilsə, eləcə də Azərbaycandakı əllincilərin dini qrupları daxil olmuşdu[210].

Voronayevçilərin Azərbaycanda fəaliyyətə başlaması ötən əsrin 30-cu illərinə təsadüf edir. 1932-ci ildə Odessadan Bakıya Voronayevin kilsəsinin mənsubları, milliyyətcə yunan olan Manidaki soyadlı yaşlı cütlük gəlir. Onlar Bakı şəhəri baptist dini icmasının moizəçisi Nikolay Alekseyeviç Kazansov və onun həyat yoldaşı Anna İvanovna ilə tanış olur, baptist dua evinə baş çəkərək yerli baptistlərə Müqəddəs Ruhla vəftiz olunmaq haqda bəhs edirlər. Ertəsi gün Manidakilər Odessaya qayıdırlar[211]. Bir müddətdən sonra keçmiş baptist təbliğçi N.A.Kazansov və ailəsi Salyana köçür, burada əllinciliyi qəbul edirlər. Daha sonra Salyana bir qrup baptist gəlir. Onlar da Kazansovun ailəsinin təsiri altına düşərək guya Müqəddəs Ruhla vəftiz olunur, beləliklə Salyanda yevangelik inanclı xristianların kiçik dini icması meydana gəlir[212]. Lakin Azərbaycanda əllinciliyin təşəkkül tapmasında ən böyük rolu Vasili Stepanoviç Pavlov oynayıb. O, 1890-cı ildə dünyaya gəlib. Çar Rusiyası dövründə baptizmi təbliğ etdiyi üçün ağır cəzalara məruz qalıb. 1924-cü ildə Odessada Voronayevin kilsəsi ilə tanış olduqdan sonra əllinciliyə keçib. O da məlumdur ki, XX əsrin 30-cu illərinin əvvəllərində Pavlov ailəsi ilə birgə Bakı, Salyan və Kür çayının sahilində yerləşən Zubovka kəndində bir müddət yaşayıb. Onun təbliğatı və gərgin fəaliyyəti nəticəsində Azərbaycanda əllincilərin dini icmaları təşəkkül tapıb[213].



*Azərbaycanda əllinciliyin banislərindən biri Nikolay Alekseyeviç Kazansov*

210 - Франчук В. Указ. соч. – с. 10, 36-38.
211 - Yenə orada. – s. 423-424.
212 - Yenə orada. – s. 424-426.
213 - Франчук В. Указ. соч.– с. 270-275; 426-431.



*Salyanda ilk əllincilər.*

Tarixi məxəzlərdə o vaxtlar Azərbaycanda mövcud olan əllincilərin icmaları haqda çox az məlumat verilir. Bilinən odur ki, bu icmaların üzvləri əvvəllər baptist olublar. O da məlumdur ki, Mixail Trofimoviç Andreyev Bakıda əllincilərin dini icmasında presviter vəzifəsini yerinə yetirib[214].

Beləliklə, voronayevçilər XX əsrin 30-cu illərinin əvvəllərində Bakı və Salyanda əllinciliyin toxumlarını səpiblər. Həmin dövrdə onlar gizli fəaliyyət göstəriblər, çünki Sovet hakimiyyəti din əleyhinə mübarizə aparırdı. Artıq 1930-cu ildə Yevangelik İmanlı Xristianların Ümumittifaq Şurası ləğv olundu, Voronayev başda olmaqla şuranın rəhbər heyəti həbs olunur, 1933-cü ildə isə V.S.Pavlov QULAQ-a göndərilərək ağır düşərgə həyatı yaşadı.

İkinci dünya müharibəsinin qopması ilə Sovet hakimiyyətinin dindarlara münasibəti nisbətən yumşalır. Stalin rejimi qeyri-rəsmi vəziyyətdə olan müxtəlif din və konfessiyaların nümayəndələrinə fəaliyyətlərini leqallaşdırmağa icazə verir. Kommunist hakimiyyət insanların dini hisslərini sovet vətənpərvərliyinə çevirmək istəyirdi. Nəticədə, 1944-cü ildə baptist və yevangelik xristianlar birləşərək "Yevangelik Xristian Baptistlərin Ümumittifaq Soveti" (YXBÜS) adlı qurum təsis etdilər. Sovet hakimiyyəti başqa protestant məzhəblərinin nümayəndələrinə, eləcə də əllincilərə rəsmi

214 - Yenə orada. – s. 432.

təşkilatlarını yaratmağa qoymur və bütün protestantlara YXBÜS-ə daxil olmağı təklif edirdi. Odur ki, SSRİ-də əllinci icmaların müəyyən hissəsi həmin təşkilata daxil olaraq dövlət qeydiyyatından keçir. 1945-ci ildə YXBÜS-ə 25 min ardıcılı olan 400-dən artıq əllinci icması daxil oldu[215].

Lakin sonradan əksər əllincilər təşkilatdan ayrıldı, çünki YXBÜS-də onlardan öz dini ayinlərindən imtina etmək tələb olunurdu. Bundan sonra bir çox əllinci dini icması dövlət qeydiyyatından imtina etdi. Beləliklə, Sovet İttifaqında əksər əllincilər qeyri-leqal vəziyyətə düşdü və "qeydiyyatsızlar", "təşəbbüskarlar" kimi tanınan əllincilər qrupu meydana gəldi. "Qeydiyyatsızlar" kommunistlərlə əməkdaşlıq etmək, ateist hakimiyyətin diqtəsi altında fəaliyyət göstərmək istəmir, dövlət qeydiyyatından keçən həmməzhəblərinə nifrətlə yanaşırdılar[216].

Sovet hakimiyyəti dövründə Azərbaycanda mövcud olan əllinci icmalar da "qeydiyyatsızlar" qrupuna daxil olub. Bu icma üzvlərinin əksər hissəsini yaşlı və təhsilsiz şəxslər təşkil edib. Gizli dini yığıncaqlar keçirən Bakıdakı əllincilər Sovet İttifaqı dağılana yaxın dövlət qeydiyyatından keçməyə qərar verdilər. Qeyd edək ki, ötən əsrin 80-ci illərinin sonlarında onlar Nikolay Dalives adlı ABŞ missionerinin evində toplaşırdılar. Məhz bu şəxs Bakıdakı icmanın dövlət qeydiyyatına alınması üçün müraciət etdi. Buna baxmayaraq, onun təşəbbüsü heç bir nəticə vermədi və əllincilərin dini icması dövlət qeydiyyatından keçmədi.





*"Şərqdə Ulduz" dini icmasının dua evi və bazar günü ibadəti. Bakı şəhəri.*

215 - Вах: Филатов С., Лункин Р. Российский союз евангельских христиан-баптистов (РСЕХБ)// Современная религиозная жизнь России: опыт систематического описания. Том II. – Москва: «Логос», 2003. - с. 159; Пятидесятничество и харизматическое движение: Общие сведения. История и филиация. – с. 252-253.

216 - Вах: Российский союз евангельских христиан-баптистов (РСЕХБ). - с. 161; Пятидесятничество и харизматическое движение: Общие сведения. История и филиация. – с. 256.

## *Günümüzdə əllinci və xarizmatların dini icmaları*

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə dini etiqad azadlığı elan olunmuşdur. Respublikamızda yaşayan əllincilər də vicdan azadlığının gətirdiyi imkanlardan istifadə edərək aktiv dini təbliğata keçmiş, beləliklə əllincilik ən böyük protestant məzhəbinə çevrilmişdir. Bir daha xatırladaq ki, oxşar proseslər təkcə Azərbaycanda deyil, dünyanın başqa regionlarında da cərəyan etmişdir. Yəni dünyanın müxtəlif yerlərində əllinciliyin ardıcılları say baxımından digər protestant məzhəblərinin mənsublarını üstələmişlər.

Hazırda Azərbaycanda əllincilərin bir neçə dini icması mövcuddur. Respublikamızda mövcud olan əsas əllinci icmalarla tanış olmaq üçün sxem 1-ə müraciət edək.

***Sxem 1. Azərbaycanda əllincilərin dini icmaları***




Sxem 1-dən göründüyü kimi, əllincilərin icmaları iki istiqamətə bölünür: yevangelik inanclı xristianlar (ənənəvi əllincilər; pentekosçular) və xarizmatlar (yeni əllincilər). Ənənəvi əllincilər "Şərqdə Ulduz" və "Nehemiya", xarizmatlar isə "Həyat Sözü" və "Yeni Həyat" adlı dini icmalar yaradıblar. Əllincilərin başqa dini icmaları da mövcuddur. Onlardan bəziləri bunlardır: "Diri Daşlar" (xarizmatlıq), "Rəbbin Məbədi" (əllincilik), "Vineyard Church in Baku" (xarizmatlıq) və s. Lakin həmin icmaların üzvlərinin sayı azdır. Bu icmalardan hər birinin üzvlərinin sayı 20-50 nəfər arasında dəyişir.

Beləliklə, ölkəmizdə ənənəvi əllinciliyin tarixi kökləri ötən əsrin 30-cu illərində ukraynalı missionerlər (voronayevçilər) tərəfindən yaradılan dini icmalara gedib çıxır. İlk xarizmat təmayüllü dini icma isə 1994-cü ildə yaradılıb. Ənənəvi əllincilər Azərbaycana xarizmatlardan daha əvvəl gəlsələr də, hazırda xarizmatların sayı ənənəvi əllincilərdən çoxdur. Bunu əyani şəkildə Sxem 2-dən görmək mümkündür.

***Sxem 2. Azərbaycanda əllinci icmaların sayı***




*Mənbə: Dini icmaların təqdim etdiyi məlumatlar əsasında.*

Sxem 2-dən göründüyü kimi, respublikamızda əllincilərin ümumi sayı 3100 nəfərdən çoxdur. Lakin həmin Sxemdə diqqət çəkən məqam odur ki, xarizmat istiqamətli "Həyat Sözü" dini icmasının üzvlərinin sayı ənənəvi əllinciliyə aid olan "Şərqdə Ulduz" və "Nehemiya" dini icmalarının təəssübkeşlərinin ümumi sayından yüksəkdir. Qeyd edək ki, "Həyat Sözü" respublikamızda həm ən böyük, həm də ən sürətlə artan protestant icmasıdır. 2016-cı ilin məlumatına əsasən, bu icmanın təqribən 1800 üzvü var.

Statistik rəqəmləri nəzərdən keçirdikdən sonra əllincilərin əsas dini icmaları barədə ətraflı məlumat vermək doğru olardı. Həmin icmalara nəzər yetirək.

*Bakı şəhəri "Şərqdə Ulduz" dini icması.* Sovet hakimiyyəti illərində ibadət etmək məqsədilə gizli ünvanlarda yığışan əllincilər Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra fəaliyyətlərini rəsmiləşdirmək fürsəti

qazandılar. 10 noyabr 1993-cü ildə Ədliyyə Nazirliyində onların "Şərqdə Ulduz" dini icması dövlət qeydiyyatına alındı. 2002-ci ildə icma Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçdi. Təsis olunduğu gündən bəri icmaya Roman Jmurov sədrlik edir.

Fəaliyyətinin ilk dövründə icmanın təqribən 100 nəfər üzvü olub. Lakin ötən əsrin 90-cı illərində aktiv dini təbliğatın aparılması və ehtiyacı olan şəxslərə humanitar yardımın göstərilməsi nəticəsində icma üzvlərinin sayı artıb. Buna baxmayaraq, son illər "Şərqdə Ulduz"un üzvlərinin sayında azalma müşahidə olunur. 2016-cı ilin məlumatına görə, bu icmanın 750 nəfər (uşaqlar nəzərə alınmaqla) təəssübkeşi var.

Bu dini icmanın əsas fəaliyyət dairəsi Bakı şəhəridir. Lakin Sumqayıt, Şabran, Yevlax, Bərdə, Gəncə, Qusar və İsmayıllı rayonunun İvanovka kəndində də kiçik özəkləri var. "Şərqdə Ulduz" dini icmasında Azərbaycan və rus qrupları mövcuddur. "Yevangelik İnanclı Xristianların Missiyalarının Rusiya Assosiasiyası" dini təşkilatına daxildir. Lakin bu təşkilat icma üçün mərkəz rolunu oynamır. İcma təşkilati məsələlərdə müstəqilliyini qorumağa çalışır. Eyni zamanda, müxtəlif ölkələrdə, xüsusən Rusiya, Almaniya və ABŞ-da yaşayan həmməzhəbləri ilə sıx əlaqə saxlayır. Maliyyə mənbəyi könüllü ianələr əsasında formalaşır.

"Şərqdə Ulduz" dini icmasının dövlətə münasibəti loyaldır. İcma qanun çərçivəsində fəaliyyət göstərməyə çalışır. Onu da deyək ki, "Şərqdə Ulduz"dan bir sıra dini icmalar törəmişdir. Məsələn, "Nehemiya", "Diri Daşlar", "Rəbbin Məbədi" və s. Onlar arasında sayca ən böyük olanı "Nehemiya"dır.

*İncilə iman edən məsihçilərin "Nehemiya" dini icması.* Əhdi-Ətiqə görə, Nehemiya Babilistan əsarətindən qayıtdıqdan sonra yarıdağılmış vəziyyətdə olan Qüds şəhərinin divarlarını bərpa edən şəxsdir. Onun adını götürən dini icma "Şərqdə Ulduz" icmasından törəyib. "Nehemiya" dini icması 1999-cu ildə Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb. 2002-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçib.




*"Nehemiya" dini icması.*

1999-cu ildə "Nehemiya" dini icmasının üzvlərinin sayı təqribən 130 nəfər olub. Aktiv dini təbliğatın aparılması və humanitar yardımın göstərilməsi nəticəsində dini icma böyüyüb. Hazırda icmanın təqribən 525 nəfər üzvü var. Onların əksəriyyəti azərbaycanlıdır. "Nehemiya" dini icmasının əsas fəaliyyət dairəsi Bakı şəhəridir. Eyni zamanda, Sumqayıt, Siyəzən, İsmayıllı, Qusar, Göyçay, Yevlax, Xaçmaz, Şəmkir və Qaxda özəkləri mövcuddur[217].

"Nehemiya" dini icması "Yevangelik İnanclı Xristianların Rusiya Kilsəsi" təşkilatına daxildir. Habelə dini icma "Nehemiya" Beynəlxalq Missiyası ilə sıx əməkdaşlıq edir. 1990-cı ildə təsis olunan həmin beynəlxalq humanitar xristian təşkilatının iqamətgahı Almaniyanın Nidda şəhərində yerləşir. Təşkilat dünyanın təqribən 70 ölkəsində fəaliyyət göstərir (mənbə:http://www.nehemia.ru/index.php?option=com_content&view=article&id=72&Itemid=92) .

"Nehemiya" dini icması dövlətə və onun qanunlarına hörmətlə yanaşır. İcma rəbhərliyi Bibliyaya istinad edərək bildirir ki, istənilən dünyəvi hakimiyyət Tanrı tərəfindən qoyulmuşdur. Odur ki, icma ardıcıllarını

217 - "Nehemiya" dini icmasının rəsmi saytı. – URL: http://nehemiahazebaku.wixsite.com/azerbaijan/untitled-c14ec (müraciət tarixi: 11.09.2016-cı il).

hakimiyyətə tabe olmağa çağırır. Bu məqam həmin icmanın rəsmi saytında əks olunub (http://nehemiahazebaku.wixsite.com/azerbaijan/prayforazerbaijan).

*"Həyat Sözü" dini icması.* Əllinciliyin xarizmat istiqamətinə aid olan bu icma "Word Of Life International" mərkəzi dini təşkilata ("Həyat Sözü" Beynəlxalq Birliyi. İsveç dilində "Livets Ord"; ingiliscə "Word of Life") daxildir. 24 may 1983-cü ildə Ulf Ekman tərəfindən yaradılan bu birliyin mərkəzi İsveçin Upsala şəhərində yerləşir. Maraqlıdır ki, həmin beynəlxalq məsihçi təşkilatının banisi U.Ekman 9 mart 2014-cü ildə katolisizmə keçdiyini rəsmən bəyan etmişdir. Təbii ki, dini liderlərinin başqa xristian məzhəbinə keçməsi xəbəri "Həyat Sözü"nün üzvlərini məyus edərək onlar arasında çaşqınlıq yaratmışdır. Hazırda "Həyat Sözü" Beynəlxalq Birliyinin prezidenti Kristian Okerxielmdir.

"Həyat Sözü"nün Azərbaydandakı fəaliyyəti 1994-cü ildən başlayır. Həmin il həmin dini icma "Tanrı Azərbaycanı sevir" adlı tədbir keçirir. Eyni zamanda, bu icmanın dini mərkəzi - "Word Of Life İnternational" təşkilatı ötən əsrin 90-cı illərində respublikamızda geniş humanitar fəaliyyətlə məşğul olur[218].

1999-cu ildə "Mədh Kilsəsi" ("Həyat Sözü") dini icması Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınır. 2000-ci ildə həmin icma "İman Kilsəsi" Yevangelik İmanlı Xristianların Avro-Asiya Assosiasiyasının himayəsi altına keçir[219].

"Həyat Sözü"nün ölkəmizdəki lideri Rasim Xəlilovdur. O, pastorluq vəzifəsini 2000-ci ildən yerinə yetirir. 2000-ci ildə Azərbaycan Texniki Universitetini, 2001-2002-ci illərdə "Həyat Sözü"nün Bibliya Kollecini və 2003-cü ildə Kiyev şəhərində (Ukrayna) "Həyat Sözü" Universitetində pastorluq kursunu bitirib. Qeyd edək ki, respublikamızda ötən əsrin 90-cı illərində "Həyat Sözü" dini icmasının təşəkkül tapmasında Mats-Yan Sodeberq böyük rol oynayıb[220].

Dini icma sosial aktivliyi ilə seçilir, müxtəlif xeyriyyə layihələri həyata keçirir. Məsələn, Azərbaycan Qızıl Aypara Cəmiyyəti əməkdaşlıq edərək ehtiyacı olan insanlara humanitar yardım göstərib, 2005-2006-cı illərdə "American Councils" ilə birgə Bakı şəhərində BMT-nin "QİÇS-lə

218 - История церкви «Слово Жизни» в Баку [Elektron resurs]//"Həyat sözü" dini icmasının rəsmi saytı. – URL: http://wol.az/наша-история/ (müraciət tarixi:12.12.2016-cı il).
219 - История церкви «Слово Жизни» в Баку//Там же.
220 - История церкви «Слово Жизни» в Баку//Там же.

mübarizə" proqramı çərçivəsində maarifləndirmə işi aparıb[221].

Eyni zamanda, "Həyat Sözü"nün rəhbəri R.Xəlilov müxtəlif beynəlxalq tədbirlərdə aktiv iştirak edərək Azərbaycanda tarixən mövcud olan mültikultural və tolerantlıq ənənələri təbliğ edir. Bu dini icma dövlətə loyal münasibət göstərir və təəssübkeşlərini Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmət çəkməyə səsləyir[222].

"Həyat Sözü"nün Azərbaycandakı lideri R. Xəlilov erməni bloggerlərin hücumlarına məruz qalmışdır. Çünki o, 10 iyun 2012-ci ildə alovlu moizə oxuyaraq Azərbaycanın haqlı mövqeyini müdafiə etmiş, bütün icma üzvlərini Qarabağın erməni işğalçılarından azad olunması, azərbaycanlıların doğma torpaqlarına qayıtması üçün davamlı dua etməyə səsləmişdir. R. Xəlilov moizəsində demişdir: *"Əgər mən soruşsam ki, bəs sizdən neçə nəfər Qarabağın bizim olacağına inanır? Əminəm ki, 50 faiz "Amin" deyəcək. Amma gündə neçə dəfə Qarabağ üçün dua edirik?... Növbəti sual: həftədə neçə dəfə Qarabağ üçün dua edirik? Ayda neçə dəfə Qarabağ üçün dua edirik? Bəlkə kilsənin ayağa qalxması və "Qarabağ, qayıt!"- deməsi üçün vaxt gəlib çatıb. Çünki o, Azərbaycanın bədənindən kəsilmiş sənin və mənim torpağımdır. Onu kəsiblər və o, ehtiyac duyur ki, onu öz yerinə qaytarsınlar, yenidən canlandırsınlar... Mən inanıram ki, biz Tanrı qarşısında dayanacağıq və deyəcəyik: "Ey göylərdə olan Atamız! İsa Məsihin xatirinə, qoy Qarabağ geri qayıtsın! Qoy Qarabağ yenə bizim olsun! O, bizimdir, amma biz orda yoxuq". Və bu nə vaxt baş verəcək? Bizim dualar eşidilən zaman.*

*Azərbaycanın qəlbində belə bir ağrı var. Elə bil onun haqqında bizlərdən heç kəs və heç vaxt danışmır. Lakin bu ağrı birbaşa ölkəmizi gərginliyə salıb. Bu hökumət üçün böyük yükdür... Mən bunu dərk etməyə başladım: hər bazar günü bir dəfə Qarabağ üçün dua edə bilərik. Amma yaxşı olardı ki, evdə, heç olmasa, beş, on, on beş dəqiqə Tanrı qarşısında diz çökərək yalvaraq: "Ya Rəbb, Qarabağı qaytar! Ya Rəbb, Qarabağı qaytar! Ya Rəbb, qoy Qarabağ yenə bizim olsun! O sanki Azərbaycandadır, amma Azərbaycanda deyil. Mən arzu edirəm ki, Qarabağ yenə bizim olsun...Rəbb kilsəmizi həqiqi edir. Rəbb kilsəmizi vətənpərvər edir. Rəbb kilsəmizi öz torpağını sevən edir".*

221 - История церкви «Слово Жизни» в Баку//Там же.
222 - История церкви «Слово Жизни» в Баку//Там же.

R.Xəlilovun bu moizəsi erməni bloggerlərinin qəzəbinə səbəb olmuşdur. Onlar "Həyat Sözü"nü İslama rəğbət bəsləməkdə, guya Azərbaycan dövlətinə işləməkdə günahlandırmış, "Word Of Life" dini təşkilatının əleyhinə video çarx hazırlayaraq, həmin dini qurumun Ermənistandakı missiyasını bağlamağa çağırmışlar[223].

Azərbaycanda "Həyat Sözü" dini icmasının təqribən 1800 üzvü var. Onların əksəriyyəti azərbaycanlıdır. Lakin üzvlər arasında rus, ləzgi, tatar, hindistanlı, pakistanlı, nigeriyalı və isveçlilər də var.



*"Həyat Sözü" dini icması bazar günü ibadət vaxtı.*

Dini icma tərəfindən xristianlığı təbliğ edən "Alfa" kursları təşkil olunur.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində "Həyat Sözü"nün aşağıdakı dini icmaları dövlət qeydiyyatına alınmışdır:

1. Bakı şəhəri "Həyat sözü" Xristian dini icması. (qeydiyyat tarixi: 23.05.2012-ci il; hüquqi ünvan: Bakı şəhəri, Xətai rayonu, S.Vəzirov küçəsi, 6);

2. "Həyat Sözü - 2" Sumqayıt xristian dini icması. (qeydiyyat tarixi: 13.11.2015-ci il; hüquqi ünvan: Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsi, ev14/9, mənzil 3).

Bununla yanaşı, "Həyat Sözü"nün Ağdaş, Quba və başqa yerlərdə kiçik özəkləri mövcuddur.

223 - Həmin video çarxla tanış olmaq üçün bax: https://www.youtube.com/watch?v=iGZ1O9F1jLM (müraciət tarixi: 11.09.2016-cı il).

*"Yeni Həyat" Xristian incil dini icması.* Bu dini icma əllinciliyin xarizmatizm istiqamətinə aiddir. 1999-cu ildə Lyudmila İbrahimova tərəfindən yaradılmışdır. O, 15 iyun 1947-ci ildə Bakıda ziyalı ailəsində anadan olmuş, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Əvvəllər "Həyat Sözü" dini icmasının mənsubu olan İ.Lyudmila sonradan öz kilsəsini qurmuşdur. Onun təsis etdiyi icma Minsk şəhərindəki (Belarus Respublikası) "Yeni Həyat" kilsəsinin filialıdır. Həmin kilsənin yepiskopu və rəhbəri Vyaçeslav Qonçarenkodur[224].

"Yeni Həyat" dini icması 2006-cı ildə ilk dəfə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınmış, 2009-cu ildə yenidən dövlət qeydiyyatından keçmişdir.

Təqribən 120 nəfər üzvü var. Etnik tərkib baxımından icma azərbaycanlı, rus və qarışıq ailələrin övladlarından ibarətdir. Onlar arasında orta yaşlı qadınlar və rusdillilər üstünlük təşkil edirlər[225].

Sözügedən icma dövlətin qanunlarına, başqa din və konfessiyaların nümayəndələrinə hörmətlə yanaşır. Əsas dini ayinləri hər bazar günü Müslim Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalının binasında saat 13:00-da keçirilir. İcmanın nəzdində müxtəlif dini kurslar - Bibliya Kolleci, Mədh Məktəbi, Xidmət Məktəbi fəaliyyəti göstərir[226].



*"Yeni Həyat" dini icması bazar günü ibadətində.*

---

224 - "Yeni Həyat" dini icmasının rəsmi saytı: http://www.newlifebaku.az/ru#home (müraciət tarixi: 12.12.2016-cı il).
225 - http://www.newlifebaku.az/ru#home.
226 - http://www.newlifebaku.az/ru#home.

# PRESVİTERİANLIQ

## Yaranma tarixi

Bu protestant məzhəbin vətəni Şotlandiyadır. Banisi şotland keşişi Con Noksdur (1514-1572). O, 1545-ci ildə katoliklikdən protestantlığa keçib, şotlandiyalı protestantların lideri Corc Uişartın yaxın adamlarından biri olub. Protestant olduğu üçün təqiblərlə üzləşərək zindana atılıb. Azadlığa çıxandan sonra bir müddət İngiltərədə yaşayıb, çünki həmin dövrdə bu ölkə protestantların hakimiyyəti altında olub. Burada moizəçi və kapellan vəzifəsini yerinə yetirib, "İctimai ibadətin kitabı"nın hazırlanması işində yaxından iştirak edib. 1553-cü ildə qatı katolik olan Mariya Tüdor taxta çıxdıqdan sonra C.Noks başqa Avropa dövlətlərinə qaçmağa məcbur qalıb. Bir müddət Almaniya və İsveçrədə yaşayıb. İsveçrədə olarkən məşhur protestant ilahiyyatçısı Jan Kalvinlə tanış olaraq onun dini ideyalarının təsiri altına düşüb[227].

1559-cu ildə Şotlandiyada müvəqqəti olaraq protestantlar hakimiyyətə gələndən sonra beş keşişlə birgə "Şotlandiya İman Bəyannaməsi"ni hazırlayıb. İsveçrəli ilahiyyatçı J. Kalvinin dini görüşləri əsasında hazırlanan bu sənəd 1560-cı Şotlandiya parlamenti tərəfindən qəbul olunub[228]. Beləliklə, Şotlandiyada presviterianlığın təməli atılıb və bu məzhəb həmin ölkədə dövlət dini statusu qazanıb.

## İnanc əsasları və kilsə idarə forması

Presviterian kilsələri etiqadi cəhətdən Jan Kalvinin yaratdığı Yevangelik Reformator Kilsəsinə yaxındırlar. Lakin cüzi fərq də mövcuddur. Belə ki, reformatorlar Tanrı tərəfindən insana iradə azadlığının verilmədiyini, presviterianlar isə verildiyini deyirlər[229].

Presviterian kilsələrində əsas vəzifələri "presviter" dini rütbəsini daşıyan şəxslər tuturlar. Onlar iki qrupa bölünürlər: moizə deyən, dini ayinləri yerinə yetirən presviterlər və onlara kilsənin idarə olunması, ibadətin həyata keçirilməsi işində kömək edənlər[230].

Presviterian kilsəsi ağsaqallar şurası ("sessiya") tərəfindən

227 - Вах: Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. – М.: Издательство Московского университета, 2010. – с. 114.
228 - Yenə orada.
229 - Yenə orada. – s. 114-115.
230 - Yenə orada. – s. 115.

idarə olunur. Ağsaqalların özləri isə icma üzvləri tərəfindən seçilir və "presviteriya" (kilsə orqanı) tərəfindən təsdiqlənirlər. Presviteriya - bir neçə dini icmaya başçılıq edən, həmin icmaların keşiş və ağsaqallarından təşkil olunan (hər icmadan bir nəfər) kilsə orqanıdır. Məhz bu orqanın adından "presviterianlıq", "presviterianlar" istilahları yaranmışdır[231].

## Presviterianlıq Azərbaycanda

İlk presviterian missionerlər Azərbaycana çar Rusiyası dövründə gəliblər. Belə ki, çar hökuməti Şimali Qafqazda müsəlmanlar arasında Xristianlığı yaymaq məqsədilə 1802-ci ildə "Edinburq Missioner Cəmiyyəti"nin (1818-ci ildən sonra "Şotlandiya Missioner Cəmiyyəti" adlanmışdır) təbliğatçılarına Karras Sultanayu aulunun yanında koloniya salmağa icazə verir. Bu Cəmiyyət 1796-cı ildə presviterianlar tərəfindən yaradılmışdı[232].

Şotlandiyalı missionerlər müsəlmanları xristian dininə cəlb etmək məqsədilə İncili və digər müqəddəs mətnləri ərəb, fars, eləcə də yerli Qafqaz xalqlarının dillərində çap etmişlər. 1821-ci ildə "Şotlandiya Missioner Cəmiyyəti"nin iki presviterian təbliğatçısı Şimali Azərbaycana - Quba və Şamaxıya gəlmiş, yerli müsəlmanlar arasında xristian ədəbiyyatını paylayaraq onları məsihçiliyə dəvət etmişlər[233]. Buna baxmayaraq, şotlandiyalı missionerlər uğur qazana bilməmişlər. Onların təbliğatı nəticəsində cəmi bir-iki müsəlman Xristianlığa keçmişdir. Dinini dəyişərək Xristianlığı qəbul edənlərdən biri də görkəmli azərbaycanlı şərqşünas Mirzə Kazımbəy (1802 – 1870) olmuşdur.

Onun əsl adı Məhəmməd Əli Kazımbəydir. Atası Məhəmməd Qasım Kazımbəy Dərbəndin tanınmış ruhanilərindən olub. Kazımbəy gənc yaşlarında şotlandiyalı missionerlər Qlen və Makfersonla tanış olaraq onlara türk və fars dillərini öyrədib. Missionerlər isə ona ingilis dilini tədris ediblər. Bir müddətdən sonra Kazımbəy missionerlərin təsiri altına düşərək 1823-

231 - Казьмина О.Е., Пучков П.И. Указ. соч. – с. 115.
232 - Scottish Missionary Society [electronic resource]//Mundus: Gateway to missionary collections in the United Kingdom. – URL: http://www.mundus.ac.uk/cats/14/293.htm (müraciət tarixi: 06.12.2016); Агасиев И. Геополитический фактор и переселенческая политика царской России на Кавказе в первой половине XIX века (на примере истории немецкой колонизации)// журнал «Кавказ и Глобализация». – SWEDEN: Central Asia & Central Caucasus Press AB, 2012. - Том.6, выпуск 3. – с. 180.
233 - Кузнецов О. Кальвинисты на Кавказе: история религиозной экспансии европейских протестантских миссионеров в отношении народов северного и южного Кавказа. Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2016, №1. - с. 95.

cü ildə presviterian ayinlərinə uyğun olaraq xaç suyuna salınıb[234]. Beləliklə, sonradan dünya şərqşünaslığına fundamental əsərləri və tədqiqatları ilə böyük töhfələr verən bu görkəmli şəxsiyyət ilk azərbaycanlı presviterian olub.

Çar Rusiyası dövründə Şimali Azərbaycanda təbliğat aparan presviterian missionerlərindən biri də Yakov Delyakov olmuşdur. Onun əsl adı Kaşa Yaqubdur. Milliyyətcə asuriyalı (suriyalı olduğunu deyənlər də var) olan Y.Delyakov İranda doğulmuşdur. O, vətənində presviterianlığa keçmiş, presviterian Bibliya məktəbini bitirərək missioner olmuş, 1862-ci ildə təbliğat aparmaq üçün çar Rusiyasına gəlmişdir. Çox güman ki, həmin dövrdə Y. Delyakov Zaqafqaziyada İranla sərhəd bölgələrdə həmyerliləri arasında Xristianlığı təbliğ etmişdir. XIX əsrin 60-cı illərində o, Qafqazda həm presviterian missioner kimi fəaliyyət göstərmiş, həm də Bibliya Cəmiyyətinin nümayəndəsi kimi Bakı, Yelizavetpol (Gəncə), Tiflis və Vladiqafqazda Müqəddəs Kitab paylamışdır[235].

Y. Delyakovla bağlı bir maraqlı faktı qeyd edək. O, Tiflis şəhərində molokan taciri Nikita Voronini alman baptisti Kalveytlə tanış edir. 20 avqust 1867-ci ildə Voronin Kalveyt tərəfindən Kür çayında xaç suyuna salınır. Bu tarix rus baptizminin yaranma günü olur. Deməli, Y.Delyakov Voronin və Kalveyti bir-biri ilə tanış etməklə rus baptizminin yaranmasına təsir göstərib[236].

Tarixi məxəzlərdən belə aydın olur ki, bəzi şotland missionerləri və Yakov Delyakov tərəfindən dini təbliğatın aparılmasına baxmayaraq, presviterianlıq ölkəmizdə kök sala bilməmişdir.

Ölkəmizdə presviterian dini icmasının yaranması Azərbaycanın müstəqillik illərinə təsadüf edir. Belə ki, 1991-ci ildə Azərbaycan xalqı yenidən müstəqilliyini qazandıqdan sonra presviterianlıq Cənubi Koreyadan olan iş adamları və humanitar təşkilatların nümayəndələri tərəfindən təbliğ olunur. Onların fəaliyyəti nəticəsində respublikamızda presviterian icması yaranır. Cənubi koreyalıların aktiv təbliğatlarına baxmayaraq,

234 - Кузнецов О. Указ. соч. – с. 80-81.
235 - Деляков Яков Делякович – миссионер [Elektron resurs]//Наш Баку: История Баку и бакинцев. -https://www.ourbaku.com/index.php/ Деляков_Яков_Делякович (müraciət tarixi: 06.09.2016); Деляков Яков Делякович (Каша Ягуб) – миссионер-баптист, создатель групп христиан-баптистов// сайт «Парапет» - сообщество истории Баку и бакинцев. – URL: http://www.baku.ru/enc-show.php?cmm_id=276&id=169750&c=1752 (müraciət tarixi: 06.09.2016).
236 - http://www.baku.ru/enc-show.php?cmm_id=276&id=169750&c=1752 (müraciət tarixi: 06.09.2016).



*Mirzə Kazım bəy (1802-1870)*

presviterianlıq Azərbaycanda rəğbət görmür. Belə ki, respublikamızda mövcud olan Bakı şəhəri presviterian dini icmasının üzvlərinin sayı çox azdır (təqribən 15 nəfər). İbadətə gələnlərin sayı isə 20-30 nəfər təşkil edir.

Bakı şəhəri presviterian dini icması 2001-ci ildə Cənubi Koreya vətəndaşı Gideon Sonq tərəfindən yaradılıb. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə əsasən, əcnəbilər tərəfindən dini təbliğatın aparılması qadağan olunduğu üçün həmin şəxs icmadan uzaqlaşaraq onun idarəsini azərbaycanlılara həvalə edib. Bu yerli presviterian icmasının üzvlərinin əksər hissəsi azərbaycanlılardan ibarətdir. Onlar arasında gənclər üstünlük təşkil edir.



*Yakov Delyakov (1829-1898)*

Bakı şəhəri presviterian dini icması "Beynəlxalq Presviterian Kilsəsi" ("İnternational Presbyterian Church") təşkilatına daxildir. Həmin beynəlxalq presviterian təşkilatı Frensis Avqust Şeffer tərəfindən 1954-cü ildə İsveçrədə yaradılıb. Təşkilata Böyük Britaniya və Avropanın digər ölkələrində fəaliyyət göstərən presviterian kilsələri, eləcə də Cənubi Koreyalıların Avropadakı presviterian dini icmaları daxildir[237].

237 - Ətraflı məlumat üçün bax: "Beynəlxalq Presviterina Kilsəsi" təşkilatının rəsmi saytı. – URL: http://ipc.church/ (müraciət tarixi: 06.09.2016).

# DENOMİNASİYASIZ XRİSTİANLIQ

Azərbaycan Respublikasında fəaliyyət göstərən xristian icmalarından bəhs edərkən, mütləq Xristianlığın denominasiyasız istiqamətinə də toxunmaq lazımdır. İngilis dilində bu xristian istiqaməti “nondenominational christianity”adlanır. Bu ifadə hərfi mənada “məzhəbsiz Xristianlıq” kimi tərcümə olunur, çünki denominasiyasız Xristianlığına aid olan kilsələr özlərini hər hansı konfessiya və məzhəblə eyniləşdirmirlər.

Denominasiyasız Xristianlıq ölkəmiz üçün yeni dini fenomendir. Onun təşəkkül tapması ötən əsrin 90-cı illərinə təsadüf edir. Buna baxmayaraq, qısa müddət ərzində denominasiyasız xristianlar aktiv missioner fəaliyyət sayəsində uğur qazandılar. Hesablarımıza görə, respublikamızda özünü denominasiyasız xristianlığın mənsubu sayanların ümumi sayı təqribən 650-900 nəfərdir. Bu isə o deməkdir ki, denominasiyasız xristianlar protestantlar arasında saylarına görə əllincilər və baptistlərdən sonra gəlirlər.

Qeyd edək ki, denominasiyasız Xristianlığın əsas yayılma arealı Bakı şəhəridir. Ölkə paytaxtında Xristianlığın bu istiqaməti iki xristian dini icması və kiçik ev qrupları (ev kilsələri) ilə təmsil olunub. Həmin iki denominasiyasız xristian dini icmalarına qısaca nəzər yetirək.

### *“Həyatverici Lütf” dini icması*

“Həyatverici Lütf” dini icması mərkəzi Baltimor şəhərində yerləşən (ABŞ/Merilend ştatı) “Greater Grace World Outreach” beynəlxalq dini təşkilatına daxildir.

Bu dini təşkilatın banisi Karl Q. Stivensdir (1929–2008). O, 1960-cı illərin başlanğıcında Vulviç Viskossetdəki (ABŞ/Men ştatı) kiçik baptist icmasına rəhbərlik edirdi. Zamanla onun kilsəsi böyüdü. K.Q. Stivens Men ştatının Portlend şəhərində radioda dini veriliş aparmağa başladı. 1971-ci ildə onun min nəfərlik kilsəsi Cənubi Bervik şəhərinə (Men ştatı) köçdü. 1972-ci ildə o, Men ştatında Şimali-Şərqi Bibliya Məktəbi təsis etdi. Men ştatında K.Q.Stivensin kilsəsinə “Bibliya Danışır” (“The Bible Speaks”) adı verildi. 1976-cı ildə “Bibliya Danışır” kilsəsi Lennoksa (Massaçuses ştatı) köçdü, burada “Stivensin Bibliya Məktəbi” yaradıldı. 1976-cı ildən başlayaraq “Bibliya Danışır” kilsəsi geniş missioner fəaliyyətə keçdi, Avropa, Keniya

və Nikaraquaya öz təbliğatçılarını göndərdi[238].

1987-ci ildə "Bibliya Danışır" Baltimor şəhərinə köçdü və Stivensin kilsəsinə "Greater Grace World Outreach" adı verildi. Burada pastor, missioner və kilsə xidmətçilərini hazırlayan Merilend Bibliya Kolleci və Seminariyası açıldı[239].

"Greater Grace World Outreach" Ağsaqallar Şurası tərəfindən idarə olunur. 2005-ci ildən indiyədək şuranın başçısı pastor Tomas Şallerdir. Sözügedən dini təşkilatın dünyanın 70-dən artıq ölkəsində kilsəsi mövcuddur.

Bu kilsələrdən biri də Azərbaycanda fəaliyyət göstərir. "Greater Grace World Outreach" dini təşkilatının kilsəsi 1991-ci ildə Bakıda yaradılıb. Azərbaycan dilində bu kilsə "Həyatverici Lütf" adlanır. Bakıda müxtəlif xarici şirkətlərdə çalışan əcnəbi missionerlərin təşəbbüsü ilə bu dini icma 21 aprel 1993-cü ildə "Həyatverici Lütf" Beynəlxalq Bibliya təşkilatı adı ilə Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçib. Finlandiya vətəndaşı, vaxtilə ölkəmizdə xarici turizm şirkətində çalışmış, rəssam Matti Sirvio "Həyatverici lütf"ün təşkilatnması işində böyük rol oynayıb.

Ötən əsrin 90-cı illərində aktivliyi ilə seçilən "Həyatverici lütf" azərbaycanlıları xristianlaşdırmağa çalışdığını gizlətməmiş, məqsədinə çatmaq üçün geniş maliyyə imkanlarından və müxtəlif missioner üsullardan (məs.:məcburi köçkünlərə, uşaq evlərinə, xəstəxanalara, tənha qocalara, əlillərə humanitar yardımın göstərilməsi və s.) istifadə etmişdi. Nəticədə Bakıdan kənara çıxaraq Sumqayıt, Bərdə və İsmayıllıda kiçik özəklər yaratmağa müvəffəq olmuşdu.

1996-cı ilin oktyabr ayında Bakıda "Greater Grace" beynəlxalq konfransı keçirilmişdir. Həmin tədbirə 15-dən yuxarı ölkədən olan 600-dən artıq iştirakçı qatılmışdır.

Əvvəllər "Həyatverici lütf"ün nəzdində "Bakı Bibliya İnstitutu" fəaliyyət göstərirdi. Burada həm xristian ilahiyyatı, həm missionerliyin

238 - Fundamentalists and Evangelical Churches [Elektron resurs]// Melton's Encyclopedia of American Religions. -
COPYRIGHT 2009 Gale. – URL: http://www.encyclopedia.com/religion/encyclopedias-almanacs-transcripts-and-maps/fundamentalists-and-evangelical-churches#Z (müraciət tarixi: 03.09.2016); История GGWO [Elektron resurs]. – URL: http://ggrace-spb.blogspot.com/2008/06/ggwo.html (müraciət tarixi: 03.09.2016); Томас Шаллер. Миндальный жезл цветет [Elektron resurs]. – URL: http://russiaggwo.blogspot.com/2008_06_01_archive.html (müraciət tarixi: 03.09.2016).
239 - http://ggrace-spb.blogspot.com/2008/06/ggwo.html (müraciət tarixi: 03.09.2016).

prinsipləri, həm də ingilis və fin dilləri tədris olunurdu. Təhsili başa vuran tələbələrə xüsusi diplom verilirdi. Hazırda “Bakı Bibliya İnstitutu”nun fəaliyyətindən yalnız adı qalıb.

Qeyd edək ki, “Həyatverici Lütf” dini icması uzun illər qanunun tələblərinə etinasız və saymazyana yanaşmışdır. Belə ki, 2001-ci ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yaradıldıqdan sonra dini icma həmin dövlət qurumunda qeydiyyatdan keçməliydi. Lakin sənədlərini DQİDK-ya təqdim etməkdən imtina etmişdir. 2009-cu ildə “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş əlavə və dəyişikliklərə uyğun olaraq, əvvəllər qeydiyyatdan keçmiş dini icmalar 1 yanvar 2010-cu il tarixinədək sənədlərini Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə yenidən təqdim etməli idilər. Amma “Həyatverici Lütf” dini icması bu dəfə də müvafiq sənədlərini təqdim etmək istəməmişdir. Bunu nəzərə alan DQİDK həmin dini icmanın əvvəlki dövlət qeydiyyatını ləğv etmək üçün məhkəməyə müraciət etmiş, 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsi DQİDK-nın iddiasını təmin etmişdir. Bakı Apellyasiya Məhkəməsi isə qərarı qüvvədə saxlamışdır. Həmin qərardan razı qalmayan icma isə kassasiya şikayəti vermişdir. Lakin onun şikayəti təmin olunmamışdır.

“Həyatverici lütf” dini icmasında ibadətlər Azərbaycan və rus dilində keçirilir. Uzun illər bu dini icmanın əsas dini ayinləri bazar günləri Müslim Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalının binasında yerinə yetirilirdi. Lakin dövlət qeydiyyatı ləğv olunduqdan sonra dini icmanın həmin yerdəki ibadətlərinə son qoyulmuşdur.

Hazırda icma üzvləri Bakı şəhəri, Nəsimi rayonu, Bəşir Səfər oğlu küçəsi 191, ev 62-64 ünvanında yerləşən ofislərində yığışırlar. Bazar günü toplantılarına təqribən 120-150 nəfər qatılır. Onlar arasında rusdillilər üstünlük təşkil edir. İbadətə gələnlər əsasən gənc və orta yaşlı qadınlardan ibarətdir. “Həyatverici lütf” dini icması Ağsaqallar Şurası tərəfindən idarə olunur. Hazırda icmanın vaizi Fuad Tariverdidir.

Son illər “Həyatverici Lütf” dini icmasının fəaliyyətində zəifləmə müşahidə olunur. İcma üzvləri ötən illərdəki kimi aktiv dini təbliğat aparmırlar, eyni zamanda, respublikamızda bu xristian denominasiyasının təəssübkeşlərinin sayında kəskin azalma nəzərə çarpır.

***"Baku İnternational Fellowship" (BİF - "Bakı Beynəlxalq Qardaşlığı")***

1998-ci ildə əcnəbilər tərəfindən yaradılmışdır. İlk vaxtlar uşaqlar üçün Bazar günü məktəbi kimi təsis olunmuşdu. Sonradan bu məktəbin fəaliyyəti genişlənmiş və "Bakı Beynəlxalq Qardaşlığı" meydana gəlmişdir. "Baku İnternational Fellowship"-in əsas məqsədlərindən biri Bakıda müxtəlif xarici şirkətlərdə çalışan əcnəbilərin dini ehtiyacları ödəməkdir[240].

Bu ingilisdilli dini icma Ağsaqallar Şurası tərəfindən idarə olunur. Əsas dini ayinlər Bakı şəh., Badamdar, A. Abbaszadə küç., 1128 ünvanında bazar günləri saat 10:30-12:30-da ingilis dilində keçirilir. Bazar günü ibadətlərinə təqribən 250-300 nəfər gəlir. İbadətə gələnlərin əksəriyyəti əcnəbi vətəndaşlardan (ABŞ-lar, müxtəlif Avropa dövlətlərinin vətəndaşları, afrikalılar, filippinlilər, hindistanlılar) ibarətdir. Lakin ibadətə qatılanlar arasında azərbaycanlılara da rast gəlinir. İcmada qadın, kişi, uşaq və gənclər üçün ayrıca qruplar mövcuddur.[241].

240 - http://www.churchstaffing.com/job/146065/ (02.09.2016).

241 - http://www.churchstaffing.com/job/146065/ (02.09.2016); "Baku İnternational Fellowship"-in rəsmi internet saytı. – URL: http://bakuchurch.org/wrdprs/ (müraciət tarixi: 02.09.2016).

# VI FƏSİL

## ANTİTRİNİTAR XRİSTİANLIQ

# "YEHOVANIN ŞAHİDLƏRİ"

*"Rəhbərliyə mütləq itaət, fasiləsiz təbliğat, durmadan dini ehkamın öyrənilməsi (iki yüzdən yuxarı əsərdə izah edilir), "İblisin hakimiyyəti altında olan" cəmiyyətlə bütün əlaqələrin kəsilməsi, təşkilatın müəssisələrində havayı işləmək – yehovaçının həyatı bu cürdür".*

***Roman Lunkin,***
*rusiyalı dinşünas*

*Xristianlığın antitrinitarizm* cərəyanına daxil olan *məsihçilər* Müqəddəs Üçlüyü, yəni *Tanrının* üç *ilahi sifətini (Ata, Oğul və Müqəddəs Ruh) inkar edir, tək Tanrıya inanc bəsləyirlər. Antitrinitarizm* dünyada müxtəlif *kilsələr və təriqətlərlə təmsil olunub. Günümüzdə Azərbaycanda da Müqəddəs Üçlüyü qəbul etməyən xristianlar yaşayır. Onlar "Yehovanın Şahidləri" dini təşkilatının üzvüdürlər. Bu dini təşkilatın ölkəmizdəki tarixi yenidir. Lakin yehovaçıların israrlı, planlı, hətta belə demək mümkündürsə, aqressiv təbliğatı nəticəsində Azərbaycan üçün yeni dini fenomen olan "Yehovanın Şahidləri" say baxımından XIX əsrdən bəri ölkəmizdə mövcud olan bir çox xristian cərəyanlarını ötüb keçiblər.*

## Qısa tarixi

"Yehovanın Şahidləri" dini cərəyanının başlanğıcı 1872-ci ilə gedib çıxır. Həmin ildə amerikalı tacir Çarlz Rassel (1852-1916) Pittsburq şəhərində (ABŞ, Pensilvaniya) "Beynəlxalq Müqəddəs Kitab tədqiqatçıları" adlı dərnək yaradır. Dərnəyin məqsədi bəşəriyyətin gələcəyinə dair Bibliyanın nə dediyini aşkarlamaq idi. Ç. Rassel İsa Məsihin cismən yer üzünə qayıdacağını gözləyən adventistləri tənqid atəşinə tutaraq belə iddia ortaya atır ki, guya 1874-cü ildə İsa Məsih gözügörünməz şəkildə qayıtmışdır. O, "Tanrının zühur etməsinin məqsədi və qaydası" (1874) adlı ilk əsərində bu ideyanı inkişaf etdirərək bildirir ki, guya İsa Məsihin ikinci gəlişi 1914-cü ildə baş verməlidir. Lakin İsa Məsihin zühuruna dair xəbər puça çıxdıqda Rasselin tərəfdarları bildirirlər ki, 1914-cü ildə İsa Məsihin ikinci gəlişi gözəgörünməz şəkildə olubdur[1].

1 - Белов А.В. Секты, сектантство, сектанты. – М.: Наука, 1978. – с. 59; Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. – М.: Издательство Московского университета, 2010. – с. 165; Иеговизм / Е.С. Прокошина [и др.]; под общ. ред. М.Я. Ленсу. – Минск.: Наука и техника, 1981. – с. 9.



*Çarlz Teyz Rassel (1852-1916)*

Bununla yanaşı, Ç. Rassel Armageddon (İsa Məsih və İblis arasında müharibə) haqda dini təlimin müəllifidir. Həmin təlimə görə, axır zamanlarda baş verəcək müharibədə 144 000 seçilmiş insan xilas olacaqdır[2].

Ç. Rassel dünyanın sonuna dair dini görüşlərini təbliğ etmək üçün 1879-cu ildə "Sionun Gözətçi Qülləsi və Məsihin iştirakının carçısı" (sonralar "Gözətçi qülləsi") adlı ilk jurnalını buraxır. 1881-ci ildə "Sionun Gözətçi Qülləsi və Traktatlar Cəmiyyəti" yaradır. 1884-cü ildə həmin təşkilat Pensilvaniyada "Gözətçi Qülləsi, Müqəddəs Kitab və Traktatlar Cəmiyyəti" (bundan sonra Cəmiyyət) adı ilə qeydiyyatdan keçir. 1909-cu ildən Cəmiyyət Bruklində (Nyu-York) fəaliyyət göstərməyə başlayır[3].

İlk vaxtlar Ç.Rasselin ardıcılları özlərini Müqəddəs Kitabın tədqiqatçıları adlandırırdılar. Onlar russelitlər kimi də tanınırdılar[4]. Rasselin vəfatından sonra russelitlər arasında nifaq düşdü. Buna səbəb 1917-ci ildə Cəmiyyətin prezidentlik postuna Ç. Rasselin yaxın silahdaşı, yüzdən artıq kitabın müəllifi Cozef Franklin Ruterfordun (1869-1942) gəlməsi oldu. O, Rasselin təliminə bır sıra yeni məqamlar əlavə etdi. Məsələn, axır zamanlarda təkcə 144 000 seçilmiş insanın deyil, həm də saysız-hesabsız vicdanlı və yaxşı adamın xilas olacağını bildirdi. Eyni zamanda, C.F.Ruterford Cəmiyyətin demokratik strukturunu dəyişdirərək avtoritar idarə üsulu gətirdi. Onun təşəbbüsü bəzi Müqəddəs Kitab tədqiqatçılarını narazı saldı və Cəmiyyətdən bir neçə qrup ayrıldı. Sonradan Müqəddəs Kitab tədqiqatçılarının bu qrupları müstəqil dini təşkilatlara çevrildilər (məs.: "Şəfəq Müqəddəs Kitab tədqiqatçıları" – ***A.Ə.***). Ruterford isə öz tərəfdarlarını başqa Müqəddəs Kitab tədqiqatçılarından fərqləndirmək üçün 1931-ci ildə rəhbərlik etdiyi təşkilatı "Yehovanın Şahidləri" adlandırdı[5].

2 - Религиозные организации современного мира. Там же.
3 - Лункин Р. Общество «Свидетелей Иеговы»//Современная религиозная жизнь России. Опыт систематического описания. Том 2. – Москва: Логос, 2003. – с. 441.
4 - Иеговизм. Там же.
5 - Лункин Р. Указ. соч. – с. 441; Религиозные организации современного мира. – с. 165.


*Cozef Franklin Ruterford (1869-1942)*

C.F.Ruterfordun əllərində böyük hakimiyyət cəmləşmişdi. O, təşkilatın ali idarə orqanı - Rəhbərlik Şurasını təsis edərək belə ideya irəli sürdü ki, guya Tanrı bu şura vasitəsilə öz iradəsini ifadə edir[6].

Ruterforddan sonra 1942-1977-ci illərdə "Yehovanın Şahidləri" təşkilatının baçısı Natan Norr (1906-1977) olur. O, beynəlxalq dini təşkilata 1942-1977-ci illərdə rəhbərlik edərək ABŞ-ın Nyu-York ştatında yehovaçıların təhsil şəbəkəsini formalaşdırır, əsas missioner təhsil ocağını - Müqəddəs Kitab Gilead Məktəbini yaradır[7].

Norrun vəfatından sonra aşağıdakı şəxslər "Gözətçi Qülləsi, Müqəddəs Kitab və Traktatlar Cəmiyyəti"nin prezidenti, dolayısı ilə "Yehovanın Şahidləri"nin başçıları olmuşlar:

1. Frederik Uilyam Frens. 1977-1992-ci illərdə ömrünün sonunadək rəhbərlik edib.
2. Milton Corc Henşel. 1992-ci ildə "Yehovanın Şahidləri"nin başçısı olub[8]. Həmin vəzifəni 1999-cu ilədək icra edib. Öz istəyi ilə istefa verib. Bu dini təşkilatın tarixində ilk belə hadisədir. Çünki Henşeldən əvvəlki rəhbərlər ömürlük Cəmiyyətin prezidenti vəzifəsini yerinə yetiriblər.
3. 1999-cu ildən Don Adams.

### "Yehovanın Şahidləri" Azərbaycanda

Rusiyanın Stavropol vilayətindən olan yehovaçı missionerlərin fəaliyyəti nəticəsində 1983-cü ildə "Yehovanın Şahidləri"nin Bakıda təqribən on nəfərlik ilk kiçik icması meydana gəlir. Sovet İttifaqında yehovaçılıq qadağan olunduğu üçün bu qrup hüquq-mühafizə orqanlarının təzyiqi nəticəsində gizli fəaliyyət göstərməyə məcbur olur. SSRİ dağılandan və Azərbaycan xalqı yenidən müstəqilliyini bərpa edəndən sonra ölkədə dini etiqad azadlığı elan

6 - Лункин Р. Там же.
7 - Yenə orada.
8 - Yenə orada.

olunmuş, dini-etnik mənsubiyyətindən asılı olmayaraq hər kəs, o cümlədən "Yehovanın Şahidləri" öz inanclarını sərbəst şəkildə yaşamaq və yaymaq fürsəti qazanmışlar. Onlar dövlət qeydiyyatında keçmək üçün 1997-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dini İşlər İdarəsinə müraciət etmişlər. 1999-cu ilin dekabr ayında isə Ədliyyə Nazirliyində Bakı şəhəri "Yehovanın Şahidləri" dini icması (hüquqi ünvan: Bakı şəhəri, T. Abbasov küçəsi, ev. 9, m. 91) dövlət qeydiyyatına alınmışdır. İcmanın sədri Leonid Moroz seçilmişdir. Həmin vaxtı icmanın təqribən 500 nəfər fəalı olmuşdur. Ümumən isə həmin dövrdə yehovaçıların toplantılarına 1000 nəfərdən yuxarı adam qatılmışdır[9].

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi təsis olunduqdan sonra 2002-ci ildə "Yehovanın Şahidləri" dini icması dövlət qeydiyyatına (hüquqi ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Seyid Hüseyn küç., ev 23, mən. 10) alınır. İcmanın sədri yenə L.Moroz seçilir. Bir müddət sonra Bakıdakı yehovaçılar Xətai rayonu, Əhmədli qəsəbəsində "Bakı" kinoteatrına yaxın ərazidə yerləşən keçmiş "Çinar" şadlıq evində "Padşahlıq zal"larını açırlar. Burada yerli yehovaçılar hər həftənin çərşənbə axşamından cümə gününə kimi saat 19:00-dan 21:00 kimi, şənbə günü saat 16:00-dan 18:00-a kimi və bazar günləri saat 10:00-dan 19:00 kimi dini ayinlərini yerinə yetirirlər.

Qeyd edək ki, ölkəmizdəki yehovaçı özəklərin fəaliyyətinə Tiflis şəhərində yaşayan amerikalı və avropalı missionerlər istiqamət verir. Yerli yehovaçıların koordinatorları Tiflis şəhərində yaşayırlar.

## Təşkilati strukturu

"Yehovanın Şahidləri" beynəlxalq dini təşkilatına sərt nizam-intizam üzərində əsaslanıb. Təşkilata iyerarxik idarə üsulu xasdır. Yehovaçılar bunu "teokratik idarə" adlandırırlar. Çünki öz təşkilatlarını Allah tərəfindən seçilmiş sayırlar. Beləcə, Tanrının yer üzündə canişinləri, ilahi hakimiyyətin təmsilçiləri olduqlarını zənn edərək dünyəvi hakimiyyəti tanımırlar.

Təşkilatın ali idarə orqanı Rəhbərlik Şurasıdır. "Yehovanın

9 - Справка о деятельности зарегестрированной религиозной общины «Свидетелей Иеговы». Папка: "Христианские религиозные организации" (Ведущий специалист А. Козлов)//Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qorunan Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dini İşlər İdarəsinin arxivi.

Şahidləri"nin rəsmi saytının verdiyi məlumata əsasən, 2015-ci ildən bəri bu şəxslər Şuranın tərkibində yer alıblar: 2015-ci ilin yanvarından bəri Rəhbərlik Şurasının üzvləri bunlardır: Samuel Herd, Cefri Cekson, Stiven Let, Qerit Löş, Entoni Morris III, Mark Sanderson, Deyvid Spleyn. 1909-cu ildən Rəhbərlik Şurası "Yehovanın Şahidləri" dini təşkilatının Bruklinin (Nyu-York) Kolumbiya Hayts küçəsi, 124 ünvanında yerləşən baş ofisində fəaliyyət göstərirdi. Lakin 2016-cı ildə dini təşkilatın Uorvikdəki (Nyu-York) 20 hektarlıq ərazisi olan yeni qərargahına köçüb[10].

Yehovaçılar inanırlar ki, onların tək tanrısı Yehova öz əmrlərini bu Şura vasitəsi ilə çatdırır. Odur ki, Şura təşkilatda mütləq söz sahibidir. Yehovaçıların nəzərində Şuranın qərarları nöqsansız və səhvsiz olduğu üçün hökmən icra olunur. Rəhbərlik Şurası Tanrı Yehova tərəfindən "seçildiyindən" sözügedən dini təşkilatda əsas vəzifələrə təyinat Şura tərəfindən həyata keçirilir. Dini təşkilatda qadınların vəzifəsi tutması qadağandır[11].

Rəhbərlik Şurasının üzvlərini də Şuranın özü seçir. Adətən Şuraya üzvlük ömürlük olur. Onu da qeyd edək ki, 1976-cı ildən başlayaraq "Gözətçi Qülləsi, Müqəddəs Kitab və Traktatlar Cəmiyyəti"nin prezidentinin səlahiyyətləri Rəhbərlik Şurasının xeyrinə əhəmiyyətli şəkildə məhdudlaşdırılmışdır.




*"Yehovanın Şahidləri" dini təşkilatının Bruklindəki keçmiş baş ofisi*

**10** - https://www.jw.org/az/yehovanın-şahidləri/sual-cavab/rəhbərlik-şurası/ (müraciət tarixi: 24.10.2016).
**11** - Лункин Р. Указ. соч. – с. 442, 447.

Rəhbərlik Şurasının rəhbərliyi altında 85 ölkədə filial fəaliyyət göstərir. Filiallarda 700-dən çox dilə Müqəddəs Kitab vəsaitləri tərcümə edilir və çap olunur. Sonra bu vəsaitlər dünyada yüz on mindən yuxarı yığıncağa paylanılır. Filialların idarə orqanı - filial komitələridir. Filial komitələrinin tərkibinə üç və daha artıq təcrübəli ağsaqqal daxil olur. Rəhbərlik Şurası işlərə nəzarət etmək məqsədilə müntəzəm filiallara öz nümayəndələrini göndərir[12]. Beləcə, Şura filiallar vasitəsilə dünyadakı yehovaçıları idarə edir.

***Azərbaycandakı yehovaçılar Tiflis şəhəri, Aerodromis dasaxleba, 13-cü küçə, 10 ünvanında  ünvanında yerləşən Gürcüstan filialına tabedirlər. Bu filialda yehovaçı ədəbiyyatlar Azərbaycan, gürcü və kürd dillərinə tərcümə olunur, eləcə də bu dillərdə audio və video yazılar hazırlanır[13].***

"Yehovanın Şahidləri"nin Rəhbərlik Şurasının tərkibinə altı komitə daxildir. Hər Şura üzvü bir və ya bir neçə komitədə xidmət edir. Şura bu komitələr vasitəsilə regional təşkilatların fəaliyyətinə istiqamət verir - Koordinatorlar komitəsi, Kadrlar komitəsi, Nəşriyyat komitəsi, Xidməti komitə, Təlim komitəsi və Yazı komitəsi[14].

"Yehovanın Şahidləri" dini təşkilatının idarə stukturu aşağıdan yuxarı belə qurulub: yehovaçılar hər biri təxminən 100 nəfərdən ibarət olan yığıncaqlardan təşkil olunublar. Hər yığıncağın fəaliyyətinə rəhbərliyi ağsaqqallar şurası (yehovaçılara görə, ağsaqqallar – dini təbliğatda təcrübəli olan, dini biliyi ilə seçilən, yetkinlik yaşına çatmış kişilərdir. Onlar bu işə görə pul almırlar). Təxminən 20 yığıncaqdan bir rayon, 10 rayondan isə bir vilayət təşkil edilir. Yığıncaqlara vaxtaşırı olaraq rayon və vilayət nəzarətçiləri kimi tanınan səyyar xidmətdə olan ağsaqqallar baş çəkir[15]. Qeyd edək ki, "Yehovanın Şahidləri"nin 2015-ci il üzrə verdiyi məlumata görə, Bakıdakı icma 18 nəfərlik idarə heyətininin (yığıncaq xidmətçiləri və ağsaqqallar) nəzarəti altında fəaliyyət göstərir.

Hər yehovaçı yığıncağın tərkibində xidməti komitə var. Komitəyə

---

**12** - Кто сегодня исполняет волю Иеговы. – Германия: «Druck und Verlaq: Wachtturm Bibel- und Traktat- Gesellschaft, Selters/ Ts., 2016. - c. 22; https://www.jw.org/az/yehovanın-şahidləri/filiallar/birləşmiş-ştatlar/ (müraciət tarixi: 24.10.2016); https://www.jw.org/az/nəşrlər/kitablar/ilahi-müjdə/yehovanın-şahidləri-təşkilatı/ (müraciət tarixi: 24.10.2016).

**13** - https://www.jw.org/az/yehovanın-şahidləri/filiallar/gürcüstan/ (müraciət tarixi: 24.10.2016).

**14** - https://www.jw.org/az/yehovanın-şahidləri/sual-cavab/rəhbərlik-şurası/ (müraciət tarixi: 24.10.2016).

**15** - https://www.jw.org/az/yehovanın-şahidləri/sual-cavab/yığıncaqların-təşkili/ (müraciət tarixi: 24.10.2016); https://www.jw.org/az/yehovanın-şahidləri/sual-cavab/pul-almayan-xidmətçilər/ (müraciət tarixi: 24.10.2016).

25-35 yaşlı kişilər daxildir. Onların hər biri sözügedən beynəlxalq dini təşkilatın ən aşağı iyerarxik pilləsində yer alan kiçik özəklərin rəhbəridir. Bu özəklər studiyalar adlanır. Studiyanın üzvləri şəxsi evlərdə yığışırlar[16].

**Missionerlik metodu və dini təhsil**

"Yehovanın Şahidləri"nə israrlı missioner fəaliyyəi xasdır. Elmi dildə belə təbliğata prozeletizm deyirlər. Hətta məsələyə obyektiv mövqedən yanaşmağa çalışan araşdırmacılar belə yehovaçıların missioner fəaliyyətini aqressiv təbliğat kimi səciyyələndirirlər. Məsələn, yeni dini cərəyanların haqları uğrunda mübarizə aparan məşhur rusiyalı dinşünas Roman Lunkin yehovaçıların təbliğatını təcavüzkar adlandırır. Məhz israrlı, planlı, mütəşəkkil missionerlik fəaliyyətləri sayəsində "Yehovanın Şahidləri"nin sayı dünyada durmadan nəinki artır, hətta dünyanın bir çox yerində qısa müddətdə uğur qazanaraq özündən daha əvvəl mövcud olmuş xristian cərəyanlarını say baxımından üstələyir. Elə Azərbaycanın özündə də "Yehovanın Şahidləri" ötən əsrin 90-cı illərindən fəaliyyət göstərməyə başlasalar da, say baxımından nəinki XIX əsrdən bəri ölkəmizdə mövcud olan lüteranları, baptistləri, adventistləri, eləcə də Xristianlığın yayılması üçün külli miqdarda pul buraxan, humanitar yardım göstərən əcnəbi missioner təşkilatlar tərəfindən yaradılan neoprotestant təriqətləri də ötüb keçiblər. Bu dini təşkilatın insanları şirnikləşdirmək və öz etiqadlarına gətirmək üçün heç bir humanitar yardım göstərmədiyini, əksinə, hər yeni üzvünə təbliğat aləti kimi baxaraq ardıcıllarını maddi-mənəvi cəhətdən istismar etdiyini nəzərə alsaq, onda yehovaçıların təbliğatlarında necə böyük uğur qazandığını görərik.

Deyilənlərin fonunda belə sual yarana bilər ki, yehovaçılar niyə belə uğur qazanırlar, onlar təbliğat metodlarını necə qurublar? Bu suala cavab tapmaq üçün "Yehovanın Şahidləri" təşkilatının ən aşağı özəyi və ən kiçik strukturu olan studiyaların fəaliyyətinə nəzər yetirək. Çünki missioner fəaliyyətin ən əsas yükünü məhz studiyalar daşıyırlar.

Belə ki, studiyanın üzvləri qapı-qapı gəzərək durmadan, usanmadan yehovaçılığı təbliğ edirlər. Bu studiyaların iş bölgüsü belədir: özək başçıları təəssübkeşlər arasında rayon və məhəllə üzrə yaşayış evlərini bölüşdürdükdən sonra tabeçiliyindəki yehovaçılara planlı şəkildə qapı-qapı gəzərək insanları öz dinlərinə cəlb etməyi tapşırır. Sonra hər təbliğçi rəhbəri qarşısında yazılı

16 - Лункин Р. Указ. соч. – с. 446.

şəkildə gördüyü iş barədə hesabat verir. Rəhbər də öz növbəsində “Padşahlıq zalı”nın (Yehovaçıların əsas ibadət yerinin adıdır. İstər daxili, istər xarici tərtibatı etibarı ilə çox sadədir və hər hansı özəlliyi yoxdur – ***A.Ə.***) başçısına mütəmadi olaraq yazılı hesabatlar təqdim etməlidir. Regionlardakı Padşahlıq zalları isə ABŞ-dakı mərkəzə məlumat göndərməlidirlər. Hesabatlarda bu məlumatlar göstərilir: təbliğat aparılan mənzillərin, yehovaçı təliminə maraq göstərənlərin və yeni üzvlərin sayı[17].




“Yehovanın Şahidləri” dini təşkilatına yenicə üzv olan hər şəxs haqda təfsilatlı dosye hazırlanır. Həftədə iki dəfə (cümə axşamı və bazar) keçirilən və ağsaqqal tərəfindən idarə olunan yığıncaqdan başqa, təəssübkeşlər Teokratik Məktəbə gəlməlidirlər. Burada onlar dini ehkanları öyrənməklə yanaşı, əhali ilə işləmək üçün metodik göstəriş və təlimatlar alırlar. Teokratik Xidmət Məktəbində yehovaçılar insanlarla tanış olmaq, ünsiyyət qurmaq, söhbət aparmaq üsullarını öyrənirlər. Hər təəssübkeş gündə iki saatdan beş saatadək təbliğat aparmalıdır. Qalan vaxtını yehovaçı ədəbiyyatın öyrənilməsinə həsr etməlidir. Təəssübkeşlərin bilik səviyyəsi yığın-

17 - Лункин Р. Указ. соч. – с. 446, 447.

caq ağsaqqalları tərəfindən ciddi yoxlanılır. Yehovaçının təcrübəsi və stajı artdıqca ona xüsusi adlar verilir: *maraqlananlar, vəftiz olunmamış təbliğçi, vəftiz olunmuş təbliğçi (Yehovanın Şahidi), köməkçi öncül və xüsusi öncül*[18].

Fəaliyyətləri ilə seçilən ən qabaqcıl öncüllər xüsusi sınaq və yoxlamadan keçdikdən sonra Padşahlıq zalının ailəsinə daxil olmaq, buradan Nyu-Yorkdakı əsas missionerlik məktəbinə - "Gözətçi Qülləsinin Müqəddəs Kitab Məktəbi Gilead"a getmək, beləcə dini təşkilat daxilində karyera yüksəlişinə nail olmaq imkanı qazanırlar[19].

## İnanc əsasları

"Yehovanın Şahidləri"nin etiqadı Ç.Rasselin dini təlimi üzərində qurulub. O, Bibliyanı özünəməxsus tərzdə şərh edərək altı əsər qələmə alıb. Bu altı kitab "Müqəddəs Yazıların tədqiqi" və ya "Minilliyin şəfəqi" adı altında bir yerə toplanılıb. Məhz bu əsərlərdə yer alan Müqəddəs Kitabın təfsiri "Yehovanın Şahidləri"nin dini ehkamının formalaşmasına təsir göstərib[20].

Yehovaçılar özlərini İsa Məsihin davamçıları, yəni məsihçilər (məsihi) adlandırsalar da, öz təşkilatlarını xristian dünyasının bir parçası saymırlar. Onlar qadir, yaradan və tək olan tanrı Yehovaya inanc bəsləyərək Allahın üç sifətdə olduğunu (Üç üqnum) inkar edirlər. "Yehovanın Şahidləri"nə görə, Müqəddəs Ruh tanrının görünməz gücüdür. İsa Məsihi Xilaskar və Allahın Oğlu kimi qəbul edən yehovaçıların fikrincə, İsa Məsih qadir Allah deyildir. O, Tanrının seçilmiş qulu və elçisidir. Uca Yaradan İsa Məsihi bütün bəşəriyyətin üzərində hökmdar təyin edib. İnsanlar məhz İsa Məsih vasitəsi ilə xilas olacaqlar. Başqa xristianlardan fərqli olaraq, yehovaçılar İsa Məsihin xaça çəkildiyinə inanmır, onun dik şalban üzərində edam edildiyini deyirlər. Onlar İsa Məsihə dua etməyi Allaha şərik qoşmaq kimi səciyyələndirir, eləcə də xaça, ikonalara və digər sürətlərə sitayişi bütpərəstlik sayırlar. Bu amil isə yehovaçıları bir çox xristian məzhəbindən fərqləndirir. Eyni zamanda, onlar

18 - Yenə orada. – s. 447.
19 - Yenə orada.
20 - Лункин Р. Указ. соч. – с. 442.

Bibliyanın 66 kitabını (hissəsini) tanıyırlar[21].

Yehovaçılar Cəhənnəmə, əbədi əzaba və ruhun ölümsüzlüyünə inanmırlar. Onlar hesab edirlər ki, bəşəriyyətin yalnız bir hissəsi Tanrı Yehovanın iradəsi ilə ölümsüzlüyə çatacaqdır. Ölümsüzlüyü qazananların bəziləri səmalarda ruhlar şəklində, bəziləri isə yer üzündə fiziki bədənləri ilə mövcud olacaqlar. O biriləri isə birdəfəlik öləcəklər. Onlardan sonra nə cisimləri, nə də ki, ruhları qalacaq. Beləliklə, ölümsüzlük yehovaçıların dini dünyagörüşlərində sədaqətə görə verilən mükafatdır[22].

"Yehovanın Şahidləri" İsa Məsihin cismani deyil, ruhani dirilişinə inanırlar. Onlara görə, 1914-cü ildə bütpərəstlik dövrü bitmişdir. Çünki həmin ildə yer üzünə Loqos kimi gözügörünməz şəkildə İsa Məsih qayıdaraq İblisin hakimiyyətinə son qoymuşdur. Odur ki, 1914-cü ildə doğulan İsa Məsihin zühurunun sonuncu "şahidi" öldükdən sonra Armageddon baş verəcəkdir[23].

Yehovaçı etiqada əsasən, Armageddonda İsa Məsih Allahın ordusuna başçılıq edərək insanlar tərəfindən qurulan hökumətlərlə müharibə aparacaq, onları məğlub edərək insanın yer üzündəki hökmranlığına son qoyacaq, beləcə xeyir şər üzərində, ilahi hakimiyyət dünyəvi hakimiyyət üzərində qələbə qazanacaq. Bundan sonra İsa Məsihin Minillik Padşahlıq dövrü başlayacaqdır. Bu Yehovanın ilahi planının tərkib hissəsidir[24]. Yehovaçı ədəbiyyatda gələcək döyüşün qurbanlarının "dəqiq" statistikası dəhşət doğurur. Sanki söhbət insan qırğınından getmir. Belə ki, yehovaçılara görə, Armageddonda iki milyard insan tələf olacaqdır. Bu "müqəddəs" müharibə "Yehovanın Şahidləri" istisna olmaqla, qadın-uşaq demədən, irqi və milli mənsubiyyətindən asılı olmadan yer üzündə yaşayan hər kəsə toxunacaqdır. Yehovaçı müəlliflər kütləvi insan qırğınını olduqca soyuqqanlı şəkildə təsvir edərək, bunu müharibənin təbii təzahürü kimi qələmə verirlər[25].

Yehovaçılara görə, 1933-cü ildən Armageddona kimi Yehovaya loy-

---

21 - Иеговизм. – с. 16,17; https://www.jw.org/az/müqəddəs-yazıların-təlimləri/suallar/isa-xaç-üzərindəmi-edam-edilib/ (müraciət tarixi: 25.10.2016); https://www.jw.org/az/yehovanın-şahidləri/sual-cavab/yehovanın-şahidlərini-xristian-dünyasına-aid-etmək-olarmı/(müraciət tarixi: 25.10.2016); https://www.jw.org/az/yehovanın-şahidləri/sual-cavab/yehovanın-şahidləri-nəyə-inanırlar/ (müraciət tarixi: 25.10.2016).

22 - Bax: Лункин Р. Указ. соч. – с. 443.

23 - Yenə orada.

24 - Yenə orada.

25 - Bax: Иеговизм. – с. 28, 29.

al münasibət göstərənlər Tanrı tərəfindən mükafatlandırılaraq əbədi həyat üçün dirildiləcəklər. Bu seçilmiş insanların sayı 144 000 olacaqdır. Bu insanlar Yehovanın seçilmiş xalqıdır. Çünki Yehova yəhudilərlə olan əhdi pozaraq bu seçilmiş insanlarla ittifaq bağlamışdır[26].

1935-ci ildə yehovaçı təliminə yeni məqamlar əlavə olunur. Yəni ölümsüzlüyü təkcə 144 000 nəfər deyil, 1935-ci ildən başlayaraq Yehovanı tanıyan hər kəs qazanacaqdır. Sadəcə 144 000 nəfər göylərdə cismani deyil, ruhani həyat sürəcək, ölümsüzlüyü qazanan qalan adamlar isə İsa Məsihin yer üzündəki Minillik Padşahlığında cismani olaraq yaşayacaqlar. Bu adamların sayı məhdudsuzdur[27]. Lakin yehovaçı təlimə əsasən, ilahi sınaq bununla bitmir. Minillik Padşahlıq dövrü qurtarana yaxın İsa Məsih bəşəriyyəti kamilliyə gətirəcək, öz missiyasını bitirərək hakimiyyəti Yehovaya ötürəcəkdir. Burada Yehova kamilliyə çatanları sonuncu imtahandan keçirəcəkdir. İblis və şeytanlar dərin uçurumdan buraxılacaq. Onlar tərəfindən aldanaraq Yehovaya qarşı çıxan kəslər İblis və şeytanlarla birgə məhv ediləcəklər. Sınaqdan üzü ağ çıxan 144 000 ruh və yer üzündəki müəyyən sayda ölümsüz insan Yehovanın universal ailəsinə daxil olacaq. *Belə mürəkkəb yol keçmək və xilas olmaq üçün Rəhbərlik Şurası ardıcıllarına təkcə bir prinsip aşılayır – mütləq itaət və tənqidi düşüncə tərzindən, müstəqil düşünmə qabiliyyətindən uzaq olaraq yehovaçı ehkamı kor-koranə qəbul etmək*[28].

"Yehovanın Şahidləri" dini təşkilatına qiyamətin əlamətlərinin yaxınlaşdığını bildirmək və dəqiq tarixini göstərmək (1914, 1925, 1927, 1928 və s. və i.a.) səciyyəvidir. Sonuncu dəfə qiyamətin tarixi kimi 25 oktyabr 1975-ci il göstərilmişdir. Lakin proqnozları yalan olduqdan sonra qiyamətin niyə qopmadığını izah etməyə çalışırlar[29].

## Dünyəvi hakimiyyətə münasibət

"Yehovanın Şahidləri"nin dövlətə münasibəti ziddiyyətlidir. Bir tərəfdən onlar dövlət qeydiyyatından keçməyə və vergiləri vaxtı-vaxtında ödəməyi çalışırlar. Digər tərəfdən isə onlar dünyəvi dövlətə nifrət bəsləyərək onu tanımırlar. Çünki onların əsas amalı Yehovanın başçılığı altında teokra-

26 - Вах: Лункин Р. Там же. – с. 443, 444.
27 - Лункин Р. Указ. соч. – с. 444.
28 - Yenə orada. – s. 444, 445.
29 - Вах: Лункин Р. Там же. – с. 443, 444; Иеговизм. – с. 27.

tik padşahlıq qurmaqdır. Və bu səbəbdən yehovaçılar dünyadakı dövlətləri ilahi hakimiyyəti qəsb edən hakimiyyət forması sayırlar. Özlərini Tanrının yer üzündəki canişinləri hesab edən yehovaçılar qatı dini dünyagörüşlərinə görə dünyəvi dövlətin atributlarına ehtiram göstərmir, milli adət-ənənələrə ikrah hissi ilə yanaşır, vətən və millət anlayışını qəbul etmirlər[30]. Qısası, yehovaçıların nəzərində dünyəvi dövlətlər və onların strukturları İblisin səltənətinin bir parçasıdır.

İctimai həyatdan uzaqlaşan yehovaçılara görə, ali təhsil almaq, hərbi xidmətə getmək, seçkilərə qatılmaq, dövlət bayramlarını və milli şənlikləri qeyd etmək, ad günü keçirmək, əyləncələrə qatılmaq haramdır[31].

"Yehovanın Şahidləri" təkcə dövlətlərə deyil, BMT kimi beynəlxalq təşkilatlara da mənfi münasibət bəsləyirlər. Onlar hesab edirlər ki, belə təşkilatların beynəlxalq missiyaları yerinə yetirmək ixtiyarı yoxdur, çünki kainatın universal hakimi-mütləqi Yehovadır, eləcə də onun iradəsini təmsil edən Rəhbərlik Şurasıdır[32].

## Dini qadağalar

Yehovaçıların həyatı ağır və sərt qadağalar üzərində qurulub. İlk növbədə onlara cəmiyyətlə ünsiyyətə girmək, xüsusən başqa xristian konfessiya nümayəndələri ilə dialoq qurmaq tövsiyyə olunmur. Yalnız qapı-qapı gəzərək dini təlimi yaymağa icazə verilir. Çünki "Yehovanın Şahidləri" başqa din və inancları saxta adlandıraraq özlərini ilahi həqiqətin yeganə carçıları sayırlar. Onlar düşünürlər ki, yalnız yehovaçılar Müqəddəs Kitabı doğru-dürüst təfsir edirlər. Bu dini təşkilatın rəhbərləri belə kölgədə qalmağa çalışırlar. Yalnız məcburi hallarda, məsələn, məhkəmə proseslərində üzə çıxırlar. Yehovaçı icmaların və ya regional bölmələrin başçıları heç yerdə açıq çıxış etmirlər. Bir sözlə, təşkilatda ictimai fəaliyyət alqışlanmır[33].

"Yehovanın Şahidləri" dini təşkilatında ən məşhur qadağa qanköçürmə ilə bağlıdır. Onların təliminə görə, insan ruhu qanda olduğu üçün qanköçürmək haramdır. Ona görə də təşkilata daxil olan hər kəs qanköçürmədən imtina etdiyinə dair yazılı kağıza imza atır və bədbəxt hadisə

30 - Bax: Лункин Р. Указ. соч. – s. 445.
31 - Yenə orada.
32 - Yenə orada.
33 - Yenə orada. – s.447; Иеговизм. – с. 16.

zamanı kart sahibinin qanköçürmədən imtina etdiyitш göstərən xüsusi tibbi kartoçka alır. Təbii ki, belə sərt qadağa acı sonluqla bitən fəciəli hadisələrə yol açır. "Yehovanın Şahidləri" orqan nəqlini kannibalizmə bərabər tutur, tərkibində heyvan qanı olan qidaları (məs.: kolbasa) da haram sayırlar[34].

## Humanitar fəaliyyət və BET-EL

"Yehovanin Şahidləri" dini təşkilatının tərkibində heç bir humanitar qurum yoxdur. Missionerlikdən başqa həmin təşkilat heç bir xeyriyyə fəaliyyəti ilə məşğul olmur, nə özgələrə, nə də ki, təəssübkeşlərinə hər hansı maddi yardım göstərmir.

Əksinə təşkilat daxilində insanların əməyini istismar etmək halları geniş yayılıb. Məsələn, təşkilatın filiallarında Bet-El ("Allahın Evi") adlı strukturlar mövcuddur. Onlar rahib ordenlərini xatırladırlar. Çünki burada ən sadiq və rəhbərliyə ən yaxın yehovaçılar yaşayaraq gecə-gündüz demədən fədakarcasına, heç bir maaş almadan sözügedən dini təşkilatın mənafeyi naminə çalışırlar. Bet-Eldə hər kəsin öz işi var: kimisi ofisdə, kimisi mətbəxdə, kimisi yeməkxanada pulsuz işləyir. Başqaları isə mətbəədə, cildləmə emalatxanasında, camaşırxanada, təmizlik və texniki xidmət şöbələrində və sairə sahələrdə havayı çalışırlar. Sual yarana bilər ki, bu şəxslər niyə aşağı dərəcəli işlərdə havayı işləməyə razıdırlar? Çünki onlar özlərini "Allah evinin ailəsi"nə daxil olmaq fürsətini qazanmış şəxslər sayırlar. Bu lütf hər yehovaçıya göstərilmir. Yalnız ciddi yoxlanışdan keçən təəssübkeşlər (onlar ətraflı anket dolduraraq peşələri, sosial mənşələri, ailə və sağlamlıq vəziyyətləri kimi suallara cavab verirlər) bu "Allahın ailəsi"nə buraxılırlar. Belə ki, seçilmişlər sırasına yalnız yaşı 25 və yuxarı olan tamamilə sağlam şəxslər buraxılır[35].

## Say

2015-ci ilin məlumatına əsasən, "Yehovanın Şahidləri" dünyanın təqribən 240 ölkəsində fəaliyyət göstərirlər. Onların sayı 8 220 105 nəfərdir. Lakin yeganə bayramları olan İsa Məsihin ölümünün Xatirə gecəsinə 19 862 783 nəfər qatılmışdır.

34 - Лункин Р. Указ. соч. – с. 445, 446.
35 - https://www.jw.org/az/nəşrlər/kitablar/jehovahs-will/what-is-bethel/ (müraciət tarixi: 25.10.2016)

Bu dini təşkilatın 2015-ci il üzrə hesabatına görə, həmin ildə Azərbaycanda 105 nəfər vəftiz olunmuş, 13 yığıncaq keçirilmiş, eləcə də təbliğçilərin sayı 1351 nəfər, köməkçi öncüllərin sayı 136 nəfər, öncüllərin sayı 327 nəfər təşkil etmişdir. 2014-cü illə müqayisədə azərbaycanlı yehovaçıların sayında 7 faiz artım müşahidə olunmuşdur[36]. 2015-ci il aprelin 3-də keçirilən İsa Məsihin ölümünü anma mərasiminə isə 2674 nəfər qatılmışdır[37] ki, bu göstərici respublikada illər ərzində qeydə alınan ən yüksək rəqəmdir.

## Milli və yaş tərkibi

Respublikamızdakı yehovaçıların əsas hissəsi azərbaycanlı və ruslardan ibarətdir. Az sayda ləzgilər də var. İcma üzvləri əsasən gənc qızlardan və orta yaşlı qadınlardan ibarətdir.

## Yayılma arealı

Bakıdakı dini icma ilə yanaşı, yehovaçıların Sumqayıt, Gəncə, Bərdə, Mingəçevir, Qax, Zaqatala, Lənkəran və Şəmkirdə özəkləri mövcuddur.

## Təhsil müəssisələri

Əsas missionerlik məktəbi - Gözətçi Qülləsinin Müqəddəs Kitab Məktəbi Gilad (ABŞ).

Hər yığıncağın nəzdində Teokratik Xidmət Məktəbi.

## Maliyyə mənbəyi

"Yehovanın Şahidləri" könüllü ianələr əsasında fəaliyyət göstərirlər. Eyni zamanda, təəssübkeşlər tərəfindən şəxsi daşınmaz əmlaklarının notarial qaydada sözügedən dini təşkilata bağışlanması halı da geniş yayılıb.

---

36 - Всемирный отчёт Свидетелей Иеговы за 2015 служебный год//Ежегодник Свидетелей Иеговы 2016 - Германия: Druck und Verlaq: Wachtturm Bibel- und Traktat- Gesellschaft, Selters/ Ts., 2016.

37 - Müqəddəs İbadətimiz (avqust, 2015)/ Azərbaycan üçün. - Druck und Verlaq: Wachtturm Bibel- und Traktat- Gesellschaft der Zeugen Jehovas, e. V., Selters/ Taunus. – s. 4.




*"Gözətçi Qülləsi" jurnalı (Azərbaycan dilində) №6, 2016.*

## Mətbu orqanları

"Gözətçi qülləsi" (250-dən yuxarı dildə buraxılır) və "Oyanın" (100-dən yuxarı dildə nəşr olunur) dini təşkilatın əsas əsas jurnallarıdır. Bundan başqa saysız-hesabsız vərəqə, buklet, Teokratik Xidmət Məktəbləri üçün dərs vəsaitləri və digər yehovaçı ədəbiyyat buraxılır. Məsələn, "Allahın sözünə qulaq as və əbədiyyən yaşa" broşürü 640-dan yuxarı dildə işıq üzü görür[38].

### *"Müqəddəs Yazıların Yeni Dünya tərcüməsi"*

"Yehovanın Şahidləri" başqa xristian məzhəblərinin Bibliya tərcümələrini tanımayaraq 1950-ci ildən bəri "Yeni Dünya Tərcüməsi" adlı özlərinə məxsus Müqəddəs Kitab tərcüməsi buraxırlar. Belə ki, onlar Bibliyanın təxminən 7000 yerində tanrının adını Yehova kimi vermiş, pravoslav və katoliklər tərəfindən tanınmayan apokrifik İncilləri müqəddəs mətnə əlavə etmiş, ən qədim əlyazmalarda yer almayan ifadələri Bibliyanın tərcüməsindən çıxarmış, eləcə də müqəddəs mətnlərdəki bir sıra parçaları fərqli şəkildə çevirmişlər[39].

Bu səbəbdən bir çox tədqiqatçılar yehovaçıları tənqid atəşinə tutaraq bildirmişlər ki, "Yehovanın Şahidləri" Müqəddəs Kitabın orijinal mətnlərində yer alan fikirləri təhrif edərək öz dini dünyagörüşlərinə uyğunlaşdırmışlar. Ümumiyyətlə isə yehovaçılara Müqəddəs Kitabın mətnlərini "müasir" şəkildə təfsir etmək, çeviklik göstərərək inanc əsaslarını zamanın tələbinə uyğunlaşdırmaq, hətta dini dünyagörüşlərindəki məqamları dəyişdirmək

38 - Statistik məlumat "Yehovanın Şahidləri" dini təşkilatının rəsmi saytından götürülmüşdür.
39 - https://www.jw.org/az/nəşrlər/kitablar/jehovahs-will/new-world-translation/ (müraciət tarixi: 26.10.2016).

xasdır[40]. Onların bu metodologiyası və yanaşması "Müqəddəs Yazıların Yeni Dünya tərcüməsi"ndə də öz əksini tapır.

"Müqəddəs Yazıların Yeni Dünya Tərcüməsi" tam və ya qismən dünyanın 100 dilində 170 milyondan yuxarı nüsxədə dərc edilib. 2014-cü il sentyabr ayının 19-da isə "Yeni Dünya Tərcüməsi"nin Azərbaycan dilində variantı işıq üzü görüb[41].

## Dini bayramlar

"Yehovanin Şahidləri"ndə cəmi bir dini bayram mövcuddur - İsa Məsihin ölümünün anma axşamı. Bu bayram yəhudi təqviminə görə, nisan ayının 14-də keçirilir. Miladi təqvimlə bu tarix mart-aprel aylarına təsadüf edir. Məsələn, 2015-ci ildə yehovaçıların bu əsas dini mərasimi aprel ayının 3-də keçirilib.

40 - Иеговизм. – с. 16.

41 - https://www.jw.org/az/nəşrlər/jurnallar/wp20150701/azərbaycan-dilində-müqəddəs-kitabın-yeni-dünya-tərcüməsi-işıq-üzü-gördü/ (müraciət tarixi: 26.10.2016).

# SON

Əziz oxucu! Beləliklə, respublikamızda yaşayan məsihçilərin rəngarəng və zəngin həyatına işıq saldıq, müxtəlif xristian təriqətlərin inanc əsaslarına, ibadət şəkillərinə və etiqadi prinsiplərinə nəzər yetirdik, qədim şərq kilsəsinin - Alban Həvari Kilsəsinin keşməkeşli tarixi səhifələrini vərəqlədik, pravoslav, katolik, molokan, duxobor, baptist, adventist, əllinci və başqa xristian məzhəblərin ardıcılları ilə tanış olduq, bir sözlə, A-dan Z-yə qədər ölkəmizdə mövcud olan bütün xristian təşkilatları haqqında məlumat verməyə çalışdıq. Ölkəmizdəki hər bir xristian denominasiyası və dini təşkilatı haqda ətraflı məlumat verərək qədim diyarımızda Xristianlığın necə maraqlı keçmişə və zəngin irsə malik olduğunu göstərməyə səy göstərdik.

Əslində, bu kitab üzərində işləyərkən bir məqsəd də güdmüşük. Yəni ölkəmizdə yaşayan xristianlar barədə bəhs etməklə bəzi beynəlxalq təşkilatların hesabatlarında Azərbaycana dair yer alan qərəzli və haqsız iradlara cavab verməyə səy göstərmişik. Çünki bu cür hesabatları hazırlayanlar obyektivlikdən o qədər uzaqlaşırlar ki, dünyəvi quruluşa malik olan, heç bir dinə və dini inanca üstünlük tanımayan, tolerant və multikultural tarixi ənənələri ilə seçilən ölkəmizi şəri hökmlərin icra olunduğu, xristian təbliğatının qadağan olunduğu, missionerlərin qətlə yetirildiyi, kilsə zənglərinin belə eşidilmədiyi bəzi müsəlman dövlətləri ilə eyni sıraya qoyaraq Azərbaycanı xristianların təqib olunduğu ölkələr sıyahısına daxil edir, xüsusən protestantların təqiblərlə üzləşdiyini bildirirlər. Təbii ki, bu absurd iddiaların heç bir əsası yoxdur.

Azərbaycanda xristianlar nəinki təqib edilmir, əksinə, ölkə qanunvericiliyində qeyri-müsəlman icmaların spesifikası nəzərə alınaraq, onlara daha çox güzəşt verilib. Məsələn, “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa görə, müsəlman dini icmaları yalnız bir mərkəzə - Qafqaz Müsəlmanları İdarəsinə tabe olduqları təqdirdə, qeyri-İslam dini icmalarına istədikləri dini mərkəzə tabe olmaq və tabeçiliyini dəyişdirmək hüququ tanınıb. Bununla yanaşı, İslam dininə aid ayin və mərasimlərin aparılması yalnız Azərbaycanda dini təhsil almış şəxslər tərəfindən həyata keçirilə biləcəyi halda, qeyri-müsəlman dini icmalarında ibadətlər xaricdə dini təhsil almış şəxslər tərəfindən yerinə yetirilə bilər.

Ölkəmizdə yaşayan xristian dini icmalarına dövlət tərəfindən maliyyə yardımının ayrılması, kilsələrə, xristian dua evlərinə illik limit daxilində əvəzsiz olaraq təbii qaz verilməsi də bariz şəkildə onu göstərir ki, əhalisinin mütləq əksəriyyəti müsəlmanlardan ibarət olsa da, Azərbaycan dövləti ayrı-seçkilik siyasəti aparmır, hər kəsə bərabər hüquqlar tanıyır və etiqadi mənsubiyyətindən asılı olmadan bütün dini təşkilatlara fəaliyyətlərində dəstək verir.

Azərbaycanda xristianların azad və bərabər şəraitdə yaşadıqlarına dair çox misallar göstərmək olar. Belə ki, respublikamızın paytaxtını məscidlərlə yanaşı, rus və katolik kilsələri bəzəyir, şəhərin küçələrindən kilsə zənglərinin sədaları gəlir, Bakının ən gözəgəlimli yerində yerləşən katolik məbədində əcnəbi və yerli katoliklər birgə ibadət edir, pravoslav, katolik və protestantlar böyük coşqu və həyəcanla dini bayramlarını keçirirlər. Bazar günləri isə pravoslav və katoliklərlə yanaşı, molokanlar, adventistlər, baptistlər, yehovaçılar, əllincilər, xarizmatlar öz ibadət yerlərində toplaşaraq Rəbbə həmdü-sənalar edirlər. Bununla yanaşı, dövlət tərəfindən alman lüteran kilsələri bərpa edilir, xristian dini icmalarına maliyyə yardımı ayrılır, bir sözlə, müasir Azərbaycanda xristianların dini tələbatının ödənilməsi üçün tam şərait yaradılır. Əgər hesabatlarda deyildiyi kimi, ölkəmizdəki xristianların, xüsusən protestantların vəziyyəti doğrudan da çox acınacaqlıdırsa, onda nə üçün Azərbaycandakı müxətlif xristian konfessiyaların liderləri həmin hesabatları tənqid atəşinə tutaraq ortaq etiraz bəyanatları ilə çıxış edirlər?

Burada "Yeni Həyat" dini icmasının sədri Lyudmila İbrahimovanın sözünü xatırlatmaq istərdim. Həmin hesabatlarla bağlı fikir mübadiləsi apararkən xanım pastorun səsləndirdiyi fikir çox önəmlidir. Onun sözü ona görə diqqətəlayiqdir ki, rəhbərlik etdiyi icma gəncdir, mənsub olduğu təriqət isə cəmiyyətimiz üçün yenidir. Buna baxmayaraq, L.İbrahimova azsaylı, yeni xristian hərəkatların ardıcılları üçün yaradılan şəraitdən razı qaldığını dilə gətirmişdir. O, Azərbaycanda xristian azlıqların təqib olunduğu iddiası ilə razılaşmayaraq belə demişdir: *"Azərbaycanda xristianlar*ın təqib olun*du*ğunu necə demək *mümkündür ki, əgər Bakıda, şəhərin düz mərkəzində, kirxada bir neçə xristian icması ibadət edir?"*. L.İbrahimovanın sözlərinə haqq qazandırmamaq mümkün deyil. Həqiqətən də Bakının mərkəzində ucalan keçmiş alman lüteran kilsəsində (indiki kamera və orqan musiqisi

zalı) hər bazar günü lüteran, presviterian, xarizmat kimi müxtəlif protestant məzhəblərin ardıcılları ibadət edirlər.

L.İbrahimovanın sözünün təsdiqi kimi 2016-cı il fevral ayının 21-də kamera və orqan musiqisi zalında "Azərbaycan Bibliya Cəmiyyəti"nin dəstəyi ilə Bibliya bayramının keçirilməsini göstərmək olar. Bu əlamətdar tədbirin keçirilməsinə Alban-Udi dini icması, eləcə də Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası, "Həyat Sözü", "Yeni Həyat", Bakı şəhəri Yeni Apostol Kilsəsi, "Yeddinci Günün Adventistləri" və başqa xristian dini icmaları dəstək verərək orqan və musiqisi zalında Bibliya bayramını keçirmişlər. Olduqca maraqlı keçən bayram tədbirində respublikamızda yaşayan müxtəlif xalqların dilində Müqəddəs Kitabdan parçalar oxunmuş, habelə Bibliya nüsxələrinin sərgisi təşkil olunmuşdur. Təbii ki, belə maraqlı xristian tədbirinin keçirilməsi yalnız ölkəmizdə mövcud olan azad və tolerant şəraiti nəticəsində mümkün olmuşdur.






*Bibliya bayramı. 21 fevral 2016-cı il.*

Azərbaycanda xristianlara göstərilən tolerant münasibətin ən böyük timsalı kimi Bakının düz mərkəzində yerləşən erməni məbədini – "Müqəddəs Maarifləndirici Qriqori" kilsəsini (1863 və ya 1869-cu ildə tikilib. Bəzi mənbələrə əsasən, 1887-ci ildə inşa olunub. Memarı Karl Qustav Qippiusdur) göstərmək olar. Sual yarana bilər ki, nə üçün məhz bu kilsə? Cavab sadədir: erməni şovinistlərin etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalan Azərbaycan xalqı erməni təcavüzünün yaşatdırdığı bütün acılara baxmayaraq, düşmənin dini etiqadına hörmət bəslədi və Bakının ən gözəl yerində ucalan erməni kilsəsinə toxunmadı. Halbuki başqa cür davranmağa kifayət qədər səbəbi vardı. Məsələn, erməni vandalları işğal olunmuş torpaqlarımızda dini-mədəni abidələrimizi məhv etdilər. Yaxud erməni kilsəsinin özü də xalqımızın taleyində mənfi rol oynadı. Sirr deyildir ki, erməni keşişləri Xristianlığın insanpərvər dəyərlərinə xilaf çıxaraq Dağlıq Qarabağ münaqişəsi zamanı erməni separatçılarına hər cür dəstək verdilər, Uca Yaradana ibadət üçün nəzərdə tutulan ibadətgahları silah ambarına çevirdilər. Qısası, erməni daşnaklarını ilhamlandıran məhz erməni qriqoryan kilsəsi oldu. Təsadüdi deyildir ki, erməni kilsəsi Azərbaycan xalqının təsəvvüründə ancaq erməni separatçılığı və şovinizmi ilə assosiasiya olunur. Buna baxmayaraq, xalqımız

yüksək tolerantlıq mədəniyyəti nümayiş etdirərək Bakıdakı erməni kilsəsinə əl dəymədi. Əksinə, bu erməni məbədi dövlət tərəfindən qorunaraq bərpa edildi. Hazırda həmin binada 5000 kitab və əlyazma qorunub saxlanılır. Onu da qeyd edək ki, 2010-cu ildə Rus Pravoslav Kilsəsinin patriarxı Kirill və erməni kilsəsinin başçısı II Qaragen keçmiş erməni kilsəsini ziyarət edərək burada dualar oxumuşlar.



*Bakıda keçmiş erməni məbədinin binası*

Lakin Bakıda ermənilərdən qalan dini tikili təkcə "Müqəddəs Maarifləndirici Qriqori" kilsəsi deyildir. Günümüzədək qorunub saxlanılan keçmiş erməni məbədlərindən biri də „Kapellhaus" Alman-Azərbaycan Mədəniyyət Birliyinin yerləşdiyi binadır. Lakin həmin bina erməni qriqoryan kilsəsinin mənsubları tərəfindən deyil, erməni lüteranları tərəfindən ucaldılıb. Belə ki, çar Rusiyası dövründə 1881-ci ildə Bakıdakı Alman-İsveç lüteran dini icmasının üzvləri arasında ermənilər də olub. Daha sonra almanlarla yola getməyən erməni lüteranları 1881-ci ildə öz icmalarını təsis edir. Erməni lüteran dini icmasının pastoru Osip Torosyants olur. 1908-ci

ildə (digər məlumatlara görə, 1912-1915-ci illərdə) erməni lüteranları Alman-İsveç lüteran dini icmasına məxsus torpaq ərazisində alman lüteran kilsəsinin düz yanında dua evi inşa edirlər. Həmin dua evində dini məktəb də fəaliyyət göstərirdi. Sovet hakimiyyəti qurulandan sonra erməni lüteran dua evi bağlanılır və onun binasında uşaq bağçası açılır. Hazırda "Kapelxaus" (alman dilində "kiçik kilsənin yanında ev" deməkdir) adı ilə tanınan bu binada Alman-Azərbaycan Mədəniyyət İctimai Birliyi tərəfindən alman mədəniyyətini təbliğ edən müxtəlif tədbirlər həyata keçirilir.



*İndiki "Kapelxaus"-un binası*

Kitabı bitirməmişdən əvvəl bir məsələni də qeyd etməyə zərurər var. Əgər fikir verdinizsə, kitabda erməni kilsəsi ilə bağlı ayrıca bölüm verilməmişdir. Bu məlumat əsərində yer alan sxem, cədvəl və qrafiklərdə də sözügedən kilsə mənsubları ilə bağlı hər hansı məlumat göstərilməmişdir. Buna baxmayaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2009-cu il üzrə məlumatına əsasən, ölkə ərazisində təqribən 120 mindən yuxarı erməninin yaşadığı bilinir. Onların əksər hissəsi Ermənistan Silahlı

Qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında məskunlaşıb. Və bəzi tədqiqatçılar bu statistik rəqəmləri əsas gətirərək belə iddia irəli sürə bilərlər ki, kifayət qədər mənsubu olan bir dini təşkilat haqda kitabda bəhs olunmamaqla böyük nöqsana yol verilmişdir. Bu cür tənqidləri əvvəlcədən sezərək onu deyək ki, kitab hazırlanarkən yalnız Azərbaycan dövlətinin nəzarətindəki ərazilərdə fəaliyyət göstərən xristian dini təşkilatları barədə məlumat vermək məqsədi güdülmüşdür. Erməni kilsəsinin fəaliyyət sahəsi təkcə işğal olunmuş torpaqlarımızla məhdudlaşdığı üçün həmin dini təşkilatla bağlı dolğun və obyektiv informasiya əldə etmək qeyri-mümkündür. İnanırıq ki, işğal altında olan əzəli torpaqlarımız erməni qəsbkarlarından tezliklə azad olunduqdan sonra Dağlıq Qarabağda dini situasiyanı işıqlandırmaq imkanı qazanacağıq.

Kitabın metod və məramı haqda bu qədər... Ümid edirik ki, bu kitab oxucuda Azərbaycandakı xristian konfessiya və təşkilatları barədə geniş təsəvvürün yaranmasına işıq tutacaq. Düzdü, ölkəmizdə İsa Məsihə pərəstiş göstərənlər, onun insanpərvər təliminin ardınca gedənlər barədə bütün məlumatları bir kitabda sığdırmaq mümkün deyil, çünki respublikamızda Xrtistianlıq olduqca rəngarəng mənzərəyə malikdir, yeni xristian icmaları və birlikləri meydana gəlir, müasir Azərbaycanda Xristianlıq yeni formada inkişaf edir. Xüsusən ev kilsələrinin, xarizmat təriqətlərin, denominasiyasız məsihçi qrupların, əllincilərin, yehovaçıların fəaliyyəti daha çox diqqət çəkir. Və belə görünür ki, gələcəkdə Xristianlıq məhz bu yeni dini cərəyanlar şəklində uğur qazanacaqdır. Təbii ki, cərəyan edən bütün bu proseslər daim məlumatların yenilənməsini, yeni tədqiqatların ortaya qoyulmasını tələb edir. Ümidvaram ki, bu kitab gələcəkdəki fundamental tədqiqatlar üçün bir növ mayak rolunu oynayacaqdır.

Sonda kitabın ərsəyə gəlməsində göstərilən dəstək üçün başda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı olmaqla, zəhməti keçən hər şəxsə dərin minnətdarlığımı bildirirəm. Ölkəmizdəki müxtəlif xristian konfessiya və dini icmaların rəhbərlərinin, sədr və din xadimlərinin yardımı olmasaydı, kitab bu qədər dolğun olmayacaqdı. Eyni zamanda, Slavyanka kəndində tədqiqatın aparılması üçün yaradılan şərait üçün Gədəbəy Rayonu İcra Hakimiyyətinə, həmin kəndin bələdiyyəsinə, eləcə də göstərilən kömək üçün Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin əməkdaşlarına təşəkkür edirəm.

# XRONOLOGİYA

*I əsr - Qüds və Suriyadan Qafqaz Albaniyasına ilk xristian missionerlərin gəlməsi; Müqəddəs Yelisey tərəfindən Qis (Kiş) kəndində kilsəni təsis olunması*

*IV əsr - Maarifçi Qriqorinin fəaliyyəti*

*313-cü il - Qafqaz Albaniyasında Urnayr tərəfindən Xristianlığın dövlət dini elan edilməsi*

*340-cı il - Alban Kilsəsinin avtokefal olması*

*487-488-ci illər - Aquen Kilsə Məclisinin keçirilməsi*

*IV əsr - Alban katolikoslarından biri olan Müqəddəs Qriqoris tərəfindən Amaras monastırının əsasının qoyulması*

*V əsr - Alban Həvvari Kilsəsinin başçılarına“Katolikos-Arxiyepiskop, Patriarx” titulu verilir*

*551-ci il - Alban Apostol Kilsəsinin başçıları “Albaniya, Lpiniya və Çolanın katolikosu” (“Albaniya və Balasakananın böyük katolikosu”) titulunu daşımağa başlayırlar*

*705-ci il - Partav (Bərdə) Kilsə Məclisinin keçirilməsi*

*1216-1238-ci illər - alban knyazı Həsən Cəlal Dövlə tərəfindən Gəncəsər məbədinin tikilməsi*

*1289-1290-cı illər - Təbriz şəhərinə dominikan və fransiskanların gəlməsi*

*XIII-XIV əsr - Şərqi Tatariya vikariatlığının Təbriz kustodiyasının təsis olunması*

*1 aprel 1318-ci il – Roma Papası XXII İohannın “Redemptor noster” adlı bullası ilə Sultaniyyədə (Cənubi Azərbaycanda şəhər) arxiyepiskopluğun yaradılması*

*1320-ci il - Bakı və Şimali Azərbaycanın başqa şəhərlərinə fransız katolik*

*missioneri Jurden Katali de Severakın baş çəkməsi*

*XIV əsr - Bakı, Şamaxı, Gəncə və Naxçıvanda katolik missiyaların, monastır və məktəblərin təsis olunması*

*1350-ci il (və ya 1356) – Naxçıvan katolik yepiskopluğunun yaradılması*

*1349 – Cənubi Azərbaycan şəhəri Dəxikeranda katolik yepiskopluğunun bağlanması*

*1374 və ya 1384-cu il – Marağa şəhərində katolik yepiskopluğunun sonu*

*1425-ci il - Sultaniyyə arxiyepiskopluğunun süqutu*

*1476-cı il - Təbriz yeparxiyasının sonu*

*XV əsr –Sultaniyyə katolik arxiyepiskopluğunun Naxçıvana köçürülməsi*

*1511-1836-cı illər - Gəncəsər monastırının alban katolikoslarının iqamətgahı olması*

*1573-1747-ci illər - Səfəvilər dövlətində avqustinlərin fəaliyyəti*

*1604-1775-ci illər - Səfəvilər imperiyasında karmelitlərin fəaliyyəti*

*1628-1765-cı illər – Səfəvilərin dövründə kaputsinlərin fəaliyyəti*

*1653-1760-cı illər – Səfəvilər vaxtı yezuitlərin fəaliyyəti*

*1677-1764-cü illər – Səfəvilər imperiyası dövründə dominikanların fəaliyyəti*

*1680-cı il – Gəncədə polyak yezuit missiyasının təsis olunması*

*1746-cı il – Naxçıvan katolik arxiyepiskopluğunun sonu*

*1815-ci il – Azərbaycanda (Bakı) ilk rus pravoslav məbədinin – "Möcüzə göstərən Nikolay Kilsəsi"nin tikilməsi*

*1818-ci il – Vürtemberqli almanların Şimali Azərbaycana gəlməsi*

*1819-cu il –Alman məskənlərinin - Yelenendorf (indiki Göygöl) və Annenfeldin (indiki Şəmkir) salınması*

*1821-ci il - “Şotlandiya Missioner Cəmiyyəti”nin iki presviterian təbliğatçısının Quba və Şamaxıya gələrək azərbaycanlılar arasında təbliğat aparması*

*XIX əsrin 20-ci illəri – Yelenendorfda lüteran dua evinin açılması*

*1821-1822-ci illər – İlk Bazel missionerlərin (Avqust Ditrix və qraf Felitsian Zaremba) Azərbaycana gəlmələri, onlar tərəfindən Şuşada missioner məktəbi və mətbəənin açılması*

*1823-cü il - görkəmli azərbaycanlı şərqşünas Mirzə Kazımbəyın şotlandiyalı missionerlər tərəfindən presviterian ayinlərinə uyğun olaraq xaç suyuna salınması*

*11 mart 1836-cı il – rus imperatoru I Nikolay tərəfindən Alban Katolikosluğunun ləğv olunması*

*1841-ci il – “Bazel Yevangelist Missioner Cəmiyyəti” tərəfindən Londonda ilk dəfə Azərbaycan dilində Bibliya mətninin - Matfeydən nəql olunan İncilin nəşr edilməsi*

*28 oktyabr 1857-ci il – Bakıda ilk rus pravoslav soborunun (“Müqəddəs Möcüzə göstərən Nikolay” Baş kilsəsi) tikilməsi*

*XIX əsr – çar Rusiyası tərəfindən Şimali Azərbaycana etiqadca katolik olan polyak əsirlərin, əsgərlərin göndərilməsi*

*XIX-cu əsrin 40-cı illəri – Bakıda “Mixail Arxangel” rus pravoslav kilsəsinin tikilməsi*

*XIX əsrin 40-50-ci illəri - Bakı quberniyasının Lənkəran və Şamaxı qəzasında “vodniye molokane” təriqətinin yaranması*

*1832-ci il – molokanların Qarabağ qəzasının Vərəndə mahalında məskunlaşması*

*1834-cü il - Bakı quberniyasında Altıağacda ilk molokan yaşayış məskəninin əsasının qoyulması*

*1840-1850-ci illər – Xilmilli kəndində (Qobustan rayonunda yerləşir)*

*“Nazareylər” (“Nəsranilər”) molokan təriqətinin meydana gəlməsi*

*1842-ci il - Yelenendorfda kilsə-prixod məktəbinin binasının tikilməsi*

*1844-cü il – Şimali Azərbaycanda duxoborların yaşayış məskəni olan Slavyanka kəndinin əsasının qoyulması*

*1857-ci il – Şəmkirdə “Müqəddəs İohann” kilsəsinin açılması*

*9 iyul 1860-cı il - “Qafqazda pravoslav xristianlığının bərpası cəmiyyəti”*

*1867-ci il – udinlərin rus çarına etiraz məktubu yazaraq erməni qriqoryan keşişlərinin ixtiyarına verilən öz qədim məbədlərində belə toplaşmaqdan imtina etməsi*

*31 oktyabr 1871-ci il – Azərbaycanda baptizmi yaradan V.V.İvanovun Tiflis şəhərində Kür çayında vəftiz olunması*

*XIX əsrin 70-ci illərin əvvəli – Azərbaycanda (Gədəbəy rayonunun Novoivanovka kəndi) ilk baptist icmasının yaranması*

*XIX əsrin 70-ci illəri – Bakı şəhərində Alman-İsveç yevangelist lüteran prixodunun təşəkkül tapması*

*1873-cü il – məşhur rus baptisti V.V.İvanovun Azərbaycanın bölgələri üzrə ilk missioner səfəri*

*1876-cı il – məşhur rus baptisti V.Q. Pavlovun Azərbaycanın müxtəlif yerlərində ilk dəfə dini təbliğat aparması*

*1880-ci il - Bakı şəhəri Yevangelik Lüteran prixodunun təşəkkül tapması*

*1870-80-ci illər – Azərbaycanda qərbli baptist missionerlərin təbliğat aparması*

*1880-1890-cı illər – çar Rusiyası tərəfindən Gəncə və Azərbaycanın başqa yerlərinə baptistlərin sürgünə göndərilməsi*

*1892-ci il – Bakıda rus baptist icmasının yaranması*

*1895-1899-cu illər –Azərbaycanda baptizmin əsasını qoyan V.V.İvanovun*

*çar hakimiyyəti tərəfindən sürgünə göndərilməsi*

*1885-ci il - Gəncə şəhərində lüteran kilsəsinin tikilməsi*

*1887-ci il - Gəncə şəhərində "Aleksandr Nevski" Baş kilsəsinin tikilməsi*

*1888-ci il - Georqsfeld koloniyasının (indiki Şəmkir rayonu, Çinarlı qəs.) əsasının qoyulması*

*1888-ci il - Qax rayonunun Qaxingiloy kəndində "Müqəddəs Georgi" gürcü pravoslav kilsəsinin inşası*

*1888-ci il - Qax rayonunun Əlibəyli kəndində "Müqəddəs Nino" gürcü pravoslav kilsəsinin tikilməsi*

*1888-1898-ci illər – Bakıda "Müqəddəs Aleksandr Nevski" Baş kilsəsinin ucaldılması*

*1892-1894-cü illər - Qax rayonunun Kötüklü kəndində "Müqəddəs Sameba" gürcü-pravoslav kilsəsinin tikilməsi*

*1892-1894-cü illər - Qax rayonunun Meşəbaş kəndində "Müqəddəs Mixeyil" gürcü-pravoslav kilsəsinin tikilməsi*

*1892-ci il – Qız qalası yaxınlığında "Müqəddəs Varfolomey" rus pravoslav kilsəsinin inşa olunması*

*1894-cü il - Azərbaycana ilk adventist missionerin (Yakov Kleyn) gəlməsi*

*1896—1899-cu illər – Bakının mərkəzində memar A.Eyxlerin layihəsi əsasında "Xilaskar" yevangelik lüteran kilsəsinin tikilməsi*

*1902-ci il - Azərbaycanda ilk adventist icmasının (Şuşa şəhəri) yaranması*

*23 may 1902-ci il - "Kilsə nəğmələrini sevənlər Bakı Kiril-Mefodi Qardaşlığı"nın açılması*

*1903-cü il - Bakıda "Roma Katolik Xeyriyyə Cəmiyyəti"nin təsis olunması*

*1903-cü il – Bakıda "Açıq ev - Polyak katolik cəmiyyəti"nin yaradılması*

*1904-cü il - Bakı quberniyasında Rus Pravoslav Kilsəsinin iki blaqoçinniyə bölünməsi*

*1904-cü il – Bakının Nikolay (indiki İstiqlaliyyət) küçəsində katolik prixodun birsinifli dördillik məktəbinin açılması*

*19 may 1905-ci il - Gürcüstan ekzarxatlığının Kartalin və Kaxetiya Yeparxiyasının nəzdində Bakı vikariatlığının yaradılması*

*1906-cı il - Qrinfeld (indiki Ağstafa rayonunun Vurğun qəsəbəsi) və Eyqenfeld (indiki Şəmkir rayonunun İrmaşlı kəndi) alman məskəninin əsasının qoyulması*

*1909-1910-cu illər – Albert Ozolun Azərbaycanda missioner fəaliyyəti*

*1909-cu il - Annenfelddə (Göygöl) memar F.A.Lemkulun layihəsi əsasında lüteran kilsəsinin ucaldılması*

*1909-cu il – Bakıda "Müqəddəs Jen-Mironosets"rus pravoslav kafedral kilsəsinin (keçmiş "Müqəddəs Mixail Arxistratiq" kilsəsi) inşası*

*1909-cu il – Füzulidə yeddinci günün adventistlərinin dini icmasının yaranması*

*1910-cu il – Bakıda yeddinci günün adventistlərinin dini icmasının yaranması*

*25 dekabr 1911-ci il – Bakıda baptist dua evinin açılması*

*1912-ci il - Traubenfeld (indiki Tovuz şəhəri) alman məskəninin yaranması*

*1912-ci il – Bakı şəhərində "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" katolik kostyolunun tikilməsi*

*1914-cu il - Bakıdakı baptist rus icmasının çar hakimiyyəti tərəfindən rəsmən tanınması*

*1914-ci il – Rus-Ukrayna baptistlərinin rəsmi mətbu orqanı olan "Baptist" jurnalının Bakıda nəşr olunması*

*1914-cü il - Yelizavetinka (indiki Ağstafa ş.) alman məskəninin əsasının qoyulması*

*1917-ci il - Yelizavetpol vikariatlığının yaradılması*

*1917-ci il – Bakı şəhərində Vıborq kilsəsinə aid olan “vəhdətçi” əllincilər icmasının meydana gəlməsi*

*XX əsrin 20-ci illəri - Gəncədə adventist icmanın yaranması*

*1923-cü il - Yeniləşdirmə Kilsəsinin Zaqafqaziya Mitropolit dairəsinin nəzdində Bakı yeparxiyasının açılması*

*1926-cı il - “Müqəddəs Məryəm Ananın Mövludu” rus pravoslav kilsəsinin inşası*

*XX əsrin 30-cu illəri –Sovet hakimiyyəti dövründə ölkəmizdə lüteran məbədlərin bağlanması*

*1931-ci il - Yelenendorfun pastoru Vensel və Annenfeldin pastoru Royşun həbsi*

*1932-ci il - Odessadan Bakıya ilk Yevangelik İmanlı Xristianların - “voronayevçilər”in gəlməsi*

*XX əsrin 30-cu illəri – Bakı və Salyanda yevangelik imanlı xristianların (əllincilərin) ilk dini icmalarının yaranması*

*1934-cü il - “Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi” kilsəsinin bolşeviklər tərəfindən partladılması*

*1936-cı il – Bakıda “Aleksandr Nevski” Baş kilsəsi və Qız qalasının yanındakı “Müqəddəs Varfolomey” rus pravoslav sövməəsinin bolşeviklər tərəfindən dağıdılması*

*1936-cı il - Yelenendorfun sonuncu pastoru Otto Venselin həbsi*

*2 noyabr 1937-ci il - Bakıdakı “Müqəddəs Məryəm Ananın Mövludu” rus pravoslav kilsəsinin baş keşişi İohann İlyiç Qançevin güllələnməsi*

*1937-ci il - Annenfeldin sonuncu pastoru Emil Royşun tutularaq güllələnməsi*

*1937-ci il - Bakı kirxasının pastoru Paul Hamberqin repressiyaya məruz qalması*

*1946-cı il - Xaçmaz şəhərində "Müqəddəs möcüzə göstərən Nikolay kilsəsi"nin açılması*

*1954-cü il – baptist icmasının Bakı şəhəri, 12-ci Naqornaya küçəsi, ev 7-də (Nərimanov rayonu, 1-ci Cıdır döngəsi, ev 13) ünvanında dua evi açması*

*1955-ci il – Bakıda rus çarı I Aleksandr tərəfindən molokanlara dini azadlığın verilməsinin 150 illiyinə həsr olunmuş qurultayın keçirilməsi*

*XX əsrin 60-cı illəri - Xaçmaz və Tərtərdə adventist icmaların yaranması*

*1961-ci il - Bakı şəhəri Yevangelik Xristian - Baptist dini icmasının dövlət qeydiyyatına alınması*

*1965-ci il – Azərbaycandakı baptistlərin loyal və "təşəbbüskarlar" qrupuna parçalanması*

*1968-ci il –yeddinci günün adventistləri tərəfindən Bakı şəhəri, Nərimanov rayonu, Yaşar Əliyev küçəsi, 27 (indiki 3-cü İppodrom küçəsi, ev 27) ünvanında dua evinin açılması*

*1969-cu il - Yeddinci Günün Adventistləri Kilsəsi dini icmasının dövlət qeydiyyatına alınması*

*XX əsrin 60-cı illəri – ilk azərbaycanlı adventist Mövsüm Rəhimovun adventizmə keçməsi*

*1991-ci il - Azərbaycanda "Greater Grace World Outreach" dini təşkilatının fəaliyyətə başlaması*

*1992-ci il – "Yeni Apostol Kilsəsi" dini icmasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçməsi*

*1993-cü il - Ədliyyə Nazirliyində Bakı şəhəri Yevangelik Lüteran dini icmasının qeydiyyata alınması*

*10 noyabr 1993-cü il - Ədliyyə Nazirliyində "Şərqdə Ulduz" dini icmasının dövlət qeydiyyatına alınması*

*XX əsrin 90-cı illərin əvvəli – ilk azərbaycandilli baptist icmasının*

*("Aqape"dini icması) yaradılması*

*1994-cü il - "Həyat Sözü" ("Word Of Life İnternational") beynəlxalq dini təşkilatın Azərbaydanda fəaliyyətə başlaması*

*1998-ci il - "Baku İnternational Fellowship"-in təsis olunması*

*28 dekabr 1998-ci il - Müqəddəs Sinodun qərarı ilə Bakı və Xəzəryanı Yeparxiyanın fəaliyyətinin bərpa edilməsi*

*2 aprel 1999-cu il - Ədliyyə Nazirliyində Bakı şəhəri Roma Katolik dini icmasının dövlət qeydiyyatına alınması*

*14 may 1999-cu il - Bakı şəhəri Yevangelik Lüteran dini icmasında Lüteran Kilsəsinin ölkəmizdəki yüz illlik yubileyininin qeyd olunması*

*1999-cu il - Ədliyyə Nazirliyində "Mədh Kilsəsi" ("Həyat Sözü") dini icmasının dövlət qeydiyyatına alınması*

*1999-cu il - "Yeni Həyat" Xristian incil dini icmasının yaranması*

*1999-cu il – Bakı şəhəri "Yeni Apostol Kilsəsi" dini icmasının dua evinin açılması*

*1999-cu il - Ədliyyə Nazirliyində İncilə iman edən məsihçilərin "Nehemiya" dini icmasının dövlət qeydiyyatına alınması*

*2000-ci il – Bakıda "Şəfaətçi İsa Məsih" kiçik katolik kilsəsinin açılması*

*2000-ci il - Rus Pravoslav Kilsəsinin Yubiley Arxiyerey Məclisi tərəfindən Rusiyanın 20-ci əsrdəki Yeni Əzabkeşləri və Şəhidləri sırasına Bakılı Müqəddəs Əzabkeş İohannın adının daxil edilməsi*

*11 oktyabr 2000-ci il - Xalqların İncilləşdirilməsi Konqreqasiyası "Don Bosko" salezianlar ordeninə Azərbaycandakı katolik missiyasına rəhbərlik etməyi tapşırır*

*2001-ci il – Bakıda presviterian dini icmasının yaranması*

*2001-ci il – Yeddinci Günün Adventistləri Kilsəsi tərəfindən Azərbaycan Missiyasının təsis olunması*

*25-28 may 2001-ci il – Moskva və bütün Rusiyanın Patriarxı II Aleksinin ölkəmizə birinci səfəri*

*28 may 2001-ci il – Ulu Öndər Heydər Əliyev və Patriarx II Aleksinin görüşü*

*31 yanvar 2002-ci il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Bakı şəhəri Roma Katolik dini icmasının dövlət qeydiyyatına alınması*

*2002-ci il - Bakı şəhəri Yeni Apostol Kilsəsi dini icmasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınması*

*2002-ci il - Bakı şəhəri Yevangelik-Xristian Baptist dini icmasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatına alınması*

*2002-ci il – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Bakı şəhəri "Şərqdə Ulduz" dini icmasının dövlət qeydiyyatına alınması*

*2002-ci il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində İncilə iman edən məsihçilərin "Nehemiya" dini icmasının dövlət qeydiyyatına alınması*

*22 may 2002-ci il – Ulu Öndər Heydər Əliyevin dəvəti ilə Roma Papası II İoann Pavelin Azərbaycana səfəri*

*2005-ci il - molokanların Azərbaycana köçürülməsinin iki yüz illiyinin təntənəli surətdə qeyd olunması*

*14-15 sentyabr 2005-ci il - Moskva və bütün Rusiyanın Patriarxı II Aleksinin ölkəmizə ikinci səfəri*

*14 sentyabr 2005-ci il – dövlət başçısı İlham Əliyevin Patriarx II Aleksini ali dövlət mükafatı – "Şöhrət" ördeni ilə təltif etməsi*

*14 sentyabr 2005-ci il – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moskva və bütün Rusiyanın Patriarxı II Aleksi tərəfindən Rus Pravoslav Kilsəsinin ən ali mükafatlarından olan I dərəcəli "Müqəddəs Sergi Radonejski"ordeni ilə təltif edilməsi*

*2 aprel 2006-cı il - Sumqayıt şəhərində "Müqəddəs Serafim Sarovski" dua evinin açılması*

*2006-cı il – Bakıda “Yeni Apostol Kilsəsi” dini icmasının ikinci dua evinin açılması*

*2006-cı il - Bakının Zığ qəsəbəsində “Kəlküttəli Tereza Ana” şəfqət evinin açılması*

*2007-ci ilin fevral ayı – Bakının mərkəzində “Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi” kilsəsinin ucaldılması*

*2008-ci il - Alban-Udi dini icmasının bır sıra üzvünün Qüds (Yerusəlim) Patriarxatlığının xeyir-duasını alaraq Fələstindəki İordan çayında xaç suyuna salınması*

*26 sentyabr 2008-ci il – Heydər Əliyev Fondu ilə ölkəmizdəki katolik icma arasında əməkdaşlıq memorandumunun imzalanması*

*2009-cu il - Bakı şəhəri “Molokan ruhani-xristian” dini icmasının yenidən dövlət qeydiyyatına alınması*

*2009-cu il – Sumqayıt şəhəri “Molokan ruhani-xristian” dini icmasının yenidən dövlət qeydiyyatına alınması*

*12 oktyabr 2009-cu il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası qurumunun dövlət qeydiyyatına alınması*

*6 noyabr 2009-cu il - Moskva və bütün Rusiyanın Patriarxı Kirillin Bakıya birinci səfəri, həmin tarixdə dövlət başçısı İlham Əliyev və Rus Pravoslav Kilsəsinin rəhbəri arasında görüşün keçirilməsi, eləcə də Patriarxın “Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru” mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etməsi*

*25 dekabr 2009-cu il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində “Yeni Həyat” Xristian incil dini icmasının yenidən dövlət qeydiyyatına alınması*

*21 yanvar 2010-cu il - Qobustan rayonu Hilmilli kəndi “Molokan ruhani-xristian” dini icmasının yenidən dövlət qeydiyyatına alınması*

*24-26 aprel 2010-cu il - Moskva və bütün Rusiyanın Patriarxı Kirillin*

*Azərbaycana ikinci səfəri*

*24 aprel 2010-cu il – dövlət başçısı İlham Əliyevin Patriarx Kirili "Şərəf" dövlət ordeni ilə mükafatlandırması; Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Rus Pravoslav Kilsəsinin başçısı tərəfindən 1-ci dərəcəli "Slava i Çest" ordeni ilə təltif edilməsi*

*25 aprel 2010-cu il - Patriarx Kirillin Qafqaz Müsəlmanları İdarəsinin konfrans zalında keçirilən MDB Dinlərarası Şurasının iclasında iştirak etməsi*

*26-27 aprel 2010-cu il - Patriarx Kirillin Dini Liderlərin Ümumdünya sammitində iştirak etməsi*

*14 may 2010-cu il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində "Xilaskar" Yevangelik Lüteranların Bakı dini icmasının yenidən dövlət qeydiyyatına alınması*

*22 mart 2011-ci il - Bakı və Azərbaycan Yeparxiyasının təsis olunması*

*2011-ci il - "Azərbaycan Respublikası və Müqəddəs Taxt-tac arasında Katolik kilsəsinin Azərbaycan Respublikasında hüquqi statusu haqqında" Beynəlxalq Sazişin imzalanması*

*7 iyul 2011-ci il - "Roma-Katolik Kilsəsinin Apostol Prefekturası" dini qurumunun dövlət qeydiyyatına alınması*

*4 avqust 2011-ci il - XVI Benedikt tərəfindən V.Feketenin Papa Bullası ilə apostol prefekti vəzifəsinə təyin olunması*

*2011-ci il - Oğuz şəhəri Alban-Udi Xristian dini icmasının dövlət qeydiyyatından keçməsi*

*14 iyul 2013-cü il - Alban-Udi dini icmasında 80 ildən artıq unudulan vəftiz ənənəsinin yenidən dirçəldilməsi*

*3 avqust 2013-cü il - Alban-Udi kilsəsinin dirçəlişinin 10 illiyinə və Qafqaz Albaniyasında Xristianlığın rəsmi din kimi qəbul edilməsinin 1700 illiyinə həsr olunmuş bayram mərasiminin keçirilməsi.*

*15 noyabr 2013-cü il - Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini – Mədəniyyət Mərkəzinin açılması*

*13 dekabr 2014-cü il - respublikamızda yaşayan adventistlər tərəfindən Azərbaycandakı adventizmin 120 illik yubileyininin qeyd olunması*

*2015-ci il – ilk dəfə Martin Lüterin "Kiçik Katexizisi"nin Azərbaycan dilində nəşr olunması*

*23 may 2015-ci il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Bakı şəhəri "Həyat sözü" Xristian dini icmasının dövlət qeydiyyatına alınması*

*13 noyabr 2015-ci il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmasının dövlət qeydiyyatına alınması*

*13 noyabr 2015-ci il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində İsmayıllı rayonu İvanovka kəndi "Molokan-ruhani-xristian" dini icmasının dövlət qeydiyyatına alınması*

*13 dekabr 2015-ci il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində "Həyat Sözü - 2" Sumqayıt xristian dini icmasının dövlət qeydiyyatına alınması*

*30 avqust 2016-cı il - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200-cü ildönümünün layiqincə qarşılanmasını təmin etmək məqsədi ilə Sərəncam verməsi*

*9 sentyabr 2016-cı il - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Bakı şəhəri Nərimanov rayonu "Yeddinci Günün Adventistləri" dini icması yenidən dövlət qeydiyyatına alındı*

**Əlavə №1**

## Bakı Şəhər Dumasının başçısı S.İ.Despot-Zenoviçin Qafqaz canişini knyaz A.M.Dondukov-Korsakova Bakıda rus kilsəsinin tikintisi ilə bağlı məktubun surəti.



Докладная записка Бак. Гор. Головы 17 Мая 1884 г. г. Баку

По поводу письма Управляющего Бакинскою Контрольною Палатою г. Качурина, адресованнаго имъ на имя Г. Министра Внутреннихъ Делъ, имею честь доложить В. Сиятельству, что оно имеетъ целью лишь выставить въ возможно невыгодномъ светъ преобладание туземнаго элемента въ общественномъ Управлении и затемъ вывести необходимость притупления этого элемента, помимо его подчинения элементу русскому, [illegible] которого въ Баку, по письму г. Качурина, определяется въ [illegible] числа. Поводомъ къ этому послужилъ вопросъ объ отводе места подъ предполагаемый Православный —

Его Сиятельству

Г. Главноначальствующему Гражданскою частью на Кавказе Генералъ Адъютанту Князю А. М. Дондукову Корсакову

ный Соборъ, вызвавшій собою печальныя недоразуменія и многія затрудненія, когда возраженія объ этомъ при разсмотреніи этого вопроса, въ бытность здесь, и Высокопреосвященный Экзархъ Грузіи, убедившійся въ томъ, что неудобно достраивать чужую недоделку, если скорее обойтись безъ этого.

Г. Кочуринъ говоритъ, что Духов. отношеніе весьма ранодо къ мысли о постройке Православнаго Собора и недозволило отвести предполагаемое место, а предполагало ставить Соборъ на окраине города. Непроницаемымъ такимъ образомъ, хочется характеръ какихъ-то неприязненныхъ будто бы отношеній духовнаго ведомства къ состоявшемуся решенію, что и нужно было г. Кочурину, чтобъ придать больше веса своему письму. Въ действительности же все это было не такъ, что и подтверждается представленіемъ при

Этимъ копію журнала Думы по вопросу объ отводѣ мѣста подъ Соборъ. Изъ журнала этого, а равно изъ конфиденціальнаго письма моего къ бывшему Губернатору Генералу Рыкову видно, что мусульманское кладбище не можетъ быть отведено подъ постройку Собора ~~все~~ собственно въ виду 916 и 931 ст. т. XIII уст. Медиц. Полиц., что подъ Соборъ указано было нѣсколько мѣстъ и между прочимъ такое, расширеніе котораго сопряжено съ весьма значительными расходами по отчужденію частной собственности, окружающей его и что Дума отнеслась весьма сочувственно къ сооруженію въ г. Баку Собора. Да иначе не могло и быть, такъ какъ мѣстное почетное мусульманское населеніе совсѣмъ не фанатично; оно имѣетъ образцами въ церкви, въ складѣ артиллерійскихъ ~~складовъ~~ припасовъ и это никогда не возбуждало въ немъ какихъ либо протестовъ; молебное поклоненіе образамъ висѣть съ рук-

скимъ въ духовной семинаріи, въ город-
скихъ народныхъ школахъ и въ Маріупол-
номъ краѣ. И не смотря на это,
среди русскаго населенія являются
отдѣльныя личности, которыя по-
днимаютъ такіе щекотливые вопросы,
способные при обсужденіи вызвать дѣй-
ствительно религіозныя недоразумѣнія,
повредивъ мирному ходу прогресси-
рующаго развитія мѣстныхъ мусуль-
манъ. И чѣмъ можетъ быть оправдано
намѣреніе произвесть весьма значи-
тельный по численности классъ, лишивъ
его права свободнаго участія въ разрѣ-
шеніи вопросовъ городскаго хозяйства?
Очевидно, никакъ до тѣхъ поръ, пока
не замѣчено никакого злоупотребле-
нія этимъ правомъ. А такого зло-
употребленія до сего времени Казанское
мусульманское населеніе никогда не
обнаруживало. ~~Хотя~~ Хотя въ письмѣ
г. Катурина и приводятся нѣкоторые
факты, но они извращены и форму

не могутъ иметь какого либо значе-
нія. Такъ напримеръ: сверхъ назна-
ченныхъ по Высочайше утвержден-
ному штату на содержаніе полиціи
всего 18314 р.; Дума уже отпускаетъ
еще ежегодно 12393 р. на этотъ пред-
метъ; то же можно сказать отно-
сительно довольствія и квартиръ о не-
[illegible] въ санитарныхъ учрежденіяхъ
города, неопровержимо существованіемъ
специальнаго ассенизаціоннаго Коми-
тета, обязательными постановленіями,
постоянными расходами на благо-
устройство города и содержаніе
его въ чистоте и даже въ состав-
леніи исторіи отвода места подъ Соборъ
имеется указаніе на то, какъ от-
носится Дума къ этимъ вопросамъ:
она постановила [illegible] [illegible]
мощенія площадей, тротуаровъ соб-
ственно въ видахъ гигіеническихъ; это
же касается больницы, что она лишь
недостаточна при отсутствіи воз-

растущей численности населенія,
что и рѣшено устранить постройкою
новой больницы, которая обойдется
до 100/т. р. если городу не будетъ пере-
данъ военный госпиталь. Также уве-
личеніе школъ и всѣ другія граж-
ты, которыхъ не приводимъ о. Кауф-
мана, но существованіе которыхъ,
очевидно, утверждаетъ. О дѣя-
тельности Думы справедливо
судитъ не потому, что она еще не
успѣла сдѣлать, а потому, что
уже ею сдѣлано и при томъ въ
весьма короткій срокъ ея существо-
ванія. Дѣятельность ея по при-
стугъ по народному образованію
вызвала неоднократно Высочай-
шія и Попечителя учебнаго Округа
благодарности, а это немногосущ
уже важную ступень къ прогрессивным
[illegible] [illegible], которые
[illegible] [illegible] [illegible]
[illegible], [illegible] [illegible] городовым

26

положеніемъ, отзывалась всегда и во
всѣмъ [illegible] довѣріе, оказанное
къ ея силамъ и политическому здраво-
мыслію. За оказанную ему милость
оно безконечно благодарно Престолу,
свои верноподданическія чувства
которому, оно также искренно и не-
измѣнно обнаружитъ въ своихъ при
всякомъ представляющемся случаѣ. —
Бакинская Дума, состоящая изъ
разноплеменныхъ членовъ, всегда
готова на пожертвованія, она от-
зывчива на всѣ государственныя
потребности и очень хорошо знаетъ,
что только въ безграничной вѣрно-
подданической преданности Русскому
Престолу и въ братской любви къ
русскому элементу населенія ~~[illegible]~~
Имперіи заключается залогъ ея
благоденствія. —

**Əlavə №2**

**Bakı şəhərində Roma Katolik dua evinin layihəsi. 1863-cü il. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi.**





## Əlavə №3

### Roma Papası XVI Benediktin Azərbaycanda Apostol Prefekturasının yaradılmasına dair «De iuvandis» adlı bullası. 4 avqust 2011-ci il.

The Holy See

BENEDICTUS EPISCOPUS

SERVUS SERVORUM DEI

AD PERPETUAM REI MEMORIAMCONSTITUTIO APOSTOLICA **AZERBAIGIANIENSIS***IN AZERBAIGIANIA PRAEFECTURA APOSTOLICA

CONDITUR AZERBAIGIANIENSIS APPELLANDADe iuvandis omnibus Christifidelibus solliciti, cuncta disponere conamur ut Evangelii nuntius et Domini salutaria beneficia omnia loca contingant et quam efficacissime ad longinquos etiam populos perveniant. Nunc ob oculos Nostros gentes versantur quae in Azerbaigiania commorantur, quibus ob eorum spiritales necessitates opportuna subsidia commodare properamus. Quapropter, favorabili quorum interest habito suffragio, Missionem « sui iuris » Bacuensem ad gradum Praefecturae Apostolicae Azerbaigianiensis appellandae elevamus, quam sollicitis curis Societatis S. Francisci Salesii committimus. Itemque primum Praefectum Apostolicum Azerbaigianiensem Reverendum Dominum nominamus Vladimirum Fekete, S.D.B., cum omnibus iuribus et facultatibus eidem Officio adnexis. Haec omnia ad expedienda ecclesiasticum virum, qui Apostolicae Sedis negotia in Azerbaigiania curat, legamus. Re tandem ad finem perducta, documenta apparentur, quorum sincera exempla ad Congregationem pro Gentium Evangelizatione diligenter mittantur.Hanc denique Apostolicam Nostram Constitutionem nuncet in posterum ratam esse volumus, contrariis quibuslibet rebus non obstantibus.Datum Romae, apud Sanctum Petrum, die quarto mensis Augusti, anno Domini bismillesimo undecimo, Pontificatus Nostri septimo.Tharsicius card. Bertone Secretarius StatusMarcellus Rossetti, Protonot. Apost.

Franciscus Di Felice, Protonot.

Apost.

*A.A.S., vol. CIII (2011), n.9, pp.567-568.© Copyright 2011 - Libreria Editrice Vaticana

â Â Copyright - Libreria Editrice Vaticana

**Əlavə №4**

# AZƏRBAYCANDA XRİSTİAN DİNİ TƏŞKİLATLARIN CƏDVƏLİ

| Loqotip | Ad | Ünvan | İcma və ya qurumun təşəkkül tapma tarixi | Dini icma və ya qurumun respublikamızda ilk dəfə dövlət qeydiyyatına alınma tarixi | Telefon və email | Sayt |
|---|---|---|---|---|---|---|
| | Azərbaycan Respublikasının Alban-Udi Xristian d.i. | Qəbələ r-nu, Nic qəsəbəsi, Alban aftokefal "Çotari" kilsəsi | I-II əsrlər | 2011-ci il | udi@ udi.az | www.udi.az. |
| | Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumu | AZ 1010, Bakı şəhəri, Ş.Əzizbəyov küç, 205 | 1815-ci il. Bakı vikariatlığının təsis olunması - 1905-ci il. | Bərpa olunub - 28 dekabr 1998-ci il<br>Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb – 18.03.2000-ci il | (012) 440-43-52<br>baku@ eparhia.ru | www.baku-eparhia.ru. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumu | Bakı şəhəri, Nərimanov rayonu, Məmməd Araz küçəsi, 69/b1 | XIX əsrin 60-cı illəri | 2011-ci il | (012) 562-22-55<br>priest@ catholic.az | www.catholic.az |
| | Xilaskar Yevangelik Lüteranların Bakı d.i. | Bakı şəhəri, Səbail rayonu, Z.Tağıyev küçəsi, ev 7, mənzil 3 | 1870-ci il | 2002-ci il | (012) 441-29-11 | www.gemeindebaku.jimdo.com |
| | "Yeni Həyat" Xristian incil d.i. | Bakı şəhəri, Badamdar, 1-ci y/mas., Ev 12 \ | 1999-ci il | 2006-ci il | (050) 751-51-52<br>info@ newlifebaku.az | www.newlifebaku.az. |
| | "Həyat sözü" Xristian dini icması | Bakı şəhəri, Xətai r-nu, S.Vəzirov küçəsi, 6 | 1994-ci il | 1999-ci il | (012) 496-57-88<br>(012) 496-57-89<br>(012) 447-01-70<br>church@lob.az | www.wol.az. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Bakı şəhəri Nərimanov rayonu "Yeddinci Günün Adventistləri" dini icması | Bakı şəhəri, 3-cü İppodrom küçəsi, ev 27 | 1910-cu il | 23 sentyabr 1969-cu il | Sdaaz777@ gmail.com | www.bible.az |
| | Bakı Yeni Apostol Kilsəsi dini icması | Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Əli küçəsi, 10 | 1992-ci il | 1992-ci il | (012) 465-83-47 | www.nak.org |
| BAKU INTERNATIONAL Fellowship | "Bakı Beynəlxalq Qardaşlığı" dini icması | - | 1998-ci il | - | office@ bakuchurch.org | www.bakuchurch.org |
| JW | "Yehovanın Şahidləri" | Bakı şəhəri Xətai rayonu, Seyid Əzim Şirvani küçəsi, 20. | Təqribən 1983-cü il | 1999-cu ilin dekabr ayı | LegalContact.Az@ jw. org<br>(051) 433-02-99 | www.jw.org/az |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | İncilə iman edən məsihçilərin “Nehemiya” dini icması | Bakı şəhəri, Xətai rayonu, Əhmədli qəsəbəsi, 9-cu Əhmədli küçəsi, 45 “A” | XX əsrin 90-cı illəri | 1999-cu il | nehemiah.baku@gmail.com<br>nehemiahazebaku@gmail.com<br>(012) 370-47-69<br>(055) 311-71-00 | www.nehemiahazebaku.wixsite.com/azerbaijan |
| | “Şərqdə Ulduz” Xristian incil dini icması | Bakı şəhəri, Nizami rayonu, 8-ci km qəsəbəsi, Şərifli küçəsi, ev. 9/31 | Təqribən XX əsrin 30-cu illəri | 10 noyabr 1993-cü il | pentokostol@mail.ru<br>(012) 421-95-95<br>(050) 310-27-15 | - |
| GREATER GRACE WORLD OUTREACH | “Həyatverici lütf” dini icması | Bakı şəhəri, Nəsimi rayonu, Bəşir Səfər oğlu küçəsi 191, ev 62-64 | 1991-ci il | 21 aprel 1993-cü il | (012) 595-15-49 | www.ggwo.org |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| - | Bakı şəhəri Xristian-Baptist dini icması | Bakı şəhəri, Nərimanov rayonu, 1-ci Cıdır döngəsi, ev 13 | 1892-ci il | 1 yanvar 1946-cı il | - | - |
| - | Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin “Aqape” dini icması | Bakı şəhəri, Nərimanov rayonu, 1-ci Cıdır döngəsi, ev 13 | XX əsrin 90-cı illəri | 1999-cu il | - | - |

## Əlavə №5

### 2009-2015-ci illər ərzində Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsində yenidən dövlət qeydiyyatına alınmış xristian dini icmaların siyahısı

| Şəh. № | Adı | Ünvanı | Qeydiyyat tarixi |
|---|---|---|---|
| 100109 A2-02 | Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası qurumu | Bakı şəh., Ş.Əzizbəyov küç, 205 | 12.10.09 |
| 100109 A2-34 | "Yeni Həyat" Xristian incil d.i. | Bakı ş., 28 May küç., 17 (Kamera orqan musiqi zalı) Badamdar, 1-ci y/mas., Ev 12 | 25.11.09 |
| 100109 A2-68 | Sumqayıt şəh., "Molokan ruhani-xristian" d.i. | Sumqayıt şəh., 18-ci məhəllə, ev 10/23 | 08.12.09 |
| 100109 A2-91 | Bakı şəh., "Molokan ruhani-xristian" d.i. | Bakı şəh., A.Navai küç., ev 12/18 | 14.12.09 |
| 100109 A3- | Azərbaycan Respublikasının Alban-Udi Xristian d. i. | Qəbələ r-nu, Nic qəs., Alban aftokefal "Çotari" kilsəsi | 17.12.09 |
| 100110 A1-172 | Qobustan r-nu Hilmilli kəndi "Molokan ruhani-xristian" d.i. | Qobustan r-nu, Hilmilli kəndində yerləşən kilsə | 21.01.10 |
| 100110 A2-286 | Qax rayonu Qaxingiloy kəndi "Müqəddəs Giorgi" kilsəsi gürcü pravoslav xristian d.i. | Qax rayonu, Qaxingiloy kəndi, "Müqəddəs Giorgi" kilsəsi. | 15.04.10 |
| 100110 A2-314 | Qax rayonu Əlibəyli kəndi "Müqəddəs | Qax rayonu, Əlibəyli kəndi, "Müqəddəs Nino" kilsəsi. | 23.04.10 |

| | | | |
|---|---|---|---|
| | Nino" kilsəsi gürcü pravoslav xristian d.i. | | |
| 100110 A3-367 | Xilaskar Yevangelik Lüteranların Bakı d.i. | Bakı şəhəri, Səbail rayonu, Z.Tağıyev küçəsi, ev 7, mənzil 3 | 14.05.10 |
| 100110 A3-367 | Xilaskar Yevangelik Lüteranların Bakı d.i. | Bakı şəhəri, Səbail rayonu, Z.Tağıyev küçəsi, ev 7, mənzil 3 | 14.05.10 |
| 100111 A1-542-1 | Oğuz şəhəri Alban-Udi Xristian dini icması | Oğuz şəhəri, "Kiski Qerqes" ziyarətgahı | 01.07.11 |
| 100111 A1-544 | "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumu | Bakı şəhəri, Nərimanov rayonu, Məmməd Araz küçəsi, 69/b1 | 07.07.11 |
| 100112 A1-549 | "Həyat sözü" Xristian dini icması | Bakı şəhəri, Xətai r-nu, S.Vəzirov küçəsi, 6 | 23.05.12 |
| 100115 A - 609 | İsmayıllı rayonu İvanovka kəndi "Molokan-ruhani-xristian" dini icmasl | İsmayıllı rayonu, İvanovka kəndi, Noviy döngə 2a | 13.11.2015 |
| 100115 C - 610 | "Həyat Sözü - 2" Sumqayıt xristian dini icması | Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsi, ev14/9, mənzil 3 | 13.11.2015 |
| 100115 B - 611 | Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icması | Bakı şəhəri, Nərimanov rayonu, 1-ci Cıdır döngəsi, ev 13 | 13.11.2015 |

**Əlavə №6**

# KÜRMÜK MƏBƏDİ – AZƏRBAYCANIN TOLERANTLIQ RƏMZİ

Azərbaycanın Qax rayonunun Əmbərçay kəndinin ərazisində hündür təpələrin birində Kürmük adı ilə məşhurlaşan qədim alban məbədinin qalıqları var. Tarixçilərə görə, bu əski alban ibadətgahının tikilmə tarixi I-III əsrədək gedib çıxır. Çar Rusiyası İlisu sultanlığını işğal edəndən sonra həmin alban məbədinin qalıqları üzərində 1894-cü ildə rus pravoslav kilsəsi tikir. "Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyəti" tərəfindən inşa olunan həmin məbədə Müqəddəs Georginin adı verilir. Çar hökuməti ucaltdığı kilsəni Müqəddəs Georgi adlandırsa da, xalqın yaddaşından Kürmük məbədinin adını silə bilmir, çünki indiyədək həmin məkan yerli camaat arasında "Kürmük" kilsəsi kimi tanınır. Hazırda əski alban məbədinin qalıqları, eləcə də keçmiş rus kilsəsinin binası dövlət tərəfindən qorunur. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə təsdiq edilmiş siyahıya əsasən "Kürmük" məbədi tarix və mədəniyyət abidəsi kimi qeydiyyata götürülmüşdür. 2003-cü ildə "Kürmük" məbədi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən əsaslı təmir edilmişdir.

Kürmük məbədinin tarixi haqda bu qədər. Əslində bizi əsas maraqlandıran məbədin tikilmə tarixi və memarlıq quruluşu deyil, bu xristian məbədin daşıdığı rəmzi mənadır. Çünki həm qaxlı azərbaycanlılar, həm də bu rayonda məskunlaşan pravoslav gürcülər Kürmük məbədinin yerləşdiyi əraziyə müqəddəs yer kimi yanaşırlar. Belə ki, Kürmükoba bayramı vaxtı (hər il mayın 6–da və noyabr ayının 23-də keçirilir) minlərlə zəvvar Kürmük məbədinə qalxaraq, burada Uca Yaradana dualar edir, arzu və istəklərinin qəbul olması üçün şam yandırır, əski alban ibadətgahının qalıqları üzərində niyyət tutaraq qurban kəsirlər. Maraqlıdır ki, Kürmük məbədinə gələnlər arasında yerli azərbaycanlılar üstünlük təşkil edir. Onu da deyək ki, yerli azərbaycanlılar bu günü Kürmükoba bayramı kimi qeyd etdikləri halda, gürcülər və Gürcüstandan gələn ziyarətçilər həmin bayramı Müqəddəs

Georgi Günü adıyla keçirirlər.

Həqiqətən də hər ilin may və noyabr aylarında Kürmük məbədinin ərazisində maraqlı mənzərə müşahidə olunur. Burada azərabaycanlılar dua edərkən İslam ənənəsinə uyğun olaraq əllərini göyə qaldırır, onlarla yanaşı duran gürcülər isə xristian adətinə görə xaç vururlar.



Kürmük məbədində baş verən bu dini fenomen unikal və bənzəri az tapılan hadisədir. Axı müsəlman və xristianların yanaşı ibadət etdiklərini çox nadir hallarda görmək mümkündür. Belə maraqlı olay isə hər il Qax rayonunda baş verir. Bu maraqlı dini hadisə onu bariz şəkildə göstərir ki, Azərbaycan cəmiyyətinə dini fanatizm yaddır. Xalqımız başqa dinlərə tolerant münasibət göstərir. Qısaca desək, Kürmük məbədi Azərbaycanda tarixən mövcud olan tolerant ənənə və multikultural şəraitin rəmzidir.



*Kürmükoba bayramı*



*Kürmükoba bayramı*

# ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Azərbaycan tarixi: ən qədim zamanlardan XX əsrədək. Ali məktəblər üçün dərslik/ Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994.
2. Azərbaycan tarixi: III-XIII əsrin I rübü / Məsul redaktor: Nailə Vəlixanlı. - Bakı: Elm, 2007. - Yeddi cilddə. II cild.
3. Azərbaycanda ənənəvi din. - Bakı: Elm və təhsil, 2014.
4. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. – B.: Azərnəşr, 1991.
5. Əlizadə A. Xristianlıq: tarix və fəlsəfə (ilk çağlar). Bakı: "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı, 2007.
6. II İoann Pavel Azərbaycanda. Katolik Kilsəsinin Apostol Prefekturası. – Bakı: «Oskar», 2012.
7. İsmayılov G. Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz. – Bakı: Nurlar, 2014.
8. Məhəmməd Əsəd Bəy. Şərqdə neft və qan. Tarixi-publisistik roman. – Bakı, "Nurlan" nəşriyyatı, 2005.
9. Moisey Kalankatuklu. Albaniya tarixi/Mxitar Qoş. Alban Salnaməsi. – Bakı: "Avrasiya press", 2006.
10. Musayev (Qılman) İlkin. Bakı və bakılılar. – Bakı: Bakı Kitab Klubu, 2015.
11. Müqəddsə Kitab: Əhdi-Ətiq və Əhdi-Cədid. – Bakı: Müqəddəs Kitab Şirkəti, 2012.
12. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. – Bakı: Azərnəşr, 1987.

## Rus dilində

1. Азербайджан и азербайджанцы в мире: Культурологический журнал. Религии Азербайджана, №1, июнь 2007 г.
2. Акты, собранные Кавказской Археографической комиссией: [В 12-ти т.] / Арх. гл. упр. наместника Кавк.; Под общ. ред. А. Д. Берже. - Тифлис : Тип. гл. упр. Наместника Кавк., 1866-1904. Т. 9: [1837-1844] / Под ред. А. Д. Берже. - 1884.
3. Акты, собранные Кавказской Археографической комиссией : [В 12-ти т.] / Арх. гл. упр. наместника Кавк.; Под общ. ред. А. Д. Берже. - Тифлис : Тип. гл. упр. Наместника Кавк., 1866-1904. Т.12: [1856-1862]/ Арх. Канц. Главноначальствующего; Под ред. Е.Д. Фелицына и А.П. Наумова. - Тифлис : Тип. канц. главнонач. гражд. частью на Кавказе, 1904.
4. «Баптист», № 4, Октябрь, 1907 г.
5. «Баптист», № 5, Ноябрь, 1907 г.
6. «Баптист», Одесса: 23 февраля 1911 г., №9.
7. «Баптист», Одесса: 27 июля 1911 г., №31.
8. Беженцева А. Страна Духобория. – Тбилиси: «Русский клуб», 2007.
9. Белов А.В. Секты, сектантство, сектанты. – М.: Наука, 1978.
10. Вердиева Х. Немцы в Северном Азербайджане. – Баку: Элм, 2009.
11. Всеобщая история религий мира: иллюстрированная энциклопедия/Яковлева Л., Дубровский И., Овсянникова А. и т.д./ Москва: Эксмо, 2008
12. Георгий Заплетин Г., Ширин-заде Г. Русские в истории Азербайджана. – Баку: Ганун, 2008.
13. Гумбатова Т. Баку и немцы. – Баку: Чашыоглу, 2008.
14. Дингельштедт Н. Закавказские сектанты в их семейном и религиозном быту. – Санкт- Петербург: Типография М.М.Стасюлевича, 1885.

15. Елена Уайт. Служение исцеления. – Заокский: «Источник жизни», 2013.
16. Есаи Хасан-Джалал. Краткая история страны Албанской (1702-1722 гг.). – Баку: Элм, 1989.
17. Животная книга духоборцев/Записал и собрал Владимир Бонч-Бруевич. – С-Петербург: 1909.
18. Зейналова С. М. Немецкие колонии в Азербайджане (1814-1941). – Баку: «Араз», 2002.
19. Зейналова С. Евангелическо-лютеранская община в Азербайджане: ретроспективный анализ// журнал «Кавказ и Глобализация». – SWEDEN: Central Asia & Central Caucasus Press AB, 2007. Том 1 (5).
20. Зейналова С.М. Формирование европейских этнических общин на Кавказе (XIX-первая половина XX вв.). – Баку: Мутарджим, 2010.
21. Игнатенко Е. Протестанты – кто они? История протестантских церквей г. Комсомольска-на-Амуре. - Комсомольск-на-Амуре, 2012.
22. История евангельских христиан-баптистов в СССР. Москва: издание Всесоюзного совета Евангельских христиан-баптистов, 1989.
23. Кавказский календарь на 1850 год/ Изданный от канцелярии наместника Кавказскаго. – Тифлис: в типографии канцелярии наместника Кавказскаго, 1849.
24. Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. — М.: Издательство Московского университета, 2010.
25. Католическая энциклопедия. – Москва: Издательство Францисканцев, 2002. - т.1 (А-З).
26. Клибанов А.И. История религиозного сектанства в России (60-е годы XIX в.-1917 г.). - Москва: Издательство «Наука», 1965.
27. Клибанов А.И. Религиозное сектантство в прошлом и

настоящем. – М.: Издательство «Наука», 1973.

28. Кузнецов О. Кальвинисты на Кавказе: история религиозной экспансии европейских протестантских миссионеров в отношении народов северного и южного Кавказа//Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2016, №1.
29. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э.- VIII в н.э.). – Баку: Элм, 1986.
30. Материалы к истории и изучению русского сектантства. Вып.2. "Разъяснение жизни христиан" и «Был у нас, христиан, сиротский дом...» (две духоборческие рукописи) /Ред. Владимир Бонч-Бруевич. – Hants: "Свободное Слово», 1901.
31. Материалы к истории и изучению русского сектантства. Преследование баптистов евангелической секты/ под редакцией Владимира Бонч-Бруевича. Выпуск 6-ой, Крайстчёрчь (Англия, Хантс): Издание «Свободного Слова», № 69, 1902 г.
32. Материалы к истории и изучению русского сектантства и раскола /Materiaux pour servir a l`histoire des sectes russes/ (в 5 вып.) Вып. 1. Баптисты. Бегуны. Духоборцы. Л. Толстой о скопчестве. Павловцы. Поморцы. Старообрядцы. Скопцы. Штундисты / под ред. Бонч-Бруевича В. – С.-Петербург: Тип. Б. М. Вольфа, 1908.
33. Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. /половина XV – начало XVII века. – Баку: Издательство Бакинского университета, 1991.
34. Митрохин Л.Н. «Баптизм», Москва: Издательство политической литературы, 1974 г.
35. Митрохин Л.Н. Баптизм: история и современность (философско-социологические очерки). - Санкт-Петербург: Издательство Русского Христианского гуманитарного института, 1997.
36. Молитвенный дом Русских Баптистов в Баку//Баптист: Духовно-нравственный журнал/Орган русских баптистов. - Ростов-на-Дону: Тип.Т-ва Павлова и Славгородского. Март, 1912. №6.

37. Мэри Пат Фишер. Живые религии/ Фишер М.П., Трифонова Т.И., Медведева Р.К. и т.д./Москва: «Республика», 1997.

38. Наша семья (журнал Новоапостольской Церкви). Франкфурт-на-Майне: Издательство «Фридрих Бишоф ГмбХ» июль, 1999 год. 9-ый год издания. № 7.

39. Наша семья (журнал Новоапостольской Церкви). Франкфурт-на-Майне: Издательство «Фридрих Бишоф ГмбХ» июль, 2007 год. 17-ый год издания. № 7

40. Официальные заявления, рекомендации и другие документы Церкви Адвентистов Седьмого Дня. - Заокский: «Источник жизни», 2010.

41. Паша-заде Э.М. Мечети и церкви старого Баку /Э. М. Паша-Заде; рец.: М. Ф. Джалилов, Р. Р. Абдуллаев. - Баку: Элм, 1997.

42. Православный вестник: журнал Бакинско-Прикаспийской епархии, №4-5. – Издательский отдел Бакинско-Прикаспийской Епархии.

43. Протестантизм: история, направления и казахстанские реалии (информационный справочник). – Астана: «Научно-исследовательский и аналитический центр по вопросам религии» Агенства Республики Казахстан по делам религий, 2012.

44. Путешествие Шардена по Закавказью в 1672-1673 гг./Перевод Е. В. Бахутовой и Д. П. Косовича//Из журнала «Кавказский Вестник» за 1900 и 1901 гг. - Тифлис: Скоропечатная М. Мартиросянца, 1902.

45. Сесил М.Робек. Азуза-стрит: миссия и пробуждение. – Александрия: ЕЗДРА, 2011.

46. Современная религиозная жизнь России: Опыт систематического описания. Том I. – Москва: Логос, 2004.

47. Современная религиозная жизнь России. Опыт систематического описания. Том II. – Москва: Логос, 2003.

48. Словарь атеиста/ Под общ. ред. Н.С.Гордиенко. – М.: Политиздат, 1988.

49. Смолин И. Краткие исторические сведения о русских сектах и их вероучении. – Санкт-Петербург: Типография Т-ва «Свет», 1911.
50. Тальберг Н. История христианской церкви: из цикла «Религия в жизни общества». - Москва: «Интербук», 1991.
51. Тихомирова Г. Христианство и культура. – Рига, 2011.
52. Франчук В.И. Пробуждение: от центра Одессы до окраин России. – Одесса: «СИМЭКС-ПРИНТ», 2011.
53. Церковь должна оставаться Церковью. Необратимые десятилетия (1917-1937 годы в истории евангельского и баптисткого движений)// Документальный материал об истории церкви ЕХБ в России. Составлен Историко-аналитическим отделом МСЦ ЕХБ. 2008 г.
54. Чернова-Дёке Т.Н. Немецкие поселения на периферии Российской империи. Кавказ: взгляд сквозь столетие (1818-1917) (К 190-летию основания немецких колоний).
55. Юницкий А. История церквей и приходов Бакинской губернии: 1815-1905 гг. – Баку: Изд. Бакинского Братства законоучителей, 1906.
56. Юницкий А. Гнёзда сектанства на Кавказе (опубликовано: Христианское чтение. 1895. №1-2. с. 142-164.). - СПбПДА: Санкт-Петербург, 2009.
57. Янг Дж. Христианство. - М.: ФАИР-ПРЕСС, 2001.

## Başqa dillərdə

1. Johannes Preiser-Kapeller. Civitas Thauris: The significance of Tabriz in the spatial frameworks of Christian merchants and ecclesiastics in the 13 th and 14th century// Politics, Patronage and the Transmission of Knowledge in 13th – 15th Century Tabriz/ Edited by Judith Pfeiffer. - Leiden-Boston: "Brill", 2014.
2. Laurence Lockhart. European contacts with Persia, 1350-1736// The Cambridge history of Iran: The Timurid and Safavid periods/edited by Peter Jackson and Laurence Lockhart. - Cambridge University Press, 1986. - Volume 6.
3. Mammadov E. L'annuncio cristiano nel contesto islamico. Esperienza con i giovani nella missione sui iuris di Baku in Azerbaigian: Tesina di Magistero in Scienze Religiose (Catechesi Missionaria) / Mammadov E.; Moderatore: Prof. Scognamiglio Edoardo., Correlatore: Prof. Meddi Luciano; Istituto di Catechesi e Spiritualità Missionaria – Sezione di Catechesi. – Roma: 2009.
4. Marcus Braybrooke. Beacons of the light: one hundred people who have shaped the spiritual history of humankind. – Hants: John Hunt Publishing Ltd., 2009.

**ANAR ƏLİZADƏ**

# AZƏRBAYCANDA XRİSTİANLIQ

## KEÇMİŞDƏN BU GÜNƏ

**Azərbaycanda fəaliyyət göstərən**

**qeyri-islami dinlər və təriqətlər**

Yığılmağa verilmişdir. 12.05.2016. Çapa imzalanmışdır. 04.08.2016.
Ölçü: 60x90 1/16. Tiraj: 1000.

---

***Kitab "Şans Mətbəə LTD" MMC-nin sifarişi ilə "Elm və Təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.***

E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4

## *Azərbaycanda fəaliyyət göstərən qeyri-islam dinlər və təriqətlər*

*Azərbaycanda hansı xristian konfessiya və təşkilatları mövcuddur? Pravoslavlarla katoliklərin fərqi nədir? "Yehovanın Şahidləri"kimdir? İlk baptist və adventist missionerlər ölkəmizə nə vaxt gəliblər? Respublikamızda əllincilərin sayı nə qədərdir? Bakıda hansı pravoslav məbədləri mövcud olub?*

*Əlinizdə tutduğunuz kitabın məqsədi bu qəbildən suallara cavab vermək, oxucuları Xristianlığın Azərbaycandakı maraqlı tarixi, məsihçilərin ölkəmizdəki rəngarəng həyatları ilə tanış etmək, müxtəlif xristian cərəyan və istiqamətləri barədə məlumat verməkdir.*